**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

**Məsul redaktor: ƏLİYEV E.Ə.,**
**Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü,**
**hüquq üzrə elmlər doktoru, professor**

# İQTİSADİ HÜQUQ

**DƏRSLİK**

**Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin 18.01.2010-cu il tarixli 40 nömrəli əmri ilə qrif verilmiş və bakalavr təhsil pilləsi üzrə təkmilləşdirilmiş tədris proqramı əsasında işlənilərək hazırlanmışdır.**

**BAKI - 2019**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin və Bakı Biznes Universitetinin təklif və tövsiyələri əsasında işlənilmiş, təkmilləşdirilmiş və çap olunmuşdur.

*Elmi redaktor:*

**Abbasov İ.M.,** Bakı Biznes Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor.

*Rəyçilər:*

**Abdullayev M.K.,** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının humanitar və sosial məsələlər üzrə prorektoru, hüquq üzrə elmlər doktoru, professor əvəzi;

**Vəliyev İ.V.,** Azərbaycan Respublikasının Prezidenti yanında «Bilik» Fondunun aparat rəhbəri, hüquq üzrə elmlər doktoru, professor;

**Abbasova M.N.,** Bakı Biznes Universitetinin elmi işlər üzrə prorektoru, hüquq elmləri üzrə fəlsəfə doktoru;

**İsayev S.Z.,** Azərbaycan Dövlət İqtisad Universiteti «İqtisadiyyatın tənzimlənməsi» Kafedrasının dosenti, iqtisad elmləri üzrə fəlsəfə doktoru.

**E-1957**

**Əliyev Etibar Əli oğlu, Hüseynova Fatimə Etibar qızı, Qəmbərov Heydər Dəmir oğlu.** İqtisadi hüquq. Dərslik / Məsul redaktor - E.Ə.Əliyev. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 səh.

Dərslikdə iqtisadi hüquq müstəqil hüquq sahəsi kimi fərqləndirilir, onun yarımsahələrinə və müxtəlif institutlarına doktrinal anlayış verilir, ayrı-ayrı iqtisadi münasibətlər üzrə milli hüquqi tənzimlənmənin xüsusiyyətləri şərh edilir.

Azərbaycan Respublikasında müasir iqtisadi münasibətlər sferasında ən yeni normativ hüquqi aktlar və çoxsaylı elmi mənbələr əsasında hazırlanmış bu dərslik milli hüquq elmində, xüsusən də onun iqtisadi hüquq sahəsində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, iqtisadi hüquq elmi sahəsində çalışan mütəxəssislər və praktik işçilər faydalana bilər.

**ISBN**

**© E.Ə.Əliyev, 2019**

## ÖN SÖZ

Müasir dövrdə dünya təsərrüfat sisteminin tərkib hissəsi olan müstəqil və suveren Azərbaycan Respublikasında iqtisadiyyatın günbəgün inkişaf etməsi tendensiyası müşahidə edilir. İqtisadiyyatı dinamik şəkildə inkişaf edən Azərbaycan Respublikası, həmçinin digər istənilən dövlət öz qarşısında duran məqsədlərə nail olmaq, üzərinə düşən vəzifələri lazımınca yerinə yetirmək və malik olduğu funksiyaları həyata keçirmək əzmindədir. Heç də sirr deyil ki, iqtisadiyyatı inkişaf etmiş dövlət həm siyasi, həm mədəni, həm ekoloji, həm də digər sosial əhəmiyyətli məsələləri həll etmək qabiliyyətinə malikdir. Yaddan çıxarmamalıyıq ki, milli münasibətlər sisteminin mühüm komponenti olan iqtisadiyyat bu və ya digər ölkənin təsərrüfat həyatı üçün prioritet əhəmiyyət kəsb edən aparıcı sahələrdən biridir və dövlətin intensiv inkişaf infrastrukturunda vacib yer tutur.

Öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında bir sıra qlobal iqtisadi layihələr gerçəkləşdirilərək təsərrüfat əlaqələrinə inteqrasiya prosesləri baş verdi. Ulu öndərin elmi əsaslara söykənən siyasi-iqtisadi kursunu dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirərək uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsində, danılmaz həqiqətdir ki, inkişaf dinamikasına görə dünya dövlətləri arasında liderlər sırasında yer alan və bu sahədə mövqeyini daim möhkəmləndirməkdə olan Azərbaycan regionda həyata keçirilən transmilli layihələrin əsas təkanvericisi hesab olunur.

Müasirlərimiz yeni əsrin əvvəllərini dünya təsərrüfat konyukturasının və milli iqtisadiyyatların qloballaşması fenomeninin başlanğıc dövrü kimi müəyyən edirlər. Bu fenomen isə son dərəcə mürəkkəb proses olub, iqtisadi amillərin – istehsalın, kapitalların, informasiyanın, texnologiyanın, əmtəə bazarlarının, əməyin və digər amillərin sıx surətdə bir-birinə qovuşması və

birləşməsi ilə səciyyələnir. Təsadüfi deyil ki, XXI əsr iqtisadi ədəbiyyat səhifələrində müasirlərimiz tərəfindən dünya iqtisadiyyatının qloballaşma dövrü kimi xarakterizə edilir.

Göstərilən amilləri və ictimai münasibətlərin pozitiv inkişaf meyillərini nəzərə alaraq, bu kontekstdə iqtisadi hüquq elm sahəsinin müasir meyar və standartlar çərçivəsində tətqiq olunmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikasında hüquq elminin fəal tədqiqatçılarından biri, oxucu auditoriyası tərəfindən həmişə maraqla qarşılanan, çoxsaylı elmi yazıların müəllifi olan Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, hüquq üzrə elmlər doktoru, professor E.Ə.Əliyevin məsul redaktorluğu ilə kollektiv müəlliflər tərəfindən hazırlanmış və hüquq ictimaiyyətinə təqdim edilən bu əsər məhz iqtisadi hüquqa həsr edilmişdir.

Yaşadığımız cəmiyyətdə və fəaliyyət göstərdiyimiz ictimai həyatda iqtisadiyyatla bağlı müxtəlif münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir. Bu kimi hüquq normalarının məcmu halında birləşməsi iqtisadi hüquq adlanır ki, o, Azərbaycan Respublikasının hüquq sisteminə daxil olan müstəqil hüquq sahələrindən biridir. Azərbaycan Respublikasının milli hüquq sistemində müstəqil yer tutan iqtisadi hüquq iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində təsərrüfat subyektləri arasında yaranan iqtisadi münasibətləri nizamlayır və qaydaya salır ki, bu, özlüyündə həmin hüquq sahəsinin ölkənin iqtisadi-təsərrüfat həyatı üçün nə qədər vacib əhəmiyyətli hüquqi qurum olmasından xəbər verir. İqtisadiyyat sahəsində yaranan ictimai münasibətlərin geniş spektrini tənzimləyən iqtisadi hüquqla, hər şeydən əvvəl, bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi olan sahibkarlığın hüquqi tənzimlənməsi həyata keçirilir. Sahibkarlıqdan başqa, iqtisadi hüquq kimi müstəqil hüquq sahəsinin nizamasalma predmetinə bank, sığorta, ticarət, kommersiya, maliyyə, valyuta, vergi, gömrük, nəqliyyat, turizm, əqli mülkiyyət və digər fəaliyyət növlərinin həyata keçirilməsi ilə bağlı yaranan iqtisadi xarakterli ictimai münasibətlər daxil-

dir. Məhz bu səbəbdən oxucu auditoriyası müstəqil hüquq sahəsi kimi iqtisadi hüquq barədə zəruri biliklərə yiyələnməli, onun ibarət olduğu ayrı-ayrı hüquq normaları haqqında elmi təsəvvürlərə malik olmalıdır. Zəruri biliklərə yiyələnmək və elmi təsəvvürlərə malik olmaq isə yalnız iqtisadi hüquq elminin vasitəsi və köməyi ilə mümkün ola bilər ki, sözügedən əsər həmin məqsədə xidmət edir. Belə bir dərsliyin yazılması və nəşr edilməsi, hesab edirik ki, müasir dövrdə beynəlxalq təsərrüfat əlaqələrinə Azərbaycan Respublikasının inteqrasiyası şəraitində olduqca aktualdır.

Oxucu-tələbə auditoriyasına təqdim olunan iqtisadi hüquqa dair bu əsər oxucuları həm də iqtisadi hüquq elmi (iqtisadi hüquq doktrinası) haqqında lazımi biliklərlə təmin edir. İqtisadi hüquq elmi iqtisadi-hüquqi hadisə və məsələlər (iqtisadi-hüquq normaları, iqtisadi-hüquq münasibətləri, iqtisadi fəaliyyət subyektləri və s.) barədə elmi fikir, nəzəriyyə, postulat, konsepsiya və ideyaların sistemidir ki, onsuz iqtisadi hüquqa aid anlayışların mahiyyətini dərindən və hərtərəfli başa düşmək qeyri-mümkündür.

Azərbaycan Respublikasında ilk dəfə olaraq, geniş formatda və müvafiq tədris proqramına uyğun yazılmış sözügedən dərslik iki hissədən ibarətdir ki, həmin hissələrdən biri ümumi, digəri isə xüsusi hissəni ehtiva edir. Ümumi hissə iqtisadi hüququn ümumi xarakterli məsələlərinə aid hüquq normalarına həsr olunmuşdur ki, həmin hissə özündə aşağıdakıları təsbit edir: iqtisadi hüququn sahəvi prinsipləri, iqtisadi hüququn subyektləri, iqtisadiyyatın dövlət tənzimlənməsi, iqtisadi fəaliyyətin həyata keçirilməsi forması, iqtisadi hüquqda məsuliyyət, iqtisadi mübahisələrin həlli və ümumi xarakterli digər məsələlər. Burada hüquq sahəsi kimi iqtisadi hüququn ümumi hissəsinin institutları işıqlandırılır və onların mahiyyətinə aydınlıq gətirilir.

Dərsliyin xüsusi hissəsi isə hüquq sahəsi kimi iqtisadi hüququn ayrı-ayrı yarımsahələri ilə tanışlıq yaradır. Bu hissə oxucuları iqtisadi hüququn tərkibində yarımsahə kimi formalaşmış

maliyyə, valyuta, sahibkarlıq, bank, xarici iqtisadi fəaliyyət, investisiya, ticarət, sığorta, kommersiya, vergi, gömrük, nəqliyyat, turizm və s. hüquqa dair elmi biliklərlə təmin edir ki, bu biliklərə yiyələnməklə onlar iqtisadi hüququn yarımsahələri ilə yaxından tanış ola bilərlər.

Dərsliyi fərqləndirən cəhətlərdən biri də ondan ibarətdir ki, o, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin və Bakı Biznes Universitetinin təklif və tövsiyələri nəzərə alınmaqla hazırlanmışdır. Təqdirəlayiq haldır ki, dərsliyin struktur tərkibinə daxil olan hər bir fəsil üzrə ayrıca əyani sxemlər tərtib olunmuşdur və bu, xüsusilə maraqlı cəhətdir. Zənnimizcə, iqtisadi inteqrasiya prosesləri fonunda əhalinin hüquqi maariflənməsi baxımından, dərslik mühüm əhəmiyyətə malikdir.

Müasir iqtisadi münasibətlər sahəsində ən yeni normativ hüquqi sənədlər və çoxsaylı elmi mənbələr əsasında ilk dəfə yazılmış bu dərslik Azərbaycan milli hüquq sistemində və onun iqtisadi hüquq sahəsində mövcud olan boşluqların doldurulmasına, habelə hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, iqtisadi hüquq elmi sahəsində çalışan mütəxəssislər və praktik işçilər faydalana bilər.

**O.F.ƏFƏNDİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti «İqtisadiyyatın tənzimlənməsi» Kafedrasının professoru, hüquq üzrə elmlər doktoru**

# *ÜMUMİ HİSSƏ.*
# İQTİSADİ HÜQUQ HAQQINDA ÜMUMİ MÜDDƏALAR

## *I FƏSİL.*
## İQTİSADİ HÜQUQ – MÜSTƏQİL HÜQUQ SAHƏSİ KİMİ

### 1.1. İqtisadi hüququn məzmunu və mahiyyəti
### 1.1.1. İqtisadi hüquq anlayışı

İstənilən dövlətin mövcud olması və fəaliyyət göstərməsi üçün iqtisadiyyat prioritet əhəmiyyətə malik olan sahələrdən biridir. İqtisadiyyatı olmayan hər hansı ölkənin nə varlığından, nə dövlətin öz üzərinə düşən vəzifələri lazımınca yerinə yetirməsindən, nə də insan cəmiyyətinin normal yaşamasından söhbət gedə bilər. Yaşadığımız həyatda belə bir fikir geniş yayılmışdır ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir (H.Əliyev). İqtisadiyyatı güclü olan dövlətdə həm ayrı-ayrı şəxslərin, həm də bütövlükdə cəmiyyətin tələbatı təmin edilir ki, bu, həyati əhəmiyyətə malik olan nemətləri yaratmaq və onlardan istifadə etmək yolu ilə mümkün olur. Təsadüfi deyil ki, iqtisadi nəzəriyyə elminə görə, **iqtisadiyyat** dedikdə elə bir təsərrüfat sistemi başa düşülür ki, həyati əhəmiyyətə malik olan nemətləri yaratmaq və onlardan istifadə etmək yolu ilə bu sistem ayrı-ayrı şəxslərin və bütövlükdə cəmiyyətin tələbatını təmin edir.[1]

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И. Видяпина, А.И.Добрынина и др. М., 2002, с.15.

Cəmiyyətdə bütün vacib məsələlərin həlli dövlət iqtisadiyyatının mövcud səviyyəsindən daha çox asılıdır. Misal üçün, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə əhalinin maddi həyat səviyyəsi yüksək olur, qiymətlərin sabitliyi və əhalinin məşğulluğu təmin edilir, inflyasiyaya yol verilmir, iqtisadi yüksəlişə nail olunur, devalvasiyanın qarşısı alınır və digər məsələlər həll edilir.

Yaşadığımız həyatın mühüm sahələrindən biri olan iqtisadiyyatda, təbii ki, müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Hüquq ədəbiyyatı səhifələrində belə münasibətlər iqtisadiyyat sahəsində yaranan münasibətlər – **iqtisadi münasibətlər** adlanır. Həmin münasibətlər hüquqi tənzimetmənin obyektidir. Belə ki, iqtisadiyyat sahəsində hüquqi tənzimetmə həyata keçirilərsə, onda belə hüquqi tənzimetmənin obyekti qismində iqtisadiyyat sahəsində yaranan münasibətlər çıxış edir.[1] İqtisadiyyat sahəsində münasibətlərin hüquqi tənzimlənməsi isə müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Məhz belə normaların sistemi iqtisadi hüquq adlanır.

**İqtisadi hüquq** dedikdə iqtisadiyyat sahəsində yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. İqtisadiyyat sahəsində münasibətlər isə genişmiqyaslı olub, özündə müxtəlif növ münasibət-ləri birləşdirir. Məsələn, ticarət, bank, sığorta, gömrük, vergi və digər sahələrdə yaranan münasibətlər iqtisadiyyat sahəsində münasibətlərə nümunə kimi çəkilə bilər. Göründüyü kimi, bu münasibətlər iqtisadiyyatla bağlı olaraq yaranır.

İqtisadiyyat isə Qərb və digər xarici ölkələrdə «ekonomika» termini ilə əhatə olunur. Məsələn, Türkiyə, Fransa, Rusiya və digər ölkələrdə iqtisadiyyat anlayışını ifadə etmək üçün «ekonomika» terminindən istifadə edilir (Fransada – «economique», Rusiyada – «экономика», Türkiyədə – «ekonomi» və s. terminlər işlədilir). Bu terminin mənşəyi isə çox qədim dövrlərə

---

[1] İqtisadiyyatın hüquqi tənzimlənməsi barədə bax: Пугинский Б.И., Сафиуллин Д.Н. Правовая экономика: проблемы становления. М., 1991, с. 8.

təsadüf edir. Belə ki, «ekonomika» terminini, necə deyərlər, bizim e.ə. VI əsrdə Qədim yunan şairi Qospod «kəşf» etmişdir ki, o, həmin terminin iki sözdən ibarət olmasını göstərirdi. Bu sözlərdən biri «oikos» (ev, təsərrüfat), digəri isə «nomos» (bilmək, qanun) adlanırdı ki, hərfən bu termin ev təsərrüfatını aparmaq sənəti və bu işi görmək qaydalarının məcmusu kimi başa düşülürdü. «Ekonomika» termininin elmi dövriyyəyə gətirilməsi də Qədim yunan mütəfəkkirlərinin adı ilə bağlıdır; onlar Qədim yunan iqtisadi fikrinin görkəmli və tanınmış nümayəndələri hesab edilirdilər. Söhbət Ksenofdan (430–354-cü illər, b.e.ə.) və Aristoteldən (384-322-ci illər, b.e.ə.) gedir. Aristotel «ekonomika» (məhsul istehsalı ilə bağlı təbii təsərrüfat fəaliyyəti) anlayışını «xrematistika» (sərvət əldə etmək və pul qazanmaq sənəti) anlayışından ayırırdı.[1]

Müasir dövrdə «ekonomika» termininin məzmunu tamamilə dəyişmişdir. Belə ki, indiki şəraitdə «ekonomika» termini müxtəlif mənalarda işlədilir. Birinci mənada «ekonomika» dedikdə hər hansı ölkənin xalq təsərrüfatı və ya xalq təsərrüfatının bir hissəsi (bu hissə özündə ayrı-ayrı sahələri birləşdirir – məsələn, sənaye iqtisadiyyatı, kənd təsərrüfatı iqtisadiyyatı və s.) başa düşülür.

İkinci mənada «ekonomika» dedikdə tarixən insanlar arasında yaranan iqtisadi münasibətlərin məcmusu anlaşılır. Bu münasibətlərin yaranması isə təsərrüfat fəaliyyətinin həyata keçirilməsi prosesi ilə bağlıdır. Məsələn, sosialist iqtisadiyyatı, kapitalist iqtisadiyyatı, quldarlıq iqtisadiyyatı və s.

Üçüncü mənada «ekonomika» termini ilə elmi fənn anlayışı əhatə olunur. Belə fənn iqtisadi fəaliyyəti, iqtisadi fəaliyyət qanunlarını və iqtisadi qanunauyğunluqları öyrənməklə məşğul olur (məsələn, nəzəri iqtisadiyyat, siyasi iqtisadiyyat və s.).

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 15.

### 1.1.2. İqtisadi hüququn nizamasalma predmeti

İqtisadi hüquqla, təbii ki, müəyyən növ ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Məhz həmin münasibətlər iqtisadi hüququn **nizamasalma predmeti** hesab edilir. Nəzərə almalıyıq ki, hüquq nəzəriyyəsinə görə, bu və ya digər hüquqi qurumun (hüquq sahəsi, yarımsahə, hüquq institutu və s.) tənzimlədiyi ictimai münasibətlər onun nizamasalma predmetini təşkil edir. Odur ki, hər şeydən əvvəl, hüquqi qurum olan iqtisadi hüquqla hansı növ ictimai münasibətlərin tənzimlənməsi müəyyən olunmalıdır. Bundan ötrü, ilk növbədə, iqtisadi fəaliyyətin məzmun və mahiyyətinə aydınlıq gətirilməlidir. Məsələ burasındadır ki, iqtisadi hüquqla tənzimlənən ictimai münasibətlər iqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı yaranır. Əgər şəxs fəaliyyəti iqtisadi sahədə və iqtisadi məsələlərlə bağlı olaraq həyata keçirərsə, belə fəaliyyət iqtisadi fəaliyyət adlanır. **Fəaliyyət** dedikdə isə bizi əhatə edən maddi aləmin insanın maraq və mənafeləri üçün məqsədyönlü şəkildə dəyişdirilməsi başa düşülür.[1]

Bildiyimiz kimi, həyat fəaliyyəti olmadan insan fərdi nə mövcud ola, nə də yaşaya bilər. Unutmaq olmaz ki, həyat fəaliyyəti yaşayışın əsası və insan cəmiyyəti proqresinin mənbəyi sayılır. İnsan fərdinin həyat fəaliyyəti isə müxtəlif formalarda (növlərdə) həyata keçirilir. Bu formalardan (növlərdən) biri iqtisadi fəaliyyətdir. İqtisadi fəaliyyət isə iki əsas əlamətlə xarakterizə olunur. Birinci əlamət bundan ibarətdir ki, iqtisadi fəaliyyət insan fərdinin ictimai istehsalda iştirak etmək formasıdır. Belə ki, insan fərdi ictimai istehsalda müxtəlif formalarda iştirak edir; bu formalardan biri iqtisadi fəaliyyətdir. Digər tərəfdən, insan fərdinin və onun ailə üzvlərinin həyat fəaliyyəti maddi cəhətdən təmin olunmalıdır. Bunun üçün isə, təbii ki, kifayət qədər maliyyə vəsaitinin olması tələb edilir. Bax, iqtisadi fəaliyyət məhz belə vəsaiti əldə etmək üsuludur. Bir söz-

---

[1] Большой энциклопедический словарь. М. – СПб., 1997, с. 348.

lə, iqtisadi fəaliyyət insan fərdinin və onun ailə üzvlərinin həyat fəaliyyətini təmin etmək üçün lazım olan maliyyə vəsaiti əldə etmək üsuludur. Bu, iqtisadi fəaliyyəti xarakterizə edən ikinci əsas əlamətdir. Həmin iki əsas əlamət iqtisadi fəaliyyətə anlayış verilməsi üçün kifayət edər:

**iqtisadi fəaliyyət** dedikdə insan fərdinin ictimai istehsalda elə bir iştirak forması başa düşülür ki, bu forma insan fərdinin və onun ailə üzvlərinin həyat fəaliyyətini təmin etmək üçün lazım olan maliyyə vəsaiti əldə edilməsi üsuludur. Belə fəaliyyət sayəsində insan fərdi üçün lazım olan sərvət yaradılır və bölüşdürülür. Nəzərdən qaçırmaq olmaz ki, iqtisadi fəaliyyət həm sərvət yaradılması, həm də onun bölüşdürülməsidir. Sərvət dedikdə isə həm maddi, həm də qeyri-maddi nemətlər başa düşülür. Odur ki, iqtisadi fəaliyyət nemətlərin (maddi və qeyri-maddi nemətlərin) yaradılması və bölüşdürülməsidir.

İqtisadi fəaliyyət təsərrüfat fəaliyyətidir. Hətta çox vaxt «iqtisadi fəaliyyət» və «təsərrüfat fəaliyyəti» kimi iki anlayış eyniləşdirilərək bir bərabərdə tutulur. Başqa sözlə, «iqtisadi fəaliyyət» və «təsərrüfat fəaliyyəti», əsasən, sinonim (eynimənalı) anlayışlar kimi işlədilir. Belə ki, onlar məzmunca üst-üstə düşən anlayışlardır. Lakin məzmunca üst-üstə düşsələr də, bəzən həmin anlayışlar arasında hədd qoyulur və onlar bir-birindən fərqləndirilir. İqtisadi fəaliyyətdən fərqli olaraq təsərrüfat fəaliyyətinə iki əlamət xasdır ki, bunlardan biri rasionallıq, digəri isə effektivlikdir, yəni minimal xərc çəkməklə maksimum fayda götürməkdir.[1]

**Təsərrüfat fəaliyyəti** dedikdə təsərrüfatçılıq prosesində müəyyən məqsəd üçün həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, ölçülüb-biçilmiş hesaba əsaslanan bu fəaliyyət şəxslərin müxtəlif cür ehtiyac və tələbatlarının təmin edilməsinə yönəlmişdir. Bu növ fəaliyyətin, yəni təsərrüfat fəaliyyətinin həyata keçirilməsi mürəkkəb bir proses deməkdir ki, həmin pro-

---

[1] Артур Рих. Хозяйственная этика. М., Посев, 1996, с.274.

ses dörd mərhələdən ibarətdir[1]: 1) istehsal; 2) bölgü; 3) mübadilə; 4) istehlak.

**İstehsal** dedikdə maddi və qeyri-maddi nemətlərin yaradılması prosesi başa düşülür ki, həmin nemətlər şəxslərin mövcud olması və yaşaması üçündür. Başqa sözlə, təbiət predmet və qüvvələrinə təsir göstərilir ki, məqsəd onları şəxslərin bu və ya digər tələbatının ödənilməsi üçün uyğunlaşdırmaqdır. Belə təsirgöstərmə prosesi məhz istehsal adlanır. İstehsal təsərrüfat fəaliyyətinin həm də başlanğıc mərhələsi hesab olunur. Belə ki, təsərrüfat fəaliyyətinin qalan digər mərhələləri istehsal mərhələsindən asılıdır. Heç də sirr deyildir ki, yalnız istehsal olunmuş məhsullar bölüşdürülə, mübadilə və istehlak edilə bilər. Lakin, buna baxmayaraq, istehsal son nəticədə təsərrüfat fəaliyyətinin istehlak mərhələsinə xidmət edir.

**Bölgü** istehsal olunmuş məhsulda hər bir təsərrüfat subyektinin iştirak payını müəyyənləşdirmək prosesidir. Bu proses təsərrüfat fəaliyyətinin ikinci mərhələsi sayılır. Belə ki, istehsal olunmuş məhsullar bölüşdürülür.

**Mübadilə** təsərrüfat fəaliyyətinin üçüncü mərhələsidir. Maddi nemətlərin və xidmətlərin təsərrüfat subyektinin birindən digərinə hərəkətetmə prosesinə mübadilə deyilir. Mübadilə istehsalçılar və istehlakçılar arasında əlaqə yaratmaq formasıdır. Odur ki, mübadilə təsərrüfat fəaliyyətinin istehsalı istehlakla əlaqələndirən mərhələsi kimi tanınır.

**İstehlak** istehsalın nəticələrinin bu və ya digər ehtiyacın ödənilməsi üçün istifadə edilməsidir. Təsərrüfat fəaliyyətinin axırıncı mərhələsi olan istehlak son məqsəd və istehsalın motivi sayılır.

Təsərrüfat fəaliyyətinin göstərdiyimiz dörd mərhələsi biri-biri ilə qarşılıqlı əlaqədədir; onlar bir-birinə qarşılıqlı təsir göstərir. Təsərrüfat fəaliyyətinin qarşılıqlı əlaqədə olan və bir-birinə təsir göstərən həmin mərhələləri realizə olunan zaman mü-

---

[1] Экономичская теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 33.

əyyən növ ictimai münasibətlər əmələ gəlir. Söhbət təsərrüfat fəaliyyəti prosesində şəxslər arasında yaranan iqtisadi münasibətlərdən gedir ki, bu proses həm də iqtisadi fəaliyyət prosesi adlanır. Məhz həmin münasibətlər iqtisadi hüquqla tənzimləndiyinə görə onun nizamasalma predmetini təşkil edir. Deməli, iqtisadi hüququn nizamasalma predmeti **təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində şəxslər arasında yaranan iqtisadi münasibətlərdən** ibarətdir.

### 1.1.3. İqtisadi hüququn tənzimetmə metodu

İqtisadi hüququn nəinki özünəməxsus hüquqi nizamasalma predmeti, həmçinin özünəxas hüquqi tənzimetmə metodu vardır. Qeyd etdiyimiz kimi, iqtisadi hüququn nizamasalma predmeti belə bir suala cavab verir: «hansı ictimai münasibətlər iqtisadi hüquqla tənzimlənir?». İqtisadi hüququn tənzimetmə metodu isə «iqtisadi hüquq bu münasibətləri necə nizama salır?» sualına cavab verir.

Hüquq nəzəriyyəsinə görə, həm hüquqi nizamasalma predmeti, həm də hüquqi tənzimetmə metodu hüquq sisteminin ayrı-ayrı hüquq sahələrinə bölünməsini şərtləndirən əsas meyarlardır. Məhz həmin meyarlar əsasında hüquq sistemi müxtəlif hüquq sahələrinə ayrılır və onlar bir-birindən fərqləndirilir.

**İqtisadi hüququn tənzimetmə metodu** dedikdə iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərə onun təsir üsulları başa düşülür. Odur ki, «iqtisadi hüququn nizamasalma predmeti» və «iqtisadi hüququn tənzimetmə metodu» kimi iki anlayış arasında sıx bağlılıq və əlaqə mövcuddur. Belə ki, iqtisadi hüququn tənzimetmə metodu onun hüquqi nizamasalma predmeti ilə müəyyən olunur. Nəzərə almaq lazımdır ki, iqtisadi hüququn nizamasalma predmetini təşkil edən ictimai münasibətlərin məzmunu onun hüquqi tənzimetmə metodunu müəyyənləşdirir. Bu səbəbdən də iqtisadi hüququn tənzimetmə metodu onun hüquqi nizamasalma predmetindən asılıdır. İqtisadi hüququn nizamasalma predmeti hansı xüsusiyyət-

lərə malikdirsə, iqtisadi hüquqda da bu xüsusiyyətlərə uyğun tənzimetmə metodu tətbiq edilir. Tənzimetmə metodu iqtisadi hüququn nizamasalma predmetini təşkil edən ictimai münasibətləri nizamlamaq üsullarıdır. Bu üsullardan istifadə etməklə həmin münasibətlərin iştirakçılarının (subyektlərin) davranışına təsir göstərilir ki, belə yolla iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Metod münasibətləri tənzimləmək və həmin münasibətlərdə iştirak edən subyektlərin davranışına təsir etmək üsulları deməkdir.

Mülki, inzibati və digər hüquq sahələrində təkcə bir metod tətbiq edilir. Mülki hüquqda tərəflərin hüquq bərabərliyi metodundan istifadə olunur. İnzibati hüquqda hakimiyyət-tabeçilik metodu tətbiq edilir. Cinayət hüququ üçün qadağan etmək metodu xarakterikdir. İqtisadi hüquqa gəldikdə isə, qeyd etməliyik ki, bu hüquqi qurumda bir deyil, bir neçə metod tətbiq olunur. Bu onunla izah edilir ki, iqtisadi hüququn nizamasalma predmetini təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətlər təşkil edir. Təsərrüfat (iqtisadi) fəaliyyəti prosesi isə, qeyd etdiyimiz kimi, dörd mərhələdən (istehsal, bölgü, mübadilə və istehlak) ibarət olub mürəkkəb xarakterə malikdir. Odur ki, iqtisadi hüquqda bir neçə hüquqi tənzimetmə metodundan istifadə edilir.

**Sərəncamvermə** metodu onlardan biridir. Direktiv (göstəriş) xarakterli aktlar həyata keçirilən zaman məhz bu metod tətbiq edilir. Məsələn, antiinhisar orqanının direktiv xarakterli aktları realizə olunarkən sərəncamvermə metodundan istifadə olunur. Bu metodun mahiyyəti hakimiyyət xarakterli məcburi göstəriş verməkdən ibarətdir; onu bəzən inzibati metod da adlandırırlar.

**Dispozitivlik metodu** iqtisadi hüququn metodlarından digəridir. Əgər iqtisadi fəaliyyət subyektləri digər subyektlərlə öz qarşılıqlı münasibətlərini sərbəst olaraq müstəqil surətdə müəyyənləşdirərsə, bu, dispozitivlik metodunun tətbiq olunmasını ifadə edir. Bu metod iqtisadiyyatın, əsasən, iqtisadi üsullarla

tənzimlənməsi dövrü və şəraiti üçün xarakterikdir. Belə dövr və şəraitdə hakimiyyət xarakterli məcburi sərəncamvermə metodu dispozitivlik metoduna transformasiya olunur. Dispozitivlik metodu əmrə əsaslanan komanda (sovet) iqtisadiyyatının tənzimlənməsi dövründə, demək olar ki, tətbiq olunmurdu. Komanda (sovet) iqtisadiyyatının tənzimlənməsi, bir qayda olaraq, inzibati-mərkəzləşdirilmiş metod vasitəsilə həyata keçirilirdi.

Bunlardan başqa, iqtisadi hüquqda həm də başqa metodlar tətbiq olunur. Belə metodlara tövsiyə etmək, icazə vermək, müqavilə bağlamaq və yol vermək metodları aiddir.

**Müqavilə metodu** (və ya müqavilə bağlamaq metodu) haqqında xüsusi olaraq danışmaq lazımdır. İqtisadi hüquqla tənzimlənən münasibətlərin nizama salınmasında bu metoddan istifadə edilməsi təsadüfi xarakter daşımır. Nəzərdən qaçırmaq olmaz ki, müqavilə iqtisadi fəaliyyəti həyata keçirməyin əsas hüquqi vasitəsi və formasıdır. Digər tərəfdən, müqavilə iqtisadi münasibətlərin iştirakçısı olan subyektlərin qarşılıqlı hüquq və vəzifələrini müəyyənləşdirməyə imkan verir. Bunlardan başqa, müqavilə onu bağlayan tərəflər üçün qanundur; qanuna isə bütün subyektlər məcburi surətdə əməl etməlidirlər.

### 1.1.4. Hüquq sistemində iqtisadi hüququn tutduğu yer

Hər bir hüquqi qurum milli (dövlətdaxili) hüquq sisteminə bu və ya digər «statusla» daxil olur. Başqa sözlə, istənilən hüquqi qurum milli (dövlətdaxili) hüquq sistemində özünəməxsus yer tutur. Söhbət hüquqi qurumların Azərbaycan Respublikasının hüquq sistemində hansı yeri tutmasından gedir. Axı hər bir dövlətin ayrıca olaraq özünün milli (daxili) hüquq sistemi vardır. Buna görə də dünyada neçə milli hüquq sisteminin mövcud olması dövlətlərin sayı ilə müəyyən edilir. Odur ki, dünyada neçə dövlət vardırsa,[1] bir o qədər də milli (dövlətdaxili) hüquq sistemi mövcuddur.

---

[1] Hal-hazırda dünyada dövlətlərin və dövlətəoxşar qurumların sayı 220-yə yaxındır / URL:http//www.bibliotekar.ru (20.06.2018-ci il).

Hüquqi qurumlardan biri olan iqtisadi hüququn Azərbaycan Respublikasının milli hüquq sistemində hansı yeri tutmasına gəldikdə, qeyd etməliyik ki, iqtisadi hüququn özünəməxsus nizamasalma predmeti vardır. Qeyd etdiyimiz kimi, təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində şəxslər (təsərrüfat subyektləri) arasında iqtisadi münasibətlər əmələ gəlir ki, həmin münasibətlər də iqtisadi hüququn **nizamasalma predmetini** təşkil edir.

İqtisadi hüququn həm də özünəməxsus hüquqi **tənzimetmə metodu** vardır. Qeyd etdiyimiz kimi, iqtisadi hüquqda bir neçə hüquqi tənzimetmə metodu mövcuddur. İqtisadi hüquqla onun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsində məhz həmin metodlardan istifadə edilir.

Hüquq nəzəriyyəsinə görə, əgər hər hansı qurumun özünəməxsus nizamasalma predmeti və metodu olarsa, həmin qurum müstəqil hüquq sahəsi kimi tanınır. Hüquq nəzəriyyəsinin müəyyənləşdirdiyi bu meyarlara cavab verdiyinə görə iqtisadi hüquqa müstəqil hüquq sahəsi kimi baxmaq lazımdır. Hüquq nəzəriyyəsi kursundan məlumdur ki, hüquq sahələrinin ayrılması və onların bir-birindən fərqləndirilməsi üçün, adətən, iki **əsas meyardan** istifadə edilir: 1) hüquqi nizamasalma predmeti; 2) hüquqi tənzimetmə metodu. Bunlar milli (dövlətdaxili) hüquq sisteminin müstəqil sahələrə bölünməsi üçün istifadə olunan əsas meyarlardır.[1]

Milli (dövlətdaxili) hüquq sistemində bu və ya digər müstəqil hüquq sahəsinin ayrılması üçün həm də **əlavə meyarlardan** istifadə olunur. Əlavə meyarlar hüquq sahəsinin ayrılmasında həlledici rol oynamır. Bu məsələdə həlledici rolu əsas meyarlar (hüquqi nizamasalma predmeti və hüquqi tənzimetmə metodu) oynayır. Lakin, buna baxmayaraq, hüquq sistemində hüquq sahələrinin bir-birindən fərqləndirilməsində və onlar arasında hədd qoyulmasında əlavə meyarlar nəzərə alınır. Həm əsas,

---

[1] Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə. Bakı, 1995, s. 144.

həm də əlavə meyarlar elə əlamətlərdir ki, həmin əlamətlərə uyğun olaraq milli (dövlətdaxili) hüquq sistemlərində bu və ya digər müstəqil hüquq sahəsinin mövcud olması əsaslandırılır.

Əlavə meyarlardan biri bundan ibarətdir ki, hər bir hüquq sahəsinin **özünəməxsus sahəvi (xüsusi) prinsipləri** olmalıdır. İqtisadi hüquq belə prinsiplərə malikdir. Məsələn, iqtisadi azadlıq prinsipi, təsərrüfat subyektlərinin iqtisadi maraqlarının müdafiəsi prinsipi və digərləri iqtisadi hüququn sahəvi (xüsusi) prinsipləridir. Bir sözlə, iqtisadi hüquqda sahəvi (xüsusi) prinsiplər mövcuddur.

Digər əlavə meyar bundan ibarətdir ki, hər bir hüquq sahəsi özündə **çoxsaylı hüquq normalarını birləşdirir**. Məhz həmin normalar vasitəsi ilə hüquq sahəsi öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri tənzimləyir və nizama salır. İqtisadi hüquq da müvafiq hüquq normalarından ibarətdir ki, onların sayı kifayət qədərdir. Unutmaq olmaz ki, iqtisadi hüququn özündə birləşdirdiyi hüquq normalarının həcmi genişdir. Söhbət iqtisadi-hüquq normalarının çoxsaylı və genişmiqyaslı olmasından gedir. Bu normaların vasitə və köməyi ilə təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər (şəxslər) arasında yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Onlar öz normativ ifadəsini həm qanunlarda, həm də qanunqüvvəli aktlarda (məsələn, Nazirlər Kabinetinin qərarlarında, İqtisadiyyat Nazirliyinin normativ xarakterli hüquqi sənədlərində və s.) tapır.

Əlavə meyarlar sırasına həm də bu daxildir ki, təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində yaranan **iqtisadi münasibətlər ölkənin iqtisadi həyatı üçün mühüm əhəmiyyətə malikdir.** Bu münasibətlər iqtisadiyyatda yaranır. İqtisadiyyat isə cəmiyyəti həyat üçün zəruri olan maddi nemətlərlə təmin edən xalq təsərrüfatı sahələrinin məcmusu, insanların başlıca fəaliyyət sahəsidir. Belə münasibətlər ayrıca müstəqil hüquq sahəsi ilə tənzimlənməyi tələb edir.

Beləliklə, iqtisadi hüququn özünəməxsus hüquqi nizamasalma predmeti və hüquqi tənzimetmə metodu vardır. İqtisadi hü-

quq eləcə də özünəxas sahəvi (xüsusi) prinsiplərə malikdir. İqtisadi hüquq həmçinin tələb olunan digər meyarlara da cavab verir. Odur ki, Azərbaycan Respublikasının milli (dövlət-daxili) hüquq sistemində iqtisadi hüquq kimi müstəqil sahənin mövcud olması qənaətinə gələ bilərik. Bəzi xarici ölkələrdə iqtisadi hüquq məhz müstəqil hüquq sahəsi kimi tanınır. Məsələn, müasir dövrdə Fransada «ümumi iqtisadi hüquq» (droit public economique) formalaşmışdır ki, o, ümumi hüququn sahəsi hesab edilir.[1] Ümumi hüquq isə publik hüquq deməkdir və o, hakimiyyət xarakterli münasibətləri tənzimləyir. Belə ki, Roma hüququ dövründən hüquq iki yerə bölünür. Bunlardan biri ümumi hüquq (publik hüquq), digəri isə xüsusi hüquqdur. Xüsusi hüquq hakimiyyət xarakterli deyil, ayrı-ayrı şəxslər arasında mülki və digər sahələrdə yaranan münasibətləri tənzimləyir.

Qeyd etmək lazımdır ki, xarici dövlətlər iqtisadiyyatı tənzimləmək üçün bir sıra vasitələrdən istifadə edirlər ki, bu vasitələr mülki, inzibati, əmək, ekologiya və digər hüquq sahələrinə aiddir. Əksər xarici ölkələrdə iqtisadi sfera, əsasən, mülki, ticarət (və ya təsərrüfat) və inzibati hüquqla tənzimlənir; bu ölkələrdə onlar iqtisadi sferanı nizama salan əsas hüquq sahələri hesab edilir. Mülki hüquq sahəsi xüsusi münasibətləri (əmlak, müqavilə və digər münasibətləri) tənzimləyir ki, bu münasibətlərin tərəfləri bərabər hüquqludur, yəni hüquq bərabərliyinə malikdirlər; onlar arasında hər hansı asılılıq-tabeçilik əlaqəsi yoxdur. Ticarət hüququ (və ya təsərrüfat hüququ) sahəsi ticarət fəaliyyətini tənzimləyir. Bəzi hallarda bu hüquq sahəsi məqsədi mənfəət əldə etməkdən ibarət olan istənilən növ fəaliyyəti nizama salır.[2] İnzibati hüquq sahəsi isə iqtisadiyyat sferasının

---

[1] *Daha ətraflı:* Alain - Serge Mescheriakoff. Droit public economique. Paris, 1994 (URL:http://ccfr. bnf.fr – 20.06.2018-ci il).

[2] Xarici dövlətlərin mülki və ticarət hüququ barədə daha ətraflı: Гражданское и торговое право зарубежных государств. Учебник / Отв. ред. Е.А. Васильев, Д.С.Комаров. Том 1. М., 2004; Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.В.Безбаха, В.К.Пучинского. М., 2004 və b.

idarə edilməsi ilə bağlı münasibətləri tənzimləyir ki, bu münasibətlər həmin hüquq sahəsinin nizamasalma predmetini təşkil edir.

Lakin bəzi xarici ölkələrdə təsərrüfat fəaliyyətini (sahibkarlıq, kommersiya, biznes, ticarət-sənaye və s.) tənzimləyən hüquq normalarının sistemi (məcmusu) ayrıca hüquq sahəsi hesab edilir. Həmin hüquq sahəsi müxtəlif adlarla, əsasən də «təsərrüfat hüququ» termini ilə ifadə edilir. Onun artıq mövcud olan hüquq sahələrindən necə fərqləndirilməsi və ayrılması məsələsinə gəldikdə, qeyd etməliyik ki, bu məsələ hər bir xarici ölkədə müxtəlif cür həll olunur. Toxunulmuş məsələ barəsində iki əsas fikir formalaşmışdır. Birinci fikir tərəfdarları təsərrüfat hüququnu hüquq sahəsi kimi tanımırlar. İkinci fikri dəstəkləyən alimlər isə, əksinə, təsərrüfat hüququnun digər hüquq sahələrindən ayrılmasının və onun müstəqil sahə olmasının zəruriliyini vurğulayırlar. Məsələn, Rusiya Federasiyasında bir sıra müəllif təsərrüfat hüququna ayrıca hüquq sahəsi kimi yanaşır; təsərrüfat hüququna sinonim (eynimənalı) anlayış kimi «sahibkarlıq hüququ» termini işlədilir.[1]

Analoji mövqedən V.V.Laptev də çıxış edir. Təsərrüfat hüququnu «sahibkarlıq hüququ» termini ilə ifadə edən müəllif yazır ki, sahibkarlıq hüququ müstəqil hüquq sahəsidir.[2] Təsərrüfat hüququnun ayrıca hüquq sahəsi olması ideyasını həm də digər alimlər – məsələn, İ.V.Doynikov[3], N.Y.Kruqlova[4] və b. dəstəkləyir.

Eyni zamanda Rusiya Federasiyasının bəzi müəllifləri (məsələn, E.A.Suxanov və s.) bunun əksi olan mövqedə dayanırlar. Onların fikrincə, sahibkarlıq (təsərrüfat) hüququ ayrıca hüquq

---

[1] Мартемьянов В.С. Хозяйственное право. Т.1. М., 1994, с.1.
[2] Лаптев В.В. Предпринимательское право. М., 1997, с.7.
[3] Дойников И.В. Предпринимательское (хозяственное) право. М., 1998, с.8.
[4] Круглова Н.Ю. Хозяйственное право. М., 1997.

sahəsi hesab edilmir; sahibkarlıq (təsərrüfat) hüququ yalnız qanunvericilik sahəsi və müstəqil tədris fənni kimi tanına bilər.[1]

Rusiya Federasiyasında bəzi alimlər tərəfindən təsərrüfat (sahibkarlıq) fəaliyyətini tənzimləyən hüquq normalarının sistemini (məcmusunu) ifadə etmək üçün təsərrüfat (sahibkarlıq) hüququ deyil, «kommersiya hüququ» termini işlədilir; onların fikrincə, kommersiya hüququ mülki hüququn bir hissəsidir.

Almaniyada isə barəsində danışılan hüquq normalarının sistemini ifadə etmək üçün təsərrüfat hüququ (Wirachaftsrecht) terminindən istifadə olunur. Həm də ticarət və ya kommersiya hüququ (Handelsrecht) ayrılmışdır ki, bu hüquq sahəsi nəinki kommersiya-ticarət fəaliyyətini, həmçinin istənilən növ sahibkarlığı tənzimləyir.

İngilis-sakson hüquq sisteminə aid olan ölkələrə gəldikdə, qeyd etməliyik ki, bütün ticarət-sənaye fəaliyyətinin hüquqi tənzimlənməsi bu ölkələrdə eyni deyil, müxtəlif cür həyata keçirilir. ABŞ və Kanadada biznes hüququ (business law) kimi sahə ayrılmışdır ki, bu hüquq sahəsi mülkiyyət hüququnu, sığorta, alqı-satqı və s. müqavilələri, delikt (ziyanvurma) münasibətlərini, daşınmaz əmlakın dövriyyəsini, biznesin təşkilatı-hüquqi formalarını, investisiyaları, əmək, antiinhisar, istehlakçıların hüquqlarının müdafiəsini və digər məsələləri tənzimləyir.[2]

Fransada, qeyd etdiyimiz kimi, publik iqtisadi hüquq (droit public economique) formalaşmışdır. Publik (ümumi) hüququn sahəsi olan publik iqtisadi hüquq iqtisadiyyatın dövlət idarəolunması kimi vacib məsələni tənzimləyir.

Fikrimizcə, təsərrüfat (iqtisadi) fəaliyyətini tənzimləyən hüquq normalarının sistemini (məcmusunu) ifadə etmək üçün, Fransada olduğu kimi, «iqtisadi hüquq» terminindən istifadə edilməsi düzgün və ağlabatan yanaşmadır. Məhz «iqtisadi hü-

---

[1] Предпринимательское право. Курс лекций / Под ред. Н.И.Клейн. М., 1993; Гражданское право. Учебник / Под ред. Е.А.Суханова. М., 1998, Том 1.

[2] Long A. Business law. Cambridge, 1986 (URL:http: // lawyersonline.co.uk – 20.06.2018-ci il).

quq» termini ilə həm ticarət, kommersiya, sahibkarlıq, investisiya, nəqliyyat, turizm, bank və sığorta, həm də digər təsərrüfat (iqtisadi) fəaliyyəti növlərini tənzimləyən hüquq normalarını bütövlükdə əhatə etmək mümkündür. Əlverişli, əhatəli və münasib olan həmin termin bir neçə mənada işlədilir ki, bunlardan biri də «iqtisadi hüquq» termininin məna yükü altında müstəqil hüquq sahəsinin fərqləndirilməsidir. Kifayət qədər inandırıcı və həqiqətə uyğun dəlillər belə deməyə əsas verir ki, doğrudan da iqtisadi hüquq Azərbaycan Respublikasının milli (dövlətdaxili) hüquq sisteminə daxil olan müstəqil hüquq sahələrindən biridir. Digər tərəfdən, milli (dövlətdaxili) hüquq sistemlərinə paralel şəkildə mövcud olan beynəlxalq hüquq ayrı-ayrı müstəqil hüquq sahələrinə bölünmüşdür ki, bu sahələrdən biri məhz beynəlxalq iqtisadi hüquq adlanır.[1] Belə olduğu halda nə üçün və hansı səbəbdən milli (dövlətdaxili) hüquq sistemində iqtisadi hüquq müstəqil hüquq sahəsi kimi tanınmasın? Tam əminliklə söyləyə bilərik ki, beynəlxalq hüquq sistemində iqtisadi hüquq kimi müstəqil hüquq sahəsinin mövcud olması özlüyündə milli (dövlətdaxili) hüquq sistemlərində də belə bir müstəqil hüquq sahəsinin ayrılması üçün məntiqəuyğun və ağlabatan əsasdır.

## 1.2. İqtisadi hüququn sistemi

### 1.2.1. İqtisadi hüququn sistemi anlayışı və onun əhəmiyyəti

Müstəqil hüquq sahələrindən biri olan iqtisadi hüquq çoxsaylı müxtəlif hüquq normalarından ibarətdir. Qeyd etdiyimiz kimi, onlar **iqtisadi-hüquq normaları** adlanır. İqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri məhz bu normalar vasitəsi ilə tənzimləyir. Həmin normalar iq-

---

[1] *Bax: məsələn,* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016; Sadıqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2008; Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов н/Д, 2003 və b.

tisadi hüququn tərkibinə qarma-qarışıq, nizamsız və ya səpələnmiş halda daxil olmurlar; əksinə, iqtisadi-hüquq normaları iqtisadi hüququn tərkibində nizamla və müəyyən qaydada cəmlənmişdir. Bu cür birləşmə iqtisadi hüququn sistemi adlanır.

**İqtisadi hüququn sistemi** dedikdə iqtisadi-hüquq normalarının müəyyən ardıcıllıqla düzlənərək vahid, tam və bütöv halda birləşməsi başa düşülür. Belə birləşmə buna əsaslanır ki, iqtisadi-hüquq normaları eyni məqsədə xidmət edir. Digər tərəfdən, bir-birindən qarşılıqlı surətdə asılı olan və fərqlənən həmin normalar arasında sıx bağlılıq mövcuddur; onlar arasında mövcud olan dialektik əlaqə qarşılıqlı xarakterə malikdir. Bunlardan əlavə, daxilən vəhdətdə olan iqtisadi-hüquq normaları eyni vəzifə yerinə yetirirlər. Odur ki, iqtisadi-hüquq normaları vahid, tam və bütöv halda cəmlənmişdir. Söhbət iqtisadi-hüquq normalarının sistemli şəkildə yerləşməsindən və düzlənməsindən gedir. Bunun isə, ilk növbədə, **nəzəri əhəmiyyəti** vardır. İqtisadi-hüquq normalarının sistemli şəkildə yerləşməsi və düzlənməsi həm də hüquqyaratma və hüquqtətbiqetmə orqanları üçün **praktiki əhəmiyyətə** malikdir. Təbii ki, hüquqyaratma orqanları lazım gəldikdə bu və ya digər iqtisadi məsələni tənzimləyən yeni normativ aktlar qəbul edir. Bu zaman həmin aktlarda ifadə olunan iqtisadi-hüquq normalarının məzmunca artıq mövcud olan iqtisadi-hüquq normalarına uyğun gəlib-gəlməməsi müəyyən edilməlidir. Əgər iqtisadi-hüquq normaları sistem halında yerləşərsə, bu işi görmək asandır; əksinə, iqtisadi-hüquq normaları qarma-qarışıq və nizamsız qaydada olarsa, əlbəttə, belə işi yerinə yetirmək olduqca çətindir. İqtisadi hüququn sisteminin hüquqyaratma orqanları üçün praktiki əhəmiyyəti də məhz bundan ibarətdir.

İqtisadi hüququn sisteminin hüquqtətbiqetmə orqanları üçün praktiki əhəmiyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, bu orqanların əsas işi tənzimlənməyi tələb edən bu və ya digər iqtisadi məsələni həll etmək üçün müvafiq iqtisadi-hüquq normasını axtarıb tapmaq və müəyyən etməkdən ibarətdir. Əgər iqtisadi-hüquq normaları sistem halında yerləşərsə, bu işi görmək

asandır. İqtisadi hüququn sisteminin hüquqtətbiqetmə orqanları üçün malik olduğu praktiki əhəmiyyət də məhz bununla şərtlənir.

### 1.2.2. İqtisadi hüququn ümumi hissəsi

Müəyyən qrup iqtisadi-hüquq normaları mövcuddur ki, onlar iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ümumi məsələləri tənzimləmək məqsədinə xidmət edir. Həmin normaların məcmusu **iqtisadi hüququn ümumi hissəsi** adlanır. Belə normaları təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan istənilən növ iqtisadi münasibətə onu tənzimləmək üçün tətbiq etmək mümkündür.

İqtisadi hüququn ümumi hissəsi ayrı-ayrı hüquq institutlarına bölünür. Belə ki, iqtisadi hüququn ümumi hissəsinə daxil olan hüquq normaları bir neçə hüquq institutunda qruplaşmışdır. Söhbət iqtisadi hüququn ümumi hissəsinin institutlarından gedir. **İqtisadi hüququn subyektləri institutu** onlardan biridir. Bu institut özündə iqtisadi hüququn subyektləri (sahibkarlar, banklar, investorlar və s. şəxslər) haqqında iqtisadi-hüquq normalarını birləşdirir.

**İqtisadi hüququn sahəvi prinsipləri institutu** iqtisadi hüququn ümumi hissəsinin digər institutu hesab edilir. Bu instituta iqtisadi hüququn sahəvi prinsiplərinə (iqtisadi fəaliyyət azadlığı, pozulmuş iqtisadi hüquqların bərpası, təsərrüfat subyektlərinin iqtisadi maraqlarının qorunması və s.) dair iqtisadi-hüquq normaları daxildir; həmin normalar xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, bu normalarda iqtisadi-hüquqi tənzimetmənin əsas ideyaları və rəhbər başlanğıcları olan iqtisadi hüququn sahəvi prinsipləri öz normativ ifadəsini tapmışdır.

**İqtisadi hüquqda məsuliyyət institutu** məsuliyyət münasibətlərini (sanksiya, məsuliyyətin növləri və digər məsələləri) tənzimləyən iqtisadi-hüquq normalarından ibarətdir. Bu, iqtisadi hüququn ümumi hissəsinin institutlarından biri hesab edilir.

İqtisadi hüququn ümumi hissəsinin institutlarından biri həm də **iqtisadi mübahisələrin həlli institutudur**. Sözügedən insti-

tut özündə elə iqtisadi-hüquq normalarını birləşdirir ki, bu normalar iqtisadi fəaliyyət iştirakçıları arasında yaranan mübahisələrin (iqtisadi-təsərrüfat ixtilaf və münaqişələrinin) həlli yollarını və üsullarını müəyyənləşdirir. Həmin institut həmçinin belə mübahisələrin pretenziya vermək əsasında tənzimlənməsi qaydasını müəyyən edir. İqtisadi mübahisələrin həlli institutu həm də müəyyən edir ki, təsərrüfatdaxili mübahisələr hansı qaydada həll olunmalıdır.

Daha bir neçə institut da iqtisadi hüququn ümumi hissəsinə daxildir ki, bunlardan biri iqtisadi fəaliyyətin hüquqi vasitəsi, digəri isə iqtisadiyyatın dövlət tənzimlənməsi institutu adlanır. **İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu** elə normalardan ibarətdir ki, bu normalar vasitəsi ilə iqtisadi fəaliyyət sferasında bağlanan müqavilələrin hüquqi tənzimlənməsi həyata keçirilir. **İqtisadiyyatın dövlət tənzimlənməsi institutu** isə özündə elə hüquq normalarını birləşdirir ki, bu normalar iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı məsələləri nizama salır. Bu sırada həmçinin **iqtisadi fəaliyyət hüququ**, **dövlət əmlakını özəlləşdirmə hüququ** və s. institutların da adlarını çəkmək lazımdır.

Beləliklə, iqtisadi hüququn ümumi hissəsi aşağıda göstərilən əsas hüquq institutlarından ibarətdir: iqtisadi hüququn subyektləri institutu, iqtisadi hüququn sahəvi prinsipləri institutu, iqtisadi hüquqda məsuliyyət institutu, iqtisadi mübahisələrin həlli institutu, iqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu, iqtisadiyyatın dövlət tənzimlənməsi institutu, iqtisadi fəaliyyət hüquq institutu, dövlət əmlakını özəlləşdirmə hüquq institutu və s. Bu institutlar iqtisadi hüququn xüsusi hissəsi üçün mühüm əhəmiyyətə malikdir. Bəs iqtisadi hüququn xüsusi hissəsi dedikdə nə başa düşülür?

### 1.2.3. İqtisadi hüququn xüsusi hissəsi

İqtisadi hüququn ibarət olduğu iqtisadi-hüquq normaları içərisində elə hüquq normaları vardır ki, həmin normalar ümumi əhəmiyyətə malik olan məsələləri deyil, iqtisadi hüququn niza-

masalma predmetinə daxil olan konkret ictimai münasibətlərin (iqtisadi münasibətlərin) bu və ya digər növünü (məsələn, sahibkarlıq münasibətlərini, maliyyə münasibətlərini, bank münasibətlərini, sığorta münasibətlərini və s.) tənzimləyir. Məhz belə hüquq normalarının sistemi iqtisadi hüququn xüsusi hissəsi adlanır.

**İqtisadi hüququn xüsusi hissəsi** dedikdə hüquq normalarının elə məcmusu başa düşülür ki, bu normalar vasitəsi ilə təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətlərin ayrı-ayrı konkret növlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. İqtisadi münasibətlərin ayrı-ayrı konkret növləri isə bunlardır: sahibkarlıq münasibətləri, bank münasibətləri, ticarət münasibətləri, vergi münasibətləri, gömrük münasibətləri, kommersiya münasibətləri, turizm münasibətləri, nəqliyyat münasibətləri, investisiya münasibətləri, aqrar münasibətlər, maliyyə münasibətləri, rəqabət münasibətləri və s. İqtisadi münasibətlərin bu kimi ayrı-ayrı konkret növləri iqtisadi-hüquqi tənzimetmənin obyektidir. Belə ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Məsələn, sahibkarlıq münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu sahibkarlıq hüququ, bank münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu bank hüququ, ticarət münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu ticarət hüququ, vergi münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu vergi hüququ, gömrük münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu gömrük hüququ və s. adlanır. Digər iqtisadi münasibətləri də nizama salan hüquq normalarının məcmusuna müvafiq olaraq kommersiya hüququ, aqrar hüquq, rəqabət hüququ, turizm hüququ, maliyyə hüququ, valyuta hüququ, investisiya hüququ, nəqliyyat hüququ, sığorta hüququ və s. deyilir. Deməli, iqtisadi hüququn xüsusi hissəsinin ibarət olduğu hüquq normaları aşağıdakı hüquqi qurumlar üzrə qruplaşdırılır: sahibkarlıq hüququ, bank hüququ, sığorta hüququ, turizm hüququ, investisiya hüququ, vergi hüququ, gömrük hüququ, rəqabət hüququ, aqrar hüquq, maliyyə hüququ, kommersiya hüququ, ticarət hüququ və s.

Odur ki, iqtisadi hüququn xüsusi hissəsi məhz bu kimi hüquqi qurumlardan ibarətdir.

Göstərilən hüquqi qurumların iqtisadi hüququn xüsusi hissəsinə hansı «statusla» daxil olmasına gəldikdə, qeyd etməliyik ki, onların hər biri ayrıca olaraq özünəməxsus nizamasalma predmetinə malikdir. Nəzərdən qaçırmaq olmaz ki, həmin qurumlar təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətlərin ayrı-ayrı müvafiq növlərini (qruplarını) tənzimləyir. Digər tərəfdən, sahibkarlıq hüququ və sadalanan digər hüquqi qurumlar özünəxas pinsiplərə əsaslanır. Bunlara görə də, söyləyə bilərik ki, onlar iqtisadi hüququn xüsusi hissəsinin yarımsahələri hesab edilir. Əgər hər hansı hüquqi qurum bu və ya digər hüquq sahəsinin nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin müəyyən konkret növünü (qrupunu) tənzimləyərsə, o, həmin sahənin yarımsahəsi hesab edilir. İqtisadi hüququn xüsusi hissəsi də məhz sahibkarlıq hüququ və digər yarımsahələrə bölünür. Odur ki, iqtisadi hüququn xüsusi hissəsi «yarımsahələr» anlayışı ilə əhatə olunur. Belə ki, iqtisadi hüququn xüsusi hissəsi dedikdə onun yarımsahələri başa düşülür. Bu cəhəti ilə iqtisadi hüquq beynəlxalq iqtisadi hüquqa bənzəyir. Beynəlxalq hüququn müstəqil sahələrindən biri olan beynəlxalq iqtisadi hüququn xüsusi hissəsi ayrı-ayrı yarımsahələrdən (məsələn, beynəlxalq ticarət hüququ, beynəlxalq vergi hüququ, beynəlxalq maliyyə-valyuta hüququ və s.) ibarətdir.[1]

Beləliklə, ibarət olduğu hüquq normalarının sistem halında birləşməsindən asılı olaraq iqtisadi hüquq iki hissəyə bölünür: 1) ümumi hissə; 2) xüsusi hissə. Eyni zamanda ümumi və xüsusi hissələr daxilən vəhdətdə olub, biri digərini tamamlayır. Onlar arasında sıx qarşılıqlı dialektik əlaqə və bağlılıq mövcuddur.

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.39.

### 1.2.4. Digər hüquq sahələri ilə iqtisadi hüququn əlaqəsi

İqtisadiyyatın hüquqi tənzimlənməsi təkcə iqtisadi hüquqla həyata keçirilmir. İqtisadiyyat sferası həm də digər hüquq sahələri ilə tənzimlənir ki, bu sahələr **əlaqəli hüquqlar** adlanır. Söhbət konstitusiya, inzibati, mülki, əmək və digər hüquq sahələrindən gedir ki, onlar iqtisadi hüquqla birlikdə iqtisadiyyatın hüquqi tənzimlənməsində iştirak edirlər. Belə olan halda, təbii ki, ortaya bu cür sual çıxır: iqtisadi hüququ əlaqəli hüquq sahələrindən necə ayırmaq və onlar arasında hədd qoymaq olar?

İlk növbədə, iqtisadi hüquqla **inzibati hüquq** arasında hədd qoyulmasına təşəbbüs göstərək. İqtisadi hüquq inzibati hüquqdan, hər şeydən əvvəl, öz nizamasalma predmetinə görə fərqlənir. Belə ki, inzibati hüquqla dövlət idarəçiliyi (idarəetməsi) sahəsində yaranan ictimai münasibətlər tənzimlənir. Məhz bu münasibətlər inzibati hüququn nizamasalma predmetini təşkil edir. Hakimiyyət-tabeçilik xarakterində olan belə münasibət növlərindən biri iqtisadiyyat sferasının dövlət idarəetməsi sahəsində əmələ gəlir. İqtisadi hüquqdan fərqli olaraq inzibati hüquq məhz dövlət idarəetməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir.

Öz nizamasalma predmetinə görə iqtisadi hüquq həm də **mülki hüquqdan** fərqlənir. Mülki hüquqla mülki dövriyyə iştirakçıları arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətləri tənzimlənir ki, bu münasibətlərdə iştirak edən tərəflər hüquq bərabərliyinə malikdirlər.[1] **Mülki dövriyyə** mülki-hüquqi əqdlərin məcmusudur ki, bu əqdlər istehlakçıların maraqlarının təmin edilməsinə yönəlir.

İqtisadi hüquq isə iqtisadi dövriyyə iştirakçıları arasında yaranan ictimai münasibətləri tənzimləyir. **İqtisadi dövriyyə** isə təsərrüfat prosesinin mərhələləri olan istehsal, bölgü, mübadilə

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı, 2008, s. 44.

və istehlak ilə bağlı həyata keçirilən bütün aktların məcmusuna deyilir. Mülki dövriyyə iqtisadi dövriyyənin yalnız bir hissəsidir; iqtisadi dövriyyəyə həm də **təsərrüfat dövriyyəsi** deyilir.

İqtisadi hüququ öz nizamasalma predmetinə görə həm də **əmək hüququndan** fərqləndirmək və ayırmaq olar. Əmək hüququ muzdla işləyən ayrı-ayrı şəxslər arasında yaranan münasibətləri tənzimləyir ki, bu şəxslər daxili əmək nizam-intizam qaydalarına və müəyyənləşdirilmiş iş rejiminə tabe olurlar. Həmin hüquq sahəsinin nizamasalma predmetinə işəgötürən (müəssisələr, sahibkar-mülkiyyətçilər, idarələr və təşkilatlar) və işçilər arasında yaranan əmək münasibətləri daxildir. İqtisadi hüquq isə iqtisadiyyatın bu və ya digər sahəsinə aid müəssisələrin təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində yaranan iqtisadi münasibətləri tənzimləyir ki, iqtisadi fəaliyyət subyekti olan belə müəssisələr işə-götürən rolunda çıxış edərək işçilərlə əmək müqaviləsi bağlayır və gördükləri işin müqabilində onlara əməkhaqqı verirlər. İqtisadi hüquq əmək münasibətlərini tənzimləməkdən çox uzaqdır. Əmək münasibətləri əmək hüququnun nizamasalma predmetinə daxildir. Həmin münasibətlərdə iki tərəf iştirak edir ki, bu tərəflərdən biri işəgötürən (müəssisə, sahibkar-mülkiyyətçi, təşkilatçı), digəri isə işçidir. İşçi daxili əmək nizam qaydalarına tabe olmaqla müəyyən ixtisas, dərəcə və ya vəzifə üzrə iş görür (yerinə yetirir). İşəgötürən isə işçiyə əməkhaqqı verir və onu nəzərdə tutulmuş iş şəraiti ilə təmin edir.[1]

---

[1] *Ətraflı bax: məsələn,* Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı, 2007, 560 s.; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 7-ci nəşr. Bakı, 2011, s. 264 və s.

# I FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *II FƏSİL.*
# İQTİSADİ HÜQUQUN PRİNSİPLƏRİ, MƏNBƏLƏRİ VƏ SUBYEKTLƏRİ

## 2.1. İqtisadi hüququn sahəvi prinsipləri
### 2.1.1. İqtisadi hüququn sahəvi prinsiplərinin anlayışı

Azərbaycan Respublikasının milli (dövlətdaxili) hüquq sistemində iqtisadi hüquq müstəqil hüquq sahələrindən biri kimi tanınır. Digər meyarlarla yanaşı, özünəməxsus sahəvi prinsiplərə malik olması iqtisadi hüququn müstəqil hüquq sahəsi kimi status əldə etməsini şərtləndirir və təmin edir. Unutmaq olmaz ki, hər bir hüquq sahəsinin müstəqil olması üçün onların özünəməxsus prinsiplərinin mövcudluğu tələb edilir. Belə prinsiplər sahəvi hüquqi prinsiplər adlanır.

**Sahəvi hüquqi prinsiplər** dedikdə ayrı-ayrı konkret hüquq sahələrinə xas olan və onların mühüm xüsusiyyətlərini xarakterizə edən prinsiplər başa düşülür. Məsələn, müstəqil hüquq sahələrindən biri olan mülki hüquqa mülki hüquq subyektlərinin bərabərliyi, mülkiyyət toxunulmazlığı, müqavilə azadlığı və digər sahəvi hüquqi prinsiplər xasdır. Qanunçuluq, qanun qarşısında bərabərlik, ədalət, humanizm və digər prinsiplər isə cinayət hüquq sahəsinin sahəvi hüquqi prinsipləridir və s. Bəs müstəqil hüquq sahələrindən biri olan iqtisadi hüququn özünəməxsus hansı sahəvi hüquqi prinsipləri vardır?

**İqtisadi hüququn sahəvi prinsipləri** dedikdə iqtisadi-hüquqi tənzimetmənin elə əsas başlanğıcları başa düşülür ki, bu başlanğıclar iqtisadi hüququn ən mühüm xüsusiyyətlərini və onun məzmununu müəyyənləşdirir. Əgər hər hansı əsas başlanğıc iqtisadi hüququn mahiyyətini və sosial təyinatını ifadə edərsə, belə başlanğıc iqtisadi hüququn sahəvi prinsipi hesab olunur. İqtisadi hüquq üzərinə düşən vəzifələri sahəvi prinsiplərə söy-

kənərək yerinə yetirir, öz funksiyalarını həyata keçirir. Odur ki, iqtisadi hüquq özünün sahəvi prinsiplərinə əsaslanır.

Sahəvi prinsiplər xüsusi olaraq bu və ya digər hüquq sahəsinin məzmununu müəyyənləşdirir. Odur ki, sahəvi prinsip yalnız həmin hüquq sahəsinə aid olub, onun əsas cəhətlərini xarakterizə edir. Buna görə də sahəvi prinsiplərə həm də **xüsusi prinsiplər** deyilir. Deməli, iqtisadi hüququn sahəvi prinsipləri onun xüsusi prinsipləridir. Odur ki, «iqtisadi hüququn sahəvi prinsipləri» və «iqtisadi hüququn xüsusi prinsipləri» sinonim (eynimənalı) anlayışlardır.

İqtisadi-hüquqi tənzimetmənin həyata keçirilməsində nəinki iqtisadi hüququn xüsusi (sahəvi) prinsipləri, həmçinin **hüququn ümumi prinsipləri** vacib rol oynayır. Hüququn ümumi prinsipləri isə həm də **hüququn əsas prinsipləri** adlanır. Bu prinsiplər hüququn bütün sahələrinə şamil olaraq, tətbiq edilir və onlara aşağıdakılar aiddir:[1] 1) sosial ədalət prinsipi; 2) demokratizm prinsipi; 3) humanizm prinsipi; 4) hüquq bərabərliyi prinsipi; 5) hüquq və vəzifələrin vəhdəti prinsipi; 6) təqsirə görə məsuliyyət prinsipi; 7) qanunçuluq prinsipi. Sözügedən prinsiplər sırasında xüsusilə bir neçə ümumi (əsas) prinsip iqtisadi hüquqda vacib əhəmiyyətə malikdir. Bunlardan biri **hüquq və vəzifələrin vəhdəti prinsipidir**. Bu prinsip iqtisadi hüquqda öz ifadəsini bunda tapır ki, iqtisadi münasibət iştirakçılarının malik olduqları hüquqlar onların daşıdıqları vəzifələrlə üzvi əlaqədə olub, bir-birlərini qarşılıqlı surətdə şərtləndirir; iqtisadi fəaliyyət subyektlərinin hüquqları onların vəzifələrinə uyğundur.

İqtisadi hüquq üçün mühüm əhəmiyyəti olan ümumi (əsas) prinsiplərdən digəri isə **təqsirə görə məsuliyyət prinsipidir.** Bu prinsip iqtisadi hüquqda belə təfsir edilir ki, iqtisadi fəaliyyət subyektləri təqsiri olduqda məsuliyyət daşıyırlar; təqsir iqtisadi fəaliyyət sahəsində məsuliyyətin məcburi və labüd şərtidir.

---

[1] Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə. Bakı, 1995, s. 167-168.

**Qanunçuluq prinsipi** də iqtisadi hüquq üçün vacib əhəmiyyəti olan prinsipdir. Bu prinsip iqtisadi hüquqda öz əksini bunda tapır ki, iqtisadi fəaliyyət subyektlərinin hamısı qanunda ifadə edilən göstərişləri dəqiq və tam həyata keçirməlidir; təsərrüfat subyektləri qanunla qadağan edilməyən istənilən növ iqtisadi fəaliyyətlə məşğul ola bilər; müəssisələr iqtisadi (təsərrüfat) fəaliyyəti qanun əsasında və ona uyğun həyata keçirməlidir.

Nəhayət, iqtisadi hüquq üçün eyni zamanda **hüquq bərabərliyi prinsipi** xüsusi əhəmiyyət kəsb edir ki, bu, hüququn ümumi (əsas) prinsiplərindən biridir. Bu prinsip iqtisadi hüquqda öz ifadəsini bunda tapır ki, iqtisadi hüququn bütün subyektləri qanun qarşısında bərabərdirlər.

İqtisadi hüquqda istifadə olunan hüquqi prinsiplər sırasına həm də sahədaxili prinsiplər aiddir. Söhbət iqtisadi hüququn sahədaxili prinsiplərindən gedir. **İqtisadi hüququn sahədaxili prinsipləri** dedikdə elə prinsiplər başa düşülür ki, onlar iqtisadi hüququn yarımsahələrinin ən mühüm xüsusiyyətlərini xarakterizə edir və özündə əks etdirir. İqtisadi hüququn yarımsahələri məhz sahədaxili prinsiplərə əsaslanır. İqtisadi hüququn hər bir yarımsahəsində belə prinsiplər mövcuddur. Məsələn, sahibkarlıq fəaliyyəti azadlığı prinsipi iqtisadi hüququn yarımsahələrdən biri olan sahibkarlıq hüququnun məzmununu müəyyənləşdirir; rəqabətin qorunub saxlanması iqtisadi hüququn rəqabət hüququ kimi yarımsahəsinin prinsipi sayılır; əlverişli investisiya mühiti yaratmaq iqtisadi hüququn investisiya hüququ kimi yarımsahəsinin prinsipidir və s.

Beləliklə, iqtisadi hüquq üçün əhəmiyyətli olan hüquqi prinsiplər üç növə bölünür: 1) hüququn ümumi (əsas) prinsipləri; 2) iqtisadi hüququn sahəvi (xüsusi) prinsipləri; 3) iqtisadi hüququn sahədaxili prinsipləri.

### 2.1.2. İqtisadi hüququn sahəvi prinsiplərinin əhəmiyyəti

İqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərinin böyük əhəmiyyəti vardır. Hər şeydən əvvəl, qeyd edək ki, bu prinsiplər

özündə iqtisadi hüququn ən mühüm xüsusiyyətlərini əks etdirir; onlar həm də iqtisadi hüququn məzmununu müəyyənləşdirir. Digər tərəfdən, nizamasalma predmetinə daxil olan ictimai münasibətləri iqtisadi hüquq özünün sahəvi (xüsusi) prinsipləri əsasında tənzimləyir. Axı iqtisadi-hüquqi tənzimetmə bu prinsiplərə əsaslanır. Belə ki, iqtisadi hüququn sahəvi (xüsusi) prinsipləri iqtisadi-hüquqi tənzimetmənin əsas başlanğıclarıdır.

İqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərinin əhəmiyyəti həm də bundan ibarətdir ki, bəzən iqtisadi hüquqda bu və ya digər məsələni (iqtisadi münasibəti) tənzimləyən müvafiq hüquq norması mövcud olmur. Unutmaq olmaz ki, iqtisadi hüquq özünün nizamasalma predmetinə daxil olan bütün məsələləri tənzimləmək iqtidarında deyildir. Əgər hər hansı məsələni tənzimləyən müvafiq hüquq norması mövcud olmazsa, belə vəziyyət iqtisadi hüquqda müəyyən hüquqi boşluğun yaranmasından xəbər verir. Mövcud hüquqi boşluq isə aradan qaldırılmalıdır ki, bu, yalnız müvafiq yeni hüquq norması yaratmaqla mümkün ola bilər. Lakin boşluq aradan qaldırılana kimi iqtisadi məsələ, təbii ki, tənzimlənməmiş qala bilməz. Yaranmış vəziyyətdən çıxmaq üçün iki üsuldan istifadə edilir ki, bunlardan biri qanunun, digəri isə hüququn analogiyasıdır.

**Qanunun analogiyası** üsulunun mahiyyəti bundan ibarətdir ki, tənzimlənməyi tələb edən məsələni nizama salan müvafiq hüquq norması mövcud olmazsa, belə halda iqtisadi hüquqda oxşar məsələni nizamlayan hüquq normasını axtarıb tapmaq lazımdır. Həmin normanı tətbiq etməklə tənzimlənməyi tələb edən məsələ həll olunur.

Bəzən iqtisadi hüquqda tənzimlənməyi tələb edən məsələyə oxşar olan məsələni nizama salan hüquq norması mövcud olmur. Bu zaman məsələ **hüququn analogiyası** üsulundan istifadə olunmaqla həll edilir. Belə ki, tənzimlənməyi tələb edən məsələ iqtisadi hüququn sahəvi (xüsusi) prinsipləri əsasında nizama salınır və həll olunur. İqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərinin əhəmiyyəti də məhz bundan ibarətdir.

İqtisadi hüququn sahəvi (xüsusi) prinsipləri ayrı-ayrı hüquq normalarında ifadə edilmişdir. Odur ki, onların məcburi hüquqi qüvvəsi vardır. Buna görə də iqtisadi hüququn bütün subyektləri həmin prinsipləri məcburən yerinə yetirməlidirlər. Məsələn, azad sahibkarlıq hüququ iqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərindən biridir ki, bu prinsip Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 59-cu maddəsində ifadə olunmuşdur. İqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi iqtisadi hüququn digər sahəvi (xüsusi) prinsipi hesab edilir ki, bu prinsip Konstitusiyanın 15-ci maddəsinin II hissəsində təsbit edilmişdir.

### 2.1.3. İqtisadi hüququn sahəvi prinsiplərinin məzmunu

İqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərindən biri **iqtisadi fəaliyyət azadlığı prinsipidir**. Bu prinsipə görə, şəxslər qanunla qadağan edilməyən istənilən növ iqtisadi fəaliyyəti həyata keçirmək imkanına malikdirlər. İqtisadi fəaliyyətin növləri isə kifayət qədər müxtəlifdir. Məsələn, bank fəaliyyəti, sığorta fəaliyyəti, sahibkarlıq fəaliyyəti, kommersiya fəaliyyəti, turizm fəaliyyəti və s. Şəxslər bu cür iqtisadi fəaliyyət növlərini yalnız qanunla nəzərdə tutulmuş qaydada həyata keçirə bilərlər.

İqtisadi fəaliyyət azadlığı prinsipi Konstitusiyanın 59-cu maddəsində təsbit olunmuşdur. Burada deyilir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Bu kimi konstitusion göstərişdə məhz iqtisadi fəaliyyət azadlığı prinsipi ifadə edilmişdir. Konstitusiyada ifadə edildiyinə görə adıçəkilən prinsip həm də konstitusiya hüququnun prinsipi kimi tanınır.

**İqtisadiyyatın müxtəlif mülkiyyət növləri əsasında inkişaf etdirilməsi prinsipi** iqtisadi hüququn digər sahəvi (xüsusi) prinsipi hesab olunur. Həmin prinsip öz ifadəsini bunda tapır ki, iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsasla-

nır. Mülkiyyətin növləri isə bunlardır: 1) dövlət mülkiyyəti; 2) xüsusi mülkiyyət, 3) bələdiyyə mülkiyyəti. İqtisadi hüquq subyektləri, adətən, mülkiyyətin bu növlərində olan əmlakdan istifadə etməklə iqtisadi fəaliyyətlə məşğul olurlar. Bu zaman mülkiyyətin hər hansı növünə üstünlük verilmir, iqtisadi fəaliyyət subyektləri üçün heç bir imtiyaz müəyyənləşdirilmir.

Sözügedən prinsip Konstitusiyanın 15-ci maddəsinin I hissəsində təsbit olunmuşdur. Odur ki, göstərilən prinsip həm də konstitusiya hüququnun prinsipi hesab edilir.

İqtisadi hüquq müəyyən edir ki, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir. Bu, yəni **iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi** isə iqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərindən biri kimi tanınır. Konstitusiyanın 15-ci maddəsinin II hissəsinin mahiyyətindən irəli gəlir ki, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yönələn fəaliyyətlə məşğul olmağa yol verilmir. Bu göstərişdə məhz sözügedən prinsip təsbit olunmuşdur.

İqtisadi hüququn belə prinsipdən çıxış etməsi təbii olub, təsadüfi xarakter daşımır. Axı iqtisadi hüquq inhisarçılığa və haqsız rəqabətə yönələn hər hansı fəaliyyətin həyata keçirilməsini qadağan edir. İnhisar elə bir vəziyyətdir ki, bu vəziyyətdə hər hansı mal və ya xidmətin bazarda cəmi bir satıcısı olur və şəxslər müəyyən fəaliyyətin həyata keçirilməsi üçün müstəsna hüquq əldə edir. Məhz belə hüquq inhisarçılığa (bazarın inhisarlaşdırılmasına, yəni bazarın inhisara alınmasına) imkan verir. Haqsız rəqabət isə mal istehsalının və satışının ən əlverişli şəraitinə malik olmanı pozur. Nəzərdən qaçırmaq olmaz ki, mal istehsalı və satışı ən əlverişli şəraitdə həyata keçirilməlidir.

İqtisadi hüququn sahəsi (xüsusi) prinsipləri sırasına **vahid iqtisadi məkan prinsipi** də daxildir. Bu prinsipə görə, mallar, xidmətlər və maliyyə vəsaitləri Azərbaycan Respublikasının bütün ərazisində sərbəst hərəkət edir. Yeri gəlmişkən, qeyd edək ki, sözügedən prinsip həm də mülki hüququn prinsipi kimi tanınır. Mülki hüququn əsas mənbəyi olan Mülki Məcəllə-

nin (bundan sonra – MM) 6-cı maddəsində mülki qanunvericiliyin əsaslandığı prinsiplər sırasında malların, xidmətlərin və maliyyə vəsaitlərinin bütün ölkə ərazisində sərbəst hərəkət etməsi prinsipinin də adı çəkilir (MM, maddə 6.4). Odur ki, həmin prinsip sahələrarası prinsip hesab edilir. Hüquq nəzəriyyəsinə görə, hüquqi prinsiplər üç növə bölünür ki, bu növlərdən biri sahələrarası prinsiplər, digər iki növ isə hüququn əsas (ümumi) və sahəvi (xüsusi) prinsipləridir.[1] İki və daha artıq hüquq sahəsinə aid olan və onların xüsusiyyətlərini özündə ifadə edən əsas başlanğıclara sahələrarası prinsiplər deyilir. Buna görə də vahid iqtisadi məkan prinsipi həm iqtisadi, həm də mülki hüququn prinsipi kimi tanınır.

İqtisadi hüquq həm də belə bir sahəvi (xüsusi) prinsipdən çıxış edir ki, iqtisadi hüquqlar qorunur. Söhbət **iqtisadi hüquqların qorunması prinsipindən** gedir. Həmin prinsip öz ifadəsini bunda tapır ki, iqtisadi hüquqlar qanunla tənzimlənir və onların həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir. Əgər iqtisadi hüquqlar qanunla tənzimlənərsə və onların həyata keçirilməsinə dövlət tərəfindən təminat verilərsə, bu o deməkdir ki, iqtisadi hüquqlar qorunur. Deməli, iqtisadi hüquqların qorunması dedikdə bu hüquqların qanunla hüquqi tənzimlənməsi və onların həyata keçirilməsinə dövlət tərəfindən təminat verilməsi başa düşülür.

Bəzən iqtisadi hüquqlar pozulur. Belə halda söhbət iqtisadi hüquqların qorunmasından deyil, onların müdafiəsindən gedə bilər. Bu zaman qadağan olunmayan üsul və vasitələrlə subyektlərin malik olduqları iqtisadi hüquqlar müdafiə edilir. İqtisadi hüquqlar o halda müdafiə olunur ki, onlar pozulmuş olsun. Pozulmuş iqtisadi hüquqlar isə bərpa olunmalıdır. Bu, yəni **pozulmuş iqtisadi hüquqların bərpası** iqtisadi hüququn digər sahəvi (xüsusi) prinsipi hesab edilir.

**Təsərrüfat subyektlərinin iqtisadi maraqlarının müdafiəsi** prinsipi də iqtisadi hüququn sahəvi (xüsusi) prinsipidir. Göstə-

---

[1] Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə. Bakı, 1995, s.108.

rilən prinsipə əsasən, təsərrüfat subyektlərinin mənafeləri mümkün olan hər cür üsul və vasitələrlə müdafiə edilir. Bu, iqtisadi inkişafa təsir göstərən vacib şərtlərdən biridir.

İqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərindən biri həm də belə bir prinsip hesab edilir ki, **dövlət iqtisadi münasibətlərə, əsasən, iqtisadi metodlar tətbiq etməklə təsir göstərir**. Bu prinsipə görə, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində və ona rəhbərlik edilməsində iqtisadi metodlar üstünlük təşkil edir. İqtisadi münasibətlərə dövlət təsiretməsi iki əsas üsulla həyata keçirilir: 1) inzibati metod; 2) iqtisadi metod. **İnzibati metod** dövlət tərəfindən direktiv tapşırıqları (əmr) verilməsinə əsaslanır ki, bununla ölkə iqtisadiyyatı idarə olunur və ona təsir göstərilir. Səlahiyyətli dövlət orqanları bu metoddan istifadə edərək qanun pozulmasının qarşısını alır, məcburi göstərişlər verir, pozuntu törədənləri məsuliyyətə cəlb edir.

İnzibati metoddan fərqli olaraq, **iqtisadi metod** idarə olunan iqtisadi subyektlərin müstəqilliyini və təşəbbüskarlığı məhdudlaşdırmır. Vahid vergi normaları tətbiq etmək əsas iqtisadi metoddur. Vergilər iqtisadiyyatın tənzimlənməsində mühüm rol oynayır. İxtira və sənaye nümunələrindən (onlar əqli mülkiyyət obyektləridir) geniş istifadə edən müəssisələrə vergi güzəştləri verilir.

Qiymət də iqtisadi metod hesab olunur. Bu, iqtisadiyyatı idarəetmənin vacib metodu sayılır. İqtisadi metodlar sırasına həm iqtisadi normativlər, həm də iqtisadi stimullaşdırma aiddir.[1] Bunlar elə metodlardır ki, onların vasitəsilə iqtisadiyyat idarə olunur və tənzimlənir.

**Mülkiyyət toxunulmazlığı prinsipi** də iqtisadi hüququn sahəvi (xüsusi) prinsipi kimi tanınır. Belə ki, iqtisadi və hüquq ədəbiyyatı səhifələrində mülkiyyət, hər şeydən əvvəl, iqtisadi kateqoriya kimi işlədilir.[2] İqtisadi kateqoriya kimi mülkiyyət iqtisadi münasibətlər deməkdir; o, «mülkiyyət-iqtisadi münasibət-

---

[1] Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Bakı, 1989, s. 96.

[2] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. Bakı, 2009, s. 18.

ləri» anlayışı ilə əhatə olunur.[1] Belə olan halda nə üçün və hansı səbəbdən mülkiyyət toxunulmazlığı prinsipi iqtisadi hüququn sahəvi (xüsusi) prinsipi hesab edilməsin? İqtisadi hüququn sahəvi (xüsusi) prinsipi kimi mülkiyyət toxunulmazlığı prinsipi öz ifadəsini bunda tapır ki, mülkiyyət-iqtisadi münasibətlərinə nə qəsd etmək, nə də onları pozmaq olar. Düzdür, hüququn sahələrindən biri olan mülki hüquq da belə bir prinsip müəyyənləşdirir (MM, maddə 6, 6.1.4-cü hissə). Deməli, əslində, mülkiyyət toxunulmazlığı prinsipi həm iqtisadi hüquqa, həm də mülki hüquqa aid olduğundan sahələrarası prinsip sayılır.

Mülkiyyət toxunulmazlığı prinsipinin təsbit olunmasına gəldikdə, qeyd etməliyik ki, bu prinsip Konstitusiyanın 13-cü maddəsinin I hissəsində formulə olunmuşdur. Burada deyilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

## 2.2. İqtisadi hüququn mənbələri

### 2.2.1. İqtisadi hüququn mənbələri anlayışı

Hüquq sahəsi kimi iqtisadi hüquq ayrı-ayrı və çoxsaylı hüquq normalarından ibarətdir. Bu normalar vasitəsi ilə iqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri tənzimləyir. İqtisadi hüququn ibarət olduğu həmin normalar (iqtisadi-hüquq normaları) zahirən, təbii ki, bu və ya digər formada ifadə edilir, mövcud olur. İqtisadi-hüquq normalarının ifadələnmə və mövcudolma formaları iqtisadi hüququn mənbələri adlanır.

**İqtisadi hüququn mənbələri** dedikdə onun ibarət olduğu hüquq normalarının (iqtisadi-hüquq normalarının) zahirən ifadələnmə və mövcudolma formaları (üsulları) başa düşülür. Başqa sözlə, iqtisadi-hüquq normaları hansı formalarda ifadə edilir və

---

[1] Mülkiyyət-iqtisadi münasibətləri barədə bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред Е.А.Васильев, А.С.Комаров. М., 2004, с.330.

mövcud olursa, həmin formalar da iqtisadi hüququn mənbələri sayılır. Unutmaq olmaz ki, hər hansı forma (üsul) olmadan iqtisadi-hüquq normaları zahirən nə ifadə edilə, nə də mövcud ola bilər. Odur ki, iqtisadi hüququn mənbələri iqtisadi-hüquq normalarının zahirən bir tərəfdən ifadə edilmə, digər tərəfdən mövcudolma formalarıdır. Təsadüfi deyildir ki, «iqtisadi hüququn mənbələri» iqtisadi-hüquq normalarının zahirən ifadə və mövcudolma formalarını bildirmək üçün işlədilən anlayışdır. Bu səbəbdən iqtisadi hüququn mənbələrinə **iqtisadi hüququn formaları** da deyilir. Onlar, yəni «iqtisadi hüququn mənbələri» və «iqtisadi hüququn formaları» məzmunca, demək olar ki, üst-üstə düşən eynimənalı (sinonim) anlayışlardır.

İqtsadi-hüquq normalarının zahirən ifadələnmə və mövcudolma formalarına gəldikdə, qeyd etməliyik ki, belə formalar kifayət qədər müxtəlifdir. Söhbət, hər şeydən əvvəl, rəsmi dövlət sənədlərindən gedir: məsələn, qanun, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və s. Bu kimi rəsmi sənədlərdə dövlət orqanlarının müəyyənləşdirdiyi iqtisadi-hüquq normaları ifadə edilir və mövcud olur ki, həmin normalar məcburi hüquqi qüvvəyə malikdir. Deməli, iqtisadi hüququn mənbələri iqtisadi-hüquq normalarının ifadə edildiyi və mövcud olduğu rəsmi dövlət sənədidir.

İqtisadi hüququn mənbələrinin böyük əhəmiyyəti vardır. Söhbət, ilk növbədə, onların **nəzəri əhəmiyyətə** malik olmasından gedir. Belə ki, iqtisadi hüququn mənbələri haqqında söylənilən elmi-nəzəri fikir iqtisadi hüququ digər hüquq sahələrindən fərqləndirməyə imkan verir. İqtisadi hüququn mənbələrinin həm də **praktiki əhəmiyyəti** vardır. Belə ki, iqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri iqtisadi-hüquq normaları vasitəsi ilə tənzimləyir. Həmin münasibətlərə tətbiq olunan hüquq normasının iqtisadi hüquqa aid olmasını məhz iqtisadi hüququn mənbələri əsasında müəyyənləşdirmək mümkün olur. İqtisadi hüququn mənbələri həm də bunu müəyyən etməyə imkan verir ki, iqtisadi fəaliyyətin

hüquqi tənzimlənməsi üçün praktikada hansı aktlar tətbiq edilə bilər. Məsələn, iqtisadi-hüquqi tənzimetmə praktikasında məhkəmə qərarı kimi sənəd tətbiq oluna bilməz, çünki belə sənəd hüququn, o cümlədən iqtisadi hüququn mənbəyi kimi tanınmır. Nəzərə almaq lazımdır ki, iqtisadi fəaliyyəti tənzimləməkdən ötrü praktikada yalnız iqtisadi hüququn mənbəyi (ümumiyyətlə, hüququn mənbəyi) olan sənədlər tətbiq oluna bilər. İqtisadi hüququn mənbələrinin praktiki əhəmiyyəti də məhz bundan ibarətdir.

### 2.2.2. İqtisadi hüququn mənbə növləri

İqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri hansı vasitə ilə tənzimləyirsə, o da iqtisadi hüququn mənbə növü hesab edilir. Söhbət zahiri ifadə formasına malik olan hüquq tənzimləyicisindən gedir; bu kimi tənzimləyici iqtisadi hüququn mənbə növü adlanır.

**İqtisadi hüququn mənbə növü** dedikdə zahiri ifadə formasına malik olan elə hüquq tənzimləyicisi başa düşülür ki, belə tənzimləyici vasitəsi ilə iqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri nizama salır. Ayrı-ayrı belə növlər sistem halında birləşmişdir; bu cür birləşmə iqtisadi hüququn mənbələrinin sistemi adlanır. İqtisadi hüququn mənbələrinin sistemi isə iyerarxiya prinsipinə əsaslanır. Bu prinsipə görə, həmin sistemdə yuxarı yer tutan mənbə növü özündən sonrakı mənbə növündən yüksək hüquqi qüvvəyə malikdir.

**Normativ hüquqi aktlar** iqtisadi hüququn əsas mənbə növüdür. Söhbət iqtisadi münasibətlər sahəsində qəbul olunan normativ hüquqi aktlardan gedir. Səlahiyyətli dövlət orqanları həmin sahədə, demək olar ki, çoxsaylı aktlar qəbul etmişdir. Bu aktlar ayrı-ayrı iqtisadi məsələlərin hüquqi tənzimlənməsinə həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında Mülki Məcəllə qəbul edilənədək normativ hüquqi aktlar hüququn yeganə mənbəyi kimi tanınırdı. MM qəbul olunduqdan (1999-cu il) və qüvvəyə mindikdən sonra (2000-ci il) işgüzar adətlər də

hüququn mənbəyi kimi tanındı. Hüquqi adətlərin növlərindən biri olan **işgüzar adətlər** sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən davranış qaydasıdır. Lakin bu qayda hər hansı sənəddə qeyd edilib-edilməməsindən asılı olmayaraq, qanunvericilikdə nəzərdə tutulmur (MM, maddə 10). Bəzən işgüzar adətlər ədəbiyyat səhifələrində işgüzar dövriyyə adətləri kimi də göstərilir. İşgüzar dövriyyə adətləri nəinki mülki, həmçinin iqtisadi hüququn mənbə növüdür.

**Beynəlxalq müqavilələr** iqtisadi hüququn digər mənbə növü sayılır. Belə ki, iqtisadi hüququn mənbələri sisteminə həm də beynəlxalq müqavilələr daxildir. Bu, heç də təsadüfi xarakter daşımır. Konstitusiyanın 148-ci maddəsinin II hissəsində deyilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Bu konstitusion göstəriş belə deməyə əsas verir ki, beynəlxalq müqavilə Azərbaycan Respublikasının hüquq sisteminə daxil olan iqtisadi hüququn da mənbəyidir.

Beləliklə, iqtisadi hüququn üç mənbə növü vardır ki, onlar aşağıdakılardan ibarətdir: 1) normativ hüquqi aktlar; 2) hüquqi adətlər (işgüzar adətlər); 3) beynəlxalq müqavilələr.

Bəzi xarici ölkələrdə (ingilis-sakson hüquq sisteminə daxil olan ölkələrdə – məsələn, ABŞ, İngiltərə və s.) hüquqi presedent hüququn əsas və geniş yayılmış mənbəyi kimi tanınır. **Hüquqi presedent** dedikdə dövlət orqanının (məsələn, məhkəmə və ya inzibati orqanın) konkret iş üzrə əvvəllər çıxardığı qərarın sonralar oxşar işlərin həlli zamanı məcburi qüvvəsi olan hüquq norması hesab edilməsi başa düşülür. Onun iki növü fərqləndirilir: 1) məhkəmə presedenti; 2) inzibati presedent. **Məhkəmə presedenti** dedikdə konkret iş üzrə məhkəmə qərarının sonralar oxşar işlərə tətbiq edilməsi başa düşülür. **İnzibati presedent** isə konkret iş üzrə inzibati orqanın qəbul etdiyi qərarın sonralar oxşar işlərin həlli zamanı hüquq norması kimi tətbiq olunması deməkdir.

Azərbaycan Respublikasının milli hüquq sistemi hüquqi presedenti hüququn mənbəyi kimi tanımır. Odur ki, hüquqi presedent iqtisadi hüququn mənbəyi ola bilməz. Unutmaq olmaz ki, məhkəmənin konkret iş üzrə qəbul etdiyi qərar yalnız həmin işdə iştirak edən şəxslər üçün məcburidir. Belə qərarın oxşar işlərə baxan hakimlər üçün məcburi qüvvəsi yoxdur.

Azərbaycan Respublikasının milli hüquq sistemi **hüquq elmini** də hüququn mənbəyi kimi qəbul etmir. Bu səbəbdən hüquq elmlərindən biri olan iqtisadi hüquq elmi (doktrina) iqtisadi hüququn mənbəyi ola bilməz. Nəzərdən qaçırmaq olmaz ki, alimlərin iqtisadi hüquqa dair məsələlər barədə elmi fikirlərinin məcburi qüvvəsi yoxdur.

Qeyd etmək lazımdır ki, cəmiyyətdə qanunçuluq və hüquq qaydası təmin edilməlidir. Bunun üçün qanunvericilik, o cümlədən iqtisadi qanunvericilik eyni qaydada tətbiq olunmalıdır. Digər tərəfdən, iqtisadi qanunvericilik eyni cür başa düşülməlidir. Bunlar üçün isə (iqtisadi qanunvericiliyin həm eyni cür tətbiq edilməsi, həm də başa düşülməsi üçün) məhkəmə praktikasının böyük əhəmiyyəti vardır. Lakin, buna baxmayaraq, məhkəmə praktikası hüququn, o cümlədən iqtisadi hüququn mənbəyi hesab olunmur. **Məhkəmə praktikası** dedikdə məhkəmələrin ayrı-ayrı kateqoriya işləri dəfələrlə eyni cür həll etməsi başa düşülür.

Azərbaycan Respublikasının Ali Məhkəmə Plenumu ümumiləşdirilmiş materiallara baxır və məhkəmə təfsiri qaydasında qanunvericiliyin tətbiqinə dair rəhbər izahatlar verir. Söhbət **Ali Məhkəmə Plenumunun rəhbər izahatlarından** gedir ki, belə izahatlar qanunvericiliyin məhkəmə tərəfindən təfsir edilməsi növüdür. Burada məhkəmələrdə işlərə baxıldıqda qanunvericiliyin tətbiqi məsələsinə dair ortaya çıxan suallar izah ediki, 2016, s.306-337.

Uçebnik. M., 2001, s. 3.

iqtisadi hüququn mənbəyi hesab olunmur. Nəzərdən qaçırmaq olmaz ki, Konstitusiyanın 7-ci maddəsinin III hissəsi hakimiyyətin bölgüsü prinsipindən çıxış edir; bu prinsipə görə, məhkə-

mə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Məhkəmələrin isə qanunlar qəbul etmək və hüquq normaları yaratmaq səlahiyyəti yoxdur. Hakimiyyətin bölgüsü prinsipinə görə, belə səlahiyyətə Milli Məclis malikdir. Odur ki, məhkəmə orqanlarının qərarları hüququn mənbəyi ola bilməz. Lakin məhkəmələr içərisində **Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi** elə qərarlar qəbul edir ki, normativ əhəmiyyətə malik olan və yeni hüquq normaları yaradan həmin qərarlar hüququn mənbəyi kimi tanınır.

### 2.2.3. İqtisadi hüququn ayrı-ayrı mənbə növləri

#### 2.2.3.1. Normativ hüquqi aktlar – iqtisadi hüququn əsas mənbə növü kimi

İqtisadi hüququn mənbəyi olan **normativ hüquqi aktlar** iki yerə bölünür: 1) qanunlar; 2) qanunqüvvəli aktlar. **Qanunlar** iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsində vacib rol oynayır. Yaddan çıxarmamalıyıq ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi, əsasən, qanunlar vasitəsilə həyata keçirilir. Söhbət iqtisadi sahədə qəbul olunan qanunlardan gedir ki, onlar bu və ya digər iqtisadi məsələni tənzimləyir.

Qanunlar içərisində **Azərbaycan Respublikasının Konstitusiyası** xüsusi əhəmiyyətə malikdir. Dövlətin əsas qanunu olan Konstitusiya iqtisadi hüququn başlıca mənbəyi hesab olunur. Burada elə normalar nəzərdə tutulmuşdur ki, bu normalar iqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərini (məsələn, iqtisadi fəaliyyət azadlığı prinsipi və s.) ifadə edir. Konstitusiya həm də iqtisadi hüququn yarımsahələrinə aid olan sahədaxili prinsipləri formulə edir. Məsələn, Konstitusiyanın 59-cu maddəsi azad sahibkarlıq fəaliyyəti prinsipindən çıxış edir ki, bu, iqtisadi hüququn yarımsahələrindən biri olan sahibkarlıq hüququnun prinsipi sayılır. Konstitusiyanın 15-ci maddəsinin II hissəsi rəqabət və inhisarçılıqdan müdafiə prinsipi təsbit edir ki, bu, iqtisadi hüququn yarımsahələrindən biri olan rəqabət hüququnun prinsiplərindən biri kimi tanınır.

Konstitusiyanın iqtisadi hüququn mənbəyi kimi xüsusi əhəmiyyəti həm də bununla müəyyən edilir ki, burada iqtisadi hüquqlar təsbit olunmuşdur. Belə ki, Konstitusiyada təsbit olunan hüquqlar üç növə bölünür; bu növlərdən biri iqtisadi hüquqlardır.[1] Digər növlər isə ictimai-siyasi və şəxsi (mülki) hüquqlardır. Məsələn, Konstitusiyanın 29-cu maddəsi mülkiyyət hüququnu təsbit edir ki, bu, iqtisadi hüquqdur və s.

İqtisadi hüququn mənbələri içərisində **sistemləşdirilmiş qanunlar** mühüm yer tutur. Sistemləşdirilmiş qanunlar (sistem halına salınmış qanunlar) dedikdə məcəllə formasında qəbul olunan qanunlar başa düşülür: məsələn, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, Mülki Məcəllə və s. Adıçəkilən məcəllələr iqtisadi hüququn vacib mənbəyidir. Mülki Məcəllə haqqında xüsusi olaraq ayrıca danışmaq lazımdır. Təsadüfi deyildir ki, hüquq ədəbiyyatı səhifələrində Mülki Məcəllə ali iqtisadi qanun və ölkənin ikinci – iqtisadi konstitusiyası kimi xarakterizə olunur.[2] Burada iqtisadi məsələləri, xüsusən də sahibkarlığı tənzimləyən çoxsaylı hüquq normaları nəzərdə tutulmuşdur.

Digər qanunlar da həmçinin iqtisadi hüququn mənbəyi hesab edilir. Məsələn, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1992-ci il), «Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının Qanunu (1995-ci il), «Müflisləşmə və iflas haqqında» Azərbaycan Respublikasının Qanunu (1997-ci il), «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il), «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1993-cü il), «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu (2004-cü il) və s.

«Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (2000-ci il) özəlləşdirmə ilə bağlı məsələləri tənzimləyir. Bu qanun Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati,

---

[1] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011. s. 35.

[2] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011. s. 214.

iqtisadi və hüquqi əsaslarını müəyyən edir. Dövlət əmlakının özəlləşdirilməsinin iqtisadi əsaslarını müəyyən etdiyinə görə adıçəkilən qanun iqtisadi hüququn mənbəyi hesab olunur.

**Qanunqüvvəli aktlar** da iqtisadi hüququn mənbəyidir. Belə aktlara aiddir: 1) Azərbaycan Respublikası Prezidentinin fərmanları; 2) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları; 3) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. Göstərilən aktlar əgər bu və ya digər iqtisadi məsələnin tənzimlənməsinə həsr olunarsa, onlar iqtisadi hüququn mənbəyi qismində çıxış edir.

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı** ilə (2000-ci il) «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» təsdiq edilmişdir ki, bu proqramın əsas məqsədi bunlardan ibarətdir: 1) dövlət əmlakının özəlləşdirilməsini həyata keçirmək; 2) iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək; 3) bazar münasibətlərinin iqtisadi əsası kimi özəl mülkiyyətçilər təbəqəsini genişləndirmək; 4) iqtisadiyyata investisiyalar cəlb etmək yolu ilə onun inkişafına nail olmaq və s.

«Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2011-ci il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafına daha əlverişli biznes mühiti formalaşdırmaq üçün vahid xüsusi razılıq (lisenziya) və icazə sisteminin yaradılmasına yönəlmişdir. Bu kimi vahid sistemin yaradılması ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müxtəlif dövlət orqanlarından çoxsaylı icazələr alınması hallarını aradan qaldırır; çoxlu sayda icazələrin alınması isə öz növbəsində sahibkarlığın inkişafına, məşğulluğun artmasına və iqtisadiyyata investisiya qoyuluşu prosesinə mənfi təsir göstərir.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları** Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxildir. Bu səbəbdən onlar hüququn, o cümlədən iqtisadi hüququn

mənbəyi hesab olunur. Nazirlər Kabineti xeyli sayda qərar qəbul etmişdir ki, həmin qərarlar iqtisadi məsələlərin hüquqi tənzimlənməsinə yönəlmişdir.

Azərbaycan Respublikasının qanunvericilik sistemi həm də **mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından** ibarətdir. Odur ki, belə aktlar hüququn, o cümlədən iqtisadi hüququn mənbəyi sayılır. Mərkəzi icra hakimiyyəti orqanlarına, misal olaraq, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və s. qurumları göstərmək olar ki, onların normativ aktları iqtisadi hüququn mənbəyi kimi mühüm əhəmiyyətə malikdir.

### 2.2.3.2. İşgüzar dövriyyə adətləri – iqtisadi hüququn mənbəyi qismində

Əvvəllərdə qeyd etdiyimiz kimi, işgüzar dövriyyə adətləri işgüzar adətlər də adlanır. Mülki qanunvericilikdə məhz «işgüzar adətlər» termini işlədilir; MM-in 10-cu maddəsi işgüzar adətləri xarakterizə edən əsas əlamətləri müəyyənləşdirir.

İşgüzar adətlər sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində formalaşan və geniş tətbiq edilən davranış qaydasıdır. Bu, işgüzar adətlərin **birinci əlamətidir**. İşgüzar adətlər qanunvericilikdə nəzərdə tutulmayan davranış qaydasıdır. Bu, işgüzar adətlərin **ikinci əlamətidir**. Lakin işgüzar adətlərin tətbiq olunması onların hər hansı aktda qeyd edilib-edilməməsindən asılı deyildir. Belə ki, işgüzar adətlər bu və ya digər aktda ehtiva edilib-edilməməsindən asılı olmayaraq tətbiq edilir. Nəzərə almaq lazımdır ki, işgüzar adətlər hansısa aktda qeyd edilə də bilər, edilməyə də. Bunun işgüzar adətlərin tətbiq olunması üçün hüquqi əhəmiyyəti yoxdur.

**İşgüzar adətlər** dedikdə sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində formalaşan və geniş tətbiq edilən elə davranış qaydası başa düşülür ki, bu qayda qanunvericilikdə nəzərdə tutulmur və hansısa aktda qeyd edilib-edilməməsindən asılı olmayaraq tətbiq edilir. İşgüzar adətlərdən o halda istifadə olunur ki, sahibkarlıq fəaliyyətinin bu və digər sahəsində hansısa məsələni

normativ hüquqi aktlar vasitəsilə tənzimləmək mümkün olmasın.

İşgüzar adətlər hüquqi adətlərin bir növüdür. **Hüquqi adətlər** dedikdə tarixən dəfələrlə təkrarlanan və dövlət tərəfindən ümumməcburi qayda kimi sanksiyalaşdırılan (tanınan və müdafiə olunan) davranış qaydası başa düşülür. Odur ki, hüquqi adətlər hüququn mənbəyidir.

Ticarət adətləri hüquqi adətlərin digər növüdür. **Ticarət adətləri** dedikdə ticarət sahəsində tətbiq edilən elə davranış qaydası başa düşülür ki, bu qayda daim və eyni cür təkrarlanan konkret faktik münasibətlər əsasında əmələ gəlir. Həmin qayda o halda hüquq norması kimi qəbul və tətbiq edilir ki, dövlət onu sanksiyalaşdırmış olsun. Ticarət adətləri iqtisadi hüququn mənbəyidir.

Həm beynəlxalq, həm də dəniz ticarəti fəaliyyətində ticarət adətlərinin mühüm əhəmiyyəti vardır. Qanunvericiliklə tənzimlənməyən xarici iqtisadi əməkdaşlıq formalarının nizama salınmasında onların rolu xüsusilə böyükdür. Ticarət adətləri həm də xarici iqtisadi-ticarət əqdlərinə tətbiq olunur.

Beynəlxalq praktikada beynəlxalq-hüquqi adətlərdən də istifadə edilir. Beynəlxalq müqavilələrlə yanaşı, beynəlxalq-hüquqi adətlər də beynəlxalq iqtisadi hüququn əsas mənbə növü sayılır. Əgər dövlətlərarası beynəlxalq iqtisadi münasibətləri beynəlxalq müqavilələr vasitəsi ilə tənzim etmək mümkün olmazsa, onda həmin münasibətləri nizama salmaq üçün beynəlxalq-hüquqi adətlərdən istifadə olunur. **Beynəlxalq-hüquqi adətlər** dedikdə beynəlxalq praktikada dövlətlərin eyni hərəkətlərinin (və ya hərəkətsizliyinin) uzun müddət təkrarlanması yolu ilə tədricən formalaşan və onlar tərəfindən sanksiyalaşdırılan, yəni məcburi qüvvəsi olan və hüquq norması kimi tanınan davranış qaydası başa düşülür.[1]

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq.Dərslik. Bakı, 2016, s.122.

### 2.2.3.3. Beynəlxalq müqavilələr – iqtisadi hüququn mənbəyi kimi

Konstitusiyanın 148-ci maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Buna görə də beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ibarət olduğu və bölündüyü ayrı-ayrı hüquq sahələrinin, o cümlədən iqtisadi hüququn mənbəyi sayılır. **Beynəlxalq müqavilə** dedikdə dövlətlər və və ya beynəlxalq hüququn digər subyektləri arasında yazılı formada bağlanan saziş başa düşülür. Onun adı və forması müxtəlif ola bilər: müqavilə, saziş, konvensiya, pakt, nizamnamə, statut, protokol, məktublarla və ya notalarla mübadilə və s.

Beynəlxalq müqavilələr məzmununa görə müəyyən növlərə bölünür ki, beynəlxalq iqtisadi müqavilələr onlardan biridir. İqtisadi hüququn mənbəyi rolunda məhz beynəlxalq iqtisadi müqavilələr çıxış edir. **Beynəlxalq iqtisadi müqavilələr** dedikdə ticarət, investisiya qoyulması, borc-kredit verilməsi, iqtisadi və texniki yardım haqqında müqavilələr və s. başa düşülür. Əgər beynəlxalq müqavilənin məzmunu sırf iqtisadi məsələlərdən (ticarət, kredit, nəqliyyat, investisiya və s.) ibarət olarsa, həmin müqavilə beynəlxalq iqtisadi müqavilə hesab edilir. Beynəlxalq iqtisadi müqavilənin bir neçə növü fərqləndirilir: 1) beynəlxalq ticarət müqaviləsi; 2) beynəlxalq kredit sazişi; 3) beynəlxalq nəqliyyat sazişi; 4) beynəlxalq investisiya sazişi və s.[1] Azərbaycan Respublikası ayrı-ayrı xarici dövlətlərlə (məsələn, Rusiya Federasiyası, Türkiyə, İran, Portuqaliya və digər ölkələrlə) iqtisadi beynəlxalq müqavilələr bağlamışdır.

Konstitusiya beynəlxalq müqavilələri təkcə Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz təkrib hissəsi hesab etmir. Konstitusiya həm də onları üstün hüquqi qüvvə ilə təmin edir. Belə ki, Konstitusiyanın 151-ci maddəsinə görə, əgər Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.118.

olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

## 2.3. İqtisadi hüququn subyektləri

### 2.3.1. İqtisadi hüquq subyektlərinin anlayışı, ümumi əlamətləri və növləri

#### 2.3.1.1. İqtisadi hüququn subyektləri anlayışı

Hər bir hüquq sahəsinin özünün ayrıca subyektləri vardır. Məsələn, vətəndaşlar, hüquqi şəxslər, Azərbaycan Respublikası (dövlət) və bələdiyyələr mülki hüququn subyektləridir. İnzibati hüququn subyektlərinə dövlət icra (idarəetmə) hakimiyyət orqanları, fiziki şəxslər, idarə, müəssisə və təşkilatlar daxildir. Cinayət hüququnun subyektləri isə məhkəmə, prokurorluq və istintaq orqanlarından və cinayət törətmiş şəxslərdən ibarətdir və s.[1] Bəs iqtisadi hüququn subyektləri hansılardır ?

**İqtisadi hüququn subyektləri** dedikdə iqtisadi-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları başa düşülür. Hansı şəxs və qurum iqtisadi-hüquq münasibətində iştirak edə bilərsə (iqtisadi-hüquq münasibətinin iştirakçısı ola bilərsə), o da iqtisadi hüququn subyekti hesab edilir. Ona görə də, ilk növbədə, müəyyən etməliyik ki, iqtisadi-hüquq münasibətində hansı şəxs və qurumlar iştirak edə bilər.

İqtisadi-hüquq münasibətində, hər şeydən əvvəl, fiziki şəxslər çıxış edirlər. Axı fiziki şəxslərin qanunla qadağan olunmamış iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququ vardır ki, bu hüquq Konstitusiyanın 59-cu maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə görə, hər kəs, yəni istənilən fiziki şəxs qanunla qadağan edilməmiş bu və ya digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Sözügedən konstitusion göstərişdə

---

[1] *Ayrı-ayrı hüquq sahələrinin subyektləri barədə bax:* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, 444 s.

iqtisadi fəaliyyət azadlığı prinsipi ifadə edilmişdir ki, bu, iqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərindən biridir. İqtisadi fəaliyyət azadlığı təkcə iqtisadi hüququn sahəvi (xüsusi) prinsipi demək deyildir; iqtisadi fəaliyyət azadlığı həm də subyektiv iqtisadi hüquq olub, insan hüquqları (təbii hüquqlar) sırasına aid edilir. Odur ki, dövlət özbaşına həmin hüququ məhdudlaşdıra bilməz.[1]

İqtisadi fəaliyyətlə azad məşğul olmaq hüququnu (iqtisadi fəaliyyət azadlığı) həyata keçirərkən fiziki şəxslər iqtisadi-hüquq münasibətinin iştirakçısı olurlar. Söhbət fiziki şəxslərin iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn iqtisadi-hüquq münasibətində iştirak etmələrindən gedir. Odur ki, **fiziki şəxslər** iqtisadi hüququn subyektidirlər. Onlar öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək bilavasitə iqtisadi fəaliyyətlə məşğul ola bilər. Deməli, fiziki şəxslər iqtisadi fəaliyyət subyektləridir.

İqtisadi fəaliyyətlə məşğul olmaq hüququna təkcə fiziki şəxslər malik deyildir. İqtisadi fəaliyyətlə məşğul olmaq hüququ həm də hüquqi şəxslərə (kommersiya təşkilatları, banklar, nəqliyyat, ticarət və digər müəssisələr) məxsusdur. Hüquqi şəxslər onlara verilmiş bu hüquqdan istifadə edən zaman iqtisadi-hüquq münasibətinin, yəni iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn hüquq münasibətinin iştirakçısı olur. Buna görə də **hüquqi şəxslər** iqtisadi hüququn subyekti hesab edilirlər; onlar həmçinin iqtisadi fəaliyyət subyektləridir. İqtisadi fəaliyyət subyekti olan hüquqi şəxslərə, misal olaraq, sığorta təşkilatlarını, ticarət müəssisələrini, bankları, bank olmayan kredit təşkilatlarını, kənd təsərrüfatı müəssisələrini, nəqliyyat təşkilatlarını və s. göstərmək olar.

Fiziki və hüquqi şəxslərin məşğul olduqları iqtisadi fəaliyyət növlərinə gəldikdə isə, qeyd etmək lazımdır ki, iqtisadi fəaliyyət növləri kifayət qədər müxtəlifdir. Söhbət aşağıdakı iqtisadi fəaliyyət növlərindən gedir: 1) bank fəaliyyəti; 2) sa-

---

[1] Гаджиев Г.А. Зашита основных экономических прав и свобод предпринимателей за рубежом и в Российской Федерации. М., 1995, с.126-127.

hibkarlıq fəaliyyəti; 3) ticarət fəaliyyəti; 4) kredit fəaliyyəti (bu fəaliyyət növü ilə bank olmayan kredit təşkilatları məşğul olur); 5) nəqliyyat fəaliyyəti; 6) investisiya fəaliyyəti; 7) turizm fəaliyyəti; 8) kommersiya fəaliyyəti; 9) gömrük fəaliyyəti; 10) kənd təsərrüfatı fəaliyyəti; 11) sığorta fəaliyyəti və s. Hansı şəxs bu kimi fəaliyyət növləri ilə məşğul olursa, həmin şəxs iqtisadi fəaliyyət subyekti hesab edilir. İqtisadi fəaliyyət növlərinin hüquqi tənzimlənməsi isə iqtisadi hüququn ayrı-ayrı müvafiq yarımsahələri vasitəsi ilə həyata keçirilir. Məsələn, ticarət fəaliyyəti ticarət hüququ, bank fəaliyyəti bank hüququ, turizm fəaliyyəti turizm hüququ, kənd təsərrüfatı fəaliyyəti aqrar hüquq, investisiya fəaliyyəti investisiya hüququ və s. ilə tənzimlənir. Xatırlatmaq istərdik ki, ticarət hüququ, bank hüququ, turizm hüququ, aqrar hüquq, investisiya hüququ və s. İqtisadi hüququn ayrı-ayrı yarımsahələridir.

Qeyd etmək vacibdir ki, xarici ölkələrdə fiziki və hüquqi şəxslər iqtisadi hüququn əsas subyekti hesab edilir. Ticarət məcəllələri qəbul olunmuş xarici ölkələrdə kommersant anlayışından istifadə olunur.[1] Məsələn, Yaponiya Ticarət Məcəlləsinə görə, sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs kommersant adlanır.[2] Fransa Ticarət Məcəlləsinin 1-ci maddəsində gösərilir ki, kommersant dedikdə öz adından və öz hesabına ticarət əqdləri bağlayan və ticarət əməliyyatları aparan şəxs başa düşülür.

İqtisadi hüququn subyektləri təkcə iqtisadi fəaliyyətlə məşğul olmurlar. İqtisadi hüququn subyektləri həm də iqtisadi fəaliyyəti **tənzimləyir** və onun həyata keçirilməsinə **nəzarət** edirlər. Əgər müəyyən qurum iqtisadi fəaliyyəti tənzimləyir və onun həyata keçirilməsinə nəzarət edirsə, həmin qurum iqtisadi hüququn subyekti hesab olunur. Söhbət dövlət və bələdiyyə kimi qurumlardan gedir. Belə ki, dövlət ölkədə həyata keçirilən iqtisadi fəaliyyəti tənzimləyir və ona nəzarət edir. Bələdiyyə

---

[1] *Kommersant anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.418.

[2] Торговый кодекс Японии /Под общ. ред. Тэцуо Сато, В.С.Позднякова. М., 1993, с. 226 (URL: http://www.law.edu.ru/book/ – 24.11.2017 г.).

ərazilərində həyata keçirilən iqtisadi fəaliyyəti tənzimləmək və ona nəzarət etmək funksiyasını isə bələdiyyələr yerinə yetirir ki, onlar dövlət orqanları olmasalar da, hakimiyyət səlahiyyətinə malikdir.

Həm dövlət, həm də bələdiyyələr iqtisadi fəaliyyəti tənzimləyərkən iqtisadi-hüquq münasibəti əmələ gəlir ki, bu münasibətin iştirakçıları hakimiyyət səlahiyyətinə malik olan qurumlar (dövlət və bələdiyyələr) və iqtisadi fəaliyyət (təsərrüfat) subyektləridir. Hakimiyyət-tabeçilik xarakterində olan bu münasibət hakimiyyət səlahiyyətinə malik olan qurumlar (dövlət və bələdiyyələr) və iqtisadi fəaliyyət subyektləri arasında əmələ gəlir. Hansı qurum iqtisadi-hüquq münasibətinin iştirakçısı ola bilərsə, həmin qurum da iqtisadi hüququn subyekti hesab edilir. Odur ki, iqtisadi fəaliyyət subyektləri ilə yanaşı, **dövlət və bələdiyyələr** də iqtisadi hüququn subyekti kimi tanınır.

İqtisadi fəaliyyət həyata keçirilən zaman iqtisadi fəaliyyət subyektləri müvafiq hüquq və vəzifələrin daşıyıcısı olurlar ki, onlar (hüquq və vəzifələr) isə iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində əmələ gəlir. İqtisadi fəaliyyət tənzimləndiyi halda müvafiq hüquq və vəzifələrin daşıyıcısı dövlət və bələdiyyələr olur ki, belə hüquq və vəzifələr iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində yaranır. İqtisadi hüququn subyektləri dedikdə də məhz iqtisadi fəaliyyətin həyata keçirilməsi və tənzimlənməsi sahəsində hüquq və vəzifələr daşıyıcısı başa düşülür.

Beləliklə, iqtisadi hüququn subyektləri bunlardan ibarətdir: 1) fiziki şəxslər; 2) hüquqi şəxslər; 3) dövlət (Azərbaycan Respublikası); 4) bələdiyyələr. Fiziki və hüquqi şəxslər həm də iqtisadi fəaliyyət subyekti kimi tanınırlar. Ona görə ki, onlar bilavasitə iqtisadi fəaliyyətlə məşğul olurlar. Dövlət və bələdiyyələr isə iqtisadi fəaliyyət subyekti kimi tanınmırlar. Məsələ burasındadır ki, onlar bilavasitə iqtisadi fəaliyyəti həyata keçirmək səlahiyyətinə malik deyillər.

### 2.3.1.2. İqtisadi hüquq subyektlərinin ümumi əlamətləri

İqtisadi hüquq subyektləri müəyyən əlamətlərlə xarakterizə olunur. Bu əlamətlər iqtisadi hüquq subyektlərinin hamısı üçün ümumidir. Ümumi əlamətlər isə iqtisadi hüquq subyektlərinin hüquqi vəziyyətini müəyyənləşdirməyə imkan verir. **Legitimləşdirimə** belə əlamətlərdən biridir. Söhbət iqtisadi hüquq subyektlərinin legitimləşdirilməsindən gedir. İqtisadi hüquq subyektləri legitimləşdirilməzsə, onlar iqtisadi fəaliyyətin bu və ya digər növü ilə məşğul ola bilməzlər.

Legitimləşdirmə dedikdə iqtisadi hüquq subyektlərinin qanuniləşdirilməsi başa düşülür ki, bunun əsasında onlar iqtisadi fəaliyyətin bu və ya digər növünü həyata keçirə bilərlər. Legitimləşdirmə, hər şeydən əvvəl, iqtisadi hüquq subyektlərinin **dövlət qeydiyyatına alınmaları** vasitəsilə həyata keçirilir. Məsələn, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə görə, iqtisadi fəaliyyətin növlərindən biri olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün hüquqi şəxslərin dövlət qeydiyyatına alınmaları tələb edilir. Bu tələb hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçündür.

Göründüyü kimi, dövlət qeydiyyatına alınma legitimləşdirmə vasitələrindən biridir ki, bu vasitə hüquqi şəxslərə aiddir. Hüquqi şəxslərin dövlət qeydiyyatına alınmaları isə ayrıca qanunla nizama salınır. Söhbət «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunundan (2003-cü il) gedir; bu qanun hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı münasibətləri tənzimləyir.

**Uçota alınma** legitimləşdirmənin digər vasitəsidir. Məsələn, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci hissəsində deyilir ki, sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmalıdır ki, bu, vergi qanunvericiliyi ilə tənzimlənir.

**Lisenziyalaşdırma** da legitimləşdirmə vasitəsi sayılır. Bu vasitə bəzi fəaliyyət növlərinə lisenziya (xüsusi razılıq) veril-

məsini nəzərdə tutur. Lisenziya təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə müvafiq fəaliyyət növlərini həyata keçirməyə icazə verən rəsmi sənəddir. Lisenziya verilməsi ilə bağlı münasibətlər ayrıca normativ hüquqi aktla tənzimlənir. «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar» adlanan həmin akt Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.[1] Məsələn, bank fəaliyyəti lisenziya tələb edən iqtisadi fəaliyyət növlərindən biridir. Bank lisenziyası o şəxslərdən depozitlər və ya digər qaytarı-lan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliy-yatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıqdır.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə görə, sahibkarlıq fəaliyyəti lisenziya (xüsusi razılıq) tələb edən iqtisadi fəaliyyət növü hesab edilir. Nəzərdən qaçırmaq olmaz ki, sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız lisenziya əsasında həyata keçirilə bilər.

**Ayrıca əmlaka malik olmaq** iqtisadi hüquq subyektlərini xarakterizə edən əlamətlərdən digəridir. Əmlak iqtisadi fəaliyyətin bu və ya digər növünü həyata keçirmək üçün maddi baza rolunu oynayır. Odur ki, ayrıca əmlaka malik olmaq iqtisadi hüquq subyektlərini xarakterizə edən əsas əlamət hesab edilir.

Əmlaka malik olmağın hüquqi forması **mülkiyyət hüququdur**. Mülkiyyət hüququ mülkiyyətçiyə bilavasitə iqtisadi fəaliyyətlə məşğul olmağa, habelə onun tərəfindən yaradılmış müəssisəyə rəhbərlik etməyə maksimum imkan verir. Mülkiyyət hü-

---

[1] Lakin «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 15.03.2016-cı il tarixli 176-VQ nömrəli Qanunu qüvvəyə mindikdən sonra (01.06.2016-cı il) həmin qaydalar ləğv olunmuş, lisenziya və icazələrin verilməsinin daha təkmilləşdirilmiş qayda və prosedurları müəyyənləşdirilmişdir (URL:http://www.e-qanun.az – 21.06.2018-ci il).

ququ həmçinin imkan verir ki, mülkiyyətçi özünün təsis etdiyi müəssisənin fəaliyyət istiqamətlərini və həmin fəaliyyətin həyata keçirilməsinin şərtlərini müəyyənləşdirsin.

Mülkiyyət hüququ əmlaka malik olmağın yeganə hüquqi forması deyildir. İqtisadi fəaliyyətlə məşğul olmaq üçün subyekt həm də icarə, operativ idarəetmə və digər hüquqi formalarda əmlaka malik ola bilər.

Mülkiyyət hüququ əsasında ayrıca əmlaka malik olmaq bu və ya digər şəxsin iqtisadi hüququn subyekti kimi tanınmasının zəruri şərtidir. Məhz bu şərtə əməl olunması nəticəsində, necə deyərlər, iqtisadi hüquq subyekti meydana gəlir. İqtisadi hüquq subyektinin malik olduğu ayrıca əmlak onun balansında nəzərə alınır. Ayrıca əmlaka malik olmaq iqtisadi hüquq subyektinin müstəqil əmlak məsuliyyəti daşımasının əsasıdır. **Müstəqil əmlak məsuliyyəti daşımaq** isə iqtisadi hüquq subyektlərini xarakterizə edən ümumi əlamətlərdən biridir. Bu əlamət onu ifadə edir ki, iqtisadi hüquq subyektləri kontragentləri (digər iqtisadi dövriyyə iştirakçıları) və dövlət qarşısında öz əmlakı ilə məsuliyyət (əmlak məsuliyyəti) daşıyır. Hüquqi şəxsin təsisçiləri və ya əmlakının mülkiyyətçisi hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçilərin və ya mülkiyyətçinin öhdəliklərinə görə cavabdeh deyildir. Hüquqi şəxs yalnız öz öhdəlikləri üçün ona mənsub olan bütün əmlakla cavabdehdir (MM-in 52-ci maddəsinin 1-ci hissəsi). Bu o deməkdir ki, iqtisadi fəaliyyət subyekti olan hüquqi şəxslər tam əmlak məsuliyyəti daşıyırlar.

Hüquqi şəxsin təsisçilərinin məsuliyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, onların üzərinə yalnız bircə halda məsuliyyət qoyulur. Belə ki, hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar (MM-in 46-cı maddəsi).

**Hüquq subyektliyinə malik olmaq** iqtisadi hüquq subyektlərini xarakterizə edən ümumi əlamətlərdən biri sayılır. Əgər hər hansı iqtisadi fəaliyyət subyekti hüquq subyektliyinə malik olarsa, o, iqtisadi hüququn subyekti kimi tanınır. **Hüquq sub-**

**yektliyi** dedikdə subyektin iqtisadi hüquqla tənzimlənən ictimai münasibətlərin (iqtisadi-hüquq münasibətlərinin) iştirakçısı olmaq qabiliyyəti (imkanı) başa düşülür ki, iqtisadi-hüquq münasibətləri həm hakimiyyət, həm də qeyri-hakimiyyət xarakterində ola bilər. Söhbət hakimiyyət və qeyri-hakimiyyət xarakterli iqtisadi-hüquq münasibətlərinin iştirakçısı olmaq qabiliyyətindən (imkanından) gedir.

Hüquq subyektliyi üç zəruri elementdən ibarətdir: 1) hüquq qabiliyyəti; 2) fəaliyyət qabiliyyəti; 3) delikt qabiliyyəti. **Hüquq qabiliyyəti** dedikdə iqtisadi fəaliyyət subyektinin hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyəti (imkanı) başa düşülür. Onun dörd növü fərqləndirilir: 1) ümumi hüquq qabiliyyəti; 2) xüsusi hüquq qabiliyyəti; 3) məhdud hüquq qabiliyyəti; 4) müstəsna hüquq qabiliyyəti. **Ümumi hüquq qabiliyyəti** subyektə imkan verir ki, o, qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün lazım olan hüquqlara malik olsun və vəzifələr daşısın. Məsələn, iqtisadi fəaliyyət subyektlərindən biri olan kommersiya təşkilatları (kommersiya hüquqi şəxsləri) ümumi hüquq qabiliyyətinə malikdir. Ümumi hüquq qabiliyyətinə həm də **universal hüquq qabiliyyəti** deyilir.

Əgər subyekt öz nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət məqsədlərinə uyğun gələn hüquqlara malik ola və vəzifələr daşıya bilərsə, belə imkan (qabiliyyət) **xüsusi hüquq qabiliyyəti** adlanır. Məsələn, qeyri-kommersiya təşkilatlarının xüsusi hüquq qabiliyyəti vardır. Qeyri-kommersiya təşkilatları iqtisadi fəaliyyət növlərindən biri olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququna malikdir, bu şərtlə ki, sahibkarlıq fəaliyyəti qeyri-kommersiya təşkilatlarının yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə (bu məqsədlər qeyri-kommersiya təşkilatlarının nizamnaməsində göstərilir) nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin (MM-in 43-cü maddəsinin 6-cı hissəsi). Xüsusi hüquq qabiliyyəti həm də **məqsədli hüquq qabiliyyəti** adlanır.

Əgər iqtisadi fəaliyyət subyekti özünün təsis sənədlərində ümumi (universal) hüquq qabiliyyətini müstəqil surətdə məh-

dudlaşdırarsa, buna **məhdud hüquq qabiliyyəti** deyilir. Məsələn, iqtisadi fəaliyyət subyekti özünün nizamnaməsində müəyyənləşdirə bilər ki, onun fəaliyyəti bu və ya digər iqtisadi fəaliyyət növü ilə məhdudlaşsın. Belə halda subyekt, təbii ki, istənilən fəaliyyət növlərini deyil, yalnız həmin fəaliyyət növünü həyata keçirmək üçün zəruri olan hüquqlara malik ola və vəzifələr daşıya bilər.

**Müstəsna hüquq qabiliyyəti** iqtisadi hüquq subyektinə imkan verir ki, o, yalnız özü üçün seçdiyi iqtisadi fəaliyyət növü ilə məşğul olsun və həmin fəaliyyətin həyata keçirilməsi üçün lazım olan hüquqlara malik olmaqla müvafiq vəzifələr daşısın. Həmin subyektin qanunvericiliklə qadağan olunmuş digər iqtisadi fəaliyyət növlərini həyata keçirmək hüququ yoxdur. Məsələn, sığorta təşkilatları və banklar müstəsna hüquq qabiliyyətinə malikdirlər. «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa görə, sığorta təşkilatları yalnız sığorta fəaliyyəti ilə məşğul ola bilərlər. Onların bilavasitə fəaliyyət predmetinə nə istehsal, nə ticarət-vasitəçilik, nə də bank fəaliyyəti daxildir. Belə ki, sığorta təşkilatları istehsal, ticarət-vasitəçilik və bank fəaliyyəti ilə məşğul ola bilməzlər. Bankların da həmçinin qanunla qadağan edilmiş fəaliyyət növlərini həyata keçirmələrinə yol verilmir. Məsələ burasındadır ki, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin 1-ci hissəsinə görə, heç bir bank topdansatış və ya pərakəndə ticarət, nəqliyyat, kənd təsərrüfatı, istehsal, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola bilməz. Banklar yalnız bank fəaliyyəti ilə məşğul ola, eləcə də bank fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan hüquqlara malik ola və vəzifələr daşıya bilərlər. İnvestisiya fondları da müstəsna hüquq qabiliyyətinə malikdir.

**Fəaliyyət qabiliyyəti** iqtisadi fəaliyyət subyektinin öz hərəkətləri ilə hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir.

**Delikt qabiliyyəti** isə iqtisadi fəaliyyət subyektinin hüquqi məsuliyyət daşımaq və vurduğu zərərin əvəzini ödəmək qabiliyyətidir. Odur ki, iqtisadi hüquq subyekti kimi tanınması üçün

şəxs nəinki hüquq və fəaliyyət, həmçinin delikt qabiliyyətinə malik olmalıdır.

### 2.3.1.3. İqtisadi hüquq subyektlərinin hüquqi təsnifi

Müxtəlif meyarlara (əsaslara) görə iqtisadi hüquq subyektlərinin ayrı-ayrı növlərə bölünməsi hüquq elmində (doktrinada) **iqtisadi hüquq subyektlərinin hüquqi təsnifi** adlanır. **Mülkiyyətin növü** belə meyarlardan biridir. Məlum olduğu kimi, Konstitusiyanın 13-cü maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasında mülkiyyətin üç növü fərqləndirilir: 1) dövlət mülkiyyəti; 2) xüsusi mülkiyyət; 3) bələdiyyə mülkiyyəti. İqtisadi fəaliyyətlə məşğul olan müəssisələr də (hüquqi şəxslər) üç növə bölünür: 1) dövlət müəssisələri; 2) qeyri-dövlət (özəl) müəssisələri; 3) bələdiyyə müəssisələri. Dövlət mülkiyyəti əsasında təsis edilən və fəaliyyət göstərən müəssisələr **dövlət müəssisələri** adlanır. Əgər müəssisə xüsusi mülkiyyət əsasında təsis edilə və fəaliyyət göstərərsə, belə müəssisəyə **qeyri-dövlət (özəl) müəssisələr** deyilir. Bələdiyyə mülkiyyəti əsasında təsis edilən və fəaliyyət göstərən müəssisə isə **bələdiyyə müəssisəsi** adlanır. Həm dövlət, həm özəl, həm də bələdiyyə müəssisələri iqtisadi hüququn subyektləridir.

Malik olduqları **səlahiyyətin xarakteri** kimi meyara görə iqtisadi hüququn subyektləri aşağıdakı növlərə bölünür: 1) **bilavasitə iqtisadi fəaliyyətlə məşğul olan subyektlər** (məsələn, sahibkar statusu olan fiziki şəxslər, banklar, sığorta təşkilatları, investisiya fondları və s.); 2) **iqtisadi fəaliyyətin həyata keçirilməsinə rəhbərlik edən subyektlər** (məsələn, iqtisadi fəaliyyətin bu və ya digər növünü həyata keçirən müəssisə öz ayrıca və ayrıca olmayan struktur bölmələrinə, yəni filial, nümayəndəlik, şöbə və idarələrinə rəhbərlik edir); 3) **hakimiyyət xarakterli tənzimetməni həyata keçirən subyektlər** (məsələn, dövlət (yəni Azərbaycan Respublikası), bələdiyyələr.

**Hüquqi şəxs statusuna malik olması** kimi meyara görə iqtisadi hüquq subyektləri iki növə bölünür: 1) **hüquqi şəxs statusuna malik olan iqtisadi hüquq subyektləri** (məsələn, kom-

mersiya hüquqi şəxsləri, yəni tam ortaqlıqlar, kommandit ortaqlıqları, məhdud məsuliyyətli cəmiyyətlər, səhmdar cəmiyyətləri və s., habelə qeyri-kommersiya təşkilatları); 2) **hüquqi şəxs statusuna malik olmayan iqtisadi hüquq subyektləri** (məsələn, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər).

**Hüquq qabiliyyəti** kimi meyara görə iqtisadi hüquq subyektlərinin dörd növü fərqləndirilir: 1) **ümumi (universal) hüquq qabiliyyətli subyektlər** (məsələn, kommersiya təşkilatları); 2) **məhdud hüquq qabiliyyətli subyektlər** (məsələn, subyekt öz nizamnaməsində müəyyən edir ki, onun fəaliyyəti pərakəndə ticarət işi ilə məhdudlaşır); 3) **xüsusi (məqsədli) hüquq qabiliyyətli subyektlər** (öz nizamnaməsində göstərilən fəaliyyət məqsədlərinə uyğun gələn hüquqlara malik ola və vəzifələr daşıya bilən subyektlər – məsələn, qeyri-kommersiya təşkilatları); 4) **müstəsna hüquq qabiliyyətli subyektlər** (məsələn, banklar, sığorta təşkilatları, investisiya fondları).

**Hakimiyyət səlahiyyətinə malik olması** kimi meyara görə iqtisadi hüquq subyektləri iki növə bölünür: 1) **hakimiyyət səlahiyyətinə malik olan subyektlər** (məsələn, dövlət, bələdiyyələr); 2) **hakimiyyət səlahiyyətinə malik olmayan subyektlər** (məsələn, kommersiya təşkilaları, qeyri-kommersiya təşkilatları, iqtisadi fəaliyyət subyektləri və s.).

**İqtisadi fəaliyyətin növü** kimi meyara görə iqtisadi hüquq subyektlərinin aşağıdakı növləri vardır: 1) **ticarət fəaliyyəti ilə məşğul olan subyektlər** (məsələn, topdansatış və ya pərakəndə ticarət işi ilə məşğul olan müəssisələr, yəni ticarət müəssisələri); 2) **maliyyə-valyuta fəaliyyətini həyata keçirən subyektlər** (məsələn, maliyyə-valyuta əməliyyatları aparan müəssisələr); 3) **bank fəaliyyəti ilə məşğul olan subyektlər** (məsələn, bank olan kredit təşkilatları, bank olmayan kredit təşkilatları); 4) **sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlər** (məsələn, hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyətini həyata keçirən müəssisələr, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər); 5) **sığorta fəaliyyəti ilə məşğul olan subyektlər** (məsələn, sığorta təşkilatları; 6) **tu-**

**rizm fəaliyyəti ilə məşğul olan subyektlər** (məsələn, turizm firmaları) və s.

**Fəaliyyət məqsədi** kimi meyara görə iqtisadi hüquq subyektləri iki növə bölünür: 1) **kommersiya təşkilatları** (məsələn, səhmdar cəmiyyəti, koorperativ, məhdud məsuliyyətli cəmiyyət, tam ortaqlıq və s.); 2) **qeyri-kommersiya təşkilatları** (məsələn, əmtəə birjaları, fondlar və s.). Kommersiya təşkilatlarının həyata keçirdikləri fəaliyyətin əsas məqsədi mənfəət götürməkdən ibarətdir. Qeyri-kommersiya təşkilatlarının əsas məqsədi isə mənfəət götürməklə bağlı deyildir.

### 2.3.2. İqtisadi hüquq subyektlərinin ayrı-ayrı növlərinin hüquqi vəziyyəti

#### 2.3.2.1. İqtisadi hüququn subyekti kimi fiziki şəxslərin hüquqi vəziyyəti

Konstitusiyanın 59-cu maddəsində deyilir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Bu maddədə ifadə olunan hüquq norması fiziki şəxsləri iqtisadi fəaliyyətin qanunla qadağan edilməmiş növlərini həyata keçirmək hüququ ilə təmin edir. Fiziki şəxslərə verilmiş belə hüquq, yəni iqtisadi fəaliyyət növləri ilə məşğul olmaq hüququ realizə olunduqda onlar iqtisadi fəaliyyət subyekti kimi tanınırlar. İqtisadi fəaliyyət subyekti kimi tanınmaq isə iqtisadi hüququn subyekti olmaq deməkdir. Deməli, fiziki şəxslər iqtisadi hüququn subyektlərindən biridir. İqtisadi hüququn subyekti kimi fiziki şəxslər iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində müvafiq hüquq və vəzifələrin daşıyıcısıdır. Unutmaq olmaz ki, iqtisadi hüququn subyekti dedikdə, hər şeydən əvvəl, iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində hüquq və vəzifələr daşıyıcısı başa düşülür.

Azərbaycan Respublikasında hal-hazırda qüvvədə olan Mülki Məcəllənin 24-cü maddəsinin 1-ci hissəsində fiziki şəxsə

normativ (leqal) anlayış verilir. Burada deyilir ki, **fiziki şəxs** hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir.

Fiziki şəxslər əhatəli və geniş anlayışdır. Bu anlayışa, ilk növbədə, **Azərbaycan Respublikasının vətəndaşları** daxildir. Digər tərəfdən, fiziki şəxslər dedikdə Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan **əcnəbilər** başa düşülür; əcnəbilər xarici ölkə vətəndaşlarıdır. Bunlardan əlavə, fiziki şəxslər anlayışına həm də Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan **vətəndaşlığı olmayan şəxslər** daxildir. Nəzərdən qaçırmaq olmaz ki, qanunvericiliyə görə, Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir (MM-in 24-cü maddəsinin 2-ci hissəsi). Odur ki, iqtisadi fəaliyyətlə həm Azərbaycan Respublikasının vətəndaşları, həm əcnəbilər, həm də vətəndaşlığı olmayan şəxslər məşğul ola bilərlər.

Fiziki şəxslər, ilk növbədə, sahibkarlıq fəaliyyətini həyata keçirirlər ki, bu, iqtisadi fəaliyyətin növlərindən biridir. Belə ki, sahibkarlıq fəaliyyətində iştirak edən şəxslərin sayına görə sahibkarlığın iki növü fərqləndirilir: 1) kollektiv sahibkarlıq; 2) fərdi sahibkarlıq. **Kollektiv sahibkarlıq** dedikdə hüquqi şəxslərin və digər təşkilati qurumların həyata keçirdikləri sahibkarlıq fəaliyyəti başa düşülür. Əgər fiziki şəxs fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olarsa, bu, **fərdi sahibkarlıq** hesab edilir; bu növ sahibkarlıq fərdi şəkildə həyata keçirilir. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci hissəsinə görə, sahibkarlıq həm fərdi, həm də şərikli (kollektiv) şəkildə həyata keçirilə bilər.

Fərdi sahibkarlığın subyekti fiziki şəxslərdir; onlara fərdi sahibkarlar deyilir. **Fərdi sahibkarlar** dedikdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər başa düşülür. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 1-ci hissəsinə görə, Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar (əcnəbilər) və vətəndaşlığı olmayan şəxslər fərdi sahibkarlığın sub-

yektləri hesab edilirlər. Bu kimi subyektlər özlərinin sahibkarlıq fəaliyyətini realizə etmək üçün qanunla qadağan edilməyən istənilən fəaliyyət növünü seçə bilərlər. Unutmaq olmaz ki, fərdi sahibkarlar ümumi (universal) hüquq qabiliyyətinə malikdirlər. Odur ki, onlar qanunla qadağan edilməyən istənilən fəaliyyət növü ilə məşğul ola bilərlər.

Fərdi sahibkarlar bir sıra üstünlüyə malikdirlər. Hər şeydən əvvəl, qeyd edək ki, onların hüquqi şəxslər kimi dövlət qeydiyyatına alınmaları tələb olunmur. Fərdi sahibkarların, sadəcə olaraq, vergi orqanlarında vergi ödəyicisi kimi **uçota alınmaları** kifayətdir. Dövlət qeydiyyatına kollektiv sahibkarlığı həyata keçirən hüquqi şəxslər alınır.

Bundan başqa, fərdi sahibkarlar hüquqi şəxslərə aid bəzi tələbləri yerinə yetirməyə borclu deyildir; xüsusilə də fərdi sahibkarlar mühasibat uçotu aparmırlar; onlar vergi qanunvericiliyinə uyğun olaraq, gəlir və xərcləri uçota alırlar. Fərdi sahibkarların özlərinin də vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmaları həmçinin vergi qanunvericiliyi ilə tənzimlənir.

Bununla bərabər, fərdi sahibkarlığın həyata keçirilməsinə bir sıra məhdudiyyətlər qoyulmuşdur. Belə ki, iqtisadi fəaliyyətin bəzi növləri (məsələn, bank fəaliyyəti, sığorta fəaliyyəti və qiymətli kağızlar bazarında professional fəaliyyət) fiziki şəxslər tərəfindən həyata keçirilə bilməz. Bu kimi fəaliyyət növləri ilə yalnız hüquqi şəxslər məşğul ola bilərlər. Fərdi auditorlar auditor təşkilatlarından fərqli olaraq, məcburi auditor yoxlamaları apara bilməzlər.

İqtisadi fəaliyyət subyekti kimi fiziki şəxslərin üzərinə tam əmlak məsuliyyəti düşür. Bu onu ifadə edir ki, fiziki şəxslər öz öhdəliklərinə görə onlara mənsub olan əmlakı ilə cavabdehdir.

### 2.3.2.2. İqtisadi hüququn subyekti kimi hüquqi şəxslərin hüquqi vəziyyəti

İqtisadi fəaliyyətin həyata keçirilməsində fiziki şəxslərlə bərabər, həm də hüquqi şəxslər iştirak edir. Bu zaman onlar iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində müvafiq hüquq və

vəzifələrin daşıyıcısı olurlar. Odur ki, hüquqi şəxslər iqtisadi hüququn subyekti hesab edilir. İqtisadi hüququn subyekti kimi hüquqi şəxslər dedikdə iqtisadi fəaliyyətlə məşğul olan elə qurumlar başa düşülür ki, bu qurumlar iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində zəruri hüquqlara malik olur və vəzifələr daşıyırlar. Məhz iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində hüquqlar və vəzifələr daşıyıcısı olduğuna görə hüquqi şəxslər iqtisadi hüququn subyekti kimi tanınır.

Hüquqi şəxsə dair normativ (leqal) anlayış MM-in 43-cü maddəsinin 1-ci hissəsində verilmişdir. Burada deyilir ki, **hüquqi şəxs** qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış qurum olub, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir.[1] Hüquqi şəxsə verilən bu anlayışda onu xarakterizə edən əlamətlər göstərilmişdir: 1) hüquqi şəxs dövlət qeydiyyatından keçən qurumdur; 2) hüquqi şəxs mülkiyyətində ayrıca əmlakı olan qurumdur; 3) hüquqi şəxs öz öhdəlikləri üçün mülkiyyətindəki əmlakla cavabdeh olan qurumdur; 4) hüquqi şəxs hüquqlar əldə edən və vəzifələr daşıyan qurumdur; 5) hüquqi şəxs məhkəmədə iddiaçı və ya cavabdeh olan qurumdur. Əgər hər hansı qurum bu əlamətlərə cavab verərsə, həmin qurum hüquqi şəxs statusu əldə edir. Belə əlamətlərə cavab verməyən qurum isə, əksinə, hüquqi şəxs kimi tanınmır.

İqtisadi hüququn subyekti olması üçün hüquqi şəxs həm hüquq, həm də fəaliyyət qabiliyyətinə malik olmalıdır. Hüquqi şəxsin **hüquq qabiliyyəti** dedikdə onun hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyəti (imkanı) başa düşülür. Dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs hüquq qabiliyyətli olur. Hüquqi şəxsin ləğvi başa çatdığı anda isə onun hüquq qabiliyyətinə xitam verilir.

---

[1] *Hüquqi şəxslər barədə daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı, 2008, s.409-452.

Hüquqi şəxsin **fəaliyyət qabiliyyəti** öz hərəkətləri ilə hüquqlar əldə etmək və əldə edilmiş hüquqları həyata keçirmək, özü üçün vəzifələr yaratmaq və onları icra etmək qabiliyyətidir (imkanıdır). Dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs fəaliyyət qabiliyyətli olur. Deməli, hüquqi şəxsin həm hüquq, həm də fəaliyyət qabiliyyəti eyni vaxtda – dövlət qeydiyyatına alındığı anda yaranır. Bu cəhəti ilə hüquqi şəxs fiziki şəxslərdən fərqlənir. Məsələ burasındadır ki, fiziki şəxslərin hüquq və fəaliyyət qabiliyyətləri eyni vaxtda yaranmır. Belə ki, fiziki şəxslərin hüquq qabiliyyəti onların doğulduqları andan əmələ gəlir; fiziki şəxslərin fəaliyyət qabiliyyəti isə onlar on səkkiz yaşına çatdıqda yaranır.

Dövlət qeydiyyatından keçdikdən sonra hüquqi şəxs yaradılmış hesab edilir. **Dövlət qeydiyyatı** dedikdə hüquqmüəyyənedici elə bir hüquqi fakt başa düşülür ki, bu fakt əsasında və onun həyata keçirildiyi andan hüquqi şəxs yaranır. Dövlət qeydiyyatı bir neçə məqsəd güdür: 1) təsərrüfat subyektləri barədə məlumat toplamaq və bu məlumatları sistemləşdirmək; 2) iqtisadi-təsərrüfat fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək; 3) iqtisadiyyatı tənzimetmə tədbirləri görmək üçün dövlət statistik uçot məlumatları almaq; 4) vergi ödənilməsini təmin etmək.

Dövlət qeydiyyatı ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinə gəldikdə, qeyd etmək lazımdır ki, həmin məsələlərin hüquqi tənzimlənməsi «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (2003-cü il) həyata keçirilir. Lakin hüquqi şəxsin növlərindən biri olan kommersiya təşkilatlarının dövlət qeydiyyatına alınmasına sözügedən qanun tətbiq edilmir. Belə ki, «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli Sərəncamına uyğun olaraq, kommersiya təşkilatlarının (sahibkarlıq fəaliyyəti subyektlərinin) dövlət qeydiyyatını «bir pəncərə» prinsipi üzrə vahid dövlət orqanı – Azərbaycan Respublikasının Vergilər Nazirliyi aparır.

Hüquqi şəxslərin həyata keçirdikləri iqtisadi fəaliyyət **hüquqi rejim** kimi meyara görə iki növə bölünür: 1) ümumi iqtisadi fəaliyyət; 2) lisenziyalaşdırılmış iqtisadi fəaliyyət. **Ümumi iqtisadi fəaliyyətin** həyata keçirilməsi üçün lisenziya (xüsusi icazə) alınması tələb olunmur. Məsələn, ticarət, istehsal və digər iqtisadi fəaliyyət növləri lisenziya (xüsusi icazə) əsasında həyata keçirilmir. Əgər hüquqi şəxslər yalnız lisenziya (xüsusi icazə) əsasında iqtisadi fəaliyyətlə məşğul olarsa, bu, **lisenziyalandırılmış iqtisadi fəaliyyət** adlanır. Məsələn, bank fəaliyyəti belə iqtisadi fəaliyyətə misal ola bilər. Belə ki, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin I hissəsinə görə, Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini mərkəzi bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirə bilər.

Lisenziya tələb edən fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız lisenziya əsasında məşğul ola bilərlər (MM-in 44-cü maddəsini 2-ci hissəsi). Lisenziya alınmasını tələb edən fəaliyyətin hüquqi şəxs tərəfindən həyata keçirilməsi hüququ belə lisenziyanın alındığı anda və ya lisenziyada göstərilən vaxtda əmələ gəlir.

Hüquqi şəxslərə lisenziya verilməsi ayrıca normativ hüquqi aktla tənzimlənir. Belə ki, bu məsələyə dair «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 15.03.2016-cı il tarixli 176-VQ nömrəli Qanunu qəbul edilmişdir.

Lisenziya tələb edən fəaliyyət növlərinin siyahısına gəldikdə, qeyd etmək lazımdır ki, belə siyahı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur; həmin orqan həm də lisenziya verilməsi qaydalarını müəyyən edir.

**Fəaliyyət məqsədlərinə** görə iqtisadi fəaliyyət subyekti olan hüquqi şəxslərin iki növü fərqləndirilir: 1) kommersiya hüquqi şəxsləri; 2) qeyri-kommersiya hüquqi şəxsləri. Kommersiya hüquqi şəxslərinə həm də kommersiya təşkilatları deyilir. **Kommersiya təşkilatları** dedikdə əsas fəaliyyət məqsədi mənfəət götürməkdən ibarət olan hüquqi şəxslər başa düşülür.

Əldə olunmuş mənfəət kommersiya təşkilatlarının iştirakçıları (təsisçiləri) arasında bölüşdürülür.

Kommersiya təşkilatları ümumi (universal) hüquq qabiliyyətinə malikdir. Odur ki, onlar qanunla qadağan edilməyən istənilən fəaliyyət növünü həyata keçirə, eləcə də onların həyata keçirilməsi üçün lazım olan hüquqlara malik ola və vəzifələr daşıya bilərlər. Buna görə də kommersiya təşkilatları iqtisadi fəaliyyətin əsas subyekti kimi tanınır.

Qeyri-kommersiya hüquqi şəxsləri həm də qeyri-kommersiya təşkilatları adlanır. **Qeyri-kommersiya təşkilatları** dedikdə əsas fəaliyyət məqsədi mənfəət götürməkdən ibarət olmayan hüquqi şəxslər başa düşülür. Lakin, bu heç də o demək deyildir ki, qeyri-kommersiya təşkilatları mənfəət götürə bilməzlər. Unutmaq olmaz ki, onların özlərinin həyata keçirdikləri fəaliyyət nəticəsində mənfəət götürmək hüququ vardır. Amma qeyri-kommersiya təşkilatlarının götürdükləri mənfəəti iştirakçılar (təsisçilər) arasında bölüşdürmələri onların əsas məqsədi sayılmır.

Qeyri-kommersiya təşkilatlarının sahibkarlıq hüququ ilə məşğul olmaq imkanı vardır. Düzdür, kommersiya təşkilatlarından fərqli olaraq, qeyri-kommersiya təşkilatları sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün yaradılmır. Eyni zamanda onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları da qanunla qadağan edilmir; əksinə, qanun qeyri-kommersiya təşkilatları tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə icazə verir (MM-in 43-cü maddəsinin 6-cı hissəsi). Qeyri-kommersiya təşkilatları sahibkarlıq fəaliyyəti ilə yalnız o halda məşğul ola bilər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Əgər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi qeyri-kommersiya təşkilatlarının fəaliyyət məqsədlərinə (fəaliyyət məqsədləri qeyri-kommersiya təşkilatlarının təsis sənədlərində – məsələn, nizamnamədə göstərilir) zidd olarsa, onlar bu fəaliyyətlə məşğul ola bilməz. Misal üçün, idman inkişaf fondu (fond qeyri-kommersiya təşkilatıdır) spirtli içkilərin və tütün məmulatlarının ticarəti kimi fəaliyyətlə məşğul ola bilməz,

çünki belə fəaliyyəti həyata keçirmək həmin fondun məqsədlərinə ziddir.

Sahibkarlıq fəaliyyəti qeyri-kommersiya təşkilatlarının əsas işi (fəaliyyəti) olmamalıdır. Həyata keçirdikləri sahibkarlıq fəaliyyəti yardımçı xarakter daşımalıdır.

### 2.3.2.3. İqtisadi hüququn subyekti kimi dövlətin hüquqi vəziyyəti

İqtisadi hüquq subyektləri, adətən, bilavasitə iqtisadi fəaliyyətlə (məsələn, sahibkarlıq fəaliyyəti ilə və s.) məşğul olurlar. İqtisadi hüquq subyektləri arasında elələri də vardır ki, onlar bilavasitə iqtisadi fəaliyyəti həyata keçirmirlər; onlar iqtisadi fəaliyyəti tənzimləmək işi ilə məşğul olurlar. Söhbət, ilk növbədə, Azərbaycan Respublikasından, yəni dövlətdən gedir. İqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində dövlət müvafiq hüquq və vəzifələrin daşıyıcısı olur. Buna görə də dövlət iqtisadi hüququn subyekti kimi tanınır.

İqtisadi hüququn subyekti kimi **dövlət** dedikdə iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində müvafiq hüquq və vəzifələrin daşıyıcısı başa düşülür. Məhz hakimiyyət xarakterli tənzimetmə fəaliyyətini həyata keçirdikdə dövlət iqtisadi hüququn subyekti kimi tanınır. Belə fəaliyyət həm də təsərrüfat-təşkilati fəaliyyət adlanır. Buna görə də «dövlətin tənzimetmə fəaliyyəti» və «dövlətin təsərrüfat-təşkilati fəaliyyəti», demək olar ki, məzmunca üst-üstə düşən eynimənalı anlayışlardır.

Dövlətin əsas funksiyalarından biri iqtisadi funksiyadır. **İqtisadi funksiya** öz ifadəsini bunda tapır ki, dövlət iqtisadi münasibətlərin inkişafı üçün lazımi şərait yaradır, habelə iqtisadi münasibət iştirakçılarının həyata keçirdikləri fəaliyyətin ümumi qaydalarını müəyyənləşdirir. İqtisadi funksiyanı dövlət bilavasitə özü yerinə yetirmir. Belə ki, səlahiyyətli orqanlar vasitəsilə dövlət öz iqtisadi funksiyasını bir neçə istiqamətdə həyata keçirir. Məsələn, səlahiyyətli dövlət orqanları dövlət və ictimai ehtiyacları, iqtisadi inkişaf prioritetlərini, təbii ehtiyatlardan səmərəli istifadə olunmasını və ətraf mühitin mühafizəsini, əhalinin

məşğulluğunu, ölkənin iqtisadi təhlükəsizliyini və müdafiəsini, iqtisadi fəaliyyətin həyata keçirilməsini, haqsız rəqabət və inhisarçılıqdan müdafiəni və s. təmin edir. Səlahiyyətli dövlət orqanları dövlətin iqtisadi funksiyasını məhz bu kimi istiqamətlərdə həyata keçirir. İqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin iqtisadi funksiyasının həyata keçirildiyi istiqamətlərdən biridir. Məhz iqtisadiyyatın dövlət tənzimlənməsi prosesində dövlət iqtisadi hüququn subyekti olur.

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadiyyat sahəsində həyata keçirdiyi fəaliyyət kifayət qədər müxtəlifdir. Tənzimetmə dövlətin iqtisadiyyat sahəsində həyata keçirdiyi fəaliyyət növlərindən biri olub, «tənzimetmə fəaliyyəti» kimi anlayışla əhatə edilir.

**İqtisadiyyatın dövlət tənzimetməsi** dedikdə səlahiyyətli dövlət orqanları tərəfindən iqtisadiyyat sferasında həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət iqtisadi münasibətlərin nizamlanmasına və qaydaya salınmasına yönəlir. Bunun nəticəsində iqtisadi münasibət iştirakçılarının ümumi və şəxsi maraqları təmin edilir, habelə iqtisadi-təsərrüfat vəziyyəti dəyişir, ləğv olunur və ya ona yol verilmir və yaxud da əksinə, mövcud olan iqtisadi-təsərrüfat vəziyyəti qorunub saxlanılır.

«İqtisadiyyatın dövlət tənzimlənməsi» anlayışını «dövlət tənzimlənməsi» anlayışından fərqləndirmək lazımdır. Bu anlayışlar bir-birinə olduqca yaxın olsalar da, məzmunca tam üst-üstə düşmürlər. Belə ki, dövlət tənzimlənməsi daha geniş anlayışdır. **Dövlət tənzimlənməsi** dedikdə ölkədə siyasi, sosial və iqtisadi sistemin sabitliyini təmin etmək məqsədi ilə səlahiyyətli dövlət orqanları (qanunverici, icra və məhkəmə orqanları) tərəfindən normativ hüquqi aktlar əsasında həyata keçirilən kompleks tədbirlər başa düşülür. İqtisadiyyatın dövlət tənzimlənməsi isə məhdud anlayışdır. Belə tənzimetmə yalnız iqtisadiyyat sahəsində həyata keçirilir; siyasi və sosial sahələrdə isə onun həyata keçirilməsindən söhbət gedə bilməz.

«İqtisadiyyatın dövlət tənzimlənməsi» anlayışını həm də «iqtisadiyyata dövlət təsiretməsi» anlayışından fərqləndirmək

lazımdır. İqtisadiyyata dövlət təsiretməsi daha geniş anlayışdır. Belə ki, iqtisadiyyatın dövlət tənzimlənməsi dövlət təsiretməsinin formalarından biridir. Dövlət təsiretməsi bundan başqa, digər formalarda da həyata keçirilə bilər. Söhbət, hər şeydən əvvəl, iqtisadi fəaliyyətə edilən dövlət nəzarəti kimi formadan gedir.

**İqtisadi fəaliyyət sahəsində dövlət nəzarəti** dedikdə iqtisadi fəaliyyətin həyata keçirilməsi, habelə onun idarə olunması prosesində qüvvədə olan mövcud normativ hüquqi aktların tələblərinə dövlət orqanlarının və iqtisadi münasibət iştirakçılarının (iqtisadi fəaliyyət subyektlərinin) əməl etmələrinin yoxlanılması başa düşülür. Subyektlər iqtisadi fəaliyyəti normativ hüquqi aktların tələbləri əsasında həyata keçirməlidirlər. Dövlət orqanları da həmçinin iqtisadiyyatı (iqtisadi fəaliyyəti) normativ hüquqi aktların tələblərinə uyğun idarə etməlidir. Məhz bunların yoxlanılması iqtisadi fəaliyyət sektorunda dövlət nəzarəti adlanır. Belə nəzarət həyata keçirildiyi halda da dövlət iqtisadi hüququn subyekti kimi tanınır.

İqtisadi fəaliyyət sahəsində dövlət nəzarəti tətbiq sferasından asılı olaraq, aşağıdakı növlərə bölünür: 1) bank nəzarəti; 2) maliyyə nəzarəti; 3) valyuta nəzarəti; 4) gömrük nəzarəti; 5) vergi nəzarəti; 6) nəqliyyat nəzarəti; 7) sahibkarlıq fəaliyyəti sahəsində nəzarət; 8) ticarət nəzarəti və s.

İdarəetmə (iqtisadiyyatı idarəetmə) iqtisadiyyata dövlət təsiretməsinin formalarından biridir; söhbət iqtisadiyyatın dövlət idarəetməsindən gedir. Bu anlayış dövlət idarəetməsi anlayışından məhduddur. Dövlət idarəeməsi isə daha geniş anlayış sayılır. Dövlət orqanlarının müxtəlif sahələrdə normativ hüquqi aktlar əsasında həyata keçirdikləri təşkilati və icra-sərəncam fəaliyyəti **dövlət idarəetməsi** adlanır.[1] Dövlət idarəetməsinin həyata keçirildiyi sahələr müxtəlifdir: məsələn, sosial sahə, mədəni sahə, ölkənin müdafiəsi sahəsi (hərbi sahə), ictimai

---

[1] Hüquq ensiklopedik lüğəti / Baş redaktor - M.F.Məlikova. Bakı, 1991, s.127; Юридический энциклопедический словарь / Гл.ред. А.Я.Сухарев. М., 1984, с.386.

asayişin mühafizəsi və s. Dövlət idarəetməsinin həyata keçirildiyi sahələrdən biri iqtisadiyyatdır. Məhz bu sahədə həyata keçirilən dövlət idarəetməsi iqtisadiyyatın dövlət idarəetməsi adlanır. **İqtisadiyyatı dövlət idarəetməsi** dedikdə elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət iqtisadi fəaliyyətin (iqtisadi münasibətlərin) nizamlanmasına və tənzimlənməsinə yönəlir. Belə fəaliyyəti, yəni idarəetmə fəaliyyətini həyata keçirəndə də dövlət iqtisadi hüququn subyekti qismində çıxış edir.

Beləliklə, tənzimetmə, nəzarət və idarəetmə formalarında iqtisadiyyata dövlət təsiretməsi həyata keçirildiyi hallarda dövlət iqtisadi hüququn subyekti olur. Həmin formalar bir-birinə yaxın olub, qarşılıqlı əlaqədədir. Belə ki, nəzarət forması iqtisadiyyatın dövlət tənzimlənməsi vasitələrindən biridir. Bu o deməkdir ki, iqtisadiyyatın dövlət tənzimlənməsi «nəzarət» kimi forma vasitəsilə həyata keçirilir. İqtisadiyyatın dövlət tənzimlənməsi, mahiyyətcə, iqtisadiyyatı (iqtisadi fəaliyyəti) idarəetmə fəaliyyətidir. Nəzarət iqtisadi fəaliyyətin (iqtisadiyyatın) idarə olunması zamanı dövlət orqanlarının normativ hüquqi aktların tələblərinə əməl etmələrinin yoxlanılmasıdır və s.

### 2.3.2.4. İqtisadi hüququn subyekti kimi bələdiyyələrin hüquqi vəziyyəti

Qeyd etmək lazımdır ki, müasir dövlətlərin çoxunda yerlərdə yaranan məsələlər bələdiyyələr vasitəsilə həll olunur. Bələdiyyələr yerli özünüidarəetmənin əsas forması hesab edilir. Əgər qanunla müəyyən edilmiş ərazi (bələdiyyə ərazisi) hüdudlarında özünüidarə həyata keçirilərsə, belə özünüidarəetmə forması bələdiyyə adlanır. Konstitusiyanın 142-ci maddəsinin I hissəsinə görə, yerli özünüidarəni məhz bələdiyyələr həyata keçirir.

**Bələdiyyə** dedikdə yerli özünüidarəetmə forması olan elə bir qeyri-dövlət qurumu başa düşülür ki, bu qurum vasitəsilə qanun çərçivəsində yerli əhəmiyyətli məsələlər müstəqil və sərbəst həll olunur. Yerli əhəmiyyətli məsələlər elə məsələlərdir ki, onların həlli yerlərdəki əhalinin həyat fəaliyyətini təmin

edir. Söhbət bu və ya digər sahədə (məsələn, sosial, ekologiya, mədəni və digər sahələrdə) yaranan məsələlərdən gedir. Yerli əhəmiyyətli məsələlər həm də iqtisadi sektora aiddir. Yerlərdə həyata keçirilən iqtisadi fəaliyyəti tənzimləmək iqtisadi məsələlərdən biridir. Əgər hər hansı qurum iqtisadi fəaliyyəti tənzimləyə bilərsə, həmin qurum iqtisadi hüququn subyekti kimi tanınır. Odur ki, dövlətlə yanaşı, bələdiyyə də iqtisadi hüququn subyektidir. Unutmaq olmaz ki, öz malik olduqları səlahiyyətin xarakterinə görə iqtisadi hüquq subyektləri, qeyd etdiyimiz kimi, üç növə bölünür. İqtisadi fəaliyyəti tənzimləyən, yəni hakimiyyət xarakterli tənzimetməni həyata keçirən qurumlar iqtisadi hüquq subyektinin növlərindən biridir; belə subyektlər sırasına həm dövlət, həm də bələdiyyələr aiddir.

Bələdiyyələr təkcə iqtisadi fəaliyyəti tənzimləməsinə görə iqtisadi hüquq subyekti kimi tanınmır; onlar həmçinin yerlərdə həyata keçirilən iqtisadi fəaliyyətə nəzarət edə bilmələri səbəbindən iqtisadi hüququn subyekti olur. Belə ki, Konstitusiyanın 13-cü maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasında mülkiyyət həm də bələdiyyə mülkiyyəti növündə ola bilər. Qanun icazə verir ki, bələdiyyə mülkiyyəti əsasında iqtisadi fəaliyyət subyekti olan müəssisələr təsis edilsin və yaradılsın. Məhz belə müəssisələrin fəaliyyətinə bələdiyyələr nəzarət edirlər.[1] Nəzarətetmə prosesində isə bələdiyyələr iqtisadi hüququn subyekti qismində çıxış edir.

Bələdiyyələr iqtisadi funksiyanı həyata keçirən qurumdur. Yerli büdcəni formalaşdırmaq bələdiyyələrin iqtisadi funksiyasının həyata keçirildiyi istiqamətlərdən biridir. Konstitusiyanın 144-cü maddəsi bələdiyyələrin səlahiyyətlərini müəyyənləşdirir ki, yerli büdcəni və onun icrası haqqında hesabatları təsdiq etmək onlardan biridir. Bu zaman bələdiyyələr iqtisadi hüquq subyekti rolunda çıxış edir.

Bələdiyyələr yerli büdcənin vəsaiti barədə müstəqil surətdə sərəncam verirlər. Ona görə ki, yerli büdcə dövlət büdcəsinin

---

[1] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s.104.

tərkib hissəsi sayılmır. Yerli büdcə bələdiyyə büdcəsi olub, bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün istifadə olunur.

Yerli (bələdiyyə) büdcəsi, əsasən, yerli vergilər və ödənişlər hesabına formalaşır. Yerli vergilər və ödənişlər isə bunlardan ibarətdir: fiziki şəxslərdən alınan torpaq vergisi, fiziki şəxslərdən yığılan əmlak vergisi, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların ödədiyi mənfəət vergisi və s. Yerli vergi və ödənişlər isə bələdiyyələrin özləri tərəfindən müəyyən edilir. Konstitusiyanın 144-cü maddəsinin I hissəsinin 4-cü bəndinə görə, bu, yəni yerli vergi və ödənişlərin müəyyənləşdirilməsi bələdiyyələrin səlahiyyətinə aid olan məsələlərdən biridir. Belə səlahiyyəti həyata keçirdiyi halda da bələdiyyə iqtisadi hüququn subyekti kimi tanınır.

Yerli büdcə bələdiyyə mülkiyyətinin yalnız bir hissəsidir. Yerli büdcədən başqa, bələdiyyə mülkiyyətinə həm də bələdiyyə əmlakı daxildir. Bələdiyyə əmlakının tərkibinə aiddir: bələdiyyə torpaqları, bələdiyyə mənzil fondları, qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, digər daşınar və daşınmaz əmlak. Bələdiyyə öz əmlakının mülkiyyətçisidir.

Bələdiyyə mülkiyyəti bələdiyyənin iqtisadi əsasıdır. Belə əsas olmadan bələdiyyələr nə üzərinə düşən vəzifələri yerinə yetirə, nə də malik olduğu səlahiyyətləri həyata keçirə bilər. Konstitusiyanın 144-cü maddəsinin I hissəsinin 6-cı bəndində deyilir ki, bələdiyyələr bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam verirlər. Bu, bələdiyyələrin səlahiyyətlərinə daxil olan məsələdir.

Şübhəsiz, iqtisadiyyata dövlət təsiretməsini bilavasitə dövlətin özü həyata keçirmir. Bu işi səlahiyyətli dövlət orqanları yerinə yetirir. Söhbət mərkəzi icra hakimiyyəti orqanlarından və digər qurumlardan gedir. Belə orqan və qurumlara misal kimi göstərmək olar: İqtisadiyyat Naziliyi, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi, Dövlət Sığorta Şirkəti və s.

# II FƏSİL ÜZRƏ ƏYANİ SXEM



## *III FƏSİL.*

# İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ HÜQUQU

## 3.1. İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ – iqtisadi hüququn institutu kimi

### 3.1.1. İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ anlayışı

İqtisadi ədəbiyyat səhifələrində iqtisadi (təsərrüfat) sistemlər, əsasən, iki əlamətə (meyara) görə təsnif edilir: 1) istehsal vasitələrinə mülkiyyət hüququnun forması (birinci əlamət); 2) iqtisadiyyatın (iqtisadi fəaliyyətin) idarə olunması üsulu (ikinci əlamət). Bu əlamətlər əsasında iqtisadiyyatın aşağıdakı növləri fərqləndirilir:[1] 1) komanda iqtisadiyyatı; 2) qarışıq iqtisadiyyat; 3) keçid iqtisadiyyatı; 4) bazar iqtisadiyyatı.

Əgər müəssisələrin çoxu dövlət mülkiyyətində olarsa və onlar öz fəaliyyətini dövlət direktivləri (göstəriş, tapşırıq və s.) əsasında həyata keçirərsə, bu, **komanda iqtisadiyyatı** adlanır. Əmrə əsaslanan komanda iqtisadiyyatlı ölkələrdə cəmiyyətdə maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı haqqında qərarlar dövlət tərəfindən qəbul edilir. Buraya keçmiş SSRİ, Şimali Koreya və s. ölkələrin iqtisadiyyatı aiddir. Komanda iqtisadiyyatı həm də **totalitar iqtisadiyyat** adlanır.

**Qarışıq iqtisadiyyatda** həm dövlət, həm də özəl sektor maddi nemətlərin (resursların) istehsal, bölgü, mübadilə və istehlakında vacib rol oynayır. Qarışıq iqtisadiyyatlı ölkələrdə dövlət bazar iqtisadiyyatına müdaxilə edir; lakin müdaxilə dövlətin bazarın tənzimləyicisi rolunu oynaması dərəcəsində olmalıdır. Buraya inkişaf etmiş ölkələrin (məsələn, ABŞ, İngiltərə, Fransa, Almaniya və s.) iqtisadiyyatı aiddir.

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.53.

Dəyişən vəziyyətdə olan iqtisadiyyat **keçid iqtisadiyyatı** adlanır. Bu zaman müəyyən bir vəziyyət digəri ilə əvəz olunur. Məsələn, komanda iqtisadiyyatından bazar iqtisadiyyatına keçid mövcud vəziyyətin başqa vəziyyətlə əvəz olunmasını ifadə edir.

**Bazar iqtisadiyyatı** maddi nemətlərə (resurslara) xüsusi mülkiyyət forması, habelə bazar sistemindən və qiymətlərdən iqtisadi fəaliyyətin əlaqələndirilməsi, eləcə də onun idarə olunması üçün istifadə edilməsi kimi əlamətlərlə xarakterizə olunur. Bazar iqtisadiyyatlı ölkələrdə qərarlar bazar subyektləri tərəfindən müstəqil surətdə qəbul edilir. Əgər iqtisadiyyat bazar prinsipləri əsasında formalaşarsa və bazar qanunlarına uyğun olaraq inkişaf edərsə, bu, bazar iqtisadiyyatı adlanır.[1]

**Bazar** dedikdə dövriyyə ilə bağlı yaranan iqtisadi münasibətlərin məcmusu başa düşülür. **Dövriyyə** isə iqtisadi sistemin subyektləri arasında mal və xidmətlərin fasiləsiz olaraq mübadilə edilməsi prosesidir. Məhz dövriyyə nəticəsində iqtisadiyyatda bütün resursların son istehlakçıya çatdırılması və hərəkəti təmin edilir. Satıcılar və alıcılar **bazarın subyektləri** hesab olunurlar. Satıcı eyni zamanda alıcı, alıcı isə satıcı qismində çıxış edə bilər. Unutmaq olmaz ki, bazarın bir-biri ilə qarşılıqlı əlaqədə olan iki subyekti vardır: alıcı və satıcı.[2]

**Bazarın obyektinə** gəldikdə isə, qeyd etmək lazımdır ki, mal və pul bazarın obyekti sayılır. Bazar münasibətləri çərçivəsində bu kimi obyektlər mübadilə olunur, ekvivalent kimi pul mala dəyişdirilir. Məhz mübadilə və dəyişdirmə nəticəsində mallar realizə olunur.

Bazar iqtisadiyyatı ölkələrində iqtisadiyyatın əsas və başlıca tənzimləyicisi bazar hesab edilir. Lakin, buna baxmayaraq, bazar şəraitində dövlət iqtisadiyyatda müəyyən rol oynayır. Belə ki, bazar modelinə malik olan istənilən ölkədə dövlət tənzimetmə formasında iqtisadiyyata təsir göstərir. Söhbət iqtisadiyyatın dövlət tənzimlənməsindən gedir. Təbii ki, iqtisadiyyatın dövlət

---

[1] URL:http://www.az.m.wikipedia.org (24.06.2018-ci il).

[2] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 40.

tənzimlənməsi ilə bağlı müəyyən növ ictimi münasibətlər əmələ gəlir ki, həmin münasibətlər müvafiq hüquq normaları vasitəsilə nizamlanır. Məhz həmin normaların sistemi iqtisadiyyatın dövlət tənzimlənməsi hüququ adlanır.

**İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ** dedikdə dövlət tərəfindən tənzimetmə formasında həyata keçirilən iqtisadi fəaliyyət (dövlətin tənzimetmə iqtisadi fəaliyyəti) ilə bağlı yaranan ictimai münasibətləri nizama salan hüquq normalarının sistemi başa düşülür. Əgər dövlət iqtisadiyyatı tənzimetmə fəaliyyətini həyata keçirərsə, belə fəaliyyəti nizama salan müvafiq hüquq normalarının sistemi iqtisadiyyatın dövlət tənzimlənməsi hüququ sayılır.

### 3.1.2. İqtisadi hüquq sistemində iqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun yeri

İqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun özünəməxsus **nizamasalma predmeti** vardır. Məlum məsələdir ki, iqtisadiyyatın tənzimlənməsi hüququnun qaydaya saldığı (nizamladığı) ictimai münasibətlər onun nizamasalma predmetini təşkil edir.

İqtisadiyyatın dövlət tənzimlənməsi hüququna verdiyimiz elmi (doktrinal) anlayışdan bəlli olur ki, bu hüquqi qurum **dövlətin iqtisadiyyatı tənzimetmə fəaliyyəti ilə bağlı yaranan ictimai münasibətləri** qaydaya salır. İqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun da nizamasalma predmeti məhz həmin münasibətlərdən ibarətdir. Söhbət iqtisadiyyatın dövlət tənzimlənməsi münasibətlərindən gedir ki, bu münasibətlər iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin bir növüdür. İqtisadiyyatın dövlət tənzimlənməsi münasibətləri isə iqtisadi hüququn daxilində ayrılmış müvafiq hüquq normaları qrupu vasitəsilə nizama salınır. Hüquq nəzəriyyəsinə görə, hüquq sahəsi daxilində ayrılmış konkret hüquq normaları qrupuna hüquq institutu deyilir.[1] Şübhəsiz ki, iqtisadi hüququn tərkibində iqtisadiyyatın dövlət tənzimlənməsi münasibətlərini

---

[1] Hüquq ensiklopedik lüğəti / Baş redaktor - M.F.Məlikova. Bakı, 1991, s.505.

qaydaya (nizama) salan hüquq normaları qrupu mövcuddur. Deməli, iqtisadiyyatın dövlət tənzimlənməsi hüququ iqtisadi hüququn tərkibinə hüquq institutu kimi daxildir. İqtisadi hüququn ümumi hissəsi bir neçə hüquq institutundan ibarətdir ki, bu institutlardan biri məhz iqtisadiyyatın dövlət tənzimlənməsi hüququ adlanır.

Bu və ya digər hüquq sahəsinin nizamasalma predmetini həmcins ictimai münasibətlər təşkil edir. Həmcins ictimai münasibətlər isə müxtəlif növlərə bölünür ki, onlar özünəxas xüsusiyyətlərlə (əlamətlərlə) xarakterizə olunur. Odur ki, ictimai münasibət növləri müstəqil surətdə nizamlanmağı tələb edir; nizamlanma isə hüquq institutları vasitəsi ilə həyata keçirilir.

Hər bir hüquq institutu özünəməxsus nizamasalma predmetinə malikdir. Bu, hüquq sahəsi daxilində hər hansı hüquq institutunun ayrılmasını şərtləndirən əsas və başlıca meyardır. İqtisadiyyatın dövlət tənzimlənməsi hüquq institutunun da özünəməxsus nizamasalma predmeti vardır. Bu hüquq institutunun nizamasalma predmeti, qeyd etdiyimiz kimi, iqtisadiyyatın dövlət tənzimlənməsi münasibətlərindən ibarətdir. Bu münasibətlər, göründüyü kimi, iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı əmələ gəlir. Əgər iqtisadiyyatın dövlət tənzimlənməsi həyata keçirilməzsə, təbii ki, belə münasibətlər nə əmələ gələ, nə də mövcud ola bilər.

**İqtisadiyyatın dövlət tənzimlənməsi** dedikdə səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən qanunvericilik, icra və nəzarət xarakterli elə tədbirlər kompleksi başa düşülür ki, bu tədbirlər mövcud sosial-iqtisadi sistemin dəyişən təsərrüfat şəraitinə uyğunlaşdırılması və həmin sistemin sabitliyinin təmin edilməsi məqsədinə xidmət edir. Səlahiyyətli dövlət orqanları dedikdə qanunvericilik, icra və məhkəmə (nəzarət) orqanları başa düşülür. Bu orqanlar iqtisadiyyatın dövlət tənzimlənməsini həyata keçirmək üçün normativ hüquqi aktlar əsasında kompleks tədbirlər görürlər. Məsələn, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərəzi Bank və s. bu kimi orqanlara misal ola bilər.

İqtisadçı alimlərin əksəriyyəti belə hesab edir ki, iqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin daxili və xarici bazara idarəetmə formasında məqsədyönlü təsiretmə prosesidir; koordinasiya (əlaqələndirmə, uyğunlaşdırma) xarakterində olan bu proses mikro və makro iqtisadi tənzimləyicilər vasitəsilə həyata keçirilir ki, məqsəd ümumi iqtisadi sistemin proporsional inkişafına nail olmaqdan ibarətdir.[1]

İqtisadiyyatın dövlət tənzimlənməsi, əlbəttə, müəyyən məqsəd güdür. İqtisadi-sosial sabitliyə nail olmaq, milli rəqabət üstünlüyünü və iqtisadi təhlükəsizliyi təmin etmək, bazar mexanizmini müxtəlif vəziyyətlərə uyğunlaşdırmaq və s. iqtisadiyyatın dövlət tənzimlənməsinin prioritet məqsədləri hesab edilir.

**İqtisadiyyatın dövlət tənzimlənməsinin subyektinə** gəldikdə, qeyd etməliyik ki, subyekt qismində dövlət çıxış edir. Düzdür, iqtisadiyyatın dövlət tənzimlənməsini bilavasitə dövlətin özü həyata keçirmir. Belə ki, dövlətin ayrı-ayrı səlahiyyətli orqanları fəaliyyət göstərir. Məhz səlahiyyətli dövlət orqanları vasitəsi ilə iqtisadiyyatın dövlət tənzimlənməsi həyata keçirilir. Məsələn, Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi və s. orqanlar iqtisadiyyatın dövlət tənzimlənməsinin subyektləridir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin həm də obyekti vardır. Tənzimetmə fəaliyyəti nəyə yönəlirsə, o da iqtisadiyyatın dövlət tənzimlənməsinin obyekti sayılır. Təbii ki, iqtisadiyyatın dövlət tənzimlənməsi **iqtisadi fəaliyyətə** yönəlir. Odur ki, iqtisadi fəaliyyət **iqtisadiyyatın dövlət tənzimetməsinin obyektidir**. İqtisadi fəaliyyət yaşadığımız həyatda və cəmiyyətdə həyata keçirilən fəaliyyət növlərindən biridir. Təkrar edərək bir daha göstəririk ki, iqtisadi fəaliyyət şəxsin ictimai istehsalda iştiraketmə forması olub, bu forma vasitəsi ilə o, həyat fəaliyyətini təmin etmək üçün maliyyə vəsaiti əldə edir. Məhz iqtisadi fəaliyyətin hüquqi nizamlanması nəticəsində iqtisadiyyatı dövlət tənzimetmə-hüquq münasibəti əmələ gəlir ki, bu münasibə-

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И. Добрынина и др. М., 2002, с.609.

tin potensial (mümkün) iştirakçıları **iqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun subyektləri** adlanır. Həmin hüquq münasibətində iki tərəf iştirak edir: 1) dövlət (dövlətin səlahiyyətli orqanları); 2) iqtisadi (təsərrüfat) fəaliyyət subyektləri. Odur ki, iqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun subyektləri dövlətdən (səlahiyyətli dövlət orqanları) və iqtisadi (təsərrüfat) fəaliyyət subyektlərindən ibarətdir; özü də iqtisadiyyatı dövlət tənzimetmə-hüquq münasibəti hakimiyyət xarakterli münasibətdir. Belə ki, bu münasibətin bir tərəfində hökmən hakimiyyət səlahiyyətinə malik olan dövlət (səlahiyyətli dövlət orqanları) çıxış edir. Odur ki, iqtisadiyyatı dövlət tənzimetmə-hüquq münasibəti hakimiyyət xarakterli münasibətdir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin bir neçə növü fərqləndirilir: 1) tam dövlət monopolizmi; 2) bazar və dövlət tənzimləyicilərinin uyğunlaşdırılması; 3) liberalizm. Əgər iqtisadiyyat tam dövlət inhisarçılığı əsasında idarə olunarsa, bu, **tam dövlət monopolizmi** adlanır. İqtisadiyyatın bu tipi keçmiş SSRİ üçün xarakterik idi. Müasir dövrdə bəzi dövlətlərin təsərrüfat sistemi tam dövlət monopolizmi ilə idarə olunur və tənzimlənir. İqtisadiyyatın ikinci tipi üçün bazar və dövlət tənzimləyicilərinin uyğunlaşdırılması xarakterikdir. Odur ki, iqtisadiyyatın dövlət tənzimlənməsinin bu tipi **bazar və dövlət tənzimləyicilərinin uyğunlaşdırılması** adlanır. Belə tənzimetmə tipində həm bazar, həm də dövlət iştirak edir. Məsələn, bu tip dövlət tənzimetməsinə Yaponiya, İsveç, Çin və s. ölkələr aiddir. Əgər təsərrüfat sistemi yalnız xüsusi (özəl) sahibkarlığa əsaslanarsa və effektiv hesab edilərsə, bu, iqtisadiyyatın dövlət tənzimlənməsinin **liberalizm** tipi adlanır. ABŞ ölkəsi iqtisadiyyatın dövlət tənzimlənməsinin bu tipinə aiddir.

Dövlətin yürütdüyü iqtisadi siyasət bazar mexanizminin (sisteminin) vacib komponentidir. **Bazar mexanizmi** (sistemi) isə bazarın əsas elementləri arasında mövcud olan qarşılıqlı əlaqə mexanizmidir. Bazarın əsas elementləri bunlardır: 1) tələb; 2) təklif; 3) qiymət; 4) rəqabət; 5) əsas iqtisadi qanunlar. Bu elementlər bazarın zəruri parametrləridir ki, onları istehsalçılar və

istehlakçılar özlərinin iqtisadi fəaliyyətində rəhbər tuturlar. Həmin elementlər bazarın əsası və özəyidir; onlarsız bazar nə fəaliyyət göstərə, nə də öz funksiyasını yerinə yetirə bilər.

Dövlətin vəzifəsidir ki, bazar həyatına müəyyən hallarda müdaxilə etsin. Belə hallara aiddir: 1) rəqabət mexanizminin işini təmin etmək lazım gəldikdə; 2) azad və haqlı rəqabət şərtlərinin həyata keçirilə bilmədiyi bazarlara nəzarət etmək zərurəti yarandıqda; 3) sabitliyi və makroiqtisadi tarazlığı qoruyub saxlamaq tələb edildikdə. Dövlət məhz bu kimi hallarda bazar həyatına müdaxilə edir; qalan hallarda dövlət bazara müdaxilə edə bilməz.

Bazar həyatı şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinə obyektiv zərurət yaranır. İqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsinin zəruriliyi, praktiki olaraq, bütün inkişaf etmiş hüquq sistemləri tərəfindən tanınır və qəbul olunur. Ümumi mənafeyin (cəmiyyətin mənafeyinin) təmin edilməsinə yönələn bir neçə məsələ mövcuddur ki, həmin məsələlərin həlli iqtisadiyyatın dövlət tənzimlənməsini şərtləndirir. Belə məsələlərə aiddir: 1) dövlət və ictimai ehtiyacların təmin edilməsi; 2) iqtisadi və sosial inkişaf prioritetlərinin təmin olunması; 3) dövlət büdcəsinin formalaşdırılması; 4) ətraf mühitin qorunması; 5) təbii resurslardan istifadə olunması; 6) əhalinin məşğulluğunun təmin edilməsi; 7) ölkənin təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi; 8) azad sahibkarlığın həyata keçirilməsi; 9) rəqabəti həyata keçirmək və inhisarçılıqdan müdafiə olunmaq; 10) sahibkarların xarici iqtisadi fəaliyyətində hüquq qaydasına əməl olunması; 11) xarici investisiyanın cəlb olunması. Məhz bu kimi məsələlər iqtisadiyyata dövlətin müdaxilə etməsini və onun tərəfindən tənzimetmə fəaliyyətinin həyata keçirilməsini zəruri edir.

### 3.1.3. İqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun prinsipləri

İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ özünəxas prinsiplərə söykənir. Məhz həmin prinsiplər əsasında iqtisadiyyatın

dövlət tənzimlənməsi həyata keçirilir. **İqtisadiyyatın dövlət tənzimlənməsinin məcburiliyi prinsipi** onlardan biridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, bazar şəraitində iqtisadiyyata dövlətin tənzimetmə formasında müdaxiləsi və təsiri mütləq xarakter daşıyır. Tənzimetmə fəaliyyəti həyata keçirməklə dövlət bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad iqtisadi fəaliyyətə təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməsinin qarşısını alır. Əgər iqtisadiyyatın dövlət tənzimlənməsi məcburi xarakter daşımazsa, onda nə dövlət və ictimai ehtiyacları, nə iqtisadi və sosial inkişaf prioritetlərini, nə əhalinin məşğulluğunu, nə ölkənin təhlükəsizliyini və müdafiəsini təmin etmək, nə dövlət büdcəsini formalaşdırmaq, nə də rəqabəti həyata keçirmək və inhisarçılıqdan müdafiə olunmaq mümkün olardı. Sözügedən prinsipin əhəmiyyəti də məhz bundan ibarətdir.

**İqtisadiyyatın dövlət tənzimlənməsinin müəyyən həddə həyata keçirilməsi prinsipi** sözügedən institutun digər prinsipi hesab edilir. Bu prinsipə görə, iqtisadiyyatın dövlət tənzimlənməsinə məhdudiyyət qoyulur. Belə ki, iqtisadiyyatın dövlət tənzimlənməsi hədsiz-hüdudsuz və sərhədsiz xarakter daşımır. Düzdür, dövlət tənzimetməsi həyata keçirilmədən bazarı hətta təsəvvür etmək mümkün deyil. Lakin iqtisadiyyatı tənzimləmək üçün dövlət istənilən formada fəaliyyəti həyata keçirə bilməz. Belə ki, dövlətin iqtisadiyyatı tənzimləmə fəaliyyətinə müəyyən məhdudiyyətlər qoyulur. Unutmaq olmaz ki, dövlət tərəfindən bazar mexanizmini pozan və dağıdan istənilən hərəkətlərin edilməsinə yol verilmir. Məsələn, total direktiv planlaşdırma, qiymətlərə hərtərəfli inzibati nəzarət və s. belə hərəkətlərə misal ola bilər.

**İqtisadiyyatı dövlət tənzimetmə vasitələrinin müxtəlifliyi prinsipi** də sözügedən institutun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, dövlət tərəfindən iqtisadiyyat həm qanunvericilik (hüquqi), həm inzibati, həm büdcə, həm vergi, həm də pul-kredit sistemləri vasitəsi ilə nizama salınır. Məhz bu vasitələrdən

istifadə etməklə dövlət iqtisadiyyatı tənzimetmə fəaliyyətini həyata keçirir.

İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ həm də belə bir prinsip müəyyənləşdirir ki, **iqtisadiyyatın dövlət tənzimlənməsi dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə yönəlir.** Bu prinsipə görə, dövlət iqtisadi alətlər vasitəsi ilə iqtisadi (təsərrüfat) fəaliyyət subyektlərinin davranış norma və qaydalarını nizama salır. Təsadüfi deyil ki, **dövlətin iqtisadi siyasəti** iqtisadi (təsərrüfat) fəaliyyət subyektlərinin davranışına dair norma və qaydaların iqtisadi alətlər vasitəsi ilə nizama salınmasıdır. Qeyd etdiyimiz kimi, dövlətin iqtisadi siyasəti bazar mexanizminin (sisteminin) zəruri və vacib elementidir. **İqtisadi alətlər** dedikdə isə lisenziyalaşdırma, qeydiyyata alma, antiinhisar qadağalarını nizamlama, qiymətləri limitləşdirmə (hədd qoyma), norma təyin etmə (kvota), vergi dərəcəsi, gömrük rüsumu, planlaşdırma, proqramlaşdırma və s. tədbirlər başa düşülür. Dövlətin iqtisadi siyasəti müxtəlif sahələrdə həyata keçirilir: 1) kredit sahəsində – **kredit siyasəti**; 2) büdcə sahəsində – **büdcə siyasəti**; 3) fiskal sahədə – **fiskal siyasət**; 4) sosial sahədə – **sosial siyasət**; 5) xarici iqtisadi fəaliyyət sahəsində – **xarici iqtisadi siyasət** və s.

Sözügedən hüquq institutu həmçinin belə bir prinsipdən çıxış edir ki, **dövlətin tənzimetmə fəaliyyəti təbii ehtiyatlardan istifadə olunması** üçün həyata keçirilir. Dövlət iqtisadiyyatı ondan ötrü tənzimləyir ki, təbii ehtiyatlardan səmərəli istifadə etmək mümkün ola bilsin. Axı təbii ehtiyatlar dövlətə məxsusdur. Lakin təbii ehtiyatların dövlətə məxsus olması heç də fiziki və hüquqi şəxslərin hüquqlarına (mənafelərinə) xələl gətirməməlidir.

**Təbii ehtiyatlar** dedikdə isə şəxslərin maddi və mənəvi tələbatlarını ödəmək məqsədi ilə cəmiyyət tərəfindən istifadə edilən və ya edilməsi mümkün olan resurslar başa düşülür. Mineral, torpaq və su ehtiyatları, bitki və heyvanlar aləmi (flora və fauna), atmosfer havası və günəş enerjisi təbii ehtiyatların (resursların) ən mühüm növləri hesab olunur.

### 3.2. İqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələri, növləri, forma və üsulları

### 3.2.1. İqtisadiyyatın dövlət tənzimlənməsi vasitələri

İqtisadiyyatın dövlət tənzimlənməsi nəyin köməyi ilə həyata keçirilirsə, o da **iqtisadiyyatın dövlət tənzimlənməsi vasitəsi** adlanır. Qərb ölkələrinin iqtisadi nəzəriyyəsinin və dünya təcrübəsinin təhlili göstərir ki, son zamanlar universal dövlət tənzimetmə vasitələrindən istifadə olunur. Universal dövlət tənzimetmə vasitələri isə bunlardan ibarətdir: 1) hüquqi tənzimetmə; 2) inzibati tənzimetmə; 3) iqtisadi tənzimetmə.

**Hüquqi tənzimetmə** dedikdə dövlətin normativ hüquqi aktlar vasitəsilə iqtisadi fəaliyyət subyektlərinin davranışını hüquqi cəhətdən nizama salması başa düşülür. Belə ki, dövlət tərəfindən istehsalçılar və istehlakçılar üçün «iqtisadi oyun» qaydaları müəyyənləşdirilir. Məhz bu qaydalar vasitəsilə hüquqi tənzimetmə həyata keçirilir. «İqtisadi oyun» qaydaları isə müvafiq hüquq normaları vasitəsi ilə müəyyən edilir. Hüquq normaları mülkiyyət hüququnu və mülkiyyətin növlərini, müqavilə bağlamaq şərtlərini və digər məsələləri tənzimləyir. Belə normalar zahirən öz rəsmi ifadəsini ayrı-ayrı qanunvericilik aktlarında tapır. Odur ki, hüquqi tənzimetmə həm də **qanunvericilik tənzimetməsi** adlanır; onlar məzmunca üst-üstə düşən eynimənalı anlayışlardır.

**İnzibati tənzimetmə** nizamasalma, lisenziyalaşdırma, kontingentləşdirmə (kontingenti müəyyən etmə, yəni ixrac və ya idxal edilən malın normasını müəyyənləşdirmə), kvota (norma, hədd, hissə, faiz və ölçü) və digər inzibati tədbirlər vasitəsi ilə həyata keçirilir. İnzibati tədbirlərin köməyi ilə qiymətlər, valyuta kursu (məzənnə) və uçot dərəcəsi üzərində dövlət nəzarəti həyata keçirilir. Söhbət məcburetmə, icazəvermə və müəyyənetmə tədbirlərindən gedir. Müasir dövrdə dövlətlərin çoxunda inzibati tədbirlərin tətbiqi ətraf mühitin mühafizəsi və əhalinin sosial müdafiəsi kimi sahələrlə məhdudlaşır.

**İqtisadi tənzimetmə** vasitəsi ilə bazar münasibətlərinin xarakterinə və bazarın fəaliyyət sahəsinin genişlənməsinə təsir göstərilir. Təsiretmə məcmu tələb və təklifə, kapitalın təmərküzləşmə dərəcəsinə, iqtisadiyyatın yenidən qurulmasına və iqtisadi inkişaf amillərindən istifadə olunmasına yönəlir.[1]

### 3.2.2. İqtisadiyyatın dövlət tənzimlənməsinin növləri

İqtisadiyyatın dövlət tənzimlənməsi bu və ya digər metod əsasında həyata keçirilir. Bundan asılı olaraq iqtisadiyyatın dövlət tənzimlənməsinin iki növü fərqləndirilir: 1) birbaşa tənzimetmə; 2) dolayı tənzimetmə. Bunlar eyni zamanda həm də iqtisadiyyatı dövlət tənzimetmə metodlarıdır.

**Birbaşa tənzimetmə** direktiv qaydalarının köməyi ilə həyata keçirilir. Odur ki, birbaşa tənzimetmə metodu həm də **direktiv tənzimetmə** metodu adlanır. Direktiv qaydalar isə hüquqi aktlarda nəzərdə tutulur. Belə qaydalar iqtisadi fəaliyyətin ayrı-ayrı aspektlərini tənzimləyir.

Birbaşa (direktiv) tənzimetmə aşağıdakı istiqamətlərdə həyata keçirilir: 1) iqtisadi fəaliyyətə aid normativ tələblər müəyyən edilməsi istiqamətində (məsələn, sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin həyata keçirilməsi üçün lisenziya almaq tələbi, texniki tənzimetmə obyektlərinin məcburi sertifikatlaşdırılması tələbi və s.); 2) iqtisadi fəaliyyət həyata keçirilərkən bu və ya digər hərəkətlərin qadağan olunması istiqamətində (məsələn, inhisarçılıq hərəkətinin, yaxud haqsız rəqabətin qadağan olunması və s.); 3) dövlət tərəfindən sanksiya və məsuliyyət tədbirlərinin tətbiq edilməsi istiqamətində (iqtisadi qanunvericiliyi pozan şəxslər məsuliyyətə cəlb olunur və dövlət tərəfindən onlara müxtəlif növ sanksiyalar tətbiq edilir – məsələn, məcburi tələblərə cavab verməyən məhsulun satışı qadağan olunur və digər sanksiyalar); 4) məqsədli proqramları və digər dövlət eh-

---

[1] *İqtisadiyyatın dövlət tənzimlənməsi vasitələri barədə daha ətraflı:* Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 616.

tiyaclarını təmin etmək üçün müqavilələrin bağlanması istiqamətində (məsələn, dövlət ehtiyaclarını təmin etmək üçün dövlət müəyyən növ məhsulların istehsalını sifariş verir və həmin məhsulları müqavilə əsasında satın alır); 5) ayrı-ayrı məhsulların istehsalına və satışına məhdudiyyətlər (qadağalar) qoyulması istiqamətində.

**Dolayı tənzimetmə** iqtisadi vasitələrin köməyi ilə həyata keçirilir. Buna görə də dolayı tənzimetmə metodu həm də **iqtisadi tənzimetmə metodu** adlanır. Məhz iqtisadi vasitələrdən istifadə etməklə iqtisadi proseslərin dövlət tənzimlənməsi həyata keçirilir. Bu kimi vasitələrə aid edilir: 1) vergitutma; 2) kredit faizləri; 3) vergi güzəşti; 4) kredit güzəşti.

Bazar iqtisadiyyatı şəraitində üstünlük dolayı (iqtisadi) tənzimetmə metoduna verilir. Ona görə ki, bu metod direktiv deyil, iqtisadi vasitələrin tətbiqinə əsaslanır. Vergi və kredit güzəştlərinin müəyyən olunması istiqamətində həyata keçirildiyinə görə dolayı (iqtisadi) tənzimetmə metodunun tətbiqi iqtisadi fəaliyyətin bu və ya digər növünü stimullaşdırır. Lakin bu tənzimetmə metodu fəaliyyətin stimullaşdırılmasına yönəlməyə də bilər.

### 3.2.3. İqtisadiyyatın dövlət tənzimlənməsinin üsulları

İqtisadiyyatın dövlət tənzimlənməsi bu və ya digər üsullar əsasında həyata keçirilir. Üsullar dedikdə istifadə olunan müxtəlif alətlər başa düşülür. Deməli, «iqtisadiyyatın dövlət tənzimlənməsinin üsulları» anlayışının məna yükü bu sahədə tətbiq olunan ayrı-ayrı alətləri ehtiva edir.

**Kvota** iqtisadiyyatın dövlət tənzimlənməsi üsullarından biridir. Kvota norma, hədd, hissə, faiz və ölçü deməkdir (latınca «quota» – nə qədər).[1] Bu və ya digər malın göndərilməsinin (satılmasının) maksimum həcmini (dəyər və natural ifadə ilə) müəyyənləşdirən kvota xalq təsərrüfatı, ayrı-ayrı sahələr və is-

[1] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.405.

tehsal üçün müxtəlif məhsul növləri üzrə ixrac və idxalı kəmiyyətcə xarakterizə edir. Onun iki əsas növü fərqləndirilir: 1) ixracat kvotası (xarici ölkəyə nə qədər və hansı həddə mal göndərmək, yəni ixrac etmək olar); 2) idxalat kvotası (xarici ölkədən nə qədər və hansı həddə mal gətirmək, yəni idxal etmək olar).

**Limit** iqtisadiyyatı dövlət tənzimetmə üsullarından digəridir. Limit (fransızca «limite – sərhəd, hədd) son hədd, dərəcə, norma deməkdir. Limit təyin etməklə (norma və hədd qoymaqa) bu və ya digər iqtisadi məsələ həll olunur. Məsələn, ətraf mühitə atılan çirkləndirici maddələrə limit qoyulur. Bu zaman müəyyən olunur ki, ətraf mühitə nə qədər və hansı həddə çirkləndirici maddə atıla bilər.

**Norma müəyyən etmə** iqtisadiyyatın dövlət tənzimlənməsinin üsullarından biridir. Məsələn, amortizasiya norması müəyyən edilir ki, bu norma amortizasiya ayırmalarının nə qədər və hansı həddə olmasını bilməyə imkan verir. Amortizasiya norması faizlə ifadə olunur. Amortizasiya ayırmaları əsas kapitalın (əsas fondların) dəyərinin köhnələn hissəsinin pul ilə ifadəsidir.

**İqtisadi normativlər** iqtisadiyyatı dövlət tənzimetmə üsulları sırasına daxildir. İqtisadi normativlər dedikdə elə bir göstərici başa düşülür ki, bu göstərici xalq təsərrüfatında (iqtisadiyyatda) iqtisadi münasibətləri tənzimləmək üçün tətbiq olunan istehsal xərclərinə (məsrəflərinə) və nəticələrinə, onların bölgüsünə və istifadəsinə olan ictimai tələbləri ifadə edir. İqtisadi normativlərə aşağıdakılar aiddir: 1) topdansatış qiyməti; 2) ümumi gəlir və mənfəət bölgüsü; 3) istehsalın və əsaslı vəsait qoyuluşunun effektivliyi; 4) rentabellik; 5) amortizasiya ayırmaları və s.

İqtisadiyyatın dövlət tənzimlənməsi həm də **iqtisadi stimullaşdırma** kimi üsulun köməyi ilə həyata keçirilir. İqtisadi stimullaşdırma elə bir vasitədir ki, bu vasitə sayəsində fiziki şəxslər əmək fəaliyyətinə cəlb olunur, onların əməyin nəticələrinə olan marağını və əmək təşəbbüskarlığını artırır. Fiziki

şəxslərin həyata keçirdikləri əmək fəaliyyətinin əsasını onların maddi və mənəvi tələbatlarının ödənilməsi, eləcə də fiziki şəxslərin maraq və mənafeləri təşkil edir.

İqtisadiyyatın dövlət tənzimlənməsində həmçinin **digər üsullardan** istifadə olunur: 1) dərəcə müəyyənetmə (məsələn, vergi dərəcəsi, rüsum dərəcəsi, Mərkəzi Bankın uçot dərəcəsi və s.); 2) ehtiyat müəyyənetmə (məsələn, kommersiya bankları üçün ehtiyat məbləğ müəyyən olunur); 3) əmsal (məsələn, tənzimlənən qiymətlərin və ya tariflərin dəyişdirilməsi); 4) kapital və fondların həcmi (məsələn, kommersiya təşkilatlarının nizamnamə kapitalının minimum miqdarının müəyyən edilməsi); 5) yol verilən (icazə verilən) məbləğin son həddi (məsələn, hüquqi şəxslər arasında nağd pulla hesablaşma aparılması üçün son məbləğ həddi müəyyən edilmişdir; 6) standartlaşdırma (malın keyfiyyətinə qoyulan tələb və normalardır ki, bunlarla malın keyfiyyəti idarə olunur); 7) proqnozlaşdırma (iqtisadiyyatın inkişaf istiqamətlərinə və perspektivlərinə yönəlmiş elmi tədqiqatdır ki, onun aşağıdakı obyektləri vardır: a) elm və texnikanın perspektiv inkişafının təhlili, onların iqtisadiyyata təsiri); b) resurslar (əmək, təbii və maddi resurslar); c) ictimai tələbat (istehsal və şəxsi tələbat, tələb və istehlak); ç) təkrar istehsalın sosial-demoqrafik şərtləri (məhsuldar qüvvələrin artımı, əhali sayının sosial və peşə dəyişilməsi və s.); 8) planlaşdırma (müəssisələrin iqtisadi və sosial inkişafına dair tədbirlər kompleksinin işlənib hazırlanması; bazar iqtisadiyyatı şəraitində 4–5 illik planlaşdırma həyata keçirilir); 9) proqramlaşdırma (proqramlaşdırmanın obyekti iqtisadiyyatın ayrı-ayrı sahələri, regional və sosial şəraitdir).

### 3.2.4. İqtisadiyyata dövlət nəzarəti

Subyektlər iqtisadi (təsərrüfat) fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktların tələblərinə əməl etməlidirlər. Səlahiyyətli dövlət orqanları da həmçinin iqtisadiyyatın (iqtisadi fəaliyyətin) tənzimlənməsi və onun idarə olunması zamanı belə vəzifə, yəni normativ hüquqi aktların tələblərinə əməl etmək

vəzifəsi daşıyırlar. Normativ hüquqi aktların tələblərinə həm səlahiyyətli dövlət orqanlarının, həm də iqtisadi fəaliyyət subyektlərinin əməl etmələrinin yoxlanmasına **dövlət nəzarəti** deyilir.

Qeyd etmək lazımdır ki, qanunvericilik aktlarında dövlət özünün iqtisadi fəaliyyətinin həyata keçirilməsinə nəzarət etmək hüququnu təsbit etməklə iqtisadiyyatı (iqtisadi fəaliyyəti) tənzimləyir. Dövlət nəzarəti, ilk növbədə, iqtisadi fəaliyyət subyektləri barədə həyata keçirilir. Belə ki, onların iqtisadi fəaliyyəti həyata keçirmələrinə dövlət tərəfindən nəzarət olunur. Dövlət nəzarəti həm də səlahiyyətli dövlət orqanları üzərində həyata keçirilir. Belə ki, dövlət özünün səlahiyyətli orqanlarının iqtisadiyyatı (iqtisadi fəaliyyəti) tənzimləməsinə və onu idarə etməsinə nəzarət edir.

Dövlət nəzarətini onun səlahiyyətli orqanları həyata keçirir. Maliyyə Bazarlarına Nəzarət Palatası belə orqanlardan biridir. Maliyyə bazarlarına nəzarət etmək onun əsas və başlıca funksiyası hesab edilir. Sözügedən palatanın əsas məqsədi ölkədə maliyyə bazarlarının səmərəli fəaliyyətini və dayanıqlılığını təmin etmək, kreditorların, sığortalıların, investorların və maliyyə bazarlarının digər iştirakçılarının hüquqlarını qorumaqdır. Maliyyə bazarlarında vahid siyasətin formalaşdırılmasında iştirak və bu siyasətin həyata keçirilməsinin təmin edilməsi, makroprudensial nəzarətin həyata keçirilməsi, maliyyə bazarlarının tənzimlənməsi ilə bağlı normativ xarakterli aktların qəbul edilməsi, maliyyə bazarlarında fəaliyyətlərin lisenziyalaşdırılması, icazələrin verilməsi, ləğv edilməsi və digərləri onun əsas fəaliyyət istiqamətləridir.

Dövlət nəzarətinin həyata keçirilməsində digər orqanlar da iştirak edir. Məsələn, Mərkəzi Bank bank nəzarətini, Maliyyə Nazirliyi büdcə nəzarətini (maliyyə nəzarətini), Dövlət Gömrük Komitəsi gömrük nəzarətini, Vergilər Nazirliyi vergi nəzarətini həyata keçirir və s. Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti fəaliyyət göstərir ki,

onun əsas funksiyası əmtəə bazarlarında rəqabət haqqında qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etməkdir.

### 3.2.5. İqtisadiyyatın dövlət tənzimlənməsinin forması

İqtisadiyyatın dövlət tənzimlənməsi hüquqi akt formasında həyata keçirilir. Belə ki, iqtisadiyyatın (iqtisadi fəaliyyətin) dövlət tənzimlənməsi hüquqi forma alır. Hüquqi forma dedikdə dövlət tənzimetmə aktı başa düşülür.

**Dövlət tənzimetmə aktı** səlahiyyətli dövlət orqanları tərəfindən təsərrüfat subyektlərinə və ya konkret subyektə ünvanlanan göstərişlərin hüquqi formasıdır ki, bu göstərişlər iqtisadi fəaliyyətin bu və digər qaydada həyata keçirilməsinə və ya iqtisadi fəaliyyətin müəyyən vəziyyətə gətirilməsinə imkan verir. Belə akt qismində, hər şeydən əvvəl, əhatə dairəsi bilinməyən şəxslərə (qeyri-müəyyən şəxslərə) ünvanlanan normativ akt çıxış edə bilər. Normativ xarakterdə olmayan konkret tənzimetmə aktının da dövlət tənzimetmə aktı rolunda çıxış etməsi mümkündür. Bu cür aktlarda ifadə olunan göstərişlər konkret subyektə ünvanlanır. Normativ xarakterə malik olmayan aktlar müxtəlifdir: məsələn, qadağanetmə aktı, icazəvermə aktı, qeydiyyat aktı, razılıq aktı və s.

Qanunvericilikdə həm göstəriş (sərəncam) aktları (məsələn, antiinhisar qanunvericiliyinin pozulmasının kəsilməsi və aradan qaldırılması haqqında akt), həm də planlı aktlar (məsələn, dövlət ehtiyaclarının ödənilməsi üçün mal göndərilməsinə dair sifariş) nəzərdə tutula bilər.

# III FƏSİL ÜZRƏ ƏYANİ SXEM



## *IV FƏSİL.*
## İQTİSADİ HÜQUQ – ELM VƏ TƏDRİS FƏNNİ KİMİ

### 4.1. İqtisadi hüquq elmi
### 4.1.1. İqtisadi hüquq çoxmənalı anlayış kimi

İqtisadi hüquq geniş anlayışdır. Nəzərdən qaçırmaq olmaz ki, bu anlayış geniş mənada anlaşılır və başa düşülür. Belə ki, iqtisadi hüquq, əsasən, dörd mənada işlədilir: 1) hüquq sahəsi mənasında; 2) qanunvericilik mənasında; 3) elmi mənada; 4) tədris fənni mənasında.

**Hüquq sahəsi mənasında iqtisadi hüquq** dedikdə təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Məhz bu normalar vasitəsi ilə hüquq sahəsi kimi iqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsini həyata keçirir. Hüquq sahəsi kimi iqtisadi hüquq **obyektiv mənada** iqtisadi hüquqdur. Obyektiv mənada iqtisadi hüquq isə təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur. Bu mənada o, milli hüquq sisteminə daxil olan hüquq sahələrindən biri kimi çıxış edir. Məsələn, mülki hüquq, əmək hüququ, ekologiya hüququ, cinayət hüququ və s. Deməli, «hüquq sahəsi kimi iqtisadi hüquq» və «obyektiv mənada iqtisadi hüquq» eynimənalı anlayışlar olub, məzmunca üst-üstə düşür.

İqtisadi hüquq təkcə obyektiv mənada işlədilmir; o, həm də subyektiv mənada başa düşülür. **Subyektiv mənada** iqtisadi hüquq dedikdə təsərrüfat (iqtisadi) fəaliyyəti subyektlərinə iqtisadi sahədə verilən hüquqi imkanlar anlaşılır. Bu mənada iqtisadi hüquq «subyektiv iqtisadi hüquq» anlayışı ilə əhatə olunur. Subyektiv iqtisadi hüquq isə subyektiv hüquqların növlərindən biri hesab edilir. Konstitusiyada məhz subyektiv iqtisadi hüquqlar təsbit olunmuşdur.

**Qanunvericilik mənasında iqtisadi hüquq** dedikdə iqtisadi məsələlər sahəsində qəbul olunan normativ hüquqi aktların sis-

temi başa düşülür. Məhz bu aktlar vasitəsi ilə ölkənin iqtisadi-təsərrüfat fəaliyyətinin hüquqi tənzimlənməsi həyata keçirilir. Məsələn, sahibkarlıq fəaliyyəti, banklar, haqsız rəqabət, sığorta, investisiya fəaliyyəti və digər məsələlər haqqında normativ hüquqi aktlar qəbul olunmuşdur ki, həmin aktların məcmusu qanunvericilik mənasında iqtisadi hüquq adlanır. Bu mənada iqtisadi hüquq **«iqtisadi qanunvericilik»** anlayışı ilə əhatə olunur. İqtisadi qanunvericilik isə mövcud qanunvericilik sahələrindən biri hesab edilir. Digər qanunvericilik sahələrinə misal kimi göstərmək olar: mülki qanunvericilik, əmək qanunvericiliyi, ekologiya qanunvericiliyi, cinayət qanunvericiliyi və s.

İqtisadi qanunvericilik həm məhdud, həm də geniş mənada işlədilir. **Məhdud mənada** iqtisadi qanunvericilik dedikdə iqtisadi məsələlərə aid qanunların (iqtisadi qanunların) məcmusu başa düşülür. **Geniş mənada** iqtisadi qanunvericilik isə iqtisadi sahədə qəbul olunan həm qanunların, həm də qanunqüvvəli aktların məcmusudur. Bu anlayışa həmçinin Azərbaycan Respublikasının bağladığı beynəlxalq iqtisadi müqavilələr daxildir.

**Elmi mənada iqtisadi hüquq** dedikdə iqtisadi məsələlər barədə elmi biliklərin sistemi başa düşülür ki, bu biliklər hüquq sahəsi kimi iqtisadi hüququn (iqtisadi-hüquq normalarının) öyrənilməsinə və izah edilməsinə yönəlmişdir. Bu mənada iqtisadi hüquq «**iqtisadi hüquq elmi**» anlayışı ilə əhatə olunur. İqtisadi hüquq elmi öz növbəsində hüquq elminin növlərindən biridir. Hüquq elminin digər növləri isə bunlardır: əmək hüquq elmi, cinayət hüquq elmi, ekologiya hüquq elmi, mülki hüquq elmi və s.

**Tədris fənni mənasında iqtisadi hüquq** dedikdə hüquq sahəsi kimi iqtisadi hüququ, eləcə də iqtisadi hüquq elmini tələbə-oxucu auditoriyasına öyrədən tədris kursu başa düşülür. Bu mənada iqtisadi hüquq «**iqtisadi hüquq fənni**» anlayışı ilə əhatə olunur. İqtisadi hüquq fənni hüquq fənninin növlərindən biridir. Hüquq fənninin digər növləri isə aşağıdakılardan ibarətdir: cinayət hüquq fənni, mülki hüquq fənni, inzibati hüquq fənni, konstitusiya hüquq fənni və s.

### 4.1.2. İqtisadi hüquq elminin anlayışı

Hüquq sahəsi kimi iqtisadi hüquq öyrənilir və tədqiq edilir. İqtisadi hüququn öyrənilməsi və tədqiq eldilməsi nəticəsində elmi fikir, ideya, konsepsiya, nəzəriyyə, postulat, fərziyyə və baxışlar formalaşır ki, onlar iqtisadi hüquqa aid məsələləri və prosesləri izah edir. Söhbət iqtisadi hüquq elmindən gedir.

**İqtisadi hüquq elmi** dedikdə iqtisadi hüquqa aid məsələləri və prosesləri izah edən elmi fikir, ideya, konsepsiya, nəzəriyyə, postulat, fərziyyə və baxışların sistemi başa düşülür. Onlar (elmi fikirlər, ideyalar və s.) isə hüquq sahəsi kimi iqtisadi hüququn, necə deyərlər, iqtisadi hüquq elmi tərəfindən öyrənilməsi və tədqiq olunması nəticəsində yaranır.

Qanunvericiliyin əsas işi, hər şeydən əvvəl, bu və ya digər anlayışa normativ (leqal) tərif verməkdən ibarətdir. Bu sözləri qanunvericilik sahələrindən biri olan iqtisadi qanunvericilik haqqında da söyləmək olar. Lakin, yaddan çıxarmamalıyıq ki, iqtisadi qanunvericilik iqtisadi hüquqa aid olan anlayışlara (iqtisadi-hüquqi anlayışlara) normativ (leqal) tərif vermir. İqtisadi qanunvericilik, təbii ki, iqtisadi məsələ və proseslərin hamısının mahiyyətinə aydınlıq gətirmir. Bunlardan əlavə, iqtisadi qanunvericilik həmçinin iqtisadi fəaliyyət prosesində yaranan ictimai münasibətlərin hüquqi tənzimetmə qanunauyğunluqlarını və mexanizmini izah etmir. Bu kimi məsələləri həll etmək üçün iqtisadi hüquq sahəsində mütəxəssis alimlər məqalə, monoqrafiya və müxtəlif səpgidə tədqiqat işləri yazaraq iqtisadi hüquqa aid məsələləri izah edirlər. Onların söylədikləri və irəli sürdükləri elmi fikirlərin məcmusu iqtisadi hüquq elmi adlanır. Məsələn, iqtisadi qanunvericilikdə iqtisadi fəaliyyət, iqtisadi (təsərrüfat) dövriyyə və iqtisadi hüquqa aid digər anlayışlara normativ (leqal) tərif verilmir. Belə məsələlərin mahiyyətinə iqtisadi hüquq elmi aydınlıq gətirir və onları izah edir. İqtisadi hüquq elmi iqtisadi-hüquqi məsələlər haqqında alimlərin söylədikləri elmi fikirlərin məcmusudur ki, bu fikirlər iqtisadi hüquqa aid proseslərin izah olunmasına yönəlmişdir. Söylənilən elmi fikirlər isə öz əksini həm monoqrafik əsərlərdə, həm ayrı-

ayrı məcəllələrə verilən elmi-praktik kommentariyalarda, həm də elmi məqalələrdə tapır.

Hüquq elmi hüquq doktrinası deməkdir. Təsadüfi deyildir ki, xarici ölkələrdə hüquq elmi hüquq doktrinası adlanır. Buna görə də iqtisadi hüquq elminə həm də **iqtisadi hüquq doktrinası** deyilir. Bu səbəbdən «iqtisadi hüquq elmi» və «iqtisadi hüquq doktrinası» eynimənalı (sinonim) anlayışlardır. Məsələn, beynəlxalq hüquq elmi beynəlxalq hüquq doktrinası, mülki hüquq elmi mülki hüquq doktrinası, cinayət hüquq elmi cinayət hüquq doktrinası və s. adlanır.

Hüquq sahəsi kimi iqtisadi hüquq öz məzmununa görə elmi mənada iqtisadi hüquqdan, yəni iqtisadi hüquq elmindən fərqlənir və onlar arasında hədd qoyulur. Hüquq sahəsi kimi iqtisadi hüquq məzmunca müxtəlif çoxsaylı hüquq normalarından (iqtisadi-hüquq normalarından) ibarətdir. Məhz həmin normaların məcmusu hüquq sahəsi kimi iqtisadi hüquq adlanır. İqtisadi hüquq elminin məzmunu isə iqtisadi hüquqa aid məsələlər haqqında alimlərin söylədikləri elmi fikirlərdən ibarətdir; həmin fikirlərin məcmusu iqtisadi hüquq elmi sayılır.

Hüquq sahəsi kimi iqtisadi hüquq həm də öz funksiyasına görə iqtisadi hüquq elmindən fərqlənir. Hüquq sahəsi kimi iqtisadi hüququn əsas funksiyası öz nizamasalma predmetinə daxil olan iqtisadi münasibətləri tənzim etməkdən ibarətdir. Söhbət təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində subyektlər arasında yaranan iqtisadi münasibətləri tənzimləmək funksiyasından gedir.

İqtisadi hüquq elminin funksiyasına gəldikdə isə, qeyd etməliyik ki, hüquq sahəsi kimi iqtisadi hüququ öyrənmək və tədqiq etmək onun əsas funksiyası sayılır. İqtisadi hüquq elmi tənzimləmək funksiyasını yerinə yetirmir; o, iqtisadi-hüquqi tənzimetmənin qanunauyğunluq və mexanizmini yalnız öyrənir, tədqiq edir. İqtisadi hüquq elminin köməyi ilə iqtisadi-hüquqi məsələlərə aydınlıq gətirilir və onlar izah edilir. İqtisadi hüquq elminin əhəmiyyəti də məhz bundan ibarətdir.

### 4.1.3. İqtisadi hüquq elminin tədqiqetmə predmeti

Hüquq sahəsi haqqında danışarkən söhbət onun nizamasalma predmetinə malik olmasından gedə bilər. Bildiyimiz kimi, hər bir hüquq sahəsinin, o cümlədən iqtisadi hüququn özünəməxsus nizamasalma predmeti vardır. Hüquq elmi haqqında danışarkən isə söhbət onun tədqiqetmə (öyrənmə) predmetinə malik olmasından gedə bilər. Məlum olduğu kimi, hüquq elminin bütün növlərinin, o cümlədən iqtisadi hüquq elminin özünəxas tədqiqetmə predmeti vardır. Bəs iqtisadi hüquq elminin tədqiqat predmeti dedikdə nə başa düşülür?

Hüquq sahəsi kimi iqtisadi hüququn nizamasalma predmeti belə bir suala cavab verir: müstəqil hüquq sahəsi olan iqtisadi hüquq nəyi və hansı növ ictimai münasibətləri tənzimləyir? İqtisadi hüquq hansı növ ictimai münasibətləri tənzimləyirsə, həmin münasibətlər də iqtisadi hüququn nizamasalma predmetini təşkil edir.

İqtisadi hüquq elminin tədqiqetmə predmetinə gəldikdə isə, qeyd etmək vacibdir ki, iqtisadi hüquq elminin tədqiqetmə predmeti belə bir suala cavab verir: iqtisadi hüquq elmi nəyi öyrənir? İqtisadi hüquq elmi nəyi öyrənirsə, o da iqtisadi hüquq elminin tədqiqetmə predmetini təşkil edir. Odur ki, **iqtisadi hüquq elminin tədqiqetmə predmeti** dedikdə onun öyrəndiyi məsələlər başa düşülür.

İqtisadi hüquq elminin öyrəndiyi məsələlər sırasına, ilk növbədə, **hüquq sahəsi kimi iqtisadi hüquq** daxildir. İqtisadi hüquq elmi izah edir və əsaslandırır ki, nəyə görə iqtisadi hüquq ayrıca hüquq sahəsi kimi tanınır və milli hüquq sistemində müstəqil yerlərdən birini tutur. İqtisadi hüquq elmi həmçinin iqtisadi hüququn sahəvi (xüsusi) prinsiplərinə, onun nizamasalma predmetinə və hüquqi tənzimetmə metoduna, habelə iqtisadi hüququn sisteminə aydınlıq gətirir.

İqtisadi hüquq sahəsinin ibarət olduğu **iqtisadi-hüquq normaları** iqtisadi hüquq elminin tədqiqetmə predmetinə daxil olan məsələlərdən biridir. İqtisadi hüquq elmi onların məzmununu öyrənir. İqtisadi-hüquq normalarının məzmununu bilmə-

dən onların praktikada səlahiyyətli dövlət orqanları tərəfindən düzgün və eyni cür (bir qaydada) tətbiq olunması qeyri-mümkündür. İqtisadi hüquq sahəsində mütəxəssis alimlərin iqtisadi-hüquq normalarının məzmununa dair şərh və izahları bunun üçün mühüm əhəmiyyətə malikdir.

**İqtisadi qanunvericilik** iqtisadi hüquq elminin tədqiqetmə predmetinə daxil olan məsələlərdən digəri sayılır. Bu isə təsadüfi xarakter daşımır. Unutmaq olmaz ki, hüquq sahəsi kimi iqtisadi hüququn ibarət olduğu iqtisadi-hüquq normaları zahirən öz rəsmi ifadəsini iqtisadi qanunvericilikdə tapır. İqtisadi hüquq elmi iqtisadi qanunvericiliyi öyrənərək müəyyənləşdirir ki, iqtisadi qanunvericiliyin iyerarxiya (aşağı səviyyəli aktların yüksək səviyyəli aktlara tabeçiliyi) prinsipinə əsaslanan sistemi hansı normativ hüquqi aktlardan ibarətdir. İqtisadi hüquq elmi müəyyən edir ki, ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiya iqtisadi hüququn normativ bazası və iqtisadi qanunvericiliyin əsasıdır. İqtisadi qanunvericilik sisteminə daxil olan müxtəlif səviyyəli normativ hüquqi aktların hüquqi qüvvəsi, habelə iqtisadi qanunvericiliyin iyerarxiya strukturu da iqtisadi hüquq elmi tərəfindən öyrənilir.

İqtisadi hüquq elmi həm də öyrənir ki, hüquq sahələrindən biri olan iqtisadi hüquqla hansı növ ictimai münasibətlər tənzimlənir. Bu, yəni **iqtisadi hüquqla tənzimlənən ictimai münasibətlər** də iqtisadi hüquq elminin tədqiqetmə predmetinə daxil olan məsələdir. İqtisadi hüquqla tənzimlənən ictimai münasibətlərin iqtisadi hüquq elminin nizamasalma predmetinə daxil edilməsi isə heç də təsadüfi xarakter daşımır. Axı iqtisadi hüquqla iqtisadiyyat sahəsində yaranan ictimai münasibətlər tənzimlənir. Lakin, qeyd etməliyik ki, iqtisadiyyat sahəsində yaranan ictimai münasibətlər təkcə iqtisadi hüquqla tənzimlənmir. Həmin münasibətlərin hüquqi tənzimlənməsində həm də digər hüquq sahələri (məsələn, mülki hüquq, konstitusiya hüququ, inzibati hüquq və s.) iştirak edir. Odur ki, iqtisadi hüquqla tənzimlənən ictimai münasibətlərin iqtisadi hüquq elmi tərəfindən öyrənilməsi böyük əhəmiyyətə malikdir. Belə ki, hansı ictimai münasibətlərin iqtisadi hüquqla tənzim edilməsini öy-

rənmək nəticəsində iqtisadi hüququ digər hüquq sahələrindən ayırmaq və fərqləndirmək mümkün olur.

İqtisadiyyat sahəsində yaranan ictimai münasibətlər iqtisadi hüquqla tənzimlənən zaman həmin münasibətlər hüquqi forma alır. Hüquqi forma aldıqda onlar iqtisadi-hüquq münasibətləri adlanır. Bu kontekstdə **iqtisadi-hüquq münasibətləri** iqtisadi hüquq elminin tədqiqetmə predmetinə daxil olan məsələlərdən biridir. İqtisadi-hüquq münasibətlərini öyrənmək isə hüquqi üstqurumun cəmiyyətin iqtisadi bazisinə göstərdiyi təsir mexanizminin açılmasına imkan verir. İqtisadi hüquq elmi bu münasibətlərin obyektini, subyektlərini, eləcə də onların hüquq və vəzifələrini müəyyən edir.

Məlum olduğu kimi, ayrı-ayrı qanunvericilik sahələri müəyyən çatışmazlıq və boşluqdan, habelə hüquqi alqoritm və nihilizm təzahürlərindən azad deyildir. Bu sözləri qanunvericilik sahələrindən biri olan iqtisadi qanunvericilik haqqında da söyləmək olar. Belə ki, iqtisadi qanunvericilikdə çatışmazlıq (boşluq) təzahürləri mövcuddur. Mövcud çatışmazlığı (boşluğu) isə iqtisadi-hüquq normalarının tətbiq praktikasını öyrənmək nəticəsində müəyyən etmək mümkün olur. Odur ki, iqtisadi hüquq elmi **iqtisadi-hüquq normalarının tətbiq praktikasını** öyrənir. Bu, iqtisadi hüquq elminin tədqiqetmə predmetinə daxil olan məsələdir. İqtisadi-hüquq normalarının tətbiq praktikasını öyrənmək iqtisadi qanunvericilikdə mövcud olan çatışmazlıq, boşluq, alqoritm və digər hüquqi təzahürlərin müəyyənləşdirilməsinə imkan verir. Onları aradan qaldırmaq üçün iqtisadi hüquq elmi təkliflər hazırlayır ki, bu təkliflər iqtisadi qanunvericiliyin və onun tətbiq praktikasının təkmilləşdirilməsinə yönəlir.

## 4.2. İqtisadi hüquq tədris fənni

### 4.2.1. İqtisadi hüquq tədris fənninin anlayışı

İqtisadiyyat sahəsində yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsini həyata keçirməkdən ötrü hüquq sahəsi kimi iqtisadi hüquq tətbiq olunur. Hüquq sahəsi kimi iqtisadi hüquqa aid məsələləri (iqtisadi-hüquqi məsələləri) öyrənmək və tədqiq

etmək üçün iqtisadi hüquq elmindən istifadə edilir. Hüquq sahəsi kimi iqtisadi hüququ və iqtisadi hüquq elmini oxucu-tələbə auditoriyasına öyrətmək lazım gəldikdə isə iqtisadi hüquq tədris fənnindən (tədris fənni kimi iqtisadi hüquqdan) istifadə olunur. Bu isə təbii olub, heç də təsadüfi xarakter daşımır. Axı həm hüquq sahəsi kimi iqtisadi hüquq, həm də iqtisadi hüquq elmi tələbə-oxucu auditoriyasına öyrədilməlidir. Belə vəzifəni yerinə yetirmək isə tədris fənni kimi iqtisadi hüququn üzərinə düşür.

**Tədris fənni kimi iqtisadi hüquq** dedikdə tələbə-oxucu auditoriyasını öyrətmək üçün istifadə olunan tədris kursu başa düşülür. Buna görə də tədris fənni kimi iqtisadi hüquqa həm də **iqtisadi hüquq tədris kursu** deyilir. İqtisadi hüquq tədris fənninin (kursunun) vəzifəsi tələbə-oxucu auditoriyasını öyrətməkdən ibarətdir. Odur ki, iqtisadi hüquq tədris fənni özünəxas öyrətmə predmetinə malikdir. İqtisadi hüquq tədris fənninin öyrətmə predmeti belə bir suala cavab verir: iqtisadi hüquq tədris fənni oxucu-tələbə auditoriyasına nəyi öyrədir? İqtisadi hüquq tədris fənni oxucu-tələbə auditoriyasına nəyi öyrədirsə, o da **iqtisadi hüquq tədris fənninin öyrətmə predmetini** təşkil edir. Bu xüsusiyyəti ilə iqtisadi hüquq tədris fənni həm hüquq sahəsi kimi iqtisadi hüquqdan, həm də iqtisadi hüquq elmindən fərqlənir. Qeyd etdiyimiz kimi, hüquq sahəsi kimi iqtisadi hüquq özünəməxsus **nizamasalma predmetinə** malikdir. Qanunvericilik mənasında iqtisadi hüquq iqtisadi məsələlərə dair normativ hüquqi aktların **ümumiləşdirilmiş məcmusunu** ehtiva edir. İqtisadi hüquq elminin də ayrıca özünəxas **tədqiqetmə (öyrənmə) predmeti** vardır. İqtisadi hüquq tədris fənni haqqında danışarkən isə onun **öyrətmə predmetinə** malik olmasından söhbət gedə bilər. Əgər hüquq sahəsi kimi iqtisadi hüquq öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri tənzimləyirsə, iqtisadi hüquq elmi öz tədqiqetmə predmetinin ibarət olduğu iqtisadi-hüquqi məsələləri öyrənir. Bunlardan fərqli olaraq, iqtisadi hüquq tədris fənni özünün predmetini təşkil edən məsələləri tələbə-oxucu auditoriyasına öyrədir.

Tələbə-oxucu auditoriyasına gəldikdə, qeyd etmək lazımdır ki, bu, geniş anlayış olub, özündə bu və ya digər kateqoriya

şəxsləri birləşdirir. Buraya, ilk növbədə, hüquqşünaslıq və iqtisadiyyatın tənzimlənməsi ixtisasları üzrə təhsil alan ali məktəb tələbələri daxildir. Təbii ki, onlar iqtisadi hüquq sahəsinin (hüquq sahəsi kimi iqtisadi hüququn), qanunvericilik mənasında iqtisadi hüququn, eləcə də iqtisadi hüquq elminin (iqtisadi hüquq doktrinasının) məzmunu ilə tanış olmalı, zəruri elmi biliklərə yiyələnməlidirlər. Əldə olunmuş biliklər isə tələbələrin seçdikləri ixtisas üzrə praktiki iş və fəaliyyət üçün mühüm əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, zəruri biliklərə yiyələnmədən nə praktiki işin, nə də praktiki fəaliyyətin həyata keçirilməsi mümkündür.

Tələbə-oxucu auditoriyasına həm də digər kateqoriya şəxslər daxildir. Məsələn, aspirantlar, hazırlanan hüquqşünas kadrlar (dinləyicilər) və s. mütəxəssislər iqtisadi hüquq sahəsinin və iqtisadi hüquq elminin məzmununu öyrənmək üçün iqtisadi hüquq tədris fənnindən istifadə edirlər.

### 4.2.2. İqtisadi hüquq tədris fənninin öyrətmə predmeti və sistemi

İqtisadi hüquq tədris fənninin öyrətmə predmetinə, hər şeydən əvvəl, obyektiv mənada iqtisadi hüquq daxildir. Belə ki, iqtisadi hüquq tədris fənni tələbələrə, ilk növbədə, hüquq sahəsi kimi iqtisadi hüququ öyrədir. Hüquqşünaslıq və iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasları üzrə təhsil alan ali məktəb tələbələri iqtisadi hüquq sahəsinin məzmununa və s. dair məsələlərlə məhz iqtisadi hüquq tədris fənni vasitəsilə tanış olurlar. İqtisadi hüquq sahəsinin məzmununu bilmədən bilikli və bacarıqlı kadr hazırlığından söhbət gedə bilməz.

İqtisadi hüquq tədris fənninin öyrətmə predmetinə həm də iqtisadi hüquq elmi – **iqtisadi hüquq doktrinası** daxildir. Belə ki, iqtisadi hüquq tədris fənni iqtisadi hüquq sahəsi ilə yanaşı, tələbələrə həm də iqtisadi hüquq elmini öyrədir. Bu isə təsadüfi xarakter daşımır. Nəzərdən qaçırmaq olmaz ki, bu günün tələbəsi gələcəyin mütəxəssisidir; onun möhkəm elmi təməli olmalıdır. Bundan ötrü isə iqtisadi hüquq elminin nəticələrinə

əsaslanmaq lazımdır. İqtisadi hüquq elmini bilmədən və onun barəsində biliklərə yiyələnmədən tələbənin gələcəyin səriştəli və peşəkar mütəxəssisi (kadrı) olmasından söhbət gedə bilməz. Odur ki, iqtisadi hüquq tədris fənni tələbələrə həm də iqtisadi hüquq elmini öyrədir. Heç də sirr deyil ki, hüquqşünaslıq və iqtisadiyyatın tənzimlənməsi ixtisasları üzrə təhsil alan istənilən tələbə iqtisadi hüquq elminin məzmununu bilməlidir. Bu vəzifəni isə iqtisadi hüquq tədris fənni yerinə yetirir.

Beləliklə, iqtisadi hüquq tədris fənninin öyrətmə predmetinə iki əsas məsələ daxildir. Bunlardan biri iqtisadi hüquq sahəsi, digəri isə iqtisadi hüquq elmidir. İqtisadi hüquq tədris fənni tələbələrə məhz onları öyrədir.

İqtisadi hüquq tədris fənninin **sisteminə** gəldikdə, qeyd etmək lazımdır ki, bu tədris fənni ayrı-ayrı mövzulardan ibarətdir. Bir-biri ilə bağlı və qarşılıqlı əlaqədə olan həmin mövzular sistem halında birləşmişdir. Mövzuların bəziləri ümumi, digərləri isə xüsusi hissəyə daxildir. Odur ki, iqtisadi hüquq tədris fənni iki hissəyə bölünür: 1) ümumi hissə; 2) xüsusi hissə.

**Ümumi hissəyə** ümumi məsələləri işıqlandıran mövzular daxildir. Məsələn, iqtisadi hüququn mənbələri, iqtisadi hüququn sahəvi (xüsusi) prinsipləri, iqtisadi-hüquq münasibətləri, iqtisadi hüququn subyektləri, iqtisadi hüquqda məsuliyyət və s. mövzular.

**Xüsusi hissə** isə özündə iqtisadi hüququn ayrı-ayrı yarımsahələrini işıqlandıran mövzuları birləşdirir. Məsələn, sahibkarlıq hüququ, bank hüququ, investisiya hüququ, sığorta hüququ, maliyyə hüququ, nəqliyyat hüququ və s. mövzular xüsusi hissəyə daxildir.

İqtisadi hüquq tədris fənninin sistemi obyektiv mənada iqtisadi hüququn sisteminə əsaslanır. Lakin həmin sistemlər eyni ola bilməz. Belə ki, iqtisadi hüquq tədris fənni ilə iqtisadi hüquq sahəsindən əlavə, həm də iqtisadi hüquq elmi əhatə olunur. Bu səbəbdən iqtisadi hüquq fənninin sistemi ilə iqtisadi hüquq sahəsinin sistemi eynilə üst-üstə düşmür.

# IV FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# V FƏSİL.
# İQTİSADİ-HÜQUQ MÜNASİBƏTİ

## 5.1. İnzibati tənzimetmə mexanizmində iqtisadi-hüquq münasibətinin rolu

### 5.1.1. İqtisadi-hüquq münasibəti anlayışı

Cəmiyyətdə yaranan və mövcud olan ictimai münasibətlər müxtəlif növlərə bölünür (məsələn, əxlaqi münasibət, siyasi münasibət, dini münasibət, milli münasibət və s.). İctimai münasibətin növlərindən biri də hüquq münasibəti adlanır. **Hüquq münasibəti** dedikdə müvafiq hüquqlara malik olan və vəzifələr daşıyan subyektlər (tərəflər) arasında yaranan elə ictimai münasibət başa düşülür ki, həmin münasibət hüquq norması ilə tənzimlənir. Başqa sözlə, əgər hər hansı ictimai münasibət hüquq norması ilə tənzimlənərsə, belə münasibət hüquq münasibəti adlanır. Hüquq münasibəti hüquq normaları ilə tənzimlənən elə ictimai münasibətdir ki, bu münasibətin iştirakçıları subyektiv hüquq və vəzifələr daşıyırlar.[1]

Hüquq münasibəti öz məzmununa görə hüququn konkret sahəsindən asılı olaraq aşağıdakı kimi fərqləndirilir: məsələn, mülki-hüquq münasibəti, əmək-hüquq münasibəti, inzibati-hüquq münasibəti, cinayət-hüquq münasibəti və s. Hüquq münasibətinin növlərindən biri də məhz iqtisadi-hüquq münasibəti sayılırır.

**İqtisadi-hüquq münasibəti** anlayışının məna yükü altında iqtisadi-hüquq normaları ilə tənzimlənən elə ictimai münasibət başa düşülür ki, bu münasibətin iştirakçıları (tərəfləri) subyektiv hüquqlara malik olub, hüquqi vəzifələr daşıyırlar. Qeyd etdiyimiz kimi, iqtisadi-hüquq normaları zahirən öz rəsmi ifadəsini ayrı-ayrı normativ hüquqi aktlarda tapır ki, onlar iqtisadi hüququn nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlə-

---

[1] Юридический энциклопедический словарь / Гл. ред. А.Я.Сухарев. М., 1984, с.278; Hüquq ensiklopedik lüğəti / Baş redaktor – M.F.Məlikova. Bakı, 1991, s.502.

ri tənzimləmək məqsədinə xidmət edir. İqtisadi münasibətlər isə iqtisadi-təsərrüfat fəaliyyəti prosesində subyektlər arasında yaranır ki, bu münasibətlər cəmiyyətin iqtisadi bazisinə daxildir.

İqtisadi münasibətin iqtisadi-hüquq normaları ilə hüquqi tənzimlənməsi heç də iqtisadi münasibəti itirmir (yox etmir) və hər hansı yeni ictimai münasibətin yaranmasına gətirib çıxarmır. İqtisadi münasibətin iqtisadi-hüquq normaları ilə tənzimlənməsi yalnız artıq mövcud olan iqtisadi münasibətə, necə deyərlər, hüquqi forma «geyindirir», yəni hüquqi forma verir. Belə ki, iqtisadi münasibətin iqtisadi-hüquq normaları ilə tənzimlənməsi nəticəsində həmin münasibət hüquqi forma alaraq iqtisadi-hüquq münasibətinə çevrilir. Deməli, iqtisadi-hüquq münasibətləri iqtisadi-hüquq normaları ilə tənzimlənən iqtisadi münasibətlərdən başqa ayrı bir şey deyildir. Başqa sözlə, iqtisadi-hüquq münasibəti iqtisadi-hüquq normaları ilə tənzimlənən iqtisadi münasibətin özüdür; hüquqi tənzimlənmə nəticəsində iqtisadi-hüquq münasibəti yaranır.

«İqtisadi münasibət» və «iqtisadi-hüquq münasibəti» arasında mövcud olan əlaqə fəlsəfi baxımdan «məzmun» və «forma» kimi kateqoriyalar arasındakı bağlılığa oxşayır. Belə ki, fəlsəfi planda əgər «iqtisadi münasibət» məzmundursa, «iqtisadi-hüquq münasibəti» formadır. Digər tərəfdən, iqtisadi münasibət fəlsəfi nöqteyi-nəzərdən **bazisdir**. Belə ki, iqtisadi münasibətlər cəmiyyətin iqtisadi bazisinin əsası sayılır. İqtisadi hüquq isə hüquqi **üstqurum** kateqoriyasına aid olunur. Hüquqi üstqurum cəmiyyətin iqtisadi bazisinə daxil olan iqtisadi münasibətlərlə bağlı olub, həmin münasibətlərə təsir göstərir.

İqtisadi-hüquq münasibətlərinin yaranması və mövcud olması onu göstərir ki, iqtisadi hüquq (iqtisadi-hüquq normaları) iqtisadiyyata təsir göstərir. Belə ki, iqtisadiyyatın tənzimlənməsi iqtisadi hüquqla həyata keçirilir və bunun nəticəsin-də iqtisadi-hüquq münasibətləri yaranır. İqtisadi-hüquq münasibətləri isə ictimai münasibətlərin iqtisadi hüquqla tənzimlənmə mexanizmində vacib rol oynayır.

İqtisadi-hüquq münasibətləri iqtisadi fəaliyyətin həyata keçirilmə prosesin-də əmələ gəlir. Odur ki, onlara həm də iqtisadi

fəaliyyətin həyata keçirilmə prosesində yaranan hüquq münasibətləri deyilir. Əgər subyektlər tərəfindən iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlər iqtisadi-hüquq normaları ilə tənzimlənərsə, belə halda iqtisadi-hüquq münasibətləri əmələ gəlir. İqtisadi-hüquq münasibətləri təkcə iqtisadi fəaliyyətin həyata keçirilmə prosesində yaranmır. İqtisadi-hüquq münasibətləri həm də o halda əmələ gəlir ki, iqtisadi fəaliyyət subyektlərinə dövlət təsiri göstərilsin. Dövlət təsirinin göstərilməsi isə iki formada həyata keçirilir: 1) tənzimetmə (subyektlərin həyata keçirdikləri iqtisadi fəaliyyətin tənzimlənməsi); 2) nəzarətetmə (subyektlərin həyata keçirdikləri iqtisadi fəaliyyətə nəzarət olunması).

Beləliklə, iqtisadi-hüquq münasibətləri dedikdə iqtisadi-hüquq normaları ilə tənzimlənən və nizamlanan elə ictimai münasibətlər anlaşılır ki, bu münasibətlər müvafiq subyektlər tərəfindən iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində, habelə iqtisadi fəaliyyət subyektlərinə dövlət təsiri göstərilməsi nəticəsində yaranır.

### 5.1.2. İqtisadi-hüquq münasibətinin xüsusiyyətləri

Qeyd etdiyimiz kimi, hüquq sahələrinin müxtəlifliyindən asılı olaraq hüquq münasibəti ayrı-ayrı növlərə bölünür (məsələn, mülki-hüquq münasibəti, inzibati-hüquq münasibəti, konstitusiya-hüquq münasibəti, əmək-hüquq münasibəti və s.). Hüquq münasibətinin bu kimi növləri bir-birindən müəyyən xüsusiyyətə malik olması ilə fərqlənir. Belə ki, hüquq münasibətinin hər bir növü özünəxas xüsusiyyətə malikdir. Məsələn, mülki-hüquq münasibətinin xüsusiyyəti bundan ibarətdir ki, bu münasibətdə iştirak edən tərəflər hüquq bərabərliyinə malik olub, hüquqi cəhətdən müstəqildirlər və bir-birindən asılı deyillər. İnzibati-hüquq münasibətinin xüsusiyyəti bundan ibarətdir ki, bu münasibət hakimiyyət-tabeçilik xarakterində olub, dövlət idarəetmə orqanlarının icra-sərəncam fəaliyyəti prosesində yaranır; həmin münasibətin bir tərəfində hökmən hakimiyyət səlahiyyətinə malik olan dövlət idarəetmə orqanı çıxış edir ki, bu da tərəflərin hüquq bərabərliyini istisna edir və s.

İqtisadi-hüquq münasibətinin hansı xüsusiyyətə malik olmasına gəldikdə, qeyd etməliyik ki, iqtisadi hüquqla həm hakimiyyət-tabeçilik, həm də hakimiyyət-tabeçilik xarakterində olmayan ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Belə ki, iqtisadi hüquqla bir tərəfdən – iqtisadiyyata (iqtisadi fəaliyyətə) dövlət təsiri ilə bağlı ictimai münasibətlər, digər tərəfdən isə – iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn ictimai münasibətlər tənzimlə-nir. Bunun nəticəsində iki növ iqtisadi-hüquq münasibəti əmələ gəlir: 1) iqtisadiy-yata (iqtisadi fəaliyyətə) dövlət təsiri ilə bağlı iqtisadi-hüquq münasibəti; 2) iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn iqtisadi-hüquq münasibəti.

Birinci növ, yəni **iqtisadiyyata (iqtisadi fəaliyyətə) dövlət təsiri ilə bağlı iqtisadi-hüquq münasibəti** hakimiyyət səlahiyyətinə malik olan dövlət və iqtisadi fəaliyyət (təsərrüfat) subyektləri arasında əmələ gəlir. Odur ki, bu növ iqtisadi-hüquq münasibəti hakimiyyət-tabeçilik xarakterli münasibətdir.

İqtisadiyyata (iqtisadi fəaliyyətə) dövlət təsiri, qeyd etdiyimiz kimi, iki əsas forma vasitəsilə göstərilir ki, bu formalardan biri tənzimetmə, digəri isə nəzarətdir. Əgər iqtisadiyyat dövlət tərəfindən tənzimlənərsə, bu o deməkdir ki, iqtisadiyyata (iqtisadi fəaliyyətə) dövlət təsiri göstərilir. İqtisadiyyata (iqtisadi fəaliyyətə) dövlət nəzarət etdikdə həmçinin iqtisadiyyata dövlət təsiri göstərilməsi həyata keçirilir.

Bunlardan başqa, dövlət idarəetmə formasında da iqtisadiyyata təsir göstərir. Söhbət iqtisadiyyat sahəsində dövlət idarəetməsindən gedir. Dövlət idarəetməsi dedikdə dövlət orqanlarının qanunlar və digər qanunvericilik aktları əsasında həyata keçirdikləri təşkilati, icra və sərəncam fəaliyyəti başa düşülür; onu, əsasən, xüsusi dövlət orqan qrupu – dövlət idarəetmə orqanları həyata keçirir. Bu orqanlar ayrı-ayrı müxtəlif sahələrdə idarəetmə fəaliyyəti ilə məşğul olurlar ki, iqtisadiyyat həmin sahələrdən biridir. Bu formalar, yəni tənzimetmə, nəzarət və idarəetmə iqtisadiyyata nəinki dövlət təsirini, həmçinin dövlətin rəhbərlik fəaliyyətini ifadə edir. Nəzərdən qaçırmaq olmaz ki, dövlətin iqtisadiyyata rəhbərlik fəaliyyəti üç formada həyata

keçirilir: 1) tənzimetmə; 2) nəzarət; 3) idarəetmə. Müasir şəraitdə bu formalarda həyata keçirilən rəhbərlik fəaliyyəti öz xarakterini dəyişmişdir. Bazar iqtisadiyyatının inkişafı üçün təsərrüfat mexanizmi yenidən qurulmuşdur ki, bunun nəticəsində müəssisələrə direktiv rəhbərlik metodunun tətbiqi minimum səviyyəyə qədər azaldılmışdır. Əvvəlki dövrdən (sovet dövründən) fərqli olaraq, bu metod əsas rol oynamır və geniş tətbiq edilmir.

Bazar münasibətləri şəraitində iqtisadiyyata dövlət təsiri göstərilməsinin yeni elementləri yaranmışdır. Yeni elementlərə, misal olaraq, vergiləri və antiinhisar nəzarətini göstərmək olar.

İkinci növ, yəni **iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn iqtisadi-hüquq münasibətinə** gəldikdə, qeyd etmək vacibdir ki, bu növ hüquq münasibəti hakimiyyət-tabeçilik xarakteri daşımır. Belə ki, həmin hüquq münasibəti hər hansı hakimiyyət və tabeçilik əlaqəsindən kənarda yaranır. İqtisadi fəaliyyət, hər şeydən əvvəl, əmtəə (mal) istehsal olunması üçün həyata keçirilir. İqtisadi fəaliyyət həm də ondan ötrü həyata keçirilir ki, iş görülsün (məsələn, təmir-tikinti işi və s.) və ya xidmət göstərilsin (məsələn, bank xidməti, nəqliyyat xidməti və s.).

İqtisadi fəaliyyətə başlamaq üçün istehsal binası əldə etmək və ya tikmək, avadanlıq, yanacaq və xammal almaq zəruridir. İstehsal siklinin başa çatması nəticəsində əmtəələrin realizə olunması, əmtəələrin daşınması (təyinat yerinə çatdırılması), onların saxlanılması və s. ilə bağlı olaraq ictimai münasibətlər yaranır. Həmin münasibətlərin iqtisadi hüquqla tənzimlənməsi nəticəsində iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn iqtisadi-hüquq münasibətləri əmələ gəlir ki, həmin hüquq münasibətləri hakimiyyət-tabeçilik xarakteri daşımır. Ona görə ki, bu növ iqtisadi-hüquq münasibətinin tərəflərindən biri qismində hakimiyyət səlahiyyətinə malik olan dövlət orqanı çıxış etmir. Həmin münasibətin iştirakçıları öz qarşılıqlı əlaqələrini müstəqil surətdə, adətən, müqavilə əsasında müəyyənləşdirirlər.

## 5.2. İqtisadi-hüquq münasibətinin quruluşu

### 5.2.1. İqtisadi-hüquq münasibətinin quruluşu anlayışı

Hüquq münasibəti özünəməxsus quruluşa malikdir. Hüquq münasibətinin quruluşu belə bir suala cavab verir: hüquq münasibəti tərkibcə hansı elementlərdən ibarətdir? Odur ki, hüquq münasibətinin quruluşunu müəyyənləş-dirmək üçün həmin elementlərə aydınlıq gətirilməsi tələb olunur.

Qeyd etməliyik ki, iqtisadi-hüquq münasibəti də müəyyən quruluşa malikdir. **İqtisadi- hüquq münasibətinin quruluşu** dedikdə onun tərkibinə daxil olan elementlər başa düşülür ki, həmin elementlər bir-biri ilə bağlı olub, qarşılıqlı əlaqədədir. İqtisadi-hüquq münasibəti, istənilən növ hüquq münasibəti kimi, tərkibcə aşağıdakı elementlərdən ibarətdir: 1) iqtisadi-hüquq münasibətinin subyektləri; 2) iqtisadi-hüquq münasibətinin məzmunu; 3) iqtisadi-hüquq münasibətinin obyekti. Yaddan çıxarmamalıyıq ki, hər bir hüquq sahəsinə aid olan hüquq münasibəti (məsələn, mülki-hüquq münasibəti, inzibati-hüquq münasibəti, cinayət-hüquq münasibəti və s.) özünün subyektlərinə, spesifik obyektə və konkret məzmuna malikdir. Bu sözləri olduğu kimi həm də iqtisadi-hüquq münasibəti haqqında söyləmək mümkündür. Axı iqtisadi-hüquq münasibəti hüquq münasibətinin bir növüdür.

Elementlərsiz iqtisadi-hüquq münasibəti nə yarana, nə də mövcud ola bilər. Odur ki, elementlər iqtisadi-hüquq münasibətinin yaranmasının və mövcud olmasının əsas (məcburi) şərtidir. Buna görə də iqtisadi-hüquq münasibətinin ibarət olduğu həmin elementlərə aydınlıq gətirək.

### 5.2.2. İqtisadi-hüquq münasibətinin subyektləri

İqtisadi-hüquq münasibəti **iki tərəf** arasında əmələ gəlir. Belə ki, iqtisadi- hüquq münasibətinin yaranmasında iki tərəf iştirak edir. Bu səbəbdən iqtisadi- hüquq münasibətinin tərəfləri **iştirakçılar** adlanır. İstənilən ictimai münasibət kimi, iqtisadi-hüquq münasibəti də məhz iştirakçılar arasında yaranır. İq-

tisadi-hüquq münasibətinin iştirakçılarına iqtisadi-hüquq münasibətinin subyektləri deyilir. Subyektlər iqtisadi-hüquq münasibətinin həm yaranmasının, həm də mövcud olmasının məcburi şərtidir. Belə ki, subyektlər olmadan iqtisadi-hüquq münasibəti nə yarana, nə də mövcud ola bilər.

İqtisadi münasibətlərin hüquqi tənzimlənmə prosesində həmin münasibətlərin iştirakçıları müvafiq subyektiv hüquq və vəzifələrin daşıyıcısı olurlar. Belə ki, iqtisadi hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlər tənzimlənərkən həmin münasibətlərin iştirakçıları subyektiv hüquqlar əldə edir, hüquqi vəzifələr daşıyırlar. İqtisadi-hüquq münasibətlərinin iştirakçıları bir-biri ilə məhz subyektiv hüquqlar və vəzifələr vasitəsilə qarşılıqlı əlaqədə olurlar.

**İqtisadi-hüquq münasibətinin subyektləri** dedikdə həmin münasibətin elə iştirakçıları başa düşülür ki, onlar bir-biri ilə subyektiv hüquq və vəzifələr vasitəsilə qarşılıqlı əlaqədə olurlar. Qarşılıqlı əlaqə iqtisadi-hüquq münasibəti çərçivəsində yaranır; iqtisadi-hüquq münasibətindən kənarda subyektlərin bir-biri ilə qarşılıqlı əlaqədə olmaları qeyri-mümkündür.

İqtisadi-hüquq münasibətinin subyektləri iki cür olur: 1) fərdi subyektlər; 2) kollektiv subyektlər. İqtisadi-hüquq münasibətinin fərdi subyektləri dedikdə fiziki şəxslər başa düşülür. Fiziki şəxslərin iqtisadi-hüquq münasibətinin subyekti olmaları heç də təsadüfi xarakter daşımır. Konstitusiyanın 59-cu maddəsinə görə, hər kəs qanunla qadağan edilməyən istənilən iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. İqtisadi fəaliyyət növləri ilə məşğul olmaq hüququnu həyata keçirərkən fiziki şəxslər (hamı və hər kəs), təbii ki, iqtisadi-hüquq münasibətinin iştirakçısı (subyekti) olurlar. İqtisadi fəaliyyətlə məşğul olmaq fiziki şəxslərə verilmiş hüquqdur. Bu hüquqdan istifadə edərək fiziki şəxslər iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönələn müvafiq hüquq münasibətinin subyekti qismində çıxış edirlər ki, iqtisadi-hüquq münasibətinin növlərindən biri olan bu hüquq münasibəti, qeyd etdiyimiz kimi, hakimiyyət-tabeçilik əlaqəsindən kənarda yaranır.

İqtisadi-hüquq münasibətinin subyekti olan fiziki şəxslər geniş anlayışdır. Bu anlayışa Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərlə yanaşı, həm də əcnəbilər (xarici ölkə vətəndaşları) və vətəndaşlığı olmayan şəxslər daxildir. Odur ki, iqtisadi-hüquq münasibətinin subyekti qismində həm Azərbaycan Respublikasının vətəndaşları, həm əcnəbilər, həm də vətəndaşlığı olmayan şəxslər çıxış edə bilərlər.

**İqtisadi-hüquq münasibətinin kollektiv subyektləri** dedikdə, hər şeydən əvvəl, hüquqi şəxslər başa düşülür. Onlar iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı iqtisadi-hüquq münasibətinin subyekti qismində çıxış edirlər. Söhbət kredit-bank təşkilatlarından, ticarət, sənaye müəssisələrindən, investisiya fondlarından, nəqliyyat-daşıma firmalarından, sığorta şirkətindən və s. gedir ki, onların hamısı **hüquqi şəxs** anlayışına daxildir. Həm milli (yerli), həm də xarici hüquqi şəxslər iqtisadi-hüquq münasibətinin subyekti ola bilər.

İqtisadi-hüquq münasibətinin kollektiv subyektlərinə həm də dövlət (Azərbaycan Respublikası) və bələdiyyələr daxildir. **Dövlət (Azərbaycan Respublikası)** iqtisadiyyata dövlət təsiri ilə bağlı yaranan iqtisadi-hüquq münasibətinin subyekti kimi tanınır ki, bu hüquq münasibəti, qeyd etdiyimiz kimi, hakimiyyət-tabeçilik xarakterində olub, dövlət və iqtisadi fəaliyyət subyektləri (təsərrüfat subyektləri) arasında yaranır. Əgər dövlət iqtisadiyyatı tənzimləyir və idarə edirsə, eləcə də ona nəzarəti həyata keçirirsə, belə halda o, iqtisadi-hüquq münasibətinin subyekti rolunda çıxış edir. Xatırlatmaq istərdik ki, hakimiyyət səlahiyyətinə malik olan dövlət tənzimetmə, nəzarət və idarəetmə kimi formalarda iqtisadiyyata təsir göstərir. Bu zaman dövlət iqtisadi-hüquq münasibətinin subyekti olur.

**Bələdiyyə** qurumlarına gəldikdə isə, qeyd etmək istərdik ki, onlar yerlərdə (bələdiyyə ərazilərində) həyata keçirilən iqtisadi fəaliyyəti tənzimləyir və ona nəzarət edir. Bu zaman dövlət orqanı olmayan, lakin hakimiyyət səlahiyyətini həyata keçirən bələdiyyələr iqtisadi-hüquq münasibətinin subyekti olur. Bu münasibət bələdiyyələrlə yerlərdə iqtisadi fəaliyyətlə məşğul

olan subyektlər (bələdiyyə mülkiyyəti əsasında təsis edilən və fəaliyyət göstərən bələdiyyə müəssisələri) arasında əmələ gəlir ki, bu da hakimiyyət xarakterli hüquq münasibətidir. Unutmaq olmaz ki, bələdiyyələr yerlərdə həyata keçirilən iqtisadi fəaliyyəti həm tənzimləyir, həm də ona nəzarət edir. Bunun nəticəsində bələdiyyələr, necə deyərlər, iqtisadi-hüquq münasibətinin subyektinə çevrilir.

Beləliklə, iqtisadi-hüquq münasibətinin subyektlərinə həm fiziki şəxslər, həm dövlət (Azərbaycan Respublikası), həm hüquqi şəxslər, həm də bələdiyyələr daxildir; onlar iqtisadi-hüquq münasibətinin **faktiki (real) iştirakçılarıdır**. Bu cəhəti ilə iqtisadi-hüquq münasibətinin subyektləri iqtisadi hüququn subyektlərindən fərqlənir. İqtisadi hüququn subyektləri dedikdə iqtisadi-hüquq münasibətinin **potensial (mümkün) iştirakçıları** başa düşülür. Buna görə də «iqtisadi-hüquq münasibətinin subyektləri» və «iqtisadi hüququn subyektləri» kimi iki anlayış bir-birinə olduqca yaxın olsalar da, mahiyyətcə, üst-üstə düşmürlər. Təkrar edərək bir daha göstəririk ki, iqtisadi-hüquq münasibətinin subyektləri faktiki (real) iştirakçılardır; iqtisadi hüququn subyektləri isə, bundan fərqli olaraq, potensial (mümkün) iştirakçılar sayılır. Odur ki, hansı şəxs və qurum iqtisadi-hüquq münasibətlərinin potensial iştirakçısı ola bilərsə, o, iqtisadi hüququn subyektidir.

Bildiyimiz kimi, «imkan» və «gerçəklik» fəlsəfi kateqoriyalardır. Bax, «iqtisadi hüququn subyektləri» və «iqtisadi-hüquq münasibətinin subyektləri» arasında mövcud olan münasibət həmin kateqoriyalar arasındakı əlaqə kimidir. Belə ki, əgər iqtisadi hüququn subyektləri «imkan»dırsa, iqtisadi-hüquq münasibətinin subyektləri «gerçəklik»dir. Beləliklə, iqtisadi-hüquq münasibətinin subyektləri onun gerçək iştirakçılarıdır.

**İqtisadi hüququn subyektləri** dedikdə elə şəxslər başa düşülür ki, həmin şəxslər özünəməxsus olan əlamətlərə görə iqtisadi-hüquq münasibətlərinin iştirakçısı ola bilərlər. İqtisadi hüquq subyektləri ya bilavasitə iqtisadi fəaliyyətlə məşğul olurlar (söhbət iqtisadi fəaliyyət subyektlərindən, məsələn, banklardan,

nəqliyyat müəssisələrindən və s.–bir sözlə, fiziki və hüquqi şəxslərdən gedir), ya da iqtisadi fəaliyyəti tənzimləyir və onun həyata keçirilməsinə nəzarət edirlər (söhbət dövlət və bələdiyyələrdən gedir). Əgər hər hansı şəxs iqtisadi fəaliyyətin həyata keçirilməsi və bu fəaliyyətin tənzimlənməsi sahəsində hüquqlara malik olub vəzifələr daşıya bilərsə, o, iqtisadi hüququn subyekti hesab edilir. Odur ki, iqtisadi hüququn subyektləri iqtisadi fəaliyyət subyektlərindən, dövlət və bələdiyyələrdən ibarətdir. Bu səbəbdən iqtisadi hüququn subyektləri və iqtisadi fəaliyyət subyektləri anlayışları üst-üstə düşmür. Məsələ burasındadır ki, iqtisadi hüququn subyektləri daha geniş anlayışdır. İqtisadi hüququn subyektləri anlayışına həm iqtisadi fəaliyyət subyektləri, həm dövlət, həm də bələdiyyələr daxildir. Dövlət və bələdiyyələr bilavasitə iqtisadi fəaliyyətlə məşğul olmurlar; onlar iqtisadi fəaliyyəti yalnız tənzimləyir və onun həyata keçirilməsinə nəzarət edirlər. Odur ki, dövlət və bələdiyyələr iqtisadi fəaliyyət subyektləri kimi tanınmır. İqtisadi fəaliyyət subyektləri (məsələn, fiziki və hüquqi şəxslər) isə bilavasitə iqtisadi fəaliyyətlə məşğul olurlar.

### 5.2.3. İqtisadi-hüquq münasibətinin məzmunu

İqtisadi-hüquq münasibəti quruluşca həm də məzmundan ibarətdir. Məzmun iqtisadi-hüquq münasibətinin elementlərindən biridir.

Qeyd etdiyimiz kimi, bütün hüquq münasibətlərində olduğu kimi, iqtisadi- hüquq münasibətlərində də iki tərəf iştirak edir. Tərəflərdən biri səlahiyyətli şəxs, digəri isə borclu adlanır. **Səlahiyyətli şəxs** dedikdə iqtisadi-hüquq münasibətinin elə bir tərəfi başa düşülür ki, bu tərəf digər tərəfdən, yəni borcludan müəyyən hərəkətlərin edilməsini tələb etmək hüququna malikdir; ona həm də kreditor (latınca «creditor» – borc verən) deyilir.[1]

---

[1] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.446.

**Borclu** dedikdə iqtisadi-hüquq münasibətinin elə bir tərəfi başa düşülür ki, bu tərəfin üzərinə müəyyən hərəkətləri etmək vəzifəsi düşür.[2] Məsələn, vergi-hüquq münasibətində (bu, iqtisadi-hüquq münasibətinin bir növüdür) vergi orqanı səlahiyyətli şəxsdir. Ona görə ki, vergi orqanı vergi ödəyicisindən vergi ödənilməsini tələb etmək hüququna malikdir. Vergi ödəyicisi isə borclu tərəf sayılır, çünki onun üzərinə vergi ödəmək vəzifəsi düşür.

Səlahiyyətli şəxsin malik olduğu hüquq subyektiv hüquq adlanır. Borclu tərəfin üzərinə düşən vəzifəyə isə subyektiv vəzifə deyilir. Səlahiyyətli şəxsin malik olduğu subyektiv hüquq və borclunun daşıdığı subyektiv vəzifə birlikdə iqtisadi-hüquq münasibətinin məzmunu adlanır.

**İqtisadi-hüquq münasibətinin məzmunu** dedikdə iqtisadi-hüquq münasibətinin elementlərindən biri başa düşülür ki, bu element özündə subyektiv hüquq və vəzifəni birləşdirir. Məhz subyektiv hüquq və vəzifəyə uyğun olaraq, iqtisadi-hüquq münasibətinin iştirakçıları qarşılıqlı əlaqədə olur və bir-birinə təsir göstərirlər. Subyektiv hüquq və vəzifə olmadan iqtisadi-hüquq münasibəti iştirakçıları nə qarşılıqlı əlaqədə ola, nə də bir-birinə təsir göstərə bilərlər. Məhz iştirakçıların qarşılıqlı əlaqədə olmaları və bir-birinə təsir etmələri iqtisadi-hüquq münasibətinin məzmununu təşkil edir. İştirakçıların qarşılıqlı əlaqədə olmaları və bir-birinə təsir etmələri isə subyektiv hüquq və vəzifələrə uyğun həyata keçirilir.

İqtisadi-hüquq münasibətinin özü iki elementdən ibarətdir: 1) subyektiv hüquq; 2) subyektiv vəzifə. **Subyektiv hüquq** dedikdə iqtisadi fəaliyyət subyektinin qanunla müəyyən edilən mümkün davranış ölçüsü başa düşülür. Səlahiyyətli şəxsə verilən hüquqi imkan subyektiv hüququn məzmununu təşkil edir. Başqa sözlə, subyektiv hüququn məzmunu dedikdə səlahiyyətli şəxsə verilən hüquqi imkan başa düşülür; hüquqi imkan isə **səlahiyyət** adlanır. Deməli, subyektiv hüququn məzmunu səlahiy-

[2] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 59-60.

yətli şəxsin malik olduğu səlahiyyətdən ibarətdir. Səlahiyyətin isə üç növü fərqləndirilir: 1) müstəqil surətdə müəyyən hərəkətləri etmək səlahiyyəti; 2) digər şəxslərdən müəyyən hərəkətlərin edilməsini tələb etmək səlahiyyəti; 3) müdafiə səlahiyyəti, yəni hüquq pozulduğu halda məhkəmə yolu ilə pozulmuş hüququ bərpa etmək səlahiyyəti.

**Subyektiv vəzifə** dedikdə şəxsin qanunla müəyyən edilən lazımi davranış ölçüsü başa düşülür. Təbii ki, subyektiv vəzifənin də məzmunu vardır. Subyektiv vəzifənin məzmunu isə borclu tərəfin yerinə yetirməli olduğu hüquqi zərurəti ehtiva edir. **Hüquqi zərurət** üç cür olur: 1) müəyyən hərəkətləri etmək və ya etməmək zərurəti; 2) səlahiyyətli şəxsin qanuni tələblərinə cavab vermək zərurəti; 3) səlahiyyətli şəxsin qanuni tələblərini yerinə yetirməməyə görə məsuliyyət daşımaq zərurəti.

Subyektiv hüquq iqtisadi-hüquq münasibətinin tərəflərindən (iştirakçıların-dan) biri olan səlahiyyətli şəxsin mənafeyinin təmin edilməsi məqsədinə xidmət edir. Subyektiv vəzifə də səlahiyyətli şəxsin mənafeyinin təmin olunmasına yönəlir. Həm subyektiv hüquq, həm də subyektiv vəzifə yalnız iqtisadi-hüquq münasibəti çərçivəsində mövcud ola bilər. İqtisadi-hüquq münasibətindən kənarda nə subyektiv hüquq, nə də subyektiv vəzifə yarana bilər.

Qeyd etmək lazımdır ki, iqtisadi-hüquq münasibəti çərçivəsində yaranan və mövcud olan subyektiv hüquq müvafiq subyektiv vəzifəyə uyğundur. İqtisadi-hüquq münasibəti çərçivəsində yaranan və mövcud olan subyektiv vəzifə də həmçinin subyektiv hüquqa uyğun gəlir. Məsələn, yuxarıda çəkdiyimiz vergi-hüquq münasibəti misalında vergi orqanının malik olduğu «vergi ödənilməsini tələb etmək hüququna» (subyektiv hüquqa) «vergi ödəyicisinin vergi ödəmək vəzifəsi» (subyektiv vəzifə) uyğun gəlir və əksinə, vergi ödəyicisinin (borclu tərəfin) vergi ödəmək vəzifəsi vergi orqanının vergi ödənilməsini tələb etmək hüququna uyğundur.

### 5.2.4. İqtisadi-hüquq münasibətinin obyekti

İqtisadi-hüquq münasibətinin obyekti onun yaranmasının və mövcud olmasının məcburi şərtlərindən biridir. Obyekt olmadan iqtisadi-hüquq münasibəti nə yarana, nə də mövcud ola bilər. Unutmamalıyıq ki, obyekt iqtisadi-hüquq münasibətinin struktur elementlərindən biridir.

**İqtisadi-hüquq münasibətinin obyekti** odur ki, onun barəsində iqtisadi-hüquq münasibətinin özü yaranır. Əgər iqtisadi-hüquq münasibəti nə ilə bağlı olaraq yaranarsa, o da iqtisadi-hüquq münasibətinin obyekti sayılır.

İqtisadi-hüquq münasibətinin özünün yönəldiyi və təsir etdiyi nemətlər iqtisadi-hüquq münasibətinin obyektidir. Deməli, iqtisadi-hüquq münasibətinin obyekti dedikdə elə nemət başa düşülür ki, həmin nemət barəsində və onunla bağlı olaraq iqtisadi-hüquq münasibəti yaranır. İqtisadi-hüquq münasibətinin obyekti belə bir suala cavab verir: iqtisadi-hüquq münasibəti nəyin barəsində əmələ gəlir ? Təbii ki, iqtisadi-hüquq münasibəti bu və ya digər nemət barəsində yaranır. Odur ki, nemət iqtisadi-hüquq münasibətinin obyektidir. Nemət dedikdə isə həm maddi, həm də qeyri-maddi nemətlər başa düşülür. İqtisadi hüququn obyekti olan maddi nemətlərə aiddir: 1) əmlak; 2) pul; 3) qiymətli kağızlar. Məsələn, mülkiyyət kimi iqtisadi-hüquq münasibətinin obyekti qismində əmlak (əşya) çıxış edir; kreditlə əlaqədar iqtisadi-hüquq münasibətinin obyekti puldur; qiymətli kağızla bağlı yaranan iqtisadi-hüquq münasibətinin obyekti qiymətli kağızdır.

Əgər iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində qeyri-maddi nemətlərdən istifadə olunarsa, belə nemətlər iqtisadi-hüquq münasibətlərinin obyekti olur. Məsələn, iqtisadi fəaliyyət subyektinin işgüzar nüfuzu, əmtəə nişanı, firma adı, kommersiya sirri və s. iqtisadi-hüquq münasibətinin obyekti olan qeyri-maddi nemətlərə misal çəkilə bilər.

Hüquq münasibətinin obyekti hüquq elmində mübahisəyə səbəb olan məsələlərdən biridir. Belə ki, hüquq münasibətinin obyekti barədə hüquqşünas alimlərin mövqeləri heç də üst-üstə

düşmür. Nəzərə almaq lazımdır ki, onlar bu məsələyə dair yekdil və eyni fikir söyləmirlər; bu da öz növbəsində elmi mübahisəyə gətirib çıxarır. Hüquqşünas alimlər arasında yaranmış elmi polemika iki konsepsiyanın irəli sürülməsinə səbəb olmuşdur: 1) monist konsepsiya; 2) plyuralist konsepsiya. **Monist konsepsiyaya** görə, hüquq münasibətinin təkcə bir obyekti vardır ki, bu obyekt hərəkət və ya hərəkətsizlik formasında fiziki şəxslərin davranışıdır; fiziki şəxslərin davranışı hüquq münasibətinin yeganə obyektidir. Monist konsepsiyasının tərəfdarları öz fikrini bununla izah edir və əsaslandırırlar ki, hüquq münasibəti nəyə təsir edirsə, o da hüquq münasibətinin obyektidir; hüquq münasibəti isə yalnız fiziki şəxslərin davranışına təsir edə bilər. Onların fikrincə, bu səbəbdən fiziki şəxslərin davranışı hüquq münasibətinin yeganə obyektidir. Odur ki, nemət (əmlak, pul, qiymətli kağız və s.) hüquq münasibətinin obyekti ola bilməz.[1]

**Plyuralist konsepsiyaya** görə, hüquq münasibətinin obyekti müxtəlifdir. Bu konsepsiya tərəfdarları belə hesab edirlər ki, fiziki şəxslərin davranışı hüquq münasibətinin yeganə və tək obyekti deyildir. Onların fikrincə, həm fiziki şəxslərin davranışı (hərəkət və ya hərəkətsizliyi), həm də nemətlər hüquq münasibətinin obyektidir.

Fikrimizcə, plyuralist konsepsiya tərəfdarlarının mövqeyi ağlabatan olub, həqiqətə daha yaxındır. Odur ki, həmin mövqeyi dəstəkləyərək biz də ona tərəfdar çıxırıq. Doğrudan da hüquq münasibətinin bir (tək) deyil, müxtəlif obyektləri vardır.

Bu sözləri iqtisadi-hüquq münasibətinin obyekti barədə də söyləmək olar. İqtisadi-hüquq münasibətinin obyektinə dair bu münasibət iştirakçılarının həm subyektiv hüquqları, həm də vəzifələri yaranır.

---

[1] Monist konsepsiyasının tərəfdarlarından biri V.N.Xropanyukdur: *bax,* Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə. Bakı, 1995, s.153.

## 5.2.5. İqtisadi-hüquq münasibətinin növləri

İqtisadi hüquq elminin (doktrinanın) gördüyü işlərdən biri iqtisadi-hüquq münasibətinin hüquqi təsnifini aparmaqdan ibarətdir. İqtisadi-hüquq münasibətinin **hüquqi təsnifi** dedikdə onun bu və ya digər meyara görə ayrı-ayrı növlərə bölünməsi başa düşülür.

**Məzmun** kimi meyara görə iqtisadi-hüquq münasibəti aşağıdakı növlərə bölünür: 1) sahibkarlıq-hüquq münasibəti; 2) bank-hüquq münasibəti; 3) ticarət- hüquq münasibəti; 4) nəqliyyat-hüquq münasibəti; 5) turizm-hüquq münasibəti; 6) investisiya-hüquq münasibəti; 7) rəqabət-hüquq münasibəti; 8) aqrar-hüquq münasibəti; 9) sığorta-hüquq münasibəti; 10) maliyyə-hüquq münasibəti; 11) vergi-hüquq münasibəti; 12) kommersiya-hüquq münasibəti; 13) gömrük-hüquq münasibəti və s.

**Sahibkarlıq-hüquq münasibəti** dedikdə iqtisadi fəaliyyət növlərindən biri olan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan hüquq münasibəti başa düşülür. İqtisadi fəaliyyətin digər növü olan bank fəaliyyəti ilə bağlı yaranan hüquq münasibəti **bank-hüquq münasibəti** adlanır. **Ticarət-hüquq münasibəti** odur ki, bu hüquq münasibəti ticarət sahəsində əmələ gəlir. Ticarət-hüquq münasibətinin iqtisadi-hüquq münasibət növü olması, təbii ki, heç də təsadüfi xarakter daşımır. Axı iqtisadiyyat həyat üçün zəruri olan maddi nemət və xidmətlərlə cəmiyyəti təmin edən xalq təsərrüfatı sahələrinin məcmusudur.[1] Xalq təsərrüfatı sahələrindən biri məhz ticarət adlanır ki, bu sahə malların istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edir.[2] Odur ki, ticarət-hüquq münasibəti iqtisadi-hüquq münasibətinin növü kimi tanınır. **Nəqliyyat-hüquq münasibəti** nəqliyyat fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranır; nəqliyyat fəaliyyəti iqtisadi fəaliyyət növlərindən biridir. **Turizm-hüquq münasibəti** turizm sahəsində əmələ gə-

---

[1] Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Bakı, 1989, s.103.

[2] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 207.

lir ki, bu sahə iqtisadi münasibət formalarından biridir.[1] **İnvestisiya-hüquq münasibəti** investisiya fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan hüquq münasibətinə deyilir ki, investisiya fəaliyyəti iqtisadi fəaliyyət növüdür. **Rəqabət-hüquq münasibəti** rəqabətin müdafiəsi və antiinhisar fəaliyyəti ilə bağlı yaranır. **Aqrar-hüquq münasibəti** dedikdə kənd təsərrüfatı məhsullarının istehsalı və realizə olunması prosesində əmələ gələn ictimai münasibətlərin hüquqi forması başa düşülür. **Sığorta-hüquq münasibəti** sığorta işi sahəsində yaranan hüquq münasibətidir. Bu hüquq münasibəti sığorta fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranır ki, sığorta fəaliyyəti iqtisadi fəaliyyət növlərindən biri sayılır. **Maliyyə-hüquq münasibəti** maliyyə bazarında subyektlər arasında əmələ gələn hüquq münasibətinə deyilir. Maliyyə bazarı dedikdə maliyyə fəaliyyəti sahəsində satıcılar və alıcılar arasında yaranan iqtisadi münasibətlərin məcmusu başa düşülür.[2] Odur ki, maliyyə-hüquq münasibəti iqtisadi-hüquq münasibətinin növlərindən biri hesab olunur. **Vergi-hüquq münasibəti** vergilərin ödənilməsi və ya yığılması sahəsində ictimai münasibətlərin hüquq normaları ilə tənzimlənməsi nəticəsində yaranır.[3] **Kommersiya-hüquq münasibəti** mənfəət əldə olunmasına yönəlmiş kommersiya fəaliyyətinin həyata keçirilməsi prosesində əmələ gəlir. Gömrük fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan hüquq münasibəti isə **gömrük-hüquq münasibəti** adlanır[4] və s.

**Hakimiyyət-tabeçilik xarakterində olması** kimi meyara görə iqtisadi-hüquq münasibətinin iki növü fərqləndirilir: 1) iqti-

---

[1] Борисов К.Г. Международный туризм и право. Учебное пособие. М., 1999, с.10.

[2] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.108.

[3] Vəliyev D.Ə., Balakişiyea Y.H. və b. Vergi hüququ. Dərslik. Bakı, 2003, s.117.

[4] *Gömrük-hüquq münasibəti barədə daha ətraflı:* Таможенное право. Учебное пособие / Под ред. В.Г.Драганова, М.М.Рассолова. М., 2001, с. 38; Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Kollektiv müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, 2015, 816 s.

sadiyyatın dövlət tənzimlənməsi ilə bağlı olan iqtisadi-hüquq münasibəti; 2) iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində yaranan iqtisadi-hüquq münasibəti. **İqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı olan iqtisadi-hüquq münasibəti** hakimiyyət səlahiyyətinə malik olan dövlət orqanı və təsərrüfat subyektləri (iqtisadi fəaliyyət subyektləri) arasında əmələ gəlir. Odur ki, bu münasibət hakimiyyət-tabeçilik xarakterində olan hüquq münasibətidir.

**İqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində yaranan iqtisadi-hüquq münasibəti** isə hakimiyyət-tabeçilik çərçivəsindən kənarda yaranır. Bu növ iqtisadi-hüquq münasibəti iqtisadi fəaliyyətin həyata keçirilməsinə yönəlmişdir; həm də sözügedən iqtisadi-hüquq münasibəti hakimiyyət-tabeçilik xarakteri daşımır.

**Tərəflərinin müəyyən olunması** kimi meyara görə iqtisadi-hüquq münasibəti iki növə bölünür: 1) mütləq iqtisadi-hüquq münasibəti; 2) nisbi iqtisadi-hüquq münasibəti. **Mütləq iqtisadi-hüquq münasibətində** konkret olaraq səlahiyyətli şəxs məlum olur; borclu tərəf isə konkret olaraq bilinmir. Belə ki, borclu tərəfində əhatə dairəsi bilinməyən qeyri-müəyyən şəxslər çıxış edirlər. Məsələn, mülkiyyət iqtisadi-hüquq münasibətində konkret olaraq səlahiyyətli şəxs bilinir ki, həmin şəxs mülkiyyətçidir. Mülkiyyət iqtisadi-hüquq münasibətinin tərəflərindən biri olan borclu qismində isə əhatə dairəsi bilinməyən qeyri-müəyyən şəxslər çıxış edir.

**Nisbi iqtisadi-hüquq münasibətində** konkret olaraq həm səlahiyyətli şəxs, həm də borclu tərəf bilinir. Belə ki, nisbi iqtisadi-hüquq münasibətinin tərəflərindən biri olan səlahiyyətli şəxs konkret şəkildə məlum olur; qarşı tərəf olan borclu qismində də həmçinin konkret şəxs çıxış edir. Məsələn, bank kredit-hüquq münasibətində səlahiyyətli şəxs qismində bank çıxış edir. Borclu tərəfi təmsil edən kredit alan şəxs də həmçinin konkret məlum olur.

# V FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *VI FƏSİL.*
# İQTİSADİ FƏALİYYƏT HÜQUQU

## 6.1. İqtisadi hüquq sistemində iqtisadi fəaliyyət hüququnun yeri

### 6.1.1. İqtisadi fəaliyyət hüququ anlayışı

Əvvəllərdə qeyd etdiyimiz kimi, iqtisadi hüququn əsas və başlıca funksiyası iqtisadi (təsərrüfat) fəaliyyət prosesində təsərrüfat subyektləri arasında yaranan iqtisadi münasibətləri tənzimləməkdən ibarətdir. Bu zaman, təbii ki, ortaya belə bir sual çıxır: iqtisadi fəaliyyət dedikdə nə başa düşülür?

Bu suala cavab verməkdən ötrü, hər şeydən əvvəl, «fəaliyyət» kimi anlayışın mahiyyətinə aydınlıq gətirək. Məlum olduğu kimi, ensiklopedik lüğətlərdə «fəaliyyət» terminınə bizi əhatə edən aləmin insanların mənafeyi və maraqları üçün məqsədyönlü şəkildə dəyişdirilməsi kimi anlayış verilir.[1] Belə ki, fəaliyyət dedikdə bizi əhatə edən aləmin insanların mənafe və maraqları üçün məqsədyönlü şəkildə dəyişdirilməsi başa düşülür.

Filosoflar ənənəvi olaraq, fəaliyyətə ayrı-ayrı elementlərin məcmusu kimi baxırlar ki, həmin elementlər bunlardan ibarətdir: 1) subyekt; 2) obyekt; 3) aktivlik. **Subyekt** odur ki, o, aktivliyə malikdir və bu aktivliyi obyekt və ya digər subyektlərə yönəldir. **Obyekt** odur ki, subyektin aktivliyi məhz ona yönəlir. **Aktivlik** isə odur ki, onun sayəsində bu və ya digər üsulla obyekti əldə etmək və ya subyektlər arasında qarşılıqlı əlaqə (təsiretmə) müəyyənləşdirmək mümkün olur. Misal üçün, siyasi aktivlik, iqtisadi aktivlik, mədəni aktivlik, elmi aktivlik və s. fəaliyyət müxtəlif sahələrdə həyata keçirilir (məsələn, siyasi, mədəni, hüquqi, dini, təhsil və s. sahələrdə). Bu baxımdan, fəaliyyətin siyasi, mədəni, hüquqi, dini, təhsil, elmi və digər

---

[1] Большой энциклопедический словарь. М.-СПб., 1997, с. 348.

fəaliyyət növləri fərqləndirilir. Fəaliyyət növlərindən biri məhz iqtisadi fəaliyyət adlanır.

Əvvəllərdə iqtisadi fəaliyyətə anlayış vermişik. Təkrar edərək bir daha göstəririk ki, **iqtisadi fəaliyyət** dedikdə insanın iqtisadi aktivlik növlərindən biri, fərdin ictimai istehsalda iştirak etmək forması və onun öz həyat fəaliyyətinin təmini üçün zəruri olan maliyyə vəsaiti əldə etmək üsulu başa düşülür.[1] Bu növ fəaliyyətin həyata keçirilməsi prosesində, şübhəsiz ki, müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Həmin ictimai münasibətlərin hüquqi tənzimlənməsi isə müvafiq iqtisadi-hüquq normaları vasitəsilə həyata keçirilir; məhz belə normaların sistemi iqtisadi fəaliyyət hüququ adlanır.

**İqtisadi fəaliyyət hüququ** dedikdə fəaliyyət növlərindən biri olan iqtisadi fəaliyyətin həyatakeçirilmə prosesində əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür ki, həmin münasibətlər təsərrüfat (iqtisadi fəaliyyət) subyektləri arasında əmələ gəlir. Bu, obyektiv mənada iqtisadi fəaliyyət hüququna verilən elmi (doktrinal) anlayışdır. **Obyektiv mənada iqtisadi fəaliyyət hüququ** isə iqtisadi hüququn institutlarından biri kimi çıxış edir; həm də iqtisadi fəaliyyət hüququ iqtisadi hüququn **ümumi hissəsinin institutu** hesab olunur. Məsələ burasındadır ki, iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyən hüquq normaları ümumi xarakterə malikdir. Odur ki, həmin normaları iqtisadi hüququn xüsusi hissəsinin ibarət olduğu hüquqi qurumlara (bank, sahibkarlıq, kommersiya, gömrük, sığorta, nəqliyyat və s.) tədbiq etmək mümkündür. Xatırlatmaq istərdik ki, onlar (yəni bank, sahibkarlıq, kommersiya və s. hüquqi qurumlar) iqtisadi hüququn yarımsahələri kimi tanınır və iqtisadi fəaliyyətin ayrı-ayrı növlərini (məsələn, bank, sığorta, sahibkarlıq, gömrük, ticarət və s. fəaliyyət növlərini) tənzimləmək funksiyasını yerinə yetirir.

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник / Отв. ред. О.М.Олейник. М.,1999, с. 16.

İqtisadi fəaliyyət hüququ obyektiv mənadan başqa, həm də subyektiv mənada işlədilir və başa düşülür. **Subyektiv mənada iqtisadi fəaliyyət hüququ** dedikdə təsərrüfat subyektlərinə verilən elə bir hüquqi imkan başa düşülür ki, belə imkan sayəsində onlar iqtisadi fəaliyyəti həyata keçirmək hüququna malik olur. Deməli, subyektiv mənada iqtisadi fəaliyyət hüququ təsərrüfat subyektlərinin iqtisadi fəaliyyəti həyata keçirmək imkanıdır. Konstitusiyanın 59-cu maddəsində məhz iqtisadi fəaliyyəti həyata keçirmək hüququ təsbit olunur. Xatırlatmaq istərdik ki, həmin maddəyə görə, hər kəs qanunla qadağan edilməmiş istənilən iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Hər bir şəxsə verilən belə hüquq məhz subyektiv mənada iqtisadi fəaliyyət hüququnu ehtiva edir. Bu hüquq isə təsərrüfat fəaliyyətini həyata keçirmək imkanıdır. Qeyd etmək lazımdır ki, «iqtisadi fəaliyyət» və «təsərrüfat fəaliyyəti» kimi iki anlayış arasında elə də prinsipial fərq yoxdur. Odur ki, onlar bir-birinə olduqca yaxın olan anlayışlar kimi tanınır.

### 6.1.2. İqtisadi fəaliyyət hüququnun nizamasalma predmeti

İqtisadi fəaliyyət hüququ **iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı ictimai münasibətləri** tənzimləyir ki, bu münasibətlər təsərrüfat (iqtisadi fəaliyyət) subyektləri arasında əmələ gəlir. Məhz həmin münasibətlər iqtisadi fəaliyyət hüququnun **nizamasalma predmetini** təşkil edir. Yaddan çıxarmaq olmaz ki, hər bir hüquq institutu, o cümlədən iqtisadi fəaliyyət hüququnun özünəməxsus nizamasalma predmeti vardır. Özünəməxsus nizamasalma predmetinə malik olması isə iqtisadi fəaliyyət hüququnun institut kimi tanınmasını şərtləndirən əsas meyar (əlamət) rolunu oynayır. Digər tərəfdən, iqtisadi fəaliyyət hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətləri tənzimləyən **ayrıca hüquq normaları qrupu** da mövcuddur; bu normalar qrupu vasitəsilə iqtisadi fəaliyyət hüququ öz nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin hüquqi tənzimlənməsini həyata keçirir. Ayrıca normalar

qrupunun mövcud olması iqtisadi fəaliyyət hüququnun institut statusu əldə etməsini şərtləndirən digər meyardır (əlamətdir).

İqtisadi fəaliyyət hüququnun nizamasalma predmetinin ibarət olduğu ictimai münasibətlər, yəni iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlər geniş və əhatəli xarakterə malikdir. Bu münasibətlərə, hər şeydən əvvəl, maddi və qeyri-maddi nemətlərin yaradılması və bölüşdürülməsi ilə bağlı münasibətlər daxildir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, əvvəllər iqtisadi nəzəriyyədə iqtisadi fəaliyyətə məhz nemətlərin (maddi və qeyri-maddi nemətlərin) yaradılması və bölüşdürülməsinə yönələn hərəkət kimi anlayış verilirdi.

Nemətlərin yaradılması və bölüşdürülməsi ilə bağlı münasibətlərdən başqa, iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərə həm də digər münasibətlər daxildir. Digər münasibətlərə aiddir: 1) tam məşğulluğun təmin edilməsi ilə bağlı münasibətlər; 2) iqtisadi səmərəliliyin təmin olunması ilə bağlı münasibətlər; 3) qiymətlərin sabit səviyyədə saxlanılması ilə bağlı münasibətlər; 4) iqtisadi azadlığın təmin edilməsi ilə bağlı münasibətlər; 5) iqtisadi təminetmə ilə bağlı münasibətlər; 6) ticarət balansı ilə bağlı münasibətlər (ticarət balansı müəyyən müddət ərzində, məsələn – ay, kvartal və yaxud il ərzində ölkəyə gətirilən və ölkədən göndərilən mal və xidmətlərin dəyərinin nisbətini əks etdirən balansdır);[1] 7) iqtisadi inkişaf ilə bağlı münasibətlər. Unutmaq olmaz ki, son zamanlar iqtisadçı alimlərin əsaslandırdığı fikrə görə, bu cür münasibətlər də iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlər növünə aid edilir. Odur ki, iqtisadi fəaliyyət hüququnun nizamasalma predmetini təşkil edən münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir.

İqtisadi fəaliyyət hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər, sözsüz ki, iki tərəf arasında əmələ gəlir. Həmin tərəflər iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərin subyektləri adlanır. **İqtisadi fəaliyyətin**

---

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 182-183.

**həyata keçirilməsi ilə bağlı münasibətlərin subyektləri** dedikdə bu münasibətlərdə iştirak edən şəxslər (iştirakçılar) başa düşülür. Subyekt qismində həmin münasibətlərdə həm fiziki, həm də hüquqi şəxslər (səhmdar cəmiyyəti, məhdud məsuliyyətli cəmiyyət, tam ortaqlıq, kommandit ortaqlığı və s.) çıxış edə bilər.

Subyektlərin malik olduqları hüquqlar və daşıdıqları vəzifələr **iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərin məzmununu** təşkil edir. Həmin münasibətlərin məzmunu iki elementdən ibarətdir: 1) subyektiv hüquq; 2) subyektiv vəzifə. Məhz belə elementlər sayəsində iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərin subyektləri arasında qarşılıqlı əlaqə (təsiretmə) yaranır və mövcud olur.

**İqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərin obyekti** iqtisadi fəaliyyətin özüdür. Ona görə ki, həmin münasibətlər iqtisadi fəaliyyət barəsində yaranır. Nəzərdən qaçırmaq olmaz ki, hüquq münasibəti nəyin barəsində yaranırsa, o da hüquq münasibətinin obyektidir. Odur ki, iqtisadi fəaliyyət hüququnun nizamasalma predmetini təşkil edən münasibətlərin obyekti qismində iqtisadi fəaliyyət çıxış edir. İqtisadi fəaliyyət anlayışının məna yükü altında təsərrüfat subyektlərinin etdikləri hərəkətlərin elə məcmusu başa düşülür ki, bu hərəkətlər bazarda əmtəə kimi satılan (realizə olunan) maddi və qeyri-maddi nemətlərin istehsalına, xidmətlər göstərilməsinə və ya işlər görülməsinə yönəlir; edilən bu kimi hərəkətlər, adətən, daimi və sistemli xarakterdə olur.

## 6.2. İqtisadi fəaliyyət hüququnun subyektləri, prinsipləri və mənbələri

### 6.2.1. İqtisadi fəaliyyət hüququnun subyektləri

İqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlərin potensial (mümkün) iştirakçıları iqtisadi fəaliyyət hüququnun subyektləri adlanır. **İqtisadi fəaliyyət hüququnun subyektləri** dedikdə elə təsərrüfat subyektləri başa düşülür ki, onlar hüquq və vəzifələr daşımaq qabiliyyətinə (imkanına) malik olurlar.

İqtisadi fəaliyyət hüququnun subyekti qismində, ilk növbədə, **fiziki şəxslər** çıxış edir. Fiziki şəxslər dedikdə həm Azərbaycan Respublikasının vətəndaşları, həm əcnəbilər, həm də vətəndaşlığı olmayan şəxslər başa düşülür; onların hamısı iqtisadi fəaliyyətlə məşğul ola bilərlər. Lakin qanunvericilik müəyyən etmir ki, fiziki şəxslər hansı yaşa çatdıqda iqtisadi fəaliyyətlə məşğul ola bilər. Buna baxmayaraq, hesab edirik ki, fiziki şəxslər tam mülki hüquq qabiliyyətli olduqda, iqtisadi fəaliyyətin bu və ya digər növünü həyata keçirə bilərlər; 18 yaşı tamam olduqda onlar tam mülki fəaliyyət qabiliyyətli olurlar.

İqtisadi fəaliyyət hüququnun subyekti həm də **hüquqi şəxslər** ola bilər. Söhbət, ilk növbədə, **kommersiya təşkilatlarından** (kommersiya hüquqi şəxslərindən) gedir ki, onlar hüquqi şəxslərin növlərindən biridir. Qeyd etdiyimiz kimi, kommersiya təşkilatları ümumi (universal) hüquq qabiliyyətinə malikdir. Odur ki, onlar qanunla qadağan edilməyən istənilən iqtisadi fəaliyyət növü ilə məşğul ola bilərlər.

Hüquqi şəxslərin digər növü olan **qeyri-kommersiya təşkilatları** da (qeyri-kommersiya hüquqi şəxsləri də) həmçinin iqtisadi fəaliyyət hüququnun subyekti ola bilər. Yaddan çıxarmaq olmaz ki, qeyri-kommersiya təşkilatları kommersiya təşkilatlarından fərqli olaraq, ümumi (universal) deyil, xüsusi (məhdud) hüquq qabiliyyətinə malikdir. Lakin, buna baxmayaraq, onların iqtisadi fəaliyyətlə (sahibkarlıq fəaliyyəti ilə) məşğul ola bilməsi mümkündür. Qeyri-kommersiya təşkilatları sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin (MM-in 43-cü maddəsinin 6-cı hissəsi). Məsələn, dini təşkilatlar qeyri-kommersiya hüquqi şəxsidir; onlar nəşriyyat, poliqrafiya, istehsal, bərpa-tikinti və s. müəssisələr yaratmaqla istehsal-təsərrüfat fəaliyyəti ilə məşğul ola bilər; həm də belə işlər dini təşkilatların əsas deyil, əlavə fəaliyyəti olmalıdır.

Hüquqi şəxslərin ayrıca və ayrıca olmayan struktur bölmələrinə gəldikdə, qeyd etməliyik ki, onlar **təsərrüfatdaxili sub-**

**yektlərdir.** Təsərrüfatdaxili subyektlər iki növə bölünür: 1) hüquqi şəxslərin ayrıca struktur bölmələri; 2) hüquqi şəxslərin ayrıca olmayan struktur bölmələri. **Hüquqi şəxslərin ayrıca struktur bölmələri** dedikdə onun olduğu yerdən kənarda yerləşən filial və nümayəndəlikləri başa düşülür. **Filial** hüquqi şəxsin olduğu yerdən kənarda yerləşir və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca struktur bölmədir (MM-in 53-cü maddəsinin 2-ci hissəsi). Məsələn, bankın başqa şəhərdə yerləşən filialı ona icazə verilmiş bank fəaliyyətinin hamısını həyata keçirir. Filial həm də bankın icazə verilmiş bank fəaliyyətinin bir hissəsini (məsələn, kredit və depozit əməliyyatını) həyata keçirə bilər.

Hüquqi şəxsin **nümayəndəliyi** dedikdə hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun mənafelərini təmsil və müdafiə edən ayrıca struktur bölməsi başa düşülür (MM-in 53-cü maddəsinin 1-ci hissəsi). Filialdan fərqli olaraq nümayəndəlik hüquqi şəxsin funksiyalarını həyata keçirə bilməz; onlar yalnız hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edə bilər. Məsələn, bankın başqa şəhərdə yerləşən nümayəndəliyi bank fəaliyyəti ilə (əmanətlər qəbul etmək, kredit vermək və s. fəaliyyətlə) məşğul ola bilməz. Nümayəndəlik yalnız bankın mənafelərini təmsil və müdafiə edə bilər.

**Hüquqi şəxsin ayrıca olmayan struktur bölmələri** dedikdə onun təsərrüfatdaxili vahidləri başa düşülür. Hüquqi şəxsin təsərrüfatdaxili vahidləri dedikdə idarə, şöbə, sex, sahə, briqada və s. başa düşülür.

Hüquqi şəxsin həm ayrıca olan, həm də ayrıca olmayan struktur bölmələri iqtisadi fəaliyyət hüququnun subyekti sayıla bilməz. Məsələ burasındadır ki, filial, nümayəndəlik, şöbə və idarələr hüquqi şəxs deyildir. Yalnız hüquqi şəxslər iqtisadi fəaliyyət hüququnun subyekti ola bilər. Lakin, buna baxmayaraq, hüquqi şəxsin filial, şöbə və idarələri və s. qurumlar iqtisadi fəaliyyət subyektləridir, çünki onlar bilavasitə **iqtisadi (təsərrüfat) fəaliyyətlə** məşğul olur və bu fəaliyyətin həyata ke-

çirilməsində iştirak edir.[1] Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilir ki, hüquqi şəxs olmasa da bankın şöbəsi bank fəaliyyətinin həyata keçirilməsində iştirak edir, yəni depozitlər cəlb edir, köçürmə və hesablaşma-kassa əməliyyatları aparır. Odur ki, bankın şöbəsi iqtisadi fəaliyyət hüququnun deyil, iqtisadi fəaliyyətin subyekti sayılır. Deyilənlərdən belə nəticəyə gələ bilərik ki, «iqtisadi fəaliyyət hüququnun subyektləri» və «iqtisadi fəaliyyət subyektləri» heç də məzmunca üst-üstə düşən eynimənalı anlayışlar deyildir. Məsələn, qeyd etdiyimiz kimi, bankın depozit əməliyyatı aparan şöbəsi və yaxud müəssisənin (hüquqi şəxsin) istehsal fəaliyyəti ilə məşğul olan sexi və s. iqtisadi fəaliyyət hüququnun deyil, iqtisadi fəaliyyətin subyekti hesab edilir.

**Dövlət və bələdiyyələrə** gəldikdə, qeyd etmək lazımdır ki, onlar bilavasitə iqtisadi fəaliyyətlə məşğul olmurlar. Buna görə də nə dövlət, nə də bələdiyyələr iqtisadi fəaliyyət subyekti kimi tanınır. Lakin, buna baxmayaraq, dövlət və bələdiyyə iqtisadi fəaliyyətin tənzimlənməsini və iqtisadi fəaliyyətə nəzarət edilməsini həyata keçirir. Bu baxımdan, həm dövlət, həm də bələdiyyə iqtisadi fəaliyyət hüququnun subyektləridir. Unutmaq olmaz ki, iqtisadi fəaliyyət hüququnun subyektləri ya bilavasitə iqtisadi fəaliyyətlə məşğul olurlar (məsələn, təsərrüfat subyekti olan müəssisələr və s.), ya da iqtisadi fəaliyyəti tənzimləyir və ona nəzarət edirlər (məsələn, dövlət, bələdiyyə).

Beləliklə, iqtisadi fəaliyyət hüququnun subyektlərinə aşağıdakılar aiddir: 1) fiziki şəxslər; 2) hüquqi şəxslər; 3) dövlət; 4) bələdiyyələr.

### 6.2.2. İqtisadi fəaliyyət hüququnun prinsipləri

İqtisadi fəaliyyət hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, hüquq institutudur. Bütün hüquq institutları, o cümlədən iqtisadi fəaliyyət hüququ özünəxas prinsiplərə malik olması ilə xa-

[1] Предпринимательское право. Серия «Учебники и учебные пособия» / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.62.

rakterizə edilir. **İqtisadi fəaliyyətin çoxnövlü olması prinsipi** onlardan biridir. Bu prinsipə görə, iqtisadi fəaliyyət bir deyil, müxtəlif növlərdə həyata keçirilir. Konstitusiyanın 59-cu maddəsində göstərilir ki, hər kəs azad sahibkarlıq və ya digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Bu maddədə məhz iqtisadi fəaliyyətin çoxnövlü olması prinsipi öz normativ ifadəsini tapmışdır ki, həmin prinsipə əsasən, sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyətin yeganə və təkcə növü sayılmır.

**Qanunla qadağan edilmiş iqtisadi fəaliyyət növünün həyata keçirilməməsi prinsipi** iqtisadi fəaliyyət hüququnun prinsiplərindən digəridir. Bu prinsipə görə, təsərrüfat subyektlərinin qanunla qadağan edilmiş iqtisadi fəaliyyət növü ilə məşğul olmalarına yol verilmir. Konstitusiyanın 59-cu maddəsində göstərilir ki, hər kəs qanunla qadağan edilməmiş iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Bu kimi konstitusion göstərişdən belə çıxır ki, təsərrüfat subyektləri (ayrı-ayrı şəxslər) qanunla qadağan edilmiş iqtisadi fəaliyyət növləri ilə məşğul ola bilməzlər. Bu isə qanunla qadağan edilmiş iqtisadi fəaliyyət növünün həyata keçirilməməsi prinsipinin təsbit olunması deməkdir. Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin 1-ci hissəsi ticarət, istehsal, nəqliyyat, kənd təssərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul olmağı banklara qadağan edir. Odur ki, banklar belə iqtisadi fəaliyyət növləri ilə məşğul ola bilməzlər; onlar banklar tərəfindən həyata keçirilməsi mümkün olmayan iqtisadi fəaliyyət növləridir. Banklar yalnız bank fəaliyyəti ilə məşğul ola bilərlər. «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu da həmçinin sığorta təşkilatlarının ticarət və bank fəaliyyəti növləri ilə məşğul olmalarını qadağan edir ki, onlar yalnız sığorta fəaliyyətini həyata keçirə bilirlər.

İqtisadi fəaliyyət hüququ həm də belə bir prinsipdən çıxış edir ki, iqtisadi fəaliyyət qanun əsasında həyata keçirilə bilər. Söhbət **iqtisadi fəaliyyətin qanun əsasında həyata keçirilməsi prinsipindən** gedir ki, bu prinsip də Konstitusiyanın 59-cu maddəsində formulə edilmişdir. Burada göstərilir ki, şəxslər iq-

tisadi fəaliyyəti qanunda nəzərdə tutulmuş qaydada həyata keçirirlər. Əgər iqtisadi fəaliyyət qanun əsasında həyata keçirilməzsə, bu, hüquq pozuntusu hesab edilir. Hüquq pozuntusu törədən şəxs isə hüquqi məsuliyyətə cəlb olunur. Digər tərəfdən, başqa şəxslər (hamı və hər kəs) təsərrüfat subyektlərinin iqtisadi fəaliyyəti həyata keçirmələrinə mane olmamalıdır.

**İqtisadi fəaliyyətin dövlət tənzimlənməsi prinsipi** də həmçinin iqtisadi fəaliyyət hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, hakimiyyət funksiyasını yerinə yetirən dövlət cəmiyyətin publik mənafeyini təmin etmək üçün iqtisadi fəaliyyəti nizama salır (tənzimləyir) və onun həyata keçirilməsinə nəzarət edir. Bu zaman dövlət həm direktiv (əmrnamə), həm də iqtisadi tənzimetmə metodlarından istifadə edir. Lakin bazar iqtisadiyyatı şəraitində üstünlük iqtisadi tənzimetmə metodlarının tətbiqinə verilir. Direktiv (əmrnamə) kimi tənzimetmə metodlarından istifadə edilməsi keçmiş sovet dövrü üçün xarakterik idi.

Dövlət iqtisadi fəaliyyəti müəyyən edilmiş həddə tənzimləyir. Əgər müəyyənləşdirilmiş hədd pozulursa, onda ictimai istehsalın səmərəliliyi azalır.[1]

İqtisadi fəaliyyət hüququ həm də belə bir prinsip müəyyənləşdirir ki, haqsız rəqabətə və inhisarçılığa yönələn iqtisadi fəaliyyətə yol verilmir. Söhbət **haqsız rəqabətə və inhisarçılığa yönələn iqtisadi fəaliyyətə yol verilməməsi prinsipindən** gedir. Bu prinsip Konstitusiyanın 15-ci maddəsinin II hissəsində təsbit olunmuşdur. Burada deyilir ki, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir. İqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı münasibətlər isə iqtisadi münasibətlərin bir növüdür.[2] Əgər iqtisadi fəaliyyət haqsız rəqabətə və inhisarçılığa yönələrsə, belə fəaliyyətə yol verilmir.

---

[1] Meybullayev M. X. İqtisadiyyat . Dərs vəsaiti. Bakı, 2015, s. 128-129.

[2] *Rəqabət və inhisarçılıq barədə daha ətraflı:* İqtisadi nəzəriyyə. Dərslik / Azərbaycan dilinə tərcümə. Ə.P.Babayevin ümumi elmi redaktəsi ilə. Bakı, 2009, s. 275-283.

**İqtisadi fəaliyyətin məhdudlaşdırılması prinsipi** iqtisadi fəaliyyət hüququnun prinsiplərindən biri sayılır. Bu prinsipə görə, təsərrüfat subyektləri tərəfindən iqtisadi fəaliyyətin bu və ya digər növünün həyata keçirilməsi heç nə ilə məhdudlaşdırılmır ki, onlar sərbəst şəkildə həmin fəaliyyət növləri ilə məşğul ola bilər. Subyektlər iqtisadi fəaliyyət növlərini həm müstəqil, həm də onları bir-biri ilə uyğunlaşdırmaqla həyata keçirirlər. Lakin, bəzən qanun ayrı-ayrı iqtisadi fəaliyyət növlərini bir-biri ilə uyğunlaşdırılmaqla həyata keçirilmə imkanını məhdudlaşdırır. Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu bankların bank fəaliyyətini istehsal, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. fəaliyyət növləri ilə uyğunlaşdırılmaqla həyata keçirilmələrini məhdudlaşdırır, qadağan edir. Odur ki, sözügedən prinsip heç də mütləq xarakter daşımır. Belə ki, qanun ayrı-ayrı hallarda bu və ya digər iqtisadi fəaliyyət növünün həyata keçirilməsini məhdudlaşdıra bilər.

### 6.2.3. İqtisadi fəaliyyət hüququnun mənbələri

İqtisadi fəaliyyət hüququnun mənbələri **qanunlardır**. Söhbət, hər şeydən əvvəl, dövlətin əsas qanunu olan Konstitusiyadan gedir. Konstitusiya iqtisadi fəaliyyət hüququnun prinsiplərini formulə edir, şəxslərin iqtisadi fəaliyyəti həyata keçirmək kimi vacib subyektiv hüququnu təsbit edir. Konstitusiya həm də iqtisadi fəaliyyətlə bağlı münasibətlərin hüquqi tənzimlənməsinin əsasıdır. Belə münasibətlərin hüquqi tənzimlənməsində qanunlardan başqa, həm də **qanunqüvvəli aktlar** mühüm rol oynayır. Söhbət Prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından və İqtisadiyyat Nazirliyinin aktlarından gedir. Bu kimi qanunqüvvəli aktlar vasitəsi ilə iqtisadi fəaliyyətlə bağlı münasibətlərin ayrı-ayrı aspektlərinin hüquqi tənzimlənməsi həyata keçirilir.

İqtisadi fəaliyyətin hüquqi tənzimlənməsində həm də **işgüzar dövriyyə adətləri** böyük rol oynayır. Odur ki, işgüzar dövriyyə adətləri iqtisadi fəaliyyət hüququnun mənbəyi hesab edilir. Belə adətlərdən xüsusilə də xarici iqtisadi fəaliyyətin tən-

zimlənməsində istifadə olunur. Onlar «İnkoterms»də ifadə olunmuşdur. «İnkoterms» Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr olunmuş beynəlxalq sənəddir; bu sənəd 2000-ci il redaksiyasında tətbiq edilir.[1]

**İnkoterms** dedikdə ticarət terminlərinin izahının beynəlxalq qaydaları başa düşülür. Əgər xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə mümkün deyilsə, onda işgüzar dövriyyə adətlərindən istifadə olunur.

Beləliklə, iqtisadi fəaliyyət hüququnun mənbə növləri bunlardan ibarətdir: 1) qanunlar; 2) qanunqüvvəli aktlar (Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının – məsələn, İqtisadiyyat Nazirliyi-nin aktları); 3) işgüzar dövriyyə adətləri.

Bunlardan başqa, iqtisadi fəaliyyət hüququnun mənbəyi qismində, prinsip etibarı ilə, həm də **beynəlxalq müqavilələr** çıxış edə bilər. Əgər Azərbaycan Respublikası xarici ölkə ilə iqtisadi sahədə müvafiq müqavilə (iqtisadi müqavilə) bağlayarsa, belə müqavilə, təbii ki, iqtisadi fəaliyyət hüququnun mənbəyi sayılır. Sözsüz, Azərbaycan Respublikasının xarici ölkələrlə bağladığı beynəlxalq müqavilələr Milli Məclis tərəfindən implementasiya (ratifikasiya) edilməlidir. Yalnız bundan sonra beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik (hüquq) sisteminə daxil olur. Yaddan çıxarmamalıyıq ki, Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Odur ki, beynəlxalq müqavilələr beynəlxalq iqtisadi hüququn, o cümlədən onun institutlarından biri olan iqtisadi fəaliyyət hüququnun mənbəyidir.

[1] *«İnkoterms» barədə ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.117.

### 6.3. İqtisadi fəaliyyət hüququ subyektlərinin növləri, yaranma, yenidən təşkil olunma və ləğv edilmə qaydası

### 6.3.1. İqtisadi fəaliyyət hüququ subyektlərinin növləri

İqtisadi fəaliyyət hüququ subyektləri müxtəlif əsaslara görə təsnif edilərək, ayrı-ayrı növlərə bölünür. İqtisadi fəaliyyətin növləri belə əsaslardan biridir. İqtisadi fəaliyyətin növləri isə, əsasən və başlıca olaraq, iqtisadiyyatın konkret sahələri ilə müəyyən edilir. Belə ki, iqtisadiyyatın müvafiq sahələrində (sektorlarda) edilən bu və ya digər hərəkətlərin məcmusu **iqtisadi fəaliyyətin ayrı-ayrı növləridir.** Bu baxımdan, aşağıdakılar iqtisadi fəaliyyətin növləri sayılır: 1) bank fəaliyyəti; 2) ticarət fəaliyyəti; 3) istehsal fəaliyyəti; 4) maliyyə fəaliyyəti; 5) turizm fəaliyyəti; 6) aqrar fəaliyyət (iqtisadiyyatın aqrar sektorunda həyata keçirilən fəaliyyət);[1] 7) nəqliyyat fəaliyyəti və s. Buna uyğun olaraq, iqtisadi fəaliyyət hüququnun subyektləri aşağıdakı kimi fərqləndirilir: 1) bank fəaliyyəti hüququnun subyektləri (məsələn, banklar və bank olmayan kredit təşkilatları); 2) ticarət fəaliyyəti hüququnun subyektləri (məsələn, ticarət müəssisələri); 3) istehsal fəaliyyəti hüququnun subyektləri (məsələn, sənaye müəssisələri); 4) maliyyə fəaliyyəti hüququnun subyektləri (məsələn, maliyyə təşkilatları); 5) turizm fəaliyyəti hüququnun subyektləri (məsələn, turizm firmaları); 6) aqrar fəaliyyət hüququnun subyektləri (məsələn, kənd təsərrüfatı müəssisələri); 7) nəqliyyat fəaliyyəti hüququnun subyektləri (məsələn, nəqliyyat-daşıma müəssisələri) və s. Nəzərdən qaçırmaq olmaz ki, iqtisadi fəaliyyət təsərrüfatçılıq fəaliyyətidir ki, yerdə qalan fəaliyyət növlərinin heç biri bunsuz həyata keçirilə bilməz. Cəmiyyətin təməlinin və onun mövcud olmasının əsasını məhz iqtisadi fəaliyyətin (təsərrüfatçılıq fəaliyyətinin) ayrı-ayrı növləri təşkil edir.[2]

---

[1] *Bax:* Экономическая теория. Учебник / Под общ.ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.617.

[2] Meybullayev M.X. İqtisadiyyat. Dərs vəsaiti. Bakı, 2015, s. 62.

İqtisadi fəaliyyət növləri bir-birindən həm də **məzmununa** görə fərqlənir. Bu nöqteyi-nəzərdən iqtisadi fəaliyyət hüququ subyektlərinin üç növü fərqləndirilir: 1) mal istehsal edən subyektlər (istehsal olunmuş mallar sonradan bazarda əmtəə kimi realizə edilir – məsələn, istehsal fəaliyyəti ilə məşğul olan sənaye müəssisələri); 2) xidmət göstərmək fəaliyyəti ilə məşğul olan subyektlər (məsələn, ticarət və ya nəqliyyat-daşıma xidməti göstərən müəssisələr); 3) iş görmək fəaliyyətini həyata keçirən subyektlər (məsələn, təmir-tikinti işi görən müəssisələr).

Özlərinin malik olduqları **səlahiyyətin xarakterinə** görə iqtisadi fəaliyyət hüququ subyektləri üç növə ayrılır: 1) bilavasitə iqtisadi fəaliyyətlə məşğul olan subyektlər (məsələn, bank fəaliyyəti ilə məşğul olan təşkilatlar, ticarət fəaliyyəti ilə məşğul olan müəssisələr, kənd təsərrüfatı subyektləri və s.); 2) iqtisadi fəaliyyəti tənzimetmə formasında hakimiyyət xarakterli təsir göstərən subyektlər (məsələn, dövlət, bələdiyyə); 3) rəhbərlik funksiyasını yerinə yetirən subyektlər (məsələn, öz filiallarının iqtisadi fəaliyyəti həyata keçirmələrinə rəhbərlik edən müəssisələr).

**Hakimiyyət səlahiyyətinə malik olması** kimi əsasa görə iqtisadi fəaliyyət hüququnun subyektləri iki cür olur:1) hakimiyyət səlahiyyətli subyektlər (məsələn, dövlət, bələdiyyə); 2) hakimiyyət səlahiyyətinə malik olmayan subyektlər (məsələn, təsərrüfat subyektləri).

**Mülkiyyətin növü** kimi əsasa görə iqtisadi fəaliyyət hüququ subyektlərinin üç növü mövcuddur: 1) xüsusi (özəl) subyektlər (xüsusi mülkiyyət əsasında iqtisadi fəaliyyət göstərən müəssisələr); 2) dövlət müəssisələri (dövlət mülkiyyəti əsasında iqtisadi fəaliyyəti həyata keçirən müəssisələr); 3) bələdiyyə müəssisələri (bələdiyyə mülkiyyəti əsasında iqtisadi fəaliyyətlə məşğul olan müəssisələr). Xatırlatmaq istərdik ki, Konstitusiyanın 13-cü maddəsinin II hissəsinə görə, mülkiyyət üç növdə ola bilər (dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti).

### 6.3.2. İqtisadi fəaliyyət hüququ subyektlərinin yaradılması

İqtisadi fəaliyyət hüququnun subyektləri öz funksiyalarını yerinə yetirmək (mal istehsal etmək, xidmət göstərmək, iş görmək) üçün, hər şeydən əvvəl, təbii ki, onlar yaradılmalıdır. Aydın məsələdir ki, yaradılmamış hər hansı subyekt nə mövcud ola, nə də fəaliyyət göstərə bilər.

**İqtisadi fəaliyyət hüququnun subyektlərinin yaradılması** dedikdə hüquqi əhəmiyyətə malik olan hərəkətlərin yerinə yetirilməsi və müvafiq aktların qəbul edilməsi başa düşülür ki,bu hərəkət və aktların həyata keçirilməsi nəticəsində bu və ya digər şəxs iqtisadi fəaliyyət hüququnun subyekti kimi status əldə edir. Həmin şəxs yalnız belə status əldə etdikdən sonra iqtisadi fəaliyyət hüququnun subyekti kimi tanınır.

İqtisadi fəaliyyət hüququnun əsas və başlıca subyekti hüquqi şəxslərdir. Təsadüfi deyildir ki, iqtisadi fəaliyyət hüququnun subyekti, adətən, məhz hüquqi şəxs formasında yaradılır. Hüquqi şəxsin yaradılması qaydası isə mövcud qanunvericilikdə nəzərdə tutulmuşdur (MM-in 45-ci maddəsi).

Hüquqi şəxsin yaradılması mürəkkəb bir proses deməkdir. Bu proses hüquqi əhəmiyyətə malik olan müvafiq hərəkətlərin edilməsi ilə başlayır ki, həmin hərəkətlər aşağıdakılara yönəlir: 1) hüquqi şəxsin təsis edilməsi; 2) hüquqi şəxsin nizamnaməsinin hazırlanması; 3) hüquqi şəxsin dövlət qeydiyyatından keçməsi. Axı hüquqi şəxs onun təsis edilməsi, nizamnaməsinin hazırlanması və dövlət qeydiyyatından keçməsi yolu ilə yaradılır.

**Hüquqi şəxsin təsis edilməsinə** yönələn hərəkətin mahiyyəti bundan ibarətdir ki, hüquqi şəxsi təsis edən şəxslər (təsisçilər) arasında müqavilə (təsis müqaviləsi) bağlanır. Bu müqavilədə təsisçilər hüquqi şəxsin nizamnaməsinin hazırlanması, onun yaradılması üzrə birgə fəaliyyəti, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər. Belə müqavilə o halda bağlanılır ki, hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılsın. Əgər hüquqi şəxs bir təsisçi tərəfindən yaradılarsa, onda, təbii ki, təsis müqavilə-

sinin bağlanması tələb edilmir. Yaddan çıxarmaq olmaz ki, müqavilə hüquqi şəxsin təsisçiləri arasında bağlanılır; hüquqi şəxs bir təsisçi tərəfindən təsis olunduğu halda isə təsisçilər arasında müqavilə bağlamaqdan söhbət gedə bilməz. Nəzərə almaq lazımdır ki, hüquqi şəxs bir şəxs tərəfindən təsis edilə bilər və buna qanun yol verir. Qanunda göstərilir ki, məhdud məsuliyyətli cəmiyyət bir şəxs (bir fiziki şəxs və ya bir hüquqi şəxs) tərəfindən də təsis edilə bilər (MM-in 87-ci maddəsinin 1-ci bəndi).

Hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin öhdəlikləri üçün cavabdeh deyildir. Lakin onlar hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gələn, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar. Hüquqi şəxs də həmçinin təsisçilərin öhdəlikləri üçün cavabdeh deyildir.

Hüquqi şəxsin yaradılması zamanı edilən hüquqi hərəkətlər həm də onun nizamnaməsinin hazırlanmasına yönəlir. **Hüquqi şəxsin nizamnaməsinin hazırlanması** təsisçilər arasında bağlanan müqavilədə nəzərdə tutulur. Nizamnamə hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin hüquqi əsasıdır; hüquqi şəxs məhz onun əsasında fəaliyyət göstərir.

Hüquqi şəxs bir neçə təsisçi tərəfindən təsis edildiyi halda, onun hazırlanması təsisçilər tərəfindən təsdiq olunur. Hüquqi şəxsin nizamnaməsinin təsdiqlənməsi həm də hüquqi şəxs bir təsisçi tərəfindən yaradıldığı halda da həyata keçirilir.

Hüquqi şəxsin nizamnaməsi onun təsis sənədidir. Burada hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğv edilməsinin yolları göstərilir. Əgər qeyri-kommersiya hüquqi şəxsi yaradılarsa, onun nizamnaməsində həm fəaliyyət predmeti, həm də fəaliyyət məqsədləri müəyyənləşdirilir.

Nə təsisçilər arasında müqavilə bağlanması, nə də hüquqi şəxsin nizamnaməsinin hazırlanması onun (hüquqi şəxsin) yaradılmasına səbəb olur. Belə hərəkətlərin edilməsi hüquqi şəxsin yaradılması prosesinin başlanğıc mərhələsidir. Qeyd etdiyimiz

kimi, unutmaq olmaz ki, hüquqi şəxsin yaradılması mürəkkəb bir prosesdir. Bu prosesin növbəti mərhələsi hüquqi şəxsin dövlət qeydiyyatından keçməsindən ibarətdir. Axı qanunla müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçmiş qurum hüquqi şəxs kimi tanınır (MM-in 43-cü maddəsinin 1-ci hissəsi). Məhz dövlət qeydiyyatından keçdikdən (dövlət qeydiyyatına alındıqdan) sonra hüquqi şəxs yaradılmış hesab edilir. Odur ki, **dövlət qeydiyyatından keçmə** (dövlət qeydiyyatına alınma) hüquqi şəxsin yaradılması prosesinin son mərhələsidir. Bu mərhələdə hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınır. Dövlət qeydiyyatını səlahiyyətli dövlət orqanları həyata keçirir. Söhbət **dövlət qeydiyyat orqanlarından** gedir. Dövlət qeydiyyat orqanı dedikdə, ilk növbədə, Azərbaycan Respublikasının Vergilər Nazirliyi başa düşülür. Bu nazirlik (ona tabe olan vergi orqanları), əvvəllərdə qeyd etdiyimiz kimi, sahibkarlıq fəaliyyəti subyektlərinin (kommersiya hüquqi şəxslərinin) «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyatını aparır. Bu, «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2007-ci il tarixli Fərmanına uyğundur. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi də həmçinin dövlət qeydiyyat orqanıdır. Dövlət qeydiyyat orqanlarına həm də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, onların (rayon, şəhər) qeydiyyat şöbələri daxildir. Qeyri-kommersiya təşkilatı olsa da, dini təşkilatlar həm də iqtisadi fəaliyyətlə (məsələn, poliqrafiya-nəşriyyat, istehsal, bərpa-tikinti və digər fəaliyyət növləri ilə) məşğul ola bilər. Odur ki, onlar iqtisadi fəaliyyət hüququnun subyekti hesab edilir. İqtisadi fəaliyyət hüququnun bu kimi subyektlərinin qeydiyyatını Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi aparır.

Hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı münasibətlər «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanuna görə, hüquqi şəxsi dövlət qeydiyyatına almaqdan öt-

rü onun təsisçiləri tələb olunan müvafiq sənədləri dövlət qeydiyyat orqanlarına təqdim etməlidir. Belə sənədlərə aiddir: 1) ərizə; 2) ərizəyə əlavə olunan sənədlər (məsələn, hüquqi şəxsin nizamnaməsi, hüquqi şəxsin yaradılması haqqında qərar və ya təsis müqaviləsi, müvafiq məbləğdə dövlət rüsumunun ödənilməsi haqqında sənəd, təsisçi fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti, hüquqi şəxs statusu almaq istəyən qurumun hüquqi ünvanını təsdiq edən sənəd və s.)

Dövlət qeydiyyat orqanı göstərilən sənədləri baxılmaq üçün qəbul edir. Əgər qəbul olunan sənədlərin hamısı təqdim edilərsə və onlar qanunvericiliyə uyğun tərtib edilmişsə, dövlət qeydiyyat orqanı dövlət qeydiyyatı üçün müraciət edən şəxsə on gün müddətində **dövlət qeydiyyatı haqqında şəhadətnamə** verir.

Müəyyən hallarda hüquqi şəxsin dövlət qeydiyyatına alınmasında **imtina edilir.** Belə hallar «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur. Bu kimi hərəkətlərdən (həm dövlət qeydiyyatına almaqdan imtina edilməsindən, həm də qeydiyyatdan yayınmaqdan) məhkəməyə şikayət verilə bilər.

Əgər iqtisadi fəaliyyət hüququnun (məsələn, sahibkarlıq fəaliyyəti hüququnun) subyekti fiziki şəxs olarsa, onun dövlət qeydiyyatına alınması tələb olunmur. İqtisadi fəaliyyəti (sahibkarlıq fəaliyyətini) hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər vergi orqanlarında, sadəcə olaraq, vergi ödəyicisi kimi uçota alınırlar.

### 6.3.3. İqtisadi fəaliyyət hüququ subyektlərinin lisenziya almaları

İqtisadi fəaliyyətin elə növləri vardır ki, bu fəaliyyət növlərini iqtisadi fəaliyyət hüququnun subyekti olan şəxslər yalnız müvafiq lisenziya aldıqdan sonra həyata keçirə bilərlər. Söhbət lisenziyalaşdırılmış fəaliyyət növlərindən gedir. Belə fəaliyyət növlərinin siyahısı qanunvericiliklə müəyyənləşdirilir.

Məlum olduğu kimi, **hüquqi rejim** kimi əsasa görə iqtisadi fəaliyyət növləri iki yerə bölünür: 1) ümumi iqtisadi fəaliyyət növləri; 2) lisenziyalaşdırıl-mış fəaliyyət növləri. **Ümumi iqtisadi fəaliyyət növlərinin** həyata keçirilməsi üçün lisenziya alınması tələb olunmur. **Lisenziyalaşdırılmış fəaliyyət növləri** ilə məşğul olmaq üçün isə, əksinə, lisenziya alınmalıdır. Belə fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız lisenziya əsasında məşğul ola bilərlər. Lisenziya xüsusi razılıq deməkdir və ona «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»da leqal (normativ) anlayış verilmişdir. Xatırlatmaq istərdik ki, həmin qaydalar Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.[1] Qaydalar bəzi fəaliyyət növləri ilə məşğul olmaq üçün lisenziya verilməsi ilə bağlı münasibətləri tənzimləyir. Məsələn, bank, sığorta və digər iqtisadi fəaliyyət növləri ilə məşğul olmaq üçün lisenziya alınmalıdır.

Lisenziyanın normativ (leqal) anlayışına əvvəllərdə toxunulmuşdur. Təkrar edərək bir daha qeyd edirik ki, **lisenziya** dedikdə təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən rəsmi sənəd başa düşülür. Buna oxşar anlayış «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanununda da verilmişdir. 2016-cı il iyunun 1-də qüvvəyə minmiş həmin qanunun 1-ci maddəsində göstərilir ki, lisenziya müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən təqdim edilən rəsmi sənəddir. Bu sənədin verilməsi ilə bağlı yaranan münasibətlərdə iki tərəf iştirak edir: 1) lisenziya verən orqan; 2) ərizəçi. **Lisenziya verən orqan** dedikdə lisenziya vermək səlahiyyətinə malik olan müvafiq icra hakimiyyəti orqanı

---

[1] Sonralar bu münasibətləri tənzimləyən «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 15.03.2016-cı il tarixli 176-VQ nömrəli Qanunu qəbul edilmişdir // AR QT. Bakı, 2016, № 3.

başa düşülür. **Ərizəçi** isə lisenziyanın alınması üçün lisenziya verən orqana ərizə ilə müraciət edən təşkilati- hüquqi formasından asılı olmayaraq hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi və fərdi sahibkardır. Məsələ müsbət həll olunduqda (yəni lisenziya alındıqda) ərizəçi **lisenziya sahibi** olur.

Lisenziya almaq üçün ərizəçi lisenziya verən orqana ərizə ilə müraciət edir. Ərizə «İnzibati icraat haqqında» Azərbaycan Respublikası Qanununun 29 və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada təqdim olunmalıdır.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur: 1) hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti (ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filial və nümayəndəliyi olduqda); 2) şəxsiyyət vəsiqəsinin surəti (ərizəçi fərdi sahibkar olduqda); 3) ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti; 4) ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti; 5) lisenziya şərtlərinin yerinə yetirilməsini təsdiq edən sənədlər.

Ərizə lisenziya verən orqan tərəfindən qəbul edilir və qeydiyyata alınır. Bundan sonra həmin orqan ona təqdim olunmuş ərizənin və ona əlavə edilmiş sənədlərin qanunun tələblərinə uyğunluğunu yoxlayır. Əgər çatışmazlıqlar mövcud olarsa, ərizəçi həmin çatışmazlıqları ən geci on iş günü ərzində aradan qaldırır. Aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra ərizəçi lisenziya verən orqana təkrar ərizə ilə müraciət edir. Lisenziya verən orqan ona verilmiş təkrar ərizəyə baxır. Bu orqan rəy (razılıq) alınması üçün aidiyyəti dövlət orqan və müəssisələrinə müraciət edir; əgər müsbət rəy alınarsa, lisenziya verən orqan məsələni həll edir, yəni ərizəçiyə lisenziya verir. Lisenziya ərizə qeydiyyata alındığı tarixdən on iş günündən gec olmayaraq təqdim edilir; əgər rəy mənfi olarsa, onda lisenziya verən orqan lisenziya verilməsindən imtina barədə inzibati akt qəbul edir. Lisenziya o halda verilir ki, lisenziya verən orqana dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim olunsun.

Lisenziyanın iki növü fərqləndirilir: 1) ümumi lisenziya; 2) xüsusi lisenziya. **Ümumi lisenziya** dedikdə lisenziya tələb edən fəaliyyət növünün onun bütün altnövlərinin hər biri üçün ayrılıqda xüsusi lisenziya almadan həyata keçirmək hüququ verən lisenziya başa düşülür. **Xüsusi lisenziya** isə lisenziya tələb edən fəaliyyət növünün bir və ya bir neçə altnövünü həyata keçirmək hüququ verən lisenziyaya deyilir.

Sözügedən qanun nəinki lisenziyaya, həmçinin icazə sisteminin tənzimlənməsinin həm hüquqi, həm iqtisadi, həm də təşkilati əsaslarını müəyyənləşdirir. **İcazə sistemi** dedikdə icazələrin müəyyən edilməsi, icazələrin dublikatının və əlavəsinin verilməsi, icazənin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi və ləğvi şərtlərinə riayət olunmasına nəzarətlə bağlı prosedurların məcmusu başa düşülür. **İcazə** isə müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün səlahiyyətli orqan tərəfindən verilən sənədə (icazə, razılıq, sertifikat, şəhadətnamə, akkreditasiya və s.) deyilir. Bu cür sənədin verilməsi ilə bağlı münasibətlərdə də iki tərəf iştirak edir: 1) icazə verən orqan; 2) ərizəçi. **İcazə verən orqan** dedikdə icazə vermək səlahiyyətinə malik olan inzibati orqan başa düşülür. **Ərizəçi** dedikdə icazə verən orqana ərizə ilə müraciət edən hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi və fərdi sahibkar başa düşülür. İcazə aldıqdan sonra ərizəçi icazənin sahibi kimi tanınır. İcazənin alınması ilə bağlı münasibətlər «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanunu (2016-cı il) ilə tənzimlənir.

Lisenziyaların verilməsi, rəsmiləşdirilməsi, dayandırılması, təkrar verilməsi, ləğv edilməsi, habelə lisenziya verilməsi qaydalarına nəzarət üzrə lisenziya orqanlarının hərəkətləri **lisenziyalaşdırma** adlanır.[1] Lisenziyalaşdırma bu və ya digər iqtisadi fəaliyyət növünün həyata keçirilməsinə verilən razılıqdır. Belə

---

[1] Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s.141.

razılığın verilməsi isə müxtəlif məqsədlər güdür: 1) əhalinin həyat və sağlamlığının qorunması; 2) vətəndaşların hüquq və azadlıqlarının müdafiə olunması; 3) dövlət təhlükəsizliyinin təmin olunması; 4) ölkənin müdafiəsinin təmin olunması; 5) təsərrüfat (iqtisadi) dövriyyəsində keyfiyyətsiz və saxtalaşdırılmış malların qarşısının alınması. Bütün bunlar lisenziyalaşdırmanın **məqsədləri** sayılır.

Lisenziya və icazə bir-birindən fərqlənir. Belə ki, lisenziya bu və ya digər fəaliyyətin həyata keçirilməsi üçün verilən rəsmi sənəddir. Hər bir ölkənin qanunvericiliyində lisenziya alınması tələb edilən fəaliyyət növlərinin siyahısı verilir. Azərbaycan Respublikasında belə fəaliyyət növlərinin sayı çox da artıq deyildir: məsələn, bank fəaliyyəti, sığorta fəaliyyəti və s.

İcazə isə bu və ya digər hərəkətin yerinə yetirilməsi üçün verilən rəsmi sənəddir. Bu sənədin adı müxtəlif ola bilər: razılıq, sertifikat, akkreditasiya, icazə və s. Məsələn, bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya (bank lisenziyası) alınması tələb olunur. Öz filial və nümayəndəliklərini açmaq üçün isə banklar lisenziya deyil, icazə almalıdırlar («Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsi).

Qeyd etmək lazımdır ki, xarici ölkələrdə lisenziya tələb edilən fəaliyyət növlərinin sayı müxtəlifdir. Məsələn, Rusiya Federasiyasında onların sayı 120, Avstriyada 28, Böyük Britaniyada 38, Yaponiyada 39-dur.[1]

### 6.3.4. İqtisadi fəaliyyət hüququ subyektlərinin yenidən təşkili

İqtisadi fəaliyyət hüququ subyektlərinin yenidən təşkili, təbii ki, hüquqi şəxslərə aiddir. Belə ki, hüquqi şəxslər yenidən təşkil oluna bilər. Odur ki, hüquqi şəxslərin yenidən təşkil olun-

[1] *Bu barədə bax:* Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s.143.

masından danışmaq lazımdır. Fiziki şəxslərə gəldikdə isə, qeyd etməliyik ki, fiziki şəxslərin yenidən təşkilindən söhbət gedə bilməz.

Hüquqi şəxslərin yenidən təşkili ilə bağlı münasibətlər mülki qanunvericiliklə tənzimlənir. Mülki qanunvericiliyin əsas aktı sayılan Mülki Məcəllənin 55 – 58-ci maddələri məhz həmin münasibətlərin hüquqi tənzimlən-məsinə və nizama salınmasına həsr edilmişdir.

**Hüquqi şəxslərin yenidən təşkil olunması** dedikdə onun fəaliyyətinə xitam verilməsi başa düşülür ki, bu zaman onun hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa hüquqi şəxsə və ya şəxslərə keçir. **Hüquq varisliyi** dedikdə isə hüquq və vəzifələrin qanuna, yaxud sazişə əsasən bir şəxsdən digərinə keçməsi başa düşülür. Bu zaman hüquq münasibətinin yeni subyekti əvvəlkini əvəz edir, lakin ona keçən hüquq və vəzifələr dəyişilir.[2] Hüquqi şəxslərin yenidən təşkil olunması məhz hüquq varisliyi əsasında həyata keçirilir. Məsələn, yenidən təşkil olunmaq üçün iki hüquqi şəxs birləşir. Bu zaman onlardan hər birinin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxsə keçir ki, bu, hüquqi varislik əsasında mümkün olur.

Hüquqi şəxs müxtəlif **formalarda** təşkil olunur. Həmin formalar bunlardan ibarətdir: 1) birləşmə; 2) qoşulma; 3) bölünmə; 4) ayrılma; 5) çevrilmə. Söhbət hüquqi şəxsin yenidən təşkilinin formalarından gedir.

**Birləşmə** dedikdə hüquqi şəxslərin bir-birinə qovuşması başa düşülür ki, bunun nəticəsində hüquqi şəxslərin hər birinin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxsə keçir. Bu zaman bir-birilə birləşən (qovuşan) hüquqi şəxslərin fəaliyyətinə xitam verilir, onların bazası əsasında yeni hüquqi şəxs yaranır. Məsələn, iki istehsal müəssisəsinin qovuşması hüquqi şəxslərin yenidən təşkilinin birləşmə formasına misal ola bilər.

Əgər hüquqi şəxs digər hüquqi şəxsə qoşularsa, bu, hüquqi şəxsin yenidən təşkilinin **qoşulma forması** adlanır. Bu zaman

---

[2] Hüquq ensiklopedik lüğəti / Baş redaktor – M.F.Məlikova. Bakı, 1991, s. 501.

qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilir; onun hüquq və vəzifələri əvvəlki hüquqi şəxsə keçir. Məsələn, tutaq ki, «A» hüquqi şəxsi «B» hüquqi şəxsinə qoşulur. Bunun nəticəsində «A» hüquqi şəxsinin fəaliyyətinə xitam verilir ki, onun hüquq və vəzifələri «B» hüquqi şəxsinə keçir.

Əgər hüquqi şəxs bir neçə hüquqi şəxsə bölünərsə, bu, hüquqi şəxsin yenidən təşkilinin **bölünmə forması** adlanır. Bunun nəticəsində yeni hüquqi şəxslər yaranır ki, bölünmüş hüquqi şəxsin hüquq və vəzifələri onlara (yəni yeni yaranmış hüquqi şəxslərə) keçir. Bölünmüş hüquqi şəxsin fəaliyyətinə isə xitam verilir. Məsələn, «A» müəssisəsi «B» və «C» kimi iki müəssisəyə bölünür. «A» müəssisəsinin fəaliyyətinə xitam verilir ki, onun hüquq və vəzifələri yeni yaranmış müəssisələrə («B» və «C» müəssisələrinə) keçir.

Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrılarsa, buna hüquqi şəxsin yenidən təşkilinin **ayrılma forması** deyilir. Bu zaman tərkibindən hüquqi şəxs (və ya hüquqi şəxslər) ayrılmış hüquqi şəxsin fəaliyyətinə, təbii ki, xitam verilmir. Həmin hüquqi şəxs yalnız yenidən təşkil olunur və fəaliyyət göstərməkdə davam edir; onun hüquq və vəzifələri ayrılmış hüquqi şəxslərin hər birinə keçir. Məsələn, fərz edək ki, «A» hüquqi şəxsinin tərkibindən üç hüquqi şəxs («B», «C» və «D» hüquqi şəxsləri) ayrılır. Yenidən təşkil edilən «A» hüquqi şəxsinin fəaliyyətinə xitam verilmir; onun hüquq və vəzifələri «B», «C» və «D» hüquqi şəxslərdən hər birinə keçir.

Hüquqi şəxsin **çevrilmə forması** ilə bağlı münasibətlərdə də həmçinin iki tərəf iştirak edir ki, bunlardan biri yenidən təşkil olunan (çevrilən), digəri isə yeni yaranan hüquqi şəxsdir. Bu zaman yenidən təşkil olunmuş hüquqi şəxsin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxsə keçir. Söhbət bir növdən olan hüquqi şəxsin digər növdən olan hüquqi şəxsə çevrilməsindən (hüquqi şəxsin təşkilati- hüquqi formasının dəyişməsindən) gedir. Bu zaman çevrilən (yenidən təşkil olunan) hüquqi şəxsin fəaliyyətinə xitam verilir. Məsələn, «A» kooperativi «B» səhmdar cəmiyyətinə çevrilir. Bu zaman «A» kooperativinin

fəaliyyətinə xitam verilir və onun hüquq və vəzifələri «B» səhmdar cəmiyyətinə keçir. Hüquqi şəxsin hüquq və vəzifələri digər hüquqi şəxslərə müvafiq sənədlərə uyğun olaraq keçir. Sənədlər dedikdə təhvil aktı və bölünmə balansı başa düşülür. Birləşmə, qoşulma və çevrilmə kimi yenidən təşkil olunma formaları **təhvil aktına**, bölünmə və ayrılma formaları isə **bölünmə balansına** uyğun olaraq həyata keçirilir.

Hüquqi şəxsin yenidən təşkili həm könüllü, həm də məcburi ola bilər. Əgər hüquqi şəxsin yenidən təşkili onun təsisçilərinin (iştirakçılarının) qərarı ilə həyata keçirilərsə, bu, **könüllü yenidən təşkil olunmadır;** belə qərarı həm də hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı qəbul edə bilər.

Əgər hüquqi şəxsin yenidən təşkili məhkəmə qərarı ilə həyata keçirilərsə, bu, **məcburi yenidən təşkil olunmadır.** Qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya bir neçə hüquqi şəxsin ayrılması formasında təşkili məhz məhkəmə qərarı ilə həyata keçirilir (MM-in 55-ci maddəsinin 2-ci hissəsi).

Məcburi təşkil olunma həm də səlahiyyətli dövlət orqanlarının qərarı ilə həyata keçirilə bilər. Qərarda hüquqi şəxsin yenidən təşkil olunma müddəti göstərilir.[1]

### 6.3.5. İqtisadi fəaliyyət hüququ subyektlərinin ləğvi

İqtisadi fəaliyyət hüququnun subyekti olan nə fiziki şəxslər, nə dövlət, nə də bələdiyyələrinin ləğvi haqqında danışmaq olar. Ləğvetmə prosesinə yalnız iqtisadi fəaliyyət hüququnun subyektlərindən biri olan hüquqi şəxslər məruz qala bilər. Odur ki, iqtisadi fəaliyyət hüququ subyektinin ləğvi dedikdə hüquqi şəxsin ləğvi başa düşülməlidir. Hüquqi şəxsin ləğvi isə ölkənin ali iqtisadi qanunu və ikinci konstitusiyası (iqtisadi konstitusiyası) kimi tanınan Mülki Məcəllə normaları ilə tənzimlənir; onun 59–63-cü maddələri məhz hüquqi şəxsin ləğvi ilə bağlı

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.42.

məsələlərin tənzimlənməsinə həsr olunmuşdur. Hüquqi şəxsin fəaliyyətinə iki yolla xitam verilir. Bu yollardan biri hüquqi şəxsin yenidən təşkil olunmasıdır; ikinci yol isə hüquqi şəxsin ləğvidir. Bu yollar, təbii ki, bir-birindən fərqlənir.

**Hüquqi şəxsin ləğvi** dedikdə onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi başa düşülür. Məhz hüquqi şəxsin hüquq və vəzifələrinin hüquq varisliyi qaydasında başqa şəxslərə keçməməsi hüquqi şəxsin ləğvini hüquqi şəxsin yenidən təşkilindən fərqləndirməyə imkan verən əsas əlamətdir. Hüquqi şəxs ləğv edilərkən onun mövcud olmasına və fəaliyyətinə birdəfəlik xitam verilir. Belə halda onun hüquq və vəzifələrinin başqa şəxslərə keçməsindən söhbət gedə bilməz.

Hüquqi şəxsin ləğvi həm könüllü, həm də məcburi ola bilər. Əgər hüquqi şəxsin ləğvi onun təsisçilərinin (iştirakçılarının) qərarına əsasən həyata keçirilərsə, bu, **hüquqi şəxsin könüllü ləğvidir.**

Belə qərarı hüquqi şəxsin nizamnaməsi ilə vəkil edilmiş orqanı da qəbul edə bilər. Bu cür qərar aşağıdakı hallarda qəbul edilir: 1) hüquqi şəxsin yaradılması zamanı qarşıya qoyulan məqsədə nail olunması; 2) hüquqi şəxsin mövcud olması və fəaliyyət göstərməsi üçün nəzərdə tutulan müddətin qurtarması və s.

Əgər hüquqi şəxsin ləğvi məhkəmə qərarı əsasında həyata keçirilərsə, bu, **hüquqi şəxsin məcburi ləğvidir**. Məhkəmə aşağıdakı hallarda hüquqi şəxsin ləğvi barədə qərar çıxara bilər: 1) hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının etibarsız sayılması (bu, məhkəmə tərəfindən müəyyən edilir); 2) lisenziya olmadan hüquqi şəxsin fəaliyyət göstərməsi; 3) hüquqi şəxs tərəfindən qanunla qadağan edilmiş fəaliyyətin həyata keçirilməsi; 4) hüquqi şəxs tərəfindən qanunvericiliyin digər şəkildə dəfələrlə və ya kobudcasına pozulması; 5) hüquqi şəxsin (fond və ya ictimai birliyin) nizamnamə məqsədlərinə zidd olan fəaliyyətlə məşğul olması.

Hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş təsisçilər (hüquqi şəxsin təsisçiləri) **ləğvetmə komissiyası yaradırlar**. Bu andan hüquqi şəxsin işlərini idarə etmək həmin komissiyaya keçir. Ləğvetmə komissiyası kreditorları müəyyənləşdirir və debitor borcunu almaq üçün tədbirlər görür, habelə hüquqi şəxsin ləğvi barədə kreditorlara bildiriş göndərir. Sonra isə onun tərəfindən kreditorların tələbləri ödənilir; kreditorların tələbləri növbə ilə ödənilir. Qanun **beş növbə** müəyyən edir. Kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası **ləğvetmə balansı** tərtib edir ki, həmin balans təsisçilər tərəfindən təsdiq olunur. Daha sonra isə təsdiq olunmuş ləğvetmə balansı ləğvetmə komissiyası tərəfindən hüquqi şəxsin dövlət qeydiyyatını həyata keçirən orqana göndərilir.

Hüquqi şəxsin əmlakı, hər şeydən əvvəl, kreditorların tələblərinin ödənilməsinə yönəlir. Hüquqi şəxsin əmlakı qalarsa, həmin əmlak hüquqi şəxsin təsisçilərinə (iştirakçılarına) verilir. Hüquqi şəxsin nizamnaməsində ayrı qayda da nəzərdə tutula bilər.

Hüquqi şəxsin ləğvi barədə **hüquqi şəxslərin dövlət reyestrinə** müvafiq qeyd daxil edilir. Məhz bu andan hüquqi şəxsin ləğvi prosesi başa çatmış sayılır. Bununla hüquqi şəxsin mövcudluğuna son qoyulur və o, bir daha fəaliyyət göstərmir.

Göründüyü kimi, hüquqi şəxsin ləğvi mürəkkəb xarakterə malik bir prosesdir. Bu proses özündə bir neçə mərhələni birləşdirir ki, onlar bir-birilə bağlı olub, qarşılıqlı əlaqədədir.[1]

---

[1] *Hüquqi şəxsin ləğvi prosesi barədə daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı, 2008, s.450-476.

# VI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *VII FƏSİL.*

# İQTİSADİ FƏALİYYƏTİN HÜQUQİ VASİTƏSİ İNSTİTUTU

## 7.1. İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu – iqtisadi hüququn struktur elementi kimi

### 7.1.1. İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutunun anlayışı

İqtisadi hüquqla tənzimlənən ictimai münasibətlər iqtisadi fəaliyyətin həyata keçirilməsi barəsində və onunla bağlı olaraq yaranır. Belə ki, iqtisadi hüququn nizama saldığı ictimai münasibətlər – iqtisadi münasibətlər məhz iqtisadi (təsərrüfat) fəaliyyət prosesində əmələ gəlir. İqtisadi fəaliyyət isə daimi və ya sistemli şəkildə həyata keçirilən hərəkətlərin məcmusudur ki, bu hərəkətlər, ilk növbədə, bazarda əmtəə kimi realizə olunan maddi və qeyri-maddi nemətlərin (malların) istehsalına yönəlir. Belə hərəkətlər sayəsində həmçinin xidmətlər göstərilir və ya işlər görülür.

Əlbəttə, həm mal istehsalının, həm xidmət göstərilməsinin, həm də iş görülməsinin hüquqi vasitəsi olmalıdır. Belə vasitə olmadan nə mal istehsalı, nə xidmət göstərilməsi, nə də iş görülməsi mümkün ola bilər. Söhbət iqtisadi fəaliyyətin hüquqi vasitəsindən gedir.

**İqtisadi fəaliyyətin hüquqi vasitəsi** dedikdə elə bir forma (hüquqi forma) başa düşülür ki, bu forma əsasında iqtisadi fəaliyyətin həyata keçirilməsi rəsmiləşdirilir. Buna görə «iqtisadi fəaliyyətin hüquqi vasitəsi» anlayışının məna yükü həmin fəaliyyətin rəsmiləşdirməsinin hüquqi formasını ehtiva edir. Başqa sözlə, iqtisadi fəaliyyətin hüquqi vasitəsi bu fəaliyyətin həyata keçirilməsinin hüquqi rəsmiləşdirmə formasıdır. Heç də sirr deyildir ki, hüquqi rəsmiləşdirmə forması olmadan iqtisadi fəaliyyət həyata keçirilə, məsələn, mallar istehsal oluna, xidmətlər göstərilə və ya işlər görülə bilməz. Aydın bir məsələdir ki, həm mal istehsalının, həm xidmət göstərilməsinin, həm də iş

görülməsinin hüquqi rəsmiləşdirmə forması olmalıdır. Mal istehsalının, xidmət göstərilməsinin və ya iş görülməsinin, bir sözlə – iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi rəsmiləşdirmə forması isə müqavilədir. İqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi rəsmiləşdirmə forması nədirsə, o da iqtisadi fəaliyyətin hüquqi vasitəsi hesab edilir. Deməli, iqtisadi fəaliyyətin hüquqi vasitəsi müqavilədir. Sözügedən institutun yerinə yetirdiyi əsas funksiya da məhz müqavilələri (müqavilə münasibətlərini) tənzimləməkdən ibarətdir.

İqtisadi fəaliyyətin hüquqi vasitəsi olan müqavilələr həm bank, ticarət, investisiya, nəqliyyat, sığorta, kommersiya, enerji, həm də digər sahələrdə bağlanılır. Məsələn, bank sferasında həyata keçirilən iqtisadi fəaliyyətin hüquqi vasitəsi bank müqavilələridir (bank hesabı müqaviləsi, kredit müqaviləsi, əmanət müqaviləsi və s.); sığorta sahəsində iqtisadi fəaliyyətin hüquqi vasitəsi qismində sığorta müqaviləsi çıxış edir; sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin hüquqi vasitəsi sahibkarlıq müqavilələri hesab olunur və s.

İqtisadi fəaliyyətin hüquqi vasitəsi ilə bağlı müəyyən ictimai münasibətlər yaranır ki, həmin münasibətləri tənzimləyən müvafiq hüquq normalarının sistemi iqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu adlanır.

**İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu** dedikdə hüquq normalarının elə məcmusu başa düşülür ki, bu normalar mal istehsalının, xidmət göstərilməsinin və ya iş görülməsinin hüquqi formasını müəyyənləşdirir və tənzimləyir. Həmin normalar iqtisadi hüququn ayrı-ayrı yarımsahələrinə (məsələn, bank hüququna, ticarət hüququna, sahibkarlıq hüququna və s.) tətbiq olunmaq xüsusiyyətinə malikdir. Axı unutmaq olmaz ki, iqtisadi fəaliyyətin bu və ya digər növünü (məsələn, bank fəaliyyətini, ticarət fəaliyyətini, sahibkarlıq fəaliyyətini və s.) həyata keçirməyin hüquqi vasitəsi vardır. Bu kimi hüquqi vasitələrlə bağlı münasibətlərə ümumi qaydada məhz sözügedən institutun normaları tətbiq olunur. Odur ki, həmin institut iqtisadi hüququn **ümumi hissəsinin institutu** hesab edilir. Qeyd etdiyi-

miz kimi, iqtisadi hüququn ümumi hissəsi bir neçə institutundan ibarətdir ki, bunlardan biri iqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu adlanır. Onun əsas funksiyası iqtisadi fəaliyyətin hüquqi vasitəsi ilə bağlı münasibətləri tənzimləməkdən ibarətdir.

### 7.1.2. Müqavilələr – iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsi kimi

İqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsi olan müqavilələr mal istehsalının, xidmət göstərilməsinin və ya iş görülməsinin hüquqi rəsmiləşdirmə forması kimi vacib rol oynayır. Məhz müqavilələr əsasında bank əməliyyatları aparılır, ayrı-ayrı nəqliyyat vasitələri ilə daşımalar həyata keçirilir, sığorta işləri görülür, ticarət fəaliyyəti realizə olunur və s. Bəs müqavilə dedikdə nə başa düşülür? Hər şeydən əvvəl, qeyd edək ki, sözügedən institut iqtisadi fəaliyyət subyektləri arasında bağlanan müqavilələri tənzimləyir. Odur ki, eyni zamanda onu **müqavilə hüquq institutu** kimi adlandırsaq, bu, ağlabatan olub, yerinə düşərdi.

Hüquq ədəbiyyatı səhifələrində müqaviləyə çoxaspektli anlayış kimi yanaşılır. Belə ki, müqavilə bir neçə mənada işlədilir. Birinci, müqavilə dedikdə **hüquq münasibəti** başa düşülür. Nəzərdən qaçırmaq olmaz ki, müqavilə bağlandığı hallarda onu bağlayan tərəflər arasında hüquq münasibəti əmələ gəlir. Məsələn, alqı-satqı müqaviləsi bağlananda alıcı və satıcı arasında alqı-satqı hüquq münasibəti yaranır; kredit müqaviləsi bağlananda bank və kredit alan şəxs arasında kredit-hüquq münasibəti əmələ gəlir və s. Tərəflər arasındakı bu kimi münasibətlər isə **müqavilə** ilə rəsmiləşdirilir.

İkinci mənada müqavilə dedikdə öhdəlik yaradan **hüquqi fakt** başa düşülür. Belə ki, müqavilə bağlanması faktı nəticəsində bu və ya digər öhdəlik əmələ gəlir. Məsələn, kredit müqaviləsi kredit öhdəliyinin yaranmasına səbəb olan hüquqi faktdır; sığorta müqaviləsi sığorta öhdəliyinin əmələ gəlməsinə gətirib çıxaran hüquqi fakt rolunu oynayır; nəqliyyat-daşıma mü-

qaviləsi daşıma öhdəliyinin yaranmasını şərtləndirən hüquqi faktdır və s. Öhdəlik dedikdə isə öhdəlik-hüquq münasibəti başa düşülür.[1] Deməli, müqavilə öhdəlik-hüquq münasibəti əmələ gətirən hüquqi faktdır.

Üçüncü mənada müqavilə dedikdə **sənəd** başa düşülür. Söhbət müqavilə sənədindən gedir ki, bu sənəddə öhdəliyin yaranma faktı qeyd edilir və əks olunur.[1]

Müqavilənin anlayışına gəldikdə, qeyd etmək lazımdır ki, müqavilə dedikdə iki və ya daha çox şəxsin (bir neçə şəxsin) hüquqi nəticəyə səbəb olan razılaşması (sazişi) başa düşülür. **Hüquqi nəticə** isə hüquq və vəzifələrin müəyyənləş-dirilməsi, dəyişdirilməsi və ya xitam edilməsidir. Deməli, əgər iki və ya bir neçə şəxsin razılaşması (sazişi) hüquq və vəzifələrin müəyyənləşdirilməsinə, dəyişdirilməsinə və ya xitam edilməsinə yönələrsə, belə razılaşma (saziş) müqavilə adlanır.

Müqavilənin bağlanması üçün iki və ya bir neçə tərəfin iradə ifadəsi tələb olunur. Əgər şəxslərin razılaşmasında iki tərəfin iradəsi ifadə olunarsa, belə razılaşma (saziş) ikitərəfli müqavilə adlanır. Əgər şəxslərin razılaşmasında bir neçə tərəfin iradəsi ifadə edilərsə, belə razılaşmaya çoxtərəfli müqavilə deyilir. Məsələn, bank və kredit alan şəxs arasında bağlanan kredit müqaviləsi ikitərəfli müqavilədir; yük sahibi və daşıyıcı arasında bağlanan daşıma müqaviləsi də ikitərəfli müqaviləyə misal ola bilər və s. Bankın təsis edilməsi barədə bir neçə şəxs arasında bağlanan saziş isə çoxtərəfli müqavilədir.

Müqavilələrin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Belə normaların sistemi müqavilə hüquq institutu adlanır ki, bu institut, qeyd etdiyimiz kimi, iqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu ilə eynimənalıdır. Müqavilə hüquq institutunun **nizamasalma predmetinə** gəldikdə, qeyd etmək vacibdir ki, müqavilə münasibətləri bu institutun nizamasalma predmetini təşkil edir. Bu institutun **prinsiplə-**

---

[1] *Öhdəliklər barədə daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. II nəşr. Bakı, 2009, s. 340.

[1] Иоффе О.С. Обязательственное право. М., 1975, с.26-27.

**ri** onun əsaslandığı əsas normativ xarakterli ideyalardır. **Müqavilə azadlığı** müqavilə hüququnun əsas prinsipidir. Bu prinsip öz ifadəsini iki formada tapır: birinci, iqtisadi fəaliyyət subyektləri sərbəst şəkildə öz aralarında müqavilələr bağlaya bilərlər; onlar müqavilə bağlamaqda azaddırlar; iqtisadi fəaliyyət subyektlərinə müqavilələr bağlanmasında məhdudiyyət qoyulmur. İkinci, iqtisadi fəaliyyət subyektləri bağladıqları müqavilələrin məzmununu kənar müdaxilə olmadan özləri müəyyənləşdirirlər.

**İqtisadi fəaliyyətə aid istənilən müqavilə bağlamaq** müqavilə hüququnun digər prinsipi sayılır. Əgər müqavilə iqtisadi fəaliyyətin həyata keçirilməsində hüquqi vasitə (forma) ola bilərsə, subyektlər öz aralarında belə müqaviləni bağlaya bilərlər; onlar, adətən, normativ hüquqi aktlarda nəzərdə tutulan və qanunvericiliklə tənzimlənən müqavilələr bağlayırlar. Bununla yanaşı, onların həm də normativ hüquqi aktlarda nəzərdə tutulmayan və qanunvericiliklə tənzimlənməyən müqavilələr bağlamalarına yol verilir.

**Qanunazidd müqavilələrin bağlanmasının qadağan edilməsi** müqavilə hüququnun prinsiplərindən biri hesab edilir. Bu prinsipə görə, qanunvericiliyi pozan və ona uyğun olmayan müqavilələrin bağlanmasına yol verilmir. Məsələn, iqtisadi fəaliyyət subyektləri haqsız rəqabətə və inhisarçılığa yönələn hər hansı müqavilə bağlaya bilməzlər; onlar yalnız qanuna zidd olmayan müqavilələr bağlaya bilərlər. Yaddan çıxarmamalıyıq ki, haqsız rəqabətə və inhisarçılığa yönələn iqtisadi fəaliyyətin özünə yol verilmir. Odur ki, bu cür iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsi olan və onu rəsmiləşdirən müqavilənin bağlanması qadağandır.

### 7.1.3. Müqavilə hüquq institutunun mənbələri

Müqavilə hüquq institutunun əsas mənbəyi ölkənin ali iqtisadi qanunu olan və dövlətin ikinci konstitusiyası (iqtisadi konstitusiya) sayılan **Mülki Məcəllədir**. Onun kifayət qədər müəyyənləşdirdiyi hüquq normaları müqavilə hüququna aiddir.

MM-in XX fəsli (389–424-cü maddələr) xüsusi olaraq müqavilə münasibətlərinin tənzimlənməsinə həsr edilmişdir. Müqavilə münasibətlərinə, əsasən, həmin fəsildə nəzərdə tutulan hüquq normaları tətbiq olunur; bu münasibətlərə həm də əqdlər və öhdəliklər barədə qaydalar şamil edilir. Axı müqavilə ikitərəfli əqd olub, öhdəliklərin yaranmasına səbəb olur. Odur ki, müqavilə münasibətlərinə MM-in əqdlər və öhdəliklər barədə müəyyənləşdirdiyi qaydalar da tətbiq edilir.

İqtisadi hüququn institutlarından biri olan müqavilə hüquq institutu üçün, sözsüz ki, iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsi olan müqavilələr əhəmiyyətlidir. MM-də belə müqavilələrin nəzərdə tutulmasına rast gəlinir. Buraya, ilk növbədə, ticarət fəaliyyətinin hüquqi rəsmiləşdirmə forması (vasitəsi) olan müqavilələr aiddir ki, bu fəaliyyət iqtisadi fəaliyyətin növlərindən biridir. Söhbət MM-də nəzərdə tutulan alqı-satqı, pərakəndə alqı-satqı və mal göndərmə kimi müqavilə konstruksiyalarından gedir. Alqı-satqı müqaviləsi malların əldə olunması ilə bağlı münasibətləri tənzimləyir. MM-in XXIX fəsli (567–613-cü maddələr) məhz bu münasibətlərin nizama salınmasına həsr edilmişdir; pərakəndə alqı-satqı müqaviləsi pərakəndə ticarət dövriyyəsini qaydaya salır ki, onun hüquqi tənzimlənməsi MM-in 614–625-ci maddələri vasitəsilə həyata keçirilir; malların göndərilməsinə dair müqavilə isə topdansatış ticarət dövriyyəsini nizamlayır ki, onun hüquqi tənzimlənməsinə aid normalar MM-in 627–645-ci maddələrində nəzərdə tutulmuşdur.

İqtisadi fəaliyyəti həyata keçirməyin hüquqi vasitəsi olan müqavilələrə həm də bank fəaliyyəti sahəsində bağlanan müqavilələr aiddir. Belə müqavilələrə, misal olaraq, kredit, bank hesabı, bank əmanəti, lizinq, faktorinq və digər müqavilələri göstərmək olar. Lizinq müqaviləsi MM-in 747–751-ci maddələri ilə tənzimlənir; faktorinq müqaviləsi MM-də nəzərdə tutulan 655–657-ci maddələr vasitəsilə nizama salınır; kredit müqaviləsinə borc müqaviləsi haqqında normalar tətbiq olunur ki, bu normlar MM-in 739–746-cı maddələrində təsbit edilmişdir; MM-in 943–953-cü maddələri bank əmanətinin hüquqi tənzim-

lənməsinə həsr olunmuşdur; bank hesabının hüquqi tənzimlənməsi MM-in 954–970-ci maddələri vasitəsi ilə həyata keçirilir.

MM-də həm də podrat, turist xidməti göstərilməsi haqqında, sığorta, daşıma və digər müqavilələri tənzimləyən hüquq normaları nəzərdə tutulmuşdur. Bu müqavilələr iqtisadi fəaliyyətin bu və ya digər növünün həyata keçirilməsinin hüquqi vasitəsidir. Məsələn, podrat müqaviləsi tikinti fəaliyyətinin həyata keçirilməsinin, daşıma müqaviləsi nəqliyyat xitməti göstərilməsinin, sığorta müqaviləsi sığorta işinin görülməsinin və s. hüquqi əsasıdır. Bu kimi müqavilələr öz məzmununa görə iqtisadi xarakterli müqavilə sayılır.

## 7.2. İqtisadi xarakterli müqavilələr

### 7.2.1. İqtisadi xarakterli müqavilələrin hüquqi təsnifi

İqtisadi xarakterli müqavilələrin hüquqi təsnifi dedikdə onların bu və ya digər meyara görə müxtəlif növlərə bölünməsi başa düşülür. Bu, iqtisadi xarakterli müqavilələrin ayrı-ayrı növlərinin müəyyənləşdirilməsinə və praktikada tətbiq edilməsinə imkan verir. Odur ki, iqtisadi xarakterli müqavilələrin təsnifatının həm nəzəri, həm praktiki əhəmiyyəti vardır.

**Məzmun** kimi meyara görə iqtisadi xarakterli müqavilələr üç növə bölünür: 1) mal istehsalına dair müqavilə; 2) xidmət göstərilməsi haqqında müqavilə; 3) iş görülməsi barədə müqavilə. **Mal istehsalına dair müqavilə** bazarda əmtəə kimi realizə olunan maddi nemətlərin hazırlanmasına yönəlir. Məsələn, mal göndərmə müqaviləsi bu növ müqaviləyə misal ola bilər. Bu müqavilə satıcının həm də öz istehsal etdiyi malların alıcıya göndərilməsi (satılması) ilə bağlı münasibətləri rəsmiləşdirir. **Xidmət göstərilməsi haqqında müqavilə** xüsusi əmtəə olan xidmət göstərilməsinə yönəlmişdir. Məsələn, daşıma, sığorta və bank əqdləri (müqavilələri) bu növ müqaviləyə aiddir. **İş görülməsi barədə müqavilə** isə iş görülməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsidir. Məsələn, podrat müqaviləsi tikinti-təmir fəaliyyətinin hüquqi rəsmiləşdirilmə formasıdır.

**Hüquqi nəticə** kimi meyara görə iqtisadi xarakterli müqavilələrin üç növü fərqləndirilir: 1) hüquq və vəzifələr müəyyənləşdirən müqavilə; 2) hüquq və vəzifələri dəyişdirən müqavilə; 3) hüquq və vəzifələrə xitam verən müqavilə. **Birinci növ müqavilənin** hüquqi nəticəsi hüquq və vəzifələri müəyyənləşdirməkdən ibarətdir; **ikinci növ müqavilə** hüquq və vəzifələrin dəyişdirilməsi ilə nəticələnir; **üçüncü növ müqavilə** isə hüquq və vəzifələrin xitam edilməsinə səbəb olur.

**Tərəflərin sayı** kimi meyara görə iqtisadi xarakterli müqavilələr iki növə bölünür: 1) ikitərəfli müqavilələr; 2) çoxtərəfli müqavilələr. **İkitərəfli müqavilədə** iki tərəfin iradəsi ifadə olunur; bu növ müqavilənin bağlanmasında iki tərəf iştirak edir. Məsələn, sığorta, faktorinq, bank əmanəti və digər müqavilələr ikitərəfli müqaviləyə misal ola bilər. **Çoxtərəfli müqavilədə** ikidən artıq, yəni bir neçə tərəfin iradəsi ifadə olunur. Məsələn, iqtisadi xarakterli müqavilələrdən biri olan lizinq müqaviləsinin bağlanmasında lizinq verən, lizinq alan və satıcı (malgöndərən) iştirak edərsə, belə müqavilə üçtərəfli müqavilə hesab edilir. Qanun üçtərəfli lizinq müqaviləsinin bağlanmasına yol verir (MM-in 747-5-ci maddəsinin 1-ci hissəsi).

**İqtisadi fəaliyyətin hansı sahəsində bağlanması** kimi meyara görə iqtisadi xarakterli müqavilənin aşağıdakı növləri fərqləndirilir: 1) bank müqaviləsi; 2) ticarət müqaviləsi; 3) sahibkarlıq müqaviləsi; 4) sığorta müqaviləsi; 5) kommersiya müqaviləsi; 6) nəqliyyat müqaviləsi; 7) investisiya müqaviləsi; 8) turist xidməti göstərilməsi haqqında müqavilə və s.

**Bank müqaviləsi** bank sferasında bağlanan mülki-hüquqi müqaviləyə deyilir.[1] Məsələn, kredit, bank hesabı, bank əmanəti və s. bank müqavilələrinə (bank əqdlərinə) aid edilir. **Ticarət müqaviləsi** ticarət sferasında bağlanan müqavilədir. Məsələn, malların alqı-satqı müqaviləsi və ya ticarət nümayəndəsi haqqında müqavilə ticarət müqaviləsinə misaldır. **Sahibkarlıq müqaviləsi** sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin hü-

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. II том / Отв.ред. Е.А.Васильев, А.С.Комаров. М., 2005, с. 275.

quqi rəsmiləşdirmə formasıdır. Məsələn, pərakəndə alqı-satqı və malgöndərmə müqavilələri sahibkarlıq müqaviləsi kimi tanınır.[1] Pərakəndə alqı-satqı müqaviləsi pərakəndə ticarət, malgöndərmə müqaviləsi isə topdansatış ticarət dövriyyəsinin hüquqi vasitəsidir. Odur ki, onlar həm də ticarət müqaviləsi hesab edilir. **Sığorta müqaviləsi** sığorta sahəsində iqtisadi fəaliyyətə dair bağlanan sazişdir. **Kommersiya müqaviləsi** kommersiya münasibətlərini rəsmiləşdirən müqavilədir. Məsələn, kommersiya təmsilçiliyi haqqında və kommersiya konsessiyasına dair müqavilə bu növ müqaviləyə misaldır. **Nəqliyyat müqaviləsi** daşıma fəaliyyətini həyata keçirməyin hüquqi tənzimləyicisidir.[2] Daşımalar isə bu və ya digər növ nəqliyyat vasitəsinin köməyi ilə həyata keçirilir. İnvestisiya fəaliyyətini rəsmiləşdirən hüquqi sənəd **investisiya müqaviləsi** adlanır. Turist xidmətlərinin göstərilməsi də müqavilə ilə rəsmiləşdirilir; söhbət **turist xidməti göstərilməsi haqqında müqavilədən** gedir. Bu sırada iqtisadi fəaliyyətin digər sahələrində bağlanan müqavilələri də fərqləndirmək mümkündür.

### 7.2.2. İqtisadi xarakterli müqavilələrin ayrı-ayrı növlərinin qısa xarakteristikası

İqtisadi xarakterli müqavilə olan **alqı-satqı müqaviləsi** ticarət fəaliyyətinin həyata keçirilməsinin hüquqi vasitəsidir; bu müqaviləyə əsasən və onun vasitəsilə alqı-satqı əməliyyatı aparılır. Alqı-satqı müqaviləsinə görə, satıcı malı alıcının mülkiyyətinə verməyi, alıcı isə malı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (malın dəyərini) ödəməyi öhdəsinə götürür. Odur ki, alqı-satqı müqaviləsi **əvəzli müqavilədir.** Onun bağlanmasında iki tərəf iştirak edir; buna görə alqı-satqı

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. II nəşr. Bakı, 2009, s.426.

[2] *Məsələn, bax:* Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı, 2005, 336 s.; Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 151.

müqaviləsi **ikitərəfli** müqavilədir. Müqavilə həm **şifahi**, həm də **yazılı formada** bağlana bilər.

İqtisadi xarakterli müqavilələrdən biri **pərakəndə alqı-satqı müqaviləsidir** ki, bu müqavilə pərakəndə ticarət fəaliyyətini tənzimləyir. Həmin müqaviləyə görə, malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi, ailə, ev və ya digər sferalarda istifadə üçün nəzərdə tutulan malı alıcıya verməyi öhdəsinə götürür. Müqavilənin bağlanmasında satıcı qismində malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs çıxış edir. Bu səbəbdən pərakəndə alqı-satqı müqaviləsi **sahibkarlıq müqaviləsi** hesab olunur; həmin müqavilə **əvəzli və ikitərəfli müqavilədir**.

İqtisadi xarakterli müqaviələr sırasına həm də **malgöndərmə müqaviləsi** aiddir. Bu müqaviləyə görə, sahibkarlıq fəaliyyətini həyata keçirən satıcı (malgöndərən) istehsal etdiyi və ya satın aldığı malları sahibkarlıq fəaliyyəti ilə və ya şəxsi, ailə, ev və digər bu cür istifadə ilə bağlı olmadan başqa məqsədlər üçün istifadə edilməkdən ötrü alıcıya verməyi öhdəsinə götürür. Bu müqavilədə də satıcı (malgöndərən) qismində sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs çıxış edir. Odur ki, malgöndərmə müqaviləsi **sahibkarlıq müqaviləsi** hesab olunur. Pərakəndə alqı-satqı müqaviləsindən fərqli olaraq, o, topdansatış ticarət fəaliyyətini tənzimləyir; müqavilə həm **əvəzli**, həm də **ikitərəflidir**.

İqtisadi xarakterli müqavilələrdən digəri **faktorinq müqaviləsidir**. Bu müqaviləyə görə, bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən (göndərməsindən, satmasından), işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir, müştəri isə üçüncü şəxsdən pul tələb etmək hüququnu faktora verir. Həmin müqavilə faktorinq əməliyyatını rəsmiləşdirir ki, bu əməliyyatda üç subyekt iştirak edir: 1) kreditor; 2) borclu; 3) faktor. **Kreditor** borcluya mal göndərən (satan), xidmət göstərən və ya iş görən şəxsdir. Misal üçün, istehsal müəssisəsi özünün

hazırladığı (istehsal etdiyi) malı alıcıya göndərir (satır). Mal göndərilməsindən (satılmasından) həmin müəssisə borcludan müəyyən məbləğdə (məsələn, on min manat) pul tələb etmək hüququ əldə edir. Odur ki, müəssisə kreditor, alıcı isə borclu hesab olunur. Tərəflər həmin pul məbləğinin bir ildən sonra ödənilməsi barədə razılığa gəlirlər. **Borclu** o şəxsdir ki, onun üzərinə kreditora müəyyən məbləğdə pul ödəmək öhdəliyi düşür. Borclu üçüncü şəxs adlanır. **Faktor** isə kreditora (müştəriyə) kredit kimi pul vəsaiti verən və onu maliyyələşdirən şəxsdir. Faktor qismində isə çox vaxt banklar çıxış edir. Belə ki, faktor rolunda çıxış edən bank kreditora, məsələn, on min manat məbləğində pul vəsaiti (kredit vəsaiti) verir; bunun əvəzində isə borcludan on min manat məbləğində pulu tələb etmək hüququnu banka verir. Məhz bu cür əməliyyatın aparılması faktorinq müqaviləsi ilə rəsmiləşdirilir. Faktorinq müqaviləsi **yazılı formada** bağlanır. Bu, **əvəzli** və **ikitərəfli müqavilədir**. Faktorinq müqaviləsi ona görə ikitərəfli müqavilə sayılır ki, bu müqavilənin bağlanmasında iki tərəf iştirak edir (faktor və müştəri). Faktor müştəriyə haqq müqabilində pul vəsaiti verir. Odur ki, faktorinq müqaviləsi əvəzli müqavilədir.

**Lizinq müqaviləsi** də həmçinin iqtisadi xarakterli müqavilədir. Bu müqaviləyə görə, bir tərəf (lizinq verən) bu və ya digər əmlakı müəyyənləşdirilmiş haqq müqabilində lizinq alanın istifadəsinə verir. Əgər lizinq müqaviləsində nəzərədə tutularsa, istifadə müddəti başa çatdıqda lizinq alan əmlakı satın ala bilər. Bu müqavilənin bağlanmasında iki tərəf iştirak edir: 1) lizinq verən; 2) lizinq alan.

Lizinq müqaviləsi **ikitərəfli müqavilədir**. Bununla yanaşı, lizinq müqaviləsi **üçtərəfli müqavilə** formasında da bağlana bilər. Bu zaman müqavilənin bağlanmasında üç tərəf (lizinq verən, lizinq alan və satıcı) iştirak edir. Lizinq verən satın aldığı əmlakı lizinq alanın istifadəsinə verir; o, əmlakı satıcıdan əldə edir (alır). Lizinq verən rolunda həm lizinq şirkətləri, həm də banklar çıxış edirlər. Lizinq alan əmlakın istifadəçisi olan şəxsdir. Lizinq haqqını ödədikdən sonra əmlak onun mülkiyyətinə keçir. Satıcı əmlakı realizə edən (satan) şəxsdir. Lizinq verən

onu məhz satıcıdan alaraq lizinq alanın istifadəsinə verir. Lizinq verən, lizinq alan və satıcı (malgöndərən) lizinq müqaviləsinin subyektləridir. **Yazılı formada** bağlanan həmin müqavilə **əvəzli müqavilədir**.

**Sığorta müqaviləsinə** görə, bir tərəf (sığortaçı) digər tərəfin (sığortalının) müvafiq sığorta haqqı müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin sığorta hadisəsi baş verdikdə ödənilməsini öhdəsinə götürür. Bu müqavilə həm **əvəzli**, həm də **ikitərəflidir;** onun əsas funksiyası sığorta işini tənzimləməkdən ibarətdir.

**Bank əmanəti müqaviləsi** bank və əmanətçi arasında bağlanır. Bu müqaviləyə görə, bank əmanətçidən müəyyən məbləğdə pulu (əmanəti) qəbul edərək, onu qaytarmağı və əmanət üçün faizlər ödəməyi öhdəsinə götürür. Bu müqavilə **əvəzli** və **ikitərəflidir**. Əmanətçinin banka əmanət qoyması bank kitabçası ilə təsdiq olunur (MM, maddə 953).[1] Bank əmanəti müqaviləsi **yazılı formada** bağlanılır.

**Bank hesabı müqaviləsi** bank və hesab sahibi (müştəri) arasında bağlanılır. Bu müqaviləyə görə, bank müştəriyə açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür. Müqavilə **əvəzli** və **ikitərəflidir;** o, **yazılı formada** bağlanır.[2]

**Sahibkarlıq müqaviləsi** iqtisadi xarakterli müqavilənin ayrıca növüdür. Düzdür, qanunvericilikdə nə sahibkarlıq müqaviləsi termini işlədilir, nə də ona normativ (leqal) anlayış verilir. Lakin qanunvericilik aktlarından biri olan MM-də «sahibkarlıq fəaliyyəti sahəsində müqavilələr» anlayışından istifadə olunmasına rast gəlinir (MM-in 361-ci maddəsinin 1-ci hissəsi). Sahib-

---

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir -B.C.Kərimli. Bakı, 2016, s.521.

[2] *Daha ətraflı:* Брагинский М.И., Витрянский В.В. Договорное право. Книга пятая. Том 2. М., 2006, 623 с.

karlıq fəaliyyəti sahəsində müqavilələr dedikdə məhz sahibkarlıq müqavilələri başa düşülür. Hesab edirik ki, onlar eynimənalı və məzmunca üst-üstə düşən anlayışlardır; sahibkarlıq müqavilələri, sadəcə olaraq, daha qısaldılmış və yığcam anlayışdır.

Xarici ölkələrin (məsələn, Fransa, Yaponiya, Rusiya Federasiyası və s.) qanunvericiliyinə görə, sahibkarlıq müqaviləsinin **tərəflərindən biri sahibkarlıq fəaliyyəti ilə məşğul olmalıdır**. Bu baxımdan, bizim qanunvericilikdə nəzərdə tutulan pərakəndə alqı-satqı müqaviləsi sahibkarlıq müqaviləsi hesab edilir (MM-in 614-cü maddəsi). Belə ki, həmin müqavilənin tərəflərindən biri olan satıcı sahibkarlıq fəaliyyətini həyata keçirən şəxsdir.

Sahibkarlıq müqaviləsi həm də elə müqavilədir ki, onun predmeti olan əmlak **sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində istifadə olunmaq məqsədinə xidmət edir**. Başqa sözlə, əgər müqavilənin predmeti olan əmlak sahibkarlıq fəaliyyətində istifadə olunmaqdan ötrü nəzərdə tutularsa, belə müqavilə sahibkarlıq müqaviləsi hesab edilir. Bu nöqteyi-nəzərdən malgöndərmə müqaviləsi sahibkarlıq müqaviləsi hesab edilir (MM-in 627-ci maddəsi). Belə ki, malgöndərmə müqaviləsinin predmeti olan mal sahibkarlıq fəaliyyəti ilə bağlı olan məqsədlər üçün istifadə olunmaqdan ötrüdür.[1]

Qanunvericilikdə həm də «ticarət əqdləri» kimi termin işlədilir. **Ticarət əqdləri** dedikdə məhz sahibkarlıq müqavilələri başa düşülür.

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1/ Отв.ред. О.М.Олейник. М., 1999, с. 418.

# VII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *VIII FƏSİL.*
# DÖVLƏT ƏMLAKINI ÖZƏLLƏŞDİRMƏ HÜQUQU

## 8.1. Dövlət əmlakını özəlləşdirmə hüququ – iqtisadi hüququn institutu kimi
### 8.1.1. Dövlət əmlakını özəlləşdirmə hüququ anlayışı

İqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsi bir sıra vacib məsələ ilə sıx surətdə bağlıdır; iqtisadiyyat sahəsində dövlətin hansı rol oynaması həmin məsələlərdən biridir. İnzibatçılığa əsaslanan komanda iqtisadiyyatı ölkələrində (məsələn, keçmiş SSRİ-də və s.) avtoritar-bürokratik rejimli dövlətlərin iqtisadiyyat sahəsində rolu həddən ziyadə böyükdür. Total dövlət mülkiyyətinin mövcud olduğu həmin ölkələrdə dövlət ictimai həyatda inhisarçı mövqe tutur. Avtoritar-bürokratik ölkələrdə ictimai istehsal iqtisadi proseslərə nüfuz edən dövlət inhisarı vasitəsilə idarə olunur (dövlət planlaşdırmasının direktiv xarakterə malik olması, qiymətqoymaya dövlət inhisarı, maddi-texniki resursların və xalq təsərrüfatı mallarının bölüşdürülməsinə dövlət inhisarı, xarici ticarətə dövlət inhisarı, dövlət tərəfindən yalnız yaxın və uzunmüddətli məqsədlər üçün iqtisadi inkişaf proqramlarının müəyyən edilməsi və s.).

Düzdür, müasir dünyada elə bir dövlət tapmaq olmaz ki, həmin dövlət təsərrüfat fəaliyyəti ilə məşğul olmasın. Bazar iqtisadiyyatının mövcud olduğu inkişaf etmiş ölkələrdə dövlət tərəfindən valyuta ümumdaxili milli məhsulun ya 33 faizi (məsələn, ABŞ, Yaponiya), ya da 50 faizi (İsveç) miqdarında yığılır və bölüşdürülür. Qərb ölkələrində dövlətin əsas fondlardakı payı 7 faizdən 33 faizə qədərdir.[1]

Lakin bazar iqtisadiyyatının mövcud olmadığı avtoritar-bürokratik ölkələrdə təsərrüfat idarəetmə funksiyalarının əksəriyyətini dövlət yerinə yetirir. Odur ki, bu kimi ölkələrdə dövlət iqtisadiyyat sahəsində son dərəcə böyük rol oynayır.

---

[1] URL:http://www.istina.msu.ru (07.06.2017-ci il).

Bazar iqtisadiyyatına keçid prosesi xalq təsərrüfatının inhisarsızlaşdırılmasını, rəqabət mühitinin yaradılmasını və onun inkişafını, istehsalçının mülkiyyətə yaxınlaşdırılmasına imkan verən bazar strukturlarının formalaşdırılmasını, dövlət müəssisələrinin müstəsna mövqeyinin (inhisarçı vəziyyətinin) tədricən aradan qaldırılmasını, mülkiyyət münasibətlərinin dəyişdirilməsini və yeni mülkiyyət növlərinin (formalarının) və digər məsələlərin həll olunmasını obyektiv zərurətə çevirir, tələb edir. Belə məsələləri həll etməkdən ötrü dövlət mülkiyyətinin dəyişdirilməsinə və onun başqa formaya salınmasına yönələn tədbirlər görülür. Belə tədbirlər sistemi dövlətsizləşdirmə adlanır.

**Dövlətsizləşdirmə** dedikdə dövlət mülkiyyətinin dəyişdirilməsinə və onun başqa formaya salınmasına yönələn elə tədbirlər (tədbirlər sistemi) başa düşülür ki, bu tədbirlərin həyata keçirilməsi nəticəsində dövlətin iqtisadiyyatda son dərəcə böyük rol oynaması aradan qaldırılır. Lakin dövlətsizləşdirmə heç də dövlətin iqtisadiyyat sferasından, necə deyərlər, tam çəkilib getməsi demək deyildir. Dövlətsizləşdirmə yalnız bir çox təsərrüfat idarəetmə funksiyalarının dövlətin üzərindən götürülməsi, idarəçilik səlahiyyətlərinin dövlət tərəfindən qeyri-dövlət (özəl) müəssisələrə (təsərrüfat subyektlərinə) verilməsidir.

Müasir istehsal iqtisadiyyatın dövlət tənzimlənməsi olmadan nə mövcud ola, nə də inkişaf edə bilər. Lakin, unutmaq olmaz ki, iqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsi yalnız müəyyən hədlərdə effektiv olur; əgər həmin hədlər pozularsa ictimai istehsalın effektivliyi azalır. Dövlətsizləşdirmə kimi tədbir də məhz ona görə həyata keçirilir ki, iqtisadiyyatın dövlət tənzimlənməsinin effektivliyini şərtləndirən və təmin edən hədlər pozulmasın. Odur ki, bu gün dövlətsizləşdirmə ümumdünya xarakteri almaqdadır. Belə ki, dünya dövlətlərinin böyük əksəriyyəti dövlətsizləşdirmə kimi tədbir həyata keçirir. Bu isə təsadüfi xarakter daşımır. Axı dövlətsizləşdirmə inhisarçılığın aradan qaldırılmasına, rəqabətin və iqtisadi fəaliyyətin əsas növü olan sahibkarlığın inkişaf etdirilməsinə yönələn tədbirdir. Bu, bazar iqtisadiyyatına keçməyin əsas və başlıca problemidir.

Dövlətsizləşdirmə bir neçə istiqamətdə həyata keçirilir. Bu istiqamətlərdən biri özəlləşdirmə adlanır. Özəlləşdirmə sosial-iqtisadi və siyasi proseslər içərisində xüsusi yer tutur; onun mahiyyəti dövlət əmlakının publik mülkiyyətdən xüsusi mülkiyyətə verilməsindən ibarətdir.[1] Özəlləşdirmənin hərfi mənasına gəldikdə isə, qeyd etmək lazımdır ki, o, iqtisadi ədəbiyyat səhifələrində «privatlaşdırma» adlanır.[2] «Privatlaşdırma» latınca «priratus» sözündən olub, xüsusi, şəxsi və fərdi mənalarını bildirir. Həmin anlayış Qədim Roma termini olan «priratum» ilə ifadə edilir.

**Özəlləşdirmə** dedikdə mülkiyyətin dövlətsizləşdirilməsinin istiqamətlərindən biri başa düşülür ki, onun əsasında dövlət əmlakı (publik mülkiyyətdə olan əmlak) ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilir. Odur ki, özəlləşdirmə, mahiyyətcə, dövlət əmlakının özgəninkiləşdirilməsi, xüsusi mülkiyyətə keçməsi prosesidir. Qeyd etməliyik ki, özəlləşdirmə yalnız dövlət mülkiyyətində olan əmlaka şamil olunur. Qanunda deyilir ki, dövlət mülkiyyətində olan əmlak özəlləşdirmə haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir (MM-in 203-cü maddəsinin 4-cü bəndi).

Təbii ki, özəlləşdirmənin həyata keçirilməsi ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, onlar özəlləşdirmə münasibətləri adlanır. Həmin münasibətlər, əlbəttə, hüquqi tənzimlənməyi tələb edir; onların hüquqi tənzimlənməsi isə müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Məhz belə normaların sistemi dövlət əmlakını özəlləşdirmə hüququ (və ya sadəcə olaraq – özəlləşdirmə hüququ) adlanır.

**Dövlət əmlakını özəlləşdirmə hüququ** dedikdə dövlət mülkiyyətində olan əmlakın ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilməsi ilə bağlı yaranan ictimai münasi-

---

[1] Предпринимательское право. Серия «Учебники и учебные пособия» / Отв. ред. С.А.Зимченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.153.

[2] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 146.

bətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Həm belə münasibətlərin (özəlləşdirmə münasibətlərinin) mövcud olması, həm də həmin münasibətlərin qrup halında birləşən ayrı-ayrı hüquq normaları vasitəsi ilə tənzimlənməsi elə meyardır ki, bu meyarlara görə dövlət əmlakının özəlləşdirilməsi hüququ öz növbəsində iqtisadi hüququn institutu kimi tanınır; özü də bu institut iqtisadi hüququn **ümumi hissəsinin institutu** hesab edilir. Nəzərə almaq lazımdır ki, özəlləşdirmənin əsas subyekti dövlətdir. Dövlət isə iqtisadi hüququn subyektlərindən biridir ki, onunla bağlı olan hüquq normaları iqtisadi hüququn ümumi hissəsinə daxildir. Odur ki, özəlləşdirmə hüququ iqtisadi hüququn ümumi hissəsinin institutu kimi sayılır.

Özəlləşdirmə hüququ həm də mülki hüquq sahəsinin anlayışıdır. Belə ki, mülki-hüquqi anlayış mənasında özəlləşdirmə mülkiyyət hüququna xitam verilməsi üsullarından biridir. Bu üsul əsasında dövlətin mülkiyyət hüququna xitam verilir, ayrı-ayrı fiziki və hüquqi şəxslər isə mülkiyyət hüququ əldə edirlər.[1]

İqtisadi hüququn institutu kimi özəlləşdirmə hüququnun tanınması həqiqətə uyğun və inandırıcı olub, heç də təsadüfi-süni xarakter daşımır. Belə ki, mülkiyyət hüquqi mənadan başqa, həm də iqtisadi kateqoriya kimi tanınır. İqtisadi kateqoriya kimi (iqtisadi mənada) mülkiyyət dedikdə mülkiyyət formalı iqtisadi münasibətlər başa düşülür. Mülkiyyət formalı iqtisadi münasibətlər isə istənilən iqtisadi sistemin əsasını təşkil edir. İqtisadi sistem nemətlərin istehsalçı və istehlakçıları arasında yaranan münasibətləri xüsusi qaydada nizamlama sistemidir. Mülkiyyətin iqtisadi kateqoriya olmasına və onun iqtisadi sistemin əsası sayılmasına görə dövlət əmlakını özəlləşdirmə hüququ iqtisadi hüququn institutu hesab olunur. Özəlləşdirmə mülkiyyət hüququna xitam verilməsi üsulu kimi çıxış etdiyi halda isə o, mülki hüququn anlayışı kimi tanınır. Əvvəllərdə qeyd etdiyimiz kimi,

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. II nəşr. Bakı, 2009, s.101, 188 s.

mülkiyyət həm də hüquqi mənada işlədilir. Hüquqi mənada mülkiyyət dedikdə mülkiyyət hüququ başa düşülür.

### 8.1.2. Özəlləşdirmə hüququnun nizamasalma predmeti

Özəlləşdirmə hüququnun **nizamasalma predmetini** dövlət mülkiyyətində olan əmlakın əvəzli qaydada xüsusi mülkiyyətə keçməsi ilə bağlı yaranan iqtisadi münasibətlər təşkil edir. Belə münasibətlərin əmələ gəlməsi keçən yüzilliyin 90-cı illərinin əvvəllərinə təsadüf edir. Təbii ki, həmin dövrə kimi sözügedən münasibətlər nə yarana, nə də mövcud ola bilərdi; çünki o zamanlarda özəlləşdirmə münasibətlərinin əmələ gəlməsindən söhbət gedə bilməzdi. Bu onunla bağlı idi ki, dövlətsizləşdirmə prosesi olan özəlləşdirmənin özünün həyata keçirilməsinə sovet quruluşu və sosialist təsərrüfat sistemi icazə vermirdi. Bildiyimiz kimi, keçmiş SSRİ-nin təsərrüfat sistemi inzibati-komanda iqtisadiyyatı tipinə əsaslanırdı. SSRİ-də ölkə əmlakının mütləq dərəcədə böyük hissəsi dövlətin əlində cəmlənmişdi. Başqa sözlə, keçmiş SSRİ-də total dövlət mülkiyyəti mövcud idi. Xalq təsərrüfatı, əsasən, komanda-direktiv (əmr) metodları ilə idarə olunurdu; nə rəqabət mühiti, nə də investisiya aktivliyi mövcud idi. İctimai istehsal inzibati-komanda sisteminə əsaslanırdı. Bazar iqtisadiyyatının formalaşmasından söhbət gedə bilməzdi, çünki sovet iqtisadiyyatı əmrə əsaslanan komanda tipində təşkil olunmuşdu. Bütün bunlar XX əsrin 90-cı illərinin əvvəllərində sovet iqtisadiyyatında dərin struktur böhrana səbəb oldu. Nəticədə sovet quruluşundan və sosialist təsərrüfat sistemindən imtina olundu. İqtisadiyyatın (xalq təsərrüfatının) inzibati-komanda metodları ilə idarə olunmasına son qoyuldu. Bazar münasibətlərinə əsaslanan iqtisadiyyat, yəni bazar iqtisadiyyatı formalaşmağa başladı. Köklü ictimai-iqtisadi dəyişikliklər həyata keçirildi. Bütün sahələrdə, o cümlədən iqtisadi sferada islahatlar aparıldı. Xüsusi mülkiyyət növünə icazə verildi; total dövlət mülkiyyəti prinsipi öz əhəmiyyətini itirməyə başladı.

Keçmiş SSRİ-nin tərkibinə daxil olan ölkələrdə (postsovet ölkələrində), o cümlədən Azərbaycan Respublikasında özəlləş-

dirmə həyata keçirilməyə başladı. Sovet iqtisadiyyatının məruz qaldığı və düçar olduğu dərin struktur böhran özəlləşdirmənin həyata keçirilməsini mütləq və labüd prosesə çevirdi. Nəticədə Azərbaycan Respublikasında 1993-cü ildə «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Qanun qəbul edildi. Həmin qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında özəlləşdirmə həyata keçirilməyə başladı ki, bu da öz növbəsində özəlləşdirmə münasibətlərinin yaranmasına gətirib çıxardı. Belə münasibətlərin əmələ gəlməsi nəticəsində dövlətə məxsus olan əmlak xüsusi mülkiyyətə keçir. Özəlləşdirmə münasibətlərinin yaranması praktikası İngiltərə, Fransa, Almaniya, Yaponiya və digər xarici dövlətlərə də məlumdur; həm də bu dövlətlərdə həyata keçirilən özəlləşdirmə uzunmüddətli proses olmuşdur. Məsələn, Yaponiyada özəlləşdirmə 10 il, Qərbi Avropada 10 – 15 il müddətinə həyata keçirilmişdir.

Özəlləşdirmə münasibətləri dövlət əmlakını özəlləşdirmə hüquq institutu vasitəsilə tənzimlənir. Bu institutun əsas və başlıca funksiyası da məhz özəlləşdirmə münasibətlərini nizamlamaqdan ibarətdir; həmin münasibətlər onunla (özəlləşdirmə hüquq institutuna daxil olan hüquq normaları ilə) tənzimləndikdə özəlləşdirmə-hüquq münasibətləri kimi hüquqi forma alır. Buna görə də **özəlləşdirmə-hüquq münasibətləri** dedikdə hüquq normaları ilə tənzimlənən iqtisadi münasibətlər başa düşülür. **Özəlləşdirmə münasibətləri** isə odur ki, bu münasibətlərə görə dövlət mülkiyyətində olan əmlak ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə keçir.

Özəlləşdirmə-hüquq münasibəti iqtisadi hüquqla tənzimlənən iqtisadi münasibətlərin bir növüdür. Odur ki, özəlləşdirmə-hüquq münasibəti daxili quruluşa malik olub, üç elementdən ibarətdir: 1) subyektlər; 2) məzmun; 3) obyekt.

**Özəlləşdirmə-hüquq münasibətinin subyektləri** dedikdə həmin münasibətdə iştirak edən tərəflər (iştirakçılar) başa düşülür. Təbii ki, həmin hüquq münasibətində iki tərəf iştirak edir: 1) dövlət əmlakının satıcısı; 2) dövlət əmlakının alıcısı.

**Dövlət əmlakının satıcısı** dedikdə dövlət (Azərbaycan Respublikası) başa düşülür. Düzdür, dövlət əmlakının satıcısı qismində bilavasitə dövlətin özü çıxış etmir. Dövlətin əvəzinə satıcı rolunda onun səlahiyyətli orqanı – **Əmlak Məsələləri Dövlət Komitəsi** iştirak edir.

**Dövlət əmlakının alıcısı** dedikdə dövlət mülkiyyətində olan obyektlərə (əmlaka) xüsusi mülkiyyət hüququ əldə edən şəxslər başa düşülür. Axı özəlləşdirmə dövlət əmlakının ayrı-ayrı şəxslərin xüsusi mülkiyyətinə verilməsi və keçməsidir. Özəlləşdirmə nəticəsində dövlət əmlakı hansı şəxslərə verilir və keçirsə, o şəxslər də dövlət əmlakının alıcısı hesab edilir. Söhbət, hər şeydən əvvəl, fiziki şəxslərdən gedir. **Fiziki şəxlər** dedikdə isə həm Azərbaycan Respublikasının vətəndaşları, həm əcnəbilər (xarici ölkə vətəndaşları), həm də vətəndaşlığı olmayan şəxslər başa düşülür.

Dövlət əmlakının alıcısı qismində həm də **hüquqi şəxslər** çıxış edə bilər. Yaddan çıxarmamalıyıq ki, özəlləşdirmə prosesinin mahiyyəti dövlət mülkiyyətində olan əmlakın həm fiziki, həm də hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilməsi və keçməsidir. Hüquqi şəxslərə, ilk növbədə, milli hüquqi şəxslər aiddir. Milli hüquqi şəxslər dedikdə Azərbaycan Respublikasında qeydiyyata alınan bütün hüquqi şəxslər başa düşülür.

Hüquqi şəxslərə həm də xarici hüquqi şəxslər aiddir. «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu xarici hüquqi şəxslərin dövlət əmlakının alıcısı olmasına icazə verir (maddə 9). Lakin həmin qanun bəzi hüquqi şəxslərin dövlət əmlakının alıcısı olmasına yol vermir. Söhbət səhmlərin və ya nizamnamə fondundakı payın 20 faizindən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslərdən gedir. Bundan əlavə, sözügedən qanuna görə, həm icra hakimiyyəti orqanları, həm də bələdiyyə qurumları dövlət əmlakının alıcısı ola bilməzlər.

Həm dövlət əmlakının satıcısı, həm də dövlət əmlakının alıcısı özəlləşdirmə-hüquq münasibətinin real (faktiki) iştirakçılarıdır. Odur ki, onlar özəlləşdirmə-hüquq münasibətinin sub-

yektləri hesab edilirlər. Özəlləşdirmə-hüquq münasibətinin potensial (mümkün) iştirakçıları isə **dövlət əmlakını özəlləşdirmə hüququnun subyektləri** adlanır. Odur ki, həm dövlət, həm fiziki şəxslər, həm də hüquqi şəxslər dövlət əmlakını özəlləşdirmə hüququnun subyektləridir; onun əsas və başlıca subyekti dövlət sayılır. Axı özəlləşdirilən dövlət əmlakının mülkiyyətçisi dövlətdir. Özəlləşdirmə prosesi məhz dövlətin bilavasitə iradə və istəyi əsasında həyata keçirilir.

Dövlət əmlakını özəlləşdirmə hüququnun subyektləri dedikdə dövlət əmlakının özəlləşdirilməsinin subyektləri başa düşülür. Dövlət əmlakının özəlləşdirilməsinin subyektləri isə dövlət əmlakının satıcısandan və alıcısından ibarətdir. Odur ki, «dövlət əmlakını özəlləşdirmə hüququnun subyektləri» və «dövlət əmlakının özəlləşdirilməsi subyektləri» məzmunca üst-üstə düşən eynimənalı anlayışlardır.

**Özəlləşdirmə-hüquq münasibətinin məzmunu** dedikdə bu münasibətdə iştirak edən tərəflərin qarşılıqlı hüquq və vəzifələri başa düşülür. Dövlət əmlakını alıcının (dövlət əmlakının alıcısının) xüsusi mülkiyyətinə vermək satıcının (dövlət əmlakının satıcısının) əsas vəzifəsidir. Alıcının (dövlət əmlakının alıcısının) isə üzərinə əldə etdiyi dövlət əmlakının əvəzini (qiymətini) ödəmək vəzifəsi düşür. Tərəflər həmçinin bu vəzifələrə uyğun müvafiq hüquqlara malikdirlər.

**Özəlləşdirmə-hüquq münasibətinin obyekti** dedikdə özəlləşdirilən dövlət əmlakı başa düşülür. Nəzərdən qaçırmaq olmaz ki, nə özəlləşdirilirsə, o da özəlləşdirmə-hüquq münasibətinin obyekti sayılır. «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakılar özəlləşdirmə-hüquq münasibətinin obyekti (özəlləşdirmə obyekti) ola bilər: 1) Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan əmlak; 2) dövlətin müştərək müəssisələrin nizamnamə fondundakı payı; 3) dövlətə məxsus səhmlər; 4) özəlləşdirilən müəssisələrin altında yerləşən torpaq sahələri.

## 8.2. Dövlət əmlakını özəlləşdirmə hüququnun mənbələri və prinsipləri

### 8.2.1. Dövlət əmlakını özəlləşdirmə hüququnun mənbələri

Dövlət əmlakının özəlləşdirilməsi sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsi, əsasən, müvafiq qanunlar vasitəsi ilə həyata keçirilir. Bu səbəbdən **qanunlar** dövlət əmlakını özəlləşdirmə hüququnun mühüm və vacib mənbəyi hesab edilir. Söhbət, hər şeydən əvvəl, dövlətin əsas qanunu olan Konstitusiyadan gedir. Konstitusiya bütün hüquq sahələrinin və onların institutlarının normativ əsası (bazası) sayılır. Burada ifadə olunan normaların dövlət əmlakını özəlləşdirmə hüququ üçün əhəmiyyəti vardır: məsələn, mülkiyyət haqqında norma (13-cü maddə), mülkiyyət hüququ barədə norma (29-cu maddə) və s.

Dövlət əmlakını özəlləşdirmə hüququnun mənbəyi olan qanunlara nümunə kimi aşağıdakıları göstərmək olar: «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1993-cü il), «Mənzil fondunun özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1993-cü il), «Sovxoz və kolxozların islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu (1995-ci il), «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il), «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (2000-ci il) və s.

Dövlət mülkiyyətinin özəlləşdirilməsinin ilkin mərhələsi «1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin I Dövlət Proqramı» kimi normativ hüquqi sənəd əsasında həyata keçirilmişdir ki, həmin sənəd Azərbaycan Respublikasının 1995-ci il tarixli müvafiq qanunu ilə təsdiq olunmuşdur. Bu sənəddə özəlləşdiriləcək dövlət müəssisələri kiçik, orta və iri müəssisələrə bölünür.

Dövlət mülkiyyətinin özəlləşdirilməsinin sonrakı mərhələsi «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» (2000-ci il) əsasında həyata keçiril-

mişdir.[1] Burada özəlləşdiriləcək dövlət müəssisə və obyektləri iki qrupa bölünür: 1) Prezidentin qərarı ilə özəlləşdiriləcək müəssisə və obyektlər (mülki müdafiə və səfərbərlik təyinatlı obyektlər, kimya, neft-kimya və biokimya müəssisələri, hava, dəniz və çay nəqliyyatı müəssisələri və s.); 2) Dövlət Əmlak Nazirliyinin (indiki Əmlak Məsələləri Dövlət Komitəsi) qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər (ictimai iaşə və məişət xidməti obyektləri, yüngül sənaye müəssisələri və s.).

Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsində qanunlarla yanaşı, həm də **qanunqüvvəli aktlar** mühüm rol oynayır. Söhbət, ilk növbədə, **Prezident aktlarından** gedir ki, normativ əhəmiyyətə malik olan bu aktların özəlləşdirmə ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsində əhəmiyyəti böyükdür. Dövlət əmlakının özəlləşdirilməsinə dair müvafiq II Dövlət Proqramı məhz Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Prezidentin 22 mart 2001-ci il tarixli Fərmanı özəlləşdirilməsi başa çatmamış müəssisə və obyektlərin özəlləşdirilməsi qaydasını müəyyənləşdirir. Prezident ayrı-ayrı sahələrdə özəlləşdirmənin həyata keçirilməsi barədə bir neçə akt (sərəncam) qəbul etmişdir ki, həmin aktlar özəlləşdirmə prosesinin qaydaya salınmasında vacib rol oynayır. Məsələn, «Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında» Sərəncam (2001-ci il), «Maşınqayırma sənayesi müəssisələrinin özəlləşdirilməsi haqqında» Sərəncam (2001-ci il), «Yanacaq-energetika kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında» Sərəncam (2001-ci il), «Damazlıq, quşçuluq təsərrüfatının özəlləşdirilməsi haqqında» Sərəncam (2001-ci il), «Azərbaycan Hava Yolları» Dövlət Konserninin bir sıra müəssisələrinin özəlləşdirilməsi haqqında» Sərəncam (2001-ci

[1] II Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 10.08.2000-ci il tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmişdir // URL: http: // emdk.gov.az (14.01.2017-ci il).

il) və s.[1] Bu kimi sərəncamlar, təbii ki, özəlləşdirmə prosesinin həyata keçirilməsinə böyük təsir göstərir. Nəzərdən qaçırmaq olmaz ki, bir sıra obyekt və müəssisələrin özəlləşdirilməsi ölkə Prezidentinin qərarı ilə həyata keçirilir; məsələn, nəqliyyat müəssisələri, televiziya mərkəzləri və s.

Qanunqüvvəli aktlara həm də **Nazirlər Kabinetinin qərarları** daxildir ki, bu qərarlar özəlləşdirməyə aid bu və digər məsələlərin tənzimlənməsinə həsr edilmişdir. Unutmaq olmaz ki, bəzi müəssisə və obyektlər məhz Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilir. Belə müəssisə və obyektlər I Dövlət Proqramına 1 saylı Əlavədə sadalanmışdır.

Dövlət əmlakını özəlləşdirmə hüququnun mənbəyi həm də **Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin qərarlarıdır.** Yaddan çıxarmamalıyıq ki, bəzi müəssisə və obyektlər (ictimai iaşə obyektləri, məişət xidməti müəssisələri, hamamlar, apteklər və s. müəssisələr) məhz bu komitənin qərarı ilə özəlləşdirilir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında bu günə qədər özəlləşdirmə sahəsində 50-dən çox normativ hüquqi akt qəbul olunmuşdur. Bu aktların məcmusu dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunvericilik və ya sadəcə olaraq – **özəlləşdirmə haqqında qanunvericilik** adlanır. Özəlləşdirmə haqqında qanunvericiliyə həm müvafiq qanunlar (1993-cü il və 2000-ci il), həm dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair dövlət proqramları (I və II Dövlət proqramları), həm Prezident aktları (fərman və sərəncamları), həm Nazirlər Kabinetinin qərarları, həm də Əmlak Məsələləri Dövlət Komitəsinin qərarları daxildir. Dövlət əmlakını özəlləşdirmə hüququnun ibarət olduğu müvafiq hüquq normaları zahirən öz rəsmi ifadəsini məhz özəlləşdirmə haqqında qanunvericilik aktlarında tapır.

---

[1] *Bax:* Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III Xüsusi buraxılış. Bakı, 1999.

### 8.2.2. Dövlət əmlakını özəlləşdirmə hüququnun prinsipləri

Dövlət əmlakını özəlləşdirmə hüququ bir sıra vacib prinsiplərə əsaslanır və söykənir. Söhbət dövlət əmlakını özəlləşdirmə hüquq institutuna xas olan prinsiplərdən gedir.

Dövlət əmlakını özəlləşdirmə hüququnun **prinsipləri** dedikdə elə əsas ideya və rəhbər başlanğıclar başa düşülür ki, bu ideya və başlanğıclar əsasında dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Özəlləşdirmə haqqında qanunvericilikdə ifadə olunan bu və ya digər hüquq normasında formulə (təsbit) edildiyinə görə həmin prinsiplər normativ əhəmiyyətə malik olub, məcburi hüquqi qüvvəyə malikdir.

**Özəlləşdirmə nəticəsində dövlət əmlakının xüsusi mülkiyyətə keçməsi prinsipi** özəlləşdirmə hüququnun prinsiplərindən biridir. Bu prinsip özəlləşdirmə prosesinin öz mahiyyətindən irəli gəlir. Özəlləşdirmə prosesinin mahiyyəti isə dövlətə məxsus olan əmlakın ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilməsindən ibarətdir.[1] Bu zaman dövlət mülkiyyəti dəyişərək xüsusi mülkiyyətlə əvəz olunur. Qanunda göstərilir ki, özəlləşdirmə dövlət mülkiyyətində olan əmlakın fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə özgəninkiləşdirilməsidir (MM-in 203-cü maddəsinin 4-cü bəndi).

**Yalnız dövlət əmlakının özəlləşdirilməsi prinsipi** də özəlləşdirmə hüququnun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, özəlləşdirmənin obyekti qismində yalnız dövlət mülkiyyətində olan əmlak çıxış edə bilər. Odur ki, özəlləşdirmə yalnız dövlət mülkiyyətində olan əmlaka şamil edilir.

Özəlləşdirmə hüququ həm də belə prinsipdən çıxış edir ki, **xüsusi mülkiyyətin özəlləşdirilməsinə yol verilmir**. Bu prinsipə görə, özəlləşdirmə xüsusi mülkiyyətə şamil olunmur. Xüsu-

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 187.

si mülkiyyətin özəlləşdirilməsinə yol verilməməsi prinsipi də özəlləşdirmə prosesinin öz mahiyyətindən irəli gəlir. Bu prosesə görə, xüsusi mülkiyyət deyil, dövlət əmlakı özəlləşdirilə bilər. Dövlət əmlakının özəlləşdirilməsi isə heç də təsadüfi xarakter daşımır. Belə ki, dövlət mülkiyyətində olan əmlak ondan ötrü özəlləşdirilir ki, xalq təsərrüfatının dövlətsizləşdirilməsi təmin olunsun, iqtisadiyyat liberallaşdırılsın (məhdudiyyətlər aradan qaldırılsın və təsərrüfat subyektlərinə hərəkət azadlığı verilsin), rəqabət mühiti formalaşdırılsın, sahibkarlıq inkişaf etdirilsin, investisiyalar cəlb etməklə iqtisadiyyatın səmərəliliyi artırılsın, struktur dəyişikliklərə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olunsun. Xüsusi mülkiyyətin özəlləşdirilməsi isə, təbii ki, belə məqsədləri təmin edə bilməz.

Xüsusi mülkiyyət toxunulmazdır. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Lakin dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün xüsusi mülkiyyətin özgəninkiləşdirilməsinə yol verilir. Bu zaman xüsusi mülkiyyətçiyə mülkiyyətin dəyəri qabaqcadan ədalətli şəkildə ödənilir (Konstitusiyanın 29-cu maddəsinin IV hissəsi).

**Dövlət mülkiyyətində saxlanılan əmlak növlərinin özəlləşdirilməsinə yol verilməməsi prinsipi** də özəlləşdirmə hüququna xas olan prinsipdir. Bu prinsipə görə, bir sıra əmlak növlərinin özəlləşdirilməsi qadağandır. Söhbət özəlləşdirilməsi qadağan olunan əmlak növlərindən gedir. Belə əmlak növlərinin siyahısı «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublika-sının Qanununda (6.2-ci maddə) verilmişdir: yerin təki, meşə fondu, su ehtiyatları, dövlət sərhəd zolaqları və üzərindəki daşınmaz əmlak, hava məkanı, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun suları, geostasionar orbitlərdəki peyk rabitə vasitələri, qorunan və xüsusi qaydada istifadə olunan təbiət əraziləri, Azərbaycan xalqının tarix və mədəniyyət abidələri və s.

**Özəlləşdirilən dövlət mülkiyyət obyektlərinin təsnifləşdirilməsi prinsipi** də özəlləşdirmə hüququnun prinsipləri sırasına daxildir. Bu prinsip öz rəsmi ifadəsini əvvəllər adını çəkdiyi-

miz I Dövlət Proqramına 1 saylı Əlavədə tapmışdır. Həmin prinsipə görə, özəlləşdirilən dövlət mülkiyyət obyektləri təsnifləşdirilərək dörd növə bölünür: 1) özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər; 2) Prezidentin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər; 3) Nazirlər Kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər; 4) yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq Əmlak Məsələləri Dövlət Komitəsinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər.

Özəlləşdirmə hüququ həm də belə bir prinsipdən çıxış edir ki, **özəlləşdirmə əvəzlidir**. Bu prinsipə görə, özəlləşdirilən mülkiyyət obyektləri üçün dövlət müəyyən məbləğdə haqq alır. Axı dövlət özəlləşdirilən obyektin mülkiyyətçisidir. Digər tərəfdən, unutmaq olmaz ki, özəlləşdirmə dövlət mülkiyyətində olan əmlakın əvəzli şəkildə özgəninkiləşdirilməsidir.[1] Özəlləşdirmədən dövlətin əldə etdiyi pul vəsaiti dövlət büdcəsinə daxil olur.

**Müəssisə və obyektlərin özəlləşdirilməsinin məcburiliyi prinsipi** də özəlləşdirmə hüququnun prinsipi kimi tanınır. Bu prinsipə görə, bazar infrastrukturunun formalaşmasına və fəaliyyət göstərməsinə, iqtisadiyyata daha çox təsir göstərən, habelə iqtisadi inkişaf tempinə mane olan və onu yubadan müəssisə və obyektlərin özəlləşdirilməsi məcburidir.

## 8.3. Özəlləşdirmənin məqsədləri, həyata keçirilmə qaydası və üsulları

### 8.3.1. Özəlləşdirmənin məqsədləri

Qeyd etməliyik ki, özəlləşdirmə müəyyən məqsəd üçün həyata keçirilən prosesdir. Onun **əsas məqsədi** bunlardan ibarətdir: 1) xüsusi mülkiyyət və öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin formalaşdırılması; 2) xalq təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması; 3) iqtisadiyyata investisiyaların, o cümlədən xarici

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.124.

investisiyaların cəlb edilməsi; 4) iqtisadi prosesə bütün növ istifadə olunmamış təbii ehtiyatların cəlb edilməsi; 5) əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətin yaxşılaşdırılması. İqtisadiyyatın liberallaşdırılması, rəqabət mühitinin formalaşdırılması, sahibkarlığın geniş vüsət alması, iqtisadiyyatın səmərəliliyinin artırılması, xalq təsərrüfatının dövlətsizləşdirilməsinin təmin olunması, iqtisadiyyatda struktur dəyişikliklərin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi, eləcə də digər məsələlərin həll edilməsi məhz özəlləşdirmənin güddüyü məqsədlərə çatmaq sayəsində mümkün olur. Özəlləşdirmə nəticəsində dövlət mülkiyyətində olan əmlak, mahiyyətcə, bölüşdürülür ki, bu zaman əhalinin mənafeləri gözlənilir və maraqları nəzərə alınır, habelə şəxslərin sosial vəziyyəti və həyat səviyyəsi yaxşılaşdırılır. Bütün bunlar isə özəlləşdirmənin **sosial funksiyasını** təşkil edir.

Özəlləşdirmənin strateji xarakterə malik olan məqsədlərinin həm siyasi, həm iqtisadi, həm də fiskal məzmunu vardır. Bu baxımdan aşağıdakılar fərqləndirilir: 1) özəlləşdirmənin siyasi məqsədi; 2) özəlləşdirmənin iqtisadi məqsədi; 3) özəlləşdirmənin fiskal məqsədi. Nəzərə almalıyıq ki, özəlləşdirmə həm siyasi, həm iqtisadi, həm də fiskal məqsədi güdür.

Özəlləşdirmənin **siyasi məqsədi** əhatə dairəsi geniş olan xüsusi mülkiyyətçilər təbəqəsi formalaşdırmaqdan ibarətdir. Belə təbəqə bazar münasibətlərinin iqtisadi əsası sayılır.

Ölkədə xüsusi mülkiyyət və azad bazar iqtisadiyyatı, rəqabət aparmaq qabiliyyətinə malik olan istehsalçılar qrupu formalaşdırmaq özəlləşdirmənin **iqtisadi məqsədi** hesab edilir.

Qeyd etdiyimiz kimi, özəlləşdirmənin həyata keçirilməsində mülkiyyətçi rolunda çıxış edən dövlət müəyyən məbləğdə pul vəsaiti əldə edir ki, bu vəsait dövlət büdcəsinə daxil olur. Sonradan həmin vəsait bölüşdürülür; bu isə **özəlləşdirmənin fiskal** niyyətidir.[1]

---

[1] *Özəlləşdirmənin məqsədləri barədə bax:* Allahverdiyev S.S.Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. II cild. II nəşr. Bakı, 2009, s.189.

### 8.3.2. Özəlləşdirmənin həyata keçirilmə qaydası

Özəlləşdirmə sadə olmayan, mürəkkəb xarakterli bir prosesdir. Bu proses isə özəlləşdirmə haqqında qanunvericilikdə müəyyənləşdirilmiş qayda əsasında həyata keçirilir. Söhbət dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsi qaydasından gedir.

**Dövlət əmlakının özəlləşdirilməsi qaydası** dedikdə özəlləşdirmə haqqında qanunvericiliklə tənzimlənən elə bir proses başa düşülür ki, bu proses səlahiyyətli dövlət orqanı tərəfindən müvafiq qərar qəbul edilməsi ilə başlayır, həmin qərarın icra olunması nəticəsində dövlət əmlakının bu və ya digər üsulla ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə keçməsi (verilməsi) ilə başa çatır. Odur ki, dövlət əmlakının özəlləşdirilməsi prosesi (qaydası) **iki mərhələdən** ibarətdir. **Birinci mərhələdə** səlahiyyətli dövlət orqanı tərəfindən dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar qəbul edilir; bu mərhələ **qərar qəbul edilməsi mərhələsi** adlanır. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qəbul edilmiş qərarın icra olunması və dövlət əmlakının ayrı-ayrı şəxslərin (fiziki və hüquqi şəxslərin) xüsusi mülkiyyətinə verilməsi isə **ikinci mərhələdə** həyata keçirilir**;** bu mərhələ **qərarın icra olunması və dövlət əmlakının xüsusi mülkiyyətə keçməsi mərhələsi** adlanır.

Qeyd etdiyimiz kimi, dövlət əmlakının özəlləşdirilməsi prosesi səlahiyyətli dövlət orqanı tərəfindən müvafiq qərar qəbul edilməsi ilə başlayır. Qəbul edilmiş qərar dövlət əmlakının özəlləşdirilməsi haqqındadır. Səlahiyyətli dövlət orqanı dedikdə isə Əmlak Məsələləri Dövlət Komitəsi başa düşülür. Axı sözügedən komitə dövlətin əmlak sərəncamçısıdır; özəlləşdirmə prosesində dövləti məhz həmin komitə təmsil edir. «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində göstərildiyi kimi, dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar məhz Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən qəbul edilir. Əmlak Məsələləri Dövlət Komitəsinin qəbul etdiyi həmin qərarda obyektin özəlləşdirilməsinin məqsədəuyğunluğu əsaslandırılır. Qərarda eləcə də dövlət əmlakının özəlləşdirilməsinin üsulları göstərilir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlakının özəlləşdirilməsi haqqında müvafiq qərar qəbul edildikdən sonra **dövlət müəssisəsini özəlləşdirmə komissiyası** (bundan sonra – özəlləşdirmə komissiyası) yaradılır. Özəlləşdirmə komissiyasının işi (fəaliyyəti) «Dövlət müəssisəsini özəlləşdirmə komissiyasının fəaliyyəti haqqında» Əsasnamə ilə tənzimlənir ki, bu əsasnamə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2003-cü il tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Həmin əsasnaməyə görə, özəlləşdirilən (özəlləşdirmə obyekti olan) müəssisədə (səhmdar cəmiyyətə çevrilən müəssisədə) özəlləşdirmə komissiyası yaradılır. Komissiya müəssisənin rəhbəri tərəfindən yaradılır; komissiya yaradılarkən əmək kollektivinin rəyi nəzərə alınmalıdır.

Komissiya ongünlük müddət ərzində yaradılır; ongünlük müddət isə müəssisənin səhmdar cəmiyyətə çevrilməsi haqqında qərar (özəlləşdirmə haqqında qərar) qəbul olunduğu gündən başlayır (hesablanır). Müəssisə rəhbərinin borcudur ki, komissiya yaradılması barədə Əmlak Məsələləri Dövlət Komitəsinə üç gün ərzində yazılı məlumat versin.

Müəssisədə komissiyanın yaradılması özəlləşdirməyə hazırlıq məqsədi güdür. Onun əsas işi tələb edilən sənədləri işləyib hazırlamaq və onları təsdiq olunmaq üçün Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim etməkdən ibarətdir. Komissiya ən geci üç ay müddətinə həmin sənədləri hazırlamalı və təsdiq olunmaq üçün Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim etməlidir. Üçaylıq müddət isə özəlləşdirmə haqqında qərar (dövlət müəssisəsinin səhmdar cəmiyyətə çevrilməsi haqqında qərar) qəbul edildiyi gündən hesablanır.

Komissiyanın hansı sənədləri hazırlamasına gəldikdə, qeyd etmək lazımdır ki, bu sənədlərin siyahısı özəlləşdirməyə dair əvvəllərdə adını çəkdiyimiz II Dövlət Proqramında verilmişdir (5.4-cü bənd). Həmin siyahıya aşağıdakı sənədlər daxildir: 1) özəlləşdirmə planı (emissiya prospekti); 2) müəssisənin əmlakının inventarlaşdırılması və qiymətləndirilməsi haqqında akt; 3) kommersiya banklarının, müştərək və digər müəssisələrin

nizamnamə kapitalında özəlləşdirilən müəssisənin iştirak payının (səhmlərin, hissələrin) tərkibi və dəyəri haqqında arayış və həmin payın özəlləşdirilməsi barədə təklif; 4) son üç ilə dair illik hesabat balansları, həmçinin son hesabat dövrünün balansı; 5) səhmdar cəmiyyətin nizamnaməsi (dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərin nizamnaməsinə uyğun olaraq hazırlanır). Bu sənədlər içərisində **özəlləşdirmə planı** barədə xüsusilə danışmaq lazımdır. Bu sənəddə özəlləşdirilən müəssisənin (obyektin) satış qaydası və üsulu, satış müddəti, obyektin ilkin (start) qiyməti göstərilir.

Hazırladığı sənədləri komissiya təsdiq olunmaq üçün Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edir; həmin komitənin qərarı ilə müvafiq komissiya yaradılır. Komissiya iclas formasında fəaliyyət göstərir və onun iclasları həftədə bir dəfədən az olmayaraq keçirilir.

Komissiyanın iclaslarında bu və ya digər məsələlərə baxılır. Baxılan məsələlər barədə müvafiq qərarlar qəbul olunur. Komissiyanın iclası protokolla rəsmiləşdirilir; protokol komissiyanın sədri və katibi tərəfindən imzalanır.

Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək istəyən şəxs Əmlak Məsələləri Dövlət Komitəsinə ərizə ilə müraciət etməlidir. Ərizə Əmlak Məsələləri Dölət Komitəsinin müəyyən etdiyi formada olmalıdır; ərizə həm də iki nüsxədə tərtib olunur. Tərtib olunmuş ərizəyə dövlət əmlakının özəlləşdirilməsi üsullarından asılı olaraq müxtəlif sənədlər əlavə olunur. Belə ki, özəlləşdirmədə iştirak etmək istəyən şəxslər özəlləşdirmənin hansı üsulla həyata keçirilməsindən asılı olaraq tələb olunan sənədləri təqdim edir. Bu sənədlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Dövlət əmlakının özəlləşdiril-məsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydası haqqında» 2 fevral 2001-ci il tarixli 32 nömrəli qərarında sadalanır. Məsələn, əgər proses (özəlləşdirmə prosesi) dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi kimi üsulla həyata keçirilərsə, ərizəyə aşağıdakı sənədlər əlavə edilir: 1) hüquqi şəxsin təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti; 2) müsabiqə təklifi.

Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək istəyən şəxslər yalnız Nazirlər Kabinetinin sözügedən qərarında göstərilən sənədləri təqdim etməlidirlər. Bu qərarda göstərilən sənədlərdən başqa digər sənədlərin tələb olunmasına yol verilmir.

Sənədlər tam tərkibdə təqdim edildikdə və qanunvericiliyə uyğun tərtib olunduqda məsələ müsbət həll olunur. Belə ki, dövlət əmlakı (müəssisə və obyekt) ayrı-ayrı şəxslərin xüsusi mülkiyyətinə keçir. Bununla özəlləşdirmə prosesi başa çatır.

### 8.3.3. Dövlət əmlakını özəlləşdirmə üsulları

Özəlləşdirilən müəssisənin rəhbəri tərəfindən yaradılan komissiyanın hazırladığı özəlləşdirmə planında (emissiya prospektində) göstərilir ki, özəlləşdirmə hansı üsuldan istifadə olunmaqla həyata keçirilməlidir. Söhbət dövlət əmlakının özəlləşdirilməsi üsullarından gedir. Məhz həmin üsullar vasitəsilə özəlləşdirmə prosesinin həyata keçirilməsi mümkün olur.

**Dövlət əmlakını özəlləşdirmə üsulları** dedikdə elə vasitələr başa düşülür ki, bu vasitələrin köməyi ilə dövlət mülkiyyətində olan əmlak ayrı-ayrı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə keçir. Bu üsullar II Dövlət Proqramında (2000-ci il) göstərilmişdir.

**Hərraclar vasitəsilə özəlləşdirmə** həmin üsullardan biridir. Özəlləşdirmənin belə üsulu ayrıca normativ aktla tənzimlənir. «Dövlət əmlakının hərraclar vasitəsilə satış Qaydaları» adlanın həmin akt Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.[1] Hərraclar vasitəsilə özəlləşdirmə üsulunun mahiyyəti bundan ibarətdir ki, dövlət mülkiyyətində olan bu və ya digər əmlak hərrac vasitəsilə maksimum qiymət təklif edən özəlləşdirmə subyektinə (alıcıya) birdəfəlik satılır. Bu zaman alıcının hər hansı şərti yerinə yetirməsi tələb edilmir. Hərracın keçirilməsi məqsədilə

---

[1] *Bax:*Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s. 689.

dövlət əmlakının satıcısı tərəfindən komissiya yaradılır və onun iş reqlamenti təsdiq olunur; komissiyanın tərkibinə beş nəfər daxildir.

Özəlləşdirmə üsullarından digəri **ixtisaslaşdırılmış çek və pul hərracları vasitəsilə özəlləşdirmə** adlanır. Bu üsulun tətbiqi ilə bağlı məsələlər Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı Qaydaları» ilə tənzimlənir.[1] Həmin normativ hüquqi aktda çek və pul hərracları vasitəsilə özəlləşdirmənin ümumi qaydaları, alıcıların hərraclarda iştirak etmələri, özəlləşdirilən əmlaka mülkiyyət hüququnun rəsmiləşdirilməsi və digər məsələlər müəyyən edilir. Barəsində danışdığımız üsula görə, özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin səhmləri və ya səhm zərfləri sifarişlər əsasında satılır.

**İnvestisiya müsabiqəsi vasitəsilə özəlləşdirmə** də həmçinin özəlləşdirmə üsuludur. Bu üsulla özəlləşdirmə həyata keçirilərkən alıcıdan tələb edilir ki, o, investisiya proqramı təqdim etsin. İnvestisiya proqramı özündə investisiyanın maksimum həcmini və onun səmərəli qoyuluşunu əks etdirməlidir. Məhz belə investisiya proqramı təqdim edən şəxs müsabiqə qalibi olur və özəlləşdirilən əmlak üzərində xüsusi mülkiyyət hüququ əldə edir. İnvestisiya müsabiqəsinin təşkili və keçirilməsi qaydalarına gəldikdə, qeyd etməliyik ki, bu məsələ Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 1998-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «İnvestisiya müsabiqəsi haqqında Əsasnamə» ilə tənzimlənir.[2] Sözügedən üsulun hüquqi tənzimlənməsi isə «İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları» ilə həyata keçirilir ki, həmin qaydalar da ölkə Prezidentinin 17 iyul 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuşdur.

---

[1] *Bax:*Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s.682-685.

[2] *Bax:*Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. V cild. Bakı, 1999, s. 706.

Özəlləşdirmə həm də icarəyə verilmiş dövlət əmlakını satmaq yolu ilə həyata keçirilə bilər. **İcarəyə verilmiş dövlət əmlakının satışı** isə özəlləşdirmə üsullarından biridir. Bu üsulla bağlı münasibətlərin hüquqi tənzimlənməsi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə» ilə həyata keçirilir.[1] Həmin üsul icarəyə verilmiş dövlət əmlakının tərəflər arasında bağlanmış icarə müqaviləsinin şərtlərindən (satınalma hüququndan, icarə müddətindən və digər şərtlərdən) asılı olaraq müxtəlif yollarla həyata keçirilir.

Dövlət müəssisələri **fərdi layihələr** üzrə də özəlləşdirilə bilər ki, bu, özəlləşdirmə üsullarından biri sayılır. Bu üsuldan istifadə olunması ilə bağlı münasibətlər «Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi Qaydaları» ilə tənzimlənir.[2] Sözügedən qaydalar Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Həmin üsulla o dövlət müəssisələri özəlləşdirilir ki, onların ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyəti olsun. Belə ki, satışa müəssisənin səhmlərinin 51 faizi və ya daha çox hissəsi çıxarılır. Məqsəd müəssisəyə strateji investor cəlb etməkdən ibarətdir. Strateji investor dövlət müəssisənin bazisi əsasında yaradılmış səhmdar cəmiyyətin səhmlərini pul vəsaiti verməklə tender əsasında satın alır. Tenderin keçirilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsi komissiya yaradır. Tender komissiyasının tərkibinə yeddi nəfər daxil olur.

**Dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı** özəlləşdirmə üsullarından digəridir. Bu üsulla bağlı məsələləri tənzimləməkdən ötrü ayrıca normativ hüquqi akt qəbul edilmişdir ki, «Dövlət müəssisələrinin müflis elan olunması yolu ilə özəlləşdirilməsi Qaydaları» adlanan həmin akt Azərbaycan

---

[1] Bax:Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s.686-687.

[2] Bax:Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s.688-695.

Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.[1] Həmin üsulla o dövlət müəssisələri özəlləşdirilir ki, onların hərrac vasitəsilə satışı mümkün olmur. Belə ki, bu və ya digər dövlət müəssisəsi beş dəfə hərrac vasitəsilə satışa çıxarılır; lakin satış baş tutmur. Belə halda həmin müəssisə müflis elan edilir və ləğv olunur. Təbii ki, müflis elan edilmiş və ləğv olunmuş müəssisənin əmlakı hərrac vasitəsilə satılır. Satışdan əldə olunmuş pul vəsaitinin bir hissəsi kreditorlara olan borcların ödənilməsinə yönəldilir. Müəssisənin əmlakını bu və ya digər şəxs əldə edir. Əmlakı əldə edən şəxslə alqı-satqı müqaviləsi bağlanılır; nəticədə həmin şəxs əmlakın mülkiyyətçisi olur. Belə ki, müflis elan olunmuş və ləğv edilmiş müəssisənin əmlakı onun xüsusi mülkiyyətinə keçir. Dövlət müəssisəsinin müflis elan olunmaqla özəlləşdirilməsi üsulunun mahiyyəti də bundan ibarətdir.

Özəlləşdirmənin üsulları sırasına həm də **özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə güzəştli satışı** daxildir. Bu üsulla bağlı münasibətlərin hüquqi tənzimlənməsi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin əmək kollektivinə güzəştli satışı haqqında Əsasnamə» ilə həyata keçirilir.[2] Həmin üsulun mahiyyəti bundan ibarətdir ki, özəlləşdirilən bu və ya digər dövlət müəssisəsi açıq tipli səhmdar cəmiyyətə çevrilir; onun səhmləri əmək kollektivinə güzəştli şərtlərlə satılır. Səhmlərin güzəştli satışı dedikdə isə həmin səhmlərin özəlləşdirmə çeklərinə dəyişdirilməsi başa düşülür.

---

[1] *Bax:* Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s.695-696.
[2] *Bax:*Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III xüsusi buraxılış. Bakı, 1999, s. 685-687.

# VIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *IX FƏSİL.*

# İQTİSADİ HÜQUQDA MƏSULİYYƏT

## 9.1. İqtisadi fəaliyyət sferasında məsuliyyət

### 9.1.1. Məsuliyyət hüququ – iqtisadi hüququn institutlarından biri kimi

Əvvəllərdə qeyd etdiyimiz kimi, iqtisadi hüququn ümumi hissəsi bir neçə institutdan ibarətdir; məsuliyyət hüququ həmin institutlardan biridir. İqtisadi hüququn tərkibində ayrıca olaraq belə bir institutun fərqləndirilməsi ağlabatan və həqiqətəuyğun olub, heç də təsadüfi xarakter daşımır. Axı iqtisadi hüququn subyektləri qanunauyğun hərəkət etməlidirlər; onların qanunauyğun hərəkət etmələri isə müxtəlif hüquqi vasitələrin köməyi ilə təmin olunur. «Məsuliyyət» konstruksiyası belə vasitələrdən biridir.[1] Digər tərəfdən, iqtisadi hüquq subyektlərinin həyata keçirdikləri iqtisadi fəaliyyət təsərrüfatçılıq (təsərrüfat) fəaliyyətidir.[2] Təsərrüfatçılıq fəaliyyəti isə iqtisadi məsuliyyət prinsipi əsasında həyata keçirilir. Nəzərə almaq lazımdır ki, iqtisadi məsuliyyət təsərrüfatçılığın vacib prinsipi, eləcə də subyektlərin həyata keçirdikləri iqtisadi fəaliyyətin zəruri şərtidir.[3] Məsuliyyət olmadan iqtisadi hüquq subyektləri nə qanunun tələblərinə uyğun hərəkət edə, nə öz üzərlərinə düşən vəzifələri (öhdəlikləri) lazımınca yerinə yetirə, nə də təsərrüfat (iqtisadi) fəaliyyətini normal həyata keçirə bilərlər. Bunlar isə iqtisadi hüquqda məsuliyyət kimi mühüm və vacib vasitənin köməyi ilə təmin olunur. Bəs iqtisadi hüquqda məsuliyyət (iqtisadi məsuliyyət) dedikdə nə başa düşülür?

---

[1] *Məsuliyyət anlayışı barədə bax:* Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2014, maddə 80, s.20.
[2] Meybullayev M.X. İqtisadiyyat. Dərs vəsaiti. Bakı, 2015, s.62.
[3] Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Bakı, 1989, s.98.

İqtisadi hüquq subyektləri məsuliyyətə o halda cəlb olunurlar ki, onlar qanunda (hüquqda) ifadə edilən normaların tələblərini pozmuş olsunlar və bununla hüquq pozuntusu törətsinlər; hüquq pozuntusunun törədilməsi onlar üçün arzuolunmaz mənfi nəticələrə gətirib çıxarır. Arzuolunmaz mənfi nəticələr isə hüquq pozuntusu törədən şəxsin öz əmlakından məhrum edilməsində (əmlakının onun əlindən alınmasında), iqtisadi fəaliyyətlə məşğul olmaq hüququnun qadağan edilməsində, məcburi qaydada yenidən təşkil olunmasında, ləğv edilməsində, cərimə verilməsində, vurduğu zərərin əvəzinin ödənilməsində və s. Formada ifadə oluna bilər. Məhz bu kimi nəticələrin baş verməməsi üçün iqtisadi hüquq subyektləri hüquq qaydalarını pozmamalıdırlar; əks halda onlar bu işə cavabdehdirlər. Deməli, məsuliyyət subyektin cavabdehliyidir.

**İqtisadi hüquqda məsuliyyət** anlayışının məna yükü altında iqtisadi hüquq subyektlərinin etdiyi hərəkətlərə görə cavabdehliyi anlaşılır ki, bu hərəkətlər qanun (hüquq) normalarının tələblərinə zidd olduğu təqdirdə hüquq pozuntusu hesab edilir və onu törədən şəxs üçün arzuolunmaz mənfi nəticələrin yaranmasına səbəb olur. Subyektin (şəxsin) cavabdehliyi ilə bağlı müəyyən növ ictimai münasibətlər yaranır ki, onlar məsuliyyət münasibətləri sayılır. Məhz məsuliyyət münasibətlərini tənzimləyən hüquq normalarının sistemi məsuliyyət hüquq institutu adlanır.

İqtisadi hüquqda **məsuliyyət hüquq institutu** dedikdə iqtisadi hüquq subyektlərinin hüquq pozuntusu törətmələri ilə bağlı yaranan məsuliyyət münasibətlərini tənzimləyən müvafiq hüquq normalarının məcmusu başa düşülür. Bu institutun mahiyyəti, sosial rolu və əhəmiyyəti onun yerinə yetirdiyi **funksiyalarda** təzahür edir. Belə ki, iqtisadi hüquqda məsuliyyət hüquq institutu anlayışı dörd əsas funksiya yerinə yetirir: 1) kompensasiya funksiyası; 2) qabaqlayıcı (preventiv, xəbərdaredici) funksiya; 3) stimullaşdırıcı funksiya; 4) informasiya funksiyası.

**Kompensasiya funksiyası** zərərçəkənin məruz qaldığı və düçar olduğu itkinin, eləcə də onun pozulmuş hüquqlarının bərpa olunmasını nəzərdə tutur. **Qabaqlayıcı funksiyanın** mahiy-

yəti iqtisadi hüquq subyektlərini hüquq pozuntusu törətməkdən çəkindirməkdən və onun qarşısını almaqdan ibarətdir. **Stimullaşdırıcı funksiya** bunda ifadə olunur ki, iqtisadi hüquq subyektinin törətdiyi hüquq pozuntusunun aradan qaldırılması üçün onda meyil (stimul) yaranır. **İnformasiya funksiyasının** mahiyyəti isə iqtisadi hüquq subyektlərinin törətdikləri hüquq pozuntularının növləri haqqında məlumatları təhlil etməkdən və bu məlumatlardan hüquq pozuntularını doğuran səbəbləri aradan qaldırmaq, habelə onların qarşısını almaq məqsədilə mühafizə tədbirləri işləyib hazırlamaq üçün istifadə olunmasından ibarətdir.

İqtisadi hüququn məsuliyyət hüquq institutu onun digər hüquq anlayışları ilə qırılmaz surətdə bağlıdır. Belə anlayışlara aiddir: 1) iqtisadi-hüquq normaları; 2) iqtisadi hüquq subyektlərinin hüquq və vəzifələri; 3) hüquq pozuntusu; 4) dövlət məcburetmə tədbirləri və s. Belə ki, iqtisadi-hüquq normaları pozulduqda məsuliyyət hüquq institutu öz funksiyasını yerinə yetirməyə başlayır, necə deyərlər, «işə» düşür; hüquq pozuntusu törədilməsinə görə bu institut müvafiq dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur; iqtisadi hüquq subyektinin vəzifəsidir ki, törətdiyi hüquq pozuntusunu aradan qaldırsın və vurduğu zərərin əvəzini ödəsin. Təqsirkar şəxsin məsuliyyətə cəlb olunmasını tələb etmək onun hüququdur; iqtisadi hüquq subyektinin hüquqları pozulduqda məsuliyyət yaranır; öz üzərinə düşən vəzifələri (öhdəlikləri) yerinə yetirmədikdə və ya lazımınca yerinə yetirmədikdə iqtisadi hüquq subyektləri məsuliyyətə cəlb olunurlar və s.

Məsuliyyət hüquq institutunun iqtisadi hüququn **ümumi hissəsinə** aid edilməsi heç də təsadüfi xarakter daşımır. Belə ki, bu institut ümumi xarakterli məsələləri tənzimləyir. Aydın bir həqiqətdir ki, iqtisadi hüquqda məsuliyyət ümumi xarakter daşıyır. Bu səbəbdən məsuliyyət hüquq institutunu təşkil edən normalar iqtisadi hüququn xüsusi hissəsinə (xüsusi hissənin ibarət olduğu hər bir yarımsahəyə) tətbiq olunmaq xüsusiyyətinə malikdir. Odur ki, məsuliyyət hüququ iqtisadi hüququn ümumi hissəsinin institutu kimi tanınır.

### 9.1.2. Məsuliyyət hüququnun nizamasalma predmeti

Hər bir hüquq sahəsinə aid olan hüquq institutlarının öz nizamasalma predmeti vardır. Bu sözləri eyni ilə iqtisadi hüququn institutlarından biri olan məsuliyyət hüququ haqqında da söyləmək olar. Belə ki, bir institut kimi məsuliyyət hüququ özünəməxsus nizamasalma predmetinə malikdir.

Məsuliyyət hüququnun əsas funksiyası məsuliyyət münasibətlərini tənzimləməkdən ibarətdir. Məsuliyyət hüquq institutunun **nizamasalma predmetini** məhz məsuliyyət münasibətləri təşkil edir. Hüquq normaları ilə tənzimlənməsi nəticəsində həmin münasibət məsuliyyət-hüquq münasibəti kimi hüquqi forma alır. Fəlsəfi baxımdan əgər münasibət məzmundursa, hüquq münasibəti formadır. Odur ki, əgər məsuliyyət dövlət məcburetməsinin məzmunudursa, hüquq məsuliyyəti onun forması hesab edilir. Hüquq nəzəriyyəsinə görə, hüquq məsuliyyəti hüquq münasibətinin bir növüdür. Belə ki, hüquq məsuliyyəti ilə bağlı subyektlər arasında yaranan əlaqə hüquq münasibətindən başqa bir şey deyildir.

Məsuliyyət hüququnun nizamasalma predmetini təşkil edən məsuliyyət münasibətində iki tərəf iştirak edir. Bu tərəflərdən biri öz hüquqazidd hərəkətlərinə görə cavab vermək vəzifəsi daşıyır; ikinci tərəf isə qarşı tərəfdən onun etdiyi hüquqazidd hərəkətlərə görə cavab verilməsini tələb etmək hüququna malikdir. Bu kimi vəzifə daşıyan və hüquqa malik olan tərəflər məsuliyyət subyektləri adlanır. **Məsuliyyət subyektləri** dedikdə məsuliyyət-hüquq münasibətinin iştirakçıları başa düşülür.

**Məsuliyyət-hüquq münasibətinin məzmununa** gəldikdə, qeyd etmək lazımdır ki, həmin münasibətdə iştirak edən tərəflərin (subyektlərin) hüquq və vəzifələri onun məzmununu təşkil edir. Tərəflərdən biri qarşı tərəfdən onun hüquqazidd hərəkətləri ilə vurduğu zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir; qarşı tərəf isə öz hüquqazidd hərəkətləri ilə vurduğu zərərin əvəzini ödəmək vəzifəsi daşıyır.

Obyektsiz nə hüquq münasibəti əmələ gələ, nə də mövcud ola bilər. Bu sözləri məsuliyyət-hüquq münasibəti haqqında da

demək olar. Belə ki, məsuliyyət-hüquq münasibətinin obyekti vardır. **Məsuliyyət-hüquq münasibətinin obyekti** odur ki, məhz onun barəsində məsuliyyət-hüquq münasibətinin özü əmələ gəlir. Şübhəsiz, məsuliyyət-hüquq münasibəti subyektin hüquqazidd hərəkəti barəsində və onunla bağlı olaraq yaranır. Odur ki, subyektin hüquqazidd hərəkəti məsuliyyət-hüquq münasibətinin obyektidir. Məsuliyyət-hüquq münasibətində tərəflərin hüquq və vəzifələri məhz onun obyekti ilə bağlı yaranır.

Məsuliyyət-hüquq münasibətinin obyekti olan **hüquqazidd hərəkət** dedikdə subyekt tərəfindən hüquq normalarının göstərişlərini pozan davranışa yol verilməsi başa düşülür. Belə davranış hüquq pozuntusu törədilməsinə yönəlir.

Hər bir hüquq sahəsi subyektin digər subyekt qarşısında cavabdehliyini nəzərdə tutur ki, cavabdehlik məsuliyyət deməkdir. Hüquq sahələrindən biri olan iqtisadi hüquq da özünəxas cavabdehlik tədbirləri müəyyənləşdirir. Bu tədbirlərin tətbiqi **iki cəhətlə** xarakterizə olunur.

Birinci, cavabdehlik, yəni məsuliyyət tədbirləri əmlak xarakteri daşıyır. Unutmaq olmaz ki, subyektin hüquqazidd hərəkətləri ilə digər subyektə əmlak (maddi) zərəri vurulur. Mənəvi zərərin əvəzinin ödənilməsi hallarında da həmçinin tətbiq edilən məsuliyyət tədbirləri əmlak xarakterinə malik olur. Məsələn, iqtisadi fəaliyyət subyektinin işgüzar nüfuzuna zərər vurulduğu hallarda zərər pul ifadəsi ilə qiymətləndirilməklə kompensasiya olunur. Bu isə o deməkdir ki, subyektə maddi və mənəvi zərər vurulmasından asılı olmayaraq, iqtisadi hüquqda məsuliyyət həmişə əmlak xarakterli olur.

İkinci, iqtisadi hüquqda məsuliyyət zərərçəkən tərəfin təşəbbüsü ilə tətbiq olunur. Zərərçəkən tərəf məsuliyyətin tətbiq olunması barədə məsələni özü müstəqil surətdə həll edir. Məhkəmə isə zərərvurana məsuliyyət tədbiri tətbiq olunması barədə zərərçəkənin yalnız iddiasını mövcud qanunvericiliyə uyğun şəkildə təmin edir.

## 9.2. Məsuliyyət hüququnun subyektləri, mənbələri və prinsipləri

### 9.2.1. Məsuliyyət hüququnun subyektləri

Məsuliyyət-hüquq münasibətinin potensial (mümkün) iştirakçılarına **məsuliyyət hüququnun subyektləri** deyilir. Yalnız hüquq subyektliyinə malik olanlar məsuliyyət hüququnun subyekti kimi tanına bilərlər. Unutmaq olmaz ki, hüquq subyektliyi, əvvəllərdə qeyd etdiyimiz kimi, üç elementdən ibarətdir. Delikt qabiliyyəti həmin elementlərdən biridir. Xatırlatmaq istərdik ki, hüquq və fəaliyyət qabiliyyəti hüquq subyektliyinin digər elementləridir.

**Delikt qabiliyyəti** dedikdə subyektin vurduğu zərərin əvəzini ödəmək imkanı (qabiliyyəti) başa düşülür. Hansı subyekt zərərin əvəzini ödəmək qabiliyyətlidirsə, o da məsuliyyət hüququnun subyekti hesab edilir.

Məsuliyyət hüququnun subyekti qismində, hər şeydən əvvəl, **hüquqi şəxslər** çıxış edirlər. Hüquqi şəxslər hüquq subyektliyinə malikdirlər ki, delikt qabiliyyəti onun tərkib elementlərindən biridir. Yaddan çıxarmamalıyıq ki, mülkiyyətində olan ayrıca əmlakı ilə öz öhdəlikləri üçün məsuliyyət daşımaq (cavabdeh olmaq) hüquqi şəxsləri xarakterizə edən əlamətlərdən biridir. Qanunda deyilir ki, hüquqi şəxs öz öhdəliklərinə görə ona mənsub bütün əmlakla cavabdehdir (MM-in 52-ci maddəsinin 1-ci hissəsi).

Hüquqi şəxsin **təsərrüfatdaxili struktur bölmələrinə** (filial, şöbə, idarə və s.) gəldikdə, qeyd etməliyik ki, onların hüquq subyektliyi yoxdur. Axı təsərrüfatdaxili struktur bölmələr hüquqi şəxs sayılmır; odur ki, onlar məsuliyyət hüququnun subyekti ola bilməzlər. Hüquqi şəxsin təsərrüfatdaxili struktur bölmələrinin öhdəlikləri üçün hüquqi şəxsin özü məsuliyyət daşıyır; öhdəliklərinə görə struktur bölmələrin özləri məsuliyyət daşımırlar. Öz ödəliklərinə görə məsuliyyət daşımayan hər hansı qurum, təbii ki, məsuliyyət hüququnun subyekti ola bilməz. Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikası Qanu-

nunun 1-ci maddəsində göstərilir ki, bankın filial və şöbəsi müvafiq öhdəliklər üçün məsuliyyət daşımır; onların öhdəliklərinə görə bankın özü məsuliyyət daşıyır.

Məsuliyyət hüququnun subyekti qismində həm də **fiziki şəxslər** çıxış edir. Söhbət, ilk növbədə, **sahibkar statusuna** malik fiziki şəxslərdən gedir ki, onlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 2-ci hissəsində göstərilir ki, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar bu fəaliyyətlə bağlı öhdəlikləri üçün özünün bütün əmlakı ilə cavabdehdir, yəni məsuliyyət daşıyır.

Hakimiyyət səlahiyyətinə malik olan qurumlar da həmçinin məsuliyyət hüququnun subyektidirlər. Söhbət iqtisadi hüququn subyekti kimi **dövlət və bələdiyyələrdən** gedir; onlar iqtisadi fəaliyyəti tənzimləmədiklərinə və ya lazımınca tənzimləmədiklərinə görə məsuliyyət daşıyırlar. Əgər dövlət və bələdiyyə iqtisadi fəaliyyətin tənzimlənməsi zamanı normativ hüquqi aktların tələblərini pozarlarsa, buna görə onlar cavabdehdirlər. Nəzərdən qaçırmaq olmaz ki, həmin tələblərə əməl etmək onların üzərinə düşən vəzifə hesab edilir.

Təsərrüfat subyektləri, təbii ki, iqtisadi fəaliyyət qaydalarına riayət etməli, onları pozmamalıdırlar; əgər pozarlarsa, onlar dövlət qarşısında məsuliyyət daşıyırlar. Bu kimi hallarda da dövlət məsuliyyət hüququnun subyekti olur. Subyektlər xüsusilə də sahibkarlıq fəaliyyətinə aid tələbləri pozduqda dövlət qarşısında məsuliyyət daşıyırlar. Dövlət qarşısında məsuliyyət isə cərimə ödənilməsi, zərərin əvəzinin alınması, lisenziyalaşdırılmış fəaliyyət növü ilə məşğul olmaq hüququndan məhrum edilmə və s. formada ifadə edilə bilər.

### 9.2.2. Məsuliyyət hüququnun mənbələri

Məsuliyyət hüququnun əsas mənbəyi **qanunlardır**. Söhbət, hər şeydən əvvəl, dövlətin əsas qanunu olan Konstitusiyadan gedir. Konstitusiyanın xüsusilə də 68 və 80-ci maddələrinin məsuliyyət hüququ üçün mühüm əhəmiyyəti vardır; onun 68-ci

maddəsi zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu təsbit edir, 80-ci maddəsi isə məsuliyyət haqqındadır.

Qanunlar içərisində məsuliyyət hüququnun mənbəyi kimi Mülki Məcəllənin adı xüsusi olaraq çəkilməlidir. Ölkənin ali iqtisadi qanunu və ikinci konstitusiyası (iqtisadi konstitusiya) olan MM məsuliyyətə aid kifayət qədər hüquq normaları nəzərdə tutur. Bu normalar öz ifadəsini, əsasən, onun XXIII fəslində tapmışdır ki, həmin fəsil «Öhdəliklərin icra edilməməsi üçün məsuliyyət» adlanır.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda məsuliyyəti tənzimləyən və ona aid olan hüquq normalarına rast gəlmək mümkündür. Odur ki, sahibkarlıq fəaliyyətini nizama salan bu qanun məsuliyyət hüququnun mənbəyidir. Məsələn, həmin qanunun 8-ci maddəsi sahibkarın əmlak məsuliyyətinə həsr olunmuşdur. Burada deyilir ki, hüquqi şəxs yaratmaqla fəaliyyət göstərən sahibkarlar əmlak məsuliyyəti daşıyırlar; hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar bu fəaliyyətlə bağlı öhdəliklər üçün özünün bütün əmlakı ilə cavabdehdir; öz fəaliyyətini müqavilə əsasında həyata keçirən sahibkar rəhbərlik etdiyi müəssisənin öhdəlikləri üçün müqavilədə müəyyən edilmiş həcmdə məsuliyyət daşıyır; müəssisəyə rəhbərlik edən sahibkar müqavilədən irəli gələn öhdəliklərin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi üçün də eyni məsuliyyət daşıyır. Bu kimi normalar vasitəsi ilə sahibkarlıq fəaliyyətində məsuliyyət məsələsinin tənzimlənməsi həyata keçirilir.

Məsuliyyətə aid normalar həm də «Banklar haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur. Odur ki, bu qanun məsuliyyət hüququnun mənbəyidir. Həmin qanunda göstərilir ki, bankın filial və şöbəsi öz öhdəlikləri üçün məsuliyyət daşımır; onlara görə bankın özü cavabdehdir. Adıçəkilən qanunda nəzərdə tutulan hallarda banka qarşı həm təshih tədbirləri, həm də sanksiyalar tətbiq edilə bilər. Sözügedən qanun tətbiq edilə bilən təshih tədbirlərinin və sanksiyaların növlərini müəyyən edir ki, bunlar məsuliyyət tədbirləridir.

Əgər **Prezident aktları** və **Nazirlər Kabinetinin qərarları** iqtisadi fəaliyyət subyektlərinin məsuliyyət daşımasına aid normalar nəzərdə tutarsa, onlar məsuliyyət hüququnun mənbəyi hesab edilir. Adıçəkilənlər qanunqüvvəli aktlar olub, qanunların icra edilməsi məqsədi ilə qəbul olunur. Qanunqüvvəli aktlar içərisində iqtisadi fəaliyyət subyektlərinin məsuliyyətini tənzimləyən həm Prezident aktlarına, həm də Nazirlər Kabinetinin qərarlarına rast gəlmək mümkündür.

### 9.2.3. Məsuliyyət hüququnun prinsipləri

Məsuliyyət hüquq institutu özünəməxsus prinsiplərə əsaslanır. **İqtisadi fəaliyyət subyektlərinin məsuliyyət daşıması prinsipi** onlardan biridir. Bu prinsip məsuliyyət hüquq institutunun öz mahiyyətindən irəli gəlir. Həmin prinsipə görə, iqtisadi fəaliyyət subyektləri həyata keçirdikləri təsərrüfatçılıqla bağlı öhdəlikləri üçün özünün bütün əmlakı ilə cavabdehdir. Buna görə subyektlərin məsuliyyət daşıması prinsipi həm də **cavabdehlik prinsipi** adlanır.

İqtisadi fəaliyyət subyektləri öz öhdəlikləri üçün bütün əmlakı ilə cavabdeh olduqlarına görə onların daşıdıqları məsuliyyət **əmlak məsuliyyəti** sayılır. Əmlak məsuliyyəti isə tam və ya məhdud ola bilər. Bu, iqtisadi fəaliyyət subyektlərinin hansı təşkilati-hüquqi formada yaradılmasından və təsis edilməsindən asılıdır. Məsələn, iqtisadi fəaliyyət subyekti əgər tam ortaqlıq formasında yaradılarsa, tam ortaqlar (tam ortaqlıq iştirakçıları) da tam ortaqlığın (hüquqi şəxsin) öhdəlikləri üçün onlara mənsub olan əmlakla məsuliyyət daşıyırlar (MM-in 69-cu maddəsinin 1-ci hissəsi). İqtisadi fəaliyyət subyekti əgər məhdud məsuliyyətli cəmiyyət formasında yaradılarsa, o, tam deyil, məhdud əmlak məsuliyyəti daşıyır. Belə ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üçün məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar (MM-in 87-ci maddəsinin 1-ci hissəsi).

**Zərərin əvəzinin ödənilməsi prinsipi** məsuliyyət hüququnun prinsiplərindən digəridir. Bu prinsipə görə, şəxsin hüquqa-

zidd hərəkətləri nəticəsində vurulmuş ziyanın əvəzini zərərçəkmiş şəxs zərərvuran şəxsdən alır.

Zərərin əvəzinin ödənilməsi prinsipi öz normativ ifadəsini Konstitusiyanın 68-ci maddəsinin I hissəsində tapmışdır. Burada deyilir ki, zərərçəkən şəxsin ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Bu konstitusion göstəriş, ilk növbədə, zərərin əvəzinin ödənilməsi prinsipini ifadə və formulə edir. Həmin konstitusion göstəriş digər tərəfdən subyektiv iqtisadi hüququ (insan hüququnu) təsbit edir.

**Dövlət qarşısında məsuliyyət prinsipi** də məsuliyyət hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, subyektlər iqtisadi fəaliyyətlə məşğul olmaq qaydalarının və ona dair tələblərin pozulmasına görə dövlət qarşısında cavabdehdir. Cavabdehlik aşağıdakı formalarda ifadə oluna bilər: 1) subyektin cərimə ödəməsi; 2) subyektdən vurduğu zərərin əvəzinin alınması; 3) iqtisadi fəaliyyət subyektinə təsir edilməsi (bunun nəticəsində lisenziyalaşdırılmış iqtisadi fəaliyyət növü ilə məşğul olmaq qadağan edilir, lisenziya ləğv olunur, iqtisadi fəaliyyət subyektinin mövcud olmasına son qoyulur və s.). Odur ki, subyektlər iqtisadi fəaliyyətlə məşğul olmaq qaydalarını və ona dair tələbləri pozmamalıdırlar.

Məsuliyyət hüququ həm də **iqtisadi məsuliyyət prinsipindən** çıxış edir. Bu, məsuliyyət hüququnun prinsiplərindən biridir. İqtisadi məsuliyyət XX əsrin 70–80-ci illərində sovet təsərrüfat-qanunvericilik normalarında nəzərdə tutulmuş-du. İqtisadi məsuliyyət (cavabdehlik) sosialist təsərrüfatçılıq prinsipi olub, müəssisələrin tam təsərrüfat hesabı ilə fəaliyyət göstərməsinin və işləməsinin zəruri şərti sayılırdı.[1]

İqtisadi məsuliyyət müxtəlif formalarda tətbiq olunurdu. **İqtisadi sanksiyalar** bu formalardan biri idi. İqtisadi sanksiyalar məcburi xarakterli tədbir olub, təsərrüfat fəaliyyətinin müəyyən edilmiş qaydalarının pozulmasına görə tətbiq olunurdu. Müəssisələrə qarşı tətbiq edilən iqtisadi sanksiyalar özlüyündə müəssisənin təsərrüfat hesablı gəlirinin azalmasına və bununla

---

[1] Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Bakı, 1989, s.98.

da maddi stimullaşdırma vəsaitlərinin ixtisar olunmasına gətirib çıxarırdı.

İqtisadi məsuliyyət həm də müəssisələrin planda nəzərdə tutulmuş həcmdə **həvəsləndirmə fondları formalaşdırmaq hüququndan məhrum edilməsi** formasında tətbiq olunurdu. Belə ki, əgər müəssisələr müəyyən edilmiş plan tapşırıqlarını və öhdəlikləri yerinə yetirməsəydilər, onlar planda nəzərdə tutulmuş həcmdə maddi həvəsləndirmə fondları formalaşdırmaq hüququnu itirirdi.

İqtisadiyyatın bazar modeli və mexanizmi əsasında təşkili buna səbəb oldu ki, müəssisələrin iqtisadi məsuliyyəti əvvəlki formalarda daha tətbiq edilmir. Nəzərdən qaçırmaq olmaz ki, **bazar iqtisadiyyatı** şəraitində plan tapşırıqları və müəssisələrin fəaliyyətinin onların (plan tapşırıqlarının) yerinə yetirilmə dərəcəsi əsasında qiymətləndirilməsi öz əhəmiyyətini itirir. İndi iqtisadi məsuliyyət prinsipi müəssisələrə deyil, onların təsərrüfatdaxili struktur bölmələrini (filial, şöbə, sex və s.) stimullaşdırmq (həvəsləndirmək) üçün təsərrüfatdaxili münasibətlərdə tətbiq olunur. Təsərrüfatdaxili münasibətlərdə bu kimi struktur bölmələr stimullaşdırılır və fəaliyyətlərinin qiymətləndirilməsi əsasında onlar məsuliyyət daşıyırlar. Təsərrüfatdaxili struktur bölmələr onların fəaliyyətinin qiymətləndirilməsi əsasında məsuliyyət daşıdıqlarına görə iqtisadi məsuliyyət bəzən **qiymətləndirmə (qiymətvermə) prinsipi** də adlanır. Təkrarən qeyd edirik ki, sovet dövründəki formada tətbiq edilməsə də, bazar iqtisadiyyatı şəraitində iqtisadi məsuliyyət prinsipi öz əhəmiyyətini itirməyərək, saxlayır. Qeyd etdiyimiz kimi, bu prinsip indi yalnız təsərrüfatdaxili münasibətlərdə tətbiq olunur.[1]

Müstəqil hüquq sahələrindən biri olan mülki hüquq yol verilmiş hüquq pozuntularına görə mülki-hüquq məsuliyyəti nəzərdə tutur. Cinayət hüququ cinayət məsuliyyəti ilə bağlı münasibətləri tənzimləyir. İnzibati hüquq vasitəsilə inzibati-hüquq məsuliyyəti ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi həyata

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1/ Отв.ред. О.М.Олейник. М., 1999, с.463-464.

keçirilir. İntizam məsuliyyəti əmək hüququ ilə nizama salınır. Hüquq sahələrindən biri olan iqtisadi hüquq üçün isə iqtisadi məsuliyyət xarakterikdir.

**Təqsirə görə məsuliyyət prinsipi** də həmçinin iqtisadi hüququn məsuliyyət institutunun prinsiplərindən biri kimi tanınır. Bu prinsipə görə, yalnız törətdiyi pozuntuya və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş iqtisadi hüquq subyekti məsuliyyətə cəlb edilir. Təqsiri müəyyən olunmamış iqtisadi hüquq subyekti isə, təbii ki, məsuliyyətə cəlb edilə bilməz.

Bəzən iqtisadi hüquq subyekti öz üzərinə götürdüyü öhdəliyi özünün təqsiri üzündən deyil, başqa səbəbə görə (fors-major[1] və ya öz iradəsindən asılı olmayan səbəbə görə) icra etmir, yerinə yetirmir. Belə halda o, məsuliyyətə cəlb edilmir. Məsələn, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan sahibkar quraqlıq olması səbəbindən şəhərdəki ticarət-satış müəssisəsinə nəzərdə tutulan həcmdə məhsul göndərə bilmir. Bununla o, öz müqavilə öhdəliyini yerinə yetirmir; buna görə sahibkar məsuliyyətə cəlb edilmir.

## 9.3. İqtisadi hüquqda məsuliyyətin əsası və şərtləri

### 9.3.1. İqtisadi hüquqda məsuliyyətin növləri

İqtisadi fəaliyyət sahəsində məsuliyyət, qeyd etdiyimiz kimi, ilk növbədə, iqtisadi məsuliyyət deməkdir. Bir daha təkar edirik ki, iqtisadi məsuliyyət keçən yüzilliyin 70–80-ci illərinin təsərrüfat-qanunvericilik normaları ilə tənzimlənirdi. İndi məsuliyyətin bu növü yalnız təsərrüfatdaxili münasibətlər sferasında tətbiq olunur.

İqtisadi fəaliyyət subyektləri təkcə iqtisadi məsuliyyət daşımırlar; onların üzərinə həmçinin mülki, cinayət və ya inzibati məsuliyyət qoyulmuşdur.

İqtisadi fəaliyyət subyektləri müvafiq öhdəliklərin icra edilməməsi üçün **mülki-hüquqi məsuliyyət** daşıyırlar. Belə ki,

---

[1] *Ətraflı bax: məsələn,* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 93.

borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir (MM, maddə 448). Borclu öhdəliyin elə bir tərəfidir ki, onun üzərinə bu və ya digər hərəkəti etmək vəzifəsi (öhdəliyi) qoyulmuşdur. Məsələn, kredit öhdəliyində (bu öhdəlik kredit müqaviləsindən yaranır) kredit alan şəxs borcludur; onun üzərinə bankdan aldığı krediti qaytarmaq vəzifəsi (öhdəliyi) düşür. Başqa bir misalda, topdansatış ticarət müəssisəsi mal göndərmə öhdəliyində (bu öhdəlik mal göndərmə müqaviləsindən yaranır) borclu tərəf sayılır; onun üzərinə alıcı qismində çıxış edən hər hansı müəssisəyə mal göndərmək öhdəliyi düşür və s.

Əgər borclu öz öhdəliyini icra etməzsə, bununla o, mülki-hüquq pozuntusuna yol verir; yol verdiyi mülki-hüquq pozuntusuna görə isə borclu zərərin əvəzini ödəmə, cərimə (penya) vermə və s. formada mülki-hüquqi məsuliyyət daşıyır.

İqtisadi fəaliyyət subyektləri (məsələn, banklar, kredit təşkilatları və s.) həm də pul öhdəliyinin icra edilməməsi üçün mülki-hüquqi məsuliyyət daşıyırlar (MM, maddə 449). Axı pul öhdəliyi mülki-hüquqi öhdəliklərin növlərindən biridir. Əgər iqtisadi fəaliyyət subyekti (məsələn, bank, kredit təşkilatı və s.) özgəsinin pul vəsaitini qanunsuz saxlayarsa, onu qaytarmaqdan boyun qaçırarsa, onun ödənilməsini digər şəkildə gecikdirərsə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə edərsə və ya toplayarsa, ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir.

İqtisadi fəaliyyət subyektləri yol verdikləri hüquq pozuntusuna görə həm də **cinayət-hüquq məsuliyyəti** daşıyırlar. Onlar bu növ hüquq məsuliyyətinə o halda cəlb olunurlar ki, cinayət-hüquq pozuntusu törətsinlər. Söhbət, hər şeydən əvvəl, iqtisadi fəaliyyət sahəsində cinayətlər törədilməsindən gedir. Azərbaycan Respublikasında hazırda qüvvədə olan CM-in XXIV fəsli iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərə görə məsuliyyət nəzərdə tutur. Təsadüfi deyildir ki, həmin fəsil «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» adlanır. Burada iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərin ayrı-ayrı növlərinə –

məsələn, qanuni sahibkarlıq fəaliyyətinə mane olma (CM, maddə 190), qanunsuz sahibkarlıq (CM, maddə 192), yalançı sahibkarlıq (CM, maddə 193), qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə (CM, maddə 195), dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma (CM, maddə 195-1), kreditor borclarını ödəməkdən qəsdən yayınma (CM, maddə 196), əmtəə nişanlarından qanunsuz istifadə etmə (CM, maddə 197), inhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma (CM, maddə 199), istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma (CM, maddə 200) və s. əməllərə görə məsuliyyət müəyyənləşdirilir.

İqtisadi fəaliyyət sferasında həm də **inzibati-hüquq məsuliyyəti** tətbiq olunur. İnzibati-hüquq məsuliyyəti o halda yaranır ki, subyektlər iqtisadi fəaliyyət qaydaları əleyhinə olan inzibati xətalar törətsinlər. Belə xətaların (qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma, yalançı sahibkarlıq, qanunsuz kredit alma, kreditdən təyinatı üzrə istifadə etməmə, əmtəə nişanlarından qanunsuz istifadə etmə, dövlət borcundan istifadə qaydalarını pozma, dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma və s.) törədilməsinə görə Azərbaycan Respublikasında hazırda qüvvədə olan İXM inzibati-hüquq məsuliyyəti nəzərdə tutur. Sözügedən məcəllənin XXXIV fəsli məhz iqtisadi fəaliyyət qaydaları əleyhinə olan inzibati xətaların ayrı-ayrı növlərini sadalayır və onlara görə müvafiq iqtisadi hüquq sanksiyaları müəyyənləşdirir (İXM, maddə 398-441).

Ticarət qaydaları əleyhinə olan inzibati xətalar–məsələn, qiymət intizamının pozulması, qanunsuz küçə ticarəti, elektron ticarət haqqında qanunvericiliyin pozulması və s. əməllər İXM-in XXXV fəslində təsbit edilmişdir (İXM, maddə 442-459).

İXM-in XXXVI fəsli vergi və rüsumların ödənilməsi, eləcə də maliyyə və sığorta qaydaları əleyhinə olan inzibati xətalara həsr edilmişdir (İXM, maddə 460-478). Belə xətalara misal kimi göstərmək olar: vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma, dövlət rüsumunun ödənilməsi

qaydalarının pozulması, icbari sığorta müqaviləsinin bağlanmaması, sığorta növünün qanunsuz aparılması və s.

İnzibati-hüquqi məsuliyyət həm də o halda yaranır ki, inzibati xətalar gömrük qaydaları əleyhinə törədilsin. Gömrük qaydaları əleyhinə törədilən inzibati xətalar İXM-in XXXVII fəslində nəzərdə tutulmuş normalar vasitəsilə tənzimlənir (İXM, maddə 479-509).

### 9.3.2. İqtisadi hüquqda məsuliyyətin əsası

İqtisadi hüquq subyektinin məsuliyyətə cəlb olunması üçün tələb edilən əsas olmalıdır. Əgər əsas yoxdursa, onda iqtisadi hüquq subyektinin məsuliyyət daşımasından söhbət gedə bilməz.

**Məsuliyyətin əsası** dedikdə iqtisadi hüquq subyektinin öz hərəkəti ilə digər subyektə zərər vurması başa düşülür.[1] Odur ki, zərər (zərər vurulması faktı) məsuliyyətin yaranmasının əsası sayılır. Əgər iqtisadi hüquq subyekti öz hərəkəti ilə digər subyektə zərər vurmazsa, onda məsuliyyət də əmələ gələ bilməz. Başqa sözlə, əgər zərər vurmaq faktı yoxdursa, məsuliyyət yarana bilməz. Bu səbəbdən zərər iqtisadi hüquqda məsuliyyətin əmələgəlmə əsası hesab edilir.

Zərərin iki növü fərqləndirilir: 1) əmlak zərəri; 2) mənəvi zərər. **Əmlak zərəri** dedikdə maddi zərər başa düşülür. **Mənəvi zərər** isə qeyri-maddi zərərdir. Çox vaxt iqtisadi hüquq subyektinə əmlak (maddi) zərəri vurulur. Məsələn, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan müəssisə bankdan aldığı krediti qaytarmır. Belə halda banka maddi (əmlak) zərər vurulur.

Bəzən iqtisadi hüquq subyektinə birbaşa əmlak (maddi) zərəri vurulmur. Söhbət iqtisadi hüquq subyektinə mənəvi zərər vurulmasından gedir. Məsələn, iqtisadi fəaliyyətlə məşğul olan

---

[1] Hüquq ədəbiyyatı səhifələrində söylənilən belə bir fikirlə razılaşmaq olmur ki, məsuliyyətin əsası hüquq pozuntusudur. *Məsələn, bax:* Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Отв.ред. О.М.Олейник. М., 1999, с. 174.

müəssisənin işgüzar nüfuzunu pozan və onu ləkələyən yalan məlumatlar yayılır. Bu zaman həmin müəssisəyə mənəvi zərər vurulmuş olur ki, belə zərər pulla kompensasiya edilir. Unutmaq olmaz ki, iqtisadi hüquqda məsuliyyət əmlak (maddi) xarakterində olur.

### 9.3.3. İqtisadi hüquqda məsuliyyətin şərtləri

Məsuliyyətin yaranması, yəni iqtisadi hüquq subyektinin məsuliyyətə cəlb olunması üçün təkcə əsasın (zərər vurulması faktının) mövcud olması kifayət etmir. Bunun üçün həm də tələb edilən şərtlər olmalıdır. Söhbət məsuliyyətin yaranma şərtlərindən gedir. Belə ki, məsuliyyətin əmələgəlmə əsası olan zərər vurulması faktına həmin şərtlər əsasında hüquqi qiymət verilir. Məhz hüquqi qiymət verilməsi nəticəsində iqtisadi hüquq subyektinin zərər vurulmasına gətirib çıxaran hərəkəti (davranışı) hüquq pozuntusu hesab edilir. Əgər iqtisadi hüquq subyektinin hərəkəti (davranışı) tələb edilən şərtlərə uyğun olmaz və cavab verməzsə, həmin hərəkət hüquq pozuntusu sayılmır. Yaddan çıxarmamalıyıq ki, hüquqi məsuliyyətə səbəb olan və ona gətirib çıxaran hərəkət hüquq pozuntusu kimi qiymətləndirilir; hüquqi məsuliyyətə səbəb olmayan hərəkət (davranış) isə hüquq pozuntusu hesab edilmir.[1] Məhz hüquq pozuntusu törətdiyinə görə iqtisadi hüquq subyekti məsuliyyətə cəlb edilir. Nəzərdən qaçırmaq olmaz ki, hüquqi məsuliyyətə səbəb olmaq hüquq pozuntusunu xarakterizə edən əlamətlərdən biridir. Bu və ya digər hüquqazidd hərəkətin (davranışın) hüquq pozuntusu kimi tanınması isə məsuliyyətin şərtləri əsasında mümkün olur.

**Məsuliyyətin şərtləri** dedikdə elə tələblər başa düşülür ki, bu tələblər əsasında iqtisadi hüquq subyektinin hüquqazidd hərəkəti (davranışı) hüquq pozuntusu kimi qiymətləndirilir və məsuliyyətə səbəb olur. Məsuliyyətin şərtlərinə aşağıdakılar

---

[1] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 7-ci nəşr. Bakı, 2011, s.144.

aid edilir: 1) şəxsin hüquqazidd davranışı (hüquqazidd hərəkət və ya hərəkətsizlik); 2) təqsir; 3) zərərli nəticə ilə hüquqazidd davranış arasında səbəbiyyət əlaqəsi. Əgər iqtisadi fəaliyyət subyektinin hüquqazidd davranışı bu şərtlərə uyğun olarsa, həmin davranış hüquq pozuntusu hesab edilir və məsuliyyətə səbəb olur. Hüquqazidd davranış məsuliyyət şərtlərinə cavab verməmdiyi hallarda isə belə davranış hüquq pozuntusu sayılmır və məsuliyyətə səbəb olmur.

Hüquq pozuntusu hüquqazidd davranışın növüdür; onlar bir-birinə yaxın anlayışlar olsalar da, məzmun və mənaca üst-üstə düşmürlər. Belə ki, hüquq pozuntusu həmişə hüquqazidd davranışdır; lakin hüquqazidd davranış bütün hallarda hüquq pozuntusu hesab edilmir. Məsələ burasındadır ki, hüquq pozuntusu bir neçə əlamətlə xarakterizə olunur. Əgər hüquqazidd davranış bu əlamətlərə cavab verərsə, o, hüquq pozuntusu sayılır. Hüquq pozuntusunun əlamətlərindən biri bundan ibarətdir ki, hüquqazidd davranışa yol verilməsində subyektin təqsiri olmalıdır. Əgər subyektin təqsiri yoxdursa, onun davranışı hüquq pozuntusu kimi qiymətləndirilmir. Unutmaq olmaz ki, hüquq pozuntusu subyektin təqsirli davranışıdır. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisə əlverişsiz hava şəraitinə görə şəhərdəki satış-ticarət müəssisəsinə müqavilədə nəzərdə tutulmuş həcmdə məhsul göndərə bilmir. Bununla həmin müəssisə ondan asılı olmayan səbəbə görə (havaların çox şaxtalı keçməsi, boran olması səbəbindən) öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirə bilmir; lakin bu, hüquqazidd davranış olsa da, hüquq pozuntusu sayılmır. Odur ki, müəssisə bu halda müqavilə öhdəliyini yerinə yetirməməyə görə məsuliyyət daşımır, çünki müqavilə öhdəliyinin icra olunmamasında onun təqsiri yoxdur. Belə ki, müqavilə öhdəliyi müəssisənin təqsiri üzündən deyil, başqa səbəbə görə (havaların sərt şaxtalı keçməsi səbəbindən) icra olunmur.

# IX FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *X FƏSİL.*
# İQTİSADİ MÜBAHİSƏLƏRİN HƏLLİ HÜQUQU

## 10.1. İqtisadi mübahisələrin həlli hüququ – iqtisadi hüququn institutu kimi

### 10.1.1. İqtisadi mübahisələrin həlli hüququnun anlayışı

İqtisadi hüququn **ümumi hissəsinin** ibarət olduğu hüquq institutlarından biri iqtisadi mübahisələrin həlli hüquq institutu adlanır. Bu **institut** özündə elə hüquq normalarını birləşdirir ki, bu normalar iqtisadi fəaliyyət subyektləri arasında yaranan təsərrüfat mübahisələrinin həlli qaydasını müəyyənləşdirir. Təsərrüfat mübahisələri isə iqtisadi fəaliyyət prosesində yaranır. İqtisadi fəaliyyət prosesində yarandığına görə belə mübahisələr həm də **iqtisadi mübahisələr** adlanır. Digər tərəfdən, təsərrüfat mübahisələrinin iqtisadi mübahisələr adlanması həm də bununla izah edilir ki, iqtisadi fəaliyyət, qeyd etdiyimiz kimi, təsərrüfat fəaliyyətidir. Odur ki, iqtisadi mübahisələr təsərrüfat fəaliyyəti prosesində müvafiq subyektlər arasında əmələ gələn təsərrüfat mübahisələrindən başqa ayrı bir şey deyildir.

**İqtisadi mübahisələrin həlli hüququ** dedikdə iqtisadi hüququn ümumi hissəsinin elə bir institutu başa düşülür ki, bu institut iqtisadi fəaliyyət prosesində yaranan təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarından ibarətdir. Həmin normalar isə zahirən öz normativ ifadəsini ayrı-ayrı normativ hüquqi aktlarda tapır; belə normalara həm qanunlarda, həm də qanunqüvvəli aktlarda rast gəlinir.

İnzibati-komanda iqtisadiyyatının mövcud olduğu dövrdə iqtisadi mübahisələrin həlli hüquq institutunun əsas funksiyası müqaviləqabağı mübahisələrə baxılması qaydasını müəyyənləşdirməkdən ibarət idi. **Müqavilə-qabağı mübahisələr** dedikdə plan müqavilələrinin bağlanması və onların şərtləri barədə yaranan ixtilaflar başa düşülürdü. Belə müqavilələr plan tapşırığına uyğun olmalı idi. Tərəflər hətta plan tapşırığında nəzərdə tutulan şərtlərlə müqavilə bağlanmasına məcbur edilirdilər.

Plan müqavilələrinin yerinə yetirdiyi funksiyalar içərisində birinci yeri plan tapşırığının konkretləşdirilməsi tuturdu. Belə müqavilələrin plan tapşırığında nəzərdə tutulan şərtlərlə bağlanması tərəflər üçün məcburi idi. Bu kimi hallarda, təbii ki, tərəflər arasında mübahisə yaranırdı ki, onlar müqaviləqabağı mübahisələr adlanırdı. Müqaviləqabağı mübahisələr dövlət arbitrajı praktikasında baxılıb həll olunan mübahisələrin xeyli hissəsini təşkil edirdi. İdarəetmə orqanı qismində çıxış edən dövlət arbitrajı tərəfindən dövlətin mənafeyi ifadə olunurdu.

Bazar iqtisadiyyatına keçid ilə əlaqədar iqtisadi (təsərrüfat) mübahisələrin mahiyyəti dəyişdi. Belə ki, iqtisadi fəaliyyət mülkiyyətin müxtəlif formaları (növləri) əsasında həyata keçirilməyə başladı; təsərrüfat fəaliyyətinin həyata keçirilməsində iştirak edən subyektlərin sayı çoxaldı. Təbii ki, bu kimi hallarda xüsusi (özəl) mənafeyin müdafiəsi ilə bağlı müəyyən mübahisələr yaranır. Bazar iqtisadiyyatı subyektləri (iştirakçıları) arasında yaranan belə mübahisələr artıq dövlət (publik) mənafeyini ifadə etməkdən çox uzaqdır. Bazar iqtisadiyyatı subyektləri arasında əmələ gələn mübahisələrin həlli üçün isə dövlət arbitrajının deyil, ədalət mühakimə orqanının yaradılması tələb edilirdi. Bundan ötrü Azərbaycan Respublikasında xüsusi ədalət mühakimə orqanları – iqtisad məhkəmələri yaradılmışdır. İqtisad məhkəmələri Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini həyata keçirən ədalət mühakimə orqanlarından biridir. Bu orqanın əsas işi təsərrüfat subyektləri arasında yaranan iqtisadi mübahisələrə baxıb həll etməkdən ibarətdir.

### 10.1.2. İqtisadi mübahisələrin həlli hüququnun nizamasalma predmeti

İqtisadi mübahisələrin həlli hüquq institutu vasitəsilə **iqtisadi fəaliyyət prosesində yaranan təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətlərin** hüquqi tənzimlənməsi həyata keçirilir. Məhz bu münasibətlər sözügedən institutun **nizamasalma predmetini** təşkil edir. Həmin münasibətlərdə **iki tərəf** iştirak edir. Söhbət o tərəflərdən gedir ki, onlar arasında

iqtisadi (təsərrüfat) mübahisə yaranır. Tərəflər təsərrüfat (iqtisadi) mübahisələrinə baxılması ilə bağlı münasibətlərin subyektləridir. Təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətlərin subyektləri dedikdə həmin münasibətlərin real (faktiki) iştirakçıları başa düşülür. Təbii ki, iqtisadi fəaliyyətin istənilən subyekti (məsələn, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, hüquqi şəxslər və s.) bu münasibətlərin real iştirakçısı ola bilər.

Təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətlərin potensial (mümkün) iştirakçıları isə **iqtisadi mübahisələrin həlli hüququnun subyektləri** adlanır. İqtisadi fəaliyyətlə məşğul olan hansı şəxs təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətlərdə iştirak edə bilərsə, o da iqtisadi mübahisələrin həlli hüququnun subyekti kimi tanınır.

Subyektlər (tərəflər) arasında mübahisə o halda yaranır ki, subyektiv hüquqlar pozulmuş olsun. Məhz subyektiv hüquqların pozulması təsərrüfat (iqtisadi) mübahisələrinə baxılması ilə bağlı münasibətlərin **obyekti** sayılır; münasibət nəyin barəsində yaranırsa, o da həmin münasibətin obyektidir.

Təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətlərin **məzmunu** dedikdə mübahisə tərəflərinin hüquq və vəzifələrinin məcmusu başa düşülür. Onlardan biri maddi-hüquqi tələb irəli sürmək hüququna malikdir; digər tərəf isə ona qarşı irəli sürülmüş maddi-hüquqi tələbi təmin etmək vəzifəsi daşıyır və s.

İqtisadi fəaliyyət subyektləri arasında yaranmış təsərrüfat mübahisələri, adətən, məhkəmənin köməyi ilə həll olunur; məlumdur ki, hüquqların məhkəmə müdafiəsinin əsas hüquqi vasitəsi isə iddiadır. Belə ki, subyektiv hüquq pozulduqda özünü bu hüququn daşıyıcısı hesab edən şəxs qanunvericilikdə nəzərdə tutulan qaydada məhkəməyə müraciət edir. Məhkəməyə edilən bu cür müraciətə **iddia** deyilir. Bu, **prosessual mənada iddiaya** verilən anlayışdır. İddiaya həm də **maddi-hüquqi mənada** anlayış verilir. Maddi-hüquqi mənada iddia dedikdə subyektiv hüquq daşıyıcısının subyektiv vəzifə daşıyıcısına irəli sürdüyü maddi-hüquqi tələb başa düşülür. Maddi-hüquqi tələb

irəli sürən subyektiv hüquq daşıyıcısı **iddiaçı** adlanır. Subyektiv vəzifə daşıyıcısına isə **cavabdeh** deyilir ki, iddiaçı ona qarşı maddi-hüquqi tələb irəli sürür. Odur ki, təsərrüfat mübahisələrinə baxılması hüququnun subyektləri həm iddiaçıdan, həm də cavabdehdən ibarətdir. İqtisadi fəaliyyətlə məşğul olan istənilən şəxs iddiaçı, eləcə də cavabdeh qismində çıxış edə bilər.

## 10.2. İqtisadi mübahisələrin həlli hüququnun mənbələri və prinsipləri

### 10.2.1. İqtisadi mübahisələrin həlli hüququnun mənbələri

Təsərrüfat mübahisələrinə baxılması ilə bağlı münasibətləri tənzimləyən **normativ hüquqi aktlar** iqtisadi mübahisələrin həlli hüququnun əsas mənbəyidir. Söhbət, hər şeydən əvvəl, **qanunlardan** gedir. Qanunlar içərisində, ilk növbədə, Konstitusiyasının adı çəkilməlidir. Axı dövlətin əsas qanunu olan **Konstitusiya** bütün hüquq sahələrinin və onlara aid edilən hüquq institutlarının (o cümlədən iqtisadi mübahisələrin həlli hüquq institutunun) normativ əsası sayılır. Konstitusiyanın xüsusilə də iki maddəsinin (26 və 60-cı maddələr) bu institutun mənbəyi olmaq baxımından mühüm əhəmiyyəti vardır. İnsan və vətəndaş hüquqlarının (azadlıqlarının) müdafiəsinə həsr edilən 26-cı maddədə deyilir ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır; dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Konstitusiyanın 60-cı maddəsi isə hüquq və azadlıqların məhkəmə təminatına həsr olunmuşdur. Bu maddənin I hissəsində göstərilir ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiyanın məhkəmə hakimiyyətinə həsr olunan 7-ci fəslinin də, həmçinin iqtisadi mübahisələrin həlli hüququ üçün vacib əhəmiyyəti vardır. Axı iqtisadi fəaliyyət prosesində yaranan mübahisələrə məhkəmələr baxır və bu zaman məhkəmə hakimiyyəti həyata keçirilir. Konstitusiyanın 125-ci maddəsinin II hissəsində Azərbaycan Respublikasında məhkəmə hakimiy-

yətini həyata keçirən ədalət mühakimə orqanları sadalanır. İnzibati-iqtisadi məhkəmələr bu kimi orqanlar sırasına daxildir ki, onların yerinə yetirdiyi əsas funksiya həm də iqtisadi mübahisələrə baxıb həll etməkdən ibarətdir. Hazırda müvafiq əraziləri əhatə edən aşağıdakı inzibati-iqtisadi məhkəmələr fəaliyyət göstərir: 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi, Gəncə İnzibati-İqtisadi Məhkəməsi, Şirvan İnzibati-İqtisadi Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi.[1]

İqtisadi mübahisələrin həlli hüququnun mənbəyi olan qanunlar sırasına həm də **Mülki Məcəllə** aiddir. İnzibati-İqtisadi Məhkəmə iqtisadi mübahisələrə dair işlərə baxarkən, ilk növbədə, iddia müddətinin tətbiqi barədə məsələni həll edir. İddia müddəti isə MM ilə müəyyən edilir. Onun 375-ci maddəsində göstərilir ki, hüququn müdafiəsi haqqında tələb iddia müddətinin keçməsindən asılı olmayaraq məhkəmə tərəfindən baxılmağa qəbul edilir; məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir; belə ərizənin verilməsi iddia müddətinin keçməsinə görə məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır.[2]

İqtisadi mübahisələrin həlli hüququnun mənbəyi olan qanunlardan biri **Mülkü-Prosessual Məcəllə** (MPM) hesab edilir. Bu məcəllə Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydasını müəyyən edir (MPM-in 1-ci maddəsinin 1-ci hissəsi). İqtisadi mübahisələrə dair işlər üzrə iddianın verilməsi, iddia ərizəsinin forması və məzmunu, iddia ərizəsinin qaytarılması, iddianın təmin edilməsi, işin məhkəmədə baxılmağa hazırlanması, məhkəmə baxışı və digər məsələlər həmin məcəllə ilə tənzimlənir. Bu məcəllə həm də müəyyən edir ki, hansı mübahisələr

---

[1] URL:http://www.courts.gov.az (30.01.2017-ci il).

[2] *Daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı, 2008, s. 908.

inzibati-iqtisadi məhkəmələrə aiddir (MPM-in 26-cı maddəsi). Unutmaq olmaz ki, bu məhkəmələr sözügedən MPM ilə səlahiyyətlərinə aid edilmiş inzibati və iqtisadi mübahisələrə baxır.

**İnzibati-Prosessual Məcəllə** (İPM) də iqtisadi mübahisələrin həlli hüququnun mənbəyi sayılır. Bu qanun inzibati-iqtisadi məhkəmələr barədə müvafiq normalar nəzərdə tutur ki, bu məhkəmələr həm inzibati, həm də iqtisadi mübahisələrə baxır (İPM, maddə 1-9 və s.).

**«Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu** (1999-cu il) iqtisadi mübahisələrin həlli hüququn mənbəyi olan normativ hüquqi aktlardan biridir. Bu qanun beynəlxalq ticarət arbitrajına tətbiq edilir. Beynəlxalq ticarət arbitrajı beynəlxalq ticarət, dəniz gəmiçiliyi və digər xarici iqtisadi əlaqələrdən yaranan mübahisələrə baxır.

**Beynəlxalq müqavilələr** iqtisadi mübahisələrin həlli hüququnun digər mənbə növüdür. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. Belə müqavilələr iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydasını müəyyənləşdirən mülki məhkəmə icraatı haqqında qanunvericiliyin tərkibinə daxildir (MPM-in 1-ci maddəsinin 1-ci hissəsi). Əgər həmin müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyənləşdirilərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

İqtisadi (təsərrüfat) mübahisələrə baxılmasını tənzimləyən aktlar sırasına həm də **Münsiflər məhkəməsi haqqında Əsasnamə** daxildir. Əsasnamə münsiflər məhkəməsinin fəaliyyətini tənzimləyən əsas sənəddir. Lakin son illərdə «Münsiflər məhkəməsi haqqında» Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanaraq müzakirəyə çıxarılmış və baxılmaq mərhələsindədir.[1]

Münsiflər məhkəməsinin fəaliyyət göstərməsinə gəldikdə, qeyd etməliyik ki, MPM iqtisadi mübahisənin (ümumiyyətlə, istənilən mübahisənin) münsiflər məhkəməsinə verilməsini mümkün hesab edir (MPM-in 29-cu maddəsi). Belə ki, MPM-ə

---

[1] URL:http://www.e-qanun.az və ya legalreform.az (28.04.2017-ci il).

görə, məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda münsiflər məhkəməsinin həllinə verilə bilər. Lakin işdə iştirak edən tərəflər buna razılıq verməlidirlər; razılıq yazılı formada olmalıdır. Münsiflər məhkəməsinə **arbitraj** və ya **arbitraj məhkəməsi** də deyilir ki, o, dövlət məhkəmə orqanı sayılmır. Arbitraj qeyri-dövlət məhkəmə sisteminə daxildir. Bəzi xarici ölkələrdə (məsələn, Rusiya Federasiyasında və s.) arbitraj iqtisadi (təsərrüfat) mübahisələrə baxan dövlət məhkəməsi kimi tanınır.

### 10.2.2. İqtisadi mübahisələrin həlli hüququnun prinsipləri

İqtisadi mübahisələrin həlli hüququ özünəxas prinsiplərə əsaslanır. **İqtisadi mübahisələrin qüvvədə olan mövcud qanunvericilik əsasında həll edilməsi prinsipi** bu prinsiplərdən biridir. Adıçəkilən prinsipə görə, iqtisadi mübahisələrə dair işlər Konstitusiya və digər qanunlar, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr tətbiq edilməklə həll olunur. İqtisadi mübahisələrə dair işlərə baxan inzibati-iqtisadi məhkəmələr xüsusilə də mülki məhkəmə icraatı haqqında qanunvericiliyə əməl etməlidirlər. Mülki məhkəmə icraatı haqqında qanunvericilik həm də iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydasını müəyyənləşdirir.

**İqtisadi mübahisələr üzrə ədalət mühakiməsinin yalnız inzibati-iqtisadi məhkəmələr tərəfindən həyata keçirilməsi prinsipi** sözügedən institutun əsaslandığı prinsiplərdən digəridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, inzibati-iqtisadi məhkəmələrdən başqa, digər hər hansı məhkəmə orqanı iqtisadi mübahisələr üzrə ədalət mühakiməsini həyata keçirmək səlahiyyətinə malik deyil, iqtisadi mübahisələrə dair işlər yalnız inzibati-iqtisadi məhkəmələr tərəfindən baxılıb həll edilir. Məhz bu məhkəmələr qanunla səlahiyyətlərinə aid edilmiş iqtisadi mübahisələrə dair işlərə baxır.

İqtisadi mübahisələr üzrə ədalət mühakiməsini həyata keçirərkən hakimlər müstəqildirlər. Bu, yəni **hakimlərin müstəqilliyi prinsipi** iqtisadi mübahisələrin həlli hüququnun məzmununu müəyyənləşdirən prinsiplər sırasına daxildir. Bu prinsipə görə, hakimlər iqtisadi mübahisələri azad şəraitdə, müstəqil surətdə və kənar müdaxilə olmadan həll edirlər.

İqtisadi mübahisələrə birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır. İqtisadi mübahisələrə dair işə həm də kollegial qaydada baxıla bilər. Belə ki, apellyasiya qaydasında işlərə sədrlik edənin və digər iki hakimin, kassasiya qaydasında isə sədrlik edənin, iki və ya daha çox hakimin iştirakı ilə baxılır. İşə təkbaşına və ya kollegial baxılmasından asılı olmayaraq, hakim müstəqildir.

Bunlardan başqa, iqtisadi mübahisələrin həlli hüququnun mahiyyəti həm də **digər prinsiplərdə** təzahür edir və öz ifadəsini tapır: 1) iqtisadi mübahisələr üzrə ədalət mühakiməsinin hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərbərliyi əsasında həyata keçirilməsi prinsipi (bu prinsipə görə, iqtisadi mübahisəyə baxan məhkəmə tərəfindən hər hansı amildən asılı olmayaraq işdə iştirak edən şəxslərdən hər hansı birinə üstünlük verilmir); 2) insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması prinsipi (bu prinsipə görə, iqtisadi mübahisəyə baxan məhkəmə orqanı işdə iştirak edən bütün şəxslərin Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidir); 3) iqtisadi mübahisələrə obyektiv baxılması prinsipi (bu prinsipə görə, inzibati-iqtisadi məhkəmələr iqtisadi mübahisələrə dair işlərə yalnız MPM-ə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında baxmalıdırlar); 4) iqtisadi mübahisələrin qərəzsiz həll edilməsi prinsipi (bu prinsip bunda ifadə olunur ki, inzibati-iqtisadi məhkəmələr iqtisadi mübahisələri hər hansı maraq olmadan və tərəfkeşlik etmədən həll etməlidir); 5) ədalət prinsipi (bu prinsipə görə, inzibati-iqtisadi məhkəmələr iqtisadi mübahisələrə dair işlərə ədalətlə baxmalıdırlar) və s.

## 10.3. İqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydası

### 10.3.1. İddianın verilməsi

İqtisadi mübahisələrə dair işlərə birinci instansiya məhkəməsində baxılır. Söhbət Azərbaycan Respublikasında fəaliyyət göstərən müvafiq inzibati-iqtisadi məhkəmələrdən gedir ki, onlar birinci instansiya məhkəməsi qismində çıxış edirlər.

İqtisadi mübahisələrə dair işlərə inzibati-iqtisadi məhkəmələrdə baxılması mürəkkəb xarakterli prosesdir. Sözügedən proses bir neçə mərhələdən ibarətdir ki, bu mərhələlər bir-biri ilə qarşılıqlı surətdə bağlıdır. **İddianın verilməsi** həmin prosesin **birinci mərhələsi** hesab edilir. Bu proses iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydası əsasında həyata keçirilir ki, həmin qayda MPM ilə müəyyən olunur. MPM iqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydasını müəyyənləşdirən əsas normativ hüquqi aktdır.

İddianın verilməsi mərhələsi iddiaçının məhkəməyə **iddia ərizəsi** verməklə müraciət etməsilə başlayır. İddia ərizəsi **yazılı formada** verilməlidir. İddia ərizəsində qanunla tələb edilən məlumatlar göstərilməlidir. Belə məlumatlara aşağıdakılar aiddir: 1) ərizənin verildiyi məhkəmənin adı; 2) işdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları; 3) iddiaçının tələbi və onun öz tələbini əsaslandırdığı hal; iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb; 4) ərizəyə əlavə edilən sənədlərin siyahısı və s.

İddiaçının borcudur ki, iddia ərizəsinə qanunla tələb olunan sənədləri **əlavə** etsin. Belə ki, o, iddia ərizəsinə aşağıdakı sənədləri qoşmalıdır: 1) cavabdehlərin sayına görə iddia ərizəsinin surətləri; 2) dövlət rüsumunun ödənilməsi haqqında sənəd; 3) nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə və ya digər sənəd; 4) iqtisadi mübahisələr üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında qəbz; 5) iddiaçının öz tələbini əsaslandırdığı hallara dair sənədlər və s.

İddia ərizəsi iddiaçı tərəfindən imzalanır. İddia ərizəsini iddiaçının səlahiyyətli nümayəndəsi də imzalaya bilər; lakin nümayəndənin iddia ərizəsini imzalamağa səlahiyyəti olmalıdır.

### 10.3.2. İqtisadi mübahisələrə baxılma prosesinin digər mərhələləri

Prosesin **ikinci mərhələsində** iqtisadi mübahisələrə dair **işlər baxılmağa hazırlanır**. Bu mərhələdə hakim bütün lazım olan zəruri hərəkətləri edir ki, həmin hərəkətlər işin məhkəmə iclaslarında araşdırmalar aparılmasına və işə mahiyyəti üzrə baxılıb qətnamə qəbul edilməsinə yönəlir. Hakim, ilk növbədə, işin məhkəmədə baxılmağa hazırlanması haqqında **qərardad** çıxarır. Bundan sonra o, işi məhkəmədə baxılmağa hazırlamaq üçün tələb olunan hərəkətləri edir. Məsələn, cavabdehi və şahidləri çağırır, tərəflərin barışması üçün tədbirlər görür, işdə iştirak edən şəxslərə işin icraatı barədə məlumat verir və s.

**Məhkəmə baxışı** prosesin **üçüncü mərhələsidir**. Bu mərhələdə işə mahiyyəti üzrə baxılır və iş üzrə hallar araşdırılır. Sonda işə baxan hakim işi mahiyyəti üzrə həll edir və buna dair müvafiq qətnamə qəbul edir. Bununla iqtisadi mübahisə məhkəmə qaydasında həll olunur, nizama salınır.

Bununla yanaşı, tərəflər öz aralarında yaranmış iqtisadi mübahisəni məhkəməyə müraciət etmədən də həll edə bilərlər; bundan ötrü mübahisə tərəflərindən biri digərinə **pretenziya** göndərir. Əgər pretenziya etiraf edilərək təmin olunarsa, belə halda, təbii ki, məhkəmə yolundan istifadə olunmur. Mübahisənin pretenziya qaydasında həll edilməsi onun məhkəməyəqədər qaydada nizama salınması və tənzimlənməsidir.

İqtisadi mübahisə həm də **münsiflər məhkəməsi** tərəfindən nizama salına bilər. Belə ki, qeyd etdiyimiz kimi, prosesin ikinci mərhələsində hakim işi məhkəmədə baxılmağa hazırlamaq üçün bir neçə hərəkət edir; mübahisənin həlli üçün tərəflərin münsiflər məhkəməsinə müraciət hüququnu onlara izah etmək bu hərəkətlərdən biridir.

Mübahisə tərəfləri məhkəmə işini **barışıq sazişi** bağlamaqla qurtara bilərlər. Belə ki, işin məhkəmədə baxılmaqla hazırlanması prosesində hakim tərəflərin barışması üçün tədbirlər görür; əgər görülmüş tədbirlər müsbət nəticələnərsə, onda tərəflər arasında barışıq sazişi bağlanılır. Belə halda məhkəmə tərəfindən işin mahiyyəti üzrə həll edilməsi və iddianın təmin olunması barədə qərar qəbul edilməsindən söhbət gedə bilməz.

### 10.3.3. Beynəlxalq arbitraj

İqtisadi mübahisələr həm də arbitraj (fransızca – «arbitrage») tərəfindən baxılıb həll olunur. Arbitraj tərəflərin razılığı ilə yaradılan iqtisadi (təsərrüfat) mübahisələrə baxan orqandır; lakin bu, dövlət orqanı hesab edilmir. Belə ki, arbitraj qeyridövlət sisteminə aid olan orqan kimi tanınır.

Arbitraj daxili, yəni Azərbaycan Respublkasının daxilində yaranan iqtisadi mübahisələrə baxır. Xarici iqtisadi münasibətlərdən (məsələn, xarici ticarət və digər iqtisadi münasibətlərdən) əmələ gələn iqtisadi mübahisələr isə beynəlxalq arbitraj tərəfindən həll edilir. Beynəlxalq arbitrajın fəaliyyəti ayrıca xüsusi qanunla tənzimlənir. Bundan ötrü 18 noyabr 1999-cu ildə Azərbaycan Respublikasında «Beynəlxalq arbitraj haqqında» Qanun qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilməklə beynəlxalq ticarət arbitrajına tətbiq olunur; onunla tənzimlənən məsələlərə dair heç bir məhkəmə müdaxiləsi olmamalıdır. Sözügedən qanuna görə, arbitraj aşağıdakı hallarda beynəlxalq sayılır: 1) arbitraj sazişi bağlanarkən tərəflərin müəssisələri müxtəlif dövlətlərdə yerləşərsə; 2) əgər arbitraj sazişinin predmeti birdən çox dövlət ilə bağlıdırsa (bu barədə tərəflər qəti razılığa gəlməlidirlər); 3) aşağıdakı yerlərdən biri tərəflərin öz müəssisələrinin olduğu dövlətin hüdudlarından kənarda yerləşərsə: a) arbitrajın yeri, əgər bu yer arbitraj sazişində və yaxud ona uyğun müəyyən edilmişdirsə; b) cinayət münasibətlərindən irəli gələn öhdəliklərin əsas hissəsinin icra edilməli olduğu hər hansı yer və yaxud mübahisəli predmetin sıx əlaqəli olduğu yer.

Əgər sadalanan üç şərtdən birinə cavab verərsə, arbitraj beynəlxalq arbitraj sayılır.[1]

İqtisadi mübahisənin beynəlxalq arbitrajda baxılması üçün tərəflər arasında arbitraj sazişinin bağlanması tələb olunur. Əgər tərəflərin bağladıqları belə sazişdə nəzərdə tutularsa, iqtisadi mübahisənin beynəlxalq arbitrajın həllinə verilməsi mümkün sayılır. Təbii ki, əgər tərəflərin öz aralarında bağladıqları sazişdə müəyyən edilməmişdirsə, iqtisadi mübahisəyə beynəlxalq arbitrajda baxılmasına yol verilmir. Beynəlxalq arbitraj dedikdə elə bir məhkəmə orqanı başa düşülür ki, bu orqanın tərkibi bir və ya bir neçə arbitrdən ibarətdir. Arbitr mübahisəyə təkbaşına, bir neçə arbitr isə kollegial qaydada baxır. Odur ki, arbitraj məhkəməsi təkbaşına arbitr və ya arbitrlər kollegiyasıdır. Arbitr (latınca – «arbiter», vasitəçi)[2] arbitraj üzvüdür.

Arbitraj sazişinə gəldikdə isə, qeyd etməliyik ki, onun normativ anlayışı «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 1-ci hissəsində formulə edilmişdir. Burada göstərilir ki, **arbitraj sazişi** konkret hüquq münasibəti tərəflərinin öz aralarında yarana biləcək mübahisələrin hamısının və ya müəyyən mübahisələrin arbitraja verilməsi barədə razılığa gəlmələridir (razılaşmasıdır). Bu cür razılaşma yazılı formada olur. Başqa sözlə, arbitraj sazişi yazılı formada bağlanılır.

İqtisadi mübahisəyə beynəlxalq arbitrajda baxılması müəyyən bir proses olub, **bir neçə mərhələdən** ibarətdir. Həmin mərhələlər bunlardan ibarətdir: 1) iddia ərizəsinin verilməsi; 2) işin arbitraj məhkəməsində baxılmağa hazırlanması; 3) arbitraj məhkəmə baxışı; 4) arbitraj qərarının çıxarılması.

İddia ərizəsinin verilməsi arbitraj prosesinin **birinci mərhələsi** hesab edilir. Bu mərhələdə iddiaçı tərəfindən arbitraj məh-

---

[1] *Bu barədə bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 21.
[2] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.47.

kəməsinə iddia[1] təqdim olunur. Bununla arbitraj prosesi başlanır.

Arbitraj prosesinin **ikinci mərhələsində** iş arbitraj prosesində baxılmağa hazırlanır. Bu mərhələdə mübahisənin mahiyyəti üzrə iddiaya baxılıb arbitraj qərarı qəbul edilməsinə yönələn bütün zəruri hərəkətlər edilir. Hər şeydən əvvəl, arbitrajın yeri müəyyən olunur; arbitrajın yerini arbitraj məhkəməsi müəyyənləşdirir. İkinci mərhələdə həm də arbitraj baxışının aparılacağı dil müəyyən olunur. Bu məsələni tərəflər özləri həll edirlər. Belə ki, tərəflər dil barəsində razılığa gələ bilərlər. Belə razılıq olmadıqda arbitraj məhkəməsi arbitraj baxışında istifadə ediləcək dil və yaxud dilləri müəyyən edir.

Arbitraj məhkəmə baxışı arbitraj prosesinin **üçüncü mərhələsidir**. Bu mərhələ mübahisənin arbitraja verilməsi barədə müraciəti cavabdeh aldığı gündən başlanır. Məhkəmə baxışını həyata keçirən arbitraj məhkəməsi müəyyən tərkibdə (sayda) fəaliyyət göstərir ki, onu (yəni arbitraj məhkəməsinin tərkibini) tərəflər özləri müəyyən edirlər; tərəflər bu sayı müəyyən etmədikdə isə mübahisəyə üç arbitr baxır.

Arbitraj prosesinin **dörüncü mərhələsində** arbitraj qərarı çıxarılır. Bu mərhələ isə arbitraj məhkəməsi tərəfindən mübahisənin mahiyyəti üzrə qərar qəbul edilməsindən ibarətdir. Qərar tərəflərin seçdikləri və mübahisəyə tətbiq edilə biləcək hüquq normaları əsasında çıxarılır. Əgər tərəflər tətbiq olunan hüquq normalarını müəyyən etməmişlərsə, onda arbitraj məhkəməsi beynəlxalq xüsusi hüququn mümkün saydığı kolliziya normalarına uyğun müəyyənləşdirilən hüququ (hüquq normalarını) tətbiq etməklə qərar çıxarır.[2]

Arbitraj məhkəməsinin qəbul etdiyi arbitraj qərarı **yazılı formada** olmalıdır. Arbitraj qərarı arbitr tərəfindən imzalanmalı-

---

[1] *İddia ərizələri barədə ətraflı bax: məsələn,* Bayramov T.Z. İddia ərizələri: sənədlərin nümunələri və kommentariyaları. Bakı, 2010, 182 s.

[2] Kollizion normalar barədə bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 800.

dır. Əgər mübahisəyə bir neçə arbitr tərəfindən baxılarsa, onda arbitraj qərarını arbitrlər imzalayırlar. Arbitraj məhkəməsinin imzalanmış surətləri tərəflərə (həm iddiaçıya, həm də cavabdehə) göndərilir.

Bəzən arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırmaq və barışmaq barədə razılığa gəlirlər. Bu zaman onlar arasında barışıq sazişi bağlanır və buna görə də arbitraj məhkəməsi baxışa xitam verir. Mübahisənin aradan qaldırılması arbitraj qərarı formasında rəsmiləşdirilir. **Barışıq sazişi** dedikdə tərəflərin qarşılıqlı güzəştlər əsasında məhkəmə mübahisəsinə xitam verilməsi barədə razılaşması başa düşülür.

Arbitraj məhkəməsi bəzən arbitraj baxışına **xitam verilməsi** haqqında qərar çıxarır. Bu kimi hallara aiddir: 1) əgər iddiaçı öz tələbindən imtina edərsə; 2) tərəflər arbitraj məhkəmə baxışına xitam verilməsi barədə razılığa gələrlərsə; 3) arbitraj məhkəməsi bu və ya digər səbəbə görə arbitraj baxışını mümkünsüz və lazımsız sayarsa.

Beynəlxalq arbitrajda həyata keçirilən prosesə **arbitraj icraatı** deyilir. Arbitraj icraatı isə qanunla müəyyənləşdirilmiş qaydada aparılır. Bu qayda, yəni arbitraj icraatının aparılması qaydası «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Həmin qanunun 5-ci fəsli məhz bu məsələlərin tənzimlənməsinə həsr olunmuşdur.

# X FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XÜSUSİ HİSSƏ.*
# İQTİSADİ HÜQUQUN YARIMSAHƏLƏRİ

## *XI FƏSİL.*
## MALİYYƏ HÜQUQU

### 11.1. Maliyyə hüququ – iqtisadi hüququn tərkib hissəsi kimi
### 11.1.1. Maliyyə hüququ anlayışı

Cəmiyyətin iqtisadi-təsərrüfat həyatında mövcud olan ictimai münasibətlərin bir hissəsi dövlət maliyyəsi ilə bağlı yaranır. **Dövlət maliyyəsi** dedikdə dövlətin həyata keçirdiyi elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət pul vəsaiti fondlarının yaradılmasına, pul vəsaiti fondlarının bölgüsünə və bu fondlardan istifadə olunmasına yönəlmişdir.[1] Söhbət dövlətin maliyyə fəaliyyətindən gedir. **Dövlətin maliyyə fəaliyyəti** dedikdə pul vəsaiti fondlarının yaradılması, pul vəsaiti fondlarının bölgüsü və onlardan istifadə olunması ilə əlaqədar dövlətin yerinə yetirdiyi iş başa düşülür.[2] Məhz dövlətin maliyyə fəaliyyəti prosesində dövlət maliyyəsinə dair ictimai münasibətlər yaranır ki, onlar **maliyyə münasibətləri** adlanır. Əlbəttə, maliyyə münasibətləri xaotik halda nə yaranır, nə də mövcud olur; əks halda maliyyə sferasında, necə deyərlər, hərcmərclik və nizamsızlıq hökm sürərdi. Məsələ burasındadır ki, ictimai münasibətlərin digər növləri kimi maliyyə münasibətləri müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənməklə qaydaya salınır. Həmin normaların məcmu halda birləşməsi maliyyə hüququ adlanır və o, iqtisadi hüquq sistemində yarımsahə statusuna malikdir. İqtisadi hüququn **xüsusi hissəsi** məhz maliyyə hüququndan başlayır.

**Maliyyə hüququ** dedikdə dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn maliyyə münasibətlərini tənzimləyən hüquq normalarının elə məcmusu başa düşülür ki, həmin münasibətlər

---

[1] Məmmədov S. Maliyyə. Dərslik. Bakı, 1992.

[2] Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.20-21.

pul vəsaiti fondlarının yaradılması, pul vəsaiti fondlarının bölüşdürülməsi və onlardan istifadə olunması ilə bağlı yaranır. Yaşadığımız həyatda əmələ gələn maliyyə münasibətlərinin tənzimlənməsi məhz maliyyə hüququ vasitəsi ilə həyata keçirilir. Maliyyə münasibətləri isə hakimiyyət-tabeçilik xarakteri daşıyır. Axı maliyyə münasibətlərinin tərəflərindən biri mütləq hakimiyyət səlahiyyətli subyekt (qurum), yəni dövlət və bələdiyyə olmalıdır. Odur ki, maliyyə hüququ publik hüquq sahəsinə aid edilir. Məlum olduğu kimi, Roma hüququ dövründən bəri hüquq iki sahəyə bölünür:[1] 1) publik hüquq (jus publicum); 2) xüsusi hüquq (jus privatum).

**Publik hüquq** hakimiyyət xarakterli münasibətləri tənzimləyən sahədir. Maliyyə hüququ məhz bu sahəyə aiddir. Maliyyə hüququndan başqa, publik hüquqa həm də cinayət, inzibati və konstitusiya hüququ daxildir.

**Xüsusi hüquq** isə ayrı-ayrı şəxslər (fiziki və hüquqi şəxslər) arasındakı münasibətləri tənzimləyir ki, bu münasibətlər hakimiyyət-tabeçilik xarakteri daşımır. Məsələn, mülki hüquq xüsusi hüquqa aiddir.

Maliyyə hüququnun əhəmiyyəti kifayət dərəcədə böyükdür. Yaddan çıxarmamalıyıq ki, dövlətin maliyyə fəaliyyətinin hüquqi tənzimlənməsi məhz maliyyə hüququ vasitəsi ilə həyata keçirilir. Dövlətin maliyyə fəaliyyəti nəticəsində dövlət büdcəsinə zəruri və lazım olan miqdarda pul vəsaitləri yığılır və akkumulyasiya edilir ki, bu vəsaitlər dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsinə, ölkənin təhlükəsizliyinin və müdafiəsinin təmin olunmasına yönəlir. Dövlət büdcəsinə toplanan pul vəsaitləri hesabına iqtisadiyyatın inkişafı və ətraf mühitin qorunması üzrə dövlət proqramları realizə olunur, ölkənin elmi-texniki potensialı möhkəmlənir, mədəniyyət və təhsil inkişaf edir, əhalinin və onun sosial qruplarının maddi həyat sə-

[1] Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı, 1999, 224 s.; Дождев Д.В. Римское частное право. Учебник. М., 1999, с.784; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.726, 930.

viyyəsi yüksəlir, cinayətkarlıqla mübarizə güclənir və s. Maliyyə hüququnun da əhəmiyyəti məhz bunlarla müəyyən olunur və şərtlənir.

### 11.1.2. Maliyyə hüququnun nizamasalma predmeti

Qeyd etdik ki, maliyyə hüququ vasitəsi ilə maliyyə münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir ki, bu münasibətlər hakimiyyət xarakteri daşıyır. Məhz **hakimiyyət xarakterli maliyyə münasibətləri** maliyyə hüququnun nizamasalma predmetini təşkil edir. Maliyyə hüququnun **nizamasalma predmetini** təşkil edən maliyyə münasibətləri isə pul vəsaitləri fondlarının yaradılması, yaradılmış pul vəsaitləri fondlarının bölüşdürülməsi və onlardan istifadə olunması ilə bağlı yaranır.

Maliyyə münasibətləri üç əsas əlamətlə xarakterizə olunur. Birinci əlamət bundan ibarətdir ki, maliyyə münasibətləri bütün hallarda **dövlətin maliyyə fəaliyyəti prosesində** yaranır. Dövlətin maliyyə fəaliyyəti prosesindən kənarda yaranan maliyyə münasibətləri isə maliyyə hüququnun nizamasalma predmetinə daxil olmur. Maliyyə hüququnun nizamasalma predmeti yalnız dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn maliyyə münasibətlərindən ibarətdir.

İkinci, maliyyə hüququnun nizamasalma predmetini təşkil edən maliyyə münasibətlərində iştirak edən tərəflərdən heç olmazsa biri **hakimiyyət səlahiyyətli qurum olmalıdır**. Hakimiyyət səlahiyyətli qurum dedikdə, hər şeydən əvvəl, dövlət (Azərbaycan Respublikası) başa düşülür. Bələdiyyələr də hakimiyyət səlahiyyətinə malikdir. Lakin, hakimiyyət səlahiyyətinə malik olsa da, onlar qeyri-dövlət qurumudur. Düzdür, maliyyə münasibətlərində tərəf qismində dövlətin və bələdiyyənin bilavasitə özü çıxış etmir; onlar öz səlahiyyətli orqanları vasitəsi ilə maliyyə münasibətlərinin iştirakçısı olurlar. Məsələn, dövlət büdcəsi və yerli büdcə ilə bağlı maliyyə münasibətlərində dövlət, eləcə də bələdiyyələr öz orqanları vasitəsi ilə iştirak edirlər.

Üçüncü, maliyyə hüququnun nizamasalma predmetini təşkil edən maliyyə münasibətləri bütün hallarda **pul barəsində və**

**onunla bağlı yaranır**. Pul barəsində və onunla bağlı əmələ gəlməyən maliyyə münasibətləri maliyyə hüququnun nizamasalma predmetinə daxil olmur. Pul xüsusi əmtəədir;[1] ümumi ekvivalent rol oynaması onun spesifik xüsusiyyətidir.[2] Unutmaq olmaz ki, pul digər əmtəələrin dəyərini özündə əks etdirir.[3] Məsələn, dövlət büdcəsinə mədaxiletmə və ya dövlət büdcəsindən xərcləmə pul formasında həyata keçirilir; dövlət büdcəsinə mədaxiletmə və dövlət büdcəsindən xərcləmə ilə bağlı münasibətlər maliyyə münasibətləridir.[4]

Beləliklə, maliyyə hüququnun nizamasalma predmetini təşkil edən maliyyə münasibətlərinin bir neçə növü fərqləndirilir ki, onlar aşağıdakılardan ibarətdir: 1) büdcə münasibətləri; 2) dövlət gəlirləri ilə bağlı münasibətlər; 3) dövlət xərcləri ilə bağlı münasibətlər; 4) hesablaşma - ödəniş münasibətləri və s.

## 11.2. Maliyyə hüququnun subyektləri, mənbələri və prinsipləri

### 11.2.1. Maliyyə hüququnun subyektləri

Maliyyə münasibətlərinin müvafiq hüquq normaları ilə tənzimlənməsi nəticəsində həmin münasibətlər **hüquqi forma** alır. Söhbət maliyyə-hüquq münasibətləri kimi hüquqi formadan gedir. Belə ki, maliyyə-hüquq münasibətləri maliyyə münasibətlərinin hüquqi formasıdır. **Maliyyə-hüquq münasibətləri** dedikdə maliyyə-hüquq normaları ilə tənzimlənən və nizama salınan ictimai münasibətlər başa düşülür.

Hüquq münasibətinin istənilən növü kimi, maliyyə-hüquq münasibətləri də quruluşca üç elementdən ibarətdir ki, subyekt

---

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.167.

[2] *Pulun etimologiyası, funksiyaları və ümumi xarakteristikası barədə ətraflı bax:* Qafarov Ş.S. Pulun diktaturası. Monoqrafiya. Bakı, 2014, s.147-201.

[3] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və başqaları. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.149.

[4] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s.328.

həmin elementlərdən biridir. Maliyyə-hüquq münasibətlərinin subyekti dedikdə həmin münasibətlərin real (faktiki) iştirakçıları başa düşülür. Maliyyə-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları isə **maliyyə hüququnun subyektləri** adlanır.

**Dövlət (Azərbaycan Respublikası)** maliyyə hüququnun əsas subyektidir. Bu onunla izah olunur ki, qeyd etdiyimiz kimi, maliyyə-hüquq münasibətlərinin tərəflərindən biri hökmən dövlət olmalıdır. Unutmaq olmaz ki, dövlət maliyyə-hüquq münasibətlərinin labüd və məcburi iştirakçısıdır. Digər tərəfdən, nəzərə almalıyıq ki, maliyyə-hüquq münasibətləri məhz dövlətin həyata keçirdiyi maliyyə fəaliyyəti prosesində əmələ gəlir. Dövlətin maliyyə fəaliyyətindən kənarda maliyyə-hüquq münasibətləri nə yarana, nə də mövcud ola bilər.

Maliyyə-hüquq münasibətlərində subyekt qismində dövlətin bilavasitə özü iştirak etmir. Belə ki, subyekt rolunda maliyyə-hüquq münasibətlərində dövlətin adından və onun əvəzinə səlahiyyətli orqanlar çıxış edir. Maliyyə-hüquq münasibətlərində subyekt kimi dövlət məhz bu orqanlar vasitəsi ilə təmsil olunur. Həmin orqanlara aiddir: 1) Milli Məclis; 2) Nazirlər Kabineti; 3) Maliyyə Nazirliyi. Milli Məclis dövlət büdcəsinin maliyyəsini müzakirə və təsdiq edir. Nazirlər Kabineti dövlət büdcəsinin icrasını təmin edən əsas dövlət orqanıdır. Maliyyə Nazirliyi isə dövlət büdcəsinin layihəsinin tərtibi üzrə bütün praktiki işləri görür.

**Azərbaycan Respublikasının Prezidenti** maliyyə hüququnun xüsusi subyektidir. Baxılmaq və təsdiq olunmaq üçün dövlət büdcəsinin layihəsi Milli Məclisə məhz Prezident tərəfindən təqdim olunur.

Maliyyə hüququnun subyektləri sırasına həm də **bələdiyyələr** daxildir. Bələdiyyələr yerli büdcə ilə bağlı hüquq münasibətlərinin iştirakçısıdır. Belə ki, yerli büdcə tərtib, müzakirə, təsdiq və icra edilən hallarda onlar maliyyə-hüquq münasibətlərinin (maliyyə hüququnun) subyekti rolunda çıxış edirlər. Düzdür, maliyyə-hüquq münasibətlərində bələdiyyələrin özü

bilavasitə iştirak etmir; onlar həmin münasibətlərdə öz səlahiyyətli orqanları vasitəsilə təmsil olunurlar. Belə orqanlara aiddir: 1) yerli büdcə məsələləri üzrə daimi komissiya; 2) bələdiyyə iclası. Yerli büdcə məsələləri üzrə daimi komissiya yerli büdcənin layihəsini tərtib edir. Bələdiyyə iclası isə yerli büdcə layihəsinə baxır, onu müzakirə edir və təsdiqləyir.

### 11.2.2. Maliyyə hüququnun mənbələri

Maliyyə hüququnun əsas mənbə növü **normativ hüquqi aktlar** hesab edilir. Normativ hüquqi aktlar dedikdə, ilk növbədə, **qanunlar** başa düşülür. Qanunlar içərisində xüsusilə də **Konstitusiya** (1995-ci il) vacib rol oynayır və mühüm əhəmiyyət kəsb edir. Nəzərdən qaçırmaq olmaz ki, dövlətin əsas qanunu olan Konstitusiya həm bütün hüquq sahələrinin, həm də ayrı-ayrı yarımsahələrin, eləcə də onların institutlarının normativ bazası sayılır. Ali hüquqi qüvvəyə malik olan bu qanun dövlətin maliyyə fəaliyyətinin hüquqi əsaslarını müəyyənləşdirir, büdcə münasibətlərinin tənzimlənməsinə və qaydaya salınmasına aid müvafiq normalar nəzərdə tutur. Konstitusiya xüsusilə də büdcə prosesinin nizama salınmasına diqqət yetirir. Belə ki, Nazirlər Kabineti dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir; bu, onun səlahiyyətinə aid edilən məsələdir (maddə119). Prezident ona təqdim olunmuş dövlət büdcəsinin layihəsini Milli Məclisin təsdiqinə verir (maddə 109); bu, Prezidentin səlahiyyətinə aid olan məsələlərdən biridir. Milli Məclisin səlahiyyəti isə dövlət büdcəsini təsdiq etməkdən və onun icrasına nəzarəti həyata keçirməkdən ibarətdir (maddə 95).

Maliyyə hüququnun mənbələrinə həm də sistemləşdirilmiş qanun olan **Mülki Məcəllə** (1999-cu il) aiddir. Bu qanun dövlət büdcəsinin vəsaitini dövlət mülkiyyəti hesab edir (MM-in 155-ci maddəsi).

Maliyyə hüququnun mənbəyi olan normativ hüquqi aktlardan biri **«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu** (2002-ci il) sayılır. Bu qanun Azərbaycan Res-

publikasının büdcə sistemini müəyyənləşdirir və büdcə münasibətlərinin tənzimlənməsinə aid normalar nəzərdə tutur.

**«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2004-cü il) maliyyə hüququnun mənbələri sırasına daxildir. Adıçəkilən qanunda mühasibat uçotu subyektləri, o cümlədən publik hüquqi şəxslər tərəfindən maliyyə hesabatlarının tərtib edilməsi qaydaları və digər məsələlərə dair standart və normalar müəyyənləşdirilir.

Dövlətin maliyyə fəaliyyətinin tənzimlənməsində qanunlarla bərabər, həm də **qanunqüvvəli aktlar** iştirak edir. Belə ki, normativ hüquqi aktların növlərindən biri olan qanunqüvvəli aktlar maliyyə münasibətlərinin qaydaya salınmasında vacib rol oynayır. Söhbət, hər şeydən əvvəl, Prezident fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından gedir ki, onlar qanunqüvvəli aktlar sırasına aiddir.[1] Belə aktlarda maliyyə münasibətlərinin nizama salınmasına dair normalara rast gəlmək mümkündür. Bu normalar xüsusilə də hesablaşma-ödəniş məsələlərinin hüquqi həllinə toxunur.

Qanunqüvvəli normativ aktlar sırasına həm də Maliyyə Nazirliyinin **hüquqi xarakterli sənədləri** aiddir. Bu sənədlər içərisində elələri vardır ki, onlar maliyyə-hüquq normaları müəyyənləşdirir.

Maliyyə hüququnun mənbəyi olan normativ hüquqi aktların məcmu halda birləşməsi **maliyyə qanunvericiliyi** adlanır. Maliyyə qanunvericiliyinin əsas funksiyası maliyyə hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətləri – dövlətin maliyyə fəaliyyəti ilə bağlı münasibətləri (maliyyə münasibətlərini) tənzimləməkdən ibarətdir. Maliyyə qanunvericiliyinə həm qanunlar, həm də qanunqüvvəli aktlar daxildir.[2]

---

[1] *Bu sənədlərin siyahısı barədə bax: məsələn,* Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.283-400.

[2] Финансовое право. Учебное пособие / Под ред. М.В. Кустовой, Н.А.Шевелевой. СПб. , 2014, с.27.

### 11.2.3. Maliyyə hüququnun özünəməxsus prinsipləri

Maliyyə hüququnun məzmunu və mahiyyəti onun özünəməxsus prinsiplərində təzahür edir. Maliyyə hüququnun özünəməxsus prinsipləri dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn münasibətləri hüquqi tənzimetmənin əsas ideya və rəhbər başlanğıclarıdır ki, onlar normativ əhəmiyyətə malikdirlər. Belə münasibətlərin hüquqi tənzimlənməsi məhz bu prinsiplər əsasında və onlara uyğun olaraq həyata keçirilir.

**Unitarizm** maliyyə hüququnun özünəməxsus prinsiplərindən biridir. Həmin prinsip bunda ifadə olunur ki, Azərbaycan Respublikasında yalnız bir dövlət büdcəsi qəbul edilir. Belə ki, Azərbaycan Respublikasında dövlət büdcəsi vahiddir. Bu səbəbdən unitarizm prinsipi həm də dövlət büdcəsinin vahidliyi prinsipi adlanır.

Unitarizm (dövlət büdcəsinin vahidliyi) prinsipi öz siyasi-ərazi quruluşuna görə Azərbaycan Respublikasının dövlət forması ilə bağlıdır. Konstitusiyanın 7-ci maddəsinin I hissəsinə görə, öz siyasi-ərazi quruluşuna görə Azərbaycan dövləti unitar respublikadır. Odur ki, Azərbaycan Respublikasında məhz bir dövlət büdcəsi təsdiq edilir.

Azərbaycan Respublikasında yerli büdcənin tərtib edilməsinə gəldikdə, qeyd etmək lazımdır ki, yerli büdcə bələdiyyə büdcəsidir. Bələdiyyə büdcəsi isə dövlət büdcəsi hesab olunmur. Nəzərdən qaçırmaq olmaz ki, bələdiyyə dövlət hakimiyyət orqanı sayılmır.[1]

**Dövlət büdcə sisteminin birsəviyyəli olması prinsipi** də maliyyə hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, Azərbaycan Respublikasının (dövlətin) büdcə sistemi quruluşca təkcə bir mərhələdən (səviyyədən) ibarətdir. Bələdiyyə büdcəsi olan yerli büdcə isə büdcə sisteminə daxil deyildir. Bəzi xarici ölkələrdə (məsələn, ABŞ, Almaniya, Rusiya Federasiyası və s.) isə yerli büdcə dövlət büdcə sisteminə aid edilir.

---

[1] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, s. 101.

Məsələ burasındadır ki, həmin dövlətlərin büdcə sistemi quruluşca ikisəviyyəli (ikimərhələli) olub, dövlət büdcəsi və yerli büdcədən ibarətdir. Bu kimi dövlətlərdə yerli büdcənin payına büdcə resurslarının (vəsaitlərinin) 30, 40 və ya 50 faizi düşür.[2]

**Publik xərclərin ilkinliyi prinsipi** maliyyə hüququnun prinsiplərindən digəridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, dövlət-hakimiyyət işlərinin görülməsi üçün zəruri vəsaitlər dövlət büdcəsindən birinci növbədə ayrılır və xərclənir. Yaddan çıxarmamalıyıq ki, dövlət büdcəsi hökumətin mərkəzləşdirilmiş pul vəsaitləri fondudur. Bu fond, ilk növbədə, dövlət aparatının və silahlı qüvvələrin saxlanılması, təhsil, səhiyyə və sosial müavinətlərə dair xərclərin ödənilməsi üçün istifadə olunur; bu kimi məsələlər dövlət fəaliyyətinin əsas istiqamətləridir. Buna görə də həmin məsələlərin büdcədən maliyyələşdirilməsinə birincidərəcəli əhəmiyyət verilir.

Maliyyə hüququ həm də **maliyyə planı prinsipinə** əsaslanır. Maliyyə planı prinsipinə görə, dövlətin maliyyə fəaliyyəti büdcə formasında maliyyə planı əsasında həyata keçirilir. Büdcə maliyyə planının formasıdır ki, bu forma özündə dövlətin həyata keçirdiyi maliyyə fəaliyyətini əks etdirir. Maliyyə planı olan büdcədə həm dövlət gəlirləri, həm də dövlət xərcləri ifadə olunur.

**Büdcənin hər il təsdiq olunması prinsipi** də maliyyə hüququnun prinsiplərindən biri kimi tanınır. Bu prinsip öz ifadəsini dövlət büdcəsinin bir maliyyə (büdcə) ili üçün qəbul edilməsində və təsdiq olunmasında tapır.

**Yerli büdcənin müstəqilliyi prinsipi** də maliyyə hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, bələdiyyələr yerli büdcə vəsaitlərinə sərəncam verməkdə müstəqil və sərbəstdir. Digər tərəfdən, dövlət orqanları (qanunvericilik və icra hakimiyyəti orqanları) bələdiyyələrin büdcə fəaliyyətinə müdaxilə edə bilməzlər. Unutmaq olmaz ki, yerli büdcə dövlət deyil, bələdiyyə büdcəsidir. Məhz bu səbəbdən maliyyə ilinin

[2] Экономическая теория. Учебник /Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.368.

sonunda yerli büdcədə əmələ gələn maliyyə qalıqlarına bələdiyyələr sərbəst şəkildə və heç bir dövlət orqanından asılı olmadan sərəncam verirlər.

### 11.2.4. İqtisadi hüquq sistemində maliyyə hüququnun tutduğu yer

Müəlliflər, bir qayda olaraq, maliyyə hüququnu müstəqil hüquq sahələrindən biri kimi tanıyırlar.[1] Müstəqil hüquq sahəsi kimi maliyyə hüququnun rəsmən tanınması XX əsrin 60-cı illərinin axırlarına – 70-ci illərinin əvvəllərinə təsadüf edir. Alimlər arasında elələri də vardır ki, onların fikrincə, müstəqil hüquq sahəsi olsa da, maliyyə hüququ iki hüquq sahəsindən ayrılmışdır: 1) dövlət (konstitusiya) hüququ; 2) inzibati hüquq.

Zənnimizcə, maliyyə hüququna iqtisadi hüququn yarımsahəsi kimi yanaş-maq daha ağlabatan və həqiqətə uyğundur. Məsələ burasındadır ki, iqtisadi hüquqla bazar subyektləri arasında təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində əmələ gələn iqtisadi münasibətlər tənzimlənir; iqtisadi münasibətlər həm də maliyyə bazarında əmələ gəlir. **Maliyyə bazarı** dedikdə maliyyə-valyuta sahəsində satıcılarla alıcılar arasında yaranan iqtisadi münasibətlərin məcmusu başa düşülür.[2] Hansı sahədə yaranmasından asılı olmayaraq bütün iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi, təbii ki, iqtisadi hüquqla həyata keçirilməlidir. Maliyyə münasibətləri də, mahiyyətcə, iqtisadi münasibətlər kimi xarakterizə edilir. Hüquqi tənzimlənmənin həyata keçirilməsi üçün iqtisadi hüququn tərkibində maliyyə hüququ kimi struktur element ayrılmışdır ki, bu qurum **yarımsahə «statusu»** ilə iqtisadi hüququn sisteminə daxil olur. Deməli, maliyyə hüququ iqtisadi hüququn yarımsahələrindən biridir. Öz yarımsahəsi vasitəsi ilə iqtisadi hüquq maliyyə bazarında əmələ gələn

---

[1] *Məsələn, bax:* Финансовое право. Учебник / Под ред. О.Н.Горбуновой. М., 2000; Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2011, s. 327; Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s. 28.

[2] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və başqaları. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.108.

iqtisadi münasibətləri və maliyyə fəaliyyəti prosesində yaranan digər məsələləri tənzimləyir. Bundan əlavə, beynəlxalq maliyyə hüququ beynəlxalq iqtisadi hüququn yarımsahələrindən biri kimi tanınır.[1] Bu kontekstdə də maliyyə hüququ iqtisadi hüququn yarımsahəsi hesab edilir.

Maliyyə hüququ ümumi və xüsusi hissəyə bölünür. Başqa sözlə, maliyyə hüququ iki hissədən ibarətdir: 1) ümumi hissə; 2) xüsusi hissə. **Ümumi hissə** maliyyə hüququnun bütün institutlarını əhatə edən prinsip və müddəalardan ibarətdir: maliyyə fəaliyyətinin hüquqi əsasları, maliyyə hüququnun prinsipləri, sistemi və mənbələri, maliyyə-hüquq normaları, maliyyə-hüquq münasibətləri, maliyyə-hüquq subyektləri, maliyyə nəzarəti və s.

Maliyyə hüququnun **xüsusi hissəsi** aşağıdakı institutlardan ibarətdir: büdcə hüququ, dövlət büdcə gəlirləri hüququ, dövlət büdcə xərcləri hüququ və yerli büdcə hüququ. Bunlar əsas institutlar olub, maliyyə hüququnun xüsusi hissəsini təşkil edir. Maliyyə hüququnun ümumi hissəsinə aid olan normaları həmin institutlara tətbiq etmək mümkündür.

### 11.2.5. Maliyyə nəzarəti hüququ

İqtisadi hüququn yarımsahəsi kimi tanınan maliyyə hüququ özündə bir neçə hüquq institutunu birləşdirir. Həmin institutlardan biri maliyyə nəzarəti hüququ və ya sadəcə olaraq, maliyyə nəzarəti institutu adlanır; özü də maliyyə nəzarəti hüququ maliyyə hüququnun ümumi hissəsinin institutu hesab edilir.

**Maliyyə nəzarəti hüququ** dedikdə maliyyə hüququnun elə bir institutu başa düşülür ki, bu institut özündə büdcə-pul vəsaitlərinin yığılması, bölüşdürül-məsi və onlardan istifadə olunması üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir. Maliyyə hüququnun bu vacib institutunun əsas işi və funksiyası maliyyə nəzarəti ilə bağlı münasibətləri tənzimləməkdən ibarətdir. Bəs maliyyə nəzarəti dedikdə nə başa düşülür?

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 375.

**Maliyyə nəzarəti** dövlət nəzarətinin növlərindən biridir; özü də dövlət nəzarətinin növləri içərisində maliyyə nəzarəti xüsusi yer tutur.[1] Dövlət nəzarə-tinin bu növünü dövlət idarəetməsinin müxtəlif sferalarında səlahiyyətli dövlət orqanları həyata keçirir. Maliyyə nəzarəti həm də səlahiyyətli bələdiyyə orqanları tərəfindən həyata keçirilir. Odur ki, maliyyə nəzarəti dövlət (bələdiyyə) maliyyə nəzarəti adlanır.[2]

**Dövlət (bələdiyyə) maliyyə nəzarəti** dedikdə səlahiyyətli dövlət və bələdiyyə orqanları tərəfindən həyata keçirilən xüsusi növ elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət büdcə-pul vəsaitlərinin yığılması, bölüşdürülməsi və onlardan istifadə olunmasına yönəlir. Buna görə də maliyyə nəzarəti eyni zamanda **büdcə nəzarəti** də adlanır. Maliyyə və ya büdcə nəzarəti özündə **üç prosesi** əhatə edir: 1) büdcə-pul vəsaitlərinin yığılması; 2) büdcə-pul vəsaitlərinin bölüşdürülməsi, 3) büdcə-pul vəsaitlərindən istifadə olunması.

**Büdcə-pul vəsaitləri** dedikdə həm dövlət, həm də yerli (bələdiyyə) büdcə-pul resursları başa düşülür. Bu səbəbdən maliyyə nəzarəti hüquq institutu iki **subinstitutdan** ibarətdir: 1) dövlət maliyyə nəzarəti hüququ; 2) yerli (bələdiyyə) maliyyə nəzarəti hüququ. Dövlət maliyyə nəzarəti hüququ xüsusilə mühüm əhəmiyyətə malikdir. Onun əsas funksiyası dövlət maliyyə nəzarətini tənzimlə-məkdən və qaydaya salmaqdan ibarətdir. Dövlət maliyyə nəzarəti isə, adətən, geniş mənada işlədilir ki, bu anlayışla büdcə, vergi, bank, gömrük və dövlət idarəetməsinin müxtəlif sahələrində həyata keçirilən digər nəzarət növləri əhatə olunur.

Maliyyə nəzarətinin həyata keçirilməsi maliyyənin nəzarət funksiyası ilə bağlıdır. Məlum olduğu kimi, maliyyə nəzarəti hüququ üç funksiya yerinə yetirir: 1) bölgü funksiyası; 2) tənzimləmə funksiyası; 3) nəzarət funksiyası. Maliyyə nəzarətinin

---

[1] Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.63.

[2] Финансовое право. Учебное пособие / Под ред. М.В.Кустовой, Н.А.Шевелевой. СПб., 2014, с.205.

həyata keçirilməsi maliyyənin məhz nəzarət funksiyasından irəli gəlir.[1]

Maliyyə nəzarəti müxtəlif növlərdə həyata keçirilir. Hüquq ədəbiyyatı səhifələrində onun **üç əsas forması** fərqləndirilir: 1) ilkin nəzarət; 2) cari nəzarət; 3) sonrakı nəzarət. Əgər nəzarət büdcə-pul vəsaitlərinin yığılmasına, bölüşdürülməsinə və istifadə edilməsinə yönələn maliyyə əməliyyatlarına başlamazdan əvvəl həyata keçirilərsə, bu, **ilkin nəzarət** adlanır. Əgər nəzarət maliyyə əməliyyatlarının yerinə yetirilməsi prosesində həyata keçirilərsə, buna **cari nəzarət** deyilir. Maliyyə əməliyyatlarının axırında həyata keçirilən nəzarət isə **sonrakı nəzarət** adlanır.

Maliyyə nəzarətinin həm də digər növləri fərqləndirilir. Belə ki, maliyyə nəzarəti ayrı-ayrı meyarlara (əsaslara) görə təsnif edilərək müxtəlif növlərə bölünür. Məsələn, nəzarəti həyata keçirən səlahiyyətli orqanlara görə maliyyə nəzarətinin aşağıdakı növləri mövcuddur: 1) parlament nəzarəti, 2) Prezident nəzarəti; 3) maliyyə-kredit orqanlarının nəzarəti; 4) idarədaxili nəzarət; 5) təsərrüfatdaxili nəzarət; 6) auditor nəzarəti.

## 11.3. Maliyyə hüququnun xüsusi hissəsi

### 11.3.1. Büdcə hüquq institutu

Qeyd etmək lazımdır ki, **büdcə hüququ** maliyyə hüququnun xüsusi hissəsinin bir institutudur və bu institut özündə büdcə münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir; onun **nizamasalama predmeti** də məhz həmin münasibətlərdən, yəni büdcə münasibətlərindən ibarətdir. Büdcə münasibətləri büdcə-pul vəsaitlərinin toplanması (yığılması), bölüşdürülməsi və onlardan istifadə edilməsi prosesində yaranır.

Maliyyə münasibətlərinin növlərindən biri büdcə münasibətləridir. Büdcə münasibətləri isə, əlbəttə, büdcə ilə bağlı əmələ

---

[1] *Maliyyə nəzarəti hüququnun funksiya və prinsipləri barədə ətraflı bax: məsələn,* Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2009, s. 347-348.

gəlir. Büdcə anlayışı isə üç mənada işlədilir: 1) iqtisadi mənada; 2) hüquqi mənada; 3) maddi mənada.

**İqtisadi mənada büdcə** dedikdə pul vəsaitlərinin yığılması (toplanması), bölüşdürülməsi və onlardan istifadə olunması ilə bağlı iqtisadi (pul) münasibətlər başa düşülür. Bu mənada büdcə iqtisadi kateqoriya kimi tanınır.

**Hüquqi mənada büdcə** anlayışı hüquqi kateqoriya kimi çıxış edir. Bu mənada büdcə dedikdə hüquqi akt rolunu oynayan maliyyə planı başa düşülür ki, belə plan pul vəsaitlərinin toplanması (yığılması), bölüşdürülməsi və onlardan istifadə edilməsi ilə bağlı tərtib olunur.

**Maddi mənada büdcə** dedikdə toplanan (yığılan) və formalaşan pul fondu başa düşülür. Büdcədə (dövlət büdcəsində) toplanan (yığılan) pul vəsaiti (dövlət büdcə vəsaiti) Azərbaycan Respublikasının (Azərbaycan dövlətinin) mülkiyyəti-dir. Yerli büdcə vəsaiti isə bələdiyyənin mülkiyyəti hesab edilir.

Büdcə hüququ ilə müxtəlif məsələlərin tənzimlənməsi həyata keçirilir ki, Azərbaycan Respublikasının büdcə sistemi həmin məsələlərdən biridir. Hər bir dövlətdə müxtəlif səviyyələrdə büdcə mövcud olur ki, onların məcmusuna **büdcə sistemi** deyilir. Büdcə sisteminin təşkil olunması və onun əsaslandığı prinsiplər isə **büdcə quruluşu** adlanır.

Azərbaycan Respublikasında büdcə sistemi **iki pillədə** təşkil olunmuşdur. Büdcə sisteminin birinci pilləsi dövlət, ikinci pilləsi isə yerli büdcədir. Odur ki, Azərbaycan Respublikasında büdcə sistemi ikipilləlidir. Həmin pillələr büdcə sisteminin müstəqil hissələridir.

Büdcə sisteminin iki pillədən ibarət olması siyasi-ərazi quruluşuna görə dövlətin forması ilə bağlıdır. Məlum olduğu kimi, siyasi-ərazi quruluşuna görə dövlətin iki əsas forması fərqləndirilir: 1) unitar dövlət; 2) federativ dövlət. Unitar dövlətlərdə büdcə sistemi dövlət büdcəsi və yerli büdcə kimi iki pillədən ibarətdir. Konstitusiyaya görə (maddə 7), Azərbaycan Respublikası unitar dövlətdir. Bu səbəbdən Azərbaycan Respublikasının büdcə sisteminə ikipilləli büdcə daxildir: 1) dövlət büdcəsi; 2)

yerli büdcə. Naxçıvan Muxtar Respublikasının büdcəsinə gəldikdə, qeyd etməliyik ki, onun büdcəsi büdcə sisteminin müstəqil pilləsi (hissəsi) hesab olunmur. Məsələ burasındadır ki, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa (2002-ci il) görə, Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikasının dövlət büdcə sisteminə daxildir.

Federativ dövlətlərin büdcə sistemi **üç pillədən ibarətdir:** 1) federal dövlət büdcəsi; 2) federasiya subyektlərinin büdcəsi; 3) yerli büdcə. Məsələn, Rusiya Federasiyası, ABŞ və s. dövlətlərin büdcə sisteminə üç pillə daxildir.[1]

Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan həm dövlət büdcəsi, həm də yerli büdcə müstəqildir. Dövlət və yerli büdcənin müstəqil olmasına baxmayaraq, Azərbaycan Respublikasının büdcə sistemi vahiddir. Yaddan çıxarmamalıyıq ki, büdcə hüququ **büdcə sisteminin vahidliyi prinsipindən** çıxış edir. Bu prinsip büdcə quruluşunun əsasıdır.

Büdcə hüququ həm də **büdcə sisteminin pillələrinin müstəqil olması prinsipindən** çıxış edir. Bu prinsipə görə, həm dövlət, həm də yerli büdcə müstəqildir. Həmin prinsip öz ifadəsini bünda tapır ki, həm dövlət, həm də yerli büdcə vəsaitləri müstəqil və sərbəst şəkildə xərclənir.

Dövlət büdcəsi Azərbaycan Respublikasının büdcə sisteminin pillələrindən ibarətdir. **Azərbaycan Respublikasının dövlət büdcəsi** dedikdə dövlətin vəzifə və funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan pul vəsaitlərinin toplanması və onlardan istifadə olunması barədə maliyyə sənədi başa düşülür. Dövlət büdcəsinin məqsədi zəruri olan pul vəsaitlərini toplamaq və onlardan istifadə olunmasını təmin etməkdən ibarətdir. İqtisadi, sosial və digər sahələrdə dövlət öz vəzifələrini yerinə yetirməkdən ötrü məhz büdcədə toplanan pul vəsaitlərindən istifadə edir.

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.568.

Azərbaycan Respublikasının büdcə sisteminin digər pilləsi yerli büdcədir. **Yerli büdcə** dedikdə toplanmış və yığılmış elə pul vəsaitləri başa düşülür ki, bu vəsaitləri yerli özünüidarəetməni həyata keçirən bələdiyyələr öz vəzifə və funksiyalarını yerinə yetirməkdən ötrü istifadə edir. Əvvəllərdə qeyd etdiyimiz kimi, yerli büdcə dövlət büdcəsi sayılmır və ona daxil olunmur. Yerli büdcə qeyri-dövlət büdcəsidir; ona həm də **bələdiyyə büdcəsi** deyilir.

Büdcə hüququ ilə tənzimlənən məsələlərdən biri büdcə prosesidir. **Büdcə prosesi** dedikdə elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət büdcənin tərtib edilməsinə (formalaşmasına), büdcənin müzakirə olunmasına (baxılmasına), büdcənin təsdiq edilməsinə və onun icra olunmasına yönəlir. Belə fəaliyyətin tənzimlənməsi müvafiq maliyyə-hüquq normaları vasitəsilə həyata keçirilir. Həmin normalar isə «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur. Bu qanuna görə, büdcə prosesi elə bir fəaliyyətdir ki, bu fəaliyyət həm dövlət, həm də yerli büdcəyə aiddir. Belə ki, həm dövlət, həm də yerli büdcə tərtib, təsdiq və icra olunur.

Mürəkkəb xarakterə malik olan büdcə prosesi **üç əsas mərhələdən** ibarətdir: 1) büdcə layihəsinin tərtibi; 2) büdcə layihəsinə baxılması və onun təsdiq olunması; 3) büdcənin icrası və bu barədə hesabatın təsdiq edilməsi. Bu mərhələlər həm dövlət, həm də yerli büdcə prosesinə aiddir.

**Dövlət büdcə layihəsinin tərtibi mərhələsi** növbəti büdcə (maliyyə) ilinə 11 ay qalmış başlayır. Büdcə (maliyyə) ili yanvar ayının 1-dən dekabr ayının 31-dək olan birillik vaxt dövrünü əhatə edir. Məhz bu dövr ərzində dövlət büdcəsi qüvvədə olur. Dövlət büdcə layihəsinin tərtibi ilə bağlı işlər Maliyyə Nazirliyi tərəfindən görülür. Onun tərtib etdiyi dövlət büdcəsinin layihəsi ali nümayəndəlik (qanunvericilik) orqanına göndərilir; bununla büdcə prosesinin birinci mərhələsi başa çatır.

Sonra büdcə prosesinin ikinci mərhələsi – **dövlət büdcəsinə baxılması və onun təsdiq olunması mərhələsi** başlayır. Belə ki, Prezident dövlət büdcəsinin layihəsini baxılmaq və təsdiq olunmaq üçün Milli Məclisə təqdim edir. Milli Məclis ona təq-

dim olunmuş dövlət büdcə layihəsinə baxır və layihəni müzakirə edir. Qəbul olunmaq üçün səsə qoyulduqdan sonra layihə dövlət büdcəsi haqqında müvafiq qanunla təsdiq edilir.

Dövlət büdcəsinin layihəsi müəyyən olunmuş müddət ərzində təsdiq olunmalıdır. Belə ki, dövlət büdcəsinin layihəsi Milli Məclisdə cari ilin dekabr ayının 20-dən gec olmayaraq təsdiq edilməlidir. Bu iş görüldükdən, yəni dövlətin büdcə layihəsi təsdiq olunduqdan sonra büdcə prosesinin üçüncü mərhələsi – **büdcənin icrası və bu barədə hesabatın təsdiq edilməsi mərhələsi** başlayır. Bu mərhələdə, ilk növbədə, dövlət büdcəsi icra olunur.

Dövlət büdcəsinin icrası dedikdə büdcə üzrə nəzərdə tutulan bütün gəlirlərin tam və vaxtında toplanmasının (yığılmasının) və büdcə üzrə müəyyən edilən bütün xərclərin maliyyələşdirilməsinin təmin olunması başa düşülür. Bu işi Nazirlər Kabineti görür; Nazirlər Kabineti dövlət büdcəsinin icrasını təmin edən əsas orqandır. Bu orqan büdcənin icrasını təmin etmək səlahiyyətini Maliyyə Nazirliyinin köməyi ilə həyata keçirir.

Büdcə icra olunduqdan sonra büdcə (maliyyə) ilinin axırlarında bütün büdcə hesabları bağlanılır; bu, büdcənin bağlanmasını ifadə edir. Büdcə bağlandıqdan sonra büdcənin icrası barədə hesabat tərtib olunur. Məhz büdcənin icrası barədə hesabatın təsdiq edilməsi ilə büdcə prosesi başa çatır. Belə ki, tərtib olunmuş hesabatı və müvafiq qanun layihəsini Prezident növbəti ilin may ayının 15-dən gec olmayaraq Milli Məclisə təqdim edir. Hesablama Palatası həmin layihə barəsində rəy verir. Bundan sonra Milli Məclis ona təqdim olunmuş layihəni müzakirə edir. Bunun nəticəsində Milli Məclis tərəfindən dövlət büdcəsinin icrası barədə müvafiq qanun qəbul olunur. Bununla büdcə prosesinin üçüncü mərhələsi başa çatır.

### 11.3.2. Dövlət büdcə gəlirləri hüquq institutu

Maliyyə hüququ özündə müəyyən hüquq institutlarını birləşdirir ki, bunlardan biri dövlət büdcə gəlirləri hüququ, digərləri isə dövlət büdcə xərcləri hüququ və yerli büdcə hüququ adla-

nır. Maliyyə hüququnun tərkibində bu cür vacib institutların fərqləndirilməsi, əsasən, bununla bağlıdır ki, Azərbaycan Respublikasının dövlət büdcəsi iki hissədən ibarətdir. Birinci hissə dövlət büdcə gəlirləri, ikinci hissə isə dövlət büdcə xərcləri adlanır. Dövlət büdcəsinin birinci hissəsi ilə bağlı maliyyə münasibətləri dövlət büdcə gəlirləri hüququ ilə tənzimlənir. Dövlət büdcəsinin ikinci hissəsinə gəldikdə isə, qeyd etməliyik ki, onunla bağlı maliyyə münasibətlərinin hüquqi tənzimlənməsi dövlət büdcə xərcləri hüququ vasitəsilə həyata keçirilir.

Dövlət büdcə gəlirləri hüququ ilə dövlət büdcəsinin gəlir hissəsi tənzimlənir ki, bu, müvafiq maliyyə-hüquq normaları vasitəsi ilə mümkün olur. Məhz həmin normaların məcmu halında birləşməsinə **dövlət büdcə gəlirləri hüququ** deyilir. Bu institut vasitəsilə, hər şeydən əvvəl, mərkəzləşdirilmiş gəlirlər ilə bağlı maliyyə münasibətlərinin tənzimlənməsi həyata keçirilir. **Mərkəzləşdirilmiş gəlirlər** dedikdə dövlət büdcə gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlirlər başa düşülür.

Dövlət büdcə gəlirləri hüququ ilə həm də yerli gəlirlər ilə bağlı maliyyə münasibətləri tənzimlənir. **Yerli gəlirlər** dedikdə ayrı-ayrı şəhər və rayonlar üzrə formalaşan gəlirlər başa düşülür; onlar mərkəzləşdirilmiş gəlirlərlə birlikdə dövlət büdcəsinin gəlir hissəsini əmələ gətirir. Odur ki, dövlət büdcəsinin gəlir hissəsi özündə həm mərkəzləşdirilmiş, həm də yerli gəlirləri birləşdirir; bu hissə dövlət vergiləri, rüsumlar, digər ödəniş və daxilolmalar hesabına formalaşır. Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil olan bu kimi ödənişlər **dövlət büdcə gəlirləri** adlanır. Büdcə gəlirlərinin yaranmasında digər mənbələr də iştirak edir. Məsələn, qrantlar, yəni daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımları büdcə gəlirlərinin formalaşmasında vacib rol oynaya bilər.

### 11.3.3. Dövlət büdcə xərcləri hüquq institutu

Dövlət büdcə xərcləri hüququ vasitəsi ilə dövlət büdcəsinin xərc hissəsi ilə bağlı maliyyə münasibətləri tənzimlənir. **Döv-**

**lət büdcəsinin xərc hissəsi** dövlət büdcəsindən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaiti əhatə edir. Ayrılan bu kimi vəsait **dövlət büdcə xərcləri** adlanır; dövlət büdcə xərcləri isə mərkəzləşdirilmiş və yerli xərclərdən ibarətdir.

Dövlət büdcə xərcləri hüququ ilə, ilk növbədə, mərkəzləşdirilmiş xərclərlə bağlı maliyyə münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. **Mərkəzləşdirilmiş xərclər** dedikdə dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların (qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının) fəaliyyətinin və sosial tədbirlərin (mədəni, iqtisadi və digər tədbirlərin) maliyyələşdirilməsi üçün çəkilən məsrəflər başa düşülür.

Dövlət büdcə xərcləri hüququ ilə həm də yerli xərclərlə bağlı maliyyə münasibətləri tənzimlənir. **Yerli xərclər**, hər şeydən əvvəl, mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilir. Bundan əlavə, yerli xərclər həm də yerli gəlirlər hesabına maliyyələşdirilir.

Müəyyən hallarda dövlət büdcəsindən maliyyə yardımı göstərilir ki, onun (yəni maliyyə yardımının) iki növü fərqləndirilir. Bunlardan biri dotasiya, digəri isə subvensiyadır. **Dotasiya** dedikdə dövlət büdcəsindən yerli (aşağı) büdcələrə onların gəlir və xərclərini tənzimləmək üçün verilən maliyyə vəsaiti başa düşülür; belə vəsait əvəzsiz verilir. Təsadüfi deyil ki, büdcə münasibətlərində dotasiya əvəzsiz olaraq ayrılan pul məbləği deməkdir; həmin məbləğin hansı məqsədlər üçün xərclənməsi nəzərdə tutulmur və müəyyənləşdirilmir.

**Subvensiya** dedikdə dövlət büdcəsindən yerli (aşağı) büdcələrə verilən maliyyə vəsaiti başa düşülür ki, belə vəsaitin hər hansı konkret məqsəd üçün ayrılması müəyyən edilir; özü də subvensiya müəyyən müddətə verilir. Digər tərəfdən, subvensiya pul formasında ayrılır.

Subvensiyanın hansı konkret məqsəd üçün verilməsi əvvəlcədən məlum olur. Subvensiya da məhz belə məqsəd üçün xərclənməlidir ki, bu cəhəti ilə maliyyə yardımının sözügedən növü dotasiyadan fərqlənir. Məsələn, bu və ya digər rayonun

sosial-iqtisadi inkişafını təmin etmək məqsədi ilə dövlət büdcəsindən subvensiya verilir.

Subvensiya nəzərdə tutulan məqsəd üçün istifadə edilməlidir; əgər istifadə edilməzsə, subvensiya geri qaytarılır. Subvensiya həm də o halda geri qaytarılır ki, o, müəyyənləşdirilmiş müddətdə istifadə edilməsin.

Dövlət büdcəsinin xərc hissəsinə aşağıdakılar daxildir: 1) cari xərclər, o cümlədən əməkhaqqı, əməkhaqqına üstəlik, pensiya və başqa sosial müavinət və ödənişlər; 2) əsaslı xərclər, o cümlədən əsaslı vəsaitlərin alınması və kapital qoyuluşları və s.

### 11.3.4.Yerli büdcə hüquq institutu

Yerli büdcə hüququ maliyyə hüququnun xüsusi hissəsinin digər institutudur. Yerli büdcə bələdiyyə büdcəsi olduğuna görə həmin institut həm də bələdiyyə büdcə hüququ adlanır. Yerli büdcə münasibətlərini tənzimləmək və nizama salmaq bu institutun, yəni bələdiyyə büdcə hüququnun əsas funksiyası sayılır. Belə ki, yerli büdcə münasibətləri müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir; məhz həmin normaların məcmusu bələdiyyə büdcə hüququ kimi fərqləndirilir.

**Bələdiyyə büdcə hüququ** dedikdə yerli büdcə münasibətlərini tənzimləyən hüquq normalarının sistemi başa düşülür. **Yerli büdcə** dedikdə isə elə maliyyə vəsaiti başa düşülür ki, bu vəsait yerli özünüidarəetməni həyata keçirən bələdiy-yələrin öz səlahiyyətlərini həyata keçirmək üçün formalaşır və istifadə olunur.

Bələdiyyə büdcə hüququ yerli büdcənin gəlir və xərc hissələrini tənzimləyir. Belə ki, dövlət büdcəsi kimi, yerli büdcə də iki hissədən ibarətdir; bunlardan biri gəlir, digəri isə xərc hissəsi adlanır. Birinci hissə yerli büdcə gəlirləri, ikinci hissə isə yerli büdcə xərcləridir.

Dövlət büdcəsi kimi, yerli büdcə də tərtib olunur, müzakirə edilir, təsdiqlənir və icra edilir. Yerli büdcə, hər şeydən əvvəl,

tərtib edilir və bu işi bələdiyyələrin yerli büdcə məsələləri üzrə daimi komissiyası görür. Yerli büdcə tərtib olunduqdan sonra baxılmaq, müzakirə olunmaq və təsdiq edilmək üçün bələdiyyə iclasına təqdim olunur. Bələdiyyə iclası yerli büdcəni müzakirə etdikdən sonra cari ilin dekabr ayının 25-dən gec olmayaraq müvafiq qərar qəbul edir ki, həmin qərarla yerli büdcə təsdiq ounur. Bundan sonra yerli büdcənin icrası mərhələsi başlanır. Daha sonra yerli büdcənin icrası barədə hesabat tərtib olunur; hesabat bələdiyyə iclasında təsdiq edilir.

# XI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XII FƏSİL.*

# VALYUTA HÜQUQU

## 12.1. Valyuta hüququ – iqtisadi hüququn yarımsahəsi kimi

### 12.1.1. Valyuta hüququ anlayışı

Dövlətin həyata keçirdiyi siyasət müxtəlif sahələrə aiddir. Başqa sözlə, dövlətin yürütdüyü siyasət ayrı-ayrı sferalarda həyata keçirilir; pul-kredit sferası onlardan biridir. Söhbət dövlətin pul-kredit siyasətindən gedir. **Dövlətin pul-kredit siyasəti** dedikdə pul-kredit dövriyyəsinin tənzimlənməsi üzrə iqtisadi tədbirlərin elə məcmusu başa düşülür ki, bu tədbirlər istehsala, məşğulluğa, inflyasiyaya, investisiya aktivliyinə və digər makroiqtisadi göstəricilərə təsir etmək yolu ilə davamlı iqtisadi artımın (yüksəlişin) təmin edilməsinə yönəlir.[1] Valyuta siyasəti onun, yəni dövlətin pul-kredit siyasətinin tərkib hissəsidir. Dövlətin valyuta siyasəti, əsasən, valyuta tənzimetməsi vasitəsi ilə həyata keçirilir. Valyuta tənzimetməsi dövlətin valyuta siyasətinin əsas istiqamətlərindən biridir.

**Valyuta tənzimetməsi** kompleks xarakterli tədbirlər vasitəsi ilə həyata keçirilir ki, bu tədbirlər valyuta münasibətlərini nizama salmaqdan (tənzimləməkdən) ötrü tətbiq olunur və valyuta sərvətləri ilə əməliyyatlar aparmaq qaydasını müəyyənləşdirmək məqsədi güdür. Kompleks xarakterli tədbirlərə isə qanunvericilik, inzibati, iqtisadi və təşkilati işlər aiddir. Məsələn, hər hansı ölkədə valyuta tənzimi haqqında normativ hüquqi akt qəbul edilərsə, bu, qanunvericilik tədbirlərinin görülməsini ifadə edir. Azərbaycan Respublikasında da 21 oktyabr 1994-cü ildə belə akt, yəni «Valyuta tənzimi haqqında» Qanun qəbul olunmuşdur. Valyuta tənzimetməsi valyuta münasibətlərini qaydaya salmaq və nizamlamaq üçün tətbiq edilən tədbirdir. Valyuta münasibətləri isə valyuta ilə bağlı yaranır. «Valyuta» termini

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 531.

(italyanca – «valuta» – qiymət, dəyər) üç mənada işlədilir.[1] Birinci mənada valyuta dedikdə bu və ya digər ölkənin **pul vahidi** başa düşülür. Məsələn, dollar ABŞ-ın valyutası olub, həmin ölkənin pul vahididir; Azərbaycan Respublikasının valyutası manatdır və o, Azərbaycan dövlətinin pul vahididir.

İkinci mənada valyuta dedikdə **xarici dövlətlərin pul nişanları,** habelə onlarda ifadə olunmuş kredit və ödəniş vəsaitləri başa düşülür. Belə vəsaitlər beynəlxalq hesablaşmalarda istifadə edilir.

Üçüncü mənada valyuta dedikdə **beynəlxalq pul-hesablaşma vahidi və ödəniş vasitəsi** anlaşılır. Məsələn, XBH – SDR kimi valyuta[2] beynəlxalq pul-hesablaşma vahidi və ödəniş vasitəsidir.[3] Vaxtilə «ekyu» da beynəlxalq hesablaşma vasitəsi olmuşdur.[4]

Müxtəlif ölkələrin iqtisadiyyatları arasında əlaqələr əmtəələrin və xidmətlərin ticarəti, habelə maliyyə əməliyyatlarının aparılması vasitəsi ilə yaranır; yaranmış iqtisadi əlaqələrdə valyuta vasitəçi kimi çıxış edir. Nəticədə valyutanın (pulun) dünya təsərrüfatında fəaliyyət göstərməsi və öz funksiyasını yerinə yetirməsi ilə bağlı **valyuta münasibətləri** yaranır. Valyuta münasibətlərinin əsası qismində əmtəə istehsalı, ticarət, göstərilən xidmət və ölkələr arasında kapitalın hərəkəti çıxış edir.

Valyuta münasibətləri müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir. Belə normaların məcmusu valyuta tənzimi hüququ

---

[1] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 108.

[2] SDR – «Special Drawing Rights» sözlərinin baş hərfləri ilə müxtəsər yazılış olub, rusca «Специальные Права Заимствования» – СПЗ kimi başa düşülür, Azərbaycan dilinə isə «Xüsusi Borcalma Hüququ» – XBH kimi tərcümə edilir («spesial» – xüsusi, «drawing» – götürmə, alma, «right» – hüquq deməkdir). *Bu barədə bax:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 428.

[3] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 162.

[4] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 470; Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 411-412.

və ya sadəcə olaraq, valyuta hüququ adlanır. Valyuta hüququnun əsas funksiyası valyuta ilə bağlı münasibətləri tənzimləməkdən ibarətdir; onun vasitəsi ilə valyuta münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. Valyuta münasibətlərinin hüquqi tənzimlənməsi kifayət qədər aktual məsələdir. Bazar islahatlarının həyata keçirilməsi, iqtisadi fəaliyyətin tənzimlənməsinin təkmilləşdirilməsi və ödəniş münasibətlərinin inkişafı şəraitində valyuta tənzimetməsinin rolu xeyli dərəcədə artır.

Valyuta münasibətlərinin yaranması və mövcud olması çox qədim zamanlara təsadüf edir. Belə ki, valyuta münasibətləri hələ antik dövrlərdə Qədim Yunanıstan və Qədim Romada təşəkkül tapmışdır. Orta əsrlərdə valyuta münasibətlərinin inkişafı müşahidə olunur ki, bu, Qərbi Avropanın ticarət şəhərlərində (Lion, Antverpen və s.) «veksel yarmarkaları»nın keçirilməsi ilə bağlı idi. Müxtəlif ölkələrdən olan tacirlərlə hesablaşma aparmaq üçün köçürmə veksellərdən[1] (tratta) istifadə olunurdu. Feodalizm və erkən kapitalizm dövrlərində kredit işi inkişaf etdi ki, bunun nəticəsində beynəlxalq hesablaşmalar banklar vasitəsi ilə həyata keçirilməyə başladı. Valyuta münasibətlərinin sonrakı inkişafı dünya bazarının yaranması, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, iqtisadiyyatın qloballaşması və digər amillərlə bağlıdır.

Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, valyuta münasibətləri dünya pullarının dövr etdiyi və ölkələr arasında xarici ticarət, kapital ixracı, investisiya, borcların və subsidiyaların təqdim edilməsi, elmi-texniki mübadilə, turizm, xüsusi köçürmələr və digər müxtəlif təsərrüfat əlaqələrinə xidmət göstərən iqtisadi münasibətlərdir.[2]

Valyuta münasibətləri bu gün də mövcüd olub, inkişaf edir. Həmin münasibətlərin durumu iqtisadiyyatda işlərin vəziyyəti, dövlətlərarası əməkdaşlıq, beynəlxalq münasibətlər və digər mə-

---

[1] *Köçürmə vekseli barədə bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 137.

[2] Mirzəyeva A.Q Maliyyə hüququ. Dərslik. Bakı, 2008, § 13.2. «Valyuta hüquq münasibətlərinin anlayışı və obyektləri», s.253.

sələlərlə müəyyən olunur. İctimai istehsal onların, yəni valyuta münasibətlərinin obyektiv əsası sayılır. Belə münasibətlərin nizama salınması valyuta hüququ vasitəsi ilə həyata keçirilir.

**Valyuta hüququ** dedikdə valyuta ilə bağlı yaranan ictimai münasibətləri – valyuta münasibətlərini nizama salan hüquq normalarının məcmusu başa düşülür. Bu normalar valyuta tənzimetmə orqanlarının davranış qaydası olub, xarici iqtisadi əməliyyatlar və kontraktlar üzrə hesablaşmalar aparmaq üçün banklarda valyuta hesablarının açılması prosedurunu, xarici tərəfdaşlara ödənişlərin həyata keçirilməsi mexanizmini, Azərbaycan Respublikası valyutasının müdafiəsinə və qorunmasına yönələn müvafiq tədbirlərin görülməsini, valyuta sərvətlərinə olan mülkiyyət hüququnun əldə olunmasını və s. məsələləri müəyyən edir.

### 12.1.2. Valyuta hüququnun nizamasalma predmeti

Valyuta tənzimi hüququnun **nizamasalma predmetini** valyuta ilə bağlı yaranan ictimai münasibətlər – valyuta münasibətləri təşkil edir. Müxtəlif mənalarda işlədilən vayuta, hər şeydən əvvəl, hər hansı dövlətin və ya dövlətlər qrupunun pul vahidini ifadə edir.

**Konkret dövlətə məxsus olması** kimi meyara görə valyutanın iki növü fərqləndirilir ki, bu növlərdən biri milli, digəri isə xarici valyutadır. Emissiya olunduğu (dövriyyəyə buraxıldığı) ölkədə istənilən valyuta **milli valyuta** hesab olunur. Məsələn, «rubl» kimi valyutanın emissiya olunduğu, yəni dövriyyəyə buraxıldığı dövlət Rusiyadır. Deməli, «rubl» Rusiyada bu dövlətin milli valyutası kimi tanınır. Başqa bir misalda, «manat» kimi valyuta Azərbaycan Respublikasında emissiya olunmuş, dövriyyəyə buraxılmışdır. Odur ki, «manat» Azərbaycan Respublikasında dövlətin milli valyutası hesab edilir.

Hər hansı dövlətin milli valyutası həmin dövlətin sərhədlərindən kənarda **xarici valyuta** kimi tanınır. Məsələn, «türk lirəsi» Türkiyədə həmin dövlətin milli valyutası sayılırsa, o, Türkiyənin sərhədlərindən kənarda (hər hansı əcnəbi dövlətin əra-

zisində) xarici valyuta hesab edilir; «manat» da həmçinin Azərbaycan Respublikasından kənarda xarici valyuta kimi tanınır.

**Başqa valyutaya (xarici valyutaya) dəyişdirilmək qabiliyyəti** kimi meyara görə valyuta üç növə bölünür: 1) sərbəst dönərli valyuta, 2) qismən dönərli valyuta, 3) dönərli olmayan valyuta. **Sərbəst dönərli valyuta** dedikdə istənilən növ valyutaya dəyişdirilə bilən pul başa düşülür (məsələn, ABŞ dolları və s.). **Qismən dönərli valyuta** yalnız başqa ölkələrin bəzi valyutalarına dəyişdirilməsi mümkün olan pula deyilir. Bu növ valyuta həm də məhdud dönərli valyuta adlanır (məsələn, Azərbaycan manatı, Rusiya rublu və s.). Başqa ölkələrin valyutalarına dəyişdirilmək qabiliyyətinə malik olmayan pul **dönərli olmayan valyuta** adlanır (məsələn, vaxtilə işlədilən sovet rublu dönərli olmayan valyuta hesab edilmişdir).

**Pul vahidinin mövcudolma forması** kimi meyara görə valyuta iki növdə olur: 1) nağd valyuta; 2) nağdsız valyuta. **Nağd valyuta** dedikdə kağız və metal pul formasında mövcud olan valyuta başa düşülür. Bu növ valyuta maddi formada mövcud olur (məsələn, 20, 50, 100 və s. manatlıq kağız pul nağd valyutaya misal ola bilər. **Nağdsız valyuta** isə maliyyə təşkilatlarının (bankların, kredit təşkilatlarının və s.) hesablarında olan pula deyilir. Bu növ valyuta hər hansı maddi formada mövcud olmur.

Valyuta hüququnun nizamasalma predmetini təşkil edən valyuta münasibətləri, qeyd etdiyimiz kimi, valyuta ilə bağlı yaranır. Belə ki, valyuta barəsində subyektlər bu və ya digər əməliyyatlar aparırlar; bu kimi əməliyyatlar valyuta əməliyyatları adlanır. Məsələn, mal ixracı və idxalı üçün valyuta alqı-satqısı həyata keçirilir ki, bu zaman valyuta münasibətləri əmələ gəlir. Deməli, valyuta əməliyyatı aparıldığı hallarda bu əməliyyatın aparılması barədə subyektlər (valyuta əməliyyatının iştirakçıları) arasında valyuta münasibətləri yaranır. Valyuta münasibətləri həm də valyuta əməliyyatlarının aparılması qaydasının tənzimlənməsi (valyuta tənzimlənməsi) və bu qaydaya əməl olunması üzərində nəzarətin – valyuta nəzarətinin həyata keçirilmə-

si ilə bağlı əmələ gəlir ki, belə münasibətlər dövlət və valyuta əməliyyatı iştirakçıları (subyektləri) arasında əmələ gəlir.

**Valyuta münasibətləri** dedikdə elə ictimai münasibətlər başa düşülür ki, bu münasibətlər valyuta əməliyyatı subyektləri (iştirakçıları) arasında bu əməliyyatın aparılması barədə, habelə valyuta əməliyyatı subyektləri (iştirakçıları) arasında həmin əməliyyatın tənzimlənməsi (valyuta tənzimetməsi) və ona nəzarətin (valyuta nəzarətinin) həyata keçirilməsi ilə bağlı yaranır. Əgər hüquq normaları ilə tənzimlənərsə, bunun nəticəsində həmin münasibətlər **valyuta-hüquq münasibətləri** kimi hüquqi forma alır.

Hüquq münasibətlərinin bir növü olduğu üçün valyuta-hüquq münasibəti də quruluşca üç elementdən ibarətdir: 1) subyektlər; 2) obyekt; 3) məzmun. **Valyuta-hüquq münasibətinin subyektləri** dedikdə bu münasibətin real (faktiki) iştirakçıları başa düşülür. Valyuta-hüquq münasibətinin tərəfi qismində məhz onlar çıxış edir. Məsələn, Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasının hüquqi şəxsləri, xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər, Mərkəzi Bank və s. valyuta-hüquq münasibətinin subyektləridir. Nəyin barəsində yaranırsa, o da **valyuta-hüquq münasibətinin obyektidir**. Qeyd etdiyimiz kimi, valyuta-hüquq münasibəti valyuta əməliyyatları barəsində əmələ gəlir. Odur ki, valyuta əməliyyatları valyuta-hüquq münasibətinin obyektidir.[1] Şübhəsiz, valyuta əməliyyatları aparılmazsa, valyuta-hüquq münasibətləri də yaranmaz.

**Valyuta-hüquq münasibətinin məzmunu** tərəflərin (subyektlərin) hüquq və vəzifələrindən ibarətdir. Belə ki, bu münasibətdə tərəf qismində çıxış edən subyektlər həm hüquqlara malikdir, həm də vəzifələr daşıyarlar; eyni zamanda subyektlərin daşıdıqları vəzifələr onların malik olduqları hüquqlara uyğundur.

---

[1] Bu barədə başqa fikir də söylənilir. Belə ki, valyuta sərvətləri valyuta-hüquq münasibətlərinin obyekti kimi qəbul edilir *(bax:* Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.258).

Valyuta-hüquq münasibətinin iki əsas növü fərqləndirilir. 1) hakimiyyət xarakterli valyuta-hüquq münasibəti; 2) qeyri-hakimiyyət xarakterli valyuta-hüquq münasibəti. **Hakimiyyət xarakterli valyuta-hüquq münasibəti** valyuta tənzimetməsini və valyuta nəzarətini həyata keçirən dövlət orqanı ilə valyuta əməliyyatı aparan subyektlər arasında əmələ gəlir. Valyuta tənzimetməsi və valyuta nəzarəti həyata keçirilən hallarda məhz bu növ valyuta münasibəti əmələ gəlir. Valyuta tənzimetməsini, eləcə də valyuta nəzarətini isə Mərkəzi Bank və digər səlahiyyətli qurumlar həyata keçirir.

**Qeyri-hakimiyyət xarakterli valyuta-hüquq münasibəti** valyuta əməliyyatı subyektləri (iştirakçıları) arasında əmələ gəlir. Bu növ valyuta münasibəti valyuta əməliyyatlarının aparılması barədə yaranır; həm də valyuta əməliyyatları aparan subyektlər arasında hər hansı hakimiyyət-tabeçilik əlaqəsi mövcud deyildir. Məsələn, valyuta bazarında valyuta alqı-satqısı həyata keçirilən hallarda qeyri-hakimiyyət xarakterli valyuta-hüquq münasibəti əmələ gəlir.

### 12.1.3. İqtisadi hüquq sistemində valyuta hüququnun tutduğu yer

Valyuta hüququnun tənzimlədiyi ictimai münasibətlər – valyuta münasibətləri, məlum olduğu kimi, valyuta ilə bağlı yaranır. Valyutanın növlərindən biri milli valyuta adlanır. Milli valyuta dünyanın, demək olar ki, bütün ölkələrində qanuni ödəniş vasitəsi kimi tanınır (məsələn, Azərbaycan manatı, ABŞ dolları, Rusiya rublu, Türkiyə lirəsi və s.). Heç də sirr deyildir ki, dünya ölkələrinin hamısında xarici mallar (xidmətlər) alınıb-satılır; onları əldə etmək üçün ödəniş həyata keçirilməsi (malın dəyərinin ödənilməsi) tələb edilir. Xarici mallar üçün müvafiq ödənişi həyata keçirməkdən ötrü, təbii ki, milli valyuta xarici valyutaya dəyişdirilməli, necə deyərlər, mübadilə olunmalıdır Bu iş, yəni dəyişmə (mübadilə) isə valyuta bazarında həyata keçirilir. **Valyuta bazarı** dedikdə müxtəlif ölkələrin valyutalarının satıcıları və alıcıları arasında yaranan iqtisadi münasibət-

lərin məcmusu başa düşülür.[1] İqtisadi münasibətlərin hüquqi tənzimlənməsi isə iqtisadi hüquqla həyata keçirilir. Bu səbəbdən özündə valyuta münasibətlərini – iqtisadi münasibətləri tənzimləyən hüquq normalarını birləşdirən valyuta hüququ iqtisadi hüququn tərkibinə daxil edilməlidir. Digər tərəfdən, unutmaq olmaz ki, valyuta münasibətləri valyutanın alqı-satqısı həyata keçirilən hallarda yaranır.[2] Valyutanın alqı-satqısı isə iqtisadi fəaliyyətin bir növüdür. İqtisadi fəaliyyətin bu növünü tənzimləyən valyuta hüququ, təbii ki, iqtisadi hüququn tərkibinə aid olunmalıdır. Eyni zamanda yaddan çıxarmamalıyıq ki, dövlətlərin, demək olar ki, əksəriyyətində valyuta iqtisadiyyatın müstəqil və ayrılmaz hissəsi hesab edilir.[3] İqtisadiyyatın müstəqil və ayrılmaz hissəsi olan valyuta ilə bağlı münasibətlər isə, təbii ki, iqtisadi hüquqla tənzimlənməlidir.

Valyuta hüququnun «hansı statusla» iqtisadi hüququn tərkibinə daxil olmasına gəldikdə, qeyd etməliyik ki, iqtisadi fəaliyyətin hər hansı növünü tənzimləyən hüquqi qurum iqtisadi hüququn yarımsahəsi kimi tanınır. Odur ki, valyuta hüququna iqtisadi hüququn yarımsahələrindən biri kimi yanaşmaq lazımdır. İqtisadi hüquq sistemində valyuta hüququnun tutduğu yer məhz bu cür müəyyən edilməlidir. Valyuta hüququ iqtisadi hüququn yarımsahələrindən biri kimi tanınır həm də ona görə ki, valyuta hüququnun özünəməxsus nizamasalma predmeti vardır. Digər tərəfdən, valyuta hüququnun ibarət olduğu hüquq normaları kifayət qədərdir. Bunlardan əlavə, valyuta hüququ valyuta münasibətlərinin hüquqi tənzimlənməsini özünəxas prinsiplər əsasında həyata keçirir.[4]

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və başqaları. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.29.

[2] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 667.

[3] Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с. 601.

[4] *Daha ətraflı:* Валютное право. Учебное пособие / Отв. ред. Д.Г.Алексеева. М., 2007, с.53.

## 12.2. Valyuta hüququnun mənbələri, prinsipləri və subyektləri

### 12.2.1. Valyuta hüququnun mənbələri

İqtisadi hüququn bütün yarımsahələrində olduğu kimi, valyuta hüququnun da əsas mənbə növü **normativ hüququ aktlardır**. Söhbət, ilk növbədə, qanunlardan gedir. Qanunlar içərisində valyuta hüququnun mənbəyi kimi **Konstitusiya** vacib rol oynayır. Dövlətin əsas qanunu kimi tanınan Konstitusiya bir sıra mühüm müddəa müəyyənləşdirir ki, onlar valyuta hüququ üçün xüsusi əhəmiyyətə malikdir. Konstitusiyanın 19-cu maddəsi pul vahidinə həsr olunmuşdur ki, bir neçə mənada işlədilən valyuta həm də pul nişanı (pul vahidi) deməkdir. Həmin maddənin I hissəsində deyilir ki, Azərbaycan Respublikasının pul vahidi, valyutası manatdır. Deməli, Konstitusiyaya görə, manat Azərbaycan Respublikasının pul vahidi – valyutası kimi tanınır.

Valyuta hüququnun mənbəyi olan qanunlar içərisində **«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun** (1994-cü il) adını xüsusi olaraq çəkməliyik. Bu qanun Azərbaycan Respublikasında valyuta əməliyyat-larının həyata keçirilməsinin prinsiplərini, valyuta tənzimi və nəzarəti barədə müvafiq orqanların səlahiyyət və funksiyalarını, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, habelə şəxslərin valyuta sərvətləri ilə bağlı hüquqlarını müəyyənləşdirir və digər məsələləri tənzimləyir.

Valyuta hüququnun mənbəyi olan qanunlar sırasına daha iki qanun da daxil edilməlidir. Bunlardan biri «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu (2004-cü il), digəri isə «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Qanundur (2004-cü il).

**«Banklar haqqında» Azərbaycan Respublikası Qanununun** 32-ci maddəsinin I hissəsi bankların fəaliyyət növlərini sadalayır ki, xarici valyutanın alqı-satqısı (satın alınması və satılması) belə fəaliyyət növlərindən biridir. Həmin qanun valyuta ilə bağlı digər əməliyyatların aparılmasına da yol verir.

**«Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikası Qanununun** 5-ci maddəsi Mərkəzi Bankın funksiyalarını müəyyən edir ki, onlara həm də aşağıdakılar aiddir: 1) dövlətin pul və valyuta siyasətini müəyyən etmək və həyata keçirmək; 2) nağd pulun (nağd valyutanın) dövriyyəsini təşkil etmək; 3) pul nişanlarının (valyutanın) tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirmək; 4) manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini müəyyənləşdirmək və elan etmək; 5) valyuta tənzimini və nəzarətini həyata keçirmək. Həmin qanun Mərkəzi Banka icazə verir ki, o, ayrı-ayrı əməliyyatlar aparsın (maddə 54). Xarici valyutanı, eləcə də xarici valyutada təqdim olunmuş ödəniş sənədlərini və öhdəlikləri alıb-satmaq bu əməliyyatlardan biridir.

Valyuta hüququnun mənbəyi olan qanunlar sırasına həm də **digər qanunlar** daxildir: «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu (1992-ci il), «Qiymətli metallar və qiymətli daşlar haqqında» Azərbaycan Respublikasının Qanunu (2005-ci il), «Qiymətli kağızlar bazarı haqqında» Azərbaycan Respublikasının Qanunu (2015-ci il) və s. Bu qanunlar aidiyyəti üzrə qiymətli kağızlar, qiymətli metallar, qiymətli daşlar və xarici investisiya ilə bağlı valyuta əməliyyatlarını tənzimləyir.

Valyuta hüququnun mənbəyi həmçinin **qanunqüvvəli aktlar** ola bilər. Qanunquvvəli aktlara, hər şeydən əvvəl, Prezident aktları aiddir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli Fərmanı ilə «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi» təsdiq edilmişdir ki, həmin nizamnaməyə görə, Palatanın əsas məqsədi Azərbaycan Respublikasında maliyyə bazarlarının səmərəli fəaliyyətini təmin etməkdən ibarətdir. Maliyyə bazarlarının formalarından biri valyuta bazarlarıdır ki,[1] belə bazarlarda valyuta fəaliyyəti həyata keçirilir. Sözügedən nizamnaməyə görə, Palata normativ xarakterli aktlar qəbul edə bilər ki, əgər bu aktlar

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və başqaları. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.109.

valyuta bazarlarının tənzimlənməsi ilə bağlı olarsa, onlar valyuta hüququnun mənbəyidir. Deməli, valyuta hüququnun mənbəyi qismində həm də **Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktları** çıxış edir.

Valyuta münasibətlərinin hüquqi tənzimlənməsində **Mərkəzi Bankın normativ xarakterli aktları** da iştirak edir. Mərkəzi Bankın normativ xarakterli aktları, əgər valyuta tənziminə aid olarsa, belə aktlar valyuta hüququnun mənbəyi sayılır. Belə aktlara misal kimi aşağıdakıları göstərmək olar: Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydaları,[1] Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında Qaydalar,[2] Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları və s.

**Beynəlxalq müqavilələr** valyuta hüququnun mənbə növlərindən biridir. Söhbət Azərbaycan Respublikasının xarici dövlətlərlə bağladığı və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. Əgər beynəlxalq müqavilələr valyuta tənziminə aid olarsa, onlar valyuta hüququnun mənbəyi sayılır.[3]

### 12.2.2. Valyuta hüququnun özünəməxsus prinsipləri

Valyuta münasibətlərinin hüquqi tənzimlənməsinin əsas ideya və rəhbər başlanğıcları **valyuta hüququnun özünəməxsus prinsipləridir** ki, onlar valyuta qanunvericiliyinə daxil olan aktlarda formulə olunmuş və öz normativ ifadəsini tapmışdır.

---

[1] Açıq valyuta mövqeyinin limitləri bankların maliyyə sabitliyini təmin etmək məqsədilə Mərkəzi Bankın müəyyənləşdirdiyi prudensial normativlər və tələblərdən biridir («Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 34-cü maddəsi).

[2] Rezidentlər və qeyri-rezidentlər valyuta əməliyyatlarının subyektləridir. *Ətraflı bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.545, 747-748.

[3] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.402.

Valyuta qanunvericiliyi dedikdə valyuta münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusu başa düşülür.

**Azərbaycan Respublikası valyutasının müdafiəsi prinsipi** valyuta hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsipə görə, Azərbaycan dövlətinin milli valyutası olan manatın alıcılıq qabiliyyətinin möhkəmləndirilməsi və qorunması təmin edilir. Bundan ötrü ölkədə lazımi qaydada pul-kredit və valyuta siyasəti yeridilir. Hər şeydən əvvəl, Azərbaycan Respublikasının valyuta ehtiyatları formalaşdırılır ki, bu ehtiyatlar hesabına manat möhkəmləndirilir. Valyuta ehtiyatları müxtəlif məqsədlərə xidmət edir ki, milli valyutanın alıcılıq qabiliyyətini qorumaq və möhkəmləndirmək bu məqsədlərdən biridir.

**Milli valyutanın Azərbaycan Respublikası ərazisində yeganə ödəniş vasitəsi olması prinsipi** valyuta hüququnun prinsipləri sırasına daxildir. Bu prinsip öz ifadəsini bunda tapır ki, Azərbaycan Respublikası ərazisində qanuni ödəniş vasitəsi kimi yalnız manatdan istifadə oluna bilər; bu ərazidə manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Sözügedən prinsip Konstitusiyanın 19-cu maddəsinin III hissəsində formulə olunmuşdur.

**Valyuta sərvətlərinə mülkiyyət hüququnun həyata keçirilməsi prinsipi** də valyuta hüququnun prinsiplərinə aiddir. Bu prinsipə görə, şəxslər (fiziki və hüquqi şəxslər) valyuta sərvətlərinə sahib ola, bu sərvətlərdən istifadə və onlar barəsində sərəncam verə bilərlər. Azərbaycan Respublikasında valyuta sərvətləri həm rezidentlərin, həm də qeyri-rezidentlərin mülkiyyətində ola bilər. Sözügedən prinsip öz normativ ifadəsini «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində tapmışdır.

**Milli valyutanın məzənnəsinin sabitliyi prinsipi** valyuta hüququnun digər prinsipidir. Bu prinsipə görə, manatın məzənnəsinin sabitləşdirilməsi təmin edilməlidir. Ölkədə həyata keçirilən maliyyə sabitliyi siyasəti öz əksini məhz bu prinsipdə tapır.[1]

---

[1] Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с. 588.

Manatın məzənnəsinin sabitləşdirilməsi üçün, hər şeydən əvvəl, sabitləşdirmə fondu yaradılır. Bu fonddan istifadə edilməsi barədə sərəncamı Mərkəzi Bank verir. Mərkəzi Bank manatın sabitliyini təmin etmək məqsədi ilə valyuta bazarına müdaxilə (valyuta müdaxiləsi) edə bilər ki, bu zaman Mərkəzi Bank xarici valyutanın alqı-satqısı üzrə əməliyyatlar aparır. Bundan əlavə, manatın məzənnəsinin sabitliyini təmin etmək üçün devalvasiyanın qarşısı alınır. **Devalvasiya** dedikdə milli valyutanın məzənnəsinin hər hansı xarici valyutaya münasibətdə aşağı düşməsi və azalması başa düşülür.[1]

Hər bir ölkədə valyuta məzənnəsinin sabitliyini təmin etmək məsələsinə xüsusi diqqət yetirilir. **Valyuta məzənnəsi** dedikdə müxtəlif ölkələrin valyutalarının (pul vahidlərinin) dəyərləri arasında nisbət başa düşülür ki, bu, valyutaların alıcılıq qabiliyyəti və digər amillərlə müəyyən edilir. Ölkə iqtisadiyyatına böyük təsir göstərən bir sıra amillər mövcuddur ki, bunlardan biri də valyuta məzənnəsidir. Odur ki, hər bir ölkədə valyuta məzənnəsinin sabitliyi təmin edilməlidir; xüsusilə də valyuta möhtəkirliyinə yol verilməməlidir. **Valyuta möhtəkirliyi** elə bir qanunsuz əməldir ki, bu əmələ görə, mənfəət (möhtəkirlik mənfəəti) əldə etmək üçün xarici valyutalar valyuta məzənnəsindən fərqli şəkildə alınıb-satılır.

**Valyuta ehtiyatlarından effektiv istifadə olunması prinsipi** də valyuta hüququnun prinsipi kimi tanınır. Hər bir ölkədə valyuta ehtiyatları formalaşdırılır. Valyuta ehtiyatları həm də Azərbaycan Respublikasında yaradılmışdır. Azərbaycan Respublikasının valyuta ehtiyatları Mərkəzi Bankda mərkəzləş-dirilmiş qaydada saxlanan xarici valyuta və digər valyuta sərvətləridir ki, onlardan qanunauyğun, ağlabatan və səmərəli istifadə olunur. Valyuta ehtiyatları hesabına milli valyutanın (manatın) alıcılıq qabiliyyəti qorunur, dövlətin iqtisadi tələbatı və sosial inkişafı ilə bağlı ehtiyaclar ödənilir, xarici borc öhdəlikləri ye-

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 164; Юридическая энциклопедия / Под ред. С.Ю.Тихомирова. М., 2005, с. 227.

rinə yetirilir, xarici ticarət, investisiya və digər əməliyyatlarla bağlı beynəlxalq hesablaşmalar aparılır.

Azərbaycan Respublikasının valyuta ehtiyatları aşağıdakılardan ibarətdir: 1) respublika büdcəsinin valyuta gəlirləri; 2) sabitləşdirmə fondu. Valyuta ehtiyatlarının formalaşdırılması qaydası Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

Valyuta hüququ həm də **qanunçuluq prinsipindən** çıxış edir. Bu prinsipə görə, valyuta hüququnun subyektləri valyuta əməliyyatları apardığı, valyuta tənzimetməsini və valyuta nəzarətini həyata keçirdiyi hallarda valyuta qanunvericiliyinin tələblərini pozmamalı, onlara əməl etməlidirlər. Əks halda, onlar valyuta qanunvericiliyinin pozulmasına görə müxtəlif formalarda (məsələn, qanunsuz fəaliyyət və etibarsız valyuta əqdi nəticəsində əldə olunmuş gəlirlərin dövlətə mədaxil olunması formasında və s.) məsuliyyət daşıyırlar.

### 12.2.3. Valyuta hüququnun subyektləri

Valyuta-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları **valyuta hüququnun subyektləri** adlanır. Valyuta hüququnun subyektləri valyuta fəaliyyəti sahəsində müvafiq hüquq və vəzifələrin daşıyıcılarıdır.

Valyuta hüququnun subyektləri aşağıdakılardan ibarətdir: rezidentlər, qeyri-rezidentlər, valyuta tənzimetmə orqanları, valyuta nəzarəti orqanları, valyuta nəzarəti agentləri.

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 5-ci bəndinə görə, **rezidentlər** dedikdə aşağıdakılar başa düşülür: 1) Azərbaycan Respublikasında daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikası hüdudlarından kənarda müvəqqəti qalan fiziki şəxslər; 2) Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış hüquqi şəxslər; 3) Azərbaycan Respublikasında yerləşən və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış, lakin hüquqi şəxs olmayan müəssisə və təşkilatlar; 4) Azərbaycan Respublikası hüdudlarından kənarda yer-

ləşən Azərbaycan Respublikasının diplomatik və digər rəsmi nümayəndəlikləri; 5) hüquqi şəxslərin, hüquqi şəxs olmayan müəssisə və təşkilatların xaricdə yerləşən filial və nümayəndəlikləri.

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 6-cı bəndinə görə, **qeyri-rezidentlər** dedikdə isə aşağıdakılar başa düşülür: 1) Azərbaycan Respublikası hüdudlarından kənarda daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti qalan fiziki şəxslər; 2) xarici dövlətlərin qanunvericiliyinə müvafiq surətdə yaradılmış Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən hüquqi şəxslər və hüquqi şəxs olmayan müəssisə və təşkilatlar; 3) Azərbaycan Respublikasında yerləşən diplomatik və digər rəsmi nümayəndəliklər, habelə beynəlxalq təşkilatlar, onların nümayəndəlikləri və filialları; 4) hüquqi şəxslərin, eləcə də hüquqi şəxs olmayan müəssisə və təşkilatların filial və nümayəndəlikləri (büro və agentlikləri).

Valyuta hüququnun subyektləri sırasına həm də **valyuta tənzimetmə orqanları** daxildir. Mərkəzi Bank Azərbaycan Respublikasında valyuta tənzimini həyata keçirən orqandır. Bu orqan valyuta əməliyyatlarının tənzimlənməsinə dair normativ aktlar qəbul edir, rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasında xarici valyuta ilə və xarici valyutada olan qiymətli kağızlarla əməliyyatlar aparılması qaydalarını müəyyənləşdirir və s.

Valyuta hüququnun subyekti qismində həm də **valyuta nəzarəti orqanları** çıxış edirlər. Valyuta nəzarətinə dair orqanlara aşağıdakılar aiddir: 1) Mərkəzi Bank; 2) müvafiq icra hakimiyyəti orqanı; 3) valyuta nəzarəti agentləri. Mərkəzi Bank və müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasında valyuta nəzarətini həyata keçirən əsas orqanlardır. Valyuta nəzarəti agentləri isə müvəkkil banklardır. Müvəkkil banklar dedikdə valyuta əməliyyatlarının aparılması üçün Mərkəzi Bankdan müvafiq lisenziya almış banklar və digər kredit təşkilatları başa düşülür. Valyuta sərvətləri ilə bağlı bütün əqdlər məhz

müvəkkil banklar vasitəsi ilə bağlanılır; onların iştirakı olmadan xarici valyutanın alınması və satılmasına icazə verilmir.

Gömrük siyasətini həyata keçirən **Dövlət Gömrük Komitəsi** də valyuta nəzarəti orqanı kimi tanınır. Belə ki, Dövlət Gömrük Komitəsi rezident və qeyri-rezidentlər tərəfindən milli və xarici valyutanı, eləcə də digər valyuta sərvətlərinin qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə valyuta nəzarəti həyata keçirir. Bu orqan valyuta nəzarətini digər hallarda da həyata keçirə bilər ki, bu hallar Gömrük Məcəlləsində nəzərdə tutulmuşdur.[1]

Valyuta nəzarəti orqanlarına həm də aşağıda göstərilən orqanlar aid edilir:[2] Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi və s. Buna görə də valyuta nəzarəti orqanları valyuta tənzimetmə orqanlarından daha geniş anlayışdır.

Valyuta nəzarəti orqanları və valyuta nəzarəti agentləri arasında hədd qoyulmasına gəldikdə, qeyd etməliyik ki, əsas fərq valyuta nəzarəti orqanlarının daha geniş səlahiyyətlərə malik olmasından ibarətdir. Valyuta nəzarəti orqanları, hər şeydən əvvəl, öz səlahiyyətləri daxilində normativ aktlar qəbul edirlər ki, bu aktlar rezidentlər və qeyri-rezidentlər tərəfindən məcburi surətdə icra olunur.[3] Valyuta nəzarəti agentlərinin normativ aktlar qəbul etmək səlahiyyəti yoxdur; onlar valyuta nəzarəti orqanlarının aktlarının yerinə yetirilməsinə nəzarət edirlər.

«Valyuta hüququnun subyektləri» və «valyuta əməliyyatı subyektləri» anlayışları bir-birinə yaxın olsalar da üst-üstə düşmürlər. **Valyuta əməliyyatlarının subyektləri** dedikdə yalnız rezident və qeyri-rezidentlər başa düşülür. **Valyuta hüququnun subyektlərinə** isə rezident və qeyri-rezidentlərdən başqa, həm də valyuta tənzimetmə və valyuta nəzarəti orqanları, habelə

---

[1] *Gömrük orqanları tərəfindən valyuta nəzarətinin həyata keçirilməsi barədə bax:* Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2011, s.210-211 (fəsil 47, maddə 272, 273, 274).

[2] Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на Дону, 2003, с.612.

[3] Банковское право. Учебник / Отв.ред. Л.Г.Ефимова, Д.Г. Алексеева. М., 2015, с.259.

valyuta nəzarəti agentləri (müvəkkil banklar) aiddir. Deməli, valyuta hüququnun subyektləri daha geniş anlayışdır.

## 12.3. Valyuta siyasətinin həyata keçirilmə vasitələri

### 12.3.1. Valyuta tənzimetməsi

Qeyd etməliyik ki, strateji və makroiqtisadi vəzifələri yerinə yetirmək üçün istənilən hər hansı dövlət öz valyuta siyasətini formalaşdırır və həyata keçirir. Valyuta siyasəti dövlətin yürütdüyü pul-kredit, ümumilikdə isə iqtisadi siyasətin tərkib hissəsidir. Nəzərdən qaçırmaq olmaz ki, pul-kredit siyasəti dövlətin iqtisadi siyasətinin bir növüdür. Odur ki, valyuta siyasəti dövlətin yürütdüyü iqtisadi siyasətin hissələrindən (qollarından) biridir. **Valyuta siyasəti** dedikdə valyuta münasibətləri sahəsində iqtisadi, hüquqi və təşkilati tədbirlərin məcmusu başa düşülür ki, bu tədbirləri dünya təsərrüfatının subyekti olan dövlət özünün cari və strateji vəzifələrinə uyğun olaraq həyata keçirir.[1]

Valyuta siyasətinin əsas məqsədləri bunlardan ibarətdir: 1) valyuta məzənnəsinin sabitliyini təmin etmək; 2) beynəlxalq (qızıl-valyuta) ehtiyatları lazımi səviyyədə qoruyub saxlamaq. Valyuta siyasəti iqtisadi siyasətin (pul-kredit sahəsində) elə tərkib hissəsidir ki, bu siyasət dövlətin etdiyi hərəkətlər sistemindən ibarət olub, valyutaya, valyuta məzənnəsinə və valyuta əməliyyatlarına təsir etmək yolu ilə həyata keçirilir.

Dövlətin valyuta siyasəti, ilk növbədə, valyuta tənzimetməsi vasitəsi ilə realizə edilir. Azərbaycan Respublikasının mövcud valyuta qanunvericiliyində valyuta tənzimetməsinə leqal (normativ) anlayış verilməsinə rast gəlmirik. Lakin, buna baxmayaraq, hüquq ədəbiyyatı səhifələrində ona doktrinal definisiya (tərif) verilməsinə təsadüf olunur.[2] Bu definisiyaları nəzərə ala-

---

[1] Банковское право. Учебник / Отв. ред. В.С.Белых. М., 2015, с.296.

[2] Валютное право. Учебник / Под ред. Ю.А.Крохиной. М.,2007, с.86; Финансовое право. Учебник/ Отв. ред. Н.И.Химичева. М., 2008, с. 725; Финансовое право Российской Федерации. Учебник / Под ред. М.В.Карасевой. М., 2002, с. 6.; Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.265.

raq valyuta tənzimetməsinə elmi anlayış verə bilərik: **valyuta tənzimetməsi** dedikdə dövlətin həyata keçirdiyi elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət əsasında valyuta əməliyyatlarının aparılması qaydaları nizama salınır. Bu, yəni valyuta tənzimetməsi dövlət tərəfindən kompleks tədbirlərin (qanunvericilik, iqtisadi, hüquqi və təşkilati tədbirlərin) görülməsini nəzərdə tutur ki, bu tədbirlər valyuta sərvətləri ilə bağlı əməliyyatların aparılması, valyuta sərvətlərinin xaricə göndərilməsi və ya xaricdən Azərbaycan Respublikasına köçürülməsi (gətirilməsi), beynəlxalq hesablaşmaların həyata keçirilməsi qaydalarının müəyyənləşdirilməsinə yönəlir. Valyuta tənzimi sayəsində həm də milli valyutanın sabit məzənnəsi və milli ödəniş balansı qorunub saxlanılır; onun vasitəsi ilə həmçinin valyuta sərvətlərinə dair əməliyyatların həyata keçirilmə prinsipləri müəyyənləşdirilir.

Valyuta tənzimetməsi valyuta münasibətlərinin dövlət tərəfindən nizama və qaydaya salınması (dövlət tənzimetməsi) deməkdir. Valyuta münasibətlərinin dövlət tənzimlənməsi isə bazar iqtisadiyyatı ilə bağlı münasibətlərin dövlət tənzimlənməsinin tərkib hissəsidir. Bu işi, yəni valyuta münasibətlərinin dövlət tənzimlənməsi işini Mərkəzi Bank görür. Unutmaq olmaz ki, valyuta münasibətləri dövlət tərəfindən Mərkəzi Bank vasitəsilə tənzimlənir.[1] Valyuta tənzimetməsi həyata keçirilərkən səlahiyyətli dövlət orqanı olan Mərkəzi Bank valyuta bazarında müxtəlif növ tədbirlər tətbiq edir.

Valyuta münasibətlərinin dövlət tənzimlənməsinin vacib olmasına gəldikdə, qeyd etməliyik ki, bir neçə amil bunu, yəni valyuta münasibətlərinin dövlət tənzimlənməsini (valyuta tənzimini) zəruri edir. Belə amillərə aiddir: 1) milli valyutanı müdafiə etmək və onun məzənnəsinin sabitliyini təmin etmək; 2) iqtisadi fəaliyyət subyektlərinin iqtisadi maraq və mənafelərini müdafiə etmək; 3) valyuta tənzimetməsinin məqsədlərinə nail olmaq üçün publik (ümumi) və xüsusi mənafeləri harmonik şə-

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002,с. 664.

kildə uyğunlaşdırmaq. Valyuta tənzimetməsinin həyata keçirilməsinin zəruriliyi məhz bu kimi amillərlə şərtlənir və müəyyən edilir.

**Valyuta tənzimetməsinin obyektini** valyuta sərvətləri və valyuta sərvətləri ilə bağlı aparılan əməliyyatlar təşkil edir.[1] Valyuta sərvətləri ilə bağlı aparılan əməliyyatlar valyuta əməliyyatları adlanır. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə, **valyuta sərvətlərinə aşağıdakılar** aid olunur: 1) xarici valyuta; 2) xarici valyutada qiymətli kağızlar (xarici valyutada istifadə edilən ödəniş sənədləri, yəni çeklər, veksellər, akkreditivlər və s.), habelə fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri; 3) qiymətli metallar; 4) qiymətli daşlar (təbii almaz, zümrüd, sapfir, aleksandritlər və s.).

**Xarici valyuta** dedikdə isə aşağıdakılar başa düşülür: 1) müvafiq xarici dövlətlərin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış, lakin həmin ərazidə tədavüldə mövcud olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları; 2) xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində olan vəsaitlər («Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi).

Xarici dövlətlər qrupu üçün ümumi olan valyuta barədə ayrıca danışmaq lazımdır. Söhbət xarici dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan valyutadan gedir. Məsələn, avro belə valyutaya misal ola bilər. Avro, məlum olduğu kimi, Avropa Valyuta İttifaqının iştirakçısı olan

---

[1] Valyuta tənzimetməsinin obyekti hüquq ədəbiyyatında mübahisə doğuran məsələdir. Bu barədə müəlliflər müxtəlif fikir söyləyirlər. Bəzi alimlər göstərirlər ki, valyuta tənzimetməsinin obyekti qismində valyuta bazarı çıxış edir. Digər müəlliflərə görə, valyuta tənzimetməsinin obyekti valyuta əməliyyatlarının aparılması qaydasından və şərtlərindən ibarətdir və s. (Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с. 589).

ölkələr üçün ümumi pul vahididir; bu pul vahidi milli valyutaların əvəzinə 1 yanvar 1999-cu ildə dövriyyəyə buraxılmışdır.[1]

Beynəlxalq hesablaşma vahidi kimi XBH-ın (SDR – Special Drawing Rights) adını çəkmək lazımdır. XBH (SDR) 1969-cu ildə qızıla alternativ olaraq beynəlxalq ehtiyat aktivi kimi dövriyyəyə buraxılmışdır. Ondan milli valyutanı satın almaq üçün istifadə edilir ki, milli valyutanın məzənnəsini qoruyub saxlamaq mümkün olsun. XBH həm də Beynəlxalq Valyuta Fondunun üzvü olan dövlətlər arasında və Fondun özündə hesablaşma vasitəsidir. XBH şərti valyuta vahidi olub, dörd valyutadan ibarət «səbət» əsasında hesablanır (ABŞ dolları, avro, funt sterlinq və yapon yeni). XBH-ın dəyəri hər gün ABŞ dolları ilə hesablanır[2] (məsələn, 2017-ci il 17 mart vəziyyətinə görə 1 XBH-ın məzənnəsi 1,35 ABŞ dolları olmuşdur).[3]

Azərbaycan Respublikasının milli valyutasına gəldikdə, qeyd etməliyik ki, «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi Azərbaycan Respublikasının milli valyutasına aşağıdakıları aid edir: 1) tədavüldə olan, eləcə də tədavüldən çıxarılmış, lakin tədavüldə hələlik mövcud olan pul nişanlarına dəyişdirilə bilən kağız və metal pul nişanları (bunlar Mərkəzi Bank tərəfindən buraxılır); 2) Azərbaycan Respublikasında və ondan kənarda yerləşən banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti; 3) milli valyutada qiymətli kağızlar – manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri.

**Valyuta əməliyyatları** dedikdə rezident və qeyri-rezidentlərin etdikləri elə kompleks hərəkətlər başa düşülür ki, bu hərəkətlər müxtəlif növ əqd formasında yerinə yetirilir. Bu əqdlər valyuta sərvətləri üzərində mülkiyyət hüququnun əldə edilmə-

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 372; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 301.

[2] *XBN barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 428-430.

[3] URL:https://ru. m. wikipedia. org (17.03.2017-ci il).

sinə və ya özgəninkiləşdirilməsinə yönəlir. Məsələn, valyuta sərvətlərinin alqı-satqısı, dəyişdirilməsi, bağışlanması, borc (kredit) verilməsi, vəsiyyət olunması, təsərrüfat cəmiyyətlərinin nizamnamə kapitalına sərmayə kimi qoyulması və s. belə əqdlərə misal ola bilər. Belə əqdlər içərisində xarici valyutanın alqı-satqısı mühüm yer tutur. Xarici valyutanın alqı-satqı əqdi Azərbaycan Respublikasının daxili valyuta bazarında həyata keçirilir. Belə əqdlər müvəkkil banklar vasitəsi ilə bağlanılır; xarici valyutanın alqı-satqı əqdləri həm də valyuta birjaları vasitəsilə həyata keçirilə bilər.

Azərbaycan Respublikasında valyuta əməliyyatlarını, əsasən, hüquqi şəxs olan rezidentlər aparırlar. Rezidentlərin həyata keçirdikləri valyuta əməliyyatları ilə bağlı münasibətlər «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi ilə tənzimlənir.

Azərbaycan Respublikasında valyuta əməliyyatlarını həm də fiziki şəxs olan rezidentlər apara bilərlər. Fiziki şəxs olan rezidentlərin həyata keçirdikləri valyuta əməliyyatları ilə bağlı münasibətlər «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə tənzimlənir.

Qeyri-rezidentlər də həmçinin Azərbaycan Respublikasında valyuta əməliyyatları apara bilərlər. Məsələn, onlar valyuta sərvətlərini köçürmə yolu ilə Azərbaycan Respublikasına gətirə və Azərbaycan Respublikasından çıxara bilərlər və s. Qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasında valyuta əməliyyatlarının aparılması ilə bağlı məsələlər «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi ilə tənzimlənir. Bu maddəyə görə, qeyri-rezidentlər Azərbaycan Respublikasına nağd şəkildə valyuta sərvətləri gətirə, həm də ölkədən çıxara bilərlər; bu zaman gömrük proseduruna əməl olunmalıdır.

Qeyri-rezidentlər müvəkkil banklarda həm xarici, həm də milli valyutada öz hesablarını aça bilərlər. Bu hesabların açılması və onlardan istifadə olunma qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir.

### 12.3.2. Valyuta nəzarəti

Valyuta nəzarəti, qeyd etməliyik ki, valyuta siyasətinin həyata keçirilməsinin digər vasitəsidir. Əgər valyuta siyasətinin həyata keçirilmə vasitələrindən biri olan valyuta tənzimetməsi «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun II fəsli ilə nizamlanırsa, valyuta nəzarəti həmin qanunun III fəslinin köməyi ilə qaydaya salınır.

**Valyuta nəzarəti** dedikdə səlahiyyətli dövlət orqanlarının və valyuta nəzarəti agentlərinin elə bir fəaliyyəti başa düşülür ki, bu fəaliyyət valyuta əməliyyatları aparılan zaman təsərrüfat subyektlərinin valyuta qanunvericiliyinə əməl etmələrinin təmin olunmasına yönəlir. Həmin fəaliyyət bir neçə istiqamətdə həyata keçirilir; onlar **valyuta nəzarətinin əsas istiqamətləri** sayılır. Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır: 1) aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyə uyğunluğunu və bunun üçün lisenziya və icazələrin olmasını müəyyən etmək; 2) dövlət qarşısında xarici valyuta üzrə və Azərbaycan Respublikasının valyuta bazarında valyutanın satışı üzrə öhdəliklərin rezidentlər tərəfindən yerinə yetirilməsinin vəziyyətini yoxlamaq; 3) valyuta əməliyyatları, o cümlədən qeyri-rezidentlərin milli valyuta əməliyyatları üzrə uçot və hesabatın tamlığını və obyektivliyini yoxlamaq. «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 2-ci hissəsində valyuta nəzarətinin əsas istiqamətləri belə müəyyənləşdirilir. Həmin maddənin 1-ci hissəsi isə valyuta nəzarətinin məqsədinin müəyyən olunmasına həsr edilmişdir. Burada deyilir ki, **valyuta nəzarətinin məqsədi** valyuta əməliyyatları aparılarkən valyuta qanunvericiliyinə əməl olunmasını təmin etməkdən ibarətdir.

Valyuta nəzarəti **iki əsas formada** həyata keçirilir: 1) müşahidə; 2) yoxlama.Valyuta nəzarəti üzrə müvafiq orqan və agentlər hər iki formadan istifadə etməklə valyuta nəzarətini həyata keçirirlər. Nəzərdən qaçırmaq olmaz ki, nəzarət hərfən nəyinsə yoxlanılmasını və müşahidə olunmasını ifadə edir.[1]

---

[1] Ожегов С.И. Словарь русского языка. М., 1988, с. 298.

Əgər valyuta nəzarətinə dair orqan və agentlər öz səlahiyyətləri daxilində rezident və qeyri-rezidentlərin həyata keçirdikləri valyuta əməliyyatlarının mövcud qanunvericiliyə, lisenziya və icazələrin şərtlərinə nə dərəcədə uyğun gəlməsinə, həmçinin müvafiq aktların (valyuta nəzarəti orqanlarının qəbul etdikləri aktların) icra olunmasına göz yetirərlərsə, bu, valyuta nəzarətinin **müşahidə** formasıdır; onlar həm də **yoxlama** formasında rezidentlərin və qeyri- rezidentlərin apardıqları valyuta əməliyyatlarına nəzarət edə bilərlər. Başqa sözlə, valyuta nəzarəti orqanları və agentləri öz səlahiyyətləri daxilində rezidentlərin və qeyri-rezidentlərin həyata keçirdikləri valyuta əməliyyatlarını yoxlaya bilərlər. Bu, onların səlahiyyətlərinə daxil olan məsələdir.

Valyuta nəzarətinin həyata keçirilməsi nəticəsində müəyyən etmək mümkün olur ki, valyuta qanunvericiliyi rezidentlər və qeyri-rezidentlər tərəfindən pozulmuşdurmu; əgər pozuntu halı müəyyən edilərsə, onlar valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyət daşıyır. Valyuta qanunvericiliyi-nin pozulmasına görə məsuliyyət «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə tənzimlənir. Bu maddəyə görə, valyuta qanuvericiliyinin pozulmasına görə rezident və qeyri-rezident olan müəssisə və təşkilatların, o cümlədən müvəkkil bankların vəzifəli şəxsləri, eləcə də fiziki şəxslər inzibati, mülki-hüquqi və cinayət məsuliyyəti daşıyırlar. Məsələn, CM-in 208-ci maddəsi xarici valyuta vəsaitlərini xaricdən qaytarmamağa görə cinayət məsuliyyəti nəzərdə tutur. Bu maddədə deyilir ki, əgər təşkilat rəhbəri müvəkkil bankların hesabına məcburi qaydada köçürülməli olan xeyli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmazsa, o, üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.[1]

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, 2016, s. 167.

# XII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XIII FƏSİL.*
# SAHİBKARLIQ HÜQUQU

## 13.1. Sahibkarlıq hüququ–iqtisadi hüququn tərkib hissəsi kimi

### 13.1.1. Sahibkarlıq hüququ anlayışı

Konstitusiyanın 59-cu maddəsində deyilir ki, hər kəs sahibkarlıq fəaliyyəti və ya digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Bu maddədə ifadə edilmiş konstitusion normadan məlum olur ki, sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyətin bir növüdür. İqtisadi fəaliyyət anlayışına daxil olan sahibkarlıq fəaliyyəti həyata keçirilərkən müəyyən qrup ictimai münasibətlər əmələ gəlir; onlar sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlər və ya **sahibkarlıq münasibətləri** sayılır. Həmin münasibətlər, əlbəttə, müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir ki, bu normaların sistemli şəkildə birləşməsi sahibkarlıq hüququ adlanır.

**Sahibkarlıq hüququ** dedikdə məcmu halda birləşən hüquq normalarının elə bir sistemi başa düşülür ki, bu normalar vasitəsi ilə iqtisadi fəaliyyət sahəsində sahibkarlıq münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. Bu, **obyektiv mənada** sahibkarlıq hüququna verilən anlayışdır. Bundan başqa, sahibkarlıq hüququ daha üç mənada işlədilir:[1] 1) elmi mənada; 2) qanunvericilik mənasında; 3) tədris fənni mənasında.

**Elmi mənada** sahibkarlıq hüququ dedikdə sahibkarlıq münasibətlərini tənzimləyən hüquq normaları haqqında alimlər (sahibkarlıq hüququ üzrə mütəxəssislər) tərəfindən irəli sürülən fikir, ideya, fərziyyə, postulat, konsepsiya, nəzəriyyə, təlim, mühakimə və yanaşmaların sistemi başa düşülür. Bu mənada ona **sahibkarlıq hüquq elmi** və ya **sahibkarlıq hüquq doktrinası** da deyilir. Sahibkarlıq hüquq elminin əsas işi öyrənmək

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.7.

və tədqiq etməkdən ibarətdir. Odur ki, onun öyrənmə (tədqiq-etmə) predmetinə malik olmasından danışmaq mümkündür. Sahibkarlıq hüquq elminin öyrənmə (tədqiqetmə) predmetinə isə sahibkarlıq hüququna aid məsələlər (sahibkarlıq hüququnun mənbə və prinsipləri, sahibkarlıq fəaliyyətini tənzimləyən hüquq normaları və normativ hüquqi aktlar, sahibkarlıq hüququnun təşəkkül tapması, inkişafı, hüquq sistemində yeri və s.) daxildir. Bir sözlə, sahibkarlıq hüquq elmi müvafq hüquq normalarından ibarət olan sahibkarlıq hüququna dair məsələləri öyrənir və tədqiq edir.

**Qanunvericilik mənasında** sahibkarlıq hüququ dedikdə sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi aktların məcmusu başa düşülür. Bu mənada sahibkarlıq hüququna **sahibkarlıq haqqında qanunvericilik** deyilir. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda (1992-ci il) məhz belə termindən istifadə edilir. Sahibkarlıq haqqında qanunvericiliyə aşağıdakılar aid olunur (maddə 2): 1) «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı; 2) «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında» Konstitusiya Qanunu; 3) Azərbaycan Respublikasının Mülki Məcəlləsi; 4) «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu; 5) «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarlıq maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu; 6) bu qanunlar əsasında qəbul edilmiş digər qanunvericilik aktları. Deməli, sahibkarlıq haqqında qanunvericilik həm qanunlardan, həm də digər qanunvericilik aktlarından ibarətdir.

**Tədris fənni mənasında** sahibkarlıq hüququ dedikdə tələbələri öyrədən tədris kursu başa düşülür. Buna görə bu mənada sahibkarlıq hüququnun öyrətmə predmeti vardır. Tədris fənni kimi sahibkarlıq hüququ tələbələrə nəyi öyrədirsə, o da sahibkarlıq hüququnun öyrətmə predmetini təşkil edir. Sahibkarlıq hüququnun öyrətmə predmetinə daxildir: 1) hüquq normalarından ibarət olan sahibkarlıq hüququ; 2) sahibkarlıq haqqında qa-

nunvericilik və onun praktikada tətbiq olunması; 3) sahibkarlıq hüquq elmi.

Bir az əvvəl qeyd etdiyimiz kimi, sahibkarlıq hüququ həm də obyektiv mənada, yəni sahibkarlıq münasibətlərini tənzimləyən hüquq normalarının sistemi (məcmusu) mənasında işlədilir. Bu mənada sahibkarlıq hüququ iqtisadi hüququn struktur elementi və onun tərkibinə daxil olan hüquqi qurum, yəni **yarımsahə** kimi çıxış edir; şübhəsiz, sahibkarlıq hüququ iqtisadi hüququn yarımsahələrindən biridir. Belə fikir söyləmək üçün kifayət dərəcədə tutarlı arqumentlər vardır. Hər şeydən əvvəl, qeyd etməliyik ki, sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyət istiqamətlərindən (növlərindən) biridir. İqtisadi hüququn tərkibində yarımsahələrin ayrılması məhz iqtisadi fəaliyyətin növləri ilə müəyyən olunur və şərtlənir. Nəzərdən qaçırmaq olmaz ki, iqtisadi hüquqla nizama salınan iqtisadi fəaliyyət ayrı-ayrı növlərə (məsələn, bank fəaliyyətinə, nəqliyyat fəaliyyətinə, ticarət fəaliyyətinə, maliyyə fəaliyyətinə, enerji fəaliyyətinə, sığorta fəaliyyətinə və s.) bölünür. Məhz iqtisadi fəaliyyətin bu və ya digər növünü tənzimləyən struktur element (hüquqi qurum) iqtisadi hüququn yarımsahəsi kimi tanınır. Odur ki, iqtisadi fəaliyyətin istiqamətlərindən biri olan sahibkarlıq fəaliyyətini tənzimləyən sahibkarlıq hüququ da iqtisadi hüququn **xüsusi hissəsinin** tərkibində ayrıca yarımsahə kimi «status» əldə edir. İqtisadi hüququn yarımsahəsi kimi sahibkarlıq hüququnun ayrılmasını şərtləndirən əlamətlər (meyarlar) içərisində ən əsası bundan ibarətdir ki, onun özünəməxsus nizamasalma predmeti vardır.

### 13.1.2. Sahibkarlıq hüququnun nizamasalma predmeti

İqtisadi hüququn yarımsahələrindən biri olan sahibkarlıq hüququ sahibkarlıq münasibətlərini, yəni sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir. Məhz həmin münasibətlər sahibkarlıq hüququnun **nizamasalma predmetini** təşkil edir. Deməli, iqtisadi hüququn yarımsahələrindən biri olan sahibkarlıq hüququnun nizamasalma predmeti **sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlərdən** ibarətdir; bu münasibətlər, əlbəttə, mübahisəsiz olaraq bütün hallarda sahibkarlıq fəaliyyəti barədə

yaranır. Sahibkarlıq fəaliyyətinə dair leqal (normativ) anlayış isə «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində formulə edilmişdir. Adıçəkilən maddəyə görə, **sahibkarlıq fəaliyyəti** dedikdə şəxsin müstəqil surətdə həyata keçirdiyi elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyətin əsas məqsədi əmlak istifadəsindən, mal istehsalından (satışından), iş görülməsindən və ya xidmət göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsindən ibarətdir. Sahibkarlıq fəaliyyətinin təxminən buna oxşar anlayışı MM-in 13-cü maddəsində də verilmişdir.

Sahibkarlıq fəaliyyəti həmişə iqtisadi fəaliyyət hesab edilir. Axı, qeyd etdiyimiz kimi, sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyətin bir növüdür. Lakin iqtisadi fəaliyyət bütün hallarda heç də sahibkarlıq fəaliyyəti sayılmır. Məsələ burasındadır ki, sahibkarlıq fəaliyyəti kimi tanınması üçün iqtisadi fəaliyyət tələb edilən əlamətlərə (meyarlara) cavab verməli və onlara uyğun olmalıdır. Söhbət sahibkarlıq fəaliyyətini xarakterizə edən əlamətlərdən (meyarlardan) gedir. Əgər iqtisadi fəaliyyət bu əlamətlərə (meyarlara) cavab verərsə, o, sahibkarlıq fəaliyyəti hesab edilir. Hüquq ədəbiyyatı səhifələrində sahibkarlıq fəaliyyətinin əlamətlərinə müxtəlif meyarlar aid olunur.[1] **Şəxsin sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirməsi** onun əlamətlərindən biridir. Bu əlamət «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun sahibkarlıq fəaliyyətinə leqal (normativ) anlayış verən 1-ci maddəsində öz əksini tapmışdır. Burada həm də deyilir ki, sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi fəaliyyətdir. Şəxsin sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirməsi isə geniş anlayış olub, iki əsas əlamətlə xarakterizə olunur: birinci, sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslər **ayrıca əmlaka malik olmalıdırlar** ki, bu şəxslər sahibkarlıq fəaliyyətinin sub-

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник / Отв. ред. О.М. Олейник. М., 1999, с. 19-27; Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов н/Д, 2003, с. 6; Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı, 2005, s. 7-11; Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s. 16-17 və s.

yektləri adlanır. Ayrıca əmlaka malik olmaq sahibkarlıq fəaliyyətinin subyektlərini xarakterizə edən əlamətlərdən biridir. Belə ki, onlar öz əmlakına dair mülkiyyət hüququna malikdirlər; mülkiyyət hüququ isə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın iqtisadi əsası və bazasıdır. Subyektlər əmlaka dair həm sahiblik, həm istifadə, həm də sərəncam hüquqlarını həyata keçirirlər; bu isə onların **əmlak müstəqilliyini** ifadə edir.

İkinci, subyektlərin sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirmələri üçün onların həm də **təşkilatı müstəqilliyə** malik olmaları tələb edilir. Təşkilati müstəqillik dedikdə subyektlərin sahibkarlıq fəaliyyəti prosesində müstəqil qərarlar qəbul etmək imkanı başa düşülür. Deməli, sahibkarlıq fəaliyyəti ilə həm əmlak, həm də təşkilati müstəqilliyə malik olan subyekt məşğul olarsa, belə fəaliyyət müstəqil surətdə həyata keçirilmiş hesab edilir.[1]

Sahibkarlıq fəaliyyətinin **əsas məqsədi** mənfəət götürməkdən ibarətdir ki, bu, onun əlamətləri sırasına daxildir. Belə əlamət «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində göstərilmişdir; həmin maddə sahibkarlıq fəaliyyətinə leqal (normativ) anlayış verir. Burada deyilir ki, sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarətdir. **Mənfəət** dedikdə sahibkarın (müəssisənin) xalis gəlir forması, onun təsərrüfat fəaliyyətinin son nəticəsi başa düşülür;[2] mənfəət məhsulun (işin, xidmətin) realizəsində əldə edilən ümumi gəlirin bir hissəsidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə gəlir əldə etmək məqsədi güdür. **Gəlir** dedikdə təsərrüfat fəaliyyətindən əldə olunan qazanc başa düşülür. Mənfəət (gəlir) ya mal istehsalından, ya əmtəə satışından, ya iş görülməsindən, ya da xidmət göstərilməsindən götürülür. Əgər hər hansı fəaliyyət mənfəət (gəlir) götürmək məqsədi güdmürsə, belə fəaliyyət sahibkarlıq fəaliyyəti sayılmır.

**Riskli olması** sahibkarlıq fəaliyyətinin əlamətlərindən biri sayılır. Düzdür, qanunvericilikdə sahibkarlıq fəaliyyətinə veri-

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.8.

[2] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 121.

lən leqal (normativ) anlayışda (yuxarıda adıçəkilən qanunun 1-ci maddəsi) bu əlamət bilavasitə öz əksini tapmamışdır. Lakin sahibkarlıq hüquq elmi (doktrina) müəyyən edir ki, sahibkarlıq riskli xarakter daşıyan fəaliyyət növüdür. Qanunda ifadə edilib-edilməməsindən asılı olmayaraq sahibkarlıq fəaliyyəti bütün hallarda risk elementi ilə xarakterizə edilir. Risk elementi isə əsas məqsədi mənfəət (gəlir) götürülməsindən ibarət olan sahibkarlıq fəaliyyətinin bilavasitə xarakter və mahiyyəti ilə bağlıdır. **Sahibkarlıq fəaliyyətində risk** dedikdə nəzərdə tutulan və gözlənilən nəticəni əldə etməmək ehtimalı başa düşülür. Söhbət, hər şeydən əvvəl, mal istehsalı, əmtəə satışı, xidmət göstərilməsi və ya iş görülməsi nəticəsində nəzərdə tutulan mənfəətin (gəlirin) götürülməməsi ehtimalından gedir.

**Mütəmadi (sistematik) və daim həyata keçirilməsi** sahibkarlıq fəaliyyətini xarakterizə edən digər əlamətdir. Əgər subyekt hər hansı fəaliyyətlə mütəmadi (sistematik) və daimi məşğul olmazsa, belə fəaliyyət sahibkarlıq fəaliyyəti hesab edilmir. Məsələn, şəxs hazırladığı malı (əmtəəni) öz qonşusuna satır ki, onun bu cür hərəkəti sahibkarlıq fəaliyyəti sayılmır. Şəxs satış fəaliyyəti ilə mütəmadi və daim məşğul olarsa, bu, sahibkarlıq fəaliyyəti hesab edilir. Bir sözlə, əmtəə satışı, xidmət göstərilməsi və ya iş görülməsi mütəmadi olaraq və daimi həyata keçirilməlidir; yalnız belə halda mal istehsalı, əmtəə satışı, xidmət göstərilməsi və ya iş görülməsi sahibkarlıq fəaliyyəti kimi tanına bilər.

Sahibkarlıq fəaliyyətini xarakterizə edən əlamətlərdən biri də bundan ibarətdir ki, **sahibkarlıq fəaliyyəti leqallaşdırılmalıdır**. Sahibkarlıq fəaliyyətinin leqallaşdırılması dedikdə onun qanuniləşdirilməsi başa düşülür. Sahibkarlıq fəaliyyətinin qanuniləşdirilməsi isə bu fəaliyyətlə məşğul olan şəxslərin dövlət qeydiyyatına və uçota alınmalarıdır. Əgər sahibkarlıq fəaliyyəti ilə hüquqi şəxslər məşğul olursa, onlar dövlət qeydiyyatından keçir; sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan fiziki şəxs həyata keçirdiyi halda isə həmin şəxs vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınır. Yalnız dövlət qeydiyyatına və uçota alındıqda sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs

«qanuni status» əldə etmiş olur. Dövlət qeydiyyatına və uçota alınmadan həyata keçirilən fəaliyyət qanunsuz sahibkarlıq adlanır. Hüquq pozuntusu hesab edilən qanunsuz sahibkarlıq fəaliyyəti hüquqi məsuliyyətə səbəb olur. Məsələn, qanunsuz sahibkarlıqla məşğul olmağa görə CM-in 192-ci maddəsi cinayət məsuliyyəti nəzərdə tutur.

Hüquq ədəbiyyatında sahibkarlıq fəaliyyətinin həm də **digər əlamətləri** qeyd olunur. Məsələn, sahibkarlığın məqsədyönlü olması, sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərin müstəqil məsuliyyət daşımaları, sahibkarlığın peşəkar fəaliyyət olması, sahibkarlığın innovativ xarakter daşıması və s.

Sahibkarlıq hüququnun nizamasalma predmetini təşkil edən münasibətlər iki əsas növə bölünür: 1) hakimiyyət xarakterli sahibkarlıq münasibətləri; 2) qeyri-hakimiyyət xarakterli sahibkarlıq münasibətləri. **Hakimiyyət xarakterli sahibkarlıq münasibətləri** dedikdə hakimiyyət səlahiyyətinə malik olan dövlətin iştirak etdiyi münasibətlər başa düşülür. Sahibkarlığın dövlət tənzimlənməsi və ona nəzarət olunması həyata keçirildiyi halda məhz bu növ sahibkarlıq münasibətləri əmələ gəlir. Onlar şaquli xətt üzrə dövlət və sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranır. Belə münasibətlər hakimiyyət-tabeçilik münasibətləridir.

**Qeyri-hakimiyyət xarakterli sahibkarlıq münasibətləri** dedikdə sahibkarlıq fəaliyyətinin həyata keçirilmə prosesində üfüqi xətt üzrə əmələ gələn münasibətlər başa düşülür ki, bu münasibətlərdə tərəf qismində hakimiyyət səlahiyyətinə malik olmayan sahibkarlıq subyektləri iştirak edirlər. Tərəflər hüquq bərabərliyinə malik olduğundan həmin münasibətlər hakimiyyət-tabeçilik münasibətləri hesab edilmir.

Sahibkarlıq bazar iqtisadiyyatının hərəkətverici qüvvəsidir. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadi sistemi və təsərrüfat həyatı məhz sahibkarlığa əsaslanır.[1]

---

[1] Sahibkarlıq barədə daha ətraflı: Бусыгин А.В.Предпринимательство. Учебник. М., 2001, 640 с.

## 13.2. Sahibkarlıq hüququnun subyektləri, prinsipləri və mənbələri

### 13.2.1. Sahibkarlıq hüququnun subyektləri

Sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlərin potensial (mümkün) iştirakçıları **sahibkarlıq hüququnun subyektləri** adlanır ki, onlar subyektiv hüquqlara malik ola və hüquqi vəzifələr daşıya bilərlər. Subyektiv hüquqlara malik olmaq və hüquqi vəzifələr daşımaq qabiliyyətli olduqları üçün həmin iştirakçılar sahibkarlıq hüququnun subyektləri kimi tanınırlar.

Sahibkarlıq hüququnun subyektləri müxtəlif meyarlara görə ayrı-ayrı növlərə bölünür. Sahibkarlıq fəaliyyəti ilə bilavasitə məşğul olmaq kimi meyar üzrə onların iki əsas növü fərqləndirilir: 1) sahibkarlıq fəaliyyəti ilə bilavasitə məşğul olan subyekt; 2) sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsini və ona nəzarəti həyata keçirən subyekt.

**Sahibkarlıq fəaliyyəti ilə bilavasitə məşğul olan subyekt** dedikdə sahibkarlığı həyata keçirən şəxs başa düşülür. Sahibkarlıq isə iki mənada işlədilir:[1] 1) məhdud mənada, 2) geniş mənada. **Məhdud mənada sahibkarlıq** dedikdə mülkiyyətçinin və ya təsərrüfat subyektinin iqtisadi fəaliyyəti başa düşülür. **Geniş mənada sahibkarlıq** isə iqtisadiyyat sferasında təşəbbüskarlıq və aktivlik deməkdir.

**Sahibkarlıq** dedikdə şəxsin yenilikdən istifadə etməklə öz riski əsasında mənfəət (gəlir) götürmək məqsədilə həyata keçirdiyi təsərrüfat fəaliyyəti başa düşülür; belə şəxs **sahibkar** adlanır. Müasir mənada «sahibkar» termini (ingiliscə – businessman; fransızca – entrepreneur)[2] elmi dövriyyədə təxminən XVIII əsrdə işlədilməyə başlanılmışdır. Bəzi müəlliflər həmin terminin elmi dövriyyəyə ingilis iqtisadçısı R.Kantilon, digərləri isə fransız iqtisadçısı J.B.Sey tərəfindən daxil olunmasını iddia edirlər.

---

[1] Экономическая теория. Учебник / Под общ.ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.190.

[2] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 684.

Sahibkarlıq müasir təsərrufat fəaliyyətini xarakterizə edən əsas anlayışlardan biridir. Bu anlayış indiki şəraitdə istehsalın əsas amilinə çevrilmişdir. iqtisadiyyatı inkişaf etdirmək və təkmilləşdirmək onun yerinə yetirdiyi əsas funksiyalardan biri hesab olunur.

Sahibkarlıq anlayışının məna yükü altında elə bir iqtisadi fəaliyyət başa düşülür ki, bu fəaliyyət mənfəət (gəlir) götürmək məqsədi ilə mal istehsalına, əmtəə satışına, xidmət göstərilməsinə və ya iş görülməsinə yönəlir. Bu cür fəaliyyət isə sahibkarlıq fəaliyyəti adlanır. Sahibkarlıq fəaliyyətində müxtəlif sayda şəxs iştirak edə bilər. Bu baxımdan, sahibkarlığın iki növü (forması) fərqləndirilir: 1) fərdi sahibkarlıq; 2) şərikli sahibkarlıq. Yeri gəlmişkən qeyd edək ki, sahibkarlığın bu kimi növləri (formaları) «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur (maddə 4). Burada göstərilir ki, Azərbaycan Respublikasında sahibkarlıq fərdi və şərikli şəkildə həyata keçirilə bilər. Əgər sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan fiziki şəxs həyata keçirərsə, belə növ (forma) sahibkarlıq **fərdi sahibkarlıq** adlanır. Şəxsin digər şəxslərlə birlikdə hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına isə **şərikli sahibkarlıq** deyilir. Şərikli sahibkarlıq həm də **kollektiv sahibkarlıq** adlanır. Fərdi sahibkarlıq fiziki, şərikli (kollektiv) sahibkarlıq isə hüquqi şəxslər tərəfindən həyata keçirilir; həm fərdi, həm də şərikli (kollektiv) sahibkarlığı həyata keçirən şəxslər sahibkarlıq fəaliyyəti ilə bilavasitə məşğul olan subyekt adlanır.

**Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsini və ona nəzarəti həyata keçirən subyekt** dedikdə hakimiyyət səlahiyyətli qurumlar başa düşülür; söhbət, hər şeydən əvvəl, **dövlətdən** gedir. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 1-ci hissəsində göstərilir ki, dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir. Bu zaman dövlət və sahibkarlıq fəaliyyətini bilavasitə həyata keçirən subyektlər arasında hakimiyyət xarakterli tabeçilik

münasibətləri əmələ gəlir. Məhz bu kimi hallarda dövlət sahibkarlıq hüququnun subyekti qismində çıxış edir. Dövlət həm də sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirdikdə sahibkarlıq hüququnun subyekti kimi tanınır. Belə ki, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə müvafiq olaraq, sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsinə yol verilir.

Hakimiyyət səlahiyyətli qurumlara həm də **bələdiyyələr** aiddir. Unutmaq olmaz ki, onlar yerlərdə (bələdiyyə ərazilərində) həyata keçirilən sahibkarlıq fəaliyyətini tənzimləyirlər. Bu zaman bələdiyyələr sahibkarlıq fəaliyyətinin subyekti qismində çıxış edirlər.

### 13.2.2. Sahibkarlıq hüququnun özünəməxsus prinsipləri

Sahibkarlıq hüququnun **özünəməxsus prinsipləri** dedikdə iqtisadi hüququn yarımsahəsi kimi onun məzmununu müəyyən edən elə əsas ideya və rəhbər başlanğıclar başa düşülür ki, normativ əhəmiyyətə malik olması səbəbindən onların məcburi hüquqi qüvvəsi vardır. Odur ki, sahibkarlıq hüququnun bütün subyektləri həmin prinsipləri yerinə yetirməli, onlara əməl etməlidirlər.

**Sahibkarlıq azadlığı** sahibkarlıq hüququnun prinsiplərindən biridir. Bu prinsipə görə, hər kəs azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Sahibkarlıq azadlığı prinsipi öz normativ ifadəsini Konstitusiyanın 59-cu maddəsində tapmışdır. Bu maddə şəxslərin azad sahibkarlıq hüququnu təsbit edir.

Şəxslər həm də sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirirlər. **Sahibkarlıq fəaliyyətinin müstəqil surətdə həyata keçirilməsi** isə sahibkarlıq hüququnun prinsiplərindən digəridir. Bu prinsip öz normativ ifadəsini bunda tapır ki, şəxs sahibkarlıq fəaliyyətini hər hansı subyektdən asılı olmadan həyata keçirir. Bunun üçün şəxsin mülkiyyətində ayrıca əmlakı olmalıdır. Söhbət şəxsin **əmlak müstəqilliyindən** gedir ki, bu, onun sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirməsini təmin edir. Digər tərəfdən, sahibkarlıq fəaliyyəti ilə məş-

ğul olan şəxs **təşkilati müstəqilliyə** malik olmalıdır. Təşkilati müstəqillik dedikdə şəxsin sahibkarlıq fəaliyyəti ilə bağlı qərarları hər hansı subyektdən asılı olmadan sərbəst şəkildə qəbul etmək imkanı başa düşülür ki, belə imkan sahibkarlıq fəaliyyətinin müstəqil surətdə həyata keçirilməsini təmin edir. Belə imkan olmadan sahibkarlıq fəaliyyəti müstəqil surətdə həyata keçirilə bilməz.

**Sahibkarlığın dövlət tənzimlənməsi prinsipi** də sahibkarlıq hüququnun prinsipləri sırasına aiddir. Bu prinsip öz ifadəsini sahibkarlığın dövlət tərəfindən nizama salınmasında tapır. Bundan ötrü dövlət müxtəlif vasitələrdən istifadə edir. Belə vasitələrə aid olunur: 1) qanunvericilik; 2) inzibati-hüquq; 3) büdcə; 4) vergi; 4) pul-kredit sistemləri. Bunlar sahibkarlığı dövlət tərəfindən tənzimetmə vasitələridir; məhz onların köməyi ilə sahibkarlığın dövlət tənzimlənməsi həyata keçirilir.

Sahibkarlığın dövlət tənzimlənməsi prinsipi öz normativ-hüquqi əksini «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda tapmışdır. Adıçəkilən qanunun 9-cu maddəsi məhz həmin prinsipin formulə olunmasına həsr edilmişdir. Burada göstərilir ki, dövlət sahibkarlıq fəaliyyətini tənzimləyir.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsində isə **sahibkarlıq fəaliyyətinə dövlət nəzarəti** prinsipi ifadə olunmuşdur. Bu, sahibkarlıq hüququnun prinsiplərindən biridir. Həmin prinsip bunda ifadə olunur ki, səlahiyyətli dövlət orqanları sahibkarlıq sahəsində yoxlamalar aparmaqla dövlət nəzarətini həyata keçirirlər. Axı yoxlama dövlət nəzarətinin əsas formasıdır.

Yoxlama aparmaq (nəzarət etmək) hüququna yalnız səlahiyyət verilmiş dövlət orqanları malikdir. Belə orqanlar dövlət nəzarət orqanları adlanır ki, onların sırasına vergi, antiinhisar, sanitariya, ekologiya və s. orqanlar daxildir. Bu kimi orqanların sahibkarlıq sahəsində müvafiq nəzarəti həyata keçirmək – yoxlamalar aparmaq qaydası «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi

haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (2013-cü il) müəyyən edilir.

**Sahibkarlıq cavabdehliyi prinsipi** sahibkarlıq hüququnun digər prinsipidir. Bu prinsipə görə, sahibkar qanunvericiliyin tələblərinə əməl etmədiyi, hüquq pozuntusu törətdiyi, öz öhdəliklərini icra etmədiyi və ya lazımi qaydada icra etmədiyi hallarda məsuliyyət daşıyır; onun məsuliyyəti mülki-hüquqi, inzibati və cinayət məsuliyyəti növlərində ola bilər. Belə ki, müvafiq hüquq pozuntusuna yol verən və hüquqazidd əməl törədən sahibkara ya mülki (məsələn, sahibkarı əmlakından əvəzsiz və kompensasiya ödənilmədən məhrum etmək, dəbbə pulu almaq və s.), ya inzibati (məsələn, cərimə ödəmək və s.), ya da və cinayət-hüquqi sanksiyalar (məsələn, azadlıqdan məhrum etmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı müəyyən müddətə qadağan etmək və s.) tətbiq edilə bilər. Məsələn, qanunsuz və ya yalançı sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur ki, həmin əməllər cinayət-hüquq pozuntusudur (CM, maddə 190–193). Sözügedən prinsip «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində formulə edilmişdir.

**Sahibkarlıq fəaliyyətinə müdaxilə olunmaması prinsipi** də sahibkarlıq hüququnun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, sahibkarın həyata keçirdiyi təsərrüfat fəaliyyətinə dövlət orqanları qarışa bilməzlər. Dövlət orqanları sahibkara göstəriş verə bilməz ki, o, hansı növ mal istehsal etsin və ya hansı növ əmtəə satsın, yaxud xidmətin hansı növünü göstərsin və s. Axı sahibkar təsərrüfat fəaliyyətini həyata keçirməkdə müstəqil və sərbəstdir. Dövlət orqanları yalnız sahibkarlıq fəaliyyətini qanunda müəyyən edilən həddə tənzimləyə və ona nəzarət həyata keçirə bilərlər.

Sahibkarlıq hüququ həm də **qanunçuluq prinsipindən** çıxış edir. Bu prinsipə görə, sahibkarlıq fəaliyyəti qanunvericiliyin tələblərinə əməl olunmaqla həyata keçirilir. Konstitusiyanın 59-cu maddəsi məhz həmin prinsipin hüquqi formulə olunmasına həsr edilmişdir. Bu maddəyə əsasən, hər kəs qanunda nə-

zərdə tutulmuş qaydada azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Qanunçuluq prinsipi həm də bunda ifadə edilir ki, sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qanunauyğun olmalıdır.[1]

**Sahibkarların müdafiəsi prinsipi** sahibkarlıq hüququnun prinsiplərindən biridir. Bu prinsipə görə, sahibkarların hüquq və qanuni mənafeləri dövlət tərəfindən müdafiə olunur; dövlət belə müdafiəni təmin edir.

Sahibkarlıq hüququ həm də **sahibkarlığa dövlət köməyi prinsipindən** çıxış edir. Bu prinsipə görə, sahibkarlığın inkişafını təmin etmək üçün dövlət sahibkarlığa yardım göstərir. Dövət, hər şeydən əvvəl, vergi və kredit güzəştləri müəyyən edir ki, bunlar sahibkarlığın inkişafına böyük təsir göstərir. Bundan əlavə, sahibkarlığa kömək məqsədi ilə dövlət informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə fondları yaradır, həvəsləndirmə tədbirləri görür və s.[2] Sözügedən prinsip «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində ifadə edilmişdir.

### 13.2.3. Sahibkarlıq hüququnun mənbələri

Sahibkarlıq hüququnun əsas mənbə növ **normativ hüquqi aktlardır**. Normativ hüquqi aktlar içərisində **qanunlar** vacib rol oynayır. Dövlətin əsas qanunu isə **Konstitusiyadır;** Konstitusiyanın xüsusilə də 59-cu maddəsi sahibkarlıq hüququ üçün mühüm əhəmiyyətə malikdir. Burada, ilk növbədə, sahibkarlıq

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с. 14.

[2] Məsələn, sahibkarlığın inkişafının stimullaşdırılması məqsədi ilə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Azərbaycan Respublikasının 20.10.2015-ci il tarixli 1410-IVQ nömrəli Qanunu qəbul edilmişdir. Bu qanuna görə, ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar müvəqqəti olaraq iki il müddətinə dayandırılmışdır (AR QT. Bakı, 2015, № 10). Milli Məclisdən alınan məlumata görə, adıçəkilən qanundakı yoxlamaların dayandırılma müddəti 01.01.2021-ciılədək uzadılmışdır (URL:http: // www.startup.az>news - 05.12.2017-ci il).

azadlığı kimi prinsip ifadə olunmuşdur. Digər tərəfdən, həmin maddə azad sahibkarlıq hüququ kimi subyektiv konstitusion hüquq təsbit edir. Bu hüquq insan hüquqları sırasına aid olunur. Azad sahibkarlıq hüququ həm də əsas iqtisadi hüquqlardan biridir.[1] Konstitusiyanın 15-ci maddəsinin II hissəsində isə azad sahibkarlığa dövlət səviyyəsində təminat verilir. Beləliklə, sahibkarlıq hüququnun normativ əsası və bazası sayılan Konstitusiya sahibkarlıq haqqında qanunvericiliyə daxil olan vacib aktlardan biridir.

Sahibkarlıq haqqında qanunvericiliyə həm də **«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu** (1992-ci il) aid edilir. Bu qanun sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsinə yönəlmişdir. Burada sahibkarlıq fəaliyyəti, sahibkarlığın subyektləri, sahibkarlığın formaları, sahibkarların hüquq və vəzifələri, sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi və ona dövlət nəzarəti, sahibkarların məsuliyyəti, sahibkarlıq fəaliyyətinə xitam verilməsi, habelə digər məsələlər barədə hüquq normaları nəzərdə tutulmuşdur.

Sahibkarlıq haqqında qanunvericiliyə eyni zamanda **Mülki Məcəllə** (MM) daxildir. MM-də sahibkarlıq fəaliyyətinə leqal (normativ) anlayış verilir, sahibkarlığın subyekti olan fiziki və hüquqi şəxslərin sahibkarlıq müqavilələrinin (pərakəndə alqı-satqı, mal göndərmə, faktorinq, lizinq və s.) hüquqi tənzimlənməsinə aid müvafiq normalar müəyyən olunur.

Sahibkarlıq haqqında qanunvericiliyə daxil olan aktlardan biri **«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunudur** (2013-cü il). Bu qanun sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı məsələləri tənzimləyir.

**«Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu** (1992-ci il) sahibkarlıq haqqında qanunvericiliyin tərkib hissələrindən biridir. Sözügedən qanun

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Отв. ред. О.М.Олейник, М., 1999, с. 59.

xarici hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri sahibkarlıq fəaliyyətinin xüsusiyyətlərini müəyyənləşdirir.

Sahibkarlıq haqqında qanunvericiliyin tərkibində daha **iki aktın** da adı çəkilir. Bunlardan biri «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı (1992-ci il), digəri isə «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında» Konstitusiya Qanunudur (1991-ci il). Bu aktlarda sahibkarlığa aid müvafiq hüquq normalarına rast gəlinir.

**«Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2016-cı il) həmçinin sahibkarlıq haqqında qanunvericiliyə daxildir. Bu qanun sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya və icazələrin verilməsinə dair münasibətləri tənzimləyir. Lakin həmin qanun maliyyə bazarları sahəsinə şamil olunmur. Məsələ burasındadır ki, maliyyə bazar-larında sahibkarlıq fəaliyyətinin keçirilməsi üçün lisenziya və icazəni Maliyyə Bazarlarına Nəzarət Palatası verir. Bu, onun fəaliyyət istiqamətlərindən biridir.

Sahibkarlıq haqqında qanunvericiliyə göstərilən qanunlarla yanaşı digər aktlar da daxildir. Söhbət **qanunqüvvəli aktlardan** gedir. Qanunqüvvəli aktlara, ilk növbədə, **Prezident fərmanları** aiddir ki, onlar sahibkarlıq fəaliyyətinin tənzimlənməsi işində böyük rol oynayır. Bu sahədə qəbul olunan Prezident fərmanlarının sayı kifayət qədər çoxdur.[1] Belə fərmanlara misal kimi aşağıdakıları göstərmək olar: «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» (2002-ci il), «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» (2002-ci il), «Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» (2007-ci il), «Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə

---

[1] *Belə fərmanların siyahısı verilmişdir:* Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı, 2005, s. 6.

sistemi ilə bağlı bəzi məsələlər haqqında» (2011-ci il) və s. fərmanlar.[1]

**İşgüzar adətlər** sahibkarlıq hüququnun mənbə növlərindən biridir. Əgər hüquqda boşluq (hüquqi çatışmazlıq) mövcud olarsa, yəni sahibkarlıq fəaliyyətini nizama salan müvafiq normalar olmazsa, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi belə adətlər vasitəsi ilə həyata keçirilir. İşgüzar adətlər məhz sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində formalaşan davranış qaydalarıdır (MM-in 10-cu maddəsinin 1-ci hissəsi);[2] onlar, əsasən, xarici iqtisadi əməliyyatlar və dəniz ticarəti (dəniz nəqliyyat daşımaları) sahəsində tətbiq olunur.

**Beynəlxalq müqavilələr** də sahibkarlıq hüququnun mənbə növlərindən biridir. Unutmaq olmaz ki, Azərbaycan Respublikasının bağladığı və tərəfdar çıxdığı beynəlxalq müqavilələr ölkəmizin qanunvericilik (hüquq) sisteminin tərkib hissəsidir. Odur ki, beynəlxalq müqavilələr sahibkarlıq hüququnun mənbəyidir.

Nə sahibkarlıq hüquq doktrinası (elmi), nə də məhkəmə qərarları sahibkarlıq hüququnun mənbəyi kimi tanınır. Məsələ burasındadır ki, Azərbaycan Respublikasının hüquq sistemi onları hüququn mənbəyi hesab etmir.

### 13.2.4. İqtisadi hüquq sistemində sahibkarlıq hüququnun yeri

İqtisadi hüquq sistemində sahibkarlıq hüququnun hansı yer tutması hüquq ədəbiyyatı səhifələrində mübahisə doğuran məsələlərdən biridir. Bu məsələ barədə müəlliflər bir-birindən fərqli müxtəlif fikir söyləyirlər; odur ki, onların mövqeləri üst-üstə düşmür. Alimlər arasında gedən qızğın mübahisə bu gün də davam edərək səngimək bilmir.

---

[1] *Sözügedən fərmanlarla tanış olmaq üçün bax:* Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s.359-399.

[2] *İşgüzar adətlər barədə daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı, 2008, s.183.

Bəzi müəlliflər belə hesab edirlər ki, sahibkarlıq hüququ müstəqil hüquq sahələrindən biridir. Həm də sahibkarlıq hüququna müstəqil hüquq sahəsi kimi yanaşan müəlliflərin sayı kifayət qədər çoxdur.[1]

Elə alimlər də vardır ki, onlara görə sahibkarlıq hüququ sahibkarlıqla bağlı müxtəlif növ münasibətləri tənzimləyir. Odur ki, həmin müəlliflər sahibkarlıq hüququna kompleks hüquq sahəsi kimi baxırlar;[2] onların fikrincə, kompleks hüquq sahəsi olan sahibkarlıq hüququ vasitəsi ilə sahibkarlıq fəaliyyətinin hərtərəfli hüquqi tənzimlənməsi həyata keçirilir.

Bir qrup alimlərə də rast gəlinir ki, onların mövqeyinə görə, sahibkarlıq hüququ müstəqil hüquq sahəsi hesab edilmir. Onlar belə düşünürlər ki, sahibkarlıq hüququ qanunvericilik sahəsi və müstəqil tədris fənnidir.[3]

Müəlliflərdən S.X.Aslanov sahibkarlıq hüququna mülki-hüquqi kontekstdə yanaşır. Bu səbəbdən o, sahibkarlıq hüququnu mülki hüququn tərkib hissəsi hesab edir.[4]

Sahibkarlıq hüququnun statusu, yəni hüquq sistemində tutduğu yer barədə iki əsas konsepsiya formalaşmışdır. Bunlardan biri monist, digəri isə dualist konsepsiyadır. Monist konsepsiya tərəfdarları belə hesab edirlər ki, sahibkarlıq münasibətləri təkcə hüquq sahəsi – sahibkarlıq hüququ ilə tənzimlənməlidir. Dualist konsepsiya tərəfdarları isə, əksinə, göstərirlər ki, sahibkarlıq münasibətləri iki hüquq sahəsi ilə nizama salınmalıdır. Bu sahələrdən biri mülki, digəri isə inzibati hüquqdur.[5]

---

[1] *Məsələn, bax:* Предпринимательское (хозяйственное) право. Учебник. Том I / Отв. ред. О.М.Олейник. М., 1999, с. 31; Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.10; Лаптев В.В. Предпринимательское право. М., 1997; Предпринимательское право. Учебное пособие / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.3.

[2] Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s. 22.

[3] *Məsələn, bax:* Предпринимательское право. Курс лекций / Под ред. Н.И.Клейн. М., 1993; Гражданское право. Том 1.Учебник / Отв. ред. Е.А.Суханов. М., 1998 və b.

[4] Aslanov S.X. Sahibkarlıq hüququ. II nəşr. Bakı, 2013, s. 28.

[5] Bu konsepsiyalar barədə bax: Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.10.

Göründüyü kimi, sahibkarlıq hüququnun statusu hüquq doktrinasında mübahisə predmeti olan məsələdir. Biz, bu məsələ ətrafında geniş diskussiya açmaq niyyətində deyilik. Fikrimizcə, ən düzgün və ağlabatan məntiqi yanaşma bundan ibarətdir ki, sahibkarlıq hüququ iqtisadi hüququn yarımsahəsidir. İqtisadi hüququn tərkibinə (sisteminə) sahibkarlıq hüququ məhz yarımsahə statusu ilə daxil olur. Bu cür fikir söyləmək üçün kifayət qədər tutarlı dəlil və arqumentlər mövcuddur. Əsas dəlil və arqument bundan ibarətdir ki, iqtisadi fəaliyyət müstəqil hüquq sahəsi olan iqtisadi hüquq vasitəsi ilə tənzimlənir. İqtisadi fəaliyyətin əsas və başlıca növü olan sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi isə, təbii ki, iqtisadi hüququn yarımsahələrindən biri – sahibkarlıq hüququ ilə həyata keçirilməlidir. Belə yanaşma reallığı əks etdirir və məntiqəuyğundur.

## 13.3. Sahibkarlıq fəaliyyətinin hüquqi əsasları

### 13.3.1. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi

Keçmiş Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) inzibati-amirlik dövründə ölkənin təsərrüfat sistemi komanda-totalitar və planlı iqtisadiyyat əsasında təşkil olunmuşdu. Təsərrüfat fəaliyyətini, əsasən, dövlət müəssisələri həyata keçirirdi. Təsərrüfat subyekti olan müəssisələrin çoxu dövlət mülkiyyətində idi; total dövlət mülkiyyəti hökm sürürdü. Müəssisələr öz təsərrüfat fəaliyyətini dövlət direktivləri əsasında həyata keçirirdilər. Cəmiyyətdə maddi nemətlərin (xidmətlərin) istehsalı, mübadiləsi və bölgüsü haqqında qərarlar dövlət tərəfindən qəbul edilirdi; xüsusi mülkiyyət qadağan olunmuşdu.

Keçən əsrin 90-cı illərinin əvvəllərində məlum proseslər nəticəsində SSRİ dövlətinin mövcudluğuna son qoyuldu. Sosializm quruluşundan və sovet təsərrüfat sistemindən imtina olundu; xüsusi mülkiyyətə icazə verildi. Postsovet ölkələrindən biri kimi Azərbaycan Respublikasında da bazar iqtisadiyyatı formalaşmağa başladı. Cəmiyyətdə həyata keçirilən təsərrüfat fəaliyyəti bazar münasibətlərinə əsaslandı; mülkiyyətin müxtəlif növləri (formaları) yarandı. Bunların nəticəsində ölkədə sahib-

karlıq fəaliyyətinə qanuni status verildi; sahibkarlıq dövlət tərəfindən iqtisadi fəaliyyətin əsas növü kimi tanındı. Azərbaycan dövlətində sahibkarlığa Konstitusiya səviyyəsində təminat verildi.

Sahibkarlıq fəaliyyəti ilə bağlı cəmiyyətdə yaranan münasibətləri tənzimləmək üçün Azərbaycan Respublikasında 15 dekabr 1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında» Qanun qəbul olundu. Məhz bu qanun qəbul edildikdən sonra sahibkarlıq fəaliyyəti ölkədə geniş vüsət almağa başladı. Axı sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının əsas və hərəkətverici qüvvəsidir. Sözügedən qanun Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, onun dövlət tərəfindən müdafiə olunmasını və s. məsələləri müəyyənləşdirir.

Sahibkarlıq bu gün dövlət tərəfindən təqdir olunan və həvəsləndirilən fəaliyyət növünə çevrilmişdir. Sahibkarlıq hətta dövlət tərəfindən elan olunan prioritet sahələrdən biridir. Belə ki, sahibkarlığın inkişafına dövlət xüsusi diqqət yetirir. Yetirilən xüsusi diqqətin təzahürüdür ki, dövlət ölkədə sahibkarlığın inkişafı barədə çoxsaylı aktlar qəbul etmişdir. Bu aktlar içərisində Prezident aktları vacib yer tutaraq mühüm rol oynayır. Aydın bir həqiqətdir ki, dövlət başçısı tərəfindən qəbul edilən fərman və sərəncamlarla sahibkarlığın inkişafı üçün xüsusi fəallıq nümayiş etdirilir. Heç də sirr deyildir ki, sahibkarlıq müasir dövrdə ölkəmizdə təsərrüfat fəaliyyətini xarakterizə edən anlayışlardan biri kimi tanınır.

### 13.3.2. Sahibkarlıq subyektlərinin yaradılması

İstənilən fəaliyyət, o cümlədən sahibkarlıq fəaliyyəti iki elementdən ibarətdir ki, bu elementlərdən biri obyekt, digəri isə subyektdir.[1] Obyekt və subyekt olmadan nə hər hansı fəaliyyət növü, nə də fəaliyyət növlərindən biri olan sahibkarlıq fəaliyyəti həyata keçirilə bilər. **Sahibkarlıq fəaliyyətinin obyekti**

---

[1] Каган М.С. Человеческая деятельность. М., 1972, с. 45-46.

(sahibkarlıq obyekti) odur ki, sahibkarlıq subyektinin iqtisadi aktivliyi ona yönəlir. **Sahibkarlıq fəaliyyətinin subyekti** (sahibkarlığın subyekti) dedikdə iqtisadi aktivliklə təmin olunan şəxs başa düşülür. İqtisadi (təsərrüfat) fəaliyyət prosesində şəxslər arasında yaranan iqtisadi münasibətlər də obyekt və subyektdən ibarətdir.[1]

Sahibkarlıq fəaliyyətinin subyekti (sahibkarlığın subyekti) «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilir. Adıçəkilən qanunun 3-cü maddəsi bu məsələyə həsr edilmişdir. Burada deyilir ki, sahibkarlıqla aşağıdakılar məşğul ola bilər: 1) Azərbaycan Respublikasının fəaliyyət qabiliyyətli vətəndaşları; 2) mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər.

**Azərbaycan Respublikasının vətəndaşları** sahibkarlığın subyekti, yəni sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün onların tam mülki fəaliyyət qabiliyyətli olmaları tələb edilir. Vətəndaş 18 yaş həddinə çatdıqda tam mülki hüquq fəaliyyət qabiliyyətinə malik olur (MM-in 28-ci maddəsinin 2-ci hissəsi). Məhz 18 yaşı tamam olduqda vətəndaş sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Bunun üçün o, vergi orqanlarında vergi ödəyicisi kimi **uçota alınmalıdır**. Bununla belə, 18 yaşı tamam olmadan da şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Belə ki, 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxs övladlığa götürənlərin, valideynlərinin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər (MM-in 28-ci maddəsinin 4-cü hissəsi).

Uçota alındığı andan vətəndaş fərdi sahibkar statusu əldə edir. **Fərdi sahibkar** dedikdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs başa düşülür. **Fiziki şəxs** anlayışına Azərbaycan Respublikası vətəndaşlarından başqa, həm də xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslər daxildir; onlar da vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmalıdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 43.

üçün fiziki şəxslərin dövlət qeydiyyatına alınmaları tələb olunmur.[1] Dövlət qeydiyyatına hüquqi şəxslər alınırlar ki, onlar sahibkarlıq fəaliyyətinin subyektləridir. Söhbət, ilk növbədə, Azərbaycan Respublikasının hüquqi şəxslərindən gedir.

**Azərbaycan Respublikasının hüquqi şəxsləri** dedikdə elə hüquqi şəxslər başa düşülür ki, onlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçməklə yaradılır və təsis olunurlar. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 1-ci hissəsində göstərilir ki, sahibkarlıqla həm də xarici hüquqi şəxslər məşğul ola bilərlər. **Xarici hüquqi şəxslər** dedikdə əcnəbi ölkənin qanunvericiliyi ilə yaradılan və təsis olunan hüquqi şəxslər başa düşülür.

Hüquqi şəxslər sahibkarlığın əsas subyektidir. Belə ki, sahibkarlıq fəaliyyəti məhz hüquqi şəxslər vasitəsi ilə həyata keçirilir. Başqa sözlə, vətəndaşlar (şəxslər) sahibkarlıq fəaliyyəti ilə, əsasən, hüquqi şəxs yaratmaqla məşğul olurlar.

Sahibkarlıq fəaliyyətinin subyekti olan hüquqi şəxslərin yaradılması mürəkkəb xarakterli bir proses olub, bir neçə mərhələdən ibarətdir. Birinci mərhələdə hüquqi şəxs təsis edilir və onun nizamnaməsi hazırlanır, habelə təsisçilər arasında müvafiq müqavilə bağlanılır. Sonrakı mərhələdə hüquqi şəxs dövlət qeydiyyatına alınır. Qanunda ifadə edilən göstərişdən məlum olur ki, **dövlət qeydiyyatından** keçmiş qurum hüquqi şəxs kimi tanınır, yəni hüquqi şəxs statusu əldə edir (MM-in 43-cü maddəsinin 1-ci hissəsi).

Sahibkarlıq fəaliyyətinin subyekti olan hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınır. **Vergilər Nazirliyi** həmin orqanlardan biridir. Vergilər Nazirliyi sahib-

---

[1] Müəlliflərdən R.Y.Məmmədov göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün vətəndaşlar dövlət qeydiyyatından keçməlidirlər – bax: Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s.73. Unutmaq olmaz ki, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci hissəsinə görə, fiziki şəxslər vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar; burada onların dövlət qeydiyyatından keçməsi göstərilmir.

karlıq subyektlərinin fəaliyyətinin **«bir pəncərə» prinsipi** üzrə vahid dövlət qeydiyyat orqanıdır. Belə ki, məlum olduğu kimi, 25 oktyabr 2007-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2458 nömrəli sərəncam verilmişdir. Bu sərəncamın 1-ci bəndində, əsasən, Vergilər Nazirliyi sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı kimi müəyyən edilmişdir.

Vergilər Nazirliyi **kommersiya təşkilatlarını** dövlət qeydiyyatına alır ki, onlar hüquqi şəxslərin bir növüdür. Nəzərə almaq lazımdır ki, sahibkarlıq fəaliyyətinin subyekti olan hüquqi şəxslər dedikdə məhz kommersiya təşkilatları başa düşülür. Kommersiya təşkilatları sahibkarlıq fəaliyyətinin əsas və başlıca, necə deyərlər, peşəkar subyekti hesab edilir.

Hüquqi şəxslərin digər növü olan **qeyri-kommersiya təşkilatlarına** gəldikdə, qeyd etməliyik ki, qanun belə təşkilatların sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına icazə verir. Qeyri-kommersiya təşkilatları sahibkarlıq fəaliyyəti ilə yalnız o halda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin (MM-in 43-cü maddəsinin 6-cı hissəsi). Lakin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qeyri-kommersiya təşkilatlarının əsas deyil, əlavə işi olmalıdır; onun hansı əsas işlə məşğul olması bu növ təşkilatın nizamnaməsində göstərilir.

Qeyri-kommersiya təşkilatları aşağıdakı icra hakimiyyəti orqanlarında dövlət qeydiyyatına alınır: 1) Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi; 2) Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi; 3) bu nazirliklərin rayon (şəhər) qeydiyyat şöbələri; 4) Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi. Bu orqanlar qeyri-kommersiya təşkilatlarının dövlət qeydiyyatını «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununa (2003-cü il) uyğun aparır.

Sahibkarlıq fəaliyyətinin subyekti olan hüquqi şəxslərin dövlət qeydiyyatı onların yaradılması prosesinin **son mərhələsidir;** onlar məhz dövlət qeydiyyatından keçdikdən sonra yaradılmış

sayılır. Belə ki, dövlət qeydiyyat orqanı müvafiq quruma sahibkarlıq fəaliyyətinin subyekti kimi hüquqi status verilməsinə yönələn akt qəbul edir. Bununla, yəni belə aktın qəbul edilməsi ilə hüquqi şəxsin yaradılması prosesi başa çatır.

Qeyd etdiyimiz kimi, hüquqi şəxslərdən fərqli olaraq, sahibkarlıq subyekti olan fiziki şəxslərin dövlət qeydiyyatına alınmaları tələb edilmir. Məsələ burasındadır ki, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci hissəsi sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin vergi orqanlarında vergi ödəyicisi kimi uçuota alınması haqqında qayda nəzərdə tutur. Uçota alınma ilə bağlı məsələlər Vergilər Nazirliyinin 19 may 2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları» kimi normativ xarakterli aktla tənzimlənir. Bu akta görə, müvafiq sənədlər təqdim edildikdən sonra Vergilər Nazirliyi uçota alınmaq barədə qərar qəbul edir; fiziki şəxsə həm də VÖEN verilir. **VÖEN** vergi ödəyicisinin eyniləşdirmə nömrəsidir. Məhz vergi uçotuna alındıqdan və VÖEN verildikdən sonra fiziki şəxs fərdi sahibkar statusuna malik olur və sahibkarlığın subyekti kimi tanınır.

Elə fiziki şəxslər də vardır ki, qanunda onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına yol verilmir. Belə ki, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 2-ci hissəsinə görə, sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərin həllini və ya bu fəaliyyətə nəzarəti həyata keçirən dövlət orqanlarının vəzifəli şəxslərinə və mütəxəssislərinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağandır.

### 13.3.3. Sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması

Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün fiziki şəxslərin təkcə vergi uçotuna alınmaları, hüquqi şəxslərin isə dövlət qeydiyyatından keçmələri kifayət etmir. Qeyd etməliyik ki, söhbət sahibkarlıq fəaliyyətinin bütün deyil, ayrı-ayrı növlərindən gedir. Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növləri ilə məşğul

olmaq üçün həm vergi uçotuna alınmış fiziki şəxslərin, həm də dövlət qeydiyyatından keçmiş hüquqi şəxslərin lisenziya almaları tələb edilir. Axı sahibkarlıq lisenziyalaşdırılmış fəaliyyət növüdür. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə görə, sahibkarlıq lisenziya tələb edən fəaliyyətdir. Bu maddənin 1-ci hissəsində deyilir ki, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri lisenziya əsasında həyata keçirilir. Sahibkarlıq fəaliyyətinin bəzi növlərinin lisenziyalaşdırılması – lisenziya verilməsi ölkədə sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Hüquqi şəxslər sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növləri ilə yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər (MM-in 44-cü maddəsinin 2-ci hissəsi).

**Lisenziya** dedikdə təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsə müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən rəsmi sənəd başa düşülür. Bu cür rəsmi sənəd, yəni lisenziya tələb edən fəaliyyət növlərinin siyahısı isə qanunvericiliklə müəyyən edilir: məsələn, tibb fəaliyyəti, təhsil fəaliyyəti, sığorta fəaliyyəti, bank fəaliyyəti və s.

Lisenziya qanunvericiliklə müəyyənləşdirilmiş qaydalar əsasında verilir. Söhbət **«Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»** kimi normativ xarakterli qanunvericilik aktından gedir ki, bu akt Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur. Xatırlatmaq istərdik ki, bu Fərman bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqındadır. Həmin qanunvericilik aktı qəbul edilənə qədər sahibkarlıq fəaliyyətinin bu və ya digər növünə lisenziya verilməsinin ayrı-ayrı qaydaları tətbiq olunurdu. Məsələn, «Beynəlxalq turizm fəaliyyətinə lisenziya verilməsi Qaydaları», «Şəxsi daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik fəaliyyətinə li-

senziya verilməsi Qaydaları», «Lizinq fəaliyyətinə lisenziya verilməsi Qaydaları», «Nəqliyyat-ekspeditor xidmətlərinə lisenziya verilməsi Qaydaları», «İnşaat fəaliyyəti üçün lisenziya verilməsi Qaydaları» və s.[1] Öz hüquqi qüvvəsini itirdiyinə görə belə qaydalar hazırda tətbiq olunmur.

Hal-hazırda lisenziya verilməsi ilə bağlı münasibətləri tənzimləmək üçün ayrıca xüsusi qanun – **«Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanunu** (2016-cı il) qəbul edilmişdir. Sözügedən qanun Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin (maliyyə bazarları sahəsi istisna olmaqla) həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin təkmilləşdirilməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Həmin qanuna müvafiq əlavələr olunmuşdur: 1 nömrəli Əlavə, 2 nömrəli Əlavə. **1 nömrəli Əlavə** lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısını müəyyən edir. **2 nömrəli Əlavədə** isə dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı verilmişdir. Adıçəkilən qanuna həm də daha bir əlavə – **3 nömrəli Əlavə** edilmişdir. Bu sənəddə sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı təsbit olunur.[2]

---

[1] *Bu qaydalar barədə daha ətraflı:* Sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsi qaydaları haqqında normativ aktlar / Texniki redaktor: G.Bəşirova. Bakı, 1998, 424 s.; Məmmədov M.M., Məmmədov R.Y. Sahibkarlıq hüququ (mühazirələr toplusu). Bakı, 2005, 138 s.

[2] URL:http://www.e-qanun.az – 30.06.2018-ci il).

# XIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XIV FƏSİL.*
# BANK HÜQUQU

## 14.1. İqtisadi hüquq sistemində bank hüququnun yeri
### 14.1.1. Bank hüququ anlayışı

İqtisadi fəaliyyət növlərindən biri bank fəaliyyəti adlanır. Bank fəaliyyətinin həyata keçirilməsi prosesində müxtəlif növ ictimai münasibətlər əmələ gəlir. Məsələn, hər hansı bank müəssisələrə və ya fiziki şəxslərə kredit verir ki, bu zaman bank və həmin şəxslər arasında kredit münasibəti yaranır. Yaşadığımız həyatda əksər vətəndaşlar bu və ya digər banka əmanət kimi pul vəsaiti qoyurlar. Bu kimi hallarda bank və vətəndaş arasında depozit münasibəti (bank əmanəti münasibəti) əmələ gəlir və s. Kredit, depozit və digər münasibətlər bank fəaliyyətinin həyata keçirilməsi zamanı yaranır. Odur ki, onlar ümumən bank fəaliyyəti ilə bağlı münasibətlər sayılır.[1]

Əlbəttə, bank fəaliyyəti ilə bağlı münasibətlər müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir; məhz belə normaların sistemi bank hüququ adlanır.

**Bank hüququ** dedikdə bank fəaliyyəti ilə bağlı kredit təşkilatları və ayrı-ayrı şəxslər (müştərilər) arasında yaranan ictimai münasibətləri nizama salan hüquq normalarının məcmusu başa düşülür. Bu, **obyektiv mənada** bank hüququna verilən elmi (doktrinal) anlayışdır. Obyektiv mənada bank hüququnun əsas funksiyası bank fəaliyyətinin hüquqi tənzimlənməsini həyata keçirməkdən ibarətdir. **Bank fəaliyyəti** dedikdə məqsədyönlü şəkildə edilən elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər ayrı-ayrı şəxslərə xüsusi xarakterli əmtəə olan xidmət (bank xidməti) göstərilməsinə yönəlmişdir. Ayrı-ayrı şəxslərə göstərilən

---

[1] *Bank fəaliyyəti anlayışı, onun təşəkkül tapması və inkişaf tarixi barədə bax: məsələn,* Тарасенко О.А., Хоменко Е.Г. Банковское право: учебник для бакалавров. М., 2013, с.13-18; Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s. 221-226 (XII fəsil. Azərbaycan Respublikasında bank fəaliyyətinin hüquqi tənzimi.) və s.

bank xidməti müxtəlif növlərdə olur. Söhbət bankların həyata keçirdikləri fəaliyyət növlərindən gedir. Bankların həyata keçirdikləri fəaliyyət növləri isə «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsində sadalanır. Bu maddəyə görə, bank fəaliyyətinin növləri bunlardan ibarətdir: 1) kreditlər vermək; 2) depozitlər (əmanətlər) və digər qaytarılan vəsaitlər cəlb etmək; 3) şəxslər üçün hesab açmaq və onları aparmaq; 4) köçürmə və kassa-hesablaşma xidmətləri göstərmək; 5) lizinq; 6) faktorinq; 7) forfeytinq və s. İqtisadiyyatın ayrı-ayrı sahələrini maliyyələşdirən banklar hal-hazırda həddən artıq fəaliyyət növlərini həyata keçirirlər. Odur ki, bankların fəaliyyəti çoxşaxəlidir.[1]

Obyektiv mənada bank hüququ iqtisadi hüququn yarımsahələrindən biri kimi çıxış edir. Ümumiyyətlə, milli hüquq sistemində bank hüququnun hansı yer tutması hüquq elmində (doktrinada) mübahisəyə səbəb olan məsələdir. Bu barədə müəlliflər bir-birindən fərqli fikirlər söyləyirlər. Bir qrup alim belə hesab edir ki, bank hüququ nə hüquq sahəsi, nə də yarımsahə kimi formalaşmışdır; bank hüququ yalnız qanunvericilik sahələrindən biridir.[2] Bəzi müəlliflər bank hüququna maliyyə hüququnun yarımsahəsi kimi yanaşırlar.[3] Alimlər arasında elələrinə də rast gəlinir ki, onlar bank hüququna sahibkarlıq hüququnun yarımsahəsi kimi baxırlar.[4] Müəlliflərin bir qismi isə belə hesab edir ki, bank hüququ müstəqil hüquq sahəsidir.[5]

Ən ağlabatan və həqiqətəuyğun yanaşma odur ki, bank hüququ iqtisadi hüququn **yarımsahəsidir**. Belə ki, iqtisadi fəaliyyət müstəqil hüquq sahəsi kimi mövcud olan iqtisadi hüquqla tənzimlənir. Bank fəaliyyəti isə iqtisadi fəaliyyətin bir növüdür ki, bu fəaliyyət növünü nizama salan hüquqi qurum, təbii ki,

---

[1] Bağırov M.M. Banklar və bank əməliyyatları. Dərslik. Bakı, 2003, s.3.
[2] Ефимова Л.Г. Банковское право. М., 1994, с.4.
[3] Олейник О.М. Основы банковского право. Курс лекций. М., 1997, с.33.
[4] Курбатов А.Я. Банковское право России. Учебник. М., 2014, с. 28.
[5] Алексеева Д.Г., Пыхтин С.В., Хоменко Е.Г. Банковское право. Учебное пособие. М., 2012, с.18.

iqtisadi hüququn tərkibində yarımsahə kimi tanınmalıdır. Belə ki, iqtisadi hüquq, əvvəllərdə qeyd etdiyimiz kimi, iki hissədən ibarətdir: onlardan biri ümumi, digəri isə xüsusi hissə adlanır. İqtisadi hüququn xüsusi hissəsi ayrı-ayrı yarımsahələrdən ibarətdir ki, onların ayrılması iqtisadi fəaliyyətin bu və ya digər növünə əsaslanır. Bank hüququ həmin yarımsahələrdən biridir. İqtisadi hüququn **xüsusi hissəsi** məhz bank hüququnu ehtiva edir.

Obyektiv mənadan başqa, bank hüququ həm də digər mənalarda işlədilir: 1) qanunvericilik mənasında; 2) elmi mənada; 3) tədris fənni mənasında. **Qanunvericilik mənasında** bank hüququ dedikdə bank fəaliyyətini tənzimləyən normativ hüquqi aktların sistemi başa düşülür; belə aktların məcmusu **bank qanunvericiliyi** adlanır. **Elmi mənada** bank hüququ dedikdə bank hüququna aid məsələləri öyrənən və tədqiq edən hüquq-elm sahələrindən biri başa düşülür; bu mənada ona **bank hüquq elmi** və ya **bank hüquq doktrinası** da deyilir. **Tədris fənni mənasında** bank hüququ dedikdə təhsil-tədris prosesində keçilən və tələbə-oxucu auditoriyasını öyrədən kurs başa düşülür; söhbət **bank hüququ tədris fənnindən** (tədris kursundan) gedir. Bu fənn (tədris kursu) tələbə-oxucu auditoriyasını bank hüquq elmi, yarımsahə kimi bank hüququnun ibarət olduğu hüquq normaları və digər məsələlər barədə elmi biliklərlə təmin edir.

### 14.1.2. Bank hüququnun nizamasalma predmeti

İqtisadi hüququn hər bir yarımsahəsinin ayrıca öz nizamasalma predmeti vardır. Qeyd etdiyimiz kimi, bank fəaliyyətinin həyata keçirilməsi prosesində kredit təşkilatları (banklar) və şəxslər (müştərilər) arasında müəyyən ictimai münasibətlər əmələ gəlir. Bank hüququnun nizamasalma predmeti də məhz həmin münasibətlərdən ibarətdir. Odur ki, bank hüququnun **nizamasalma predmetini** bank fəaliyyətinin həyatakeçirilmə prosesində əmələ gələn ictimai münasibətlər təşkil edir; onlar bank münasibətləri adlanır. Bank münasibətləri, sözsüz, bank hüququ (bank hüququnun ibarət olduğu hüquq normaları) va-

sitəsi ilə həyata keçirilir. Bunun nəticəsində iqtisadi xarakterli həmin bank münasibətləri «bank-hüquq münasibətləri» kimi hüquqi forma alır.

**Bank-hüquq münasibətləri** dedikdə bank-hüquq normaları ilə tənzimlənən elə bank münasibətləri başa düşülür ki, bu münasibətlərin iştirakçıları subyektiv hüquqlara malik olub, hüquqi vəzifələr daşıyırlar. Başqa sözlə, bank-hüquq münasibətlərinin iştirakçıları subyektiv hüquq və hüquqi vəzifə daşıyırlar.

İstənilən hüquq münasibəti kimi, bank-hüquq münasibəti də quruluşca üç elementdən ibarətdir: 1) subyekt; 2) məzmun; 3) obyekt. **Bank-hüquq münasibətinin subyekti** dedikdə həmin münasibətin iştirakçısı başa düşülür. **Kredit təşkilatları** bank-hüquq münasibətinin əsas subyektidir. Bank-hüquq münasibətinin subyekti qismində həm də müştəri çıxış edir. **Müştəri** dedikdə bank xidmətinin istehlakçıları (fiziki və hüquqi şəxslər) başa düşülür. Onlar, yəni kredit təşkilatları və müştərilər bank fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquq münasibətinin iştirakçıları (subyektləri) hesab olunur.

Bank-hüquq münasibətinin subyekti (iştirakçısı) qismində həm də **Mərkəzi Bank** və **Maliyyə Bazarlarına Nəzarət Palatası** çıxış edir. Onlar bank fəaliyyətini dövlət tənzimetməsi və ona nəzarət olunması ilə bağlı bank-hüquq münasibətlərinin subyektləridir.

**Bank-hüquq münasibətinin məzmunu** dedikdə həmin münasibətdə iştirak edən subyektlərin hüquq və vəzifələri başa düşülür. Subyektlərdən birinin malik olduğu hüquqlar digər subyektin daşıdığı vəzifələrə uyğun gəlir. Yaddan çıxarmamalıyıq ki, hüquq və vəzifələrin bir-birinə uyğun gəlməsi hüququn əsas (ümumi) prinsiplərindən biri sayılır. Məsələn, bank-hüquq münasibətinin bir növü olan kredit-hüquq münasibəti öz məzmununa görə bankın və müştərinin (kredit alanın) hüquq və vəzifələrindən ibarətdir. Bank müştəriyə kredit vermək vəzifəsi daşıyır; kreditin qaytarılmasını tələb etmək onun hüququdur. Müştəri bankdan kredit verilməsini tələb etmək hüququna malikdir; krediti banka qaytarmaq isə onun vəzifəsidir və s.

**Bank-hüquq münasibətinin obyekti** dedikdə pul vəsaiti və borclunun davranışı başa düşülür. Obyekt bank-hüquq münasibətinin növündən asılıdır: məsələn, bank əmanəti münasibətinin obyekti pul vəsaitindən ibarətdir və s.

Bank-hüquq münasibətləri müxtəlif meyarlara görə ayrı-ayrı növlərə bölünür. İstifadə olunan hüquqi tənzimetmə metodundan asılı olaraq bank-hüquq münasibətlərinin iki növü fərqləndirilir: 1) şaquli bank-hüquq münasibəti (bu növ hüquq münasibətində subyekt qismində Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası çıxış edir); 2) üfüqi bank-hüquq münasibəti (bu növ hüquq münasibəti bank fəaliyyətinin həyata keçirilməsi çərçivəsində yaranır).

Yardımçı xarakterə malik olması kimi meyara görə bank-hüquq münasibətləri iki növə bölünür: 1) əsas bank-hüquq münasibəti (bu növ hüquq münasibəti bank fəaliyyətinin həyata keçirilməsi prosesində əmələ gəlir); 2) törəmə bank-hüquq münasibəti (bu növ münasibət əsas bank-hüquq münasibətindən törəyir və yardımçı xarakterə malik olur).

Subyektin hakimiyyət səlahiyyətinə malik olması kimi meyara görə bank-hüquq münasibətinin iki növü mövcuddur: 1) bank fəaliyyətinin dövlət tənzimlənməsi və ona nəzarət olunması ilə bağlı bank-hüquq münasibəti (bu münasibətdə hakimiyyət səlahiyyətinə malik olan Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası iştirak edir); 2) bank fəaliyyətinin həyata keçirilməsi ilə bağlı bank-hüquq münasibəti (bu növ hüquq münasibətində kredit təşkilatları çıxış edir ki, onların hakimiyyət səlahiyyəti yoxdur).

Obyekt kimi meyara görə bank-hüquq münasibəti aşağıdakı növlərə bölünür: 1) obyekti pul vəsaiti olan bank-hüquq münasibəti (məsələn, kredit- hüquq münasibəti); 2) obyekti qiymətli kağız olan bank-hüquq münasibəti və s.[1]

Bank-hüquq münasibətləri həm də digər meyarlara görə hüquqi təsnif edilir. Hüquq ədəbiyyatı səhifələrində bu məsələyə

---

[1] *Bank-hüquq münasibətinin növləri barədə bax:* Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.22-23.

lazımınca diqqət yetirilir. Məsələn, məzmun kimi əlamətə görə bank-hüquq münasibətləri aşağıdakı növlərə bölünür: kredit-hüquq münasibətləri, depozit-hüquq münasibətləri, hesablaşma – köçürmə hüquq münasibətləri və s.

## 14.2. Bank hüququnun subyektləri, mənbələri və prinsipləri

### 14.2.1. Bank hüququnun subyektləri

Bank-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları **bank hüququnun subyektləri** adlanır ki, onlar subyektiv hüquqların və hüquqi vəzifələrin daşıyıcılarıdır. Bank hüququnun subyektləri sırasına, hər şeydən əvvəl, kredit təşkilatları aiddir.

**Kredit təşkilatları** dedikdə elə hüquqi şəxslər başa düşülür ki, onlar bank fəaliyyətinin bütün və ya ayrı-ayrı növləri ilə məşğul olurlar. Qanunvericilik aktlarında bank fəaliyyətinə leqal (normativ) anlayış verilmir. Odur ki, bu işi bank hüquq elmi (doktrina) görür. Bank hüquq elmində göstərilir ki, bank fəaliyyəti dedikdə kredit təşkilatlarının apardıqları bank əməliyyatlarının və bağladıqları əqdlərin sistemi başa düşülür ki, onlar mənfəət əldə olunmasına yönəlir.[1] Bank əməliyyatları və bank əqdləri arasında hədd qoyulmasına gəldikdə isə, qeyd etməliyik ki, onlar olduqca bir-birinə yaxın anlayışlardır. Odur ki, bu anlayışlar arasında elə də prinsipial fərq yoxdur. Unutmaq olmaz ki, kredit təşkilatları ya bank əməliyyatı aparırlar, ya da bank əqdləri bağlayırlar; bank əməliyyatları aparmaq və bank əqdləri bağlamaq onların fəaliyyət predmetini təşkil edir. Bank əməliyyatları aparmaq və bank əqdləri bağlamaq o deməkdir ki, kredit təşkilatları tərəfindən bank fəaliyyəti həyata keçirilir.

**Bank əməliyyatları** dedikdə xüsusi hüquqi rejimə tabe olan bank əqdləri başa düşülür ki, qanunvericiliklə müəyyən edilən

---

[1] Банковское право. Учебник для магистров / Под ред. Д.Г.Алексеевой, С.В.Пыхтина. М., 2012, с.32.

həmin əqdlərin tərəflərindən biri müvafiq lisenziyaya malik olan kredit təşkilatıdır.[1] Bununla yanaşı, bəzi müəlliflər tərəfindən «bank əməliyyatları» və «bank əqdləri» bir-birindən fərqləndirilir, onların arasında hədd qoyulur.[2]

Kredit təşkilatlarının iki növü fərqləndirilir: 1) bank kredit təşkilatları; 2) bank olmayan kredit təşkilatları. **Bank kredit təşkilatları** dedikdə banklar başa düşülür. **Banklar** isə hüquqi şəxs statusuna malik olan elə kommersiya təşkilatlarıdır ki, onlar kreditlər verir, şəxslərdən əmanətlər (depozitlər) və digər qaytarılan vəsaitlər cəlb edir, habelə köçürmə və hesablaşma əməliyyatları aparırlar.

**Bank olmayan kredit təşkilatları** dedikdə ayrı-ayrı bank əməliyyatları aparan kredit təşkilatları başa düşülür. Ayrı-ayrı bank əməliyyatları özündə bank hesabı açmadan pul köçürmələri, pul vəsaitlərinin inkassasiyası, kreditlər verilməsi və s. əməliyyatların həyata keçirilməsini ehtiva edir.

Banklar və bank olmayan kredit təşkilatları arasında prinsipial fərqə gəldikdə, qeyd etməliyik ki, banklar əgər lisenziya ilə qadağan edilməmişdirsə, qanunvericilikdə nəzərdə tutulan bank fəaliyyət növlərinin hamısını məcmu halda həyata keçirir; onlar aşağıdakı fəaliyyət növlərinin həyata keçirilməsinə müstəsna hüquqa malikdir: 1) fiziki və hüquqi şəxslərin pul vəsaitlərinin əmanətlərə cəlb olunması; 2) cəlb olunmuş pul vəsaitlərinin öz adından və öz hesabına yerləşdirilməsi; 3) fiziki və hüquqi şəxslərin bank hesablarının açılması və aparılması.

Bank olmayan kredit təşkilatları isə bank fəaliyyətinin bütün növlərini həyata keçirmirlər; onlar yalnız bank fəaliyyətinin ayrı-ayrı növləri ilə məşğul ola bilərlər. Məsələn, bank olmayan kredit təşkilatı yalnız kredit vermək fəaliyyətini həyata keçirə bilər. Həm də bank olmayan kredit təşkilatlarının şəxslərdən əmanətə pul vəsaitləri cəlb etmək, yəni depozit əməliyyatı

[1] Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.26.
[2] Банковское право. Учебник / Отв. ред. В.С.Белых. М., 2015, с.7.

aparmaq hüququ yoxdur. Depozit əməliyyatını yalnız banklar həyata keçirə bilərlər.[1]

Bank hüququnun subyektləri sırasına həm də **Əmanətlərin Sığortalanması Fondu** aiddir. Bu fond əmanətlərin sığortalanması və onların qorunması ilə bağlı münasibətlərin iştirakçısıdır. Odur ki, həmin fond bank hüququnun subyekti kimi tanınır; o, bank sisteminin sabitliyi ilə məşğul olan subyektdir.[2] Bank sisteminin sabitliyi ilə məşğul olan subyektlərdən biri **Mərkəzi Bankdır**. Mərkəzi Bank bank fəaliyyətinin dövlət tənzimlənməsi və ona nəzarət olunması ilə bağlı münasibətlərin iştirakçısıdır. Bank sisteminin sabitliyi ilə məşğul olan subyektlər sırasına həm də **Maliyyə Bazarlarına Nəzarət Palatası** aiddir. Mərkəzi Bankla birlikdə həmin palata bank hüququnun əsas subyekti kimi tanınır. Bank hüququnun əsas subyektləri sırasına həmçinin bank fəaliyyəti ilə məşğul olan kredit təşkilatları, xüsusilə də banklar aiddir.

### 14.2.2. Bank hüququnun mənbələri

Bank hüququnun əsas və başlıca mənbə növü **normativ hüquqi aktlardır**. Əgər normativ hüquqi aktlar bank fəaliyyətinin hüquqi tənzimlənməsinə həsr olunarsa, belə aktlar bank hüququnun mənbəyi sayılır. Bu kimi aktların məcmusuna **bank qanunvericiliyi** deyilir. Bank qanunvericiliyinə, ilk növbədə, dövlətin əsas qanunu olan **Konstitusiya** aiddir. Konstitusiya nəinki hüquq sahələrinin, həmçinin bütün hüquq yarımsahələrinin, o cümlədən bank hüququnun normativ əsasıdır; onun xüsusilə də 94-cü maddəsi bank hüququ üçün əhəmiyyətlidir. Belə ki, bu maddəyə görə, Milli Məclis ayrı-ayrı məsələlərə dair ümumi qaydalar müəyyənləşdirir və həmin məsələlərdən biri məhz bank işidir.

---

[1] *Banklar və bank olmayan kredit təşkilatlarını bir-birindən fərqləndirən cəhətlər barədə bax:* Банковское право. Учебник / Под ред. В.Ф.Попондопуло, Д.А.Петрова. М., 2014, с.76-77.

[2] Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.32.

Bank qanunvericiliyinə həm də digər qanunlar daxildir. Söhbət, ilk növbədə, **«Banklar haqqında» Azərbaycan Respublikasının Qanunundan** (2004-cü il) gedir. Bu qanun Azərbaycan Respublikasında həyata keçirilən bank fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir. Həmin qanunda bank hüququnun əsas anlayışlarına leqal (normativ) tərif verilir, bankların yaradılmasına, fəaliyyət göstərməsinə, bankların lisenziya almasına, onların fəaliyyətinə xitam verilməsinə və digər məsələlərin tənzimlənməsinə aid hüquq normaları ehtiva olunur.

Bank qanunvericiliyinə həm də **«Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Qanun** (2004-ci il) daxildir. Bu qanunda Mərkəzi Bankın məqsədlərini, yerinə yetirdiyi funksiyaları, səlahiyyətləri və digər məsələləri müəyyənləşdirən müvafiq hüquq normaları nəzərdə tutulur.

Bank qanunvericiliyinə aid olan qanunlardan biri **«Bank olmayan kredit təşkilatları haqqında» Azərbaycan Respublikasının Qanunudur** (2009-cu il). Bu qanun kredit təşkilatlarının növlərindən biri sayılan bank olmayan kredit təşkilatlarının hüquqi statusunun müəyyənləşdirilməsinə və onların fəaliyyətinə aid hüquq normaları təsbit edir.

Qanunlar içərisində **«Qiymətli kağızlar bazarı haqqında» Azərbaycan Respublikasının Qanunu** da bank hüququnun mənbəyidir; bu qanun 16 may 2015-ci ildə qəbul edilmişdir. Nəzərdən qaçırmaq olmaz ki, kredit təşkilatları eyni zamanda qiymətli kağızlar bazarının peşəkar iştirakçısıdır.[1]

**«Kredit büroları haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2016-cı il) bank hüququnun mənbələri sırasına daxildir. Bu qanun kredit bürolarının yaradılmasının və fəaliyyətinin hüquqi əsaslarını, kredit tarixçələrinin formalaşdırılması və məlumatdan istifadə prinsiplərini müəyyən edir, subyektlərin hüquq və vəzifələrini, eləcə də kredit büroları üzərində nəzarət məsələlərini tənzimləyir.

---

[1] Курбатов А.Я. Банковское право России. Учебник. М., 2014, с.520.

**«Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu** (2006-cı il) bank qanunvericiliyinin tərkib hissəsidir. Bu qanun banklara əmanət kimi qoyulan pul vəsaitlərinin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir. Həmin qanun «Əmanətlərin Sığortalanması» kimi qeyri-dövlət qurumunun yaradılmasını nəzərdə tutur ki, bu fond əmanətlərin sığortalanması məqsədi üçün fəaliyyət göstərir. Həmin fondun hüquqi statusu, yerinə yetirdiyi funksiyalar və digər məsələlər məhz sözügedən qanunla müəyyənləşdirilir.

1 fevral 2016-cı ildən **«Əmanətlərin tam sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu** qüvvəyə minmişdir ki, bu qanun 19 yanvar 2016-cı ildə qəbul olunmuşdur. Onun qəbul edilməsinin məqsədi qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyini qorumaq, bank sisteminin dayanıqlığını təmin etmək və əmanətçilərin bank sisteminə etibarını gücləndirməkdən ibarətdir. Sözügedən qanuna görə, bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq banklar tərəfindən 3 il müddətinə tam sığortalanır.

Bank qanunvericiliyinə həm də **qanunqüvvəli aktlar** daxildir. Söhbət Prezident fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından gedir. Prezident fərmanları ilə bank fəaliyyətinə aid məsələlər haqqında sənədlər təsdiq olunur. «Maliyyə Bazarlarına Nəzarət Palatası»nın Nizamnaməsi məhz belə sənədlərdən biridir.[1]

Bank qanunvericiliyinin tərkibinə həmçinin **Mərkəzi Bankın normativ xarakterli aktları** daxildir. Unutmaq olmaz ki, Mərkəzi Bank belə aktlar qəbul etmək səlahiyyətinə malikdir; onlar bank hüququnun mənbəyidir. Məsələn, «Banklarda kreditlərin verilməsi Qaydaları» bu kimi aktlardan biridir ki, həmin akt Mərkəzi Bankın 18 noyabr 2008-ci il tarixli 34 nömrəli protokol qərarı ilə təsdiq olunmuşdur. Mərkəzi Bankın nor-

[1] Bu sənəd Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir (URL:http://www.president.az – 21.02.2017-ci il).

mativ xarakterli digər aktlarına aiddir: «Bankların yenidən təşkili Qaydaları», «Bank lisenziyalarının və icazələrinin alınması üçün müraciət qaydaları haqqında Təlimat», «Bankların və xarici bankların yerli filiallarının məcburi ləğvinə dair Təlimat», «Bank olmayan kredit təşkilatları tərəfindən kreditlərin verilməsinə xüsusi razılığın (lisenziyanın) və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat», «Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları» və s.

Əgər Azərbaycan Respublikası xarici dövlətlərlə bank işlərinə dair beynəlxalq müqavilə bağlayarsa, həmin müqavilələr bank qanunvericiliyinin tərkibinə daxil olur. **Beynəlxalq müqavilə** iqtisadi hüququn, o cümlədən onun yarımsahələrindən biri olan bank hüququnun mənbəyidir. Beynəlxalq müqavilələrdən fərqli olaraq, beynəlxalq tövsiyələr bank hüququnun mənbəyi kimi tanınmır.[1] Məsələn, bank nəzarətinə dair Bazel Komitəsinin bəyannaməsi və s. belə tövsiyələrə misal ola bilər. Bu kimi tövsiyələr bank-hüquq normalarının formulə edilməsinə və müəyyən olunmasına böyük təsir göstərir.

**Bank adətləri** bank hüququnun mənbə növlərindən biridir. Bank fəaliyyətinə aid elə praktik məsələlər vardır ki, onlar bank qanunvericiliyi ilə tənzimlənir. Belə halda həmin məsələləri həll etmək və tənzimləmək üçün işgüzar bank dövriyyə adətlərindən istifadə olunur.[2] Qanunvericilik buna, yəni bank adətlərinin tətbiq olunmasına yol verir.

### 14.2.3. Bank hüququnun özünəməxsus prinsipləri

Bank hüququ özünəməxsus prinsiplərə əsaslanır ki, onlar bank hüququnun məzmununu müəyyənləşdirən əsas normativ ideyalardır. **Bank fəaliyyətinin maneəsiz həyata keçirilməsi prinsipi** onlardan biridir. Bu prinsipə görə, banklar sərbəst şə-

---

[1] *Beynəlxalq tövsiyələr barədə daha ətraflı:* Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.21.

[2] Тарасенко О.А., Хоменко Е.Г. Банковское право: учебник для бакалавров. М., 2013, с.25-30.

kildə bank əməliyyatları apara və bank əqdləri bağlaya bilərlər. Sərbəst şəkildə bank əməliyyatları aparmaq və bank əqdləri bağlamaq bank fəaliyyətinin maneəsiz həyata keçirilməsi deməkdir. Axı bank əməliyyatlarının və bank əqdlərinin məcmusu bank fəaliyyəti adlanır. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin 1-ci hissəsində deyilir ki, bank lisenziyasında qadağan edilməmişdirsə, banklar qanunda nəzərdə tutulan bütün bank əməliyyatlarını apara və bank əqdlərini bağlaya, yəni bank fəaliyyətinin bütün növləri ilə məşğul ola bilərlər.

**Müstəsnalıq** bank hüququnun özünəməxsus prinsiplərindən digəridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, banklar yalnız bank fəaliyyəti ilə məşğul ola bilərlər. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin 1-ci hissəsi onların topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul olmalarını qadağan edir. Bu kimi qadağanetmə onunla izah edilir ki, banklar müstəsna fəaliyyət səlahiyyətinə malikdirlər; onlar yalnız bank fəaliyyətini həyata keçirməlidirlər.

**Əmanətlərin qorunması prinsipi** bank hüququnun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, fiziki şəxslərin banklardakı əmanətləri sığortalanır və sığorta hadisəsi baş verdikdə müvafiq kompensasiya ödənilir. Sığorta hadisəsi o halda baş verir ki, bank ləğv olunsun, müflis elan edilsin və s.

Əmanətlərin sığortalanması ilə bağlı münasibətlər iki qanunla tənzimlənir: 1) «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu (2006-cı il); 2) «Əmanətlərin tam sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu (2016-cı il).

**Prioritet prinsipi** bank hüququnun prinsiplərindən biri sayılır. Bu prinsipə görə, bank müştərilərinin müdafiəsinə prioritet əhəmiyyət, yəni üstünlük verilir. Axı bank-hüquq münasibətlərində iştirak edən tərəflər de-fakto bərabər deyillər. Belə ki, bank-hüquq münasibətlərinin tərəflərindən biri olan bank iqtisadi baxımdan güclü olan tərəfdir; bank maliyyə bazarının pe-

şəkar vasitəçisidir. Bankın müştərisi isə iqtisadi nöqteyi-nəzərdən və peşəkar hazırlıq baxımından zəif tərəfdir; odur ki, onların müdafiəsinə üstünlük verilir. Bankın müştərisi dedikdə həm fiziki, həm də hüquqi şəxslər başa düşülür ki, onlar bank tərəfindən göstərilən xidmətin (bank xidmətinin) istehlakçılarıdır.

**Bank sisteminin ikisəviyyəli olması prinsipi** bank hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, Azərbaycan Respublikasının bank sistemi iki mərhələdən ibarətdir: 1) Mərkəzi Bank; 2) kommersiya təşkilatları. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 1-ci hissəsində göstərilir ki, Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir.

Bank hüququnun prinsiplərinə həm də belə bir prinsip aiddir ki, **bank fəaliyyətinə müdaxilə olunmasına yol verilmir.** Bu prinsipə görə, hakimiyyət səlahiyyətinə malik olan dövlət orqanları və bələdiyyə qurumları bank fəaliyyətinin həyata keçirilməsinə müdaxilə edə bilməzlər. Hətta cari bank fəaliyyəti ilə bağlı qərarlar qəbul edərkən banklar həm dövlət hakimiyyət orqanlarından, həm də bələdiyyə qurumlarından asılı olmurlar ki, bu, bank fəaliyyətinə müdaxilə olunmasına yol verilməməsi prinsipinin ifadə formalarından biridir. Banklar onların fəaliyyət növlərinə aid edilməyən bank əməliyyatlarının aparılmasına və bank əqdlərinin bağlanılmasına da məcbur edilə bilməzlər. Sözügedən prinsip «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 4-cü hissəsində formulə edilmişdir.

**Bank fəaliyyətini həyata keçirməyə müstəsna hüquq prinsipi** də həmçinin «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində öz normativ ifadəsini tapmışdır. Bu prinsipə görə, banklar əmanətlər (depozitlər) və digər qaytarılan vəsaitlər cəlb etməyə, kreditlər verməyə, habelə köçürmə və hesablaşma-kassa əməliyyatları həyata keçirməyə müstəsna hüquqa malikdir; bu hüquq yalnız banklara məxsusdur. Kredit təşkilatlarının digər növü olan bank olmayan kredit təşkilatlarının belə hüququ yoxdur.

Hüquq ədəbiyyatı səhifələrində bank hüququnun digər prinsipləri haqqında da danışılır:[1] məsələn, bank fəaliyyətinin kriminallaşdırılmasının qarşısının alınması prinsipi, bank fəaliyyətinin vahid mərkəzləşdirilmiş qaydada dövlət tənzimlənməsi prinsipi, bank sirrinin təmin olunması prinsipi və s.

### 14.3. Bank kredit təşkilatları bank hüququnun əsas subyekti qismində

#### 14.3.1. Bank kredit təşkilatlarının yaradılması

Bank hüququnun subyekti olması üçün kredit təşkilatı bank kimi təsis edilməlidir. Bankın təsis edilməsi, yəni yaradılması isə mürəkkəb xarakterli bir proses deməkdir ki, bu proses bir neçə mərhələdən ibarətdir. İlk növbədə, bankı təsis edən şəxslər (təsisçilər) öz aralarında təsis müqaviləsi bağlayırlar. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin 1-ci hissəsində deyilir ki, bank ən azı üç hüquqi şəxs və ya fiziki şəxs tərəfindən yaradılır. Odur ki, təsisçilər öz aralarında təsis müqaviləsi bağlayırlar və həmin müqavilədə, hər şeydən əvvəl, bankın nizamnaməsinin hazırlanmasını müəyyənləşdirirlər. Hazırlandıqdan sonra bankın nizamnaməsi təsisçilər tərəfindən təsdiq olunur. Nəzərdən qaçırmaq olmaz ki, bankın təsisçilər tərəfindən təsdiq olunmuş nizamnaməsi onun təsis sənədidir. Bank məhz öz nizamnaməsi əsasında fəaliyyət göstərir.

Təsisedilmə prosesinin sonrakı mərhələsində bank hüquqi şəxs kimi dövlət qeydiyyatına alınır. Əvvəllər, yəni 1 yanvar 2008-ci ilə kimi bankların hüquqi şəxs kimi dövlət qeydiyyatı «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununa (2003-cü il) uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən aparılırdı. Lakin ölkə Prezidenti 2007-ci il tarixdə müvafiq sərəncam verdi ki, bu sərəncamın 1-ci bəndinə əsasən, sahibkarlıq fəaliyyəti subyektlərinin

---

[1] Банковское право. Учебник / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М., 2015, с.17.

«bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmişdir.[1] Unutmaq olmaz ki, bank fəaliyyəti sahibkarlıq fəaliyyətinin növlərindən biridir.[2] Buna görə də banklar sahibkarlıq fəaliyyətinin subyekti kimi tanınır. Məhz bu səbəbdən ölkə Prezidentinin sözügedən sərəncamı bankların dövlət qeydiyyatına alınmasına da aiddir.

Dövlət qeydiyyatına alındıqdan sonra bank hüquqi şəxs statusuna malik olur. Başqa sözlə, «bir pəncərə» prinsipi üzrə Vergilər Nazirliyində dövlət qeydiyyatından keçdikdən sonra bank hüquqi şəxs kimi tanınır. Lakin bankın təkcə hüquqi şəxs kimi tanınması onun bank fəaliyyəti ilə məşğul olması üçün kifayət etmir. Bundan ötrü bank səlahiyyətli dövlət orqanından lisenziya (xüsusi razılıq) almalıdır. Yaddan çıxarmamalıyıq ki, banklar Azərbaycan Respublikasının ərazisində bank fəaliyyətini lisenziya əsasında həyata keçirə bilər. Lisenziyanı nəinki banklar, həm də bank olmayan kredit təşkilatları alırlar. Lisenziya almaq, ümumiyyətlə, bütün kredit təşkilatlarını xarakterizə edən əlamətlərdən biridir.

**Lisenziya (bank lisenziyası)** dedikdə qanunvericiliklə müəyyən edilmiş qaydada verilən, şəxslərdən (fiziki və hüquqi şəxslərdən) depozitlər və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlər verilməsi ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıq başa düşülür.[3] Banklar

---

[1] Söhbət «Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının «bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 25.10.2007-ci il tarixli 2458 nömrəli Sərəncamından gedir. URL:http://www.e-qanun.az (22.02.2017-ci il).

[2] Гражданское и торговое право зарубежных государств. Учебник. II том / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2005, с. 274.

[3] *Lisenziya barədə daha ətraflı bax: məsələn,* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 151-152; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 465-466.

bank fəaliyyəti ilə yalnız bu kimi xüsusi razılıq əsasında məşğul ola bilərlər. Yazılı formada olan bank lisenziyaları yalnız onları almış şəxslər tərəfindən istifadə edilə bilər.

Əvvəllər bank lisenziyalarını Mərkəzi Bank verirdi. Maliyyə Bazarlarına Nəzarət Palatası yaradıldıqdan (2016-cı il) sonra isə bu işi artıq həmin qurum görür. Publik hüquqi şəxs olan bu palata bir neçə istiqamətdə fəaliyyət göstərir ki, maliyyə bazarlarında fəaliyyətin lisenziyalaşdırılması bunlardan biridir. Maliyyə bazarlarında həyata keçirilən fəaliyyət növlərindən biri məhz bank fəaliyyətidir.

Bank lisenziyasının alınması üçün tələb edilən şərtlərə əməl olunmalıdır. Hər şeydən əvvəl, bankın nizamnamə kapitalının ilkin minimum miqdarı Mərkəzi Banka köçürülməlidir; bundan ötrü həmin bankın adına hesab açılır. Bankın nizamnamə kapitalının ilkin minimum miqdarı üzrə ödənişlər məhz bu hesabdan Mərkəzi Banka daxil olduqda lisenziya verilməsi müsbət həll edilir. Bankın adına açılmış hesab ondan ötrüdür ki, bankın nizamnamə kapitalının ilkin minimum miqdarını yığmaq (toplamaq) mümkün olsun.

Bank lisenziyasını almaq üçün həm də dövlət rüsumunun ödənilməsi tələb edilir. Bunun üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən müvafiq sənəd təqdim edilməlidir.

Banklar yalnız **açıq səhmdar cəmiyyət formasında** yaradıla bilər. Bundan başqa, bankların digər hər hansı təşkilati-hüquqi formada təsis edilməsinə yol verilmir.

Xarici banklar Azərbaycan Respublikasında yerli filiallar açanda da bank lisenziyası almalıdırlar. Belə ki, bank lisenziyası olmadan heç bir xarici bank Azərbaycan Respublikasında filial aça bilməz. Axı «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu xarici bankların yerli filiallarının lisenziyalaşdırılmasını nəzərdə tutur.

Banklar (yerli banklar) özlərinin filiallarını aça bilər; bunun üçün onlara lisenziya deyil, icazə verilməlidir. Yerli bank icazə olmadan filial aça bilməz; yerli bank həm də öz şöbə və nümayəndəliklərini açanda icazə almalıdır. **İcazə** yazılı formada olan

elə bir sənəddir ki, bu sənəd əsasında yerli bankın filial, şöbə və nümayəndəlikləri fəaliyyət göstərir.

### 14.3.2. Bank kredit təşkilatlarını idarəetmə

Banklar müəyyən struktur əsasında idarə olunur. Söhbət **bankın idarəetmə strukturundan** gedir ki, bu, onun nizamnaməsi ilə müəyyən edilir.

Bankın idarəetmə strukturu **ikimərhələlidir**. Birinci mərhələ bankın ali idarəetmə orqanından ibarətdir. Bankın **ali idarəetmə orqanı** dedikdə Səhmdarların Ümumi Yığıncağı başa düşülür. **Səhmdarların Ümumi Yığıncağı** bankın fəaliyyətinə aid olan əsas məsələləri həll edən orqandır. Sözügedən orqan müstəsna səlahiyyətlərə malikdir. Bu o deməkdir ki, bankın hər hansı digər orqanı onun ali idarəetmə orqanının müstəsna səlahiyyətlərinə aid edilmiş hər hansı məsələni tənzimləyə bilməz.

Səhmdarların Ümumi Yığıncağının səlahiyyətlərinə aşağıdakılar aiddir:

- bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişiklik etmək;
- bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişiklik etmək (hər bir bank müvafiq məsələləri müəyyənləşdirən reqlament əsasında fəaliyyət göstərir);
- bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barədə siyasəti müəyyənləşdirmək;
- bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
- digər hüquqi şəxslərin kapitalında bankların iştirakı barədə qərarlar qəbul etmək;
- bankın filiallarını və nümayəndəliklərini açmaq və onların fəaliyyətlərinə xitam vermək, bu kimi struktur bölmələrin əsasnamələrini təsdiq etmək;
- bankın büdcəsini qəbul və təsdiq etmək;
- bankın satılması və yenidən təşkili barədə qərarlar qəbul etmək və s.

Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətləri «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 24-cü maddəsində göstərilmişdir. Bu səlahiyyətlərin həyata keçirilməsi nəticəsində bankın fəaliyyətinə aid olan mühüm və vacib məsələləri həll etmək mümkün olur.

Bankın idarəetmə strukturunun ikinci mərhələsini **icra orqanı** təşkil edir; ona həm də, sadəcə olaraq, idarəetmə orqanı deyilir. Bankın icra orqanı funksiyasını İdarə Heyəti həyata keçirir. **İdarə Heyəti** dedikdə müəyyən sayda üzvlərdən ibarət olan elə bir kollegial orqan başa düşülür ki, bu orqan bankın idarə olunmasını həyata keçirir. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində göstərilir ki, hər bir bank həm də İdarə Heyəti tərəfindən idarə olunur; İdarə Heyəti məsul icra orqanıdır.

İdarə Heyəti **kollegial qaydada** formalaşan orqandır. Belə ki, bu orqan ayrı-ayrı üzvlərdən ibarətdir. Üzvlər isə bankın ali idarəetmə orqanı funksiyasını həyata keçirən Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin olunur və azad edilir. Bu, onun müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən biridir.

İdarə Heyətinin üzvləri ən azı üç nəfərdən ibarətdir; həm də üzvlər tək sayda təyin olunurlar. Bu onunla bağlıdır ki, İdarə Heyətinin qərarları yığıncaqda iştirak edən üzvlərin **sadə səs çoxluğu** ilə qəbul edilir; hər bir üzv bir səs hüququna malikdir. Bu hüququ həyata keçirən zaman (səsvermə zamanı) üzvlərin bitərəf qalmasına icazə verilmir.

İdarə Heyəti iclas formasında fəaliyyət göstərir. Əgər iclasda üzvlərin yarısından çoxu iştirak edərsə, onda İdarə Heyəti səlahiyyətli sayılır. İdarə Heyəti öz **əsasnaməsinə** uyğun fəaliyyət göstərir; onun əsasnaməsi Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq olunur. Bu, onun müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən digəridir.

Bankın İdarə Heyətinə **sədr** rəhbərlik edir. Sədr İdarə Heyətinin üzvləri sırasından Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin olunur. İdarə Heyəti sədrinin səsi səsvermə zamanı səslər bərabər olduqda həlledici sayılır. Onun səlahiyyətləri isə İdarə Heyətinin əsasnaməsi ilə müəyyən edilir.

İdarə Heyəti üzvlərinin səlahiyyət müddətinə gəldikdə, qeyd etmək lazımdır ki, onlar dörd ildən çox olmayan müddətə təyin edilirlər. Deməli, İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti dörd ildən çox olmamalıdır.

Bankın İdarə Heyəti ilə bağlı müvafiq hüquq normaları «Banklar haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur. Həmin qanunun 26-cı maddəsi məhz bu orqanın fəaliyyətinin tənzimlənməsinə həsr edilmişdir.

Bankın orqanlarından biri **Müşahidə Şurasıdır.** Bu orqanın fəaliyyəti ilə bağlı münasibətlər «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə tənzimlənir. Həmin maddədə nəzarət orqanı olan Müşahidə Şurasının səlahiyyətləri göstərilir ki, onlara aşağıdakılar aiddir:

- bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək;
- bankın İdarə Heyətindən hesabat almaq;
- Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;
- bankın kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul etmək və s.

Müşahidə Şurası öz əsasnaməsinə müvafiq qaydada fəaliyyət göstərir. Onun əsasnaməsi Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq olunur. Səhmdarların Ümumi Yığıncağı həm də Müşahidə Şurasının üzvlərini təyin və azad edir ki, bu, onun müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən biri sayılır.

Hər bir bankda həm də müstəqil **Audit Komitəsi** fəaliyyət göstərir. Audit Komitəsi bankda audit işini təşkil edən orqandır. Bu orqanın həm əsasnaməsini təsdiqləmək, həm də onun üzvlərini təyin etmək (azad etmək) Səhmdarların Ümumi Yığıncağının səlahiyyətlərinə aid olan məsələdir.

### 14.3.3. Bank kredit təşkilatlarının fəaliyyəti

Banklar müvafiq bank əməliyyatları aparmaqla və bank əqdləri bağlamaqla bank fəaliyyətini həyata keçirirlər. Axı bank

fəaliyyəti həm bank əməliyyatlarının yerinə yetirilməsi, həm də bank əqdlərinin bağlanmasıdır. Belə əməliyyatlar və əqdlər «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin 1-ci hissəsində sadalanır ki, onlar bankların həyata keçirdikləri fəaliyyət növləridir. Belə ki, bank lisenziyasında qadağan edilməmişdirsə, banklar aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilərlər: 1) tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi; 2) təminatlı və ya təminatsız kreditlərin verilməsi; 3) faktorinq əməliyyatının aparılması; 4) lizinq xidmətinin göstərilməsi; 5) forfeytinq əqdinin bağlanması; 6) fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması; 7) klirinq; 8) hesablaşma-kassa xidmətinin göstərilməsi; 9) köçürmə əməliyyatı və s.[1]

Bəzi fəaliyyət növlərinin banklar tərəfindən həyata keçirilməsinə yol verilmir. Belə ki, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola bilməz. Məsələ burasındadır ki, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin 1-ci hissəsi bankların bu kimi fəaliyyət növləri ilə məşğul olmalarını qadağan edir. Burada həm də göstərilir ki, heç bir bank sığorta təşkilatları istisna olmaqla, göstərilən fəaliyyətlə məşğul olan müəssisələrdə tərəfdaş, şərik və ya payçı kimi iştirak edə bilməz.

Deyilənlər onu göstərir ki, bankların məşğul olduqları fəaliyyət növlərinin əhatə dairəsi kifayət qədər genişdir; onlar yalnız qanunla qadağan edilmiş fəaliyyət növlərini həyata keçirə bilməz.

### 14.3.4. Bankların fəaliyyətinə xitam verilməsi

Bank hüququ ilə tənzimlənən məsələlərdən biri **bankların fəaliyyətinə xitam verilməsidir.** Bankların fəaliyyətinə isə iki

---

[1] *Bu terminlərin izahı barədə ətraflı bax:* Maliyyə bazarları terminlərinin izahlı lüğəti / Kol. müəlliflər: Rüstəmov V.Ə., Camalov F.M., Nəzərov İ.A., Mütəllimov F.V. və Baxşəliyev P.Ə. Bakı, 2010, 272 s.

yolla xitam verilir: 1) bankların yenidən təşkili; 2) bankların ləğvi.

**Bankların yenidən təşkili** dedikdə onların fəaliyyətinə xitam verilməsinin elə bir üsulu başa düşülür ki, bu zaman onların hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa banka keçir. Məsələn, «A» və «B» kimi bank «C» bankına birləşməklə yenidən təşkil olunur. Bu zaman «A» və «B» banklarının fəaliyyətinə xitam verilir; onların hüquq və vəzifələri «C» bankına keçir. Bu kimi məsələlər, yəni bankların yenidən təşkili ilə bağlı münasibətlər Mərkəzi Bankın normativ xarakterli aktı ilə tənzimlənir. Söhbət «Bankların yenidən təşkili haqqında Qaydalar»dan gedir.

**Bankın ləğvi** dedikdə hüquq və vəzifələrin hüquq varisliyi qaydasında başqa banka keçmədən onun fəaliyyətinə xitam verilməsi və mövcudluğuna son qoyulması başa düşülür. Məsələn, fərz edək ki, «A» bankı ləğv edilir; bu zaman müvafiq hüquq və vəzifələr hər hansı başqa banka keçmədən onun mövcudluğuna son qoyulur.

Bankların ləğvi iki yolla həyata keçirilir: 1) bankların könüllü ləğvi; 2) bankların məcburi ləğvi. **Bankların könüllü ləğvini** bankın səhmdarları onun ali idarəetmə orqanının (Səhmdarların Ümumi Yığıncağının) qərarına əsasən həyata keçirirlər. Belə ki, bank lisenziyası bankın öz müraciəti ilə ləğv edilə bilər; bu zaman bankın könüllü ləğvi həyata keçirilir. Bununla bağlı olan məsələlər MM-də, habelə «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 58-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir.

Bank lisenziyası təkcə bankın öz müraciəti əsasında ləğv edilmir. Bank lisenziyası həm də digər əsaslara görə ləğv oluna bilər ki, bu əsaslar «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsində nəzərdə tutulmuşdur. Belə əsaslara aid olunur: 1) lisenziya alınması üçün ərizə verilərkən təqdim edilən məlumatların yanlış olmasının müəyyən edilməsi; 2) bankın lisenziyasının qüvvəyə mindiyi gündən on iki ay müddətində bank lisenziyasına müvafiq olaraq fəaliyyətə başla-

maması; 3) bankın nizamnamə kapitalının Mərkəzi Bankın banklar üçün müəyyənləşdirdiyi nizamnamə kapitalının minimum miqdarından az olması; 4) bankın öz kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilməməsi və s.

**Bankın məcburi ləğvi** dedikdə lisenziyası ləğv olunmuş bankın Mərkəzi Bankın ərizəsi əsasında məhkəmə qaydasında fəaliyyətinə xitam verilməsi başa düşülür. Mərkəzi Bankın məhkəməyə verdiyi ərizə bankın məcburi ləğvi və ləğvedicinin təyin olunması haqqındadır. Məhkəmə verilmiş ərizəyə yeddi təqvim günü müddətinə baxır və müvafiq qərar qəbul edir. Yeddigünlük müddət isə ərizə məhkəməyə daxil olduğu gündən hesablanır.

Məhkəmə ərizəyə baxaraq bankın məcburi ləğvi və ləğvedicinin təyin olunması haqqında müvafiq qərar qəbul edir. Qəbul olunmuş məhkəmə qərarı çıxarıldığı gündən dərhal icraya yönəldilir. Məhkəmə qərarı qüvvəyə mindiyi andan, ilk növbədə, bankın idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən Səhmdarların Ümumi Yığıncağının səlahiyyətləri ləğvediciyə keçir. Ləğvedici zəruri olan bütün ləğvetmə tədbirlərini həyata keçirir.

Bankların məcburi ləğvi «Banklar haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuşdur. Həmin qanunun 59-cu maddəsi məhz bankların məcburi ləğvinə həsr olunmuşdur. Onların ləğvinin həyata keçirilməsi qaydasına gəldikdə isə, qeyd etməliyik ki, bu qayda Mülki Məcəllə ilə müəyyən olunur.

Bank lisenziyasının ləğvinə səbəb olan əsaslardan biri **bankın müflis elan edilməsidir**. «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 3-cü hissəsində göstərilir ki, bank müflis elan edildikdə bank lisenziyası ləğv olunur. Qeyd etməliyik ki, banklar yalnız «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada məhkəmənin qərarı əsasında müflis elan oluna bilər. Həmin qanunun X fəsli bankların müflisləşməsinin və iflas prosesinin tənzimlənməsinə həsr edilmişdir. «Müflisləşmə və

iflas haqqında» Azərbaycan Respublikasının Qanunu isə banklara tətbiq olunmur.[1]

Banklar yalnız məhkəmə yolu ilə müflis elan edilir. **Məhkəmə qərarı** olmadan bankların müflis elan olunmasına yol verilmir. Başqa sözlə, bankların müflis elan olunmasının **məhkəmədənkənar yolu** mövcud deyildir.

Məhkəmə tərəfindən bankın müflis elan olunması üçün **iflas prosesinə** başlanılmalıdır. Bundan ötrü, yəni iflas prosesinə başlanılması üçün tələb edilən əsaslar olmalıdır. Həmin əsaslar «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 61-ci maddəsində göstərilmişdir: 1) bankın məcmu kapitalının miqdarı banklar üçün müəyyən edilmiş məcmu kapitalın minimum miqdarının 25 faizindən və ya məcmu kapitalının adekvatlıq əmsalının 3 faizindən az olmasının Mərkəzi Bank tərəfindən müəyyənləşdirilməsi; 2) bankın öz maliyyə öhdəliklərini onların icra vaxtı çatdıqda yerinə yetirməyə qadir olmaması; 3) bankın vaxtı çatmış maliyyə öhdəliklərini kreditorlar tərəfindən tələblər irəli sürüldükdə ödəməyə qadir olmaması.

Göstərilən əsaslardan biri və ya bir neçəsi olduqda iflas prosesinə başlanılmasına dair məhkəməyə ərizə verilir; ərizə həm Mərkəzi Bank, həm də kreditorlar tərəfindən verilə bilər. Ərizənin verilməsi ilə bank barəsində iflas prosesinə başlanılır. Hər şeydən əvvəl, Mərkəzi Bank banka **müvəqqəti inzibatçı** təyin edir. Müvəqqəti inzibatçı bankın idarəçiliyini dərhal öz üzərinə götürür; onun səlahiyyətləri «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 53-cü maddəsində göstərilmişdir.

Bank barəsində iflas prosesinə başlanılmasına dair ərizəyə baxaraq məhkəmə mümkün olan iki qərardan birini qəbul edir. Belə ki, məhkəmə ərizəni ya rədd, ya da təmin edir. Məhkəmə ərizəni təmin etdikdə bankın məhkəmə qaydasında məcburi ləğvi həyata keçirilir. Belə ki, məhkəmə bankın müflis olmasına dair müvafiq qərar qəbul edir. Bu qərarla məhkəmə banka

---

[1] *Bax:* Azərbaycan Respublikasının 22.07.1994-cü il tarixli 857 nömrəli qanunu (URL:http://www.e-qanun.az, 24.02.2017-ci il).

**ləğvedici** təyin edir; onun namizədliyini Mərkəzi Bank irəli sürür, təqdim edir. Bank adından yalnız ləğvedici tərəfindən edilən hərəkətlərin hüquqi əhəmiyyəti olur; onun əsas işi bankın ləğvini həyata keçirməkdən və başa çatdırmaqdan ibarətdir. Bu iş görüldükdə məhkəmə iflas prosesinin başa çatmasına dair aidiyyəti qərar qəbul edir; qərar dövlət qeydiyyat orqanına göndərilir. Həmin qərar əsasında ləğv olunmuş bank **hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarılır**. Bununla bankın fəaliyyətinə xitam verilir və onun bank hüququnun subyekti kimi mövcud olmasına son qoyulur.

Bank müflis elan olunduqda əsas məsələlərdən biri onun öz kreditorlarına olan borcunun ödənilməsidir. Kreditorlara olan borc bankın aktivləri hesabına ödənilir. Belə ki, müflis elan olunmuş bankın aktivləri onun kreditorları arasında növbəlilik qaydasında bölüşdürülür. Ödənişlərin növbəlilik qaydası isə «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 82-ci maddəsində göstərilmişdir. Bu qaydaya görə, birinci növbədə Əmanətlərin Sığortalanması Fondunun tələbləri ödənilir. Belə ki, bank müflis elan olunanda sığorta hadisəsi baş verir. Sığorta hadisəsi baş verdiyinə görə Əmanətlərin Sığortalanması Fondu əmanətçilərə qanunda nəzərdə tutulmuş qaydada kompensasiya ödəyir. Sonradan o, kompensasiya məbləğində müflis elan olunmuş banka reqres tələb irəli sürür; ilk növbədə, məhz həmin tələb təmin edilməlidir.

# XIV FƏSİL FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XV FƏSİL.*
# SIĞORTA HÜQUQU

## 15.1. Sığorta hüququ – iqtisadi hüququn yarımsahələrindən biri kimi
### 15.1.1. Sığorta hüququ anlayışı

Çoxaspektli anlayış olan sığorta, əsasən, iki mənada işlədilir: 1) iqtisadi mənada; 2) hüquqi mənada. **İqtisadi mənada sığorta** dedikdə müəyyən bir şəxsin düşdüyü zərərin başqa çoxsaylı şəxslər arasında elə bölüşdürülmə mexanizmi başa düşülür ki, bu mexanizm həmin çoxsaylı şəxslərin hər birinin ödədiyi pul vəsaitindən formalaşan xüsusi pul fondu hesabına həyata keçirilir. Bu mənada sığorta **iqtisadi kateqoriya** kimi çıxış edir. İqtisadi kateqoriya kimi sığortanın məqsədi şəxsə vurulan zərərin əvəzinin ödənilməsi üçün pul kompensasiyası alınmasından ibarətdir.[1] Məsələn, hər hansı müəyyən banka qoyulmuş əmanətlərin sığortalanması hallarında həmin bank müflis olduqda, təbii ki, əmanətçilərə zərər vurulur. Belə halda onlara vurulmuş zərərin əvəzi xüsusi olaraq yaradılmış fond – Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya edilir ki, həmin fond ölkədə fəaliyyət göstərən bankların (çoxsaylı şəxslərin) öhdəlikləri – pul vəsaitləri hesabına formalaşır; əmanətçilər zərərə düşdükdə bu fond onlara müvafiq zərərlərin qarşılığını ödəyir.

Zərərə düşən və pul kompensasiyası alan şəxs sığorta olunan – **sığortalı** adlanır; həmin şəxsə pul kompensasiyası verən şəxsə isə **sığortaçı** deyilir. Sığorta sığortaçı üçün fəaliyyət deməkdir; söhbət sığorta fəaliyyətindən gedir. Sığorta fəaliyyəti isə iqtisadi fəaliyyət növlərindən biridir. Bu fəaliyyətin məqsədi bir tərəfdən pul vəsaitləri (sığorta ehtiyatları) akkumulyasiya etməkdən (toplamaqdan) ibarətdir ki, həmin vəsaitlər sığorta olunan şəxslərin düşdükləri zərərin əvəzinin ödənilməsi və on-

---

[1] *Sığorta (ingiliscə - insurance) anlayışı barədə ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.821.

lara pul kompensasiyası verilməsi üçündür. Digər tərəfdən, sığorta fəaliyyəti sığortaçının mənfəət götürməsi məqsədinə xidmət edir. Almaniya, Fransa və digər xarici ölkələrdə sığorta işi mənfəət əldə etmək vasitəsidir.

İqtisadi mənada sığorta anlayışının məna yükü altında iqtisadi münasibətlərin məcmusu ehtiva olunur.[1] Bu münasibətlər pul vəsaitlərindən ibarət olan xüsusi sığorta fondunun formalaşması və həmin vəsaitlərdən şəxslərin düşdükləri zərərin əvəzinin ödənilməsi (pul kompensasiyası verilməsi) üçün istifadə edilməsi ilə bağlı yaranır.[2] Bu baxımdan, sığorta **iqtisadi mahiyyətə** malikdir. Sığortanın iqtisadi mahiyyəti bir tərəfdən riskin (təhlükənin) mövcudolma ehtimalından, digər tərəfdən isə riskdən (təhlükədən) müdafiə olunmaq üçün qoruyucu tədbirlər görülməsindən ibarətdir. Sığorta belə bir ideyaya əsaslanır ki, hər hansı müəyyən şəxsin düşdüyü zərər çoxsaylı başqa şəxslərin iştirakı hesabına bölüşdürülür. Zərərin bu cür bölüşdürülməsi iqtisadi cəhətdən heç də şəxslər üçün hiss olunmur və nəzərə çarpmır. Şəxslərin ödədikləri cüzi pul vəsaitləri (sığorta haqları) hesabına müvafiq sığorta fondu yaradılır ki, bu fond onların düşdükləri zərərin əvəzinin ödənilməsi (kompensasiyası) üçün mənbə rolunu oynayır.

İqtisadi münasibətlərin məcmusu olan sığortanın təşəkkültapma tarixi çox qədim zamanlara təsadüf edir; sığorta həm quldarlıq, həm də feodalizm dövründə mövcud olmuşdur. Belə ki, həmin dövrlərdə ticarət dövriyyəsinin iştirakçıları öz aralarında müvafiq saziş bağlayırdılar. Bağlanmış sazişdə bu və ya digər hadisə (məsələn, ticarət gəmisinin qəzaya düşməsi və s.) baş verdiyi hallarda vurulmuş zərərin bölüşdürülməsi nəzərdə tutulurdu. Hammurapi (b.e.əvvəl 1792–1750-ci illər), Solon (b.e. əvvəl X əsr) və digər dövrlərin sənədlərində belə sazişlərin bağlanmasına rast gəlinir. Qədim Romada şəxsi sığortanın

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. II том / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2005, с.239.

[2] Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.544.

bu və ya digər növündən istifadə olunurdu. Orta əsrlər dövründə german xalqları ticarət gildiyaları yaradırdılar ki, bu gildiyalar dəniz ticarətində və yüklərin (malların) daşınmasında öz üzvlərinin əmlak mənafelərini müdafiə edirdi. Sığorta müdafiəsini həyata keçirmək üçün İslandiyada, Parisdə, Londonda, İsveçrədə və s. ilk birliklər yaradılmışdı.[1]

Müasir mənada sığortanın yaranması XVII əsrdə Londonda fəaliyyət göstərən və Edvard Lloyda məxsus olan məşhur qəhvəxana ilə bağlıdır. Bu qəhvəxanada dəniz ticarəti ilə məşğul olan tacirlər görüşüb, öz aralarında dəniz sığorta əqdi bağlayırdılar. Buna görə də peşəkar dəniz sığortasının ilkin vətəni haqlı olaraq İngiltərə hesab edilir.[2]

Müasir cəmiyyətin iqtisadi inkişafını sığortasız təsəvvür etmək qeyri-mümkündür. Bu gün sığorta inkişaf etmiş ölkələrdə bazar münasibətləri infrastrukturunun vacib elementi, sabit inkişafın və əmin-amanlığın təminatı, ictimai münasibətlərin ayrılmaz hissəsi hesab olunur. Məhz sığorta imkan verir ki, təsərrüfat fəaliyyəti prosesində yaranan iqtisadi risklər azaldılsın, iqtisadi dövriyyənin sabitliyi təmin olunsun, ölkənin maliyyə sistemi möhkəmlənsin, iqtisadiyyatın real sektorlarına qoyulan investisiya mənbəyi formalaşsın. Bunlardan əlavə, sığorta məcmu milli məhsulun müəyyən hissəsini təşkil edir. Sığorta fəaliyyəti ilə məşğul olan şirkətlər (sığorta şirkətləri) dövlətlərin iqtisadiyyatına böyük pozitiv təsir göstərir.

Sığorta həm də hüquqi mənada işlədilir. **Hüquqi mənada sığorta** dedikdə sığorta ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Sığorta ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu isə sığorta hüququ adlanır.[3] Deməli, hü-

---

[1] *Sığortanın tarixi barədə daha ətraflı:* Kərimov A. Sığorta (sığortaçının stolüstü kitabı). Bakı, 2000, s. 7.

[2] Гражданское право. Учебник. Часть II / Под ред. А.П.Сергеева, Ю.К.Толстого. М., 1997, с.494.

[3] *Sığorta hüququ barədə ətraflı bax: məsələn,* Rayegân Kender. Türkiye'de hususi sigorta hukuku. İstanbul: Arikan Ltd, 2008, 306 s.

quqi mənada sığorta dedikdə sığorta hüququ başa düşülür. Sığorta hüququ **hüquqi kateqoriyadır**. Nəzərdən qaçırmaq olmaz ki, hüquqi mənada sığorta hüquqi kateqoriya kimi çıxış edir. İstənilən hüquqi kateqoriya isə hüquqi mahiyyətə malikdir. Sığorta hüququnun hüquqi mahiyyəti fiziki və hüquqi şəxslərin əmlak mənafelərinin müdafiəsi ilə bağlı hüquq münasibəti müəyyənləşdirməkdən ibarətdir. Bu münasibətə görə, müəyyən hadisə (sığorta hadisəsi) baş verdikdə (məsələn, minik avtomobili zədələndikdə, yaşayış evi uçduqda və s.) sığortaçı (sığorta şirkəti) sığorta olunana müvafiq sığorta fondundan pul kompensasiyası ödəyir ki, həmin fond, əvvəllərdə qeyd etdiyimiz kimi, çoxsaylı sığortalı şəxslər tərəfindən ödənilən pul vəsaiti (sığorta haqqı) hesabına formalaşır.

Beləliklə, **sığorta hüququ** dedikdə şəxslərin (fiziki və hüquqi şəxslərin) əmlak mənafelərinin müdafiəsi ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür ki, bu münasibətlərə görə bir tərəf (sığortaçı) ehtimal edilən müəyyən hadisə baş verdiyi halda digər tərəfin (sığortalının) verdiyi sığorta haqları hesabına formalaşan sığorta fondundan pul kompensasiyası ödəyir. Bu, obyektiv mənada sığorta hüququna verilən elmi anlayışdır. **Obyektiv mənada sığorta hüququ** isə iqtisadi hüququn tərkib hissəsi (struktu elementi) kimi çıxış edir.

Çoxmənalı anlayış olan sığorta hüququ həm də qanunvericilik mənasında işlədilir. **Qanunvericilik mənasında sığorta hüququ** dedikdə sığorta fəaliyyətini tənzimləyən normativ hüquqi aktların məcmusu başa düşülür. Söhbət **sığorta qanunvericiliyindən** gedir ki, buraya həm qanunlar, həm də qanunqüvvəli aktlar daxildir.

### 15.1.2. Sığorta hüququnun nizamasalma predmeti

Sığorta hüququ sığorta ilə bağlı iqtisadi münasibətləri tənzimləyir; onlar **sığorta münasibətləri** adlanır. Sığorta hüququnun **nizamasalma predmeti** də məhz sığorta münasibətlərindən ibarətdir. Sığorta münasibətlərinə görə, sığorta hadisəsi baş

verdiyi halda fonddakı vəsaitdən sığorta ödənişi vermək yolu ilə fiziki və hüquqi şəxslərin əmlak mənafelərinin müdafiəsi həyata keçirilir ki, həmin fond sığortaçılar tərəfindən sığortalıların ödədikləri sığorta haqlarından formalaşdırılır. Bu münasibətlər iki tərəf arasında yaranır ki, onlardan biri sığortaçı, digəri isə sığortalı adlanır.

Sığorta münasibətləri müvafiq hüquq normaları ilə tənzimlənir. Bunun nəticəsində, qeyd etmək lazımdır ki, sığorta münasibətləri «sığorta-hüquq münasibətləri» kimi hüquqi forma alır. Belə ki, sığorta-hüquq münasibətləri sığorta münasibətlərinin hüquqi formasıdır.

Sığorta-hüquq münasibətləri quruluşca **üç elementdən** ibarətdir ki, subyektlər (subyekt tərkibi) həmin elementlərdən biridir. Söhbət sığorta-hüquq münasibətlərinin subyektlərindən gedir. **Sığorta-hüquq münasibətlərinin subyektləri** dedikdə bu münasibətlərin real (faktiki) iştirakçıları başa düşülür; onlara, hər şeydən əvvəl, sığorta müqaviləsinin tərəfləri aiddir. **Sığorta müqaviləsinin tərəfləri** isə bunlardır: sığortaçı, sığortalı. Sığortaçı sığorta müqaviləsinin elə bir tərəfidir ki, o, sığorta hadisəsi baş verdiyi halda sığorta ödənişi vermək öhdəliyi daşıyır. Sığortalı sığorta müqaviləsinin elə bir tərəfidir ki, həmin tərəf sığorta haqqı ödəyir və onun sığorta obyektinin sığorta etdirilməsində marağı vardır. Sığortaçı və sığortalı sığorta müqaviləsinin tərəfləridir; sığorta müqaviləsi məhz onlar arasında bağlanır.

Bunlardan başqa, sığorta-hüquq münasibətlərinin subyektlərinə həm də elə şəxslər aiddir ki, onlar sığorta müqaviləsinin tərəfləri olmasalar da, həmin müqavilənin həyata keçirilməsi ilə bağlı müəyyən hüquqlara malik olub, müvafiq vəzifələr daşıyırlar. Belə şəxslər sığorta müqaviləsinin həyata keçirilməsi ilə bağlı hüquq və vəzifələrin daşıyıcılarıdır. Söhbət sığorta olunan və faydalanan şəxsdən gedir. Sığorta olunan elə bir şəxsdir ki, onun əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanır. Bəzən şəxsi sığorta müqaviləsində (bu, sığorta müqaviləsinin

bir növüdür) sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmur; belə halda sığortalı eyni zamanda sığorta olunan sayılır.

Faydalanan şəxs isə sığorta-hüquq münasibətinin elə bir subyektidir ki, o, icbari sığorta qanunvericiliyinə uyğun olaraq sığorta ödənişi almaq hüququna malik olur. Bəzən sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmur; bu halda sığortalı və ya sığorta olunan faydalanan şəxs sayılır.

**Obyekt** də sığorta-hüquq münasibətlərinin elementlərindən biridir. Sığorta-hüquq münasibətlərinin obyekti odur ki, onun barəsində sığorta-hüquq münasibətlərinin özü yaranır. Sığortalının və ya sığorta olunanın hər hansı əmlak mənafeyi sığorta-hüquq münasibətlərinin obyektidir; belə əmlak mənafeyi həm də sığorta obyektidir. Lakin əmlak mənafeyi qanunazidd olmamalıdır.

Əmlak mənafeyi aşağıdakılarla bağlı ola bilər: 1) sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı; 2) sığortalının əmlaka sahibliyi, ondan istifadəsi və ya ona sərəncam verməsi; 3) sığortalının başqalarının şəxsiyyətinə və ya digər şəxslərin (üçüncü şəxslərin) əmlakına zərər vurması.

Sığorta obyektini sığorta predmetindən fərqləndirmək lazımdır. Qeyd etdiyimiz kimi, sığorta obyekti hər hansı əmlak mənafeyidir. Yaddan çıxarmaq olmaz ki, obyektlər (məsələn, bina, avtomobil, həyat, sağlamlıq, əmək qabiliyyəti və s.) deyil, bunlarla bağlı əmlak mənafeyi sığortalana bilər. Məsələn, hər hansı şəxs öz yaşayış evini yanğından sığortalamaq üçün sığortaçı ilə sığorta müqaviləsi bağlayır. Belə halda şəxsin yaşayış evi deyil, onun yaşayış evi ilə bağlı əmlak mənafeyi sığortalanmış olur. Bir daha təkrar edirik ki, sığorta müqaviləsi ilə yalnız əmlak mənafeləri sığortalana bilər. Sığortalanmış əmlak mənafeləri isə fiziki şəxsə, əmlaka və ya yaranan hala (məsələn, sığortalının üçüncü şəxsə zərər vurulmasına görə məsuliyyət daşımasına və s.) aid ola bilər. Əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya yaranmış hal **sığorta predmeti** sayılır. Məsələn, yuxarıda çəkdiyimiz misalda yanğından sığortalanan

yaşayış evi (əmlak) sığorta predmetidir. Şəxsin yaşayış evi ilə bağlı əmlak mənafeyi isə sığorta obyektidir.

**Məzmun** sığorta-hüquq münasibətlərinin elementlərindən digəridir. Sığorta müqaviləsi bağlayan tərəflərin (sığortaçı və sığortalının) hüquq və vəzifələrinin məcmusu sığorta-hüquq münasibətlərinin məzmunu adlanır ki, onlar sığorta-hüquq münasibətlərinin subyektləridir. Məsələn, sığorta haqqı ödəmək sığortalının, sığorta ödənişi vermək isə sığortaçının vəzifəsidir. Sığorta haqqının ödənilməsini tələb etmək sığortaçının hüququdur; sığortalı isə sığorta ödənişinin verilməsini tələb etmək hüququna malikdir və s.

## 15.2. Sığorta hüququnun subyektləri, mənbələri və prinsipləri

### 15.2.1. Sığorta hüququnun subyektləri

Sığorta-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları **sığorta hüququnun subyektləri** adlanır. Sığorta hüququnun subyektlərinə aşağıdakılar aiddir: sığortaçı, sığortalı, sığorta olunan və faydalanan şəxs.

**Sığortaçı** dedikdə sığorta hüququnun elə bir subyekti başa düşülür ki, həmin subyekt sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində onun əmlak mənafeyinin sığorta müdafiəsini həyata keçirir. Əgər sığorta hadisəsi baş verərsə, o, sığortalıya sığorta ödənişi verir.

Sığortaçı rolunda yalnız hüquqi şəxs çıxış edə bilər. «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 6-cı hissəsinə görə, sığortaçı kommersiya hüquqi şəxsidir, yəni kommersiya təşkilatı olan hüquqi şəxsdir; həm də sığortaçı yalnız açıq səhmdar cəmiyyəti kimi təşkilati-hüquqi formada fəaliyyət göstərə bilər. Odur ki, hüquqi şəxs olan sığortaçı istənilən təşkilati-hüquqi formada yaradıla bilməz.

Sığortaçı rolunda fiziki şəxslərin çıxış etməsi istisna olunur. Belə ki, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun birbaşa göstərişinə əsasən, sığortaçı yalnız hüquqi şəxs ola bilər. Odur ki, sığortaçı anlayışının məna yükü sığorta

təşkilatını ehtiva edir. Sığorta fəaliyyəti sığorta təşkilatının əsas fəaliyyət növüdür. Sığorta təşkilatının fəaliyyət predmeti fiziki və hüquqi şəxslərin əmlak mənafelərini sığorta müdafiəsi ilə təmin etməkdən ibarətdir.

«Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 1-ci hissəsinə görə, sığorta sığortaçının müstəsna əsas fəaliyyət növüdür. Bu o deməkdir ki, sığortaçı yalnız əsas fəaliyyət növü kimi sığorta işi ilə məşğul ola bilər. Buna görə də sığortaçı müstəsna hüquq qabiliyyətinə (müstəsna təsərrüfat səlahiyyətinə) malikdir.[1] Məhz bu səbəbdən sığortaçının bilavasitə fəaliyyət predmeti nə istehsal, nə ticarət, nə də bank fəaliyyəti ola bilər.

Bununla bərabər, sığortaçı sığorta ilə bilavasitə bağlı olan və ya sığortadan irəli gələn digər fəaliyyət növləri ilə məşğul ola bilər. Lisenziya alınması tələb olunmayan həmin fəaliyyət növləri «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 2-ci hissəsində sadalanır. Məsələn, sığorta ilə bağlı məsələlər, o cümlədən zərərin qarşısının alınması üzrə məsləhət xidmətlərinin göstərilməsi, zərərin tənzimlənməsi zamanı hüquqi ekspertizanın keçirilməsi və s.

Sığorta fəaliyyəti ilə məşğul olmaq üçün sığortaçı «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada müvafiq **lisenziya** almalıdır. Adıçəkilən qanunun V fəsli (43 – 61-ci maddələr) sığorta fəaliyyətinin lisenziyalaşdırılmasına həsr olunmuşdur. Bu fəsil sığortaçıya lisenziya verilməsi ilə bağlı münasibətləri tənzimləyir; lisenziya Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilir. Əgər sığortaçı hər hansı sığorta növünü həyata keçirərsə, o, bundan ötrü həmin palatadan müvafiq **icazə** almalıdır.

**Sığortalı** dedikdə sığorta hüququnun elə bir subyekti başa düşülür ki, bu subyekt sığortaçı ilə sığorta müqaviləsi bağlayaraq ona sığorta haqqı ödəyir. Əgər sığorta hadisəsi baş verərsə, sığortalı sığortaçıdan ona sığorta ödənişinin verilməsini tələb

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с. 26.

edir; həm fiziki, həm də hüquqi şəxslər sığortalı qismində çıxış edə bilərlər.

**Sığorta olunan** dedikdə sığorta hüququnun elə bir subyekti başa düşülür ki, onun əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanır, yəni müdafiə olunur. Sığorta olunan, adətən, iki növ sığorta-hüquq münasibətinin iştirakçısı (subyekti) ola bilər. Bunlardan biri şəxsi sığorta, digəri isə vurulmuş zərərə görə mülki məsuliyyət sığorta-hüquq münasibətləridir; özü də sığorta olunan şəxs bu növ sığorta-hüquq münasibətlərində müstəqil statusla iştirak etmir. Odur ki, sığorta olunan sığorta hüququnun müstəqil subyekti hesab edilmir.

**Faydalanan şəxs** dedikdə elə bir üçüncü şəxs başa düşülür ki, məhz onun xeyrinə sığorta müqaviləsi bağlanılır. Əgər faydalanan şəxsə zərər vurularsa ona sığorta ödənişi verilir. Faydalanan şəxs, adətən, sığortalı tərəfindən təyin olunur; o, sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin edə bilər. Sığortalı həm də sığorta hadisəsi baş verənədək faydalanan şəxsi dəyişdirmək (başqası ilə əvəz etmək) hüququna malikdir. Bu, sığortaçının və faydalanan şəxsin razılığı ilə mümkündür.

### 15.2.2. Sığorta hüququnun mənbələri

Sığorta hüququnun mənbəyi sığorta qanunvericiliyidir. **Sığorta qanunvericiliyi** isə normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Normativ hüquqi aktlar içərisində dövlətin əsas qanunu olan **Konstitusiya** sığorta hüququnun mənbəyi kimi xüsusi əhəmiyyətə malikdir. Sığorta hüququnun normativ əsası və bazası olan Konstitusiya özünün 94-cü maddəsində Milli Məclisin ümumi qaydalar müəyyənləşdirdiyi məsələləri sadalayır ki, sığorta həmin məsələlərdən biridir. Belə ki, Milli Məclis sığortaya dair ümumi qaydalar müəyyən edir.

Sığorta qanunvericiliyinin ibarət olduğu normativ hüquqi aktlardan biri **Mülki Məcəllədir**. Bu məcəllə sığorta münasibətlərinin hüquqi tənzimlənməsində vacib rol oynayır; onun

ayrıca bir fəsli (L fəsil, 883 – 942-ci maddələr) məhz sığorta münasibətlərinin hüquqi tənzimlənməsinə həsr olunmuşdur.

Sığorta qanunvericiliyinə həm də **«Sosial sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu** (1997-ci il) və «**Sığorta fəaliyyəti haqqında**» **Azərbaycan Respublikasının Qanunu** (2008-ci il) daxildir. Bu aktlar sığorta sisteminin inkişafını, sosial təyinatını, sığorta fəaliyyətinin əsas istiqamət və prinsiplərini, habelə sığorta sahəsində dövlət tənzimlənməsinin və nəzarətinin hüquqi-iqtisadi əsaslarını müəyyən edir. Sözügedən qanunlar Azərbaycan Respublikasında sığorta fəaliyyətini tənzimləyən əsas normativ aktlar sayılır.

**«Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2006-cı il) sığorta qanunvericiliyinə aiddir. Adıçəkilən qanun fiziki şəxslərin banklara qoyduqları əmanətlərin kollektiv icbari sığortalanması və sığorta hadisəsi baş verdikdə onlara kompensasiya ödənilməsi qaydalarını müəyyən edir.

**«İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanunu** (2011-ci il) sığorta qanunvericiliyinə daxil olan normativ hüquqi aktlardan digəridir. Bu qanun Azərbaycan Respublikasında həyata keçirilən icbari sığorta növlərini və onların aparılma qaydalarını müəyyən edir. Həmin aktın qüvvəyə minməsi ilə aşağıdakı qanunlar ləğv olunmuşdur: «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il), «İcbari ekoloji sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu (2002-ci il), «Sərnişinlərin icbari sığortası haqqında» Azərbaycan Respublikasının Qanunu (2003-cü il), «Yanğından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu (2004-cü il).

Sığorta qanunvericiliyinə həm də **qanunqüvvəli aktlar** daxildir. Söhbət, hər şeydən əvvəl, **Prezident aktlarından** gedir. Məsələn, Prezident öz müvafiq Fərmanı ilə (2016-cı il) «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi» kimi sənədi təsdiq etmişdir. Həmin sənəddə göstərilir ki, palata müəyyən sahələrdə müvafiq fəaliyyətin

lisenziyalaşdırılmasını həyata keçirir; sığorta həmin sahələrdən biridir.

Qeyd etməliyik ki, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsinə görə, sığorta nəzarəti orqanı sığorta bazarının tənzimlənməsi üzrə normativ hüquqi aktlar qəbul etmək səlahiyyətinə malikdir. Həmin aktlar da sığorta qanunvericiliyinin tərkib hissəsidir. Söhbət Maliyyə Bazarlarına Nəzarət Palatasının qəbul etdiyi normativ hüquqi aktlardan gedir. Bu palata maliyyə bazarlarına, o cümlədən sığorta bazarına nəzarət funksiyasını həyata keçirir; öz nizamnaməsinə görə, həmin palata normativ hüquqi aktlar qəbul etmək səlahiyyətinə malikdir.

Sığorta qanunvericiliyinə normativ hüquqi aktlardan başqa, həm də **beynəlxalq müqavilələr** daxildir. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrdən gedir. Bu müqavilələrdə beynəlxalq (publik) hüquq normaları müəyyən olunur və ifadə edilir. Azərbaycan Respublikasında sığortanın tənzimlənməsi üçün həm də həmin normalardan istifadə olunur.

### 15.2.3. Sığorta hüququnun özünəməxsus prinsipləri

Sığorta hüququ ilə müvafiq ictimai münasibətləri hüquqi tənzimetmə onun prinsipləri əsasında həyata keçirilir. Söhbət sığorta hüququnun özünəməxsus prinsiplərindən gedir.

**Sığorta müdafiəsinin həyata keçirilməsi prinsipi** sığorta hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsipə görə, bir tərəf (sığorta təşkilatı) sığorta müqaviləsi əsasında digər tərəfin (sığortalının) əmlak mənafelərini sığorta müdafiəsi ilə təmin edir; özü də sığorta müdafiəsi riskin bölüşdürülməsi kimi metod vasitəsi ilə həyata keçirilir. Unutmaq olmaz ki, sığorta münasibətləri sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarın fəaliyyəti ilə bağlı olan əmlak mənafelərinin müdafiəsi sahəsində risklərin bölüşdürülməsinə əsaslanır. Əvvəllərdə qeyd etdiyimiz kimi, sı-

ğorta iqtisadi baxımdan bir şəxsin düşdüyü zərərin çoxsaylı digər şəxslər arasında bölüşdürülmə mexanizmidir. Hüquqi baxımdan isə sığorta şəxslərin əmlak mənafelərinin mülki-hüquqi müdafiə üsuludur.

**Sığorta marağının mövcud olması prinsipi** sığorta hüququnun prinsipləri sırasına daxildir. Bu prinsip öz ifadəsini bunda tapır ki, sığorta marağı mövcud olduğu halda tərəflər (sığorta təşkilatı və sığortalı) arasında sığorta müqaviləsi bağlanılır və sığorta müdafiəsi həyata keçirilir. **Sığorta marağı** dedikdə sığorta hadisəsinin baş verəcəyi halda sığortalının zərərə düşməsi və maliyyə itkisinə məruz qalması ilə şərtlənən mənafe başa düşülür. Məhz bu cür mənafe olduqda sığorta müqaviləsi bağlanılır və sığorta obyekti sığorta edilir.

Sığorta marağı olmadan, təbii ki, sığorta müqaviləsi bağlana bilməz; əgər bağlanarsa, belə müqavilə bağlandığı andan etibarsız hesab edilir. Həm də sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta marağı itməməlidir; əgər itərsə, onda sığorta müqaviləsinə xitam verilir. Digər tərəfdən, sığorta hadisəsi baş verdiyi andan sığorta marağı mövcud olmalıdır. Odur ki, hər hansı hadisə sığorta marağı mövcud olmadan sığorta hadisəsi kimi tanına bilməz. Belə halda isə sığortaçı sığorta ödənişi vermək öhdəliyini icra etmir.

Sığorta hüququ həm də **icbari sığortanın məcburiliyi prinsipindən** çıxış edir. Bu prinsipə görə, sığorta qanunvericiliyi ilə üzərinə məcburi qaydada sığorta etdirmək vəzifəsi qoyulan şəxs müvafiq icbari sığorta müqaviləsi bağlamağa borcludur; bu müqaviləni bağlayan tərəflərdən biri olan sığortaçının icbari sığorta növünü aparmağa icazəsi olmalıdır. Belə sığortaçı sığorta qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna olmaqla müvafiq icbari sığorta müqaviləsini bağlamaqdan imtina edə bilməz; sığorta müqaviləsi bağlamaq onun üçün məcburidir. İcbari sığortaların növlərinə gəldikdə, qeyd etməliyik ki, icbari sığorta növləri «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (2011-ci il) müəyyən olunur. Bu qanuna görə, aşağıdakılar icbari sığorta növləri hesab edilir: avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, da-

şınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, sərnişinlərin icbari fərdi qəza sığortası və s. Şəxs müvafiq icbari sığorta növünü aparmağa icazəsi olan sığortaçını seçməkdə sərbəstdir.

**Sığorta riski haqqında tam və hərtərəfli informasiya verilməsi prinsipi** də sığorta hüququnun prinsiplərindən biri kimi tanınır. Bu prinsipə görə, sığorta riskləri haqqında sığortalıya geniş məlumat təqdim olunmalıdır. «Risk» anlayışı sığortanın əsas iqtisadi kateqoriyalarından biridir; söhbət sığorta riskindən gedir. **Sığorta riski** dedikdə sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan və baş verməsi ehtimal edilən təhlükə başa düşülür.[1] Məhz bu təhlükəyə qarşı sığortaçı öz üzərinə sığorta ödənişi vermək öhdəliyi götürür.

Sığorta isə sığorta riski ilə bağlı olan anlayışdır. Belə ki, sığorta dedikdə sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə bağlı olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin örtülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi başa düşülür.

Sığorta hüququ həm də belə bir prinsip müəyyənləşdirir ki, **sığorta fəaliyyəti sığorta təşkilatının əsas fəaliyyət növü olmalıdır**. Bu prinsipə görə, sığortaçı yalnız sığorta fəaliyyəti ilə məşğul ola bilər; sığorta fəaliyyəti onun yeganə əsas fəaliyyət növüdür. Odur ki, sığortaçı eyni zamanda nə ticarət-vasitəçilik, nə istehsal, nə də bank fəaliyyəti ilə məşğul ola bilər. Onun həyata keçirdiyi digər fəaliyyət növləri yalnız sığorta ilə bilavasitə bağlı olmalı və ya sığortadan irəli gəlməlidir (məsələn, məsləhət xidməti, sənədlərin ekspertizası və s.).

**Kompensasiyanın zərərə mütənasib olması prinsipi** sığorta hüququnun əsaslandığı prinsiplərdən digəridir. Bu prinsipə görə, sığorta hadisəsi baş verdikdə sığortaçı bu və ya digər şəxsə vurulmuş zərərə uyğun sığorta ödənişi verir. **Sığorta**

---

[1] *Sığorta riski barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 824-825.

**ödənişi** dedikdə sığorta hadisəsi baş verdikdə sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası başa düşülür. Maliyyə kompensasiyası qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq ödənilməlidir. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir. **Sığorta məbləği** dedikdə sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik və ya müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi başa düşülür.

Sığorta ödənişi real zərərin miqdarından çox ola bilməz. Real zərər sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə vurulur.

Sözügedən prinsip sığortanın iki növü aparıldıqda tətbiq olunur: bu növlərdən biri əmlak sığortası, digəri isə əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasıdır. Real zərərin dəyməsi və vurulması məhz bu sığorta növlərinin həyata keçirilməsi ilə bağlı olur. Real zərər isə sığorta hadisəsi nəticəsində vurulur. **Sığorta hadisəsi** dedikdə sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən elə hadisə və ya yaranan elə hal başa düşülür ki, həmin hadisə və ya hal qanunvericiliyə və yaxud sığorta müqaviləsinə görə sığoralıya, sığorta olunana və ya faydalanan şəxslərə sığorta ödənişinin verilməsi üçün əsas olur.

Sığorta ödənişi o halda verilir ki, **sığorta hadisəsi və sığorta predmetinə vurulmuş (dəymiş) zərər arasında səbəbiyyət əlaqəsi mövcud olsun**. Bu, sığorta hüququnun prinsiplərindən biridir. Əgər səbəbiyyət əlaqəsi mövcud olmazsa, onda sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişi verilmir.

**Subroqasiya prinsipi** də sığorta hüququnun prinsipi kimi tanınır. Bu prinsipə görə, sığorta ödənişi vermiş sığortaçı zərər vurulmasına görə məsuliyyət daşıyan üçüncü şəxsə həmin ödəniş məbləğində tələb irəli sürür.[1] Belə hüquqi imkan subroqasiya hüququ adlanır.

---

[1] Rayegán Kender. Türkiyə´də husus sigorta hukuku. İstanbul: Arikan Ltd, 2008, s. 300-305.

## 15.3. Sığorta fəaliyyətini həyata keçirməyin hüquqi vasitəsi

### 15.3.1. Sığorta müqaviləsi–sığorta fəaliyyətinin həyata keçirilməsinin hüquqi vasitəsi kimi

Sığorta müqaviləsi sığorta fəaliyyətini həyata keçirməyin hüquqi vasitəsidir. Belə ki, sığorta fəaliyyəti məhz sığorta müqaviləsi əsasında realizasiya olunur, yerinə yetirilir.

**Sığorta müqaviləsinə** görə, bir tərəf (sığortaçı) sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılmış pul məbləğinin ödənilməsini, digər tərəf (sığortalı) isə ona müvafiq sığorta haqqının verilməsini öhdəsinə götürür.[1] **Sığorta haqqı** dedikdə sığortalının sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortaçıya ödəməli olduğu pul məbləği başa düşülür ki, həmin məbləğin ödənilməsinin əvəzində (müqabilində) sığorta riskləri qəbul edilir və ya bölüşdürülür. Sığortaçı tərəfindən sığorta fondu məhz ödənilən sığorta haqları hesabına formalaşdırılır. Sığorta fondu sığortaçının sığorta ödənişləri verməsinin mənbəyidir; sığorta ödənişləri məhz həmin fonddan verilir.

Sığorta müqaviləsi **iki tərəf** arasında bağlanılır ki, bunlardan biri sığortaçı (sığorta təşkilatı), digəri isə sığortalıdır. «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə, həm sığortaçı, həm də sığortalı sığorta müqaviləsinin tərəfidir. Sığorta hüququnun subyektləri olmalarına baxmayaraq nə sığorta olunan, nə də faydalanan şəxs sığorta müqaviləsinin bağlanmasında iştirak edir; bu səbəbdən onlar sığorta müqaviləsinin tərəfi ola bilməzlər.

Sığorta müqaviləsinin **formasına** gəldikdə, qeyd etməliyik ki, bu müqavilənin şifahi formada bağlanmasına yol verilmir. Məsələ burasındadır ki, sığorta qanunvericiliyi sığorta müqaviləsinin həmişə **yazılı formada** bağlanmasını nəzərdə tutur. Yazılı formada sığorta müqaviləsi, əsasən, **iki qaydada** bağlanır.

---

[1] *Sığorta müqaviləsi barədə ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 175.

**Birinci qaydanın** mahiyyəti bundan ibarətdir ki, **vahid sənəd** tərtib olunur. Sığorta müqaviləsi məhz bu sənədlə rəsmiləşdirilir. Həmin sənəd sığorta müqaviləsi adlanır və burada aşağıdakı məlumatlar göstərilir:

- sığortaçının adı və ünvanı;
- sığortalının adı (fiziki şəxs olduqda həmçinin soyadı və atasının adı) və ünvanı;
- sığorta predmeti və yerləşdiyi ünvan, habelə sığorta olunanın adı (fiziki şəxs olduqda isə həm də soyadı, atasının adı, doğum tarixi) və ünvanı;
- faydalanan şəxsin adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı və doğum tarixi) və ünvanı;
- sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;
- sığorta haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası;
- sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;
- sığorta müqaviləsinə əlavə və dəyişikliklər edilməsi, həmçinin ona xitam verilməsi qaydaları;
- sığorta müqaviləsi üzrə təminat verilən sığorta riskləri, eyni zamanda əgər bu barədə razılaşdırılıbsa, müvafiq sığorta qaydalarında nəzərdə tutulmuş əlavə sığorta təminatları;
- sığorta ödənişinin verilməsi qaydası və əsasları;
- sığorta ödənişinin verilməsindən imtinanın əsasları;
- sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;
- mübahisənin həll edilməsi qaydası;
- qanunvericiliyə zidd olmayan digər şərtlər (bu şərtlər sığorta müqaviləsi tərəflərinin qarşılıqlı razılaşması əsasında müəyyən edilir);
- sığorta müqaviləsi tərəflərinin imzaları, hüquqi şəxs olduqda həmçinin möhürləri.

**İkinci qaydanın** mahiyyəti bundan ibarətdir ki, sığortaçı tərəfindən sığortalıya **sığorta şəhadətnaməsi** verilir. Sığorta şəhadətnaməsi dedikdə sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən elə bir sənəd başa düşülür ki, bu sənəd sığortaçı tərəfindən sığortalıya və  və ya sığorta olunana verilir; sığorta müqaviləsi məhz həmin sənədlə rəsmiləşdirilir.

Sığorta müqaviləsi bağlanan zaman sığortalı sığorta qaydaları ilə tanış olmalıdır. Digər tərəfdən, sığortalının sığorta qaydaları ilə razı olması təsdiq edilməlidir. **Sığorta qaydaları** dedikdə müvafiq sığorta növü üzrə tələb və şərtlərin məcmusu başa düşülür ki, həmin tələb və şərtlər sığortaçının özü tərəfindən müəyyən olunur; onlar qanunvericilikdə nəzərdə tutulmuş digər qaydada da müəyyənləşdirilə bilər.

Sığorta qaydaları normativ xarakterə malik deyildir. Bu səbəbdən sığorta qaydaları sığorta hüququnun mənbəyi hesab olunmur. Lakin, buna baxmayaraq, sığorta qaydaları qanunvericiliyin tələbləri nəzərə alınmaqla müəyyən edilir.

### 15.3.2. Sığortanın forma və növləri

Sığorta bu və digər formada həyata keçirilir. Onun həyata keçirildiyi formalar isə sığorta qanunvericiliyi ilə müəyyən olunur.

**Sığorta formaları** dedikdə onun həyata keçirildiyi təşkilati-hüquqi üsullar başa düşülür ki, həmin üsullar vasitəsi ilə sığorta subyektlərinin sığorta tələbatı realizə edilir. Qanunvericilik onun iki formasını müəyyənləşdirir: 1) könüllü sığorta; 2) icbari sığorta. Əgər sığorta-hüquq münasibəti tərəflərin, yəni sığortaçı və sığortalının iradəsi əsasında yaranarsa, belə sığorta **könüllü sığorta** adlanır. Bu formada sığorta sığortaçı və sığortalı arasında bağlanan sığorta müqaviləsi əsasında həyata keçirilir.

Əgər sığorta qanuna əsasən həyata keçirilərsə, buna **icbari sığorta** deyilir. Bu formada sığortanın şərtləri qanunvericiliklə müəyyən edilir; həm fiziki, həm də hüquqi şəxslər məhz qanunvericiliklə müəyyənləşdirilmiş şərtlər əsasında sığorta müqaviləsi bağlayırlar. Sığorta müqaviləsi bağlamaq onların hüqu-

qu deyil, vəzifəsi hesab edilir. Belə vəzifə, yəni sığorta müqaviləsi bağlamaq vəzifəsi dövlət tərəfindən qanunvericilik qaydasında və səviyyəsində müəyyən olunur.

Hüquq ədəbiyyatında könüllü və icbari sığorta həm də sığortanın ayrı-ayrı növləri hesab edilir.[1] Belə ki, sığorta ayrı-ayrı meyarlara görə müxtəlif növlərə bölünür, yəni sığortanın hüquqi təsnifi aparılır. Sığorta-hüquq münasibətinin (sığorta öhdəliyinin) yaranmasına yönələn iradə ifadəsinin hüquqi təbiətindən asılı olaraq sığortanın iki növü fərqləndirilir ki, bu növlərdən biri könüllü, digəri isə icbari sığortadır.

Sığortanın obyektindən asılı olaraq iki sığorta növü fərqləndirilir: 1) şəxsi sığorta, 2) əmlak sığortası. Qeyd etdiyimiz kimi, sığortanın obyekti sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyidir. **Şəxsi sığortanın** obyekti sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı əmlak mənafeləridir. Əmlak sığortasının obyekti isə sığortalının əmlaka sahibliyi, ondan istifadəsi və  və ya ona sərəncam verməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, digər fiziki şəxslərin sağlamlığına xəsarət yetirilməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi, istehsalat fəaliyyəti ilə bağlı əmlak mənafelərindən ibarətdir.

Əmlak sığortasının obyekti olan əmlak mənafeləri üç qrupa bölünür. Birinci qrup obyekt əmlaka sahiblik, əmlakdan istifadə və ona sərəncam verməklə bağlı əmlak mənafeləri adlanır – **əmlak sığortası**. Bu qrup əmlak mənafelərinin sığorta müdafiəsi **əmlak sığorta müqaviləsi** vasitəsi ilə həyata keçirilir.

İkinci qrup obyekt şəxsiyyətə və ya üçüncü şəxsin əmlakına vurulmuş zərərin əvəzinin sığortaçı tərəfindən ödənilməsi ilə bağlı əmlak mənafeləri adlanır – **mülki məsuliyyətin sığortası**. Bu qrup əmlak mənafelərinin sığorta müdafiəsi **mülki məsuliyyətin sığorta müqaviləsi** vasitəsi ilə həyata keçirilir.

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. II том / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2005, с. 240.

Üçüncü qrup obyekt sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı əmlak mənafeləri adlanır – **şəxsi sığorta**. Bu qrup əmlak mənafelərinin sığorta müdafiəsi **şəxsi sığorta müqaviləsi** vasitəsi ilə həyata keçirilir.

Əmlak sığortası zamanı əmlakın zədələnməsi və ya itirilməsi (məhv olması) ilə bağlı dəymiş zərərin əvəzi ödənilir. Dəymiş zərərin əvəzinin ödənilməsi isə sığortanın **kompensasiya funksiyasını** yerinə yetirməsini ifadə edir. Bundan başqa, sığorta həm də **yığım funksiyasını** yerinə yetirir ki, bu funksiya şəxsi sığorta üçün xarakterikdir. Şəxsi sığorta zamanı sığortaçının sığortalıya verdiyi sığorta ödənişinin məbləği vurulmuş əmlak zərərindən asılı deyildir. Həyat sığortası zamanı isə (bu, şəxsi sığortanın növüdür), ümumiyyətlə, əmlak (maddi) zərəri mövcud olmur. Bu növ sığorta zamanı sığorta ödənişinin məbləği sığorta müqaviləsi ilə müəyyən edilir. Əmlak sığortası zamanı isə sığorta ödənişinin məbləği vurulmuş zərərdən asılıdır.

Sığortanın yerinə yetirdiyi yığım funksiyasının mahiyyəti **sığorta ehtiyatları formalaşdırılmasından** ibarətdir. Belə ki, sığortaçılar (sığorta təşkilatları) apardıqları sığorta əməliyyatlarının sabitliyini təmin etmək üçün sığorta haqları hesabına müvafiq sığorta ehtiyatları formalaşdırırlar. Sığorta ehtiyatlarından sığorta ödənişlərinin verilməsi üçün istifadə olunur. Sığorta ehtiyatları dedikdə isə sığortaçının sığorta müqavilələri üzrə öhdəliklərinin məcmusu başa düşülür.

Kompensasiya və yığım funksiyalarından başqa, sığorta həm də **preventiv funksiya** yerinə yetirir. Bu funksiyanın mahiyyəti sığorta hadisəsinin baş verməsinin qarşısını almaqdan və bundan ötrü müvafiq qabaqlayıcı tədbirlər görməkdən ibarətdir. Məhz özünün yerinə yetirdiyi vacib funksiyalar sayəsində sığorta dünya iqtisadiyyatının əsas dəyərlərindən biri kimi tanınır.[1]

---

[1] Kərimov A. Sığorta (sığortaçının stolüstü kitabı). Bakı, 2000, s.1.

Sığorta ilə bağlı münasibətlər təkcə iqtisadi hüquqla tənzimlənmir. Həmin münasibətlərin tənzimlənməsi həm də digər hüquq sahələri vasitəsi ilə (məsələn, mülk hüquqla və s.) həyata keçirilir. Nəzərə almalıyıq ki, iqtisadi hüququn yarımsahəsi olan sığorta hüququnun nizamasalma predmetinə həm də sığorta fəaliyyətinin dövlət tənzimlənməsi və ona nəzarətlə bağlı münasibətlər daxildir; belə münasibətlər isə mülki hüquqla tənzimlənməkdən çox uzaqdır.

# XV FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XVI FƏSİL.*

# İNVESTİSİYA HÜQUQU

## 16.1. İqtisadi hüquq sistemində investisiya hüququnun tutduğu yer

### 16.1.1. İnvestisiya hüququ anlayışı

İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi iqtisadi hüquq vasitəsi ilə həyata keçirilir ki, bu, təsadüfi xarakter daşımır. Yaddan çıxarmamalıyıq ki, investisiya fəaliyyəti iqtisadi fəaliyyətin bir növüdür. Digər tərəfdən, investisiya fəaliyyəti iqtisadiyyatla bilavasitə bağlı olan fəaliyyətdir. Məlum olduğu kimi, istənilən dövlətdə texniki yenidənqurma, əsas fondların rekonstruksiyası və təzələnməsi, istehsalın genişləndirilməsi prioritet əhəmiyyətə malikdir; iqtisadiyyatın real sektorlarına yönələn aktiv investisiya fəaliyyətini həyata keçirmədən bu kimi məsələlər həll oluna bilməz. Heç də sirr deyil ki, sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər təsərrüfat sahələrinə investisiya qoymadan iqtisadi inkişafa nail olmaq qeyri-mümkündür. Bunlardan başqa, bu və ya digər dövlətdə baş verən iqtisadi böhrandan yalnız iqtisadiyyatın ayrı-ayrı sahələrinə investisiya qoymaqla çıxmaq olar. Bir sözlə, investisiya fəaliyyəti iqtisadiyyat sahəsində vacib rol oynayır.

İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsini həyata keçirmək üçün iqtisadi hüququn tərkibində investisiya huququ təşəkkül tapmışdır. İnvestisiya fəaliyyəti ilə əlaqədar ictimai münasibətləri iqtisadi hüquq məhz investisiya hüququ vasitəsi ilə nizamlayır. **İnvestisiya hüququ** dedikdə iqtisadi hüququn elə tərkib hissəsi başa düşülür ki, bu hissə investisiya fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir.

İnvestisiya hüququnun iqtisadi hüququn tərkibinə hansı «statusla» daxil olmasına gəldikdə, qeyd etmək lazımdır ki, investisiya hüququ özündə kifayət qədər investisiya-hüquq normalarını birləşdirir. Digər tərəfdən, investisiya hüququ özünəxas prin-

siplərə əsaslanır ki, bu prinsiplər onun məzmununu, sosial istiqamətini və təyinatını müəyyənləşdirir. Ən əsası isə bundan ibarətdir ki, investisiya hüququnun özünəməxsus nizamasalma predmeti vardır. Odur ki, investisiya hüququ iqtisadi hüququn xüsusi hissəsinin tərkibinə **yarımsahə** «statusu» ilə daxil olur. Belə ki, investisiya hüququ iqtisadi hüququn yarımsahələrindən biridir; onun iqtisadi hüquq sistemində tutduğu yeri məhz bu cür müəyyənləşdirmək lazımdır.

### 16.1.2. İnvestisiya hüququnun nizamasalma predmeti

İnvestisiya fəaliyyətinə dair münasibətlər – investisiya münasibətləri investisiya hüququ vasitəsi ilə tənzimlənir. Məhz bu münasibətlər investisiya hüququnun **nizamasalma predmetini** təşkil edir. Deməli, iqtisadi hüququn yarımsahəsi olan investisiya hüququnun nizamasalma predmeti investisiya münasibətlərindən ibarətdir; investisiya fəaliyyətinə dair münasibətlər isə investisiya barəsində və onunla əlaqədar yaranır.

İnvestisiya anlayışı[1], əsasən, iki mənada işlədilir: 1) iqtisadi mənada; 2) hüquqi mənada. İqtisadi mənada investisiya anlayışına iqtisadi ədəbiyyat səhifələrində rast gəlinir.[2] Belə ki, **iqtisadi mənada investisiya** dedikdə mənfəət əldə etmək (gəlir götürmək) və ya digər faydalı effektə nail olmaq məqsədi ilə sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər iqtisadi (təsərrüfat) sahələrə əsaslı vəsait (kapital) qoyuluşu başa düşülür. Əsaslı vəsait (kapital) qoyuluşu isə ayrı-ayrı iqtisadi (təsərrüfat) sahələrdə əsas fondların təkrar istehsalına sərf olunan maliyyə vəsaitidir.

---

[1] Latınca investire - dövrələmək, dövrəyə almaq, qoymaq; ingiliscə investment; almanca Geldanlagen, İnvestitionen sözündən olub özündə pul vəsaiti, qiymətli kağız, pul dəyəri olan digər əmlak, o cümlədən əmlak hüquqları və bəzi hüquqlara dair məna yükünü ehtiva edir // Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 363.

[2] *Məsələn, bax:* Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və başqaları. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.62; Иванов Г.И. Инвестиции. Ростов-на Дону, 2002, с.24 və s.

**Hüquqi mənada investisiya** dedikdə mənfəət götürmək (gəlir əldə etmək) və digər faydalı effektə nail olmaq məqsədi ilə sahibkarlıq fəaliyyəti və ya digər fəaliyyət obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar və digər əmlak, o cümlədən əmlak hüquqları və pulla qiymətləndirilən sair hüquqlar başa düşülür.[1] Bunların, yəni pul vəsaitlərinin, qiymətli kağızların, əmlak hüquqlarının və digərlərinin sahibkarlıq fəaliyyəti və digər fəaliyyət obyektlərinə qoyulması zamanı, təbii ki, müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Həmin münasibətləri tənzimləyən hüquq normalarının məcmusu investisiya hüququ adlanır. Hüquqi mənada investisiya anlayışının məna yükü məhz investisiya hüququnu ehtiva edir.

Verilən definisiyalar (təriflər) iqtisadi və hüquqi mənada investisiyanın elmi (doktrinal) anlayışlarıdır. Bundan başqa, investisiyaya həm də normativ (leqal) anlayış verilir. Belə ki, 1995-ci ildə Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətini tənzimləmək üçün ayrıca normativ hüquqi akt – «İnvestisiya fəaliyyəti haqqında» Qanun qəbul edilmişdir. Məhz həmin qanunun 1-ci maddəsində investisiyaya normativ (leqal) anlayış verilir. Bu anlayışa görə, **investisiya** dedikdə gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitləri, habelə maddi və intellektual sərvətlər başa düşülür. Belə vəsait və sərvətlərə aşağıdakılar aiddir: 1) pul vəsaitləri; 2) məqsədli bank əmanətləri; 3) qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.); 4) kreditlər; 5) paylar; 6) daşınar və daşınmaz əmlak (nəqliyyat vasitələri, binalar, qurğular, avadanlıq və digər əmlak növləri); 7) texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu («nou-hau»);[2] 8) torpaq, su və digər ehtiyatlardan, binalardan, qurğulardan və avadanlıqdan istifadə hüquqları; 9) müəlliflik hüququndan irəli gələn hüquqlar; 9) digər əmlak hüquqları.

---

[1] Предпринимательское право. Учебник / Отв. ред. С.А.Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.563.

[2] *«Nou-hau» anlayışı (ingiliscə know-how) barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 553.

İnvestisiya anlayışı investisiya fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır. Belə ki, investisiyaya verilən normativ (leqal) anlayışdan göründüyü kimi, maliyyə vəsaitləri, maddi və qeyri-maddi (intellektual) sərvətlər yalnız sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulma prosesində investisiya statusu əldə edir, yəni investisiya hesab olunur. Onların (maliyyə vəsaitlərinin, maddi və intellektual sərvətlərin) məhz ayrı-ayrı fəaliyyət obyektlərinə qoyulması ilə bağlı həyata keçirilən, yerinə yetirilən hərəkətlər investisiya fəaliyyəti adlanır. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində göstərilir ki, **investisiya fəaliyyəti** dedikdə investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə bağlı bütün hərəkətlərinin məcmusu başa düşülür.

İnvestisiya fəaliyyəti müxtəlif növlərdə həyata keçirilə bilər. Söhbət investisiya fəaliyyətinin aşağıdakı növlərindən gedir: 1) **özəl investisiya fəaliyyəti** (bu növ investisiya fəaliyyəti Azərbaycan Respublikasının vətəndaşları, qeyri-dövlət müəssisə, idarə, təşkilat və qurumları tərəfindən həyata keçirilir); 2) **dövlət investisiya fəaliyyəti** (bu növ investisiya fəaliyyəti dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilir); 3) **xarici investisiya fəaliyyəti** (bu növ investisiya fəaliyyəti xarici vətəndaşlar, hüquqi şəxslər, dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən həyata keçirilir); 4) **birgə investisiya fəaliyyəti** (Azərbaycan Respublikasının və xarici dövlətlərin vətəndaşları, hüquqi şəxsləri və dövlətlər tərəfindən həyata keçirilir). İnvestisiyanın bu kimi növləri, şübhəsiz, investisiya ilə bağlı yaranır. İnvestisiya isə müxtəlif əsaslara görə təsnif olunur. Belə ki, investisiya bu və ya digər meyara görə ayrı-ayrı növlərə bölünür. Hüquq ədəbiyyatı səhifələrində investisiyanın müxtəlif növlərinə rast gəlinir.[1]

---

[1] *Bax, məsələn:* Безопасность жизнедеятельности. Учебник для вузов / Под ред. Михайлова Л.А. СПб., 2012, § 26.2.2. Инвестирование, с. 410-421.

**Müddət** kimi meyara (əsasa) görə investisiyanın iki növü fərqləndirilir: 1) qısamüddətli investisiya; 2) uzunmüddətli investisiya. **Qısamüddətli investisiya** bir ilədək qoyulan investisiyadır. Əgər investisiya bir ildən çox müddətə qoyularsa, bu, **uzunmüddətli investisiya** adlanır.

**Ərazi** kimi meyara (əsasa) görə investisiya iki növə bölünür: 1) daxili investisiya, 2) xarici investisiya. Əgər investisiya bu və ya digər dövlətin ərazisində qoyularsa, bu, **daxili investisiya** adlanır. Hər hansı dövlətin ərazisindən kənarda qoyulan investisiyaya isə **xarici investisiya** deyilir.

**İnvestisiyanın mülkiyyətçisi** kimi meyara görə onun üç növü fərqləndirilir: 1) dövlət investisiyası; 2) özəl investisiya; 3) bələdiyyə investisiyası. Əgər investisiya dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən qoyularsa, bu, **dövlət investisiyası** adlanır. Bu növ investisiyanın maliyyə mənbəyi büdcələr, büdcədənkənar fondlar, özlərinə məxsus və borc vəsaitləridir; məhz belə mənbələr hesabına investisiya qoyulur.

Əgər investisiyanın maliyyə mənbəyi fiziki və hüquqi şəxslərin vəsaiti olarsa, bu növ investisiyaya **özəl investisiya** deyilir. Bu növ investisiya ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən özlərinin vəsaiti hesabına qoyulur. Yerli özünüidarə qurumlarının vəsaiti hesabına qoyulan investisiya isə **bələdiyyə investisiyası** adlanır. Müəyyən hallarda investisiya şəxslər (fiziki və hüquqi şəxslər), dövlət və bələdiyyə tərəfindən birlikdə qoyulur; bu növ investisiya **birgə investisiya** adlanır.

**İnvestisiya qoyanın statusu** kimi meyara görə onun iki növü fərqləndirilir: 1) milli investisiya; 2) qeyri-milli investisiya. Azərbaycan Respublikasının şəxsləri (fiziki və hüquqi şəxsləri), habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən qoyulan investisiya **milli investisiya** adlanır. Xarici şəxslər (fiziki və hüquqi şəxslər) və dövlətlər, beynəlxalq maliyyə təşkilatları, habelə vətəndaşlığı olmayan şəxslər tərəfindən qoyulan investisiyaya isə **qeyri-milli investisiya** deyilir.

**Məqsəd** kimi meyara görə investisiya iki növə bölünür: 1) kommersiya investisiyası; 2) qeyri-kommersiya investisiyası. Əgər investisiya mənfəət (gəlir) əldə etmək məqsədi ilə qoyularsa, bu, **kommersiya investisiyası** adlanır. Əgər investisiya sosial səmərə əldə etmək məqsədi ilə qoyularsa, bu növ investisiyaya **qeyri-kommersiya investisiyası** deyilir.

İnvestisiya qoyuluşunda **subyektlərin iştirak xarakterinə** görə onun iki növü fərqləndirilir: 1) birbaşa investisiya; 2) dolayı investisiya. Əgər investisiya investorların bilavasitə özləri tərəfindən müxtəlif obyektlərə qoyularsa, bu, **birbaşa investisiya** adlanır. İnvestisiya vasitəçilərinin köməyi ilə (vasitəsi ilə) qoyulan investisiyaya **dolayı investisiya** deyilir.

**İnvestisiya qoymanın obyektinə** görə onun iki növü fərqləndirilir: 1) real investisiya; 2) maliyyə investisiyası. **Real investisiyaya** real aktivlərə və istehsal (əsas və dövriyyə) fondlarına qoyulan iqtisadi resurslar, istehsal və sosial infrastruktur (bina, ev, tikili və s.), habelə əqli mülkiyyət obyektləri (ixtira, sənaye nümunələri, faydalı modellər və s.) aiddir. **Maliyyə investisiyası** isə səhmlərə, istiqrazlara və digər qiymətli kağızlara qoyulan vəsaitdir; ona **«portfel» investisiyası** da deyilir.[1]

**Tərkibinə** görə investisiya aşağıdakı növlərə bölünür: 1) tərkibi **maliyyə vəsaitlərindən ibarət olan investisiya** (pul vəsaitləri, qiymətli kağızlar, bank əmanətləri, kreditlər və s.); 2) tərkibi **maddi nemətərdən** (sərvətlərdən) ibarət olan investisiya (bina, qurğu, avadanlıq, tikililər və s.); 3) tərkibi **intellektual nemətlərdən** (sərvətlərdən) ibarət olan investisiya (əqli mülkiyyət obyektləri, yəni ixtiralar, faydalı modellər, sənaye nümunələri, «nou-hau» və s.).[2]

Hüquq ədəbiyyatında investisiyanın digər növləri də göstərilir. Belə ki, ayrı-ayrı müəlliflər tərəfindən investisiyanın müx-

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.182; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 657.

[2] *Əqli mülkiyyət obyektləri barədə bax: məsələn,* Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı, 2006, 584 s.

təlif növləri fərqləndirilir; onlar bundan ötrü bu və ya digər meyardan istifadə edirlər.

## 16.2. İnvestisiya hüququnun mənbələri, prinsipləri və subyektləri

### 16.2.1. İnvestisiya hüququnun mənbələri

İnvestisiya hüququnun əsas mənbə növü **normativ hüquqi aktlardır**. Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan ictimai münasibətlər məhz normativ hüquqi aktlar vasitəsi ilə tənzimlənir. İnvestisiya fəaliyyətini tənzimləyən normativ hüquqi aktların sistemi **investisiya fəaliyyəti haqqında qanunvericilik** adlanır. İnvestisiya fəaliyyəti haqqında qanunvericiliyə, hər şeydən əvvəl, **«İnvestisiya haqqında» Azərbaycan Respublikasının Qanunu** (1995-ci il) daxildir. Bu qanun Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Həmin şərtlər bunlara yönəlmişdir ki, investisiya Azərbaycan Respublikasının iqtisadiyyatına intensiv cəlb olunsun, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə olunsun. Burada investisiya və investisiya fəaliyyətinə anlayış verilir, investisiya fəaliyyətinin obyekt və subyektlərinə aid müvafiq normalar nəzərdə tutulur. İnvestisiya fəaliyyəti subyektlərinin hüquq və vəzifələri də bu qanunla müəyyən edilir. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi və onun formaları (tənzimlənmə formaları) da həmçinin adıçəkilən qanunla nizama salınır; bu qanunla həm də investisiya fəaliyyəti ilə bağlı digər məsələlər tənzimlənir. Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsində onun rolu və əhəmiyyəti böyükdür.

İnvestisiya fəaliyyəti haqqında qanunvericiliyə **«İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2010-cu il) aiddir. Bu qanunun qüvvəyə minməsi ilə «İnvestisiya fondları haqqında» əvvəlki Qanun (1999-cu il) qüvvədən

düşmüşdür. Yeni qanun Azərbaycan Respublikasında investisiya fondlarının təşkili, idarə edilməsi və ləğvi barədə müvafiq prinsip və qaydaları, habelə investisiya fondlarının fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin və nəzarətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Həmin qanun investisiya fondları tərəfindən həyata keçirilən fəaliyyətin tənzimlənməsində vacib rol oynayır.

İnvestisiya fəaliyyəti haqqında qanunvericilik həm də **«Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunundan** (1992-ci il) ibarətdir. Bu qanun Azərbaycan Respublikasının ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi əsaslarını müəyyənləşdirir. Həmin qanun ölkə ərazisində xarici investisiya qoyuluşu ilə bağlı yaranan münasibətləri tənzimləyən əsas qanunvericilik aktıdır. Bu akt xalq təsərrüfatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnika və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəlmişdir. Sözügedən qanun xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. Qanunda «xarici investor» anlayışına aydınlıq gətirilir, xarici investisiyanın formaları müəyyən edilir, xarici investisiyanın hüquqi rejimini və digər məsələləri tənzimləyən müvafiq hüquq normaları nəzərdə tutulur.

İnvestisiya fəaliyyəti haqqında qanunvericiliyə həm də digər **qanunvericilik aktları** daxildir. Bu aktlar bir az əvvəl barəsində danışdığımız qanunlar əsasında qəbul eilmişdir. Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan münasibətlərin hüquqi tənzimlənməsində onlardan da istifadə olunur.[1]

**Beynəlxalq müqavilələr** investisiya hüququnun mənbə növlərindən biridir. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin həyata

[1] *İnvestisiya anlayışının anatomiyası və nəzəri-metodoloji xarakteristikası barədə ətraflı bax:* Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Monoqrafiya. Bakı, 2004, s. 356-375.

keçirilməsi zamanı yaranan münasibətlər həm də beynəlxalq müqavilələrlə tənzimlənir. Söhbət Azərbaycan Respublikasının xarici dövlətlərlə bağladığı və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir; onlar, investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətlərin hüquqi tənzimlənməsində vacib rol oynayır.[1] Bu işdə xüsusilə də **investisiyaların təşviqi və müdafiəsi barədə ikitərəfli beynəlxalq sazişlərin** əhəmiyyəti böyükdür. Odur ki, xarici ölkələr, o cümlədən Azərbaycan Respublikası öz müqavilə praktikasında belə sazişlərdən geniş səviyyədə istifadə edir. Azərbaycan Respublikası bir neçə xarici ölkələrlə (Almaniya, Norveç, Pakistan, Türkiyə və s.) investisiyaların təşviqi və müdafiəsi barədə ikitərəfli beynəlxalq sazişlər bağlamışdır.

**Seul Konvensiyası** barədə xüsusi olaraq danışmaq lazımdır. Söhbət «İnvestisiyaların Təminatı üzrə Çoxtərəfli Agentliyin təsis edilməsi haqqında» Seul Konvensiyasından gedir. Seul Konvensiyası 1985-ci ildə qəbul edilmişdir; Azərbaycan Respublikası sözügedən konvensiyaya qoşulmuşdur.

Seul Konvensiyası əsasında İnvestisiyaların Təminatı üzrə Çoxtərəfli Agentlik (Multilateral İnvestment Guarantee Agency – MIGA) təsis edilmişdir. Çoxtərəfli Agentliyin tərkibi ayrı-ayrı üzv-dövlətlərdən ibarətdir. ABŞ, Almaniya, Böyük Britaniya, Rusiya Federasiyası, İsrail, Yaponiya, Fransa və dünyanın digər dövlətləri onun üzvüdür. Seul Konvensiyasını hansı dövlət qəbul etmişdirsə, o dövlət də Çoxtərəfli Agentliyin üzvü hesab olunur; Azərbaycan Respublikası da Çoxtərəfli Agentliyin üzvüdür.

Çoxtərəfli Agentlik üzv-dövlətlərə aid investorların başqa ölkələrin milli iqtisadiyyatına qoyduqları investisiyaya görə maliyyə təminatı verir.[2] O, öz beynəlxalq-hüquqi statusuna görə

---

[1] *Bu sazişlərin əsas xüsusiyyətləri barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.555, 569 və s.

[2] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 120-121.

hökumətlərarası beynəlxalq təşkilat hesab edilir. Mülki-hüquqi statusu baxımından isə Çoxtərəfli Agentlik hüquqi şəxsdir.[1]

Xarici investisiya ilə bağlı münasibətlərin tənzimlənməsi həm də «**İnvestorların hüquqlarının müdafiəsi haqqında» Konvensiya** vasitəsi ilə həyata keçirilir ki, həmin konvensiya 1997-ci il martın 28-də Moskvada qəbul edilmişdir. Konvensiya investorların hüquqlarının müdafiəsinə dair məsələlərə həsr olunmuşdur.

### 16.2.2. İnvestisiya hüququnun özünəməxsus prinsipləri

İnvestisiya hüququnun prinsipləri öz normativ ifadəsini «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda, «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda və digər qanunvericilik aktlarında tapmışdır. **İstənilən obyektə investisiya qoyulması prinsipi** bu prinsiplərdən biridir. Həmin prinsipə görə, investor hər hansı obyektə investisiya qoya bilər ki, bu, onun müstəsna hüququdur. İnvestisiya qoyulan obyekt iqtisadiyyatın istənilən sahəsinə, yəni sənaye, kənd təsərrüfatı, ticarət, nəqliyyat və digər sahələrə aid ola bilər.

Bununla yanaşı, elə obyektlər vardır ki, qanunvericilik həmin obyektlərə investisiya qoyulmasını qadağan edir və ya məhdudlaşdırır. Bu cür obyektlərə investor, təbii ki, investisiya qoya bilməz. Belə obyektlərdən başqa investorun hər hansı obyektə investisiya qoymasına yol verilir.

**İnvestisiya fəaliyyəti obyektlərinin müxtəlifliyi prinsipi** investisiya hüququnun digər prinsipidir. Bu prinsipə görə, iqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, o cümlədən əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intellektual sərvətlər (əqli mülkiyyət nemətləri), digər mülkiyyət obyektləri, habelə əmlak hüquqları investisiya fəaliyyətinin obyekti ola bilər. Nəzərdən

---

[1] *Çoxtərəfli Agentlik barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 570-572.

qaçırmaq olmaz ki, həm maliyyə vəsaiti (pul, qiymətli kağızlar, kreditlər, məqsədli bank əmanətləri və s.), həm maddi nemətlər (binalar, qurğular, avadanlıq və digər maddi sərvətlər), həm də qeyri-maddi nemətlər, yəni intellektual sərvətlər (ixtira, faydalı model, «nou-hau» və digər sərvətlər) investisiya kimi qoyula bilər.[1] Odur ki, investisiya fəaliyyətinin obyektləri kifayət qədər müxtəlifdir.

İnvestisiya hüququ həm də belə bir prinsipdən çıxış edir ki, müəyyən obyektlərə investisiya qoyulması qadağandır – **müəyyən obyektlərə investisiya qoyulmasının qadağan edilməsi prinsipi**. Bu prinsipə görə, qanunvericilik aktları ilə qadağan edilmiş obyektlərə investisiya qoyulmasına yol verilmir. Belə obyektlərə aiddir: 1) yaradılması və istifadə edilməsi qanunvericiliklə müəyyənləşdirilmiş sanitariya-gigiyena, radiasiya, ekologiya, arxitektura və digər normaların tələblərinə uyğun gəlməyən obyektlər; 2) hüquqi şəxslərin və dövlətin qanunla müdafiə edilən hüquq və mənafelərini pozan obyektlər; 3) insanların sağlamlığını, dövlət təhlükəsizliyini pozan, yaxud poza biləcək obyektlər. Sadalanan bu kimi obyektlərə investisiya qoyulması qadağandır.

**İnvestisiyanın müdafiəsi prinsipi** də investisiya hüququnun prinsiplərindən biri kimi tanınır. Bu prinsipə görə, investisiya mümkün siyasi (qeyri-kommersiya) risklərdən müdafiə ilə təmin olunur, qanunla qorunur. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1-ci hissəsində deyilir ki, investisiya qanunla qorunur.

Sözügedən prinsip həmçinin xarici investisiyanın qorunmasını nəzərdə tutur. Azərbaycan Respublikasının ərazisində xarici investisiyanın qorunması ilə bağlı münasibətlər «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. İnvestisiyanın müdafiəsi prinsipi həm də bunda ifadə olunur ki, Azərbaycan Respublikası ərazisində in-

---

[1] *İntellektual sərvətlər barədə daha ətraflı bax: məsələn,* Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı, 2006, 584 s.

vestisiya əvəzsiz milliləşdirilmir, rekvizisiya edilmir və digər oxşar tədbirlər tətbiq edilmir.

İnvestisiya hüququ həm də **investisiya fəaliyyətinin dövlət tənzimlənməsi prinsipindən** çıxış edir. Bu prinsipə görə, investisiya fəaliyyəti dövlət tərəfindən nizama salınır və investisiya fəaliyyəti şərtlərinə bütün subyektlərin (investisiya fəaliyyəti subyektlərinin) əməl etmələrinə nəzarət həyata keçirilir. Həmin prinsip öz ifadəsini həm də bunda tapır ki, dövlət investisiyası idarə olunur. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi vahid iqtisadi, elmi-texniki və sosial siyasət yeridilməsi məqsədi ilə həyata keçirilir. Bundan ötrü Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş həcmlərdə dövlət büdcəsindən istifadə olunur. Başqa sözlə, investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin həyata keçirilməsi dövlət büdcəsi hesabına maliyyələşdirilir ki, bu, yəni maliyyələşdirmə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş hədlərdə olur.

**İnvestorların hüquqlarının müdafiəsinə təminat verilməsi prinsipi** də investisiya hüququnun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə qanunla təminat verilir. İnvestisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər ki, bu nə mülkiyyət formasından, nə də təsərrüfat fəaliyyətinin növündən asılıdır.

**İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi** prinsipi də həmçinin investisiya hüququnun prinsipi kimi tanınır. Bu prinsipə görə, investisiya fəaliyyəti müxtəlif mənbələr hesabına maliyyələşdirilir. Belə mənbələrə aiddir: 1) investorun öz əmlakı, maliyyə vəsaiti və təsərrüfatdaxili ehtiyatları (məsələn, mənfəət, pul yığımları, əmanətlər və s.); 2) investorun borc maliyyə vəsaiti (bank və büdcə kreditləri, istiqrazlar və digər vəsait); 3) investorun cəlb edilmiş maliyyə vəsaiti (məsələn, əmək kollektivlərinin payları və digər haqlar, səhmlərin satışından əldə edilən vəsait və s.); 4) xarici investisiya; 5) digər mənbələr.

### 16.2.3. İnvestisiya hüququnun subyektləri

İnvestisiya fəaliyyətinin subyektləri eyni zamanda investisiya hüququnun subyektləri adlanır. Odur ki, «investisiya fəaliyyətinin subyektləri» və «investisiya hüququnun subyektləri» eynimənalı və məzmunca üst-üstə düşən anlayışlardır. Belə ki, investisiya hüququnun subyektləri dedikdə investisiya fəaliyyətinin iştirakçıları (subyektləri) başa düşülür. İnvestisiya fəaliyyəti iştirakçılarının – subyektlərin dairəsi isə «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur; həmin qanunun 4-cü maddəsi xüsusi olaraq investisiya fəaliyyətinin subyektlərinə həsr edilmişdir. Bu maddəyə görə, investorlar investisiya fəaliyyətinin əsas subyekti sayılır. İnvestorlardan başqa, investisiya fəaliyyətinin iştirakçıları da investisiya fəaliyyətinin subyektləridir. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 1-ci hissəsində göstərilir ki, investisiya fəaliyyətinin subyektləri dedikdə investorlar və investisiya fəaliyyətinin iştirakçıları başa düşülür. Həm Azərbaycan Respublikasının və xarici ölkələrin vətəndaşları və hüquqi şəxsləri, həm vətəndaşlığı olmayan şəxslər, həm də dövlətlər investisiya fəaliyyətinin subyekti qismində çıxış edə bilərlər. Odur ki, investisiya fəaliyyəti subyektləri (investorlar və investisiya fəaliyyətinin iştirakçıları) bunlardan ibarətdir: 1) Azərbaycan Respublikasının vətəndaşları; 2) Azərbaycan Respublikasının hüquqi şəxsləri; 3) xarici ölkələrin vətəndaşları; 4) xarici ölkələrin hüquqi şəxsləri; 5) vətəndaşlığı olmayan şəxslər; 6) dövlətlər.

**İnvestor** dedikdə investisiya fəaliyyətinin elə bir subyekti başa düşülür ki, o, özünə məxsus olan, borc götürdüyü və ya cəlb etdiyi maliyyə vəsaitlərinin, maddi və intellektual sərvətlərin investisiya fəaliyyəti obyektlərinə qoyulması haqqında qərar qəbul edir, habelə onlardan istifadə olunmasını təmin edir. Əgər hər hansı subyekt (şəxs) maliyyə vəsaitini, maddi və intellektual sərvəti (neməti) investisiya kimi qoyarsa və ondan istifadə olunmasını təmin edərsə, bu subyekt (şəxs) investor adlanır; investora həm də **sərmayədar** deyilir. İnvestor investisi-

ya qoyulması qadağan edilən və ya məhdudlaşdırılan obyektlərdən başqa, istənilən hər hansı obyektə investisiya qoya bilər; bu və ya digər obyektə investisiya qoymaq onun müstəsna hüququdur.

İnvestorun hüququ vardır ki, investisiya fəaliyyətində əmanətçi, kreditor və alıcı qismində çıxış etsin. İnvestor habelə investisiya fəaliyyətinin istənilən iştirakçısının funksiyasını yerinə yetirə bilər.

İnvestor elə bir subyektdir ki, o, hansı məqsədlə investisiya qoyulması məsələsini müstəqil surətdə həll edir. İnvestor həmçinin müstəqil surətdə investisiya qoyuluşunun istiqamətini, növünü və həcmini müəyyənləşdirir; onun ixtiyarı çatır ki, investisiya qoyuluşunu həyata keçirmək üçün fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin hər hansı iştirakçısı qismində bu işə cəlb etsin.[1] Fiziki və hüquqi şəxslər investisiya qoyuluşuna müqavilə əsasında cəlb olunur. Bu, yəni cəlbetmə həm də müsabiqə və hərrac yolu ilə mümkün ola bilər.

**İnvestisiya fəaliyyətinin iştirakçısı** dedikdə investisiya fəaliyyətinin elə bir subyekti başa düşülür ki, o, investisiya niyyətinin həyata keçirilməsini təmin edir. İnvestisiya fəaliyyətinin iştirakçısı investisiya niyyətinin həyata keçirilməsini, adətən, sifarişlərin icraçısı qismində təmin edir. Bununla bərabər, investisiya niyyətinin həyata keçirilməsini investor investisiya fəaliyyətinin iştirakçısına tapşıra bilər; məhz müvafiq tapşırıq əsasında investisiya fəaliyyətinin iştirakçısı investisiya niyyətinin həyata keçirilməsini təmin edir.

İnvestisiya fəaliyyətinin iştirakçısı ola bilər: 1) Azərbaycan Respublikasının vətəndaşları; 2) Azərbaycan Respublikasının hüquqi şəxsləri; 3) xarici dövlətlərin vətəndaşları; 4) xarici dövlətlərin hüquqi şəxsləri; 5) vətəndaşlığı olmayan şəxslər. Dövlət investor qismində çıxış etdiyi halda, investisiya fəaliyyətinin iştirakçısı ola bilməz. «İnvestisiya fəaliyyəti haqqında»

---

[1] İnvestor anlayışı barədə bax: Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.121.

Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi, nəzərdən qaçırmaq olmaz ki, investisiya fəaliyyətinin iştirakçıları sırasına dövləti aid etmir. Lakin həmin maddədə göstərilir ki, dövlət investor ola bilər.

İnvestisiya fəaliyyətinin iştirakçılarına aiddir: sifarişçi, icraçı, istifadəçi. **Sifarişçi** dedikdə investisiya fəaliyyətinin elə bir iştirakçısı başa düşülür ki, o, investisiya layihəsini həyata keçirmək səlahiyyətinə malikdir. Bu səlahiyyət ona investor tərəfindən verilir. İnvestorlar, habelə istənilən fiziki və hüquqi şəxs sifarişçi ola bilər.

İnvestisiya layihəsini realizə etmək üçün müəyyən səlahiyyətlərə malik olan şəxsə **icraçı** deyilir. **İstifadəçi** dedikdə isə elə bir subyekt başa düşülür ki, investisiya fəaliyyəti obyekti məhz onun üçün yaradılır. Həm şəxslər (fiziki və hüquqi şəxslər), həm dövlət orqanları, həm bələdiyyə, həm də beynəlxalq təşkilatlar istifadəçi qismində investisiya fəaliyyətinin iştirakçısı ola bilərlər.[1] İnvestorun da istifadəçi rolunda investisiya fəaliyyətində çıxış etməsi mümkündür.

Fəlsəfi baxımdan istənilən fəaliyyət, o cümlədən investisiya fəaliyyəti **üç elementdən** ibarətdir:[2] 1) subyekt; 2) aktivlik; 3) obyekt. İnvestisiya fəaliyyətinin subyektləri aktivliyə malik olan şəxslərdir. İnvestisiya fəaliyyətinin obyektləri odur ki, investisiya fəaliyyəti subyektlərinin aktivliyi məhz onlara yönəlir. Belə obyektlər «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi ilə müəyyən olunur. Həmin maddəyə görə, aşağıdakılar investisiya fəaliyyətinin obyekti ola bilər: iqtisadiyyatın bütün sahələrində hər hansı əmlak, əsas fondlar və dövriyyə vəsaiti, qiymətli kağızlar, məqsədli pul əmanətləri, elmi-texniki məhsullar, intellektual sərvətlər, digər mülkiyyət obyektləri, əmlak hüquqları və s.

İnvestisiya fəaliyyətinin subyekti olan investisiya fondları barədə ayrıca danışmaq lazımdır. Belə ki, investisiya fəaliyyəti

---

[1] *İnvestisiya fəaliyyətinin iştirakçıları barədə daha ətraflı:* Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с.85.

[2] Каган М.С. Человеческая деятельность. М., 1972, с.45-46.

müxtəlif xarakterə malik ola bilər. Bəzən investisiya fəaliyyəti birdəfəlik xarakter daşıyır; söhbət birdəfəlik investisiya fəaliyyətindən gedir. Birdəfəlik investisiya fəaliyyəti sahibkarlıq xarakteri daşımır. Məsələn, fiziki şəxslər səhm əldə edirlər ki, bu yolla onlar öz vəsaitlərini qiymətli kağızlara qoyurlar («portfel» investisiyası).

Müəyyən hallarda isə investisiya fəaliyyəti institusional investorlar tərəfindən əsas və peşəkar qaydada həyata keçirilir. Söhbət investisiya fondlarının həyata keçirdikləri investisiya fəaliyyətindən gedir. İnvestisiya fondları investisiya fəaliyyətinin əsas subyektlərindən hesab olunur. İnvestisiya fondlarının təşkili, idarə edilməsi və ləğvi qaydaları ayrıca normativ hüquqi akt – «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (2010-cu il) müəyyən edilir. Həmin qanuna görə, **investisiya fondu** dedikdə səhmdar və ya paylı investisiya fondu formasında yaradılan elə bir maliyyə qurumu başa düşülür ki, bu qurum vəsaitlərin cəlb edilib mənfəət əldə olunması məqsədi ilə yatırılması, yəni investisiya qoyulması ilə məşğul olur.

Dövlət (Azərbaycan Respublikası) investisiya fəaliyyətində ikili rol oynayır. Belə ki, dövlət bir tərəfdən investor qismində çıxış edir; digər tərəfdən isə, dövlət investisiya fəaliyyətini tənzimləyir. Söhbət investisiyanın dövlət tənzimlənməsindən gedir.

## 16.3. İnvestisiya hüququ ilə nizama salınan məsələlər

### 16.3.1. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi

İnvestisiya fəaliyyətinin həyata keçirilməsi investisiya hüququ ilə nizama salınan məsələlərdən biridir. Əgər investisiya fəaliyyətinin subyektləri onlara verilmiş hüquqlardan istifadə edərlərsə və öz vəzifələrini yerinə yetirərlərsə, bu, investisiya fəaliyyətinin həyata keçirilməsini ifadə edir. Odur ki, **investisiya fəaliyyətinin həyata keçirilməsi** dedikdə subyektlərin (investisiya fəaliyyəti subyektlərinin) öz hüquqlarından istifadə etmələri və vəzifələrini yerinə yetirmələri başa düşülür. İnvesti-

siya fəaliyyəti subyektlərinin hüquq və vəzifələri isə «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edir. Həmin qanunun 6-cı maddəsi investisiya fəaliyyəti subyektlərinin **hüquqlarının** tənzimlənməsinə həsr edilmişdir. İnvestisiya fəaliyyəti ilə məşğul olmaq bu hüquqlardan biridir. Həmin hüququ realizə etmək üçün investor hər hansı obyektə investisiya qoyur; lakin investisiya qoyulması qadağan edilən obyektə onun sərmayə (yatırım) qoymasına yol verilmir.

İnvestisiya seçimi etmək investorun malik olduğu hüquqlar sırasına aiddir. Bu hüquqa görə, investor müstəqil surətdə investisiya qoyuluşunun məqsədini, istiqamətini, növünü və həcmini müəyyənləşdirə bilər.

İnvestisiya fəaliyyəti iştirakçılarının dairəsini müəyyənləşdirmək də investorun hüququdur. Həmin hüquqa görə, investisiya qoyuluşunun həyata keçirilməsi üçün investor fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin hər hansı iştirakçısı qismində cəlb edə bilər. Bu zaman investor investisiya fəaliyyətinin iştirakçısı ilə müqavilə bağlayır ki, həmin müqavilə onlar arasındakı münasibəti tənzimləyir. Fiziki və hüquqi şəxslər investisiya qoyuluşunun həyata keçirilməsi üçün məhz müqavilə əsasında cəlb olunurlar; onlar bu işə həm də müsabiqə və hərrac yolu ilə cəlb oluna bilərlər.

Göstərilənlərdən başqa, investor digər hüquqlara da malikdir. Belə hüquqlara aiddir: 1) investisiya obyektlərinə və onun nəticələrinə sahiblik, istifadə və sərəncam vermək hüququ; 2) investisiya və ticarət əməliyyatlarını həyata keçirmək hüququ; 3) investisiya kimi qoyulan vəsaitin hansı məqsəd üçün istifadə olunmasına nəzarət etmək hüququ; 4) investisiya qoyuluşunu həyata keçirmək hüququnu müqavilə və ya dövlət kontraktı üzrə başqa şəxslərə vermək hüququ; 5) investisiya fəaliyyətini birgə həyata keçirmək məqsədi ilə özünə məxsus və cəlb olunmuş vəsaitləri digər investorların vəsaitləri ilə birləşdirmək hüququ və s.

İnvestisiya fəaliyyəti subyektləri həm də qanunla müəyyənləşdirilmiş müvafiq **vəzifələr** daşıyırlar. «İnvestisiya fəaliyyəti

haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi məhz investisiya fəaliyyəti subyektlərinin daşıdıqları vəzifələrin tənzimlənməsinə həsr olunmuşdur. Həmin vəzifələr aşağıdakılardan ibarətdir: 1) maliyyə vəsaiti və maddi sərvətlər əsasında həyata keçirilən investisiyanın həcmi və onun maliyyələşdirilməsi mənbəyi barədə yerli banklara və ya maliyyə orqanlarına arayış təqdim etmək (arayış müvafiq orqanlar tərəfindən verilir); 2) əsaslı tikinti və icazə tələb edilən digər işlər üçün müvafiq dövlət orqanlarından və xüsusi xidmətlərdən icazə və ya razılıq almaq; 3) texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələblərinə əməl edilməsi baxımından investisiya layihələri üçün ekspertiza rəyi almaq; 4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müəyyənləşdirilən norma və standartlara əməl etmək; 5) dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri daxilində, qanunvericiliyə uyğun verdikləri tələbləri yerinə yetirmək; 6) müəyyənləşdirilmiş qaydada mühasibat və statistika hesabatlarını təqdim etmək; 7) haqsız rəqabətə yol verməmək və antiinhisar tənzimlənməsinin tələblərinə əməl etmək; 8) xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq üçün lisenziya almaq.

İnvestisiya fəaliyyətinin həyata keçirilməsi üçün, təbii ki, müvafiq mənbələr olmalıdır; söhbət investisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrindən gedir. Məhz həmin mənbələrdən investisiya fəaliyyəti maliyyələşdirilir. Belə mənbələrə aiddir: 1) investorun özünün maddi və intellektual sərvətləri, maliyyə vəsaiti və təsərrüfatdaxili ehtiyatlar; 2) investorun borc maliyyə vəsaiti; 3) investorun cəlb edilmiş maliyyə vəsaiti; 4) şəxslərin verdikləri əvəzsiz və xeyriyyə haqları, ianələr; 5) xarici investisiya və s.

### 16.3.2. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi

İnvestisiya hüququ ilə nizama salınan məsələlərdən biri investisiya fəaliyyətinin dövlət tənzimlənməsidir. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi ilə bağlı münasibətlər «İnvesti-

siya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun III fəsli ilə nizama salınır. Həmin fəslə daxil olan normalar (maddə 10–15) məhz bu münasibətlərin tənzimlənməsinə həsr edilmişdir.

Dövlət (Azərbaycan Respublikası) iki halda investisiya hüququnun subyekti kimi tanınır. Birinci halda dövlət investisiya fəaliyyətində investor rolunda çıxış edir. Bu zaman dövlət bilavasitə investisiya fəaliyyətini həyata keçirir. Məhz bilavasitə investisiya fəaliyyətini həyata keçirdiyinə görə dövlət investisiya hüququnun subyekti olur; belə halda dövlət həm də investisiya fəaliyyətinin subyekti kimi tanınır.

İkinci halda dövlət investisiya fəaliyyətini tənzimləyir; söhbət investisiya fəaliyyətinin dövlət tənzimlənməsindən gedir. Belə tənzimetmə həyata keçirilərkən Azərbaycan Respublikası (dövlət) investisiya hüququnun subyekti olur. Axı unutmaq olmaz ki, investisiya hüququnun subyektləri ya bilavasitə investisiya fəaliyyətini həyata keçirir, ya da investisiya fəaliyyətini tənzimləyir. Beləliklə, investisiya hququnun subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi və onun tənzimlənməsi sahəsində müvafiq hüquq və vəzifələrin daşıyıcılarıdır. İnvestisiya hüququnun subyektlərindən biri olan dövlətə gəldikdə, qeyd etmək vacibdir ki, Azərbaycan Respublikası (dövlət) bir tərəfdən investor rolunda bilavasitə investisiya fəaliyyəti ilə məşğul olur, digər tərəfdən investisiya fəaliyyətinin dövlət tənzimlənməsini həyata keçirir. Odur ki, investisiya fəaliyyətində dövlətin rolu ikili xarakter daşıyır.

**İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi** dedikdə dövlət tərəfindən investisiya fəaliyyətinə göstərilən elə təsiretmə tədbirləri başa düşülür ki, bu tədbirlər dövlət investisiyasının idarə olunmasına, habelə investisiya fəaliyyəti şərtlərinin müəyyənləşdirilməsinə (tənzimlənməsinə) və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl olunmasına nəzarətin həyata keçirilməsinə yönəlir. Bu, yəni investisiya fəaliyyətinin dövlət tənzimlənməsi **üç formada** həyata keçirilir ki, həmin formalar bunlardan ibarətdir: 1) dövlət in-

vestisiyasının idarə olunması; 2) investisiya fəaliyyəti şərtlərinin müəyyənləşdirilməsi (tənzimlənməsi); 3) investisiya fəaliyyətinə nəzarət edilməsi. Əgər dövlət investisiyası idarə olunarsa, investisiya fəaliyyəti şərtləri müəyyənləşdirilərsə və investisiya fəaliyyətinə nəzarət edilərsə, bu kimi hərəkətlər investisiya fəaliyyətinin dövlət tənzimlənməsini ifadə edir.

**Dövlət investisiyasının idarə olunması** investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin formalarından biridir. Əvvəllərdə qeyd etdiyimiz kimi, dövlət investisiya fəaliyyəti dedikdə dövlət hakimiyyət və idarəetmə orqanları, habelə dövlət müəssisə, idarə və təşkilatları tərəfindən büdcələrin, büdcədənkənar fondların, özlərinə məxsus və borc vəsaitinin hesabına həyata keçirilən investisiya fəaliyyəti başa düşülür. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinin bu forması respublika və yerli dövlət hakimiyyət və idarəetmə orqanları tərəfindən həyata keçirilir; bu zaman büdcə və büdcədənkənar vəsaitdən istifadə olunur. Respublika və yerli dövlət hakimiyyət və idarəetmə orqanları digər vəsaitləri də cəlb edə bilərlər.

**İnvestisiya fəaliyyəti şərtlərinin müəyyənləşdirilməsi** investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin ikinci formasıdır. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin I hissəsində deyilir ki, investisiya fəaliyyətinin dövlət tənzimlənməsinə həm də investisiya fəaliyyəti şərtlərinin müəyyənləşdirilməsi (tənzimlənməsi) daxildir.

**Nəzarət etmə** investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin üçüncü formasıdır. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin I hissəsində göstərilir ki, investisiya fəaliyyətinin dövlət tənzimlənməsinə həm də nəzarət daxildir. Nəzarət kimi forma investisiya fəaliyyəti şərtlərinə bütün subyektlər (investisiya fəaliyyətinin subyektləri) tərəfindən əməl edilməsinin səlahiyyətli dövlət orqanlarının yoxlamasını nəzərdə tutur.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi müxtəlif vasitələrlə həyata keçirilir. Belə vasitələrə aiddir: kredit və amorti-

zasiya siyasətinin həyata keçirilməsi, subvensiya,[1] büdcə borclarının verilməsi, dövlət norma və standartlarının müəyyənləşdirilməsi, antiinhisar tədbirlərin görülməsi, mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, qiymətqoyma siyasətinin həyata keçirilməsi, investisiya layihələrinin ekspertizasının keçirilməsi, digər vasitələr.

İnvestisiyaların dövlət ekspertizası haqqında ayrıca danışmaq lazımdır. Belə ki, qanunda nəzərdə tutulan investisiya layihə və proqramları müvafiq icra hakimiyyəti orqanında mütləq dövlət ekspertizasından keçirilməlidir. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin I hissəsində göstərilir ki, respublika, dövlətlərarası və regional investisiya layihələri (proqramları) mütləq dövlət ekspertizasından keçirilməlidir. Belə investisiya layihələri (proqramları) büdcə və büdcədənkənar vəsaitlər, o cümlədən xarici investisiya hesabına maliyyələşdirilir. Dövlət ekspertizasının keçirilmə qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Başqa mənbələr hesabına maliyyələşdirilən investisiya layihələrinin (proqramların) mütləq (məcburi) qaydada dövlət ekspertizasından keçirilməsi tələb edilmir; onlar, sadəcə olaraq, ekoloji, seysmologi və sanitariya-gigiyena tələblərinə əməl edilməsi baxımından dövlət ekspertizasından keçirilir. Bunun qaydasını Nazirlər Kabineti müəyyənləşdirir.

İnvestisiya layihələrinin dövlət ekspertizasından keçirilməsi müvafiq rəylə rəsmiləşdirilir; bu, ekspertiza rəyi adlanır. İnvestisiya fəaliyyəti subyektləri texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələblərinə əməl edilməsi baxımından investisiya layihələri üçün ekspertiza rəyi almalıdırlar ki, bu, onların vəzifəsi hesab edilir.

İnvestisiyaların dövlət ekspertizası «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddə-

---

[1] *Subvensiya– büdcə vasitələri (latınca - subvenire, ingiliscə - subvention) anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.827.

sində nəzərdə tutulmuşdur; həmin maddə məhz bu məsələyə həsr olunmuşdur.

### 16.3.3. Xarici investisiya

İnvestisiya hüququ ilə həm də xarici investisiya ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Qeyd etdiyimiz kimi, investisiya fəaliyyəti müxtəlif mənbələrdən maliyyələşdirilə bilər ki, bu mənbələrdən biri xarici investisiyadır. Nəzərdən qaçırmaq olmaz ki, investisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrindən biri məhz xarici investisiya sayılır.

Sözsüz ki, Azərbaycan Respublikasının ərazisində xarici investisiya qoyuluşu həyata keçiriləndə müəyyən növ ictimai münasibətlər əmələ gəlir; söhbət xarici investisiya ilə bağlı münasibətlərdən gedir. Xarici investisiya ilə əlaqədar münasibətlər isə investisiya hüququnun tənzimetmə predmetinə daxildir. Həmin münasibətləri tənzimləməkdən ötrü Azərbaycan Respublikasında 1992-ci ildə xüsusi normativ hüquqi akt – «Xarici investisiyanın qorunması haqqında» Qanun qəbul edilmişdir. Həmin qanun Azərbaycan Respublikasının ərazisində xarici investisiya ilə bağlı münasibətləri tənzimləyən əsas qanunvericilik aktı sayılır. Xarici investisiya ilə bağlı münasibətlər həm də Azərbaycan Respublikasının digər qanunvericilik aktları və beynəlxalq müqavilələr ilə nizama salınır.

**Xarici investisiya** dedikdə mənfəət əldə etmək məqsədi ilə xarici investorların Azərbaycan Respublikasının ərazisində sahibkarlıq və başqa növ fəaliyyət obyektlərinə qoyduqları xarici kapital başa düşülür.[1] **Xarici kapital** isə əmlakın və əmlak hüququnun ayrı-ayrı növlərindən, o cümlədən intellektual fəaliyyətin nəticələrinə dair hüquqlardan (əqli mülkiyyət hüquqlarından) və əşya hüquqlarına aid olmayan digər hüquqlardan ibarətdir.

---

[1] *Ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 101-102.

Xarici investisiyanı (xarici kapitalı) qoyan subyektlər **xarici investorlar** adlanır. Azərbaycan Respublikasında aşağıdakılar xarici investor ola bilər: xarici hüquqi şəxslər, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları (onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmalıdırlar), xarici dövlətlər, beynəlxalq təşkilatlar.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində müxtəlif üsullarla investisiya qoya bilərlər; söhbət Azərbaycan Respublikası ərazisində xarici investisiya qoyulması formalarından gedir. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi bir neçə belə forma nəzərdə tutur: 1) birgə müəssisələr; 2) xarici müəssisələr; 3) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin və istiqrazların və digər qiymətli kağızların, habelə xarici investorlara məxsus ola bilən əmlakın əldə edilməsi; 4) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi və digər formalar.

Birgə və xarici müəssisələr yaradılması kimi formalarda xarici investisiya qoyulması barədə xüsusilə danışmaq lazımdır. **Birgə müəssisələr** dedikdə Azərbaycan Respublikasının ərazisində xarici investorların pay iştirakı ilə yaradılan müəssisələr başa düşülür. Belə ki, bu növ müəssisələri xarici investorlar Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə təsis edirlər; onların nizamnamə kapitalının müəyyən payını (faizini) xarici investor əldə edir. Odur ki, birgə müəssisə xarici investisiya qoyulmuş müəssisədir.

**Xarici müəssisələr** dedikdə tamamilə xarici investorlara məxsus olan müəssisələr başa düşülür. Onlar xarici investisiya qoyulmuş müəssisələrin növlərindən biridir.

# XVI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XVII FƏSİL.*
# XARİCİ İQTİSADİ FƏALİYYƏT HÜQUQU

## 17.1. Xarici iqtisadi fəaliyyət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi

### 17.1.1. Xarici iqtisadi fəaliyyət hüququ anlayışı

İqtisadi fəaliyyət müəyyən hallarda dövlət sərhədlərindən kənarda həyata keçirilir. Dövlət sərhədlərindən kənarda həyata keçirilən iqtisadi fəaliyyət **xarici iqtisadi fəaliyyət** adlanır. İstənilən fəaliyyət növü kimi xarici iqtisadi fəaliyyət də hüquqi tənzimlənməyi tələb edir. Bundan ötrü, yəni xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi üçün ayrı-ayrı qanunvericilik aktlarında müvafiq hüquq normaları müəyyən edilir; məhz belə normaların məcmusu xarici iqtisadi fəaliyyət hüququ adlanır. Xarici iqtisadi fəaliyyət hüququ isə iqtisadi hüququn **xüsusi hissəsinin** tərkibində **yarımsahələrdən** biridir. İqtisadi hüququn bu yarımsahəsi vasitəsi ilə müxtəlif məsələlərin tənzimlənməsi həyata keçirilir. Məsələn, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi, xarici iqtisadi fəaliyyətin gömrük-tarif nizamlanması, qeyri-tarif tənzimetmə metodunun müəyyənləşdirilməsi, idxal və ixracın kəmiyyət məhdudlaşdırılması, xarici iqtisadi fəaliyyətlə məşğulolma hüququnun realizasiyası, xarici ticarət əməliyyatlarının lisenziyalaşdırılması, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi rejimi və s. tədbirlər belə məsələlər sırasına aiddir.[1]

**Xarici iqtisadi fəaliyyət hüququ** dedikdə iqtisadi hüququn elə bir yarımsahəsi başa düşülür ki, bu yarımsahə özündə xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.

---

[1] *Ətraflı bax:* Əliyev A.Ə. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri. Bakı, 2001, 320 s.

### 17.1.2. Xarici iqtisadi fəaliyyət hüququnun nizamasalma predmeti

Xarici iqtisadi fəaliyyət hüququ xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar yaranan müvafiq münasibətləri tənzimləyir. Məhz həmin münasibətlər xarici iqtisadi fəaliyyət hüququnun **nizamasalma predmetini** təşkil edir. Bu münasibətlərin iştirakçısı rolunda, ilk növbədə, dövlət (daha doğrusu – dövlətin səlahiyyətli orqanları) çıxış edir. Bu orqanlar xarici iqtisadi fəaliyyətin dövlət təzimlənməsini həyata keçirir.[1] Belə halda səlahiyyətli dövlət orqanları xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi ilə bağlı yaranan ictimai münasibətlərin iştirakçısı (subyekti) olurlar. Söhbət xarici iqtisadi fəaliyyəti tənzimləyən dövlət orqanlarından gedir (məsələn, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi və s.).

Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar əmələ gələn münasibətlərin iştirakçısı (subyekti) rolunda həm də ayrı-ayrı təsərrüfat subyektləri çıxış edirlər. Söhbət xarici iqtisadi fəaliyyətlə məşğul olan subyektlərdən gedir; onlar xarici iqtisadi fəaliyyəti həyata keçirmək hüququna malik olmalıdırlar.

Xarici iqtisadi fəaliyyətlə bağlı yaranan münasibətlərin obyektinə gəldikdə, qeyd etməliyik ki, həmin münasibətlər xarici iqtisadi fəaliyyət barəsində əmələ gəlir. Odur ki, xarici iqtisadi fəaliyyətin özu sözügedən münasibətlərin **obyekti** sayılır. Xarici iqtisadi fəaliyyət dedikdə elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər xaricə mal göndərilməsinə (ixrac), yaxud xaricdən mal gətirilməsinə (idxal), xidmətlər göstərilməsinə və ya işlər görülməsinə, habelə digər xarici ticarət əməliyyatlarının aparılmasına yönəlir.

Xarici iqtisadi fəaliyyət termini **iki mənada** işlədilir. Birinci mənada xarici iqtisadi fəaliyyət dedikdə **iqtisadi fəaliyyətin növü** başa düşülür. Belə ki, dövlət sərhədləri hüdudlarında hə-

---

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 100-101.

yata keçirilməsindən asılı olaraq iqtisadi fəaliyyətin iki növü fərqləndirilir: 1) daxili iqtisadi fəaliyyət; 2) xarici iqtisadi fəaliyyət. Daxili iqtisadi fəaliyyət dövlət sərhədləri hüdudlarında həyata keçirilir. Xarici iqtisadi fəaliyyət isə dövlət sərhədlərindən kənarda həyata keçirilən fəaliyyətdir.

İkinci mənada xarici iqtisadi fəaliyyət dedikdə **dövlətlərarası əməkdaşlığın növü** başa düşülür. Məlum olduğu kimi, dövlətlərarası əməkdaşlıq müxtəlif sahələrdə həyata keçirilir; belə sahələrdən biri xarici iqtisadi fəaliyyətdir. Nəzərdən qaçırmaq olmaz ki, xarici iqtisadi fəaliyyət dövlətlərarası əməkdaşlığın növlərindən biri kimi tanınır.

## 17.2. Xarici iqtisadi fəaliyyət hüququnun subyektləri, mənbələri və prinsipləri

### 17.2.1. Xarici iqtisadi fəaliyyət hüququnun subyektləri

Xarici iqtisadi fəaliyyətlə bağlı yaranan ictimai münasibətlərin potensial (mümkün) iştirakçıları xarici iqtisadi fəaliyyət hüququnun **subyektləri** adlanır. Onları iki növə bölmək olar: 1) xarici iqtisadi fəaliyyəti tənzimləyən subyektlər; 2) xarici iqtisadi fəaliyyətlə bilavasitə məşğul olan subyektlər.

**Xarici iqtisadi fəaliyyəti tənzimləyən subyektlər** dedikdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirən dövlət orqanları başa düşülür. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini isə aşağıda göstərilən institut və qurumlar həyata keçirir: 1) Azərbaycan Respublikasının Prezidenti; 2) Azərbaycan Respublikasının Nazirlər Kabineti; 3) İqtisadiyyat Nazirliyi; 4) Dövlət Gömrük Komitəsi və s. Xarici iqtisadi fəaliyyəti tənzimləyən bu kimi dövlət orqanlarının səlahiyyət, funksiya və vəzifələri Konstitusiya, habelə digər xüsusi aktlarla müəyyən edilir.

**Xarici iqtisadi fəaliyyətlə bilavasitə məşğul olan subyektlər** dedikdə xarici iqtisadi fəaliyyəti həyata keçirmək hüququna malik olan subyektlər başa düşülür. Onlar xarici iqtisadi fəaliyyətin bilavasitə iştirakçılarıdırlar.

Xarici iqtisadi fəaliyyətlə bilavasitə məşğul olan subyektlərə aşağıdakılar aiddir: 1) Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyəti həyata keçirmək hüququ olan fiziki və hüquqi şəxsləri; 2) əcnəbi dövlətlərin xarici iqtisadi fəaliyyəti həyata keçirmək hüququ olan fiziki və hüquqi şəxsləri.

Xarici iqtisadi fəaliyyət hüququnun subyektləri dedikdə elə xarici iqtisadi fəaliyyətin öz subyektləri başa düşülür. Odur ki, «xarici iqtisadi fəaliyyət hüququnun subyektləri» və «xarici iqtisadi fəaliyyətin subyektləri» məzmunca üst-üstə düşən eynimənalı anlayışlardır.

### 17.2.2. Xarici iqtisadi fəaliyyət hüququnun mənbələri

Xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi müvafiq **normativ hüquqi aktlar** vasitəsi ilə həyata keçirilir. Normativ hüquqi aktlar xarici iqtisadi fəaliyyət hüququnun əsas mənbə növüdür. Bu mənbə növündə elə hüquq normaları ifadə edilmiş və öz əksini tapmışdır ki, həmin normalar xarici iqtisadi fəaliyyətə aid vacib məsələləri tənzimləyir və müəyyənləşdirir. Belə məsələlərə aiddir: 1) xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsasları; 2) xarici ticarət fəaliyyəti sahəsində dövlətin (onun müvafiq orqanlarının) səlahiyyətləri; 3) xarici ticarət fəaliyyəti sahəsində dövlətin siyasi və iqtisadi maraqlarının müdafiəsi; 4) xarici ticarət fəaliyyəti sahəsində tətbiq edilən xüsusi xarakterli iqtisadi tədbirlər; 5) mallar idxal olunan zaman müdafiə, antidempinq və kompensasiya tədbirlərinin tətbiq edilməsi; 6) xarici iqtisadi fəaliyyətin valyuta tənzimetməsi; 7) xüsusi iqtisadi zonalarda xarici ticarət fəaliyyətinin rejimi; 8) ixrac nəzarəti və bu sahədə səlahiyyətli dövlət orqanlarının fəaliyyətinin hüquqi əsasları; 9) xarici iqtisadi fəaliyyət iştirakçılarının hüquq və vəzifələri; 10) xarici iqtisadi fəaliyyət iştirakçılarının məsuliyyəti; 11) gömrük tarifi və s. Bu kimi məsələləri tənzimləyən hüquq normaları həm qanunlarda, həm də qanunqüvvəli aktlarda (məsələn, Prezident aktlarında, Nazirlər Kabinetinin qərarlarında, İqtisadiyyat Nazirliyinin hüquqi sənədlərində və s.) nəzərdə tutulmuş və müəyyən edilmişdir. Məsələn, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi,

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının Qanunu və s. xarici iqtisadi fəaliyyət hüququnun mənbəyi olan normativ hüquqi aktlara misaldır.

**Beynəlxalq müqavilələr** xarici iqtisadi fəaliyyət hüququnun mənbə növlərindən biridir. Söhbət, hər şeydən əvvəl, Azərbaycan Respublikasının xarici ölkələrlə bağladığı **ikitərəfli beynəlxalq müqavilələrdən** gedir ki, bu müqavilələr xarici iqtisadi fəaliyyətin beynəlxalq-hüquqi tənzimlənməsinə aiddir; həmin müqavilələr xüsusilə də xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi rejimini müəyyənləşdirir. Hüquqi rejim xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi və idxal-ixrac əməliyyatlarının aparılması qaydalarının məcmusunu ifadə edir.

Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi həm də **çoxtərəfli beynəlxalq müqavilələr** vasitəsi ilə tənzimlənir. «Birləşmiş Millətlər Təşkilatının malların beynəlxalq alqı-satqısına dair müqavilələr haqqında» Konvensiyası (1980-ci il) belə sənədlərdən biridir; o, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində qısaca olaraq «Vyana Konvensiyası (1980-ci il)» kimi tanınır. Sözügedən konvensiya malların beynəlxalq alqı-satqı müqavilələrini tənzimləyir.[1] Burada beynəlxalq alqı-satqı müqavilələrinin tənzimlənməsinə həsr olunan unifikasiyalaşdırılmış maddi hüquq normaları nəzərdə tutulmuşdur.[2] Vyana Konvensiyası (1980-ci il) kompromis xarakterli elə bir sənəddir ki, bu sənəddə beynəlxalq alqı-satqı müqavilələrinin bağlanmasına aid hüquq normaları (kontinental və ingilis-amerikan hüquq ailəsinə dair müvafiq normalar) uyğunlaşdırılır.[3]

1988-ci ildə qüvvəyə minən Vyana Konvensiyasında dünyanın 66 dövləti iştirak edir. Məsələn, ABŞ, Fransa, İtaliya, Almaniya, Avstriya, İsveç və digər dövlətlər konvensiya iştirakçı-

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 418.

[2] Вилкова Н.Г. Договорное право в международном обороте. М., 2004, с. 165.

[3] Тынель А., Функ Я., Хвалей В. Курс международного торгового права. Учебник. Минск, 2000, с.224.

larıdır. Postsovet ölkələrindən Ruiya Federasiyası, Belarus, Gürcüstan, Moldova, Özbəkistan və Qırğızıstan konvensiyaya qoşulan dövlətlər sırasına daxildir; Azərbaycan Respublikası da həmin Vyana Konvensiyasında iştirak edir.[1]

Vyana Konvensiyasına (1980-ci il) əsasən, beynəlxalq alqı-satqı müqaviləsinin predmetini təşkil edən mal həm də sahibkarlıq (kommersiya) fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə istifadə edilməlidir. Konvensiyaya görə, xüsusi növ mal olan xidmət (nəqliyyat, maliyyə, turizm və digər xidmətlər) beynəlxalq alqı-satqı müqaviləsinin predmeti ola bilməz.

Adıçəkilən Vyana Konvensiyası (1980-ci il) giriş və dörd hissədən ibarətdir; həmin hissələr özündə 101 maddəni birləşdirir.

«Azad ticarət zonasının yaradılması haqqında» Saziş (Moskva, 1994-cü il) MDB üzvü olan ölkələr arasında bağlanmışdır. Sazişdə Belarus, Moldova, Rusiya Federasiyası və digər dövlətlər iştirak edir; Azərbaycan Respublikası da sazişi imzalayan ölkələrdən biridir.

Saziş MDB məkanında azad ticarət zonalarının yaradılması ilə bağlı məsələləri tənzimləyir; onun əsas cəhəti xüsusi rejim müəyyənləşdirməkdən ibarətdir. Əgər dövlət qarşılıqlı olma əsasında müqavilə iştirakçısı olan digər dövlətin fiziki və hüquqi şəxslərinə xarici iqtisadi fəaliyyəti həyata keçirmək üçün xüsusi hüquq verərsə, bu, xüsusi rejim müəyyənləşdirilməsini ifadə edir. Nəzərə almaq lazımdır ki, hər hansı dövlətin digər dövlətin fiziki və hüquqi şəxsləri üçün xüsusi rejim müəyyənləşdirməsi xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

**İşgüzar dövriyyə adətləri** xarici iqtisadi fəaliyyət hüququnun mənbə növlərindən biridir. Unutmaq olmaz ki, xarici iqtisadi fəaliyyətin, xüsusilə də onun əsas növü olan xarici ticarət fəaliyyətinin tənzimlənməsində işgüzar dövriyyə adətləri böyük rol oynayır. Misal kimi «İNKOTERMS»in adını çəkə bilə-

---

[1] *Bax:* Azərbaycan Respublikasının 01.02.2016-cı il tarixli 116-VQ nömrəli qanunu (AR QT. Bakı, 2016, № 2, II kitab, maddə 212).

rik ki, o, Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr olunur. «İNKOTERMS» ticarət terminlərinin izahının beynəlxalq qaydaları deməkdir.[1]

Beləliklə, xarici iqtisadi fəaliyyət hüququnun mənbə növləri aşağıdakılardan ibarətdir: normativ hüquqi aktlar, beynəlxalq müqavilələr, işgüzar dövriyyə adətləri.

### 17.2.3. Xarici iqtisadi fəaliyyət hüququnun özünəməxsus prinsipləri

Xarici iqtisadi fəaliyyət hüququnun özünəməxsus prinsipləri sırasına, ilk növbədə, **xarici iqtisadi fəaliyyət azadlığı prinsipi** aiddir. Bu prinsipə görə, təsərrüfat subyektləri xarici iqtisadi fəaliyyəti maneəsiz olaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirə bilərlər. Söhbət xarici iqtisadi fəaliyyətlə məşğulolma hüququna malik olan təsərrüfat subyektərindən gedir. Belə hüquqa malik olan həm fiziki, həm də hüquqi şəxslər xarici iqtisadi fəaliyyəti həyata keçirmək hüququndan sərbəst şəkildə istifadə, onu realizə edə bilərlər. Odur ki, fiziki və hüquqi şəxslər təsərrüfat subyekti kimi xarici iqtisadi fəaliyyətin bilavasitə iştirakçılarıdır.

**Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi prinsipi** xarici iqtisadi fəaliyyət hüququnun prinsiplərindən biridir. Bu prinsip öz ifadəsini bunda tapır ki, səlahiyyətli dövlət orqanları xarici iqtisadi fəaliyyətə nizamasalma formasında təsir göstərir, habelə həmin fəaliyyətin həyata keçirilməsinə nəzarət edir. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi Azərbaycan Respublikasının milli iqtisadiyyatının və ayrı-ayrı təsərrüfat subyektlərinin müdafiəsi, daxili bazarın qorunması, habelə təsərrüfat subyektlərinin (xarici iqtisadi fəaliyyət subyektlərinin) fəaliyyətini stimullaşdırmaq məqsədi ilə həyata keçirilir. Bu zaman, yəni xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi həyata keçirilərkən müxtəlif metodlardan istifadə edilir. Məsə-

---

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.117.

lən, ayrı-ayrı malların ixracına və ya idxalına nəzarət etmək (müşahidə etmək) və s. xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirməyin metodlarından biridir.

**Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinə dair hüquqi rejimin müəyyənləşdirilməsi prinsipi** də həmçinin xarici iqtisadi fəaliyyət hüququnun prinsiplərindən biri kimi tanınır. Bu prinsip öz ifadəsini bunda tapır ki, xarici iqtisadi fəaliyyət və ixrac-idxal əməliyyatları müəyyənləşdirilmiş qaydalar əsasında həyata keçirilir. Müəyyənləşdirilmiş belə qaydaların məcmusu hüquqi rejim adlanır. Hüquqi rejimin aşağıdakı növləri fərqləndirilir: milli rejim, ən əlverişli şərait rejimi, preferensial rejim, xüsusi rejim.

**Milli rejim** müəyyənləşdirilməsi bunu ifadə edir ki, xarici şəxslər (fiziki və hüquqi şəxslər) müəyyən dövlətin ərazisində iqtisadi fəaliyyətlə bağlı hüquqlardan həmin dövlətin şəxsləri (fiziki və hüquqi şəxsləri) ilə bərabər surətdə istifadə edirlər.[1] **Ən əlverişli şərait rejimi** bunu ifadə edir ki, beynəlxalq müqavilə tərəfi olan dövlət digər tərəfi (dövləti) iqtisadi fəaliyyət sahəsində elə güzəştli şərtlərlə təmin edir ki, həmin şərtlərdən istənilən üçüncü dövlət istifadə edir.[2] **Preferensial rejimə** görə, dövlət xarici iqtisadi fəaliyyət sahəsində inkişaf etməkdə olan dövlətin şəxslərinə (fiziki və hüquqi şəxslərinə) qarşılıqlı olmadan güzəşt və üstünlük verir (məsələn, gömrük ödənişləri, ticarət və digər sahələrdə).

**Xüsusi rejim** müəyyənləşdirilməsi bunu ifadə edir ki, dövlət qarşılıqlı olma əsasında beynəlxalq müqavilə iştirakçısı olan başqa dövlətin fiziki və hüquqi şəxslərinə xarici iqtisadi fəaliyyəti həyata keçirmək üçün xüsusi hüquq verir.

**Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi prinsipi** xarici iqtisadi fəaliyyət hüququnun digər prinsipidir. Bu prinsip öz ifadəsini bunda tapır ki, idxal və ixrac gömrük

---

[1] Богуславский М.М. Международное экономическое право. М., 1986, с.117.

[2] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.106.

rüsumları tətbiq etmək yolu ilə xarici iqtisadi fəaliyyətin, xüsusilə də xarici ticarət əməliyyatının dövlət tənzimlənməsi həyata keçirilir.[1] Unutmaq olmaz ki, gömrük-tarif tənzimlənməsi xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsas metodudur.

Xarici iqtisadi fəaliyyət hüququ həm də **milli iqtisadiyyatın qorunması prinsipindən** çıxış edir. Bu prinsipə görə, dövlət ölkə təsərrüfatını və daxili bazarı müdafiə etmək üçün müxtəlif tədbirlərdən istifadə edir. Tədbirlər dedikdə kvota, lisenziyalaşdırma, antidempinq rüsumu tətbiqetmə və s. başa düşülür.

## 17.3. Xarici iqtisadi fəaliyyəti dövlət tənzimetməsi

### 17.3.1. Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi həyata keçirilərkən bu və ya digər metod tətbiq edilir. Söhbət xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi metodlarından gedir ki, həmin metodlar qanunvericiliklə müəyyən olunur. Məhz qanunvericiliklə müəyyən edilən müxtəlif metodlar vasitəsi ilə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi həyata keçirilir. Xarici iqtisadi fəaliyyəti dövlət tənzimetmə metodları kifayət dərəcədə müxtəlifdir. Onlar bu və ya digər meyara (əsasa) görə ayrı-ayrı növlərə bölünür. Məsələn, iqtisadi tənzimetmə və inzibati tənzimetmə metodları, yaxud gömrük-tarif tənzimetmə və qeyri-tarif tənzimetmə metodları.

Xarici iqtisadi fəaliyyəti dövlət tənzimetmə metodları bunlardan ibarətdir: 1) gömrük-tarif tənzimetmə; 2) qeyri-tarif tənzimetmə; 3) ayrı-ayrı növ malların ixracının və ya idxalının müşahidə olunması; 4) malların bu və ya digər növünün ixrac və ya idxalının müstəsna hüquq ilə təmin edilməsi; 5) xüsusi müdafiə, antidempinq və kompensasiya tədbirlərinin tətbiq edilməsi; 6) ixrac nəzarəti və s.

**Gömrük-tarif tənzimlənməsi** xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin metodlarından biridir. Bu metod döv-

---

[1] *İdxal və ixrac rüsumları barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 291-295.

lətin xarici ticarət fəaliyyətinin tənzimlənməsində və nizama salınmasında vacib rol oynayır. Təsadüfi deyildir ki, həmin metod xarici ticarət münasibətlərini qaydaya salmağın əsas vasitəsi və dövlətin xarici ticarət siyasətini həyata keçirməyin başlıca aləti sayılır.[1]

Gömrük-tarif tənzimlənməsi metodu gömrük rüsumu tətbiq etmək yolu ilə həyata keçirilir. **Gömrük rüsumu** dedikdə dövlətin gömrük sərhədindən keçən anda idxal və ya ixrac olunan mallara görə pul formasında tutulan dövlət vergisi başa düşülür. Tutulan vergi dövlət büdcəsinə köçürülür ki, belə ödəniş dövlətin büdcə gəlir mənbələrindən biridir. Tutulan verginin dövlət büdcəsinə öbdənilməsi bunu ifadə edir ki, gömrük rüsumu **fiskal funksiyasını** yerinə yetirir. Gömrük rüsumu həm idxal, həm də ixrac olunan mallara görə ödənilir. Bu baxımdan, gömrük rüsumunun iki növü fərqləndirilir: idxal rüsumu, ixrac rüsumu. **İdxal rüsumu** dedikdə ölkəyə xaricdən gətirilən (idxal olunan) mallara görə alınan rüsum başa düşülür. **İxrac rüsumu** isə ölkədən xaricə aparılan (ixrac olunan) mallara görə alınan rüsumdur. Gömrük rüsumunun yerinə yetirdiyi fiskal funksiyası həm idxal, həm də ixrac rüsumunu əhatə edir.

Gömrük rüsumu həm də **müdafiə funksiyasını** yerinə yetirir.[2] Gömrük rüsumunun müdafiə funksiyası daxili bazarın, milli iqtisadiyyatın və yerli (milli) istehsalçıların (yerli iqtisadi fəaliyyət subyektlərinin) xarici rəqabətdən qorunmasını təmin edir. Fiskal funksiyasından fərqli olaraq, gömrük rüsumunun bu funksiyası yalnız idxal gömrük rüsumuna aid olunur. Belə ki, idxal gömrük rüsumu tətbiq etməklə dövlət daxili bazarı, milli iqtisadiyyatı və yerli istehsalçıları müdafiə edir.

Gömrük-tarif tənzimetmə metodu gömrük tarifinin tətbiqini nəzərdə tutur; hər bir dövlət öz milli gömrük tarifini müstəqil surətdə müəyyənləşdirir. Odur ki, praktiki olaraq, istənilən dövlətin öz gömrük tarifi vardır. Lakin gömrük ittifaqına daxil

---

[1] *Bu metod barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, § 7.5, s. 291-322.

[2] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.318.

olan dövlətlərdə vahid gömrük tarifi tətbiq olunur. Məsələn, gömrük ittifaqına daxil olan Rusiya Federasiyası, Belarus, Qazaxıstan, Tacikistan və digər dövlətlərdə vahid gömrük tarifindən istifadə edilir.

### 17.3.2. Xarici iqtisadi fəaliyyətin qeyri-tarif tənzimlənməsi

Xarici iqtisadi fəaliyyəti, xüsusən də xarici ticarət münasibətlərini tənzimləmək üçün gömrük-tarif metodu ilə yanaşı, qeyri-tarif tənzimetmə metodundan da istifadə edilir. **Qeyri-tarif tənzimetmə metodu** elə bir vasitədir ki, bu vasitəyə görə xarici ticarəti tənzimləmək üçün gömrük tarifindən istifadə olunmur. Gömrük tarifindən istifadə olunmamasına görə qeyri-tarif tənzimetmə metodunun tətbiqi ticarət, ümumiyyətlə, xarici iqtisadi fəaliyyət üçün başlıca maneədir. Odur ki, iqtisadi ədəbiyyat səhifələrində qeyri-tarif tənzimetmə metodu qeyri-tarif maneəsi adlandırılır.[1] **Qeyri-tarif maneəsi** dedikdə elə bir hərəkət başa düşülür ki, bu hərəkət idxal zamanı xarici malların milli bazara çıxarılmasını çətinləşdirir və ona maneə olur. Bu səbəbdən qeyri-tarif tənzimetmə metodunun tətbiqi xarici iqtisadi fəaliyyəti, o cümlədən idxal və ixrac əməliyyatlarının aparılmasını məhdudlaşdırır.[2]

**Kəmiyyətcə məhdudlaşdırma** qeyri-tarif tənzimetmə metodunun bir növüdür. Ümumi qaydaya görə, malların idxal və ixracı kəmiyyətcə məhdudlaşdırma olmadan həyata keçirilir. Lakin müəyyən hallarda daxili bazarda mal çatışmazlığının aradan qaldırılması üçün səlahiyyətli dövlət orqanları ixracı məhdudlaşdıra və ya qadağan edə bilər. Söhbət kəmiyyətcə məhdudlaşdırma metodunun tətbiqindən gedir.

Kəmiyyətcə məhdudlaşdırma dedikdə ölkəyə mal gətirilməsinə (idxala) və ölkədən mal aparılmasına (ixraca) hədd qoyul-

---

[1] Фомичев В.И. Международная торговля. Учебник. М., 2001, с.157.

[2] *Qeyri-tarif tənzimetmə metodu barədə ətraflı bax: məsələn,* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, § 7.6, s. 322-358.

ması başa düşülür ki, hədd qoymaqla idxal və ixrac məhdudlaşdırılır. Bu metoddan o halda istifadə olunur ki, idxal-ixrac əməliyyatlarının qarşısını almaq üçün gömrük rüsumu tətbiq etmək kimi effektiv vasitə kifayət etməsin.[1] Odur ki, kəmiyyətcə məhdudlaşdırma xarici ticarəti inzibati yolla tənzimetmə metodu kimi tanınır.

**Kontingentləşdirmə** kəmiyyətcə məhdudlaşdırma kimi qeyri-tarif tənzimetmə metodunun növlərindən biridir; həm də bu metoddan geniş səviyyədə istifadə olunur. Kontingentləşdirmə dedikdə müəyyən bir ölkədən digərinə mal gətirilməsinin (idxalının) kəmiyyətcə (çəki, say, həcm və s. baxımından) və ya məbləğcə müəyyən müddətə məhdudlaşdırılması başa düşülür. Bu kimi qeyri-tarif tənzimetmə metodunun əsasını idxal kontingenti təşkil edir. **İdxal kontingenti** dedikdə hər hansı ölkədən digərinə mal gətirilməsinə (idxala) hədd qoyulması başa düşülür. Bu metodu tətbiq etməklə müəyyənləşdirmək mümkün olur ki, hansı ölkədən nə qədər və hansı həcmdə mal (pul ifadəsi ilə və ya natural ifadə ilə – məsələn, neçə dollarlıq və yaxud manatlıq mal, neçə kub metr qaz, neçə barrel neft və s.) gətirilməli, idxal olunmalıdır.[2]

**Kvota müəyyənetmə** kəmiyyətcə məhdudlaşdırma qeyri-tarif metodunun növlərindən biridir. Bu metod dövlətin xarici ticarətinin (xarici iqtisadi fəaliyyətin) tənzimlənməsində vacib rol oynayır. Özü də kvota müəyyənetmə dövlətlərin xarici ticarət praktikasında ən geniş səviyyədə tətbiq olunan tənzimetmə metodudur.

Kvota müəyyənetmə dedikdə müəyyən ölkədən digər ölkəyə mal gətirilməsinə (idxala) və ya mal aparılmasına (ixraca) norma müəyyənləşdir-məklə pul-dəyər və ya natural ifadə ilə hədd qoyulması, idxal-ixrac əməliyyatlarının məhdudlaşdırılması başa düşülür.

---

[1] Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.129.

[2] *Bu metod barədə daha ətraflı:* Миришли Ф.Р. Мировая экономика. Учебник. М., 2004, с.210.

Mal ixracının və idxalının limitini müəyyənləşdirməkdən asılı olaraq kvotanın iki növü fərqləndirilir: idxal kvotası, ixrac kvotası. **İdxal kvotası** dedikdə müəyyən vaxt ərzində ölkəyə mal gətirilməsinin pul-dəyər və ya natural ifadəsi ilə məhdudlaşdırılması başa düşülür. **İxrac kvotası** isə müəyyən vaxt ərzində ölkədən mal aparılmasının pul-dəyər və ya natural ifadədə məhdudlaşdırılması başa düşülür; kvotanın bu növü mal ixracı zamanı müəyyənləşdirilən limitdir.

İxrac kvotasından yalnız o vaxt istifadə olunur ki, ölkədə bu və ya digər növ mala kəskin tələbat olsun, ehtiyac hiss edilsin (kəskin defisit). Odur ki, ixrac kvotası müəyyənləşdirilməsindən geniş səviyyədə istifadə olunmur. Belə ki, idxal kvotası tələb edildikdə və lazım gəldikdə tətbiq olunur.[1]

### 17.3.3. Xarici iqtisadi fəaliyyətin lisenziyalaşdırılması

Lisenziyalaşdırma xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin metodları sırasına aiddir. Belə ki, lisenziyalaşdırma qeyri-tarif tənzimetmə metodunun növlərindən biridir. Qeyri-tarif tənzimetmə metodunun bu növündən, adətən, xarici ticarətin dövlət tənzimlənməsi üçün istifadə olunur. Digər tərəfdən, lisenziyalaşdırma kimi metod xarici ticarət sahəsində malların idxalı və ixracı üzərində dövlət nəzarətinin həyata keçirilməsinə imkan verir. Onun sayəsində mal idxalına və ixracına dövlət nəzarətinin həyata keçirilməsi mümkün olur.

**Lisenziyalaşdırma** dedikdə xarici ticarət əməliyyatlarının tənzimlənməsinin elə bir inzibati proseduru başa düşülür ki, bu prosedur ayrı-ayrı növ malların idxalına və ya ixracına lisenziya kimi icazə sənədinin verilməsini nəzərdə tutur. Lisenziyanı xarici ticarət fəaliyyətini tənzimləyən səlahiyyətli dövlət orqanı verir. **Lisenziya** dedikdə konkret xarici ticarət əməliyyatları aparılması, habelə xaricə müəyyən həcmdə (həddə) mal göndərilməsi (ixrac olunması) və xaricdən mal gətirilməsi (idxal olunması) üçün verilən icazə sənədi başa düşülür.

---

[1] *Kvotanın digər növləri barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.331-332.

Mal idxalına və ya ixracına verilən icazədən asılı olaraq lisenziyanın iki növü fərqləndirilir: idxal lisenziyası, ixrac lisenziyası. **İdxal lisenziyası** dedikdə elə bir sənəd başa düşülür ki, bu sənəd əsasında xaricdən mal gətirilməsinə icazə verilir. **İxrac lisenziyası** isə xaricə mal aparılmasına icazə verilməsini nəzərdə tutur.

Xarici ticarət sahəsində lisenziyalaşdırma metodu aşağıdakı hallarda tətbiq olunur: 1) ayrı-ayrı növ malların idxalının və ya ixracının müvəqqəti olaraq kəmiyyətcə məhdudlaşdırılmasına zərurət yarandığı hallarda; 2) ayrı-ayrı növ malların idxal və ya ixracı dövlət təhlükəsizliyinə, vətəndaşların həyat və sağlamlığına, fiziki və ya hüquqi şəxslərin əmlakına, dövlət və yaxud bələdiyyə mülkiyyətinə, ətraf mühitə, bitki (flora) və ya heyvanlar (fauna) aləminin həyat və ya sağlamlığına pis (mənfi) təsir göstərdiyi hallarda.

Xarici ticarət praktikasında qeyri-tarif tənzimetmə metodunun həm də digər növlərindən istifadə olunur. Qeyri-tarif tənzimetmə metodunun digər növləri isə bunlardır: 1) **idxal depoziti** (idxal depoziti xaricdən mal almamışdan əvvəl idxalçının öz bank hesabına qoyduğu pul girovudur); 2) **subsidiya** (subsidiya ölkənin dövlət büdcə vəsaiti hesabına xarici ölkələrə mal göndərən müəssisələrə, əsasən, pul formasında göstərilən maliyyə yardımıdır); 3) **ticarətdə texniki maneə** (ticarətdə texniki maneə xaricdən ölkəyə gətirilən malların həmin ölkənin milli standartlarına uyğun olmasının, o cümlədən onların keyfiyyət və təhlükəsizlik baxımından yoxlanılmasıdır); 4) **sanitariya və fitosanitariya tədbirləri** [ölkənin səhiyyə orqanları və sanitar-baytarlıq strukturları tərəfindən müəyyənləşdirilən sanitariya və fitosanitariya tədbirləri əhalinin sağlamlığını, heyvanlar (fauna) və bitkilər (flora) aləmini, kənd təsərrüfatını mümkün risklərdən (məsələn, xəstə heyvan ətindən və digər risklərdən) qorumaq və müdafiə etmək məqsədinə xidmət edir ki, həmin tədbirlər kənd təsərrüfatı məhsullarına, yeyinti-ərzaq mallarına, dərmanlara, ətriyyat mallarına, kimyəvi preparatlara və digər predmetlərə münasibətdə tətbiq olunur].[1]

---

[1] Карро Д., Жюйар П. Международное экономическое право. Учебник. М., 2002, с.123.

# XVII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XVIII FƏSİL.*
# NƏQLİYYAT HÜQUQU

## 18.1. Nəqliyyat hüququnun anlayışı, nizamasalma predmeti və hüquq sistemində tutduğu yer

### 18.1.1. Nəqliyyat hüququ anlayışı

Müstəqil hüquq sahələrindən biri olan iqtisadi hüququn nizamasalma predmetinə müxtəlif növ iqtisadi münasibətlər daxildir. Nəqliyyat münasibətləri iqtisadi hüquqla tənzimlənən iqtisadi münasibətlərin növlərindən biridir ki, bu, təbii olub, heç də təsadüfi-süni xarakter daşımır. Nəqliyyat münasibətlərinin iqtisadi münasibətlərə aid olması bununla izah edilir ki, **nəqliyyat iqtisadiyyatın sahələrindən** biridir. Nəqliyyat iqtisadiyyatın elə bir sahəsidir ki, onsuz iqtisadiyyat nə öz funksiyasını normal həyata keçirə, nə də üzərinə düşən vəzifələri yerinə yetirə bilər. Təkcə bunu demək kifayətdir ki, malların istehsalına və ticarətinə yönələn iqtisadi proses məhz nəqliyyatın normal fəaliyyət göstərməsi sayəsində başa çatır; mallar nəqliyyatın köməyi ilə istehlakçılara (alıcılara) çatdırılır. Odur ki, nəqliyyat **iqtisadiyyatın infrastruktur hissəsidir**. İstehsalın ümumi şərti qismində çıxış edən nəqliyyat istehsal prosesinin həyata keçirilməsində əhəmiyyətli dərəcədə rol oynayır və iqtisadiyyatın xüsusi xarakterli sahəsi kimi tanınır.[1] Buna görə də nəqliyyat fəaliyyəti ilə bağlı yaranan ictimai münasbətlər – **nəqliyyat münasibətləri** iqtisadi münasibətlərin bir növüdür. Belə münasibətlərin, yəni nəqliyyat münasibətlərinin hüquqi tənzimlənməsi isə, təbii ki, iqtisadi hüquq vasitəsi ilə həyata keçirilməlidir. Bunun üçün iqtisadi hüququn tərkibində ayrıca

---

[1] Əliyev E.Ə. Nəqliyyat hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2004, s.7; Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı, 2005, s.3; Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s.31.

struktur hissə formalaşmış və ayrılmışdır ki, həmin hissə nəqliyyat hüququ adlanır.

**Nəqliyyat hüququ** dedikdə iqtisadi hüququn elə bir struktur hissəsi başa düşülür ki, bu hissə özündə iqtisadiyyat sahələrindən biri olan nəqliyyatın fəaliyyəti ilə bağlı yaranan ictimai münasibətləri – nəqliyyat münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir. Bu normalar vasitəsi ilə nəqliyyat sahəsində yaranan iqtisadi münasibətlər nizamlanır və qaydaya salınır. Unutmaq olmaz ki, iqtisadi münasibətlər həm də nəqliyyat sahəsində yaranır. İqtisadiyyatın ayrı-ayrı sahələrində (məsələn, kənd təsərrüfatı, energetika, ticarət və digər sahələrdə), o cümlədən nəqliyyat sektorunda əmələ gələn münasibətlər iqtisadi münasibətlərdir. Nəqliyyat sektorunda əmələ gələn münasibətlərin hüquqi tənzimlənməsi isə nəqliyyat hüququnun köməyi ilə həyata keçirilir.Nəqliyyat hüququnun yerinə yetirdiyi funksiyalardan biri də məhz bundan ibarətdir.

### 18.1.2. Nəqliyyat hüququnun nizamasalma predmeti

Nəqliyyat hüququnun **nizamasalma predmetini** iqtisadiyyatın nəqliyyat kimi sahəsində yaranan iqtisadi münasibətlər təşkil edir. Nəqliyyat isə iqtisadi əlaqələri təmin etməyin vacib vasitəsidir; nəqliyyatın köməyi ilə yük və sərnişinlər daşınaraq təyinat yerinə çatdırılır, mal ticarəti həyata keçirilir və digər işlər görülür.

Nəqliyyat müxtəlif mənalarda işlədilən anlayışdır. Birinci mənada nəqliyyat dedikdə **fəaliyyət** başa düşülür. Bu mənada nəqliyyat «nəqliyyat fəaliyyəti» anlayışı ilə əhatə olunur. **Nəqliyyat fəaliyyəti** isə iqtisadi fəaliyyətin növlərindən biridir. İqtisadi fəaliyyətin məhz bu növünün həyata keçirilməsi sayəsində yük və sərnişinlərin daşınması və təyinat yerinə çatdırılması təmin edilir.

Nəqliyyat fəaliyyəti müxtəlif növ nəqliyyat vasitələri ilə həyata keçirilir. Nəqliyyat vasitələri dedikdə isə aşağıdakılar başa düşülür: dəniz nəqliyyatı, su (çay) nəqliyyatı, hava nəqliyyatı,

dəmir yolu nəqliyyatı, avtomobil nəqliyyatı, boru kəməri nəqliyyatı.

İkinci mənada nəqliyyat dedikdə **xidmət** başa düşülür. Nəqliyyat bu mənada «nəqliyyat xidməti» anlayışı ilə əhatə olunur. **Nəqliyyat xidməti** malların (yüklərin) və sərnişinlərin daşınmasına yönələn hərəkətdir ki, maddi forması olmayan bu hərəkət şəxslərin (fiziki və hüquqi şəxslərin) istehlak tələbatını ödəyir.[1]

Nəqliyyat xidməti, qeyd etməliyik ki, xidmət növlərindən biridir. Xidmət isə iqtisadiyyatın sferalarına aid olunur. İqtisadiyyatın xidmət sferası ölkənin inkişaf göstəricilərindən biridir.

Xidmət növlərinin sayına gəldikdə, qeyd etmək lazımdır ki, xidmət müxtəlif növlərə bölünür. Ümumdünya Ticarət Təşkilatının qaydalarına görə, xidmətlərin bütövlükdə 160 növü (məsələn, təhsil xidməti, rabitə xidməti, tikinti xidməti, biznes xidməti və s.) fərqləndirilir ki, həmin növlər 12 bölmədə qruplaşdırılır.[2] Bunların içərisində beşi əsas xidmət növü sayılır:[3] 1) maliyyə xidməti; 2) telekommunikasiya xidməti; 3) nəqliyyat xidməti; 4) turizm və rekreasiya xidməti; 5) əmək xidməti.

Nəqliyyat xidməti bazarda alınıb-satılır. Xidmətin bu növü alqı-satqının obyekti qismində çıxış etdiyinə görə xüsusi xarakterli **əmtəə** sayılır.

Xidmətlərlə Ticarət üzrə Baş Sazişin (XTBS – QATS) təsnifat sənədində nəqliyyat xidmətləri nəqliyyatın növündən asılı olaraq aşağıdakı kimi fərqləndirilir: 1) dəniz nəqliyyatı xidməti; 2) su (çay) nəqliyyatı xidməti; 3) dəmir yolu nəqliyyatı xidməti; 4) hava nəqliyyatı xidməti; 5) avtomobil nəqliyyatı xidməti; 6) boru kəmər nəqliyyatı xidməti.[4]

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 479.

[2] Авдокушин Е.Ф. Международные экономические отношения. М., 1999, с.82.

[3] Карро Д., Жюйар П. Международное экономическое право. Учебник. М., 2002, с.264-265.

[4] *Ətraflı bax:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.365-372.

Nəqliyyat xidmətinə həm də yardımçı əməliyyatlar daxildir. Yardımçı əməliyyatlar isə bunlardır: nəqliyyat-ekspedisiya əməliyyatı, yükləmə-boşaltma işləri, anbar işləri, konteyner terminalı, yanacaqdoldurma və təcili təmir işləri.

### 18.1.3. İqtisadi hüquq sistemində nəqliyyat hüququnun tutduğu yer

İqtisadi hüququn struktur hissəsi olan nəqliyyat hüququ iqtisadi hüququn tərkibinə yarımsahə «statusu» ilə daxildir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, iqtisadi hüququn **xüsusi hissəsi** bir neçə yarımsahədən ibarətdir. Həmin yarımsahələrdən biri məhz nəqliyyat hüququ adlanır. Deməli, nəqliyyat hüququ iqtisadi hüququn yarımsahələrindən biridir. Belə fikir söylənilməsi üçün tutarlı arqumentlər və əsaslı dəlillər gətirmək mümkündür. Doğrudan da nəqliyyat hüququnun iqtisadi hüququn yarımsahəsi kimi tanınması üçün lazım olan və tələb edilən bütün şərtlər mövcuddur. Hər şeydən əvvəl, onu qeyd edə bilərik ki, nəqliyyat fəaliyyəti iqtisadi fəaliyyətin növlərindən biridir. Unutmaq olmaz ki, iqtisadi hüququn yarımsahələri iqtisadi fəaliyyətin növlərinə əsasən ayrılır. İqtisadi hüququn yarımsahələrinin funksiyası iqtisadi fəaliyyətin ayrı-ayrı növlərini tənzimləməkdən ibarətdir. İqtisadi hüququn yarımsahələrindən biri olan nəqliyyat hüququ məhz nəqliyyat fəaliyyətini tənzimləmək işini yerinə yetirir.

İqtisadi hüququn yarımsahələri müəyyən edilərkən həm də onun (iqtisadi hüququn) nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlərin növləri nəzərə alınır ki, bu münasibətlər təsərrüfat (iqtisadi) fəaliyyəti prosesində iqtisadi hüquq subyektləri arasında əmələ gəlir. Nəqliyyat münasibətləri iqtisadi hüququn nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlərin növlərindən biridir; iqtisadi münasibətlərin bu növünü tənzimləmək üçün isə iqtisadi hüququn yarımsahəsi olan nəqliyyat hüququ formalaşmışdır. Qeyd etdiyimiz kimi, iqtisadi münasibətlər həm də nəqliyyat sahəsində əmələ gəlir. İqtisadi hüququn yarımsahəsi kimi nəqliyyat hüququnun əsas təyinatı

da məhz nəqliyyat sahəsində yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsini təmin etməkdən ibarətdir.

Deyilənlərin məntiqi davamı və onlara əlavə olaraq həm də bunu qeyd etmək istərdik ki, beynəlxalq hüququn müstəqil sahələrindən biri olan beynəlxalq iqtisadi hüquq bir neçə yarımsahəyə ayrılır; beynəlxalq nəqliyyat hüququ həmin yarımsahələrdən biridir.[1] Madam ki, beynəlxalq nəqliyyat hüququna beynəlxalq iqtisadi hüququn yarımsahəsi kimi baxılır, onda tam əminliklə deyə bilərik ki, beynəlxalq nəqliyyat hüququnun beynəlxalq iqtisadi hüququn yarımsahəsi kimi tanınması özlüyündə iqtisadi hüququn tərkibində nəqliyyat hüququ yarımsahəsinin ayrılması üçün lazım olan arqument və dəlil rolunu oynayır. Odur ki, nəqliyyat hüququna iqtisadi hüququn yarımsahələrindən biri kimi yanaşmaq ağlabatan olub, məntiqəuyğundur. İqtisadi hüquq sistemində nəqliyyat hüququnun tutduğu yeri məhz bu cür müəyyənləşdirmək lazımdır.

## 18.2. Nəqliyyat hüququnun institutları, mənbələri və subyektləri

### 18.2.1. Nəqliyyat hüququnun institutları

İqtisadi hüququn yarımsahələrindən biri olan nəqliyyat hüququ aşağıda göstərilən bir neçə hüquq institutundan ibarətdir: hava nəqliyyatı hüququ, dəmir yolu nəqliyyatı hüququ, dəniz nəqliyyatı hüququ, avtomobil nəqliyyatı hüququ, su (çay) nəqliyyatı hüququ, boru kəmər nəqliyyat hüququ.

**Hava nəqliyyatı hüququ** dedikdə nəqliyyat hüququnun elə bir institutu başa düşülür ki, bu institut hava nəqliyyatı sahəsində əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq nor-

---

[1] *Məsələn, bax:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.520; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев, М., 2009, с.530; Международное право. Учебник / Под ред. А.Я.Капустина. М., 2008, с. 516; Бирюков П.В. Международное право. Учебное пособие. М., 2006, с. 632; Международное право. Учебник / Отв. ред. Г.В. Игнатенко, О.И.Тиунов. М., 2009, с.699 və b.

malarından ibarətdir. **Dəmir yolu nəqliyyatı hüququ** nəqliyyat hüququnun institutlarından biri olub, özündə dəmir yolu nəqliyyatının fəaliyyəti ilə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir. **Dəniz nəqliyyatı hüququ** nəqliyyat hüququnun elə bir institutudur ki, bu institutun tərkibinə şəxslərə (müştərilərə) dəniz nəqliyyatı xidməti göstərilməsi ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normaları daxildir. **Avtomobil nəqliyyatı hüququ** dedikdə nəqliyyat hüququnun elə bir institutu başa düşülür ki, bu instituta avtomobil nəqliyyatının fəaliyyəti ilə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq normaları aiddir. Müştərilərə (şəxslərə) həm də su (çay) nəqliyyatı xidməti göstərilir ki, bununla bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu **su (çay) nəqliyyatı hüququ** adlanır. Su (çay) nəqliyyatı hüququ nəqliyyat hüququnun institutlarından biridir.

Son zamanlar nəqliyyat hüququnun (o cümlədən beynəlxalq nəqliyyat hüququnun[1]) yeni bir institutu formalaşmışdır ki, bu institut «boru kəmər nəqliyyat hüququ» adı ilə tanınır. **Boru kəmər nəqliyyat hüququ** dedikdə xüsusi xarakterli nəqliyyat vasitəsi olan boru kəmərinin xidmət göstərməsi ilə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Beynəlxalq nəqliyyat hüququnda isə müvafiq institut beynəlxalq boru kəmər nəqliyyat hüququ adlanır.[2]

### 18.2.2. Nəqliyyat hüququnun mənbələri

Nəqliyyat hüququnun əsas mənbə növü **normativ hüquqi aktlar** sayılır. Söhbət nəqliyyat münasibətlərinin tənzimlənməsinə həsr olunan normativ hüquqi aktlardan gedir; belə aktların sistemi nəqliyyat qanunvericiliyi adlanır. **Nəqliyyat qanunvericiliyi** dedikdə nəqliyyat xidməti göstərilməsi ilə bağlı əmələ

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 518.
[2] Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2013, s. 440-472.

gələn ictimai münasibətləri tənzim edən normativ hüquqi aktların sistemi başa düşülür.[1]

Nəqliyyat qanunvericiliyinə, hər şeydən əvvəl, **qanunlar** daxildir. Söhbət, ilk növbədə, dövlətin əsas qanunu olan **Konstitusiyadan** gedir. Nəzərə almaq lazımdır ki, Konstitusiya bütün qanunvericilik sahələrinin, o cümlədən nəqliyyat qanunvericiliyinin normativ əsası və bazasıdır. Burada ifadə olunan bir sıra konstitusion hüquqi göstəriş və müddəanın nəqliyyat hüququ üçün mühüm əhəmiyyəti vardır. Məsələn, Konstitusiyanın 94-cü maddəsinin 1-ci hissəsinə görə, Milli Məclis müxtəlif məsələlərə dair ümumi qaydalar müəyyənləşdirə bilər ki, nəqliyyat işi bu məsələlərdən biridir.

Nəqliyyat qanunvericiliyinə daxil olan qanunlar içərisində nəqliyyat hüququnun mənbəyi olmaq baxımından aşağıdakılar mühüm əhəmiyyətə malikdir: «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi (2001-ci il), «Aviasiya haqqında» Azərbaycan Respublikasının Qanunu (2005-ci il), «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikasının Qanunu (2008-ci il), «Avtomobil yolları haqqında» Azərbaycan Respublikasının Qanunu (1999-cu il), «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il) və s.

Ölkənin ali iqtisadi qanunu – iqtisadi konstitusiyası sayılan Mülki Məcəllə haqqında ayrıca danışmaq lazımdır. **Mülki Məcəllə** nəqliyyat qanunvericiliyinin əsas aktlarından biridir; onun 842-ci–861-ci maddələri nəqliyyat daşıma xidməti göstərilməsi ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsinə həsr edilmişdir.

Nəqliyyat qanunvericiliyinə həm də **qanunqüvvəli aktlar** daxildir. Söhbət, hər şeydən əvvəl, qanunqüvvəli aktların əsas növü olan **Prezident fərmanlarından** gedir ki, onlar nəqliyyat fəaliyyəti ilə bağlı münasibətlərin tənzimlənməsində vacib rol

---

[1] Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı, 2005, s. 28.

oynayır. Məsələn, sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı müəyyən edilir ki, həmin siyahı ölkə ərazisində Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə tətbiq edilmişdir. Bu siyahıya həm də mülki aviasiya və dəniz nəqliyyatı sahəsində verilən sənədlər daxildir.[1]

Nəqliyyat fəaliyyəti ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsində **Nazirlər Kabinetinin qərarlarının** da əhəmiyyəti böyükdür ki, həmin aktlar qanunqüvvəli aktlar sırasına aiddir. Məsələn, Nazirlər Kabineti özünün müvafiq qərarları ilə ayrı-ayrı nəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması qaydalarını təsdiq etmişdir: «Təhlükəli yüklərin dəniz nəqliyyat ilə daşınması Qaydaları» (2000-ci il), «Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları» (2000-ci il), «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları» (2000-ci il), «Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları» (2000-ci il) və s.

Bunlardan başqa, Nazirlər Kabineti həm də ayrı-ayrı nəqliyyat vasitələri ilə yük, sərnişin və baqaj daşınması qaydalarını təsdiq etmişdir. Məsələn, Nazirlər Kabineti özünün 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı ilə «Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları»nı təsdiq etmişdir; onun eyni tarixli 142 nömrəli qərarı ilə «Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları» da təsdiq olunmuşdur və s.[2]

Nəqliyyat hüququnun mənbə növlərindən biri **beynəlxalq müqavilələrdir**. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr nəqliyyat qanunvericiliyinin tərkib hissəsidir. Nəqliyyat fəaliyyəti ilə bağlı münasibətlər həm də belə müqavilələrlə tənzimlənir. Nəqliyyat sahəsində bağlanan dövlətlərarası bey-

---

[1] *Bax:* «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının 15.03.2016-cı il tarixli 176–VQ nömrəli Qanunu; bu qanun 2016-cı il iyunun 1-dən qüvvəyə minmişdir // URL:http: //www.e-qanun.az – 07.07.2018-ci li).
[2] AR QT. Bakı, 2009, № 9, maddə 745, 746.

nəlxalq müqavilələr **beynəlxalq nəqliyyat sazişləri** və ya **nəqliyyat konvensiyaları** adlanır.[1] Bağlanma formasına görə **çoxtərəfli** olan belə saziş və konvensiyalar vasitəsilə nəqliyyatın ayrı-ayrı növlərində yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Azərbaycan Respublikasının iştirakçısı olduğu bu kimi saziş və konvensiyalara misal kimi göstərmək olar: «Beynəlxalq hava daşımalarına aid bəzi qaydaların unifikasiyası üçün» Varşava Konvensiyası (1929-cu il), «Beynəlxalq Mülki Aviasiya haqqında» Çikaqo Konvensiyası (1944-cü il), «Beynəlxalq dəmir yolu ilə yük əlaqələri haqqında» Saziş (bu saziş Rusiya Federasiyası və MDB üzvü olan digər ölkələr arasında həyata keçirilən beynəlxalq dəmir yolu daşımalarını tənzim edir),[2] «Beynəlxalq yük daşınması müqaviləsi haqqında» Cenevrə Konvensiyası (1956-cı il), «BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında» Gömrük Konvensiyası (1959-cu il) və s.[3]

Nəqliyyat sahəsində iqtisadi münasibətlər həm də **ikitərəfli beynəlxalq nəqliyyat sazişləri (konvensiyaları)** ilə tənzimlənir. Azərbaycan Respublikası nəqliyyatın ayrı-ayrı növləri üzrə müxtəlif xarici ölkələrlə (məsələn, Türkiyə, Ukrayna, Gürcüstan, İran, Rusiya Federasiyası, Moldova, Latviya və digər dövlətlərlə) çoxsaylı ikitərəfli sazişlər bağlamışdır.[4]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəqliyyat qanunvericiliyi (qanun və qanunqüvvəli aktlar) arasında ziddiyyət yarana bilər. Belə halda beynəlxalq müqavilələrin müəyyənləşdirdiyi qaydalar tətbiq olunur.

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.523.

[2] *Həmin saziş barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı. 2008, s. 533.

[3] *Bu sazişlər barədə daha ətraflı:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 99-107 və s.

[4] *Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2013, s. 172, 219, 309, 417 və s.

### 18.2.3. Nəqliyyat hüququnun subyektləri

Nəqliyyat fəaliyyəti ilə bağlı yaranan ictimai münasibətlərin potensial (mümkün) iştirakçıları **nəqliyyat hüququnun subyektləri** adlanır. Nəqliyyat müəssisəsi nəqliyyat hüququnun əsas subyektidir. **Nəqliyyat müəssisəsi** dedikdə qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması, texniki xidmət və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxs başa düşülür; onun əsas işi nəqliyyat sahəsində fəaliyyət göstərməkdən, yük və sərnişinlərin daşınmasını həyata keçirməkdən ibarətdir. **Nəqliyyat** isə Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış daşınma vasitələridir ki, onların köməyi ilə yük və sərnişinlər təyinat yerinə çatdırılır. Nəqliyyatın əsas növləri aşağıdakılardır: 1) dəmir yolu nəqliyyatı; 2) avtomobil nəqliyyatı; 3) dəniz nəqliyyatı; 4) hava nəqliyyatı; 5) daxili su (çay) nəqliyyatı. Bundan, yəni nəqliyyat vasitələrindən asılı olaraq nəqliyyat müəssisələrinin də ayrıca növləri fərqləndirilir: 1) dəmir yolu nəqliyyatı müəssisəsi; 2) avtomobil nəqliyyatı müəssisəsi; 3) dəniz nəqliyyatı müəssisəsi; 4) hava nəqliyyatı müəssisəsi; 5) daxili su (çay) nəqliyyatı müəssisəsi.

Nəqliyyat vasitələrinə malik olan şəxs daşıyıcı adlanır. **Daşıyıcı** dedikdə haqqı ilə yük, sərnişin, baqaj və poçt daşımaları üzrə xidmətlər göstərən şəxs başa düşülür; həm hüquqi, həm də fiziki şəxslər daşıyıcı funksiyasını yerinə yetirə bilərlər. Onlar daşıma xidməti göstərmək üçün, hər şeydən əvvəl, qanuni əsaslarla nəqliyyat vasitələrinə malik olmalıdırlar. Qanuni əsaslar isə bunlardır: mülkiyyət hüququ, icarə hüququ və s. Məsələn, daşıyıcı öz mülkiyyətində olan nəqliyyat vasitəsindən istifadə edərək daşıma fəaliyyəti ilə məşğul ola bilər. Daşıyıcı funksiyasını yerinə yetirən şəxs həm də başqasının mülkiyyətində olan nəqliyyat vasitəsini icarəyə götürüb, daşıma xidməti göstərə bilər və s.

Nəqliyyat fəaliyyəti ilə bağlı münasibətlərdə subyekt qismində həm də müştəri çıxış edir. Odur ki, müştəri nəqliyyat

hüququnun subyekti sayılır. **Müştəri** dedikdə nəqliyyatdan istifadə edən şəxs başa düşülür ki, həmin şəxs nəqliyyatın göstərdiyi xidmətin istehlakçısıdır. Həm yük sahibi (yükgöndərən), həm yükalan, həm də sərnişin qismində müştərilər nəqliyyat münasibətlərində iştirak edə bilərlər; müştərinin həmçinin icarəçi kimi nəqliyyatdan istifadə etməsi də mümkündür.

Mülkiyyət formasından asılı olaraq nəqliyyat müəssisələrinin üç növü fərqləndirilir: 1) dövlət nəqliyyat müəssisəsi; 2) bələdiyyə nəqliyyat müəssisəsi; 3) xüsusi (özəl) nəqliyyat müəssisəsi. Bütün nəqliyyat mülkiyyətçiləri bərabər hüquqlara malikdir. Müdafiə olunmaq məsələsində onlardan heç birinə üstünlük verilmir; əksinə, nəqliyyat qanunvericiliyi bütün nəqliyyat mülkiyyətçilərinin eyni səviyyədə müdafiə olunmasını müəyyənləşdirir.

Nəqliyyat müəssisəsi və daşıyıcı nəqliyyat hüququnun elə subyektlərindəndir ki, onlar bilavasitə nəqliyyat fəaliyyəti ilə məşğul olurlar. Lakin nəqliyyat hüququnun subyektləri təkcə bunlarla, yəni bilavasitə nəqliyyat fəaliyyəti ilə məşğul olan şəxslərlə məhdudlaşmır. Belə ki, nəqliyyat sahəsində dövlət tənzimlənməsi həyata keçirilir. Bu zaman **Azərbaycan Respublikası (dövlət)** nəqliyyat hüququnun subyekti qismində çıxış edir. Düzdür, nəqliyyat sahəsində dövlət tənzimlənməsi ilə bağlı münasibətlərdə dövlət bilavasitə özü iştirak etmir. Nəqliyyat münasibətlərində subyekt qismində, məsələn, **Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** çıxış edir ki, bu, mərkəzi icra hakimiyyəti orqanlarından biridir.

Nəqliyyat sahəsində həm də dövlət idarəetməsi həyata keçirildiyi halda Azərbaycan Respublikası (dövlət) nəqliyyat hüququnun subyekti kimi tanınır. «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi nəqliyyat sahəsində dövlət idarəetməsinin əsas vasitələrini müəyyənləşdirir.

### 18.2.4. Nəqliyyat hüququnun özünəməxsus prinsipləri

Nəqliyyat hüququ öz funksiyalarını özünəməxsus prinsiplər əsasında həyata keçirir və yerinə yetirir. **Nəqliyyat xidmətinin**

**müqavilə əsasında istehlak olunması prinsipi** bu prinsiplərdən biridir. Adıçəkilən prinsipə görə, müştəri, yəni yükgöndərən, yükalan və sərnişin nəqliyyat vasitələrindən müqaviləyə uyğun istifadə edir. Söhbət nəqliyyat müqavilələrindən gedir; nəqliyyat müqavilələri isə daşıyıcı və müştəri arasında bağlanır.[1] Bu müqavilələr daşıma şərtlərini və digər məsələləri müəyyənləşdirir.

**Nəqliyyat fəaliyyətinin dövlət tənzimlənməsi prinsipi** də nəqliyyat hüququnun prinsipləri sırasına aiddir. Bu prinsip iqtisadi hüququn iqtisadiyyatın dövlət tənzimlənməsi kimi sahəvi prinsipinin nəqliyyat sahəsində ifadə olunmasıdır. Axı nəqliyyat iqtisadiyyatın sahələrindən biridir. Nəqliyyat sahəsində dövlət tənzimlənməsi hüquqi təminat, vergiqoyma, maliyyələşdirmə, qiymətqoyma, investisiya və vahid elmi-texniki siyasətin həyata keçirilməsi vasitəsi ilə yerinə yetirilir.

**Nəqliyyat müəssisələrinin təsərrüfat fəaliyyətinə müdaxilənin yolverilməzliyi prinsipi** nəqliyyat hüququnun əsaslandığı prinsiplərdən biridir. Bu prinsipə görə, dövlət hakimiyyət və bələdiyyə orqanları nəqliyyat müəssisələrinin iqtisadi-təsərrüfat fəaliyyətinə qarışa bilməzlər. Nəqliyyat müəssisələrinin həmçinin qanunla onların fəaliyyətinə aid edilməyən işlərin görülməsinə məcbur edilmələrinə yol verilmir. Dövlət və bələdiyyə orqanları yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda nəqliyyat müəssisələrinin iqtisadi-təsərrüfat fəaliyyətinə müdaxilə edə bilərlər.

Nəqliyyat hüququ həm də belə bir prinsipdən çıxış edir ki, **bütün nəqliyyat müəssisələrinin iqtisadi-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün bərabər şərait təmin edilir.** Bu prinsipə görə, mülkiyyət növündən (formasından) asılı olmayaraq dövlət, bələdiyyə və xüsusi (özəl) nəqliyyat müəssisələrinə öz iqtisadi-təsərrüfat fəaliyyətini həyata keçirməkdən ötrü eyni

---

[1] Nəqliyyat müqavilələri barədə daha ətraflı: Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı, 2005, s.11.

cür şərait yaradılır və onlardan hər hansı birinə üstünlük verilmir.

Bunlardan başqa, nəqliyyat hüququ **digər prinsiplər** də müəyyənləşdirir: nəqliyyat təhlükəsizliyinin təmin edilməsi prinsipi, nəqliyyat məsələləri ilə bağlı dövlətin iqtisadi maraqlarının qorunması prinsipi, nəqliyyat müəssisələrinin və nəqliyyat xidməti istehlakçılarının qanuni mənafe və hüquqlarının müdafiəsi prinsipi, nəqliyyat xidmətləri bazarında nəqliyyat kompleksinin fəaliyyətinin səmərəliliyinin artırılması prinsipi, nəqliyyat kompleksinin təhlükəsiz, effektiv və ahəngdar işinin təmin edilməsi prinsipi, nəqliyyatda inhisar fəaliyyətinin məhdudlaşdırılması prinsipi, rəqabətin inkişafı üçün zəruri tədbirlərin görülməsi prinsipi və s.

## 18.3. Nəqliyyat hüququnun ayrı-ayrı institutları

### 18.3.1. Hava nəqliyyatı hüququ

Hava nəqliyyatı nəqliyyat vasitələrindən biridir. Nəqliyyatın bu növündən istifadə edilməklə həm yüklər, həm də sərnişinlər daşınır. Hava nəqliyyatı ölkənin nəqliyyat sistemində vacib rol oynayır. Onun ölkənin nəqliyyat sistemində əhəmiyyəti bununla müəyyən olunur və şərtlənir ki, hava nəqliyyatı bir sıra **texniki-iqtisadi üstünlüyə** malikdir. Hava nəqliyyatının texniki-iqtisadi üstünlüyü, hər şeydən əvvəl, bundan ibarətdir ki, o, təbii hava yollarından istifadə etməklə daşıma fəaliyyətini həyata keçirir. Belə yollar «nəqliyyat dəhlizi» rolunu oynayır. Təbii hava yolları isə tikilmir və bu səbəbdən hər hansı xərc çəkilməsini tələb etmir.

Hava nəqliyyatının ikinci texniki-iqtisadi üstünlüyü bundan ibarətdir ki, o, yük və sərnişinləri tez bir zamanda mənzil başına daşıyır. Belə ki, hava nəqliyyatı yük və sərnişinlərin təyinat yerinə yüksək sürətlə çatdırılmasını təmin edən nəqliyyat vasitəsidir.

Üçüncü, quru və su daşımalarına nisbətən hava nəqliyyatı yük və sərnişinləri təyinat yerinə xeyli qısaldılmış marşrutla çatdırır; bunun nəticəsində vaxta qənaət olunur. Aydın bir hə-

qiqətdir ki, hava daşımalarının məsafəsi quru və su kommunikasiyalarına nisbətən müqayisəedilməz dərəcədə qısadır.

Bunlardan başqa, hava nəqliyyatının digər texniki-iqtisadi üstünlükləri vardır: 1) hava uçuşlarının həyata keçirilməsi fiziki-coğrafi yer şəraitindən az asılıdır; 2) hava nəqliyyatı ilə uçuşlar alternativ marşrutlar, müştərilərin rahatlığı üçün müxtəlif reyslər əsasında müntəzəm surətdə həyata keçirilir; 3) hava nəqliyyatı yük və sərnişinləri dünyanın istənilən uzaq yerinə çatdırmaq qabiliyyətinə malikdir və s.

Hava nəqliyyatının fəaliyyəti ilə bağlı iqtisadi münasibətlər yaranır ki, həmin münasibətlər hava nəqliyyatı hüququ ilə nizama salınır. **Hava nəqliyyatı hüququ** dedikdə hava nəqliyyatının fəaliyyəti ilə əlaqədar əmələ gələn iqtisadi münasibətləri tənzimləyən müvafiq hüquq normalarının sistemi başa düşülür. İnstitut kimi hava nəqliyyatı hüququnun yerinə yetirdiyi əsas funksiya da məhz bu münasibətləri tənzimləməkdən ibarətdir.

Hava nəqliyyatı hüququnun vacib və mühüm **mənbəyi** «Aviasiya haqqında» Azərbaycan Respublikasının Qanunudur (2005-ci il). Bu qanunun qüvvəyə minməsi ilə Azərbaycan Respublikasının Hava Məcəlləsi (1994-cü il) qüvvədən düşmüşdür. Azərbaycan Respublikasının hava məkanından istifadə olunması ilə bağlı münasibətlər məhz bu qanunla tənzimlənir. Sözügedən qanun həm də aviasiya sahəsində həyata keçirilən fəaliyyətin ümumi prinsiplərini müəyyənləş-dirir. Odur ki, həmin qanun aviasiya haqqında qanunvericiliyin əsas aktı sayılır. Nəzərdən qaçırmaq olmaz ki, aviasiya haqqında qanunvericilik «Aviasiya haqqında» Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir. Aviasiya haqqında qanunvericiliyə habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir («Aviasiya haqqında» Qanunun 2-ci maddəsi).

Hava nəqliyyatı hüququnun **prinsiplərinə** gəldikdə, qeyd etməliyik ki, bu prinsiplər öz normativ ifadəsini «Aviasiya haqqında» Azərbaycan Respublikası Qanununun bu və ya digər maddələrində tapmışdır. **Hava məkanı üzərində dövlətin suverenliyi prinsipi** bunlardan biridir. Bu prinsipə görə, Azər-

baycan Respublikasının ərazisi üzərindəki hava məkanında dövlət tam və müstəsna suverenliyə malikdir. Axı Azərbaycan Respublikasının ərazisi üzərindəki hava məkanı onun, yəni Azərbaycan Respublikasının ərazisinin tərkib hissəsidir. Hava məkanı isə Azərbaycan Respublikasının ərazisi, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus sektoru və daxili suları üzərindəki hava sahəsidir.

**Aviasiya təhlükəsizliyi prinsipi** hava nəqliyyatı hüququnun digər prinsipidir. Bu prinsipə görə, aviasiyanı qanunsuz müdaxilə aktlarından qorumaq üçün kompleks xarakterli tədbirlər görülür. Aviasiya dedikdə elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət hava gəmisindən hava yolu vasitəsilə istifadə olunmasını və bunun üçün lazımi şəraitin yaradılmasını təmin edir. Aviasiya təhlükəsizliyi həm də insan və material resurslarının qorunması üçün zəruri tədbirlərin görülməsini nəzərdə tutur. Hava gəmisi isə hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qala bilən uçuş aparatıdır.

**Hava daşımalarının həyata keçirilməsi prinsipi** də hava nəqliyyatı hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, müəyyən haqq müqabilində hava gəmisi ilə sərnişin, baqaj və yüklər, habelə poçt göndərişləri təyinat yerinə çatdırılır. Bundan ötrü ardıcıl olaraq uçuşlar həyata keçirilir ki, belə uçuşlar hava daşımalarını yerinə yetirmək məqsədinə xidmət edir. Hava daşımaları məqsədilə ardıcıl olaraq uçuşlar həyata keçirilməsi isə hava əlaqələri adlanır.

**Hava daşımalarının müqavilə əsasında həyata keçirilməsi prinsipi** də həmçinin hava nəqliyyatı hüququnun prinsipi kimi tanınır. Daşıma müqavilələri qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanılır. Əgər hava nəqliyyatı vasitəsi ilə yüklər təyinat yerinə çatdırılarsa, belə halda yük daşıma müqaviləsi bağlanır. Yük daşıma müqaviləsinin bağlanması isə yükgöndərənin verdiyi **aviaqaimə** və ya daşıyıcının verdiyi **yük qəbzi** ilə rəsmiləşdirilir.

Hava nəqliyyatı vasitəsi ilə baqaj daşınması **baqaj qəbzi** əsasında yerinə yetirilir. Baqaj qəbzi daşıyıcı tərəfindən verilir.

Bu, elə bir sənəddir ki, baqajın qeydiyyata götürüldüyünü sübut edir; baqaj qəbzi həm də daşıma şərtlərini əks etdirir.

Hava nəqliyyatı ilə sərnişin daşınması isə **sərnişin bileti** əsasında həyata keçirilir. Sərnişin bileti sərnişin daşınmasını rəsmiləşdirən sənəddir. Bu sənəd sərnişinə daşıyıcı tərəfindən verilir.

Hava nəqliyyatı hüququ həm də **aviasiya hadisələrinə yol verilməməsi prinsipindən** çıxış edir. Bu prinsipə görə, aviasiya hadisələrinin qarşısını almaq üçün lazımi qabaqlayıcı tədbirlər görülür. **Aviasiya hadisəsi** uçuş məqsədi ilə hava gəmisinə bütün şəxslərin mindiyi andan hava gəmisini tərk etdiyi anadək hava gəmisinin zədələnməsi və ya konstruksiyasının dağılması, itməsi və ya tamamilə əlçatmaz yerə düşməsi nəticəsində hər hansı şəxsin ölümü və ya bədən xəsarəti alması ilə bağlı hadisədir.

Aviasiya hadisəsini aviasiya insidentindən fərqləndirmək lazımdır. **Aviasiya insidenti** aviasiya hadisəsi ilə nəticələnməyən, hava gəmisinin istifadə olunması ilə bağlı olan, istismar təhlükəsizliyinə mənfi təsir göstərən və ya göstərə bilən hadisədir.

Hava nəqliyyatı hüququ həm də **uçuşların təhlükəsizliyi pinsipini** müəyyənləşdirir. Bu prinsipə görə, reyslər (uçuşlar) aviasiya qəzaları və insident-ləri baş vermədən, insanların həyat və sağlamlığına, habelə əmlakına zərər vurulmadan və bütövlükdə hər hansı narahatçılığa yol verilmədən həyata keçirilir.

Uçuşlar aviasiyanın müxtəlif növləri vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikasında aviasiyanın iki əsas növü fərqləndirilir: 1) mülki aviasiya; 2) dövlət aviasiyası. **Mülki aviasiya** dedikdə iqtisadiyyatın, əhalinin, o cümlədən ayrı-ayrı şəxslərin ehtiyaclarının ödənilməsi və xüsusi xarakterli aviasiya fəaliyyətinin həyata keçirilməsi üçün nəzərdə tutulan aviasiya başa düşülür. Kommersiya mülki aviasiyası onun bir növüdür. Əgər mülki aviasiya gəmisi müəyyənləşdirilmiş haqq müqabi-

lində sərnişin, baqaj, yük və poçt daşıyarsa, belə aviasiya **kommersiya mülki aviasiyası** hesab edilir.

**Dövlət aviasiyasına** gəldikdə, qeyd etməliyik ki, dövlət orqanlarının ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan aviasiya **dövlət aviasiyasıdır**. Dövlət orqanları dedikdə dövlət təhlükəsizlik, daxili işlər, sərhəd xidməti, gömrük və s. qurumlar başa düşülür. Dövlət aviasiyası həm də hərbi ehtiyacların ödənilməsi üçün nəzərdə tutulan aviasiyadır.

Hava nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətlərin mümkün (potensial) iştirakçıları hava nəqliyyatı hüququnun **subyektləri** sayılır. Belə subyektlərə aşağıdakılar aiddir: aviasiya müəssisələri, daşıyıcı, müştəri.

### 18.3.2. Avtomobil nəqliyyatı hüququ

«Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə, nəqliyyat vasitələrinin növlərindən biri avtomobil nəqliyyatı hesab olunur. **Avtomobil nəqliyyatı** dedikdə yük və sərnişinlərin elə daşınma vasitələri başa düşülür ki, həmin vasitələr Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınırlar. Avtomobil nəqliyyatının fəaliyyəti ilə bağlı müəyyən iqtisadi münasibətlər əmələ gəlir ki, bu münasibətlər avtomobil nəqliyyatı hüququ ilə tənzimlənir. Həmin münasibətləri nizama salmaq avtomobil nəqliyyatı hüququnun əsas funksiyası sayılır. Avtomobil nəqliyyatı hüququ nəqliyyat hüququnun institutlarından biridir.

**Avtomobil nəqliyyatı hüququ** dedikdə avtomobil nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Normativ xarakterə və əhəmiyyətə malik olan bu normalar avtomobil nəqliyyatı haqqında qanunvericilikdə ifadə olunmuşdur. **Avtomobil nəqliyyatı haqqında qanunvericilik** isə Konstitusiyadan, Mülki Məcəllədən, «Nəqliyyat haqqında» Qanundan, «Avtomobil nəqliyyatı haqqında» Qanundan və avtomobil nəqliyyatı sahəsini tənzimləyən digər normativ hüquqi aktlardan, habelə Azər-

baycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Buraya daxil olan hüquqi aktlar avtomobil nəqliyyatı hüququnun **mənbəyidir**. Söhbət, hər şeydən əvvəl, **«Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikası Qanunundan** (2008-ci il) gedir ki, bu qanun Azərbaycan Respublikası ərazisində avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Avtomobil nəqliyyatı sahəsində dövlət orqanları, daşıyıcılar və avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə xidmətlərin istehlakçıları arasında yaranan münasibətlər də həmçinin həmin qanunla tənzimlənir. Buna görə «Avtomobil nəqliyyatı haqqında» Qanun avtomobil nəqliyyatı haqqında qanunvericiliyin əsas aktı hesab olunur.

Avtomobil nəqliyyatı vasitələri avtomobil yolu ilə hərəkət edir. Avtomobil yolu avtomobil nəqliyyatı vasitələrinin bütün il boyu fasiləsiz, təhlükəsiz və rahat hərəkətini təmin edən konstruksiya və mühəndis qurğuları sistemidir. Avtomobil yolları ilə bağlı yaranan ictimai münasibətlər isə «**Avtomobil yolları haqqında» Azərbaycan Respublikasının Qanunu** ilə (1999-cu il) tənzimlənir. Bu qanun avtomobil nəqliyyatı hüququnun mənbəyi sayılır.

Qanunlardan başqa, **qanunqüvvəli aktlar** da avtomobil nəqliyyatı hüququnun mənbəyidir. Söhbət, ilk növbədə, **Prezident fərmanlarından** və **Nazirlər Kabinetinin qərarlarından** gedir ki, belə qərarlar qanunqüvvəli aktların növlərindən biridir. Məsələn, Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli iki qərarı ilə aşağıda göstərilən qaydalar təsdiq olunmuşdur: 1) «Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları» (141 nömrəli qərar); 2) «Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları» (142 nömrəli qərar).

Avtomobil nəqliyyatı haqqında qanunvericiliyə, qeyd etdiyimiz kimi, həm də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir. Nəzərdən qaçırmaq olmaz ki, **beynəlxalq müqavilələr** avtomobil nəqliyyatı hüququnun mənbəyi hesab olunur. **«Beynəlxalq yük daşınması müqaviləsi**

**haqqında» Konvensiya** belə müqavilələrdən biridir. 1956-cı ildə Cenevrə şəhərində imzalanan həmin konvensiya 1961-ci ildə qüvvəyə minmişdir. Konvensiya beynəlxalq avtomobil daşımalarını tənzimləyən əsas beynəlxalq-hüquqi akt hesab olunur; 2000-ci ildən Azərbaycan Respublikası sözügedən konvensiyanın üzvüdür.[1]

Azərbaycan Respublikası həm də «**BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında» Gömrük Konvensiyasına** qoşulmuşdur ki, həmin konvensiya 1959-cu ildə imzalanmış, 1975-ci ildə yeni redaksiyada qəbul edilmiş və 1978-ci ildən qüvvəyə minmişdir. Azərbaycan Respublikası 1996-cı ildən adıçəkilən Gömrük Konvensiyasının iştirakçısıdır.

Gömrük Konvensiyası beynəlxalq avtomobil daşımaları zamanı gömrük prosedurunu tənzimləyir, belə daşımaların gömrük rejimini müəyyən edir. Konvensiya Beynəlxalq Yol Daşıma Kitabçasının tətbiq olunmasını nəzərdə tutur ki, ona ingiliscə «TIR» (Transport International Routine) deyilir.

Beynəlxalq avtomobil daşımaları sahəsində həm də **ikitərəfli sazişlər** bağlamaq praktikasından istifadə olunur ki, həmin sazişlər avtomobil nəqliyyatı hüququnun mənbəyidir. Azərbaycan Respublikası Türkiyə, İran, Rusiya Federasiyası, Ukrayna, Moldova, Latviya və digər ölkələrlə avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsində ikitərəfli hökumətlərarası sazişlər bağlamışdır.[2]

Avtomobil nəqliyyatı hüququnun **prinsiplərinə** gəldikdə, qeyd etmək lazımdır ki, onlar avtomobil nəqliyyatı sahəsində fəaliyyətin əsas prinsipləridir. Avtomobil nəqliyyatı sahəsində fəaliyyət məhz bu prinsiplər əsasında həyata keçirilir ki, həmin prinsiplər «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində sadalanır: 1) avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən bütün subyektlərin mül-

---

[1] *Bu barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 535.

[2] *Daha ətraflı:* Əliyev E.Ə. Nəqliyyat hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2004, s. 146-149.

kiyyət növündən asılı olmayaraq hüquq bərabərliyi prinsipi; 2) avtomobil nəqliyyatı sahəsində fəaliyyətin dövlət tənzimlənməsinin sosial yönümlüyü və ictimai maraqların üstünlüyünün təmin olunması prinsipi; 3) avtomobil nəqliyyatı xidmətlərinin istehlakçıları tərəfindən daşıyıcının azad seçilməsi prinsipi; 4) avtomobil nəqliyyatı sahəsində fəaliyyətin təhlükəsizliyinin vahid norma, standart və qaydalar əsasında təmin olunması prinsipi. Avtomobil nəqliyyatı sahəsində işlərin görülməsi və xidmətlərin göstərilməsi məhz sadalanan bu prinsiplərə əsaslanır. Odur ki, onlar avtomobil nəqliyyatı hüququnun xüsusi prinsipləri kimi tanınır.

Avtomobil nəqliyyatı hüququnun **subyektləri** dedikdə avtomobil nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətlərin potensial (mümkün) iştirakçıları başa düşülür. Onlara aşağıdakılar aiddir: avtomobil nəqliyyatı müəssisəsi, daşıyıcı, müştəri. **Avtomobil nəqliyyatı müəssisəsi** dedikdə avtomobil nəqliyyatı fəaliyyəti ilə məşğul olan hüquqi şəxs başa düşülür. **Avtomobil nəqliyyatı** avtonəqliyyat vasitələrindən və avtomobil nəqliyyat infrastrukturundan istifadə edilməklə sərnişin və yük daşımalarını yerinə yetirən nəqliyyat növüdür. **Avtonəqliyyat vasitəsi** sərnişin, yük və ya xüsusi avadanlığın avtomobil yolları ilə daşınması üçün nəzərdə tutulmuş və mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitəsidir. **Avtomobil nəqliyyat infrastrukturu** dedikdə isə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üçün istifadə olunan avtomobil yolları, avtovağzallar, dayanacaq məntəqələri, avtomobil duracaqları, terminallar və digər qurğular, habelə avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri və texniki-təmir stansiyaları, yanacaqdoldurma məntəqələri başa düşülür. Sərnişin və yük daşımaları məhz avtonəqliyyat vasitələrindən və avtomobil nəqliyyat infrastrukturundan istifadə edilməklə həyata keçirilir.

**Daşıyıcı** dedikdə daşıma müqaviləsi və ya digər qanuni əsaslarla sərnişin və yük daşımalarını həyata keçirən şəxs başa düşülür. Daşıyıcı funksiyasını, hər şeydən əvvəl, **hüquqi şəxs**

(avtonəqliyyat müəssisəsi) yerinə yetirir. Bununla bərabər, daşıyıcı rolunda həm də fərdi sahibkar çıxış edə bilər. **Fərdi sahibkar** dedikdə hüquqi şəxs yaratmadan daşıma fəaliyyəti ilə məşğul olan fiziki şəxs başa düşülür.

**Müştəri** dedikdə yükgöndərən, yükalan və sərnişin başa düşülür ki, onlar avtomobil nəqliyyatı ilə göstərilən xidmətlərin istehlakçılarıdır. **Yükgöndərən** dedikdə elə bir şəxs başa düşülür ki, onun adından yük göndərilməsi rəsmiləşdirilir; həm hüquqi, həm də fiziki şəxslər yükgöndərən ola bilər. **Yükalan** yük daşınması müqaviləsinə və ya digər sənədlərə əsasən yükü almaq səlahiyyəti olan şəxsdir; həm hüquqi, həm də fiziki şəxslər yükalan qismində çıxış edə bilər. **Sərnişin** dedikdə avtonəqliyyat vasitəsi ilə gediş hüququ verən sənəd (bilet) və ya digər qanuni əsaslarla daşınan fiziki şəxs başa düşülür.

### 18.3.3. Dəniz nəqliyyatı hüququ

Nəqliyyat növlərindən biri dəniz nəqliyyatı hesab edilir. «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə, dəniz nəqliyyatı yük və sərnişinlərin daşınma vasitələri sırasına aid olunur. Nəqliyyatın bu növü xüsusən də xarici iqtisadi münasibətlərin təmin edilməsində böyük rol oynayır. Belə ki, xarici iqtisadi yüklər (xarici ticarət yükləri), əsasən, dəniz nəqliyyatı vasitəsilə daşınır; təsadüfi deyildir ki, onu xarici ticarət nəqliyyatı adlandırırlar. Nəzərdən qaçırmaq olmaz ki, nəqliyyatın digər növlərinə nisbətən dəniz nəqliyyatından beynəlxalq ticarəti və xarici iqtisadi əlaqələri həyata keçirmək üçün daha çox istifadə olunur.

Dəniz nəqliyyatı bir sıra **texniki-iqtisadi üstünlüyə** malikdir. Hər şeydən əvvəl, dəniz nəqliyyatı ilə müxtəlif növ mallar (yüklər) daşınır. Belə ki, dəniz nəqliyyatı ilə daşınan yüklərin nomenklaturası (ümumi siyahısı) çox genişdir. İkinci, yük götürməkdə dəniz nəqliyyatına məhdudiyyət qoyulmur. Yaddan çıxarmamalıyıq ki, dəniz nəqliyyatının hansı həcmdə (tonnajda) yük götürməsi məhdudlaşdırılmır. Üçüncü, dəniz nəqliyyatı təbii su yollarına malik olan nəqliyyat vasitəsidir. Odur ki, dəniz

su yollarının tikilməsi, qurulması və inşası üçün hər hansı iş görülməsi (xərc çəkilməsi) tələb olunmur. Bunlardan əlavə, dəniz nəqliyyatı az enerji sərf edən nəqliyyat vasitəsidir ki, bu, onun texniki-iqtisadi üstünlüklərindən biri sayılır.

Dəniz nəqliyyatı öz fəaliyyətini iki formada həyata keçirir ki, bu formalardan biri tramp, digəri isə xətt gəmiçiliyidir.[1] Bunlar eyni zamanda həm də dəniz daşımalarının təşkilinin iki forması hesab olunur ki, həmin formalar bir-birindən, ilk növbədə, dəniz donanmasının istismar texnologiyası ilə fərqlənir.

Dəniz nəqliyyatının fəaliyyəti ilə bağlı olaraq müəyyən iqtisadi münasibətlər əmələ gəlir. Belə ki, müvafiq iqtisadi münasibətlər dəniz nəqliyyatı sahəsində də yaranır. Məhz həmin münasibətləri tənzimləyən hüquq normalarının sistemi dəniz nəqliyyatı hüququ adlanır ki, o, nəqliyyat hüququnun institutlarından biri hesab edilir.

**Dəniz nəqliyyatı hüququ** dedikdə nəqliyyat hüququnun elə bir institutu başa düşülür ki, bu institut öz tərkibində dəniz nəqliyyatı ilə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir. Sözügedən insitutun, yəni dəniz nəqliyyatı hüququnun əsas funksiyası dəniz nəqliyyatı sahəsində əmələ gələn iqtisadi münasibətləri nizamlamaq və qaydaya salmaqdan ibarətdir; bu məqsədlə dəniz nəqliyyatı hüququnun tərkibinə daxil olan ayrı-ayrı hüquq normalarından istifadə edilir. Həmin normalar isə öz rəsmi-hüquqi təsbitini müvafiq normativ aktlarda tapır. **Normativ aktlar** dəniz nəqliyyatı hüququnun **əsas mənbə növü** hesab olunur. Söhbət, hər şeydən əvvəl, Azərbaycan Respublikasının **Ticarət Gəmiçiliyi Məcəlləsindən** gedir ki, bu qanun ticarət gəmiçiliyindən yaranan münasibətləri tənzimləyir. Ticarət gəmiçiliyi dedikdə gəmilərdən istifadə etməklə həyata keçirilən bu və ya digər fəaliyyət növü başa düşülür. Gəmi isə özühərəkətedən və ya özühərəkətetməyən, ticarət gəmiçiliyi məqsədləri üçün istifadə olunan üzən qurğudur. Müxtəlif fəaliyyət növləri məhz gəmidən istifadə et-

---

[1] *Bu formalar barədə daha ətraflı:* Экономика и организация внешнеторговых перевозок. Учебник / Под ред. К.В.Холопова. М., 2000, с. 242.

məklə həyata keçirilir ki, bunlara aiddir: 1) yüklərin, sərnişinlərin, onların baqajlarının, poçt göndərişlərinin daşınması; 2) su bioloji ehtiyatlarının əldə edilməsi (ovlanması); 3) dənizin dibində və təkində mineral ehtiyatlarının axtarılması və hasilatı; 4) dənizdə batmış əmlakın qaldırılması; 5) dəniz mühitinin qorunması və saxlanılması; 6) yedəkləmə, buzqırma, axtarış və xilasetmə əməliyyatları və digər fəaliyyət növləri.

Ticarət gəmiçiliyindən yaranan münasibətlər həm də **mülki qanunvericiliklə** tənzimlənir. Mülki qanunvericilik dəniz nəqliyyatı hüququnun mənbəyi olan qanunlardan və digər normativ hüquqi aktlardan ibarətdir. Söhbət, ilk növbədə, mülki qanunvericiliyin əsas və başlıca aktı olan **Mülki Məcəllədən** gedir. Əgər ticarət gəmiçiliyindən yaranan iqtisadi-əmlak münasibətləri Ticarət Gəmiçiliyi Məcəlləsi ilə tənzimlənməzsə və ya tam tənzimlənməzsə, onda Mülki Məcəllə tətbiq olunur. Odur ki, Mülki Məcəllə dəniz nəqliyyatı hüququnun mənbəyi olan normativ hüquqi aktlar (qanunlar) sırasına daxildir.

Ticarət gəmiçiliyindən yaranan münasibətlərin hüquqi tənzimlənməsi həm də Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilələrlə** tənzimlənir. Buna görə də beynəlxalq müqavilələr dəniz nəqliyyatı hüququnun mənbə növüdür.

Məlum olduğu kimi, dəniz nəqliyyatı sahəsində bir sıra **çoxtərəfli beynəlxalq konvensiyalar** bağlanmışdır ki, bu sahədə yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi onlar vasitəsilə həyata keçirilir. Söhbət aşağıdakı konvensiyalardan gedir:[1] «Konosamentə aid bəzi qaydaların unifikasiyası üçün» Brüssel Konvensiyası (1924-cü il), «Dənizlə yük daşımaları haqqında» BMT Konvensiyası (1978-ci il), «Dənizlə sərnişin və onların baqajının daşınması haqqında» Afina Konvensiyası (1974-cü il) və s. Sözügedən konvensiyaların əsas müddəaları

---

[1] *Bu konvensiyalar barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 527-529.

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində öz normativ ifadəsini tapmışdır.[2]

Azərbaycan Respublikası dəniz nəqliyyatı sahəsində **ikitərəfli sazişlər** bağlamışdır ki, onların vasitəsilə dəniz daşımalarının ikitərəfli əsasda hüquqi tənzimlənməsi həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası ticarət gəmiçiliyi sahəsində Gürcüstan (1996-cı il), Türkiyə (1997-ci il), Ukrayna (1999-cu il), Bolqarıstan (2005-ci il), Qazaxıstan (2011-ci il), Birləşmiş Ərəb Əmirlikləri (2016-cı il) və digər dövlətlərlə ikitərəfli saziş bağlamışdır.[3]

**Ticarət gəmiçiliyi adətləri** dəniz nəqliyyatı hüququnun digər mənbə növüdür. Belə adətlər həm də dəniz və ya dəniz ticarəti adətləri adlanır. Söhbət Azərbaycan Respublikasının tanıdığı ticarət gəmiçiliyi adətlərindən gedir. Ticarət Gəmiçiliyi Məcəlləsində göstərilir ki, xarici elementli ticarət gəmiçiliyi münasibətlərinə Azərbaycan Respublikasının tanıdığı ticarət gəmiçiliyi adətləri tətbiq edilə bilər (324-cü maddənin 1-ci bəndi).[4]

Dəniz nəqliyyatı hüququnun **prinsiplərinə** gəldikdə, qeyd etməliyik ki, onlar Ticarət Gəmiçiliyi Məcəlləsinin bu və ya digər maddəsində təsbit edilmiş və öz normativ ifadəsini tapmışdır. **Ticarət gəmiçiliyi sahəsində dövlət tənzimetməsinin həyata keçirilməsi prinsipi** dəniz nəqliyyatı hüququnun prinsiplərindən biridir. Tənzimetmə iki formada həyata keçirilir: 1) ticarət gəmiçiliyi sahəsində dövlət idarəetməsi; 2) ticarət gəmiçiliyinə dövlət nəzarəti. Ticarət sahəsində dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanı – Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən həyata keçirilir. Bu orqan həm də ticarət gəmiçiliyinə dövlət nəzarətini həyata ke-

---

[2] Əliyev E.Ə. Nəqliyyat hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2004, s. 67.

[3] *Daha ətraflı:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 399; AR QT. Bakı, 1996-2016.

[4] *Bu adətlər barədə daha ətraflı:* Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s.514; Allahverdiyev S.S.Konstitusiya və hüququn əsasları.Dərslik. Bakı, 2011, s.124 və s.

çirmək fəaliyyəti ilə məşğul olur. Ticarət gəmiçiliyinə dövlət nəzarəti bir neçə istiqamətdə həyata keçirilir. Məsələn, ticarət gəmiçiliyinə dair beynəlxalq müqavilələrə və ticarət gəmiçiliyi haqqında qanunvericiliyə riayət olunması, gəmilərin dövlət qeydiyyatına alınması, dəniz yollarının və dəniz yollarında qurulmuş texniki naviqasiya vasitələrinin vəziyyətinin yoxlanılması, gəmilərin təhlükəsiz hərəkətinin idarə olunması və digər istiqamətlərdə dövlət nəzarəti həyata keçirilir.

**Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzmək hüququnun həyata keçirilməsi prinsipi** dəniz nəqliyyatı hüququnun prinsipləri sırasına daxildir. Dövlət Bayrağı altında üzmək hüququndan həm dövlət, həm bələdiyyə, həm də Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin mülkiyyətində olan gəmilər istifadə edə bilər. Ticarət məqsədləri üçün istifadə edilən üzən qurğu olan gəmi ayrı-ayrı şəxslərin (hüquqi və fiziki şəxslərin), dövlətin və bələdiyyələrin mülkiyyətində ola bilər. Unutmaq olmaz ki, gəmi üzərində mülkiyyət qanunvericilikdə nəzərdə tutulan bütün mülkiyyət formalarında olur: xüsusi mülkiyyət, dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti.

Gəmi dövlət qeydiyyatına alındığı andan Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzmək hüququ əldə edir. Qeydiyyat Azərbaycan Respublikasının gəmi reyestrlərinin birində aparılır. Əgər gəmi Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə edilərsə, həmin gəmi Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzmək hüququndan Azərbaycan Respublikasının konsulluq idarəsi və ya Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən **müvəqqəti şəhadətnamənin** verildiyi andan istifadə edir. Müvəqqəti şəhadətnamə gəmiyə Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzmək hüququ verən sənəddir. Bu sənəd müəyyən müddətə qüvvədə olur. Belə ki, müvəqqəti şəhadətnamə gəmi müvafiq reyestrdə qeydiyyata alındığı vaxta qədər, lakin altı aydan çox olmamaq şərti ilə qüvvədə qalır.

Dəniz nəqliyyatı hüququ həm də **gəminin milliliyi prinsipindən** çıxış edir. Bu prinsip öz ifadəsini bunda tapır ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzən gəmi Azərbaycan Respublikasına məxsus olub, ya dövlətin (Azərbaycan dövlətinin), ya bələdiyyənin, ya da ayrı-ayrı şəxslərin (hüquqi və fiziki şəxslərin) mülkiyyətində olur. **Gəminin milliliyi** dedikdə onun hansı dövlətə mənsub olması başa düşülür. Əgər gəmi Azərbaycan Respublikasına mənsub olarsa, həmin gəmi Azərbaycan Respublikasının Dövlət Bayrağını daşımalıdır.

Dəniz nəqliyyatı hüququ həm də belə prinsip müəyyən edir ki, dəniz mühiti mühafizə edilməlidir – **dəniz mühitinin mühafizəsi prinsipi**. Bu prinsipə görə, dəniz mühiti qorunub saxlanılmalıdır. Dəniz mühitinin qorunub saxlanılması ticarət gəmiçiliyinin həyata keçirdiyi fəaliyyət istiqamətlərindən biridir.

**Dəniz daşımalarının müqavilə əsasında həyata keçirilməsi prinsipi** də həmçinin dəniz nəqliyyatı hüququnun prinsipləri sırasına aid olunur. Bu prinsipə görə, yüklər, sərnişinlər və onların baqajı təyinat limanına daşınma müqaviləsinə uyğun olaraq çatdırılır. Söhbət, hər şeydən əvvəl, dənizlə yük daşınması müqaviləsindən gedir ki, bu müqavilənin bağlanması və onun məzmunu çarter, konosament və ya digər yazılı sübutlarla təsdiq olunur.

Sərnişinlər və onların baqajı isə dənizlə sərnişin daşınması müqaviləsi əsasında təyinat limanına çatdırılır. Bu müqaviləyə görə, daşıyıcı sərnişini və onun baqajını yoladüşmə limanından təyinat limanına çatdırmağı, sərnişin isə daşıma haqqını ödəməyi öhdəsinə götürür. Həmin müqavilənin bağlanması bilet ilə, sərnişin baqajının daşıyıcıya təhvil verilməsi isə baqaj qəbzi ilə təsdiqlənir.[1]

Dəniz nəqliyyatı hüququnun **subyektləri** dəniz nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətlərin potensial (mümkün) iştiakçılarıdır. Söhbət, ilk növbədə, dəniz nəqliyyatı

---

[1] *Bu müqavilələr barədə daha ətraflı:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 440-441.

müəssisəsindən və daşıyıcıdan gedir. Dəniz nəqliyyatı müəssisəsi dəniz-liman xidmətləri göstərən hüquqi şəxsdir. Daşıyıcı dedikdə isə dənizlə daşınma müqaviləsi bağlayan və daşıma fəaliyyəti ilə məşğul olan şəxs başa düşülür.

### 18.3.4. Dəmir yolu nəqliyyatı hüququ

Dəmir yolu nəqliyyatı sahəsində yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi dəmir yolu nəqliyyatı hüququ vasitəsilə həyata keçirilir. Dəmir yolu nəqliyyatı hüququ isə nəqliyyat hüququnun institutlarından biridir.

Dəmir yolu ümumilikdə nəqliyyat vasitələri (növləri) sırasına aiddir. Bu nəqliyyat növü hər bir ölkənin, o cümlədən Azərbaycan Respublikasının nəqliyyat sisteminin vacib elementi olub, həmin sistemdə əsas yer tutur; onun rolu və əhəmiyyəti malik olduğu **texniki-iqtisadi üstünlüklərlə** müəyyən edilir. Belə üstünlüklərə aşağıdakılar aiddir: birinci, dəmir yolu nəqliyyatı coğrafi-iqlim şəraitindən nisbətən az asılı olan nəqliyyat növüdür; ikinci, dəmir yolu nəqliyyatı vasitəsi ilə ən müxtəlif yükləri və sərnişinləri kütləvi halda daşımaq mümkün olur; üçüncü, dəmir yolu havanın vəziyyətindən (meteoroloji şəraitdən) asılı olmayaraq müntəzəm surətdə fəaliyyət göstərən nəqliyyat növüdür; dördüncü, dəmir yolu yüksək daşıma qabiliyyətinə malikdir; beşinci, dəmir yolu nəqliyyatında daşıma haqqı nisbətən ucuzdur və s.

**Dəmir yolu nəqliyyatı hüququ** dedikdə dəmir yolu nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.

Dəmir yolu nəqliyyatı hüququnun **mənbələrinə** gəldikdə, qeyd etmək lazımdır ki, onun iki mənbə növü vardır. **Dəmir yolu nəqliyyatı haqqında qanunvericilik** onun əsas mənbə növü hesab edilir; buraya həm qanunlar, həm də qanunqüvvəli aktlar daxildir.

Dəmir yolu nəqliyyatı hüququnun digər mənbə növü Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilə-**

**lərdir** ki, bu müqavilələrə uyğun olaraq beynəlxalq dəmir yolu nəqliyyatının işi və fəaliyyəti həyata keçirilir. Söhbət beynəlxalq dəmir yolu daşımaları barədə çoxtərəfli və  və ya ikitərəfli beynəlxalq sazişlərdən gedir. Əgər belə beynəlxalq sazişlər mövcud olmazsa, onda daşıma yükün göndərilmə yerinin və təyinat ölkəsinin daxili qanunvericiliyinə uyğun həyata keçirilir.[1] **Çoxtərəfli beynəlxalq sazişlərə** aiddir: 1) «Beynəlxalq dəmiryol daşımaları haqqında» Konvensiya (KOTİF); 2) «Dəmir yolu ilə beynəlxalq yük daşımaları haqqında» Saziş; 3) «Dəmir yolu ilə beynəlxalq sərnişin daşımaları haqqında» Saziş.

**KOTİF** dedikdə beynəlxalq dəmir yolu daşımaları barədə Bern konvensiyaları (əlavə sazişlə birlikdə) başa düşülür.[2] Qərbi və Mərkəzi Avropa ölkələri arasında həyata keçirilən beynəlxalq dəmir yolu daşımaları məhz KOTİF vasitəsilə tənzimlənir. Azərbaycan Respublikası 14.04.2015-ci il tarixdən KOTİF-in iştirakçısıdır.[3] Odur ki, KOTİF dəmir yolu nəqliyyatı hüququnun mənbəyi sayılır. Unutmaq olmaz ki, Azərbaycan Respublikasının dəmir yolu daşımaları sahəsində tərəfdar çıxdığı bütün beynəlxalq müqavilələr dəmir yolu nəqliyyatı hüququnun mənbəyidir.

**«Dəmir yolu ilə beynəlxalq yük daşımaları haqqında» Saziş** dedikdə regional xarakterli elə beynəlxalq sənəd başa düşülür ki, bu sənəd Rusiya Federasiyası və MDB üzvü olan digər ölkələr arasında həyata keçirilən beynəlxalq dəmir yolu daşımalarını tənzim edir.[4] Sazişdə MDB üzvü olan ölkələr, habelə Çin, Monqolustan, Koreya, Baltikyanı respublikalar, İran, Albaniya və digər dövlətlər iştirak edirlər; Azərbaycan Respublikası da adıçəkilən sazişin iştirakçısıdır. Buna görə də göstərilən sa-

---

[1] Лунц Л.А. Курс международного частого права. Том 2. М., 2002, с. 537.
[2] *KOTİF barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2013, s. 172-186.
[3] AR QT. Bakı, 2015, № 5, maddə 500.
[4] *Sazişin tənzimlədiyi və müəyyən etdiyi məsələlər barədə daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı, 2008, s. 77-108.

ziş dəmir yolu nəqliyyatı hüququnun mənbəyi olan beynəlxalq müqavilələr sırasına aiddir.[1]

Buraya həmçinin beynəlxalq dəmir yolu daşımaları barədə **ikitərəfli sazişlər** daxildir ki, belə sazişlər də dəmir yolu nəqliyyatı hüququnun mənbəyi hesab olunur. Söhbət Azərbaycan Respublikasının dəmir yolu nəqliyyatı sahəsində ayrı-ayrı ölkələrlə (məsələn, Rusiya Federasiyası, Ukrayna, Özbəkistan, Türkmənistan və s.) bağladığı ikitərəfli sazişlərdən gedir. Bu sazişlərdə ikitərəfli səviyyədə həyata keçirilən beynəlxalq dəmir yolu daşımalarına aid nəqliyyat- hüquq normaları nəzərdə tutulmuşdur.[2]

Dəmir yolu nəqliyyatı sahəsində yaranan iqtisadi münasibətlərin potensial (mümkün) iştirakçıları dəmir yolu nəqliyyatı hüququnun **subyektləridir**. Dəmir yolu nəqliyyatı hüququnun subyektləri isə bunlardan ibarətdir: 1) dəmir yolu nəqliyyatı müəssisəsi; 2) daşıyıcı; 3) müştəri (yükgöndərən, yükalan, sərnişin və s.).

**Dəmir yolu nəqliyyatı müəssisəsinin** əsas işi daşıma fəaliyyəti ilə məşğul olmaqdan ibarətdir. Məhz daşıma fəaliyyətinin həyata keçirilməsi nəticəsində yüklər, poçt, baqaj və sərnişinlər təyinat yerinə çatdırılır. Onların təyinat yerinə çatdırılması isə, yəni dəmir yolları ilə daşıma «**Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti** (bundan sonra – Cəmiyyət) tərəfindən həm təşkil olunur, həm də təmin edilir ki, bu, onun həyata keçirdiyi fəaliyyət istiqamətlərindən biridir. Adıçəkilən Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamına əsasən Azərbaycan Dövlət Dəmir Yolunun yenidən təşkili üsulu ilə yaradılmışdır. Onun fəaliyyəti ilə bağlı olan məsələlər ayrıca hüquqi sənədlə – «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin

[1] *Daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 533.

[2] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 477; Azərbaycan Respublikasının nəqliyyat qanunvericiliyi. I kitab/Buraxılışa məsul – A.Süleymanlı. Bakı, 2005 və b.

Nizamnaməsi ilə tənzimlənir. Bu sənəd Cəmiyyətin həyata keçirdiyi fəaliyyətin hüquqi əsasıdır ki, o, Nazirlər Kabinetinin 15.02.2010-cu il tarixli 36 nömrəli qərarı ilə təsdiq edilmişdir.[1] Əgər Cəmiyyətin fəaliyyəti ilə bağlı olan bu və ya digər məsələ sözügedən nizamnamə ilə tənzimlənməzsə, onda məsələ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nizamlanır və qaydaya salınır.

Nizamnaməyə görə Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. Cəmiyyətin hüquqi statusuna gəldikdə, qeyd etməliyik ki, o, hüquqi şəxs olub, müstəqil balansa, banklarda hesablaşma hesabına və digər hesablara malikdir.

Cəmiyyətin fəaliyyəti öz idarəetmə orqanları tərəfindən həyata keçirilir. Söhbət aşağıdakılardan gedir: 1) Cəmiyyətin ali idarəetmə orqanı; 2) Cəmiyyətin icra orqanı. Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağı sayılır. Cəmiyyətin icra orqanı funksiyasını isə İdarə Heyəti yerinə yetirir; onun tərkibi onbir nəfərdən ibarətdir; odur ki, İdarə Heyəti kollegial orqandır.

Dəmir yolu nəqliyyatı hüququ **özünəməxsus prinsiplərə** əsaslanır. **Dəmir yolları ilə daşımanın təmin edilməsi prinsipi** onlardan biridir. Bu prinsipə görə, daşınma predmeti təyinat yerinə vaxtında və təhlükəsiz çatdırılmalıdır. Daşınma predmeti dedikdə isə yük, sərnişin, baqaj və poçt başa düşülür.

**Dəmir yolu ilə daşımaların müqavilə əsasında yerinə yetirilməsi prinsipi** dəmir yolu nəqliyyatı hüququnun prinsipləri sırasına aiddir. Bu prinsipə görə, dəmir yolu ilə daşınmanı həyata keçirmək üçün dəmir yolu nəqliyyatı müəssisəsi müştəri ilə müqavilə bağlamalıdır. Söhbət aşağıdakı müqavilələrdən gedir: dəmir yolu ilə yük daşınması müqaviləsi, dəmir yolu ilə sərnişin daşınması müqaviləsi, dəmir yolu ilə baqaj daşınması müqaviləsi.[2]

---

[1] AR QT. Bakı, 2009, № 2, maddə 156.

[2] *Bu müqavilələr barədə daha ətraflı:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 156.

Dəmir yolu ilə daşımalar təkcə müqavilə əsasında yerinə yetirilmir. Belə daşımalar həm də dövlət sifarişinə əsasən həyata keçirilir.

Göstərilənlərlə yanaşı, dəmir yolu nəqliyyatı hüququ həm də **digər prinsipləri** ehtiva edir: təhlükəli yüklərin qanunvericiliklə müəyyənləşdirilmiş qaydada daşınmasının təşkil olunması prinsipi, dəmir yolu nəqliyyatında hərəkət təhlükəsizliyinin təmin olunması prinsipi, dəmir yolu nəqliyyatında texniki standartlaşdırma prinsipi, dəmir yolu nəqliyyatı sahəsində müxtəlif xidmətlərin göstərilməsi prinsipi (məsələn, rabitə, informasiya, servis, marketinq[1] və digər xidmətlər göstərilir) və s.

### 18.3.5. Su (çay) nəqliyyatı hüququ

Azərbaycan Respublikasının nəqliyyat qanunvericiliyi su (çay) nəqliyyatını ölkənin nəqliyyat kompleksinin tərkib hissələrindən biri hesab edir. Belə ki, «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə, çay nəqliyyatı da həmçinin Azərbaycan Respublikasının nəqliyyat sisteminə daxildir. Nəqliyyat sisteminin bu tərkib hissəsi həm də **daxili su nəqliyyatı** adlanır. Ölkənin nəqliyyat sisteminə daxil olması səbəbindən daxili su (çay) nəqliyyatı ümumilikdə nəqliyyat növlərindən biri kimi tanınır.

Su (çay) nəqliyyatının özünəməxsus xüsusiyyətlərinə gəldikdə, qeyd etməliyik ki, onlar çay nəqliyyatının **texniki-iqtisadi üstünlükləri** ilə müəyyən edilir və şərtlənir. Təbii su yollarına malik olması, az enerji sərf etməsi, çay gəmilərinin yükgötürmə qabiliyyətinə məhdudiyyət qoyulmaması onun texniki-iqtisadi üstünlükləridir. Bununla belə, çay nəqliyyatının bəzi məhdud cəhətləri də vardır. Məsələn, çay nəqliyyatının işinin mövsümü olması, suyun dərinliyinin tələb edilən səviyyədə olmasının təmin edilməsi, su yollarının əyriliyi və s. belə xüsusiyyətlərdəndir.

---

[1] *Daha ətraflı:* Абрамов А.П., Галабурда В.Г., Иванова Е.А. Маркетинг на танспорте. М., 2001, с.80.

İstənilən ölkədə su (çay) nəqliyyatının fəaliyyəti ilə bağlı iqtisadi münasibətlər əmələ gəlir. Belə ki, iqtisadi münasibətlər həm də su (çay) nəqliyyatı sahəsində yaranır. Məhz həmin münasibətləri tənzimləyən hüquq normalarının sistemi su (çay) nəqliyyatı hüququ adlanır.

**Su (çay) nəqliyyatı hüququ** dedikdə su (çay) nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Qeyd etdiyimiz kimi, nəqliyyat hüququ bir neçə institutdan ibarətdir ki, onlardan biri məhz su (çay) nəqliyyatı hüququ adlanır.

Əgər desək ki, Azərbaycan Respubikasının su (çay) nəqliyyatı hüququ hələ ki, formalaşmamşdır, zənnimizcə, yanılmarıq. Məsələ burasındadır ki, Azərbaycan Respublikasında bəzi ölkələrdən (məsələn, Rusiya Federasiyasından) fərqli olaraq, su (çay) nəqliyyatından ölkə iqtisadiyyatının nəqliyyat daşımaları sahəsində tələbatını təmin etmək üçün istifadə olunmur. Düzdür, Azərbaycan Respublikasında Kür və Araz kimi çaylar vardır. Lakin, praktiki olaraq, həmin çay yollarından ölkə iqtisadiyyatının təmin olunmasında hələlik istifadə edilmir; həmin yollar vasitəsi ilə nə yük, nə baqaj, nə də sərnişin daşınması həyata keçirilir. Amma Azərbaycan Respublikasından fərqli olaraq Rusiya Federasiyasında çay nəqliyyatı ölkə iqtisadiyyatının yük daşımalarına olan tələbatının müəyyən hissəsini ödəyir. Yaddan çıxarmamalıyq ki, Rusiya Federasiyasında İrtış, Ob, Yenisey, Lena, Volqa, Kama və digər çaylar vardır.

Azərbaycan Respublikasında su (çay) nəqliyyatının inkişaf etməməsi səbəbindən onun fəaliyyəti ilə bağlı məsələləri tənzimləyən kifayət sayda normativ hüquqi sənəd qəbul edilməmişdir. Bəzi ölkələrdə isə çay nəqliyyatının fəaliyyətinə dair münasibətləri tənzimləyən bu və ya digər hüquqi sənəd qüvvədədir. Məsələn, Çay Nəqliyyatı Məcəlləsi, Çay Nəqliyyatı Nizamnaməsi və s. belə sənədlərdəndir; Rusiya Federasiyasında Daxili Su Nəqliyyatı Nizamnaməsi qəbul edilmişdir və s. Bu kimi sənədlər Azərbaycan Respublikasında hələlik qəbul edilmədiyi üçün su (çay) nəqliyyatı hüquq institutunun formalaş-

masından söhbət gedə bilməz. Güman edirik ki, çox da uzaq olmayan perspektivdə belə institutun formalaşması və su (çay) nəqliyyatının ölkə iqtisadiyyatının tələbatını təmin etmək üçün istifadə olunması istisna edilmir.[1] Nəzərdən qaçırmaq olmaz ki, çay yollarına malik olan istənilən ölkədə daxili su (çay) nəqliyyatı iqtisadiyyatın yük daşınmalarına, habelə turizm sahəsinə olan tələbatının müəyyən hissəsini ödəyir.

### 18.3.6. Boru kəmər nəqliyyat hüququ

«Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi nəqliyyat vasitələrinin ayrı-ayrı növlərini sadalayır ki, bu növlərdən biri magistral boru kəməri nəqliyyatı adlanır. Həmin maddəyə görə, magistral boru kəməri nəqliyyat vasitələrinin spesifik növü hesab edilir. Bu növ nəqliyyat vasitəsinin fəaliyyəti ilə bağlı müəyyən ictimai münasibətlər əmələ gəlir; söhbət boru kəmər nəqliyyat münasibətlərindən gedir. **Boru kəmər nəqliyyat münasibətləri** isə müvafiq hüquq normaları vasitəsilə tənzimlənir; məhz həmin normaların sistemi boru kəmər nəqliyyat hüququ adlanır.[2] Boru kəmər nəqliyyat hüququ iqtisadi hüququn nəqliyyat hüququ kimi yarımsahəsinin **institutlarından** biri kimi tanınır. Bu institut vasitəsi ilə boru kəməri nəqliyyatının fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir.

**Boru kəmər nəqliyyat hüququ** dedikdə iqtisadi hüququn nəqliyyat hüququ kimi yarımsahəsinin elə bir institutu başa düşülür ki, bu institut özündə boru kəməri nəqliyyatının fəaliyyəti ilə bağlı əmələ gələn münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir. Onun əsas işi və funksiyası boru kəməri nəqliyyatı vasitəsilə həyata keçirilən nəqletmə fəaliyyətini nizama

---

[1] Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 525.

[2] *Elmi dövriyyədə belə anlayışın işlədilməsinə rast gəlinir: məsələn,* Перчик А.И. Трубопроводное право. М., Нефть и газ, 2002, 368 с.; Тулеугалиев Г.И. Избранные труды по транспортному праву. Алматы: НИИ частного права КазГЮУ, 2003, с.489.

salmaqdan ibarətdir. Nəqletmə fəaliyyəti neft, qaz və neft məhsullarının daşınmasına (nəql edilməsinə) yönəlir. Boru kəməri nəqliyyatı vasitəsi ilə həm də su və digər məhsullar nəql olunur.

Nəqliyyat hüququnun hər bir institutunun özünəməxsus **nizamasalma predmeti** vardır. Bu sözləri, təbii ki, boru kəmər nəqliyyat hüququ kimi institut barədə də söyləmək olar. Belə ki, boru kəməri nəqliyyatının fəaliyyəti prosesində müvafiq iqtisadi münasibətlər əmələ gəlir. Məhz həmin münasibətlər boru kəmər nəqliyyat hüququnun nizamasalma predmetini təşkil edir. Deməli, boru kəmər nəqliyyat hüquq institutunun nizamasalma predmeti boru kəməri kimi xüsusi (spesifik) nəqliyyat vasitəsinin fəaliyyəti prosesində yaranan iqtisadi münasibətlərdən ibarətdir.

Boru kəmər nəqliyyat hüququnun **mənbələrinə** gəldikdə, qeyd etmək lazımdır ki, onun iki əsas növü fərqləndirilir. Bu mənbə növlərindən biri daxili (milli) qanunvericilik, digəri isə beynəlxalq-hüquqi aktlardır.

**Daxili qanunvericiliyə**, əsasən, Azərbaycan Respublikasının qanunları aiddir. Söhbət, hər şeydən əvvəl, «Nəqliyyat haqqında» Qanundan (1999-cu il) gedir. Bu qanun, qeyd etiyimiz kimi, Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərlərini «nəqliyyat» anlayışına daxil edir. Həmin qanunda həmçinin göstərilir ki, boru kəməri nəqliyyatının fəaliyyəti xüsusi qanunvericiliklə tənzimlənir.

Lakin Azərbaycan Respublikasında indiyə kimi boru kəməri nəqliyyatının fəaliyyətini tənzimləyən ayrıca qanun qəbul edilməmişdir. Bəzi xarici ölkələrdə boru kəməri nəqliyyatının fəaliyyəti məhz ayrıca xüsusi qanunla tənzimlənir. Məsələn, Ukrayna Respublikasında 1996-cı ildə «Boru kəməri nəqliyyatı haqqında» Qanun qəbul edilmişdir ki, boru kəməri nəqliyyatının fəaliyyəti bu qanunla tənzimlənir.

Azərbaycan Respublikasında boru kəməri nəqliyyatının fəaliyyəti, bir qayda olaraq, qanunqüvvəli aktlar vasitəsilə tənzimlənir. Qanunqüvvəli aktlar boru kəməri nəqliyyatının fəaliyyəti

ilə bağlı münasibətlərin tənzimlənməsində vacib rol oynayır. Unutmaq olmaz ki, boru kəməri nəqliyyatının fəaliyyəti belə aktların tənzimlədiyi və nizama saldığı əsas məsələlərdən biridir. Boru kəməri nəqliyyatının nizama salınmasında xüsusilə də Nazirlər Kabinetinin aktları mühüm rol oynayır.

**Beynəlxalq-hüquqi aktlar** boru kəmər nəqliyyat hüququnun digər mənbə növüdür. Söhbət beynəlxalq müqavilələrdən gedir ki, bu müqavilələr dövlətlər arasında neft-qaz resurslarının nəql olunması və bu sahədə əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir. Məsələn, 1998-ci ilin yanvarında Rusiya və Azərbaycan arasında Azərbaycan neftinin Rusiya Federasiyasının ərazisi ilə tranziti haqqında müvafiq müqavilə imzalanmışdır. Bu kimi beynəlxalq müqavilə həm də Türkiyə, Qazaxıstan, Türkmənistan, Ukrayna, Oman və digər dövlətlərlə bağlanmışdır.

Beynəlxalq müqavilələrin bir hissəsi neft-qaz sənayesi sahəsində əməkdaşlığın həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir: məsələn, 1997-ci ildə Azərbaycan Respublikası ilə Gürcüstan arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında müvafiq müqavilə bağlanmışdır.[1]

Boru kəmər nəqliyyat hüququnun nizamasalma predmetini təşkil edən münasibətlər, təbii ki, müəyyən iştirakçılar (subyektlər) arasında əmələ gəlir. Söhbət boru kəməri nəqliyyatının fəaliyyəti prosesində əmələ gələn iqtisadi münasibətlərin potensial (mümkün) iştirakçılarından gedir ki, onlar boru kəmər nəqliyyat hüququnun **subyektləri** adlanır. Boru kəmər nəqliyyat hüququnun subyektlərinə, ilk növbədə, dövlət (Azərbaycan Respublikası) aiddir. Düzdür, boru kəməri nəqliyyatının fəaliyyəti prosesində yaranan iqtisadi münasibətlərdə subyekt qismində bilavasitə dövlətin özü iştirak etmir; həmin münasibətlərdə subyekt qismində dövləti onun səlahiyyətli orqanları təmsil edir. Məsələn, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi,

---

[1] *Neft-qaz məhsullarının nəql olunması sahəsində bağlanmış beynəlxalq müqavilələr barədə bax:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s.547.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və digərləri dövləti təmsil edən səlahiyyətli dövlət orqanlarına misal ola bilər.

Dövlətdən başqa, boru kəmər nəqliyyat hüququnun subyektlərinə həm də aşağıdakılar aiddir: 1) magistral boru kəməri nəqliyyatının sahibi və belə nəqliyyatı qanuni əsaslarla idarə edən şəxslər; 2) magistral boru kəmər nəqliyyat sisteminin operatorları; 3) magistral boru kəməri nəqliyyatının sahibi ilə bağlanmış müqavilə əsasında magistral boru kəmərinin istismarını həyata keçirən və məhsulların nəql edilməsi üzrə xidmətlər göstərən hüquqi şəxslər; 4) magistral boru kəmərlərinin yaradılması, təhlükəsiz fəaliyyət göstərməsi və ləğv edilməsi üzrə fəaliyyəti həyata keçirən digər təşkilatlar; 5) məhsulları göndərən və alan şəxslər.

Nəqliyyat hüququnun institutu kimi boru kəmər nəqliyyat hüququ **özünəməxsus prinsiplərə** əsaslanır. Unutmaq olmaz ki, nəqliyyat hüququnun hər bir institutu hüquqi tənzimetməni özünəxas prinsiplər əsasında həyata keçirir. Boru kəmər nəqliyyat hüququnun özünəməxsus prinsipləri sırasına, ilk növbədə, **suverenlik prinsipi** daxildir. Bu prinsip öz ifadəsini bunda tapır ki, boru kəmər nəqliyyat-kommunikasiya xətləri üzərində dövlətin suveren hüququ vardır.

**Subyektlərin məsuliyyət daşıması prinsipi** boru kəmər nəqliyyat hüququnun digər prinsipidir. Bu prinsipə görə, subyektlər bütün nəqletmə fəaliyyətinə görə cavabdehlik daşıyır.

Boru kəmər nəqliyyat hüququ həm də **təhlükəsizlik prinsipindən** çıxış edir. Bu prinsipə görə, boru kəməri nəqliyyatı vasitəsilə həyata keçirilən nəqletmə fəaliyyətində təhlükəsizlik təmin edilməlidir.

**Əməkdaşlıq prinsipi** də boru kəmər nəqliyyat hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, boru kəməri nəqliyyatı vasitəsilə həyata keçirilən nəqletmə fəaliyyəti dövlətlərarası əməkdaşlığa əsaslanır; özü də əməkdaşlıq qarşılıqlı faydalı olmalıdır. Nəzərdən qaçırmaq olmaz ki, boru kəmər nəqliyyat-kommunikasiya xətləri ayrı-ayrı bu və ya digər dövlətin ərazisindən keçir. Dövlətlər bu sahədə, yəni nəqletmə fəaliy-

yəti sferasında qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirməlidir.

Bunlardan başqa, boru kəmər nəqliyyat hüququnun aşağıdakı **digər prinsiplərinin** də adını çəkə bilərik: 1) nəqletmə fəaliyyətinin vaxtında həyata keçirilməsi prinsipi; 2) boru kəməri nəqliyyatı vasitəsilə neft və qaz məhsullarının təyinat yerinə lazımi qaydada çatdırılması prinsipi; 3) nəqletmə fəaliyyətinin müqavilə əsasında həyata keçirilməsi prinsipi və s.

Nəqliyyat hüququnun sözügedən institutunun, yəni boru kəmər nəqliyyat hüququnun vacib əhəmiyyəti vardır. Bu institutun əhəmiyyəti və rolu bununla şərtlənir və müəyyən olunur ki, onun vasitəsilə boru kəməri nəqliyyatının işi, eləcə də nəqletmə fəaliyyəti tənzimlənir. Unutmaq olmaz ki, ölkədə hasil edilən neft və qaz məhsulları ticarət dövriyyəsinə nəqliyyatın məhz bu növünün köməyi ilə daxil olur.[1]

---

[1] *Daha ətraflı:* Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, 2011, s. 550-554.

# XVIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XIX FƏSİL.*
# RƏQABƏT HÜQUQU

## 19.1. İqtisadi hüquq sistemində rəqabət hüququnun yeri
### 19.1.1. Rəqabət hüququ anlayışı

Hər şeydən əvvəl, «rəqabət» anlayışının mahiyyətinə və məzmununa aydınlıq gətirməyə çalışaq. Rəqabət latınca «konkurrentia» sözündən olub bazar təsərrüfatının ayrı-ayrı subyektləri arasında malların (əmtəələrin) ən əlverişli şərtlərlə istehsalı və realizə olunması (alqı-satqısı) uğrunda mübarizə aparılmasını ifadə edir. Hərfi mənada rəqabət termini latın dilindən «toqquşma» kimi tərcümə olunur.[1] Bazar iqtisadiyyatı şəraitində belə toqquşmanın mövcudluğu mütləq olub, qaçılmazdır. Söhbət rəqabət mübarizəsindən gedir ki, bu mübarizə bazar təsərrüfatı subyektlərinin həm mövcud olması, həm də iqtisadi inkişaf etməsi üçün zəruri şərtdir. Unutmaq olmaz ki, iqtisadi inkişaf və mövcud olma (fəaliyyət göstərmə) uğrunda aparılan rəqabət mübarizəsi bazar təsərrüfatının iqtisadi qanunudur. Belə mübarizə həm satıcılar, həm alıcılar, həm də satıcı və alıcılar arasında aparılır; onun sayəsində iqtisadi irəliləyişə hərəkət və təkan verilir. Təsadüfi deyildir ki, rəqabət iqtisadi irəliləyişin hərəkət və təkanverici qüvvəsi hesab olunur.[2] Nəticədə rəqabət ictimai inkişafda müsbət rol oynayan hadisəyə çevrilir. Odur ki, hələ XIX əsrin axırlarında inkişaf etmiş xarici ölkələrin hüququ rəqabət münasibətlərinin qanunvericilik səviyyəsində tənzimlənməsinə xüsusi diqqət yetirirdi. 1896-cı ildə Avropanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biri olan Almaniyada haqsız rəqabət haqqında ayrıca qanun qəbul olundu.

---

[1] *Rəqabət termini (rusca - конкуренция, latınca - concurrentia, ingiliscə – competition, fransızca - concurrence, almanca -konkurrenz) barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.425.

[2] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.119.

O zamanlarda yalnız ABŞ rəqabət haqqında xüsusi qanunvericiliyə malik idi; söhbət ABŞ-da 1890-cı ildə qəbul olunmuş Şerman qanunundan gedir.[1]

Azərbaycan Respublikasında da rəqabət münasibətlərinin qanunvericilik səviyyəsində tənzimlənməsinə xüsusi diqqət yetirilir. Belə ki, qanunverici orqan tərəfindən 1995-ci ildə «Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi əsaslarını müəyyən edir. Onun elə 1-ci maddəsində rəqabətə leqal (normativ) anlayış verilir. Bu maddəyə görə, rəqabət bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə (məhsul, iş, xidmət) dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalını stimullaşdırır. Mübarizənin rəqabət kimi forması ilə bağlı, əlbəttə, bazar subyektləri arasında müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Hüquq ədəbiyyatı səhifələrində onlar **rəqabət münasibətləri** adlanır ki, bu münasibətlər hüquqi tənzimetmənin obyektidir. Belə ki, rəqabət münasibətləri müvafiq hüquq normaları vasitəsilə nizama salınır və həmin normaların sistemi rəqabət hüququ adlanır. Rəqabət hüququ iqtisadi hüququn struktur elementlərindən biri olub, onun tərkibinə daxildir.

Rəqabət hüququnun iqtisadi hüququn tərkibinə hansı «statusla» daxil olmasına gəldikdə, qeyd etməliyik ki, iqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir. İqtisadi hüququn ibarət olduğu yarımsahələrdən biri məhz rəqabət hüququ sayılır. Rəqabət hüququnun iqtisadi hüququn **yarımsahəsi** kimi tanınması, hər şeydən əvvəl, bununla izah edilməlidir ki, onun ayrıca **nizamasalma predmeti** vardır. Söhbət rəqabət münasibətlərindən gedir ki, həmin münasibətlər rəqabət hüququnun nizamasalma

---

[1] Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование. Руководитель авторского коллектива – В.В.Залесский. М., 1999, с.178.

predmetini təşkil edir. Belə münasibətlər bazar subyektləri (əmtəə istehsalçıları, ticarətçilər, xidmət göstərən şəxslər, işgörən müəssisələr və s.) arasında mal istehsalının və satışının ən əlverişli şərtlərinə malik olmaq, eləcə də bununla bağlı daha çox gəlir (mənfəət) götürmək uğrunda aparılan mübarizə prosesində əmələ gəlir. Məhz rəqabət münasibətlərinin yaranması və mövcud olması sayəsində rəqabət hüququ iqtisadi hüququn yarımsahəsi kimi «status» qazanır.

Beləliklə, **rəqabət hüququ** dedikdə iqtisadi hüququn elə bir yarımsahəsi başa düşülür ki, bu yarımsahə özündə mal (əmtəə) istehsalının və onun realizə olunmasının (alqı-satqısının) ən əlverişli şərtlərinə malik olmaq uğurunda mübarizə prosesində bazar subyektləri arasında yaranan rəqabət münasibətlərini tənzimləyən hüquq normalarını birləşdirir.

### 19.1.2. Rəqabət hüququnun mənbələri

Rəqabət hüququnun əsas mənbə növü **normativ hüquqi aktlardır**. Söhbət, ilk növbədə, **qanunlardan** gedir ki, onlar normativ hüquqi aktların mühüm və vacib növüdür. Qanunlar içərisində, hər şeydən əvvəl, dövlətin əsas qanunu olan **Konstitusiyanın** adı çəkilməlidir. Konstitusiyada elə normalar nəzərdə tutulmuşdur ki, həmin normaların rəqabət hüququ üçün xüsusi əhəmiyyəti vardır. Konstitusiya rəqabət hüququnun prinsiplərinin və antiinhisar tənzimetməsinin əsaslarını müəyyənləşdirir. Onun 15-ci maddəsinin II hissəsində deyilir ki, Azərbaycan dövləti iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Rəqabət hüququnun mənbəyi olan qanunlardan ikisi xüsusilə qeyd edilməlidir ki, həmin qanunlar bunlardan ibarətdir: 1) **«Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu** (1993-cü il); 2) **«Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının Qanunu** (1995-ci il). «Antiinhisar fəaliyyəti haqqında» Qanun inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılmasına dair təşkilati-hüquqi əsasları müəyyən edir. Azərbaycan Res-

publikası ərazisində tətbiq olunan həmin qanun həm hüquqi, həm də fiziki şəxslərə şamil edilir.

«Haqsız rəqabət haqqında» Qanuna gəldikdə, qeyd etməliyik ki, bu qanun Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün bazar subyektlərinə şamil edilir. Həmin qanun sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla həyata keçirilməsinə hüquqi zəmin yaradır, habelə bazar subyektlərinin haqsız rəqabət metodlarından istifadə etmələrinə görə məsuliyyət daşımasını nəzərdə tutur. Qanunda haqsız rəqabətə anlayış verilir və onun formaları müəyyənləşdirilir.

Rəqabət münasibətlərini və inhisarçılıq fəaliyyətini tənzimləyən qanunlar sırasına həm də **Mülki Məcəllə** aiddir. MM-in nəzərdə tutduğu bir sıra normalar məhz rəqabət münasibətlərinin və inhisarçılıq fəaliyyətinin tənzimlənməsinə həsr olunmuşdur. Məsələn, MM-in 16.2-ci maddəsində göstərilirdi ki, mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə edilməsinə, habelə bazarda hakim mövqedən sui-istifadə olunmasına yol verilmir.[1] MM-in 729.1-ci maddəsinə görə, françayzinq müqaviləsinin tərəfləri müqavilə münasibətləri qurtardıqdan sonra da öz aralarında loyal rəqabət aparmağa borcludurlar. MM-in 800.1.3-cü maddəsində deyilir ki, tapşıran (kommersiya konsessiya müqaviləsinin tərəfi) konsessionerə (müqavilənin digər tərəfinə) inhisar hüququ (müstəsna satış hüququ) verə bilər.

İnhisarçılıq fəaliyyətini məhdudlaşdıran və rəqabətin müdafiəsinə həsr olunan normalara həm də **digər qanunlarda** rast gəlinir. Məsələn, «Reklam haqqında» Azərbaycan Respublikasının Qanunu (2015-ci il), «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (1995-ci il), «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il) və s. normativ hüquqi aktlar rəqabətə və inhisarçılığa aid normalar nəzərdə tutur.

---

[1] Sonralar bu maddə Azərbaycan Respublikasının 24.06.2005-ci il tarixli 949-IIQD nömrəli qanunu ilə Mülki Məcəllədən çıxarılmışdır (AR QT. Bakı, 2005, № 8).

Qanunlarla yanaşı, həm də **qanunqüvvəli aktlar** rəqabət münasibətlərinin və inhisarçılığın tənzimlənməsində vacib rol oynayır. Söhbət Prezident fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından gedir. Məlum olduğu kimi, normativ hüquqi aktların iki növü fərqləndirilir ki, bu növlərdən biri qanunlar, digəri isə qanunqüvvəli aktlardır. Belə aktlar sırasına həm də Azərbaycan Respublikasının antiinhisar orqanının qəbul etdiyi əmr və təlimatlar daxildir ki, onlar rəqabət və inhisarçılığın tənzimlənməsində vacib rol oynayır. Antiinhisar orqan dedikdə Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti (bundan sonra – Antiinhisar Xidməti) başa düşülür. Antiinhisar Xidməti Azərbaycan Respublikasında antiinhisar siyasəti həyata keçirən səlahiyyətli dövlət orqanıdır. Onun fəaliyyəti müvafiq əsasnamə ilə tənzimlənir ki, bu əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 aprel tarixli Fərmanı ilə təsdiq olunmuşdur.[1] Antiinhisar Xidmətinin həyata keçirdiyi fəaliyyətin hüquqi əsası sayılan həmin əsasnamə antiinhisar fəaliyyəti sahəsində onun həm üzərinə düşən vəzifələri, həm də malik olduğu hüquqları müəyyən edir. Bundan başqa, əsasnamə Antiinhisar Xidmətinin həyata keçirdiyi fəaliyyətin əsas istiqamətlərini də müəyyənləşdirir (2, 3 və 4-cü maddələr).

**Beynəlxalq müqavilələr** rəqabət hüququnun digər mənbə növüdür. Yaddan çıxarmaq olmaz ki, rəqabətin inkişafında, inhisarçılıq fəaliyyətinin qarşısının alınmasında, məhdudlaşdırılmasında və aradan qaldırılmasında beynəlxalq hüquq vacib rol oynayır. Məhz beynəlxalq hüquq sayəsində dünya bazarında vahid davranış qaydaları müəyyən etmək mümkün olur.[2] Beynəlxalq hüquq xüsusilə də inhisarçılıqla mübarizəyə mühüm əhəmiyyət verir. Belə ki, inhisarçılıq istehlakçılara zərər vurur, bütövlükdə milli iqtisadiyyatı pozur, iqtisadi sistemə mənfi tə-

---

[1] URL:http: /www.e.qanun.az (02.10.2017-ci il).

[2] *Rəqabət qaydaları barədə bax: məsələn,* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s. 169.

sir göstərərək onu ayrı-ayrı inhisarçılardan asılı vəziyyətə salır və digər arzuolunmaz nəticələrə gətirib çıxarır. Odur ki, inhisarçılıqla beynəlxalq miqyasda mübarizə aparılması zərurətə çevrilmişdir. Beynəlxalq hüquq səviyyəsində həm də məhdudlaşdırıcı işgüzar praktika ilə mübarizə aparılır ki, belə praktika haqsız rəqabətin növlərindən biridir.[1]

Məlum olduğu kimi, 1983-cü ildə «Sənaye mülkiyyətinin qorunması haqqında» Paris Konvensiyası qəbul olunmuşdur. Paris Konvensiyası haqsız rəqabətə yol verilməməsi haqqında norma nəzərdə tutur ki, həmin norma rəqabət münasibətlərinin tənzimlənməsində vacib rol oynayır. Azərbaycan Respublikası Paris Konvensiyasının iştirakçısıdır.[2]

MDB çərçivəsində antiinhisar siyasətin həyata keçirilməsinə dair bir neçə beynəlxalq saziş bağlanmışdır. Söhbət regional xarakterli iki beynəlxalq aktdan

gedir: 1) «Antiinhisar siyasətin uyğunlaşdırılması haqqında» Saziş (MDB üzvü olan ölkələr tərəfindən 12 mart 1993-cü ildə imzalanmışdır); 2) «Uyğunlaşdırılmış antiinhisar siyasətin həyata keçirilməsi haqqında» Müqavilə (25 yanvar 2000-ci ildə bağlanmışdır).[3]

### 19.1.3. Rəqabət hüququnun özünəməxsus prinsipləri

İqtisadi hüququn hər bir yarımsahəsinin özünəməxsus prinsipləri vardır. Həmin prinsiplər iqtisadi hüququn yarımsahələrinin mahiyyət və məzmununu müəyyənləşdirməyə imkan verən əsas normativ ideya və rəhbər başlanğıclardır.

Rəqabət hüququnun prinsiplərinə gəldikdə, qeyd etmək lazımdır ki, onun bir neçə özünəməxsus prinsipə malik olması haqqında danışmaq mümkündür. **Rəqabət azadlığı** belə prin-

---

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Академический курс. Учебник. М., 2004, с. 203.
[2] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.502.
[3] Ершова И.В. Предпринимательское право: учебное пособие. М., 2008, с.142.

siplərdən biridir; özü də rəqabət azadlığı bazar iqtisadiyyatının əsas və başlıca prinsipi kimi tanınır. Bu prinsipə görə, bazar təsərrüfatının ayrı-ayrı subyektləri mal (əmtəə) istehsalının və realizə olunmasının (alqı-satqısının) ən əlverişli şərtləri uğrunda sərbəst şəkildə və heç bir maneə olmadan rəqabət mübarizəsi apara bilərlər.

**Rəqabətin qorunması və müdafiəsi prinsipi** rəqabət hüququnun özünəməxsus digər prinsipi sayılır. Bu prinsipə görə, Azərbaycan Respublikasının bütün ərazisində bazar təsərrüfatı subyektləri arasında əmələ gələn rəqabət münasibətləri qanunla qorunur və müdafiə edilir. Azərbaycan Respublikası ərazisində vahid iqtisadi məkan mövcuddur ki, bu, rəqabət münasibətlərinin qorunmasının və müdafiə edilməsinin zəruri şərtidir. Əgər rəqabət münasibətləri pozularsa, həmin münasibətlər müdafiə olunur və buna görə məsuliyyət müəyyən edilir.

Rəqabət hüququ həm də belə bir özünəməxsus prinsipdən çıxış edir ki, **iqtisadi münasibətlərdə inhisarçılığa yol verilmir**. Bu prinsip öz normativ ifadəsini Konstitusiyaın 15-ci maddəsinin II hissəsində tapmışdır. Burada deyilir ki, Azərbaycan dövləti iqtisadi münasibətlərdə inhisarçılığa yol vermir. İnhisarçılıq dedikdə təsərrüfat (bazar) subyektləri və dövlət icra (idarəetmə) orqanları tərəfindən həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa və ya aradan qaldırmağa yönəlir (əks halda, elə bir vəziyyət yarana bilər ki, bu vəziyyətdə bazarda mal və ya xidmətin cəmi bir satıcısı olur).

**Haqsız rəqabətə yol verilməməsi prinsipi** də rəqabət hüququnun özünəməxsus prinsipləri sırasına daxildir; həm də bu prinsip Konstitusiya səviyyəsində formulə edilən prinsiplərdən biridir. Konstitusiyanın 15-ci maddəsinin II hissəsində deyilir ki, Azərbaycan dövləti iqtisadi münasibətlərdə haqsız rəqabətə yol vermir. Konstitusiyanın bu göstərişində məhz haqsız rəqabətə yol verilməməsi prinsipi ifadə edilmişdir. Haqsız rəqabətin nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, haqsız rəqabətə qanunvericilik səviyyəsində anlayış verilmişdir. «Haqsız

rəqabət haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində göstərilir ki, haqsız rəqabət bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzar nüfuzuna xələl yetirə bilən hərəkətlərdir.

Bazar subyektləri qanunla qadağan edilməmiş istənilən iqtisadi fəaliyyət növü ilə məşğul ola bilərlər (Konstitusiyanın 59-cu maddəsi). Lakin antiinhisar qanunvericiliyi inhisarçılığa və haqsız rəqabətə yönələn iqtisadi fəaliyyəti qadağan edir ki, bu, rəqabət hüququnun özünəməxsus prinsiplərindən biridir. Söhbət **inhisarçılığa və haqsız rəqabətə yönələn iqtisadi fəaliyyətin qadağan olunması prinsipindən** gedir.

Bunlardan başqa, rəqabət hüququna həm də **digər prinsiplər** xasdır. Həmin prinsiplər bunlardan ibarətdir: 1) inhisarçılıqdan müdafiə prinsipi; 2) inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması prinsipi; 3) antiinhisar qanunvericiliyinin pozulmasına görə məsuliyyət prinsipi; 4) rəqabətin vicdanla və ədalətli üsullarla aparılması prinsipi; 5) rəqabət mübarizəsinin qanunauyğun aparılması prinsipi; 6) inhisarçılığın qeyri-qanuni fəaliyyət olması prinsipi və s.

### 19.1.4. Rəqabət hüququnun subyektləri

Rəqabət münasibətlərinin potensial (mümkün) iştirakçıları rəqabət hüququnun **subyektləri** adlanır. Hansı şəxs rəqabət münasibətlərinin iştirakçısı ola bilərsə, həmin şəxs də rəqabət hüququnun subyekti kimi tanınır.

Qeyd etdiyimiz kimi, rəqabət hüququnun nizamasalma predmetinə daxil olan rəqabət münasibətləri bazar təsərrüfatı subyektləri (sadəcə olaraq – bazar subyektləri) arasında əmələ gəlir. Odur ki, rəqabət münasibətlərinin potensial (mümkün) iştirakçıları **bazar subyektlərindən** ibarətdir. Bazar subyektləri sırasına, ilk növbədə, bazar münasibətlərinin iştirakçıları olan təsərrüfat subyektləri aiddir. **Təsərrüfat subyektləri** dedikdə, hər şeydən əvvəl, hüquqi şəxs olan müəssisələr (istehsal, kənd

təsərrüfatı, ticarət, məişət xidməti göstərən və s. müəssisələr) başa düşülür. Müəssisələr, yəni **hüquqi şəxslər** bazarda təsərrüfat subyekti qismində eyni zamanda həm satıcı, həm də alıcı qismində (rolunda) çıxış edə bilərlər. Unutmaq olmaz ki, bazarın bir-biri ilə qarşılıqlı münasibətdə olan iki subyekti vardır:[1] 1) satıcı; 2) alıcı.

İstehsal fəaliyyəti ilə nəinki müəssisələr (hüquqi şəxslər), həmçinin **fiziki şəxslər** də məşğul ola bilərlər; onlar fərdi istehsalçılar adlanır. Fərdi istehsalçılar da bazar təsərrüfatı subyekti hesab edilirlər. Bazar təsərrüfatı subyektlərinə həm də istehlakçılar aiddir.

Bazar subyektləri dedikdə eyni zamanda bazar münasibətlərinin iştirakçıları olan **dövlət idarəetmə orqanları** başa düşülür. «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə görə, bazar subyektləri bazar münasibətlərinin iştirakçıları olan təsərrüfat subyektləri və idarəetmə orqanlarıdır.

Rəqabət mübarizəsi, hər şeydən əvvəl, satıcılar arasında gedir. Digər tərəfdən, alıcılar arasında da rəqabət mübarizəsi aparılır. Bunlardan əlavə, rəqabət münasibətləri həm də satıcı və alıcılar arasında əmələ gəlir. Buna görə də rəqabət münasibətlərinin iştirakçıları **satıcı** və **alıcıdır**; məhz onlar rəqabət hüququnun subyekti kimi tanınır.

## 19.2. İnhisarçılıq fəaliyyəti və haqsız rəqabət

### 19.2.1. İnhisarçılıq fəaliyyəti

Rəqabət hüququ inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması kimi vacib prinsipdən çıxış edir. Bu prinsipin mahiyyətini aydınlaşdırmaq üçün, ilk növbədə, inhisarçılıq fəaliyyətini xarakterizə edən əlamətlərlə tanış olmalıyıq. Həmin əlamətlər aşağıdakılardan ibarətdir: 1) təsərrüfat subyektlərinin bazardakı hökmran mövqeyindən sui-istifadə etmələri; 2) təsərrüfat sub-

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 18.

yektlərinin rəqabəti məhdudlaşdıran saziş bağlamaları və ya müəyyən hərəkəti etmək barədə razılığa gəlmələri; 3) dövlət icra hakimiyyəti orqanlarının rəqabətin məhdudlaşdırılmasına yönələn akt qəbul etmələri və hərəkət yerinə yetirmələri; 4) bələdiyyələrin rəqabəti məhdudlaşdıran akt qəbul etmələri və s.

**İnhisarçılıq fəaliyyəti** dedikdə bazar subyektlərinin, yəni təsərrüfat subyektlərinin və ya icra (idarəetmə) hakimiyyəti orqanlarının elə bir hərəkəti başa düşülür ki, bu hərəkət rəqabətə yol verməməyə, rəqabəti məhdudlaşdırmağa və ya onun aradan qaldırılmasına yönəlir. Bu fəaliyyətlə bağlı məsələlərin hüquqi tənzimlənməsi «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu (1993-cü il) vastəsilə həyata keçirilir. Həmin qanunun II bölməsi məhz inhisarçılıq fəaliyyətinə həsr olunmuşdur; təsadüfi deyildir ki, bu bölmə «İnhisarçılıq fəaliyyəti» adlanır.[1] Həmin bölməyə görə, inhisarçılıq fəaliyyətinin aşağıdakı növləri fərqləndirilir: 1) **dövlət inhisarçılığı** – icra hakimiyyəti orqanlarının rəqabətin məhdudlaşdırılmasına, yaxud aradan qaldırılmasına, təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti (maddə 5); 2) **sahə inhisarçılığı** – sahə idarəetmə orqanlarının təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinə zidd olaraq rəqabətin məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxaran və ya gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti (maddə 6); 3) **yerli inhisarçılıq** – yerli icra hakimiyyəti orqanlarının təsərrüfat subyektlərinin və istehlakçıların mənafeyinə zidd olaraq rəqabətin məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxaran və ya gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti (maddə 7); 4) **təsərrüfat subyektlərinin inhisarçılığı** – bazarda hökmran mövqe tutan təsərrüfat subyektlərinin rəqabətin məhdudlaşdırılmasına, digər təsərrüfat subyektinin və istehlakçıların mənafeyinə toxunmasına gətirib çıxaran, yaxud gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti (maddə 8); 5) **maliyyə-kredit inhi-**

---

[1] URL:http:/www.economy.gov.az-antiinhisar-fealiyyeti.pdt (24.10.2017-ci il).

**sarçılığı** – maliyyə-kredit təşkilatlarının rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran, yaxud gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti (maddə 9); 6) **bazar subyektlərinin üfüqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq** – rəqabətin məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən belə sazişlər icra hakimiyyəti və idarəetmə orqanları, təsərrüfat subyektlərinin özləri, yaxud icra hakimiyyəti, idarəetmə orqanları və təsərrüfat subyektləri arasında bağlana bilər (maddə 10); 7) **təbii inhisarçılıq** – bu və ya digər malların istehsalı və xidmətlər sahəsində özlərinin təbii inhisar mövqeyindən sui-istifadə edərək ölkənin, təsərrüfat subyektlərinin mənafelərinə və istehlakçıların hüquqlarına ziyan vuran fəaliyyət (maddə 11); 8) **patent-lisenziya inhisarçılığı** – hər hansı mal bazarında rəqabəti məhdudlaşdırmaq, yaxud aradan qaldırmaq məqsədilə özlərinin patent və lisenziyalar üzərində inhisar hüququndan sui-istifadə edən idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin qeyri-qanuni fəaliyyəti (maddə 12); 9) **yerin təkindən istifadə inhisarçılığı** – dövlət hakimiyyəti orqanlarının, habelə hər hansı təsərrüfat subyektlərinin (yer təki istifadəçilərinin) qeyri-qanuni fəaliyyəti (maddə 12-1).

Qeyri-qanuni fəaliyyət olması səbəbindən inhisarçılığın qarşısı alınmalı, məhdudlaşdırılmalı və ya aradan qaldırılmalıdır. Bu kimi vəzifələri yerinə yetirmək rəqabət hüququnun üzərinə düşür. Bundan ötrü, yəni inhisarçılıq fəaliyyətinin qarşısını almaq, inhisarçılıq fəaliyyətini məhdudlaşdırmaq və ya onu aradan qaldırmaq üçün rəqabət hüququ **antiinhisar tənzimləmə vasitələri** nəzərdə tutur. Belə vasitələr «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda müəyyən edilmişdir. Adıçəkilən qanunun III bölməsi antiinhisar tənzimləmə vasitələrinin müəyyən edilməsinə həsr olunmuşdur. Həmin bölməyə görə, antiinhisar tənzimləmə vasitələri üç növə bölünür: 1) inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına yönələn vasitələr (maddə 13, 13-1); 2) inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılmasına yönələn vasitələr (maddə 14); 3) inhisarçılıq fəaliyyətinin aradan qaldırılmasına yönələn vasitələr

(maddə 15). Məsələn, ilkin dövlət nəzarətini həyata keçirmək inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına yönələn antiinhisar tənzimləmə vasitəsidir.

### 19.2.2. Haqsız rəqabət

Haqsız rəqabətlə bağlı olan məsələlər «Haqsız rəqabət haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (1995-ci il) tənzimlənir. Adıçəkilən qanunda haqsız rəqabətə anlayış verilir və onun formaları müəyyənləşdirilir. Sözügedən qanunun 1-ci maddəsinə görə, bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzar nüfuzuna xələl yetirə bilən hərəkətlər **haqsız rəqabət** adlanır.

Odur ki, başqa təsərrüfat subyektlərinə və onların işgüzar nüfuzuna zərər (ziyan) vurduğuna görə bazar subyektləri bu cür hərəkətlərdən, yəni haqsız rəqabətdən qorunmalı və müdafiə edilməlidir. Axı unutmaq olmaz ki, rəqabət hüququ haqsız rəqabətdən qorunmaq və müdafiə edilmək kimi vacib prinsipdən çıxış edir. Bu prinsipi həyata keçirmək üçün xarici ölkələrin qanunvericiliyində XX əsrin əvvəllərindən başlayaraq haqsız rəqabəti məhdudlaşdırmağa, qarşısının alınmasına və aradan qaldırılmasına yönələn qanunlar qəbul edilmişdir. Məsələn, Avstriyada 1923-cü ildə haqsız rəqabət haqqında federal qanun qəbul olunmuşdur; Kanadada 1952-ci ildə əmtəə nişanları və haqsız rəqabət haqqında qanun qəbul edilmişdir; Çində haqsız rəqabətlə mübarizə aparmaq üçün «Haqsız rəqabətin qadağan olunması haqqında» Qanundan (1993-cü il) istifadə olunur; Ukraynada «Haqsız rəqabətdən müdafiə haqqında» Qanun (1996-cı il) tətbiq edilir; Rusiya Federasiyasında 1991-ci ildə «Rəqabət və əmtəə bazarlarında inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması haqqında» Qanun qəbul edilmişdir və s.[1]

---

[1] Предпринимательское право. Серия «Учебники и учебные пособия» / Отв. ред. С.А. Зинченко, Г.И.Колесник. Ростов-на-Дону, 2003, с.316.

Xatırlatmaq istərdik ki, Azərbaycan Respublikasında «Haqsız rəqabət haqqında» Qanun 2 iyun 1995-ci ildə qəbul olunmuşdur.[1] Həmin qanunun II fəsli haqsız rəqabətə həsr edilmişdir. Bu fəslin 3-cü maddəsində haqsız rəqabətin aşağıdakı formaları sadalanır: 1) rəqibin təsərrüfat fəaliyyətinin təqlidi; 2) rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması; 3) rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə; 4) haqsız sahibkarlıq fəaliyyəti; 5) haqsız işgüzarlıq davranışı; 6) istehlakçıların çaşdırılması. Bu və ya digər hərəkətin sadalanan formalardan hansına aid edilməsi «Haqsız rəqabət haqqında» Qanunun 4 – 9-cu maddələri ilə müəyyən olunur ki, həmin hərəkətlərə yol verilmir: qanunun 4-cü maddəsi müəyyən edir ki, hansı hərəkətlər rəqibin təsərrüfat fəaliyyətini təqib edən hərəkətlər hesab olunur; qanunun 5-ci maddəsi o hərəkətləri sadalayır ki, həmin hərəkətlərin edilməsi rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınmasına gətirib çıxarır; qanunun 6-cı maddəsi rəqibin təsərrüfat fəaliyyətinə müdaxilənin yol verilməməsini təsbit edir; qanunun 7-ci maddəsi haqsız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə səbəb olan hərəkətləri müəyyən edir; qanunun 8-ci maddəsində haqsız işgüzarlıq davranışını ifadə edən hərəkətlər sadalanır; qanunun 9-cu maddəsi müəyyənləşdirir ki, bazar subyektlərinin hansı hərəkətləri istehlakçıları çaşdırmağa yönəlmişdir.

Bazar subyektləri «Haqsız rəqabət haqqında» Qanunun tələblərini yerinə yetirməyə borcludurlar ki, bu, onların üzərinə düşən vəzifə hesab edilir. Digər tərəfdən, həmin qanuna riayət olunması sahəsində Antiinhisar Xidməti geniş səlahiyyətlərə malikdir. Belə ki, bu və ya digər formada haqsız rəqabətə yol verilərsə Antiinhisar Xidməti: 1) müvafiq icra hakimiyyəti orqanlarına, bazar subyektlərinə və onların vəzifəli şəxslərinə qanun pozuntusunun dayandırılması və onun nəticələrinin aradan qaldırılması ilə bağlı icrası məcburi olan göstərişlər verə bilər; 2) maliyyə sanksiyaları və cərimələr tətbiq edə bilər; 3) haqsız rəqabət nəticəsində əldə olunmuş mənfəətin büdcəyə ödənil-

[1] URL:http:/www.genprosecutor.gov.az (25.10.2017-ci il).

məsi və vurulmuş zərərin ödənilməsi ilə bağlı məhkəməyə müraciət edə bilər; 4) əgər törədilmiş hərəkətdə cinayət əlamətləri olarsa, materialları cinayət işi qaldırılması məsələsinin həlli məqsədilə prokurorluğa göndərə bilər.

Maliyyə sanksiyaları və cərimələrin tətbiq olunması ilə bağlı məsələlər «Haqsız rəqabət haqqında» Qanunun 12-ci maddəsi ilə tənzimlənir. Maliyyə sanksiyaları və cərimələr məhz bu qanunun tələblərinin pozulmasına görə bazar subyektlərinə tətbiq olunur. Maliyyə sanksiyaları bazar subyektləri və onların vəzifəli şəxsləri tərəfindən 30 gün ərzində qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilir. Eyni zamanda qanunsuz əldə olunan mənfəət məhkəmənin qərarı ilə dövlət büdcəsinə alınır (maddə 13). Belə ki, haqsız rəqabət fəaliyyəti nəticəsində təsərrüfat subyektləri qanunsuz mənfəət əldə edə bilərlər. Əldə olunmuş qanunsuz mənfəət məhkəmə qərarı ilə dövlət büdcəsinə ödənilir. Haqsız rəqabət fəaliyyəti nəticəsində həm də zərər vurula bilər ki, həmin zərərin əvəzinin ödənilməsi mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada həll edilir.

# XIX FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XX FƏSİL.*
# TİCARƏT HÜQUQU

## 20.1. Ticarət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi

### 20.1.1. Ticarət hüququnun anlayışı və iqtisadi hüquq sistemində tutduğu yer

Məlum olduğu kimi, iqtisadi hüququn xüsusi hissəsi bir neçə yarımsahədən ibarətdir ki, onlardan biri də ticarət hüququ adlanır. Ticarət hüququnun iqtisadi hüququn yarımsahəsi kimi tanınması isə heç də təsadüfi – süni xarakter daşımır. Məsələ burasındadır ki, ticarət istehlak üçün hazır olan malların istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edən xalq təsərrüfatı sahəsidir.[1] Xalq təsərrüfatı isə bu və ya digər ölkənin iqtisadiyyatı deməkdir. Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, müasir şəraitdə «iqtisadiyyat» termini bir neçə mənada işlədilir; bu mənalardan biri məhz iqtisadiyyatdır. Deməli, xalq təsərrüfatı həm də iqtisadiyyat mənasında işlədilən termindir.[2] Buna görə də xalq təsərrüfatı dedikdə, ilk növbədə, bu və ya digər ölkənin iqtisadiyyatı başa düşülür. Odur ki, ticarət anlayışının məna yükü altında malların (əmtəələrin) istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edən iqtisadiyyat sahəsi anlaşılır. Madam ki, ticarət iqtisadiyyat sahəsidir, əlbəttə, onunla (ticarətlə) bağlı yaranan münasibətlər – **ticarət münasibətləri** iqtisadi hüquqla tənzimlənməlidir. Nəzərdən qaçırmaq olmaz ki, hüququn müstəqil sahələrindən biri olan iqtisadi hüquq iqtisadiyyat barəsində və onunla bağlı yaranan ictimai münasibətləri tənzimləyir. İqtisadiyyatın müvafiq sahəsi olduğuna görə ticarət barəsində əmələ gələn münasibətlər də, təbii ki, iqtisadi hüquq vasitəsilə nizama salınmalıdır. Bu cür tənzimetmə işini həyata keçirmək üçün iqtisadi hüquq öz tərkibində «ticarət hü-

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 207.

[2] Экономическая теория. Учебник / Под общ. ред. В.И. Видяпина, А.И.Добрынина и др. М., 2002, с.15.

ququ» kimi struktur element ayırır ki, həmin element iqtisadi hüququn **yarımsahəsi** hesab edilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq edilmişdir. Bu fərmanda ticarət iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyən olunur.[1]

Bundan başqa, iqtisadi hüquq iqtisadi fəaliyyətin ayrı-ayrı növlərini (sahibarlıq, bank, maliyyə, kənd təsərrüfatı və digər iqtisadi fəaliyyət növlərini) tənzimləyir. Ticarət fəaliyyəti isə iqtisadi fəaliyyətin növlərindən biri hesab edilir ki, həmin fəaliyyət bazar subyektləri olan alıcılar və satıcılar arasında (sənaye müəssisələri, ticarət müəssisələri, sənaye və ticarət müəssisələri, ticarət müəssisələri və fiziki şəxslər, fiziki şəxslərin öz aralarında) həyata keçirilir. İqtisadi hüquq ticarət fəaliyyətini məhz özünün yarımsahəsi olan ticarət hüququ vasitəsilə tənzimləyir. Digər tərəfdən, ticarət hüququ ticarət dövriyyəsi ilə əlaqədar məsələləri nizamlayır və həll edir. Ticarət dövriyyəsi isə iqtisadi dövriyyənin tərkib hissəsidir.[2] İqtisadi dövriyyə ilə bağlı məsələlər iqtisadi hüququn nizamasalma predmetinə daxildir. İqtisadi hüquq iqtisadi dövriyyənin tərkib hissəsi olan ticarət dövriyyəsini qaydaya salmaq və tənzimləmək üçün məhz öz yarımsahəsi olan ticarət hüququndan istifadə edir. Nəzərdən qaçırmaq olmaz ki, ticarət dövriyyəsi hüquqi tənzimetmənin obyektidir. Məsələn, Avropa İttifaqında ticarət dövriyyəsi Avropa İttifaqı hüququ (Avropa hüququ) vasitəsilə tənzimlənir.[3]

---

[1] «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı // Azərbaycan qəzeti, № 471 (7415), 7 dekabr 2016-cı il.

[2] Шершеневич Г.Ф. Учебник торгового права / по изданию 1914 года. М., 1994, с. 24.

[3] Право Европейского Союза: правовое регулирование торгового оборота. Учебное пособие / Под ред. В.В.Безбаха, А.Я.Капустина, В.К.Пучинского. М., 1999, с.183-204; Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s.306-337.

Məlum olduğu kimi, beynəlxalq (publik) hüquq bir neçə müstəqil hüquq sahələrindən ibarətdir ki, beynəlxalq iqtisadi hüquq onlardan biridir. Beynəlxalq iqtisadi hüquq vasitəsilə beynəlxalq iqtisadi münasibətlərin əsas forması olan beynəlxalq ticarətin tənzimlənməsi həyata keçirilir.[1] Beynəlxalq iqtisadi hüququn özü bir neçə yarımsahədən ibarətdir; beynəlxalq ticarət hüququ onlardan biri kimi tanınır.[2] Madam ki, beynəlxalq ticarət hüququ beynəlxalq iqtisadi hüququn tərkibinə yarımsahə kimi daxil olur, təbii ki, ticarət hüququ da iqtisadi hüququn yarımsahəsi hesab edilməlidir.

Beləliklə, **ticarət hüququ** dedikdə iqtisadi hüququn elə bir yarımsahəsi başa düşülür ki, bu yarımsahə bazar subyektləri arasında yaranan ticarət münasibətlərini tənzimləyən hüquq normalarından ibarətdir.

### 20.1.2. Ticarət hüququnun nizamasalma predmeti və mənbələri

Ticarət hüququnun əsas və başlıca funksiyası ticarət münasibətlərini tənzimləməkdən ibarətdir. Məhz ticarət münasibətləri iqtisadi hüququn yarımsahəsi olan ticarət hüququnun **nizamasalma predmetini** təşkil edir. Ticarət münasibətləri isə ticarətlə bağlı olaraq və və onun barəsində ticarət hüququnun subyektləri arasında əmələ gəlir. Odur ki, hər şeydən əvvəl, ticarət anlayışı ilə tanış olmalıyıq. **Ticarət** dedikdə elə bir iqtisadi fəaliyyət növü başa düşülür ki, bu fəaliyyət növü istehlak üçün hazır olan malların istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edir.

**Ticarətin predmetinə** gəldikdə, qeyd etməliyik ki, ticarətin predmet dairəsi kifayət qədər genişdir. Buraya, ilk növbədə, **maddi xarakterli mallar** (əmtəələr) aiddir. Məsələn, maşın, dəzgah, avadanlıq, hazır məhsul, xammal və s. əmtəələr maddi xarakterli mallardır.

---

[1] Фомичев В.И. Международная торговля. Учебник. М., 2001, с. 3.
[2] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 240.

Ticarətin predmetinə həm də **qeyri-maddi əmlak**, yəni dəyəri və pul qiyməti olan hüquqlar aiddir. Məsələn, sənaye mülkiyyəti obyektlərinə, qiymətli kağızlara (istiqraz, veksel, çek və s.) olan hüquqlar qeyri-maddi əmlakdır.

Ticarətin predmeti həm də **xidmət** ola bilər. Məsələn, nəqliyyat xidməti, maliyyə xidməti, sığorta xidməti, turizm xidməti, informasiya xidməti və digər xidmət növlərinin ticarətin predmeti olması mümkündür. Unutmaq olmaz ki, xidmət xüsusi növ əmtəədir.

Ticarətin növlərinə gəldikdə, qeyd etmək vacibdir ki, bu və digər əsasa (meyara) görə onun müxtəlif növləri fərqləndirilir. Məsələn, daxili ticarət, beynəlxalq ticarət, xarici ticarət, dövlət ticarəti, xüsusi ticarət, kəndli-fermer ticarəti və s. Ticarət hüququnun nizamasalma predmetinə məhz ticarətin bu kimi növləri ilə bağlı olaraq yaranan ictimai münasibətlər daxildir.

Ticarət hüququnun **mənbələrinə** gəldikdə, qeyd etməliyik ki, **normativ hüquqi aktlar** ticarət hüququnun əsas mənbə növüdür. Xüsusilə də Azərbaycan Respublikasının qanunları ticarət hüququnun mənbəyi kimi vacib rol oynayır. Söhbət, hər şeydən əvvəl, dövlətin əsas qanunu olan **Konstitusiyadan** (1995-ci il) gedir. İlk növbədə, qeyd etməliyik ki, Konstitusiya nəinki iqtisadi hüququn, həmçinin onun bütün yarımsahələrinin, o cümlədən ticarət hüququnun normativ-hüquqi bazası hesab olunur. Onun ayrı-ayrı maddələri ticarət hüququ üçün mühüm əhəmiyyətə malikdir. Məsələn, Konstitusiyanın 94-cü maddəsi Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalara həsr olunmuşdur ki, həmin qaydalar bu və ya digər məsələyə aiddir; ticarət işi həmin məsələlərdən biridir. Belə ki, Azərbaycan Respublikasının Milli Məclisi həm də ticarət işi kimi vacib məsələyə dair ümumi qaydalar müəyyən edir.

Bir sıra ölkələrdə **Ticarət Məcəlləsi** qəbul edilmişdir ki, həmin məcəllə ticarət fəaliyyətini nizamlayan və ticarət hüququnun mənbəyi olan əsas qanunvericilik aktı kimi tanınır.[1] Mə-

---

[1] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.В.Безбаха и В.К.Пучинского. М., 2004, с. 12.

sələn, Fransada 1807-ci ildə qəbul edilmiş Ticarət Məcəlləsi qüvvədədir; Almaniyada Ticarət Qanunnaməsi (1900-cı il) tətbiq olunur; Yaponiyada Ticarət Məcəlləsi qüvvədədir ki, həmin məcəllə 1899-cu ildə qəbul olunmuşdur.

Azərbaycan Respublikasına gəldikdə, qeyd etməliyik ki, bizim ölkədə hələlik Ticarət Məcəlləsi qəbul edilməmişdir. İqtisadi ədəbiyyat səhifələrində göstərilir ki, Azərbaycan Respublikasında Ticarət Məcəlləsi hazırlanmaqdadır.[1]

Ticarət Məcəlləsi qəbul olunan ölkələrdə (məsələn, Almaniya, Fransa, Yaponiya və s.) ticarət fəaliyyətini tənzimləyən müvafiq hüquq normaları Ticarət Məcəlləsində təsbit edilir və bununla həmin normalar Mülki Məcəllədən ayrılmışdır.[2] Azərbaycan Respublikasında isə ticarət dövriyyəsini tənzimləyən hüquq normaları Mülki Məcəllədə nəzərdə tutulur ki, **Mülki Məcəllə** ticarət hüququnun mənbəyi olan vacib qanunlar sırasına daxildir. Mülki Məcəllə ticarət fəaliyyətinə aid kifayət sayda hüquq norması müəyyən edir. Məsələn, MM-də alqı-satqı (maddə 567), pərakəndə alqı-satqı (maddə 614), malların göndərilməsi (maddə 627) və s. müqavilələrə aid normalar nəzərdə tutulur ki, həmin müqavilələr alqı-satqı, pərakəndə ticarət, malların göndərilməsi və s. əmtəə dövriyyəsini rəsmiləşdirir.

Azərbaycan Respublikasında ticarət fəaliyyətinin hüquqi tənzimlənməsi həm də digər qanunlar vasitəsilə həyata keçirilir ki, «**Elektron ticarət haqqında**» **Azərbaycan Respublikasının Qanunu** (2005-ci il) həmin qanunlardan biridir.[3] Bu qanun elektron ticarət əməliyyatlarının aparılması ilə bağlı məsələləri tənzimləyir.

Ticarət hüququnun mənbəyi təkcə qanunlardan ibarət deyil. Ticarət fəaliyyətinin tənzimlənməsində həm də **qanunqüvvəli**

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 210.

[2] Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование. Руководитель авторского коллектива - В.В. Залесский . М., 1999, с.1.

[3] URL:http://www.wipo.it (28.10.2017-ci il).

**normativ aktlardan** istifadə olunur ki, belə aktlar ticarət hüququnun mənbəyi kimi tanınır. Ticarət fəaliyyətinin həyata keçirilməsinə aid olan bu və ya digər məsələ həm Prezident fərmanları, həm də Nazirlər Kabinetinin qərarları ilə tənzimlənə bilər. Xatırlatmaq istərdik ki, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları qanunqüvvəli normativ aktların ayrı-ayrı növləridir.

Ticarət fəaliyyətinin tənzimlənməsində Azərbaycan Respublikasının bağladığı və tərəfdar çıxdığı **beynəlxalq müqavilələr** də mühüm rol oynayır. Odur ki, belə müqavilələr ticarət hüququnun mənbə növü kimi tanınır. Unutmaq olmaz ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir (Konstitusiyanın 148-ci maddəsinin II hissəsi).

Ticarət hüququnun mənbəyi olan beynəlxalq müqavilələrin növləri kifayət qədər çoxdur və onların aşağıdakı növləri fərqləndirilir:[1] 1) əmtəə dövriyyəsi və ödənişlər haqqında sazişlər; 2) hökumətlərarası ticarət sazişləri; 3) ticarət konvensiyaları; 4) klirinq sazişləri. Beynəlxalq müqavilələrin bu kimi növlərində bir dövlətin ticarət fəaliyyəti subyektlərinin digər ölkənin ərazisində hüquqi vəziyyətinə, ticarət münasibətlərinin prinsiplərinə, tarif və qeyri-tarif tənzimetmə tədbirlərinin tətbiqinə, ticarət hesablaşmalarına, malların tranzitinə və digər məsələlərə aid normalar müəyyənləşdirilir. Bu növ beynəlxalq müqavilələr **beynəlxalq ticarət müqavilələri** adlanır.

Ticarət hüququnun daha bir mənbə növü də vardır ki, həmin mənbə növü **ticarət adətləri** adlanır. Ticarət adətləri hüquqi adətin növlərindən biridir. Hüquqi adət dedikdə tarixən dəfələrlə təkrar olunan və dövlət tərəfindən ümumməcburi norma kimi sanksiyalaşdırılan davranış qaydası başa düşülür. Ticarət adəti həm daim, həm də eyni cür təkrarlanan konkret faktik münasibətlərə əsaslanmaqla ticarət sahəsində əmələ gələn qaydadır. Ticarət adəti o halda ticarət hüququnun mənbəyi ola bilər ki, həmin adət dövlət tərəfindən sanksiyalaşdırılmış olsun;

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.244-245.

məhz dövlət tərəfindən sanksiyalaşdırıldıqda ticarət-hüquq norması (hüquqi adət) kimi qəbul olunur və tətbiq edilir. Beynəlxalq ticarət və dəniz ticarətində ticarət adətinin mühüm əhəmiyyəti vardır; xarici iqtisadi-ticarət əməkdaşlıq formalarının nizamlanmasında ticarət adətlərinin rolu xüsusilə böyükdür. Nəzərdən qaçırmaq olmaz ki, beynəlxalq ticarət adətləri beynəlxalq ticarət hüququnun vacib mənbə növü hesab edilir. Belə adətlər uzun müddət beynəlxalq ticarət münasibətlərində təkrarlanan davranış qaydalarıdır.[1]

### 20.1.3. Ticarət hüququnun özünəməxsus prinsipləri

İqtisadi hüququn yarımsahəsi olan ticarət hüququ özünəməxsus prinsiplərə əsaslanır. Onlar iqtisadi hüququn sahədaxili prinsiplərinə aid olunur. Yaddan çıxarmamalıyıq ki, iqtisadi hüququn hər bir yarımsahəsinə xas olan prinsiplər onun sahədaxili prinsipləri kimi tanınır.

Ticarət hüququna **sərbəst ticarət fəaliyyəti prinsipi** xasdır. Bu prinsipə görə subyektlər qanunla nəzərdə tutulmuş qaydada maneəsiz olaraq ticarət fəaliyyəti ilə məşğul ola bilər. Həmin prinsip öz ifadəsini həm də bunda tapır ki, ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı qərarlar qəbul edərkən ticarət təşkilat və müəssisələri nə dövlət, nə də bələdiyyə orqanlarından asılı olurlar. Bu orqanlar ticarət təşkilat və müəssisələrinin fəaliyyətinə qarışa və müdaxilə edə bilməzlər. Onlar ticarət fəaliyyətinin bu və ya digər növünü həyata keçirməyə məcbur edilə bilməz.

Ticarət hüququ həm də **ticarətin liberallaşdırılması prinsipini** müəyyənləşdirir. Bu prinsip öz ifadəsini bunda tapır ki, ticarətin inkişafının qarşısını alan maneələr aradan qaldırılmalı, idxal-ixrac əməliyyatlarının aparılması həm qadağan edilməməli, həm də məhdudlaşdırılmamalı, idxal olunan mallara görə gömrük tarifləri azaldılmalı, xarici mallara proteksionist və dis-

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 245.

kriminasiya xarakterli vergi dərəcələri tətbiq etməkdən çəkinməli və digər hərəkətlər yerinə yetirilməlidir.

Ticarət hüququna həm də **tranzit daşımalarının sərbəstliyi prinsipi** xasdır. Qeyd etdiyimiz kimi, ticarətin əsas predmeti mallardır; malların ticarəti isə onların bir ölkədən digərinə daşınmasını nəzərdə tutur. Bu zaman tranzit daşımaları həm gömrük rüsumundan, həm də tranzit ödənişlərindən azad edilməklə həyata keçirilir. Unutmaq olmaz ki, tranzit daşımaları beynəlxalq ticarətin həyata keçirilməsində vacib rol oynayır. Buna görə də dövlətlərin ərazisi vasitəsilə tranzit ticarətinin həyata keçirilməsinə təminat verilir.

Tranzit daşımalarının nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, tranzit latınca «transitus» sözündən olub, keçmə və ya keçid mənalarını ifadə edir.[1] Odur ki, **tranzit daşımaları** dedikdə malların (yüklərin) bir məntəqədən ara məntəqələri olmadan digər məntəqələrə, yəni təyinat yerinə çatdırılması başa düşülür. Tranzit daşımaları həm ölkə daxilində, həm də ayrı-ayrı ölkələr arasında həyata keçirilə bilər.

Ticarət hüququ həm də **preferensiallıq prinsipindən** çıxış edir. Sözügedən prinsip bunda ifadə olunur ki, ticarət müəssisələri ticarət güzəştlərindən istifadə etməlidir. Ticarət güzəştləri tədavül xərclərini ödəmək və ticarət müəssisələrinin gəlir (mənfəət) əldə etməsini təmin etmək məqsədilə istehsalçı müəssisələrin malın pərakəndə satış qiymətinin bir hissəsinin ticarət müəssisələrinə güzəşt etməsidir. Belə güzəştlər, bir qayda olaraq, malın pərakəndə satış qiymətinə görə hesablanır və faizlə müəyyən edilir.

**Ticarət infrastrukturunun yaradılması prinsipi** də ticarət hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, ticarət fəaliyyəti ölkədə mövcud olan ticarət infrastrukturu vasitəsilə həyata keçirilir. **Ticarət infrastrukturu** dedikdə ticarətə xidmət edən bazarlar, anbarlar, soyuducular, nəqliyyat, rabitə,

---

[1] *«Tranzit» ifadəsi (latınca transitus - keçmə, keçid; ingiliscə - transit) barədə ətraflı bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 865.

istehsal vasitələrinin və xalq istehlakı mallarının realizə olunmasını həyata keçirən və ya onları satışa hazırlayan digər sistemlər kompleksi başa düşülür.

Ticarət hüququ həm də **ticarət işinin ticarət şəbəkəsi vasitəsilə yerinə yetirilməsi prinsipindən** çıxış edir. **Ticarət şəbəkəsi** xalq istehlakı mallarının satışı ilə məşğul olan müəssisələrin məcmusudur. Onun iki növü fərqləndirilir: 1) topdansatış ticarət şəbəkəsi; 2) pərakəndə satış ticarət şəbəkəsi. Birinci növ ticarət şəbəkəsi ümumi mal və ixtisaslaşdırılmış anbarlardan, soyuducu anbarlardan, satış-təchizat bazarlarından ibarətdir.

Pərakəndə satış ticarət şəbəkəsinə isə mağazalar, dükanlar, kiosklar, ictimai iaşə müəssisələri (restoranlar, yeməkxanalar, qəlyanaltılar və s.) aid olunur.

### 20.1.4. Ticarət hüququnun subyektləri

Ticarət hüququnun **subyektləri** dedikdə ticarət-hüquq münasibətinin iştirakçısı olmaq imkanına (qabiliyyətinə) malik olan şəxslər başa düşülür. Belə imkana (qabiliyyətə), ilk növbədə, ticarət fəaliyyəti ilə məşğul olan şəxslər malikdirlər. Odur ki, ticarət fəaliyyəti ilə məşğul olan şəxslər ticarət hüququnun subyekti hesab edilirlər. Ticarət fəaliyyəti ilə məşğul olmaq həmin şəxslərin peşəsidir. Əgər hər hansı şəxs ticarət işini peşə şəklində həyata keçirərsə, həmin şəxs ticarət fəaliyyəti ilə məşğul olan şəxs kimi tanınır. Ticarətlə məşğul olmaq onun peşəsi olmalıdır.[1]

Ticarət fəaliyyəti ilə, hər şeydən əvvəl, **hüquqi şəxs** statuslu müəssisələr məşğul olurlar. Söhbət ticarət müəssisələrindən gedir. **Ticarət müəssisələri** ticarət hüququnun əsas və başlıca subyekti kimi tanınır. Onlar sənaye, kənd təsərrüfatı və s. müəssisələrlə, habelə ticarət fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə ticarət münasibətlərinə daxil ola bilərlər.

---

[1] Шершеневич Г.Ф. Учебник торгового права / по изданию 1914 года. М., 1994, с.61.

Ticarət fəaliyyəti ilə həm də **fiziki şəxslər** məşğul ola bilərlər. Odur ki, fiziki şəxslər də ticarət hüququnun subyektləri sırasına daxildir. Ticarətlə məşğul olmaq onun peşəsi olmalıdır. Ticarətlə peşə şəklində məşğul olan bu kimi fiziki şəxslər xarici ölkələrdə «kommersant» adlanır. Söhbət o xarici ölkələrdən gedir ki, həmin ölkələrdə ticarət hüququ müstəqil hüquq sahəsi kimi tanınır. Xatırlatmaq istərdik ki, roman-german ailəsinə (hüquq sisteminə) daxil olan bir sıra ölkələrdə (məsələn, Fransa, Almaniya, Belçika, İspaniya və s.) ticarət hüququ müstəqil hüquq sahəsi hesab olunur; məhz həmin ölkələrin ticarət hüququna «kommersant» anlayışı məlumdur. Kommersant belə ölkələrdə sahibkarlıq (təsərrüfat) hüququnun əsas və başlıca subyekti kimi tanınır.[1] Məsələn, Fransa Ticarət Məcəlləsinin 1-ci maddəsinə görə, kommersant dedikdə öz adından və öz hesabına ticarət əqdləri bağlayan və ticarət əməliyyatları aparan şəxs başa düşülür. Yaponiya Ticarət Məcəlləsinə görə, kommersant sahibkarlıq fəaliyyətini öz adından həyata keçirən şəxdir. Həm fiziki, həm də hüquqi şəxslər kommersant ola bilərlər. Bəzi hallarda dövlət də xüsusi növ kommersant kimi tanınır.[2]

Azərbaycan Respublikasının qanunvericiliyinə gəldikdə, qeyd etmək vacibdir ki, bizim ölkə qanunvericiliyində «kommersant» anlayışı işlədilmir. Azərbaycan Respublikasında ticarət fəaliyyəti dövlət tərəfindən tənzimlənir. Bundan ötrü Azərbaycan Respublikasının Milli Məclisi ticarət işi kimi vacib məsələyə dair ümumi qaydalar müəyyən edir (Konstitusiyanın 94-cü maddəsi).

Dövlət ticarət fəaliyyətini təkcə tənzimləmir; dövlət ticarət fəaliyyətinə müvafiq nəzarət də həyata keçirir. Bu baxımdan, **dövlət** ticarət hüququnun subyekti kimi tanınır; bu sözləri həm də bələdyyələr barədə söyləmək olar. Belə ki, bələdiyyələr öz ərazilərində həm ticarət fəaliyyətini tənzimləyir, həm də onun həyata keçirilməsinə nəzarət edir. Bu nöqteyi-nəzərdən **bələdiyyələr** də ticarət hüququnun subyekt hesab edilir.

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Отв. ред. О.М.Олейник. М., 1999, с.149.

[2] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2004, с.163.

## 20.2. Ticarət fəaliyyətinin hüquqi tənzimlənməsi
### 20.2.1. Ticarət fəaliyyətini hüquqi tənzimetmə mənbəyi

Qeyd etməliyik ki, iqtisadi fəaliyyətin istənilən bu və ya digər növü hüquqi tənzimetmənin obyektidir. Bu sözləri iqtisadi fəaliyyət növlərindən biri olan ticarət fəaliyyəti haqqında da söyləmək olar. Belə ki, ticarət hüquqi tənzimetmə obyekti olan fəaliyyət növlərindən biridir.

Ticarətin nə demək olduğuna gəldikdə, qeyd etməliyik ki, məqsədi iqtisadi nemətlərin dövriyyəsi prosesində istehsalçılar və istehlakçılar arasında vasitəçilik etməkdən ibarət olan fəaliyyət **ticarət** adlanır.[1] İqtisadi nemətlər dedikdə mal başa düşülür. **Mal** isə fayda vermək (yaramaq) xüsusiyyəti ilə insanın tələbatını ödəyən, istehlak dəyəri olan və bazarda təklif olunan hər şeydir. Deməli, iqtisadi nemətlərin dövriyyəsi dedikdə mal dövriyyəsi başa düşülür. Mal dövriyyəsi sayəsində istehlak üçün hazır olan malların istehsal dairəsindən istehlak dairəsinə hərəkəti təmin edilir ki, bu, ticarətin vasitəsi və köməyi ilə mümkün olur. Odur ki, ticarət dedikdə istehlak üçün hazır olan malların istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edən iqtisadi fəaliyyət növü başa düşülür.

Ticarət hüququnun əsas işi və funksiyası da ticarət fəaliyyətinin hüquqi tənzimlənməsini həyata keçirməkdən ibarətdir. Ticarət hüququ öz əsas işi və funksiyasını, adətən, **qanunlar** vasitəsi ilə yerinə yetirir. Qanun ticarət fəaliyyətinin əsas hüquqi tənzimetmə mənbəyidir. Bu və ya digər xarici ölkədə Ticarət Məcəlləsi formasında qanun qəbul edilmişdir ki, ticarət fəaliyyətinin hüquqi tənzimlənməsi onun vasitəsilə həyata keçirilir. Söhbət, hər şeydən əvvəl, Fransadan gedir. Məlum olduğu kimi, Fransada ticarət fəaliyyətini tənzimləməkdən ötrü 1807-ci ildə Ticarət Məcəlləsi qəbul edilmişdir ki, həmin məcəllə uzun müddət qüvvədə olmuşdur; 1999-cu ildə Ticarət Məcəlləsi ye-

---

[1] Шершеневич Г.Ф. Учебник торгового права / по изданию 1914 года. М., 1994, с. 24.

ni redaksiyada qəbul edildi və bu gün o, ticarət fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktı sayılır.[1]

Almaniyada 1897-ci ildə Ticarət Qanunnaməsi qəbul edilmişdir; həmin ölkədə ticarət fəaliyyəti məhz bu qanunvericilik aktı vasitəsilə həyata keçirilir. Göstərilən akt 1900-cu ildə qüvvəyə minmişdir və bu gün də tətbiq olunur. Burada ticarət dövriyyəsinin iştirakçıları (kommersant, komissioner, dəllal və digər ticarət nümayəndələri) haqqında müvafiq normalar nəzərdə tutulur. Dörd kitabdan ibarət olan qanunnamə ticarət işinə aid ayrı-ayrı məsələlərin tənzimlənməsinə həsr olunmuşdur.

ABŞ-da Vahid Ticarət Məcəlləsi tətbiq edilir. 1968-ci ildə belə məcəllə ABŞ-ın, demək olar ki, bütün ştatlarında qəbul olunmuşdur. Ştatlarda yaranan ticarət dövriyyə münasibətləri onun vasitəsilə tənzimlənir.[2]

Ticarət Məcəlləsi 1899-cu ildə Yaponiyada da qəbul edilmişdir. Burada ticarət dövriyyəsinin iştirakçıları (kommersant, ticarət nümayəndələri və s.) barədə normalar nəzərdə tutulmuşdur. Bu kimi ölkələrdən başqa Ticarət Məcəlləsi həm də digər dövlətlərdə qəbul edilmişdir.

Azərbaycan Respulikasına gəldikdə, qeyd etməliyik ki, bizim ölkədə ticarət fəaliyyətini tənzimləməkdən ötrü hələlik nə Ticarət Məcəlləsi, nə də Ticarət Qanunnaməsi qəbul olunmuşdur. Amma iqtisadi hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, Azərbaycan Respublikasında Ticarət Məcəlləsi hazırlanma mərhələsindədir.[3]

Güman edirik ki, Azərbaycan Respublikasında Ticarət Məcəlləsinin qəbul olunacağı gün heç də uzaqda deyildir. Ticarət Məcəlləsinin qəbul olunmaması səbəbindən Azərbaycan Respublikasında ticarət fəaliyyəti hal-hazırda qanunqüvvəli aktlar

---

[1] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.В.Безбаха и В.К.Пучинского. М., 2004, с. 75.

[2] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2004, с.82.

[3] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s. 410.

vasitəsi ilə tənzimlənir. Söhbət qanunqüvvəli aktların növlərindən biri olan **Nazirlər Kabinetinin** qərarlarından gedir. Yaddan çıxarmaq olmaz ki, ticarət fəaliyyətini tənzimləməkdən ötrü Nazirlər Kabineti kifayət sayda normativ akt qəbul etmişdir. Bu aktlar vasitəsi ilə ticarətin bu və ya digər növünün hüquqi tənzimlənməsi həyata keçirilir.

Qeyd etmək lazımdır ki, ticarət **müxtəlif meyarlara** görə ayrı-ayrı növlərə bölünür. Ticarət əməliyyatının aparıldığı yer kimi meyara görə ticarətin iki növü vardır: 1) daxili ticarət; 2) xarici ticarət. **Daxili ticarət** dedikdə bu və ya digər dövlətin hüdudları (sərhədləri) daxilində yerli istehsalçılar və istehlakçılar arasında həyata keçirilən ticarət başa düşülür. Məsələn, əgər ticarət əməliyyatı Azərbaycan Respublikasının ərazisində yerli istehsalçılar və istehlakçılar arasında aparılarsa, bu, daxili ticarət hesab edilir.

İstehlakçının hansı dövlətdə olmasından asılı olaraq daxili ticarətin üç növü fərqləndirilir: 1) ixrac ticarəti; 2) idxal ticarəti; 3) tranzit ticarəti. **İxrac ticarəti** dedikdə yerli istehsalçılar və xarici istehlakçılar arasında həyata keçirilən ticarət başa düşülür. **İdxal ticarəti** odur ki, həmin ticarət növü xarici istehsalçılar və yerli istehlakçılar arasında həyata keçirilir. Əgər ticarət xarici istehsalçılar və xarici istehlakçılar arasında yerli vasitəçilərin köməyi ilə həyata keçirilərsə, bu, **tranzit ticarəti** hesab edilir.

Daxili ticarət həm də aşağıdakı növlərə bölünür: 1) istehsal vasitələrinin ticarəti; 2) xalq istehlak mallarının ticarəti; 3) kənd təsərrüfatı məhsullarının ticarəti.

**Xarici ticarət** dedikdə ayrı-ayrı ölkələrin istehsalçıları və istehlakçıları arasında həyata keçirilən ticarət başa düşülür; dövlətlərarası ticarət də xarici ticarət hesab edilir. Dövlətlər arasında həyata keçirilən xarici ticarətlərin məcmusu **beynəlxalq ticarət** adlanır.[1] Xarici və beynəlxalq ticarət beynəlxalq gərginliyin zəiflədilməsində, ölkələrin dinc yanaşı yaşaması prinsiplərinin möhkəmlənməsində böyük rol oynayır.

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.231-232.

Daxili ticarət eyni zamanda topdansatış və pərakəndə satış ticarətindən ibarətdir. Bu baxımdan, daxili ticarətin daha iki növü fərqləndirilir: 1) topdansatış ticarət; 2) pərakəndə satış ticarəti. Əgər mallar partiyalarla satılarsa, bu, **topdansatış ticarət** adlanır; özü də alıcı malları bilavasitə istehsalçının özündən əldə edir (alır). Əgər mal istehlakçının gündəlik tələbatını ödəmək səviyyəsində tək-tək satılarsa, bu, **pərakəndə satış ticarəti** adlanır; özü də alıcı malı istehsalçdan deyil, satıcıdan əldə edir. Digər tərəfdən, topdansatış ticarətin hüquqi rəsmiləşdirilməsi mal göndərmə müqaviləsi ilə həyata keçirilir. Unutmaq olmaz ki, mal göndərmə müqaviləsi topdansatış ticarəti hüquqi rəsmiləşdirmə formasıdır.

Pərakəndə satış ticarətinə gəldikdə, qeyd etməliyik ki, ticarətin bu növü pərakəndə alqı-satqı müqaviləsi vasitəsilə rəsmiləşdirilir. Bu müqavilə pərakəndə satış ticarətini rəsmiləşdirməyin hüquqi formasıdır.

Malların hansı vasitə ilə hərəkət etməsindən asılı olaraq ticarətin, əsasən, üç növü fərqləndirilir: 1) dəniz ticarəti; 2) quru yolla həyata keçirilən ticarət; 3) hava ticarəti. Əgər mallar gəmilərdən istifadə olunmaqla dəniz vasitəsilə daşınarsa, bu, **dəniz ticarəti** adlanır. Malların avtomobil və ya dəmir yolu ilə çatdırılmasına isə **quru yolla həyata keçirilən ticarət** deyilir. Əgər mallar təyinat yerinə hava nəqliyyatı vasitəsi ilə daşınarsa, bu, **hava ticarəti** adlanır.

Azərbaycan Respublikasının ticarət hüququ yalnız ticarət fəaliyyətini tənzimləyir. Lakin elə dövlətlər vardır ki, onların ticarət hüququ təkcə ticarət fəaliyyətini tənzimləmir; bu dövlətlərin ticarət hüququ ticarətdən başqa, həm də məqsədi mənfəət əldə etməkdən ibarət olan istənilən fəaliyyəti nizama salır. Məsələn, Almaniyanın ticarət hüququ (Handelsrecht) nəinki ticarət fəaliyyətini, həmçinin sahibkarlıq fəaliyyətinin istənilən növünü tənzimləyir.[1] Ancaq nəzərdən qaçırmaq olmaz ki, ticarət fəaliyyəti və sahibkarlıq fəaliyyəti yaxın anlayışlar olsalar

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Отв.ред. О.М.Олейник. М., 1999, с. 145.

da, onlar bir-birindən fərqlənirlər. Belə ki, əgər ticarət fəaliyyəti sahibkarlıq fəaliyyətini xarakterizə edən əlamətlərə uyğun gələ və cavab verərsə, bu cür fəaliyyət sahibkarlıq fəaliyyətinin növü hesab olunur. Xatırlatmaq istərdik ki, sahibkarlıq fəaliyyətinin əlamətləri bunlardır: 1) fəaliyyət olması; 2) sistematik, məqsədyönlü və daim həyata keçirilməsi; 3) peşəkarlıq; 4) müstəqil surətdə həyata keçirilməsi; 5) məqsədin sistematik olaraq mənfəət götürməkdən ibarət olması və s.

### 20.2.2. Ticarət əqdləri

Xarici dövlətlərin ticarət hüququ ilə həm də ticarət əqdlərinin tənzimlənməsi həyata keçirilir. Məsələn, Almaniyanın ticarət hüququ ticarət əqdlərini tənzimləyir. Belə ki, Almaniyada Ticarət Qanunnaməsinin tənzimlədiyi məsələlərdən biri **ticarət əqdləri** hesab olunur. Qeyd etdiyimiz kimi, Almaniya Ticarət Qanunnaməsi 4 kitabdan ibarətdir; onun 3-cü kitabı ticarət əqdlərinə həsr olunmuşdur.[1]

Ticarət əqdi anlayışı Fransa ticarət hüququna da məlumdur. Həmin ölkənin Ticarət Məcəlləsinin 632-ci və 633-cü maddələrində **ticarət əqdi kimi tanınan əqdlərin** siyahısı verilir. Bu siyahıya aşağıdakılar daxildir: 1) yenidən satmaq məqsədi ilə alqı; 2) komisyon əməliyyatı; 3) sığorta əməliyyatı; 4) bank əməliyyatı; 5) nəqliyyat əməliyyatı; 6) icarə əməliyyatı; 7) veksel sövdələşməsi və s.

Bəzi ölkələrin qanunvericiliyi ticarət deyil, **kommersiya əqdi** termini işlədir. Məsələn, İsveçrə Öhdəlik Qanununda kommersiya əqdlərinin tənzimlənməsinə aid müvafiq normalar nəzərdə tutulmuşdur.

Elə ölkələr də mövcuddur ki, bu ölkələrin qanunvericiliyi ticarət əqdləri kimi anlayışı tanımır. Söhbət ABŞ, İngiltərə, İtaliya, Hollandiya və s. dövlətlərdən gedir; həmin dövlətlərdə ticarət hüququ mülki hüquqdan ayrılmamışdır.

---

[1] Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.В.Безбаха и В.К.Пучинского. М., 2004, с. 26.

Xarici dövlətlərin qanunvericiliyində **ticarət əqdlərinə anlayış** verilməsinə gəldikdə, qeyd etməliyik ki, xarici ölkələrin ticarət hüququ əqdin ticarət əqdi kimi tanınması üçün iki meyar müəyyən edir: 1) obyektiv meyar; 2) subyektiv meyar. **Obyektiv meyarın** mahiyyəti bundan ibarətdir ki, əgər əqdin məzmunu kommersiya xarakterində olarsa, belə əqd ticarət əqdi hesab olunur. Fransa, Belçika, İspaniya, Latın Amerikası ölkələri və digər dövlətlərin qanunvericiliyi ticarət əqdinə anlayış verərkən obyektiv meyardan çıxış edir.

**Subyektiv meyara** gəldikdə, qeyd etməliyik ki, həmin meyara görə, əgər əqdi kommersantlar bağlayarsa, belə əqd ticarət əqdidir. Almaniya və Yaponiya kimi ölkələrin qanunvericiliyi məhz subyektiv meyardan çıxış edir. Məsələn, Almaniya Ticarət Qanunnaməsinin 343-cü paraqrafında göstərilir ki, kommersantların bağladıqları bütün əqdlər ticarət əqdi hesab edilir; lakin əqdin heç olmazsa tərəflərindən biri kommersant olmalıdır.[1] Kommersant əqdi peşə şəklində bağlamalıdır; özü də əqdin məzmunu kommersiya (ticarət) xarakterində olmalıdır.

Azərbaycan Respublikasının ticarət hüququna gəldikdə, qeyd etmək lazımdır ki, bizim ölkənin mülki qanunvericiliyi ticarət əqdlərini təfsilatı ilə tənzimləmir. Mülki qanunvericiliyin əsas normativ aktı olan Mülki Məcəllədə ticarət əqdlərinin tənzimlənməsinə həsr olunan müvafiq hüquq normaları nəzərdə tutulmur. Düzdür, Azərbaycan Respublikasının Mülki Məcəlləsində **«ticarət əqdi» terminindən** istifadə edilməsinə rast gəlirik. Belə ki, MM-in 361-ci və 789-cu maddələrində «ticarət əqdi» termini işlədilir. Məsələn, MM-in 361-ci maddəsinin 3-cü bəndində deyilir ki, kommersiya təmsilçisi ticarət əqdləri barəsində ona bəlli olmuş məlumatların sirrini ona verilmiş tapşırığı icra etdikdən sonra da saxlamağa borcludur.

MM-in 789-cu maddəsinin 1-ci bəndində göstərilir ki, ticarət nümayəndəsi haqqında müqaviləyə görə, sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxsə (ticarət agentinə) al-

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2004, с.164.

qı-satqı müqavilələrinin, habelə xidmətlər yaradılmasına dair müqavilələrin (ticarət əqdlərinin) bağlanmasında hər hansı istehsalçının, sənayeçinin və ya tacirin (tapşıranın) adından və hesabına vasitəçilik xidmətləri göstərmək və  və ya bunları bağlamaq barəsində uzunmüddətli tapşırıq verilir.

«Ticarət əqdi» termini işlətsə də Mülki Məcəllə ticarət əqdinə nə leqal (normativ) anlayış verir, nə də onun elementlərini (tərəfləri, müddəti, qiyməti, məzmunu, forması və digər elementləri) müəyyənləşdirir. Ticarət əqdinə həmçinin mülki hüquq doktrinası tərəfindən elmi tərif verilməsinə rast gəlinmir.

Ticarət əqdi bağlanması nəticəsində ticarət-hüquq münasibəti əmələ gəlir, dəyişdirilir və ya ləğv olunur. Bunun üçün ticarət əqdi bağlayan tərəflərin öz iradələrini ifadə etmələri tələb olunur. Deməli, **ticarət əqdi** dedikdə ticarət-hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya ləğv olunmasına yönəldilmiş iradə ifadəsi başa düşülür. Başqa sözlə, əgər əqd ticarət fəaliyyətinin həyata keçirilməsi məqsədilə bağlanarsa, bu, ticarət əqdi hesab edilir.

Ticarət əqdi bununla xarakterizə olunur ki, o, ticarət fəaliyyətinin həyata keçirilməsi üçün müvafiq hüquq və vəzifələr müəyyənləşdirir. Odur ki, «ticarət əqdi» anlayışının məna yükü altında ticarət fəaliyyətini həyata keçirməkdən ötrü hüquq və vəzifələr müəyyənləşdirən əqd növü ehtiva edilir.

Ticarət əqdi, adətən, **tacirlər** arasında bağlanılır. Ticarət əqdi həm də tacirlərin iştirakı ilə bağlana bilər. Deməli, ticarət əqdi eyni zamanda elə bir əqd növüdür ki, o tacirlər arasında və ya tacirlərin iştirakı ilə bağlanır. Azərbaycan Respublikasında qüvvədə olan MM-in 789-cu maddəsinin 1-ci bəndində, habelə 800-cü maddənin 1-ci bəndində «tacir» termini işlədilir. Bu termin ticarət hüququ müstəqil hüquq sahəsi kimi mövcud olan bir çox ölkələrin qanunvericilynə də məlumdur. **Tacir** dedikdə öz adından sənətkarlıq (peşə) şəklində ticarət əqdləri bağlayan şəxs başa düşülür. Ticarətlə məşğul olmaq onun sə-

nəti (peşəsi, məşğuliyyəti) olmalıdır.[1] Bir sıra xarici ölkələrin (məsələn - Almaniya, Fransa, Yaponiya və s.) qanunvericiliyi tacir deyil, **kommersant** anlayışını tanıyır. ABŞ, İngiltərə, İtaliya, Niderland, İsveçrə və digər ölkələrin qanunvericiliyinə nə kommersant, nə də ticarət əqdi anlayışı məlumdur.

Almaniya, Yaponiya və s. ölkələrin qanunvericiliyinə görə, kommersantlar tərəfindən bağlanan əqdə ticarət əqdi deyilir. Rusiya hüquq elmində ticarət əqdinə sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün sahibkarlar arasında və ya onların iştirakı ilə bağlanan əqd kimi anlayış verilir.[2] Söhbət ticarət əqdlərinin **sahibkarlıq əqdləri** olmasından gedir. Lakin nə qədər yaxın və oxşar olsalar da ticarət və sahibkarlıq əqdlərini eyniləşdirmək olmaz. Məsələ burasındadır ki, sahibkarlıq əqdləri daha geniş anlayışdır. Belə ki, ticarət sahibkarlıq fəaliyyətinin növlərindən biridir. Digər tərəfdən, kredit, lizinq, icarə, françayzinq və s. müqavilələr sahibkarlıq əqdi anlayışına daxildir.

**Ticarət əqdlərinə isə aşaıdakılar aid olunur**: kommersiya təmsilçiliyi haqqında müqavilə (MM-in 361.3-cü maddəsi); pərakəndə alqı-satqı müqaviləsi (MM-in 614.1-ci maddəsi); göndərmə müqaviləsi (MM-in 627.1-ci maddəsi); ticarət nümayəndəsi haqqında müqavilə (MM-in 789.1-ci maddəsi); konsessiya müqaviləsi (MM-in 800.1-ci maddəsi) və s.

Ticarət əqdinin hansı **formada** bağlanmasına gəldikdə, qeyd etmək lazımdır ki, ticarət əqdinin bağlanma formasına mülki qanunvericiliyin müəyyən etdiyi ümumi normalar tətbiq edilir. Belə ki, MM-in 329-cu maddəsi əqdlərin formasının tənzimlənməsinə həsr olunmuşdur. Həmin maddəyə görə, əqdlər şifahi və ya yazılı (sadə və ya notariat) formada bağlanır.

---

[1] Шершеневич Г.Ф. Учебник торгового права / по изданию 1914 года. М., 1994, с.61.

[2] Коммерческое право. Учебник / Под ред. В.Ф.Попондопуло, В.Ф.Яковлевой. СПб., 1997, с.192.

# XX FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XXI FƏSİL.*
# ƏQLİ MÜLKİYYƏT HÜQUQU

## 21.1. Əqli mülkiyyət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi

### 21.1.1. Əqli mülkiyyət hüququnun anlayışı və nizamasalma predmeti

Məlum olduğu kimi, mülkiyyətin iki növü fərqləndirilir. Bunlardan biri maddi mülkiyyət adlanır; mülkiyyətin digər növünə isə əqli mülkiyyət deyilir. **Maddi mülkiyyət** tarixən inkişaf etmiş ictimai münasibət olub, şəxslərin istehsal vasitələrinə və onun nəticələrinə sahib olmanın hüquqi formasıdır. Bu zaman mülkiyyətçi özünə məxsus olan mülkiyyətdən istədiyi kimi istifadə edir, mülkiyyətə sərəncam verir və onu başqalarının sərəncamına verir.

**Əqli mülkiyyətə** gəldikdə, qeyd etmək lazımdır ki, maddi mülkiyyətdən fərqli olaraq, mülkiyyətin bu növü qeyri-maddi xarakterə malikdir. Qeyri-maddi xarakterə malik olsa da, əqli mülkiyyət də, maddi mülkiyyət kimi, iqitisadi münasibətlər yaratmaq xüsusiyyətinə malikdir. Unutmaq olmaz ki, növlərindən asılı olmayaraq, həm maddi, həm də əqli mülkiyyət iqtisadi kateqoriyadır. Belə ki, iqtisadi məna kəsb edən maddi mülkiyyət əmlakdan (əşyadan) istifadə olunması, əmlaka sahiblik edilməsi və ona sərəncam verilməsi ilə bağlı yaranan iqtisadi münasibətlərdir.[1]

Maddi mülkiyyət kimi, əqli mülkiyyət də iqtisadi münasibətlər deməkdir. Belə ki, müəllif yazdığı elmi əsəri kitab halında nəşr etdirərək onun çoxsaylı nüsxələrini oxucu auditoriyasına satır. Başqa bir misalda, mühəndis hər hanı ixtira edir (məsələn, yeni təyinatlı kompyuter, soyuducu, paltaryuyan maşın və s.) və o, ixtiradan istifadə hüququnu istehsal müəssisəsinə satır. Bu zaman əqli mülkiyyətlə bağlı iqtisadi münasibətlər

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 172-174.

əmələ gəlir. Bununla belə, əqli mülkiyyət eyni zamanda özlüyündə şəxsi xarakterli qeyri-iqtisadi münasibətlərdir. Belə ki, əqli mülkiyyət bu və ya digər şəxs tərəfindən yaradılaraq şəxsən onun özünə aid olur. Digər tərəfdən, əqli mülkiyyətin obyekti qeyri-maddi nemətlərdir (məsələn, əsər, kəşf, ixtira və s.). Bu baxımdan, əqli mülkiyyət iqtisadi məzmundan məhrum olduğuna görə qeyri-iqtisadi münasibətlər hesab edilir. Bu o deməkdir ki, əqli mülkiyyətə qeyri-iqtisadi xarakterli element xasdır. Məsələn, müəllif elmi əsər yazır; bu zaman qeyri-iqtisadi xarakterli əqli mülkiyyət münasibəti əmələ gəlir. Mühəndis müəyyən ixtira edir ki, belə halda da həmçinin qeyri-iqtisadi xarakterli əqli mülkiyyət münasibəti yaranır və s.

Əqli mülkiyyət təkcə və yalnız qeyri-iqtisadi xarakterli elementdən ibarət deyildir. Əqli mülkiyyət özündə həm də iqtisadi xarakterli elementi birləşdirir. Bir az əvvəldə qeyd etdiyimiz kimi, əsər kitab halında nəşr olunaraq oxuculara satıldığı, ixtiradan istifadə hüququ istehsal müəssisəsinə verildiyi (satıldığı) hallarda iqtisadi məzmunlu əqli mülkiyyət münasibətləri yaranır. Onlara iqtisadi xarakterli əqli mülkiyyət münasibətləri deyilir. Bu münasibətlər müvafiq hüquq normaları vasitəsilə tənzimlənir ki, həmin normaların məcmusu əqli mülkiyyət hüququ adlanır. Unutmaq olmaz ki, növündən, yəni maddi və qeyri-maddi əqli mülkiyyət formasından asılı olmayaraq mülkiyyət iqtisadi münasibətlər deməkdir.[1]

**Əqli mülkiyyət hüququ** dedikdə əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Məhz həmin münasibətlər, yəni əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlər əqli mülkiyyət hüququnun **nizamasalma predmetini** təşkil edir. Odur ki, əqli mülkiyyət hüququnun nizamasalma predmeti **əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlərdən** ibarətdir. Məhz bu kimi iqtisadi münasibətlərin yaranması və mövcud olması iqtisadi hüququn tərkibində əqli mülkiyyət hüququnun yarımsahə

---

[1] Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., 2004, с.330.

statusu alması üçün əsas hesab edilir. Nəzərdən qaçırmaq olmaz ki, iqtisadi hüququn tərkibində bu və ya digər yarımsahənin ayrılması üçün onun özünəməxsus nizamasalma predmeti olmalıdır. Bu sözləri iqtisadi hüququn yarımsahələrindən biri olan əqli mülkiyyət hüququ haqqında da söyləmək olar. Belə ki, əqli mülkiyyət hüququnun tənzimlədiyi ictimai münasibətlər vardır. Özünün nizamasalma predmetini təşkil edən həmin münasibətlər sayəsində əqli mülkiyyət hüququ iqtisadi hüququn yarımsahəsi kimi tanınır. Məsələyə bu cür yanaşmanın məntiqi-hüquqi əsası vardır. Belə ki, əqli mülkiyyət hüququ (daha doğrusu – beynəlxalq əqli mülkiyyət hüququ) beynəlxalq hüququn müstəqil sahələrindən biri olan beynəlxalq iqtisadi hüququn yarımsahələrindən biridir.[1] Belə olan halda nə üçün dövlətdaxili (milli) hüquq sisteminin müstəqil sahəsi kimi tanınan iqtisadi hüququn tərkibində əqli mülkiyyət hüququ kimi yarımsahə ayrılmasın və fərqləndirilməsin?

Düzdür, hüquq ədəbiyyatı səhifələrində əqli mülkiyyət hüququ mülki hüququn yarımsahələrindən biri kimi qəbul edilir.[2] Lakin, unutmaq olmaz ki, mülki hüququn yarımsahəsi kimi əqli mülkiyyət hüququ əmlak münasibətləri ilə əlaqədar olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir; əqli mülkiyyətlə bağlı yaranan ictimai münasibətlər məhz belə münasibətlərdir. Başqa sözlə, mülki hüququn yarımsahəsi kimi əqli mülkiyyət hüququ əqli mülkiyyətlə əlaqədar əmələ gələn münasibətlərin mülki-hüquqi aspektlərini müvafiq mülki-hüquq normaları vasitəsilə tənzimləyir. İqtisadi hüququn yarımsahələrindən biri olan əqli mülkiyyət hüququ isə, bundan fərqli olaraq, əqli mülkiyyətlə bağlı yaranan münasibətlərin iqtisadi-hüquqi aspektlərini nizama salır. Başqa sözlə, iqtisadi hüququn yarımsahəsi kimi əqli mülkiyyət hüququ əqli mülkiyyətlə əlaqədar yaranan iqtisadi münasibətləri müvafiq iqtisadi-hüquq normaları vasitəsi ilə tənzimləyir.

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 483.
[2] Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı, 2006, s.26.

Beləliklə, əqli mülkiyyət hüququ həm mülki hüququn, həm də iqtisadi hüququn yarımsahəsi hesab edilir. Belə hal hüquq nəzəriyyəsinə məlumdur. Mülki və eyni zamanda iqtisadi hüququn yarımsahəsi olduğuna görə əqli mülkiyyət hüququ kompleks yarımsahə sayılır.

### 21.1.2. Əqli mülkiyyət

İqtisadi hüququn yarımsahələrindən biri olan əqli mülkiyyət hüququ, qeyd etdiyimiz kimi, əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyir ki, bu münasibətlər onun nizamasalma predmetini təşkil edir. Bəs əqli mülkiyyət dedikdə nə başa düşülür?

Əqli mülkiyyət qanunvericilikdə işlədilən anlayışıdır. Konstitusiyanın 30-cu maddəsində göstərilir ki, əqli mülkiyyət qorunur; ona həm də **intellektual mülkiyyət**[1] deyilir. Belə ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis edilməsi haqqında Stokholm Konvensiyasının (1967-ci il) qəbul edilməsi ilə intellektual mülkiyyət dünyada tanınan termin kimi işlədilməyə başladı.[2]

İntellektual mülkiyyət əqli əməyin məhsuludur. Məlum olduğu kimi, əməyin iki növü fərqləndirilir: 1) fiziki əmək, 2) əqli əmək. Maddi istehsal fəaliyyəti **fiziki əmək** adlanır. Bu növ əməyin nəticəsində maddi xarakterli əmlak hazırlanır və istehsal olunur. Onunla bağlı mülkiyyət münasibətləri yaranır ki, həmin münasibətlər mülkiyyət hüququ ilə tənzimlənir. Mülkiyyət hüququ mülki hüququn əsas institutlarından biridir.

Əqli əməyə gəldikdə isə, qeyd etməliyik ki, bu növ əmək vasitəsilə yaradıcılıq fəaliyyəti (yaradıcılıq) həyata keçirilir. Yaradıcılıq fəaliyyəti nəticəsində şüurlu və düşünülmüş surətdə

---

[1] *İntellektual mülkiyyət (rusca - интеллектуальная собственность, ingiliscə - intellektual property) barədə ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.371-372.

[2] *Ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəlllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.187-188.

mənəvi (qeyri-maddi) istehsal aktı yerinə yetirilir ki, bu akt nəticəsində əsərlər, ixtiralar, kəşflər və s. yaranır.

Digər tərəfdən, professor Kamran İmanovun qeyd etdiyi kimi, «müasir dünyamızın son iki onilliyindəki qlobal cəmiyyətin sürətli inkişafı, iqtisadiyyatın inteqrasiyası və texnologiyaları evolyusiyası yeni çağırışlara gətirib çıxarmışdır. Zaman tələbləri sırasında ən ciddisi və ictimai rəyi cəlb etdirəni isə **əqli mülkiyyət** məsələsidir.[1]

**Əqli mülkiyyət** (intellektual mülkiyyət) dedikdə yaradıcılıq fəaliyyətinin nəticələri (məhsulları) başa düşülür ki, bunların yaradılması mənəvi (qeyri-maddi) istehsal aktı sayəsində mümkün olur. **Əqli mülkiyyət obyektlərinə** gəldikdə, qeyd etmək lazımdır ki, onların növləri kifayət qədər çoxdur. Bu növlər Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis edilməsi haqqında Konvensiyanın 2-ci maddəsində sadalanır. Həmin maddəyə görə, əqli mülkiyyət obyektləri bunlardan ibarətdir: 1) elmi, ədəbiyyat və incəsənət əsərləri; 2) aktyorların ifaçılıq fəaliyyəti, fonoqram (səsyazma), radio və televiziya verilişləri; 3) ixtiralar; 4) elmi kəşflər; 5) sənaye nümunələri; 6) xidmət nişanları; 7) firma adları; 8) kommersiya nişanları; 9) haqsız rəqabətdən müdafiə; 10) istehsal, elm, ədəbiyyat və bədii sahələrdə əqli fəaliyyətin digər nəticələri.

Sözügedən konvensiyanın 2-ci maddəsində əqli mülkiyyət obyektlərinin siyahısı verilmişdir ki, bu siyahı qəti və dəqiq deyil, təxmini siyahıdır. Məsələ burasındadır ki, elm və texnika inkişaf etdikcə əqli mülkiyyətin yeni obyektləri yaranır. Məsələn, kompyuter texnologiyaları, baza məlumatları, coğrafi göstəricilər, inteqral sxemlərinin topologiyası, məxfi informasiya (istehsal sirləri, «nou-hau» ticarət sirləri, kommersiya istifadə üsulları və s.). Heç də sirr deyildir ki, zaman keçdikcə əqli mülkiyyət obyektlərinin sayı və növləri durmadan çoxalır.

Qeyd etmək lazımdır ki, əqli mülkiyyət obyektləri qeyri-maddi xarakterli nemətlərdir. Lakin, qeyri-maddi nemətlər ol-

---

[1] İmanov K.S. «Əqli mülkiyyət: çıxış və prezentasiyalarda». Toplu. Bakı, 2012, s.4.

malarına baxmayaraq, əqli mülkiyyət obyektləri öz hüquqi təbiətinə görə iqtisadi məzmuna və əmtəə xüsusiyyətinə malikdir. Belə ki, bütün əqli mülkiyyət obyektlərinin əmtəə kimi iqtisadi forması vardır. Məhz bu xüsusiyyətə görə əqli mülkiyyətlə bağlı münasibətlər, yəni yaradıcılıq münasibətləri iqtisadi məzmuna (cəhətə) malik olur. Belə ki, yaradıcılıq münasibətlərinin iki tərəfi vardır: 1) qeyri-iqtisadi tərəf; 2) iqtisadi tərəf. Yaradıcılıq münasibətlərinin qeyri-iqtisadi tərəfi özünü bunda göstərir ki, həmin münasibətlər iqtisadi (dəyər) məzmundan məhrumdur. Yaddan çıxarmamalıyıq ki, əqli mülkiyyət obyektləri elə məhsullardır ki, onları pulla qiymətləndirmək olmaz.

Yaradıcılıq münasibətlərinin iqtisadi tərəfinə (cəhətinə) gəldikdə, qeyd etməliyik ki, bu tərəfin iqtisadi (dəyər) məzmunu vardır. Məhz həmin cəhət sayəsində əqli mülkiyyətlə əlaqədar iqtisadi münasibətlər yaranır ki, belə münasibətlər əqli mülkiyyət hüququnun nizamasalma predmetini təşkil edir. Məsələn, müəllif yazdığı əsəri kitab formasında nəşr etdirir və onun çoxsaylı nüsxələri oxucu auditoriyasına satılır. Bu kimi halda söhbət əqli mülkiyyət hüququ ilə bağlı iqtisadi münasibətlərin yaranmasından və belə obyektlərin qorunmasından gedir.

Əqli mülkiyyət **obyektlərinin qorunması (mühafizə edilməsi)** dedikdə bu obyektləri yaradan şəxsin icazə və razılığı olmadan hər kəsin onlardan istifadə etməməsi başa düşülür; yalnız əqli mülkiyyət obyektlərini yaradan şəxsin icazə və razılığı ilə başqa şəxslər ondan istifadə edə bilərlər. Ona görə ki, əqli mülkiyyət obyektlərini yaradan şəxsin həmin obyektlərdən istifadə etməyə **müstəsna (inhisar) hüququ** vardır.

## 21.2. Əqli mülkiyyət hüququnun mənbələri, institutları və subyektləri

### 21.2.1. Əqli mülkiyyət hüququnun mənbələri

Qeyd etməliyik ki, əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi müəyyən hüquq normaları vasitəsilə həyata keçirilir ki, həmin normalar özlərinin zahirən normativ-hüquqi ifadəsini müxtəlif qanunvericilik aktların-

da tapır. Belə aktlar əqli mülkiyyət hüququnun mənbəyi kimi tanınır. Əqli mülkiyyət hüququnun **mənbəyi** dedikdə bu və ya digər qanunvericilik aktında əks olunan hüquq normalarının zahirən ifadə formaları başa düşülür. Başqa sözlə, iqtisadi hüququn yarımsahəsi olan əqli mülkiyyət hüququ kifayət sayda hüquq normalarından ibarətdir ki, bu normaların köməyi ilə əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir.

**Normativ hüquqi aktlar** əqli mülkiyyət hüququnun vacib mənbə növüdür. Bu, onunla bağlıdır ki, əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlər, əsasən, sözügeden aktlar vasitəsilə tənzimlənir. Söhbət, hər şeydən əvvəl, normtiv hüquqi aktların növlərindən biri olan **qanunlardan** gedir. Qanunlar içərisində, ilk növbədə, dövlətin əsas qanunu sayılan **Konstitusiyanın** adı çəkilməlidir. Konstitusiyada əqli mülkiyyətə aid olan müvafiq normalar nəzərdə tutulmuşdur ki, bu normalar əqli mülkiyyət hüququnun normativ əsası və bazası hesab edilir. Məsələn, Konstitusiyanın 30-cu maddəsi əqli mülkiyyətə həsr olunmuşdur; bu maddənin II hissəsində deyilir ki, əqli mülkiyyət hüququ qanunla qorunur.

Qanunlar içərisində xüsusilə də iki qanun əqli mülkiyyətlə bağlı münasibətlərin hüquqi tənzimlənməsində böyük rol oynayır ki, həmin qanunlar bunlardan ibarətdir: 1) «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il); 2) «Patent haqqında» Azərbaycan Respublikasının Qanunu (1997-ci il).

**«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanun** Azərbaycan Respublikası ərazisində müəllifliklə bağlı yaranan münasibətləri tənzimləyən əsas və mühüm aktdır. «**Patent haqqında» Qanun** isə sənaye mülkiyyəti obyektlərinə (ixtira, faydalı model və sənaye nümunəsinə) patent alınması ilə bağlı münasibətləri nizama salır ki, patent sənədi hüquqi mühafizə sənədi hesab edilir.

Əqli mülkiyyət sahəsində yaranan münasibətlərin (müəlliflik münasibətlərinin, patent münasibətlərinin və s.) tənzimlənmə-

sində həm də **Mülki Məcəllədən** istifadə olunur. Lakin, buna baxmayaraq, Mülki Məcəllə əqli mülkiyyət hüququnun bilavasitə mənbəyi hesab olunmur. Ona görə ki, MM-də əqli mülkiyyətlə bağlı münasibətləri tənzimləyən müvafiq hüquq normaları ayrıca fəsildə nəzərdə tutulmamışdır; onun bəzi maddələrində bu məsələlərə toxunulur (məsələn, maddə 14.2.5. «elm, ədəbiyyat, incəsənət əsərlərinin, ixtiraların və əqli fəaliyyətin digər nəticələrinin yaradılması»; maddə 30.2.2. «elm, ədəbiyyat və ya incəsənt əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllif hüquqlarının həyata keçirilməsi» və s.).

Bu qanunlardan əlavə, aşağıda göstərilən **qanunlar** da əqli mülkiyyət hüququnun mənbəyi hesab edilir: 1) «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikasının Qanunu (1998-ci il); 2) «Kommersiya sirri haqqında» Azərbaycan Respublikasının Qanunu (2001-ci il); 3) «Seleksiya nailiyyətləri haqqında» Azərbaycan Respublikasının Qanunu (1996-cı il) və s. Bu kimi qanunların əqli mülkiyyət hüququnun mənbəyi olmaları heç də təsadüfi xarakter daşımır. Belə ki, həm əmtəə nişanları, həm coğrafi göstəricilər, həm seleksiya nailiyyətləri, həm də kommersiya sirri əqli mülkiyyət obyektləridir.

Bəzi xarici ölkələrdə ayrıcı olaraq əqli mülkiyyət haqqında xüsusi qanun qəbul olunmuşdur. Məsələn, Fransada **İntellektual Mülkiyyət barədə Məcəllə** (1992-ci il) tətbiq olunur.[1] Azərbaycan Respublikasında belə məcəllə hələlik qəbul edilməmişdir.

**Beynəlxalq müqavilələr** əqli mülkiyyət hüququnun digər mənbə növüdür. Söhbət o beynəlxalq müqavilələrdən gedir ki, həmin müqavilələr əqli mülkiyyət sahəsində bağlanılsın və Azərbaycan Respublikası onların iştirakçısı olsun. Əqli mülkiyyət sahəsində bağlanan beynəlxalq müqavilələrə, ilk növbədə,

---

[1] Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовые исследование. Руководитель авт. кол. – В.В.Залесский. М., 1999, с.5.

**«Sənaye mülkiyyətinin qorunması haqqında» Paris Konvensiyası** aiddir. 1883-cü ildə Fransanın Paris şəhərində imzalanan həmin konvensiyada dünyanın 160-dan çox dövləti iştirak edir. Azərbaycan Respublikası da Paris Konvensiyasının iştirakçısıdır; onun müəyyənləşdirdiyi əsas müddəaları «Patent haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərə alınmışdır. Paris Konvensiyası sənaye mülkiyyəti obyektlərinin hüquqi mühafizəsi (hüquqi qorunması) ilə bağlı münasibətləri tənzimləyir.

Əqli mülkiyyətin hüquqi mühafizəsinə həsr olunan digər beynəlxalq müqavilə Bern Konvensiyasıdır. Söhbət **«Ədəbi-bədii əsərlərin qorunması haqqında» Bern Konvensiyasından** gedir ki, həmin konvensiya 1886-cı ildə İsveçrənin Bern şəhərində qəbul edilmişdir. Azərbaycan Respublikası Bern Konvensiyasının iştirakçısıdır; konvensiyada 168 dövlət iştirak edir. Bern Konvensiyasını vasitəsi ilə ədəbiyyat və bədii əsərlər beynəlxalq səviyyədə qorunur.[1]

Azərbaycan Respublikası həm də **Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis edilməsi haqqında Konvensiyaya** qoşulmuşdur. 1967-ci ildə İsveçin Stokholm şəhərində imzalanan həmin konvensiya əsasında Ümumdünya Əqli Mülkiyyət Təşkilatı təsis edilmişdir.[2] Bu təşkilatın əsas və başlıca vəzifəsi dünyada əqli mülkiyyəti qorumaqdan ibarətdir.[3]

### 21.2.2. Əqli mülkiyyət hüququnun institutları

Qeyd etdiyimiz kimi, əqli mülkiyyət hüququ iqtisadi hüququn yarımsahələrindən biridir. İstənilən yarımsahə kimi əqli mülkiyyət hüququ da müvafiq institutlardan ibarətdir. İqtisadi hüququn bu yarımsahəsi özündə iki əsas institutu birləşdirir ki, onlardan biri müəlliflik hüququ, digəri isə patent hüququdur.

---

[1] *Əqli mülkiyyət hüququnun mənbəyi olan bu və ya digər beynəlxalq müqavilələr barədə bax:* Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı, 2013, s. 11-34.

[2] *Daha ətraflı:* Минков А.М. Международная охрана интеллектуальной собственности. СПб., 2001, с.51-57.

[3] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 487.

**Müəlliflik hüququ** dedikdə əqli mülkiyyət hüququnun elə bir institutu başa düşülür ki, bu institut özündə əqli mülkiyyət obyektlərindən (əsərlərdən və digər obyektlərdən) istifadə ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.

**Patent hüququ** dedikdə isə sənaye mülkiyyəti obyektlərinin hüquqi qorunması ilə əlaqədar yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.

### 21.2.3. Əqli mülkiyyət hüququnun özünəməxsus prinsipləri

Əqli mülkiyyət hüququ özünəməxsus prinsiplərə əsaslanır ki, bu prinsiplər iqtisadi hüququn yarımsahəsi kimi əqli mülkiyyət hüququnun məzmununu və mahiyyətini müəyyənləşdirir. Bu səbəbdən əqli mülkiyyət hüququnun prinsiplərinin rolu və əhəmiyyəti böyükdür. Belə ki, əqli mülkiyyətlə bağlı bəzi iqtisadi münasibətlər qanunvericiliklə nizama salınmır. Aydın məsələdir ki, bu kimi hallarda qanunvericiliklə nizamlanmayan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi əqli mülkiyyət hüququnun prinsipləri nəzərə alınmaqla və onların əsasında həyata keçirilir. Digər tərəfdən, əqli mülkiyyət hüququnun ibarət olduğu hüquq normaları həm dəqiq təfsir olunmalı, həm də praktikada düzgün tətbiq edilməlidir. Bunları etmək isə əqli mülkiyyət hüququnun prinsipləri əsasında mümkün olur.

**Əqli fəaliyyət azadlığı prinsipi** əqli mülkiyyət hüququnun prinsiplərindən biridir. Bu prinsip bunda ifadə olunur və təzahür edir ki, hər kəs qanunvericiliyə zidd olmayan qaydada öz imkanlarından, qabiliyyətindən və intellektual əməyindən istifadə edərək əqli fəaliyyətlə məşğul ola bilər. Yaddan çıxarmaq olmaz ki, bütün şəxslər intellektual (əqli) əmək məhsulları yaratmaqda azad və sərbəstdir. Hər kəs başqalarının əqli fəaliyyətinin həyata keçirilməsinə mane ola bilməz.

**Əqli mülkiyyət hüquqlarının mühafizə olunması prinsipi** iqtisadi hüququn sözügedən yarımsahəsinin prinsipləri sırasına daxildir. Bu prinsipə görə, subyektiv hüquqlardan olan əqli

mülkiyyət hüquqları (müəlliflik hüququ, ixtira hüququ, kəşf hüququ və s.) qorunur. Əgər əqli mülkiyyət hüquqları pozularsa, onlar qanunla müdafiə olunur. Barəsində danışılan prinsip öz normativ-hüquqi ifadəsini Konstitusiyanın 30-cu maddəsini II hissəsində tapmışdır. Burada deyilir ki, müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

**Əqli mülkiyyət hüququnun həyata keçirilməsi prinsipi də** əqli mülkiyyət hüququnun özünəməxsus prinsiplərindən biri kimi tanınır. Bu prinsipə görə, əqli mülkiyyət obyektlərini yaradan şəxs həmin obyektlərdən istifadə edə və onun barəsində sərəncam verə bilər. Unitmaq olmaz ki, subyektiv əqli mülkiyyət hüququ əqli fəaliyyət nəticələrindən (məhsullarından) istifadə etmək və onlar barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Sözügedən prinsip öz normativ ifadəsini Konstitusiyanın 30-cu maddəsinin I hissəsində tapmışdır. Burada göstərilir ki, hər kəsin əqli mülkiyyət hüququ vardır.

Əqli mülkiyyət hüququ həm də belə bir prinsipdən çıxış edir ki, əqli mülkiyyət hüquqları başqasına verilə və keçə bilər. Söhbət **əqli mülkiyyət hüquqlarının verilməsi və keçməsi prinsipindən** gedir. Həmin prinsipə görə, əqli mülkiyyət hüquqları müqavilə əsasında başqalarına verilə və vərəsəlik qaydasında varislərə keçə bilər. Misal üçün, ixtiraçı ixtiradan istifadə hüququnu başqa şəxsə (məsələn, istehsal müəssisəsinə və s.) verə bilər ki, bu, müqavilə əsasında mümkün olur. Başqa bir misalda, müəlliflik hüququ (məsələn, əsərdən istifadə hüququ və s.) vərəsəlik qaydasında vərəsələrə keçir və s.

Əqli mülkiyyət hüququ həmçinin belə bir prinsip müəyyənləşdirir ki, əqli mülkiyyət obyektlərindən sərbəst istifadə oluna bilər. Söhbət **əqli mülkiyyət obyektlərindən sərbəst istifadə olunması prinsipindən** gedir. Bu prinsipə görə, qanunvericilikdə nəzərdə tutulan hallarda müəllifin, yəni əqli mülkiyyət obyekti yaradan şəxsin razılığı (icazəsi) olmadan həmin obyektdən istifadə oluna bilər. Bu zaman əqli mülkiyyət obyektini ya-

radan şəxsə haqq ödənilmir. Bəzən qanunvericilikdə nəzərdə tutulan hallarda müəllifin razılığı olmadan və ona müəlliflik qonorarı (haqqı) verilmədən əsərdən istifadə olunur; bu, hüquq pozuntusu sayılmır. Məsələn, hər hansı şəxs elmi-tədqiqat məqsədi ilə qanuni dərc edilmiş əsərdən müvafiq sitat gətirə bilər.

**Əqli mülkiyyət hüquqlarının müəyyən müddət ərzində qüvvədə olma prinsipi** də iqtisadi hüququn sözügedən yarımsahəsinin prinsipi sayılır. Bu prinsipə görə, əqli mülkiyyət obyektini yaradan şəxsin iqtisadi hüquqları müddətsiz deyil, müəyyən zaman kəsiyi ərzində qüvvədə olur. Məsələn, ixtira üçün verilən patentin qüvvədəolma müddəti 10 ildir; faydalı modelə verilən patent 20 il müddətinə qüvvədə olur; müəlliflik hüququ əsər müəllifinin bütün həyatı boyu və onun ölümündən sonra 50 il müddətinə qüvvədə olur və s.

### 21.2.4. Mülkiyyət hüququnun subyektləri

Əqli mülkiyyətlə bağlı yaranan iqtisadi münasibətlərinin mümkün iştirakçıları əqli mülkiyyət hüququnun **subyektləri** adlanır. Əqli mülkiyyət obyektlərini yaradan şəxs əqli mülkiyyət hüququnun əsas subyekti sayılır. Söhbət, ilk növbədə, elm, ədəbiyyat və incəsənət əsərlərini yaradan **fiziki şəxslərdən** gedir. Belə şəxslər **müəllif** adlanır; əqli mülkiyyətlə bağlı olan iqtisadi hüquqlar məhz ona məxsusdur.

Əqli mülkiyyətin bu və ya digər növü də fiziki şəxslər tərəfindən yaradılır. Məsələn, ixtira edən şəxs ixtiraçı adlanır və s. Əqli mülkiyyət obyektlərindən biri olan seleksiya nailiyyətləri də fiziki şəxslər tərəfindən yaradılır ki, onlara da müəllif deyilir.

Öz yaradıcı əməyi ilə kəşf edən şəxs də müəllif (kəşfin müəllifi) adlanır. Kəşfin müəllifi olan fiziki şəxs də əqli mülkiyyət hüququnun subyekti hesab olunur. Yalnız fiziki şəxslər həm əsərin, həm seleksiya nailiyyətinin, həm də kəşfin və s. müəllifi ola bilərlər. Hüquqi şəxslərə gəldikdə, qeyd etməliyik ki, onlar nə əsərin, nə seleksiya nailiyyətinin, nə də kəşfin və

s. müəllifi kimi tanına bilər. Lakin, buna baxmayaraq, **hüquqi şəxslər** əqli mülkiyyət hüququnun subyekti kimi tanınır. Məsələn, hüquqi şəxs olan nəşriyyat müəlliflik hüququnun subyekti ola bilər. Belə ki, nəşriyyat öz yaratdığı mürəkkəb əsərdən bütövlükdə istifadəyə müstəsna hüquqa malikdir.

Bunlardan əlavə, əqli mülkiyyət hüququnun subyektləri sırasına həm də **aşağıdakılar** aiddir: 1) əqli mülkiyyət obyektlərini yaradan fiziki şəxslərin vərəsələri; 2) dövlət (Azərbaycan Respublikası); 3) patent sahibi; 4) sənaye mülkiyyət obyektinin müəllifi; 5) hüquqi varislər. Məsələn, sənaye mülkiyyəti obyektinin müəllifi öldükdən sonra onun iqtisadi hüquqları vərəsələrə keçir. Belə halda vərəsələr əqli mülkiyyət hüququnun subyekti olur. Başqa bir misalda, subyektiv patent hüquqları dövlətə keçdikdə o, həmin hüquqların daşıyıcısı olur. Belə halda dövlət (Azərbaycan Respublikası) patent hüququnun subyekti olur və s.

Əqli mülkiyyət hüququnun subyektləri aşağıdakı **növlərə** bölünür: 1) müəlliflik hüququnun subyektləri, 2) patent hüququnun subyektləri (ixtira hüququnun subyektləri, sənaye nümunəsi hüququnun subyektləri, faydalı model hüququnun subyektləri və s.).

## 21.3. Müəlliflik hüququ – əqli mülkiyyət hüququnun əsas institutlarından biri kimi

### 21.3.1. Müəlliflik hüququ anlayışı

Müəlliflik hüququ iki mənada işlədilir: 1) subyektiv mənada, 2) obyektiv mənada. **Subyektiv mənada müəlliflik hüququ** dedikdə müəllifin və müəlliflik hüququnun digər subyektlərinin əsər barəsində, eləcə də onunla bağlı olaraq malik olduqları iqtisadi hüquqlar başa düşülür. Söhbət iqtisadi xarakterli subyektiv müəlliflik hüquqlarından gedir.

Əsər barəsində və onunla əlaqədar təkcə iqtisadi hüquqlar əmələ gəlmir; əsər barəsində və onunla bağlı həm də qeyri-iqtisadi hüquqlar yaranır. Söhbət şəxsi qeyri-əmlak hüquqlarından

gedir. Əsərlə bağlı yaranan bu cür hüquqlar mülki hüququn yarımsahəsi olan əqli mülkiyyət hüququ ilə tənzimlənir. Həmin hüquqlar subyektiv mülki hüquqların növlərindən biridir.

**Obyektiv mənada müəlliflik hüququna** gəldikdə, qeyd etmək lazımdır ki, bu mənada müəlliflik hüququ iqtisadi hüququn yarımsahəsi olan əqli mülkiyyət hüququnun institutu kimi tanınır. Müəlliflik hüququ əqli mülkiyyət hüququnun elə bir institutudur ki, bu institut özündə əqli mülkiyyət obyekti olan əsərlə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusunu birləşdirir. Məhz həmin münasibətlərin yaranması və mövcud olması sayəsində müəlliflik hüququ əqli mülkiyyət hüququnun tərkibində iqtisadi hüquq institutu kimi «status» əldə edir.

Müəlliflik hüquq institutunun əsas «işi» əsərlə bağlı iqtisadi münasibətləri tənzim etməkdən ibarətdir. Unutmaq olmaz ki, hər hansı əsərdən istifadə olunması öz hüquqi xarakter və təbiətinə görə iqtisadi münasibətdir. Əsərlə bağlı yaranan iqtisadi münasibətlər isə müvafiq hüquq normaları ilə tənzimlənir ki, həmin normalar müəyyən formalarda ifadə olunur. Belə formalar müəlliflik hüququnun **mənbələri** adlanır. **Normativ hüquqi aktlar** müəlliflik hüququnun əsas mənbə növüdür. Onlar içərisində xüsusən də **qanunların** adı, ilk növbədə, çəkilməlidir. Hər şeydən əvvəl, dövlətin əsas qanunu sayılan **Konstitusiyada** müəlliflik hüququna aid müvafiq normalara rast gəlirik ki, onlar mühüm əhəmiyyətə malikdir. Konstitusiyanın yaradıcılıq azadlığı kimi vacib prinsip müəyyənləşdirən 51-ci maddəsində göstərilir ki, hər kəsin yaradıcılıq azadlığı vardır; dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

Müəlliflik münasibətlərinin tənzimlənməsində **«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanunu** (1996-cı il) vacib rol oynayır. Əsərlərin istifadəsilə bağlı yaranan müəlliflik münasibətləri məhz adıçəkilən qanun vasitəsi ilə tənzimlənir. Həmin qanunun 2-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının **Mülki Məcəlləsi**

müəlliflik qanunvericiliyinə daxildir. Odur ki, Mülkü Məcəllə müəlliflik hüququnun mənbəyi olan qanunlar sırasına aiddir. Lakin Mülki Məcəllə müəlliflik hüququnun bilavasitə mənbəyi kimi tanınmır. Belə ki, Mülki Məcəllədə müəllifliklə bağlı məsələlərin tənzimlənməsinə ayrıca fəsil həsr olunmamışdır. Ancaq, buna baxmayaraq, onun bəzi maddələrində (məsələn, maddə 2.3 «... müəlliflik hüququ və əlaqəli hüquqlar ilə bağlı münasibətlər, əgər müəlliflik və digər xüsusi qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir»; maddə 135.5 nəzərdə tutur ki, «qeyri-maddi əmlak nemətləri ilə bağlı münasibətlər onların hər birinə aid olan xüsusi qanunvericiliyin müddəalarına müvafiq olaraq tənzimlənir» və s.) bu məsələlərin tənzimlənməsinə aid müvafiq normalara rast gəlinir.

**Beynəlxalq müqavilələr** müəlliflik hüququnun digər mənbə növüdür. Söhbət, hər şeydən əvvəl, **«Ədəbi və bədii əsərlərin qorunması haqqında» Bern Konvensiyasından** (1886-cı il) gedir. Azərbaycan Respublikası bu konvensiyanın iştirakçısıdır.

Müəlliflik hüququnun mənbəyi olan beynəlxalq müqavilələr sırasına həm də **Müəlliflik hüququ haqqında Ümumdünya Konvensiyası** (Cenevrə Konvensiyası) daxildir. 1952-ci ildə Cenevrə şəhərində imzalanan həmin konvensiyada həm də Azərbaycan Respublikası iştirak edir.[1]

### 21.3.2. Müəlliflik hüququnun obyektləri

Müəlliflik hüququnun obyekti əsərdir. Əsər müəlliflik-hüquq münasibətinin elementlərindən biri olub, müəllifin həm iqtisadi, həm də qeyri-iqtisadi hüquqlarının obyekti hesab edilir. Unutmaq olmaz ki, müəllifin iqtisadi hüquqları məhz əsərlə bağlı yaranır. Bəs əsər dedikdə nə başa düşülür?

---

[1] *Ətraflı bax:* Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı, 2013, 19; Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif - tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.162.

**Əsər** dedikdə elə elmi-texniki ideyalar və ədəbi-bədii obrazlar başa düşülür ki, onlar hər hansı obyektiv formada ifadə edilir və həmin forma müəllifin yaradıcılıq fəaliyyətinin nəticələrini digər şəxslərin başa düşməsinə, qavramasına və dərk etməsinə imkan verir. Onun, yəni əsərin müəllif tərəfindən hər hansı şəxsə verilməsi qeyri-mümkündür. Belə ki, əsər əqli-beyin məhsulu olub, ideya və obrazlardan ibarətdir; ideya və obrazlar isə müəllifin şəxsiyyətindən ayrılmazdır. Odur ki, əsərin özü hər hansı formada başqa şəxsə verilə bilməz. Yaddan çıxarmamalıyıq ki, əsərin bu və ya digər mülki-hüquqi müqavilənin (məsələn, alqı-satqı, dəyişmə, bağışlama və s.) predmeti olması istisna edilir; əsərdən yalnız istifadə hüququ başqa şəxslərə verilə bilər. Məsələn, müəllif tərəfindən əsərin kitab halında çap və nəşr olunması, eləcə də oxucu auditoriyasına satılması nəşriyyata (hüquqi şəxsə) tapşırılır. Belə halda, əlbəttə, əsərlə bağlı iqtisadi münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi iqtisadi hüququn yarımsahəsi olan əqli mülkiyyət hüququ vasitəsilə həyata keçirilir. Bu isə onun əsas institutlarından biri olan müəlliflik hüququnun köməyi ilə mümkün olur.

Müəlliflik hüququ kimi institut vasitəsilə həm də əsərlər hüquqi cəhətdən qorunur, yəni əsərlərin hüquqi mühafizəsi həyata keçirilir. Həmin institut əsərin hüquqi qorunması üçün **üç şərt** müəyyən edir: 1) əsər yaradıcılıq fəaliyyətinin nəticəsi olmalıdır; 2) əsər hər hansı obyektiv formada ifadə edilməlidir; 3) əsər yaradıcılıq fəaliyyətinin elm, ədəbiyyat və incəsənət kimi sahələrinə aid olmalıdır.

Müəlliflik hüququ ilə qorunan və onun obyekti olan əsərlər müxtəlif növlərdə yaradılır. Belə ki, onlar bu və ya digər əlamətə görə ayrı-ayrı növlərə bölünür. **Məzmun** kimi əlamətə görə əsərlərin üç növü fərqləndlirilir: 1) elmi əsərlər; 2) ədəbiyyat əsərləri; 3) incəsənət əsərləri.

**Açıqlama** kimi əlamətə görə əsərlər iki növə bölünür: 1) açıqlanmış əsərlər (auditoriyaya və kütləyə çatdırılmış əsərlər);

2) açıqlanmamış əsərlər (auditoriya və kütləyə çatdırılmamış əsərlər – məsələn, Roma əlyazmaları).

**İstifadəyə buraxılması** kimi əlamətə görə əsərlərin iki növü mövcuddur: 1) dərc olunmuş əsərlər; 2) dərc olunmamış əsərlər.

**Müstəqil olmaq** kimi əlamətə görə əsərlərin iki növü vardır: 1) əsas əsərlər (müstəqil yaradılan əsərlər); 2) törəmə əsərlər (əsas əsərlərdən istifadə olunmaqla yaradılan əsərlər).

Bunlardan başqa, əsərlərin həm də **aşağıdakı növləri** fərqləndirilir: 1) sadə əsərlər (yalnız bir şəxs tərəfindən yaradılan əsərlər); 2) düzəltmə əsərlər (məcmuələr, ensiklopediyalar, məlumat bazaları və s.).

Hansı növdə yaradılmasından asılı olmayaraq, bütün əsərlər müəlliflik hüquq institutu vasitəsilə qorunur. Belə yaradıcılıq nəticələri müəlliflik hüququnun obyekti olan əsərlər sırasına aiddir. Bununla belə, bəziləri müəlliflik hüququnun obyekti olmayan əsərlər hesab edilir. **Müəlliflik hüququnun obyekti olmayan əsərlər** sırasına aşağıdakılar aiddir:[1] 1) qanunlar; 2) Prezident aktları; 3) Nazirlər Kabinetinin aktları; 4) mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktları; 5) normativ xarakterli aktlar; 6) məhkəmə qərarları; 7) istintaq -prokurorluq orqanlarının aktları və s. Bu, müəlliflik hüququnun obyekti olmayan əsərlərin siyahısıdır ki, həmin siyahı «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində verilmişdir. Müəlliflik hüququnun obyekti olmayan əsərlər dedikdə müəlliflik hüquq institutu vasitəsi ilə qorunmayan fəaliyyətin nəticələri başa düşülür.

### 21.3.3. Müəlliflik hüququnun subyektləri

Müəlliflik hüququnun **subyektlərinə** gəldikdə, qeyd etməliyik ki, əsər barəsində subyektiv müəlliflik hüquqlarına malik olan şəxslər müəlliflik hüququnun subyektləri adlanır. Onların

---

[1] Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı, 2006, s. 82-83.

sırasına aşağıdakılar aiddir: müəllif, vərəsələr, dövlət, işəgötürən, hüquqi şəxslər.

**Müəllif** müəlliflik hüququnun əsas subyektidir. Əsərin yaradıcısı olan fiziki şəxs müəllif adlanır. Yalnız fiziki şəxslər əsərin müəllifi ola bilər. Odur ki, hüquqi şəxslər əsərin müəllifi ola bilməzlər. Əsərin müəllifi kimi tanınmaq hüququna həm də dövlət və bələdiyyələr malik ola bilməzlər. Bu onunla izah edilir ki, yalnız fiziki şəxslər düşünmək və yaratmaq qabiliyyətinə malikdirlər.

Müəlliflik hüququnun subyektləri təkcə müəlliflə məhdudlaşmır. Onların sırasına müəllifdən başqa, həm də subyektiv müəlliflik hüquqlarının digər sahibləri daxildir. Unutmaq olmaz ki, subyektiv müəlliflik hüquqları müəllifdən savayı, həm də onlara məxsus ola bilər. Subyektiv müəlliflik hüquqlarının digər sahibləri müxtəlif hüquqi faktlar əsasında subyektiv müəlliflik hüquqlarını əldə edən şəxslərdir. Müəllif müqaviləsi həmin faktlardan biridir. Belə ki, müəllif özünün malik olduğu subyektiv müəlliflik hüquqlarını başqa şəxsə (məsələn, nəşriyyata) verir. Bu kimi halda nəşriyyat subyektiv müəlliflik hüquqlarının sahibi olur.

Beləliklə, müəlliflik hüququnun subyektlərini **iki qrupa** bölmək olar: 1) müəllif; 2) subyektiv müəlliflik hüquqlarının digər sahibləri. Onlar, yəni müəllif və subyektiv müəlliflik hüquqlarının digər sahibləri əsər barəsində və onunla bağlı müxtəlif məzmunlu hüquqlara malik olurlar. Məhz həmin hüquqlar **subyektiv müəlliflik hüquqları** adlanır. Onlar iki qrupa (növə) ayrılır: 1) iqtisadi məzmunu olmayan subyektiv müəlliflik hüquqları; 2) iqtisadi məzmunu və əmlak dəyəri olan subyektiv müəlliflik hüquqları.

**Birinci qrupa** daxil olan subyektiv müəlliflik hüquqlarının iqtisadi məzmunu yoxdur. Söhbət qeyri-iqtisadi xarakterli hüquqlardan gedir; həm də onlar şəxsi hüquqlardır. Bu səbəbdən həmin hüquqlar **şəxsi qeyri-iqtisadi hüquqlar** adlanır. Şəxsi qeyri-iqtisadi hüquqlar bunlardan ibarətdir: 1) müəlliflik hüququ, yəni əsərin müəllifi kimi tanınma hüququ; 2) ad hüququ; 3)

öz ad-sanını (şöhrətini) müdafiə etmək hüququ; 4) açıqlamaq hüququ; 5) imtina hüququ. Bu hüquqların nə iqtisadi qiyməti (dəyəri), nə də əmlak məzmunu vardır; özü də həmin hüquqlar müəllifin şəxsiyyətindən ayrılmaz olub, şəxsən ona aiddir. Bu səbəbdən onlar şəxsi hüquqlar hesab edilir. Şəxsi hüquqlar isə başqa şəxslərə verilə və özgəninkiləşdirilə bilməz.

**İkinci qrupa** (növə) daxil olan hüquqların iqtisadi məzmunu və əmlak qiyməti (dəyəri) vardır. Bu səbəbdən onlar **iqtisadi hüquqlar** adlanır. İqtisadi hüquqlar bunlardan ibarətdir: 1) surətçıxarma hüququ; 2) yaymaq hüququ; 3) idxal hüququ; 4) tərcümə hüququ; 5) yenidən izləmək hüququ və s. Əsər barəsində və onunla bağlı məhz belə, yəni iqtisadi hüquqların yaranması sayəsində müəlliflik hüququnun iqtisadi hüququn institutu kimi tanınmasına səbəb olmuşdur. Məsələn, müəllif özünün malik olduğu surətçıxarma hüququnu həyata keçirir. Bunun nəticəsində əsərin çoxsaylı nüsxələri (surəti) kitab halında nəşr olunaraq oxuculara satılır. Belə halda, əlbəttə, iqtisadi münasibətlər yaranır.

## 21.4. Patent hüququ – əqli mülkiyyət hüququnun institutu kimi

### 21.4.1. Patent hüququ anlayışı

Patent hüququ elmi dövriyyədə iki mənada işlədilir: 1) subyektiv mənada; 2) obyektiv mənada. **Subyektiv mənada patent hüququ** dedikdə sənaye mülkiyyəti obyektini yaradan şəxsin (müəllifin) həmin obyekt barəsində və onunla bağlı malik olduğu hüquqlar başa düşülür; onun məna yükü subyektiv patent hüquqları kimi anlayışla əhatə olunur. Subyektiv patent hüquqları sənaye mülkiyyəti obyektlərinin (məsələn, ixtiranın) qeydiyyata alınması və müəllifə (məsələn, ixtiraçıya) səlahiyyətli dövlət orqanı tərəfindən «patent» adlı sənədin verilməsi nəticəsində əmələ gəlir.

**Obyektiv mənada patent hüququ** dedikdə sənaye mülkiyyəti obyektləri ilə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Məhz obyek-

tiv mənada patent hüququ iqtisadi hüququn yarımsahəsi olan əqli mülkiyyət hüququnun institutu kimi çıxış edir. Həmin institutun əsas işi və funksiyası sənaye mülkiyyəti obyektləri ilə əlaqədar yaranan iqtisadi münasibətləri tənzimləməkdən ibarətdir. Məhz sənaye mülkiyyəti obyektləri ilə bağlı iqtisadi münasibətlərin əmələ gəlməsi sayəsində patent hüququ iqtisadi hüququn institutu (əqli mülkiyyət hüququnun tərkibində institut) kimi tanınmasına əsas olmuşdur. Hansı sahədə və nə ilə bağlı yaranmasından asılı olmayaraq, iqtisadi münasibətlər iqtisadi hüquqla tənzimlənməlidir.

Patent hüquq institutu vasitəsilə sənaye mülkiyyəti obyektlərinin hüquqi qorunması təmin edilir. Odur ki, həmin institut həm də **sənaye mülkiyyəti hüququ** adlanır. Patentlə bağlı yaranan hüquqlara isə **subyektiv sənaye mülkiyyəti hüquqları** deyilir. Bu hüquqlar səlahiyyətli dövlət orqanından patent alındığı andan əmələ gəlir. Həmin anda sənaye mülkiyyəti obyektləri rəsmi surətdə tanınır və qeydiyyatdan (rəsmi prosedurdan) keçir. Məhz bu andan patent hüquq institutu sənaye mülkiyyəti obyektlərini hüquqi qoruma sferasına daxil edərək, onları hüquqi mühafizə ilə təmin edir. Unutmaq olmaz ki, sənaye mülkiyyəti obyektlərinin hüquqi qorunmasını təmin etmək patent hüquq institutunun yerinə yetirdiyi funksiyalardan biridir.

**Patent** dedikdə səlahiyyətli dövlət orqanı tərəfindən verilən elə bir sənəd başa düşülür ki, bu sənəd sənaye mülkiyyəti obyektinin müəllifinin hansı şəxs olmasını təsdiqləyir və sənaye mülkiyyəti obyektlərindən istifadə etmək üçün öz sahibinə (patent sahibinə) müstəsna hüquq verir. Müstəsna hüquq onu ifadə edir ki, sənaye mülkiyyəti obyektlərindən istifadə etmək hüququ patent sahibinə məxsusdur. Başqa şəxslər sənaye mülkiyyəti obyektlərindən yalnız patent sahibinin razılığı və icazəsi ilə istifadə edə bilərlər. Patent hüquq institutunun da **nizamasalma predmetini** sənaye mülkiyyəti obyektlərindən istifadə ilə əlaqədar iqtisadi münasibətlər təşkil edir. Yaddan çıxarmamalıyıq ki, sənaye mülkiyyəti obyektlərindən istifadə ilə bağlı əlaqələr öz xarakteri və təbiətinə görə iqtisadi münasibətlərdir.

### 21.4.2. Patent hüququnun mənbələri, prinsipləri və subyektləri

Patent hüquq institutunun əsas mənbə növü **normativ hüquqi aktlardır**. Söhbət, ilk növbədə, normativ hüquqi aktların növlərindən biri olan **qanunlardan** gedir. Qanunlar içərisində, hər şeydən əvvəl, **«Patent haqqında» Azərbaycan Respublikası Qanununun** (1997-ci il) adı çəkilməlidir. Sənaye mülkiyyəti ilə bağlı münasibətlər məhz bu qanunla tənzimlənir. Həmin qanun Azərbaycan Respublikasında patent sisteminin yaranmasının hüquqi baza rolunu oynayır.

Qeyd etməliyik ki, sənaye mülkiyyəti ilə bağlı həm əmlak, həm də şəxsi qeyri-əmlak münasibətləri əmələ gəlir. Bu cür münasibətlərin hüquqi tənzimlənməsi isə Azərbaycan Respublikasında qüvvədə olan **Mülki Məcəllə** vasitəsi ilə həyata keçirilir. Odur ki, MM patent hüququnun mənbəyi olan qanunlar sırasına daxildir. Lakin, buna baxmayaraq, MM patent hüququnun bilavasitə mənbəyi hesab edilmir.[1] Bu, onunla izah edilir ki, MM-də sənaye mülkiyyəti obyektləri ilə bağlı münasibətləri tənzimləyən ayrıca xüsusi normalar qrupu nəzərdə tutulmur.

**Beynəlxalq müqavilələr** patenti hüququnun digər mənbə növü kimi tanınır. Onlar içərisində, məsələn, **«Sənaye mülkiyyətinin qorunması haqqında Paris Konvensiyası»** (1883-cü il) beynəlxalq patent münasibətlərinin tənzimlənməsində vacib rol oynayır. Sənaye mülkiyyəti obyektləri beynəlxalq səviyyədə məhz bu konvensiya ilə qorunur; Azərbaycan Respublikası onun iştirakçısıdır.

Azərbaycan Respublikası həm də **«Patent kooperasiyası barədə» Vaşinqton Müqaviləsində** (1970-ci il) iştirak edir ki, həmin müqavilə patent hüququnun mənbəyidir. Paris Konvensiyası (1883-cü il) sənaye mülkiyyəti obyekti üçün bir neçə dövlətdə patent almağın mürəkkəb prosedurunu müəyyən edir-

[1] Сергеев А.П. Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с.82.

di. Vaşinqton Müqaviləsi isə bir neçə dövlətdə paralel olaraq patent almaq prosedurunu sadələşdirir və asanlaşdırır.

Azərbaycan Respublikası 1891-ci ildə qəbul edilmiş **«Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı haqqında» Madrid Sazişinin** iştirakçısıdır. Bu saziş məhz əmtəə nişanlarının beynəlxalq qeydiyyatına həsr olunmuşdur.

**Avrasiya Patent Konvensiyası** (1994-cü il) regional xarakterli beynəlxalq müqavilədir. Bu konvensiya MDB məkanında sənaye mülkiyyəti obyektlərinin qorunmasında vacib rol oynayır. Konvensiyada MDB ölkələri, o cümlədən Azərbaycan Respublikası iştirak edir.

Patent hüquq institutunun əsasını onun **özünəməxsus prinsipləri** təşkil edir. Belə ki, bu institut bir neçə prinsip müəyyənləşdirir. **Sənaye mülkiyyəti obyektlərinin qorunması prinsipi** onların sırasına aiddir. Bu prinsipə görə, heç kəs patent sahibinin icazəsi və razılığı olmadan sənaye mülkiyyəti obyektlərindən istifadə edə bilməz; patent sahibi sənaye mülkiyyəti obyektlərindən istifadə edilməsi məsələsində müstəsna hüquqa malikdir. Bu, sənaye mülkiyyəti obyektlərinin hüquqi qorunmasını ifadə edir.

**Patentləşdirmə** patent hüququnun digər özünəməxsus prinsipi sayılır. Bu prinsip öz ifadəsini bunda tapır ki, sənaye mülkiyyəti obyektlərinin hüquqi qorunması patent kimi sənədlə təmin edilir. Patent elə bir sənəddir ki, bu sənəd sənaye mülkiyyəti obyektlərinə müəllifliyi təsdiq edir və öz sahibinə (patent sahibinə) həmin obyektlərdən istifadə etmək üçün müstəsna, yəni inhisar hüququ verir. Kim patent sahibindən icazə və razılıq almamışdırsa, sənaye mülkiyyəti obyektlərindən istifadə edə bilməz. Əgər sənaye mülkiyyəti obyekti üçün səlahiyyətli dövlət orqanlarından patent alınmamışdırsa, həmin obyektin hüquqi qorunması həyata keçirilə bilməz.

Patent hüququ həm də **patent qabiliyyəti prinsipindən** çıxış edir. Bu prinsipə görə, hər hansı fəaliyyətin nəticəsi yalnız o halda sənaye mülkiyyəti obyekti sayılır ki, onun patentə layiq olması (patent qabiliyyəti) rəsmi surətdə tanınsın. Rəsmi surət-

də tanınma aktını səlahiyyətli dövlət orqanı həyata keçirir. Bu orqan əgər müəyyən etsə ki, fəaliyyət nəticəsi patentə layiq olma şərtlərinə cavab verir, onu sənaye mülkiyyəti obyekti kimi tanıyır.

Patent hüququnun prinsipləri sırasına həm də **sənaye mülkiyyəti obyektinin ilkinliyi prinsipi** aiddir. Bu prinsipə görə, səlahiyyətli dövlət orqanına patent almaq üçün birinci düzgün tərtib olunmuş iddia sənədi verən şəxs sənaye mülkiyyəti obyektini qeydə aldırmaqda və patent almaqda üstünlük hüququna malikdir.

Patent hüququnun **subyektlərinə** gəldikdə, qeyd etməliyik ki, subyektiv sənaye mülkiyyəti hüquqlarına malik olan şəxslər patent hüququnun subyektləri adlanır. Müəllif patent hüququnun subyektlərindən biridir. **Müəllif** dedikdə özünün əqli fəaliyyəti ilə sənaye mülkiyyəti obyektlərini yaradan şəxs başa düşülür. Yalnız fiziki şəxslər sənaye mülkiyyəti obyektinin müəllifi ola bilərlər.

Patent hüququnun subyektləri sırasına həm də **patent sahibləri** daxildir. Patent sahibləri o şəxslərdir ki, onlara səlahiyyətli dövlət orqanı tərəfindən patent verilir. Bu sənəd həmin şəxsləri sənaye mülkiyyəti obyektlərindən istifadə etməyə müstəsna hüquqla təmin edir. Həm fiziki, həm də hüquqi şəxslər patent sahibi ola bilərlər. Dövlət də patent sahibi ola bilər. Belə ki, dövlətin patent əldə etmək hüququ vardır.

**Vərəsələr** də həmçinin patent hüququnun subyekti ola bilər. Belə ki, şəxslər vərəsəlik əsasında subyektiv sənaye mülkiyyət hüquqlarını əldə edə bilər.

## 21.5. Sənaye mülkiyyəti obyektləri və onların hüquqi qorunması

### 21.5.1. Sənaye mülkiyyəti obyektlərinin anlayışı və onların növləri

Sənaye mülkiyyəti obyektləri odur ki, onlar barəsində subyektiv patent hüquqları və ya subyektiv sənaye mülkiyyəti hüquqları əmələ gəlir. Patent hüquq institutu vasitəsilə məhz sə-

naye mülkiyyəti obyektlərinin hüquqi qorunması həyata keçirilir. Odur ki, patent hüquq institutunun hüquqi qoruma (hüquqi mühafizə) sferasına sənaye mülkiyyəti obyektləri daxildir. Bu obyektlər əqli mülkiyyət obyektlərinin qrup (növ) halında olan ayrıca hissədir.

**Sənaye mülkiyyəti obyektləri** dedikdə insanın əqli əməyinin nəticəsi olan elə nemətlər başa düşülür ki, həmin nemətlər patent hüquq institutu vasitəsilə qorunur. Onlara aşağıdakılar aiddir: 1) ixtira; 2) faydalı model; 3) sənaye nümunəsi. Bunlar subyektiv patent hüquqlarının obyektləridir. İnstitut kimi patent hüququ məhz ixtiranın, faydalı modelin və sənaye nümunəsinin hüquqi qorunmasını həyata keçirir; onlar, yəni həm ixtira, həm faydalı model, həm də sənaye nümunəsi patent hüququnun obyektlərinin ayrı-ayrı növləridir. Patent hüququnun obyektlərinin bu kimi növlərindən istifadə olunması ilə bağlı iqtisadi münasibətlər əmələ gəlir. Yaranmış müvafiq iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi patent hüquq institutu vasitəsilə həyata keçirilir.

### 21.5.2. İxtira – patent hüququnun obyekti kimi

İxtira patent hüququnun obyektlərindən biridir. İxtira həm də sənaye mülkiyyəti obyektləri sırasına daxildir. **İxtira** dedikdə sənaye, kənd təsərrüfatı, nəqliyyat və təsərrüfat fəaliyyətinin digər sahələrində konkret problemin praktik həllinə imkan verən yeni texniki həll başa düşülür.

Həm qurğu, həm üsul, həm maddə, həm də digər fəaliyyət nəticələri ixtira kimi tanına bilər. Odur ki, qurğu, üsul, maddə və s. ixtiranın obyektləri sayılır.

İstənilən şəxs ixtira etmək və onun müəllifi olmaq hüququna malikdir. Şəxsin ixtiranın müəllifi olması isə patent kimi sənədlə təsdiqlənir. Odur ki, müəllif səlahiyyətli dövlət orqanından «patent» adlı sənəd almalıdır; məhz həmin sənəd vasitəsilə ixtiranın hüquqi qorunması təmin olunur.

Lakin təklif olunan bütün texniki həllərin hər birinə «ixtira» kimi patent verilmir. Patent o halda verilə bilər ki, ixtira tələb

olunan şərtlərə cavab versin. Həmin şərtlər bunlardan ibarətdir: 1) ixtira yeni olmalıdır; 2) ixtira kimi təklif olunan üsul, maddə, qurğu və s. ixtira səviyyəli olmalıdır; 3) ixtira sənayedə tətbiq edilə bilən olmalıdır.

Əgər təklif olunan bu və ya digər texniki həll göstərilən şərtlərə cavab verə və uyğun olarsa, həmin həll dövlət tərəfindən «ixtira» kimi tanınır və onun üçün patent verilir; əksinə, texniki həll həmin şərtlərə cavab verməzsə, o, ixtira kimi tanınmır və bu səbəbdən iddiaçı şəxsə səlahiyyətli dövlət orqanı tərəfindən patent verilmir.

### 21.5.3. Faydalı model – patent hüququnun obyekti kimi

Faydalı model subyektiv sənaye mülkiyyəti hüquqlarının obyektlərindən biridir. Belə ki, həmin hüquqlar eyni zamanda faydalı model barəsində yaranır. Deməli, faydalı model həm də subyektiv patent hüquqlarının obyektidir. Sənaye mülkiyyəti obyektlərindən biri olan faydalı model ixtira ilə bərabər, patent hüquq institutu vasitəsilə qorunur, hüquqi mühafizə ilə təmin edilir.

**Faydalı model** dedikdə sənaye mülkiyyətinin elə bir obyekti başa düşülür ki, bu obyekt vasitəsilə istehsal vasitələrinin və istehlak əşyalarının, yaxud onların tərkib hissələrinin konstruktiv həlli həyata keçirilir. «Patent haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində faydalı modelə qanunvericilik səviyyəsində məhz bu cür anlayış verilir.

İxtira kimi, faydalı model də patentlə qorunur, hüquqi mühafizə ilə təmin edilir. Odur ki, «faydalı model» kimi təklif olunan konstruktiv həll üçün səlahiyyətli dövlət orqanından patent alınmalıdır. Lakin təklif olunan hər cür konstruktiv həll üçün səlahiyyətli dövlət orqanı patent vermir. Bunun üçün təklif olunan konstruktiv həll qanunun müəyyən etdiyi şərtlərə cavab verməli və uyğun olmalıdır. Qanunun müəyyən etdiyi şərtlər isə bunlardır: 1) yenilik (faydalı model yeni olmalıdır); 2) faydalı model sənayedə tətbiq edilə bilən olmalıdır (faydalı modelin təsərrüfatın hər hansı sahəsində hazırlanması və istifadə edilməsi mümkün olmalıdır). Əgər təklif olunan konstruktiv

həll bu şərtlərə cavab verərsə, həmin həll faydalı model kimi tanınır və onun üçün səlahiyyətli dövlət orqanı tərəfindən patent verilir.

Faydalı modelin **obyektinə** gəldikdə, qeyd etməliyik ki, faydalı modelin obyekti yalnız qurğu ola bilər. İxtiranın obyekti ola bilən nə maddə, nə üsul, nə də başqaları faydalı modelin obyekti ola bilməz. Qeyd etdiyimiz kimi, həm üsul, həm qurğu, həm də digərləri ixtiranın obyekti ola bilər. Digər tərəfdən, faydalı model ixtira səviyyəsində olmamalıdır. Bu cəhəti ilə faydalı model ixtiradan fərqlənir. Bundan əlavə, ixtiradan fərqli olaraq, faydalı model, adından da göründüyü kimi, faydalı olmaq kimi xüsusiyyətə malik olmalıdır. Lakin, bunlara baxmayaraq, ixtira və faydalı model bir-birinə oxşayır. Unutmaq olmaz ki, xarici ölkələrdə faydalı modeli ixtira ilə eyniləşdirirlər. Heç də sirr deyil ki, öz xarici əlamətlərinə görə faydalı model ixtiranın analoqudur. Təsadüfi deyildir ki, Yaponiyada ixtira və faydalı model kimi anlayışlar eyniləşdirilir.

### 21.5.4. Sənaye nümunəsi – patent hüququnun obyekti kimi

Patent hüququ (sənaye mülkiyyəti hüququ) həm də sənaye nümunəsi barədə yaranır. Sənaye nümunəsi sənaye mülkiyyəti obyektlərindən biridir.

**Sənaye nümunəsi** dedikdə məmulatın elə yeni bədii-estetik konstruktiv həlli başa düşülür ki, bu həll onun xarici görünüşünü müəyyən edir. İxtira və faydalı model kimi, sənaye mülkiyyətinin bu obyekti də müəyyən məzmuna malikdir. Belə ki, məmulatın bədii-estetik və konstruktiv həlli sənaye nümunəsinin məzmununu təşkil edir. İxtira və faydalı modelin məzmunu isə problemin texniki həllindən ibarətdir.

Sənaye nümunəsi üçün patent o halda verilə bilər ki, sənaye nümunəsi qanunun məyyən etdiyi şərtlərə cavab versin. Qanun aşağıda göstərilən üç belə şərt müəyyən edir: 1) sənaye nümunəsi yeni olmalıdır; 2) sənaye nümunəsi orijinal olmalıdır; 3) sənaye nümunəsi sənayedə tətbiq edilə bilən olmalıdır. Əgər bu şərtlərə cavab verərsə, sənaye nümunəsi üçün səlahiyyətli

dövlət orqanı patent verir; əksinə, əgər təklif olunan həll həmin şərtlərə cavab verməzsə, belə həll sənaye nümunəsi kimi tanınmır və onun üçün patent verilmir.

Beləliklə, bədii-konstruktiv həll sənaye nümunəsidir. Bundan fərqli olaraq, ixtira problemin texniki həllidir. Faydalı model isə konstruktiv həll deməkdir. Həm sənaye nümunəsi, həm ixtira, həm də faydalı model istifadə olunan zaman iqtisadi münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi patent hüquq institutu vasitəsilə həyata keçirilir.

### 21.5.5. Patent hüququnun rəsmiləşdirilməsi

Səlahiyyətli dövlət orqanına təqdim olunmuş obyektlər ixtira, faydalı model və sənaye nümunəsi kimi rəsmi surətdə tanınmalıdır. Patent hüquq institutu sənaye mülkiyyəti obyektlərinin rəsmi surətdə tanınması kimi vacib prinsipi müəyyənləşdirir; rəsmi surətdə tanınma müvafiq fərdi dövlət aktının qəbul edilməsi ilə həyata keçirilir. Belə aktın qəbul edilməsi nəticəsində sənaye mülkiyyəti obyekti üçün patent verilir. Sənaye mülkiyyəti obyektləri (ixtira, faydalı model və sənaye nümunəsi) üçün məhz patent verilməsi ilə subyektiv patent hüquqları əmələ gəlir. Deməli, subyektiv patent hüquqları (subyektiv sənaye mülkiyyəti hüquqları) ixtira, faydalı model və sənaye nümunəsinin rəsmi surətdə tanınması nəticəsində əmələ gəlir. Rəsmi surətdə tanıma isə mürəkkəb xarakterə malik olan proses deməkdir. Söhbət subyektiv patent hüquqlarının rəsmiləşdirilməsi prosesindən gedir; həmin prosesə başlamaqdan ötrü, ilk növbədə, iddia sənədi verilməlidir. **İddia sənədi** dedikdə sənaye mülkiyyəti obyektinə patent almaq üçün tərtib edilən sənədlər toplusu başa düşülür.

İddia sənədi səlahiyyətli dövlət orqanına verilməlidir. Bundan əvvəl, əlbəttə, iddia sənədi hazırlanmalı, tərtib edilməlidir. Bu işi iddiaçı görür. **İddiaçı** dedikdə patent almaq üçün iddia sənədi tərtib edən şəxs başa düşülür. İddiaçı rolunda, adətən, sənaye mülkiyyəti obyektini yaradan şəxs, yəni **müəllif** çıxış edir. Bununla bərabər, **vərəsələr** də iddiaçı ola bilər.

İddia sənədinin **tərkibinə** nələrin daxil olmasına gəldikdə, qeyd etmək lazımdır ki, bu, iddia sənədinin hansı növdə tərtib edilməsindən asılıdır. Belə ki, iddia sənədi üç növdə tərtib olunur: 1) ixtira üçün tərtib edilən iddia sənədi; 2) faydalı model üçün tərtib edilən iddia sənədi; 3) sənaye nümunəsi üçün tərtib olunan iddia sənədi. İddia sənədinin tərkibinə hansı sənədlərin daxil olması da bu növlərdən asılıdır. Lakin, buna baxmayaraq, sənaye mülkiyyəti obyektləri barəsində tərtib edilən iddia sənədləri tərkibcə, əsasən, üst-üstə düşürlər.

Tərtib edildikdən sonra iddia sənədi **səlahiyyətli dövlət orqanına verilir**. Bu zaman həmin orqana patent rüsumunun ödənilməsi barədə sənəd də təqdim olunur. Bununla bərabər iddia sənədi səlahiyyətli dövlət orqanına həm də **patent müvəkkili** vasitəsilə verilə bilər.

Səlahiyyətli dövlət orqanına verilmiş iddia sənədinə baxılır. Bu, yəni **iddia sənədinə baxılması** rəsmiləşdirmə prosesinin sonrakı mərhələsidir. Bu mərhələdə iddia sənədi ekspertizadan keçirilir və bunun nəticəsində sənaye mülkiyyəti obyekti üçün patent verilməsi məsələsi həll olunur.

İddia sənədinin **ekspertizasının** iki növü (forması) vardır: 1) ilkin ekspertiza; 2) patent ekspertizası. **İlkin ekspertiza** dedikdə iddia sənədində göstərilən obyektin qanunda nəzərdə tutulan tələblərə uyğun gəlməsinin müəyyənləşdirilməsi başa düşülür. **Patent ekspertizası** isə iddia sənədinin, mahiyyətcə, ekspertizasıdır. Bu zaman təklif olunmuş sənaye mülkiyyəti obyektinin patentə layiq olma şərtlərinə uyğun gəlməsi yoxlanılır.

Daha sonra patentin verilməsi məsələsi həll olunur. **Patentin verilməsi** rəsmiləşdirmə prosesinin son mərhələsidir. Bu mərhələdə sənaye mülkiyyəti obyekti səlahiyyətli dövlət orqanı tərəfindən **dövlət reyestrində** qeydə alınır. Qeydiyyat üçün müvafiq rüsum ödənilməlidir. Səlahiyyətli dövlət orqanı dedikdə **patent idarəsi** başa düşülür.

Sənaye mülkiyyəti obyekti qeydə alındıqdan və iddiaçı şəxsə patent verildikdən sonra 3 ay ərzində patent idarəsi tərəfindən rəsmi bülletendə patent barədə müvafiq məlumat dərc olunur. Məlumata patent sahibinin adı və digər göstəricilər daxil edilir.

# XXI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XXII FƏSİL.*
# VERGİ HÜQUQU

## 22.1. Vergi hüququ – iqtisadi hüququn yarımsahəsi kimi
### 22.1.1. Vergi hüququ anlayışı

Dövlətimizin əsas qanunu sayılan Konstitusiyanın 4-cü fəslində vətəndaşların əsas vəzifələri müəyyən edilmişdir. Vergiləri ödəmək vətəndaşların daşıdıqları vəzifələrdən biridir. Konstitusiyanın 73-cü maddəsinin I hissəsində deyilir ki, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi ödəmək vəzifəsi hər bir dövlətin şəxslərinin üzərinə qoyulmuş vəzifədir. Nəzərdən qaçırmaq olmaz ki, vergi müəyyən etmək və tutmaq siyasi hakimiyyət daşıyıcısı olan dövləti xarakterizə edən, dövlətə xas olan əlamətlərdən biridir. Dövlətin bu cür əlamətlə xarakterizə olunması isə təsadüfi xarakter daşımır. Heç də sirr deyil ki, dövlət büdcəsinin əsas mənbəyini vergi təşkil edir. Unutmaq olmaz ki, istənilən ölkədə dövlət gəlirləri içərisində vergi əsas yer tutaraq ən mühümü hesab olunur. İqtisadi nəzəriyyədə göstərilir ki, dövlət və yerli büdcələrin gəlir hissəsini, əsasən, vergi təşkil edir.[1] Odur ki, istənilən dövlət vergi sisteminin formalaşdırılmasına, eləcə də vergi siyasətinin həyata keçirilməsinə prioritet əhəmiyyət verir.[2]

Cəmiyyətdə mövcud olan ictimai münasibətlər həm də vergi ilə bağlı olaraq yaranır. Cəmiyyətdə vergi ilə bağlı əmələ gələn ictimai münasibətlər **vergi münasibətləri** adlanır ki, belə münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir; həmin normaların sistemi vergi hüququ adlanır. Bu normalarla tənzimlənən vergi münasibətləri dövlətin həyata keçirdiyi vergi fəaliyyəti prosesində yaranır ki,

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.573.

[2] *Vergilərin təşəkkül tapması və tarixi barədə ətraflı bax: məsələn,* Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.10-45.

belə fəaliyyət vergilərin müəyyən edilməsinə (qoyulmasına) və tutulmasına yönəlir.

**Vergi hüququ** dedikdə dövlətin vergi fəaliyyəti sahəsində yaranan vergi münasibətlərini tənzimləyən hüquq normalarının sistemi başa düşülür ki, həmin münasibətlər vergilər qoyulması və tutulması ilə bağlı yaranır. Onun əsas funksiyası cəmiyyətdəki vergi münasibətlərini tənzimləməkdən ibarətdir ki, həmin münasibətlər dövlət və şəxslər (vergi ödəyiciləri) arasında əmələ gəlir. Mübaliğəsiz olaraq deyə bilərik ki, cəmiyyətin inkişafında vergi münasibətləri müstəsna rola malikdir.

### 22.1.2. Vergi hüququnun nizamasalma predmeti, subyektləri, mənbələri və prinsipləri

Vergi hüququ vergi fəaliyyəti sahəsində yaranan ictimai münasibətləri, yəni vergi münasibətlərini tənzimləyir. Məhz vergi münasibətləri vergi hüququnun **nizamasalma predmetini** təşkil edir. Qeyd etdiyimiz kimi, vergi münasibətləri vergi fəaliyyəti prosesində və sahəsində əmələ gələn ictimai münasibətlərə deyilir.

Vergi münasibətləri vergi hüququnun ibarət olduğu ayrı-ayrı hüquq normaları vasitəsilə tənzimlənir. Bu zaman vergi münasibətləri hüquqi forma alır ki, həmin forma vergi-hüquq münasibətləri adlanır. Deməli, vergi-hüquq münasibətləri vergi-hüquq normaları ilə tənzimlənən və nizama salınan vergi münasibətləridir. Fəlsəfi nöqteyi-nəzərdən onlar arasındakı münasibət «məzmun» və «forma» kimi kateqoriyalar arasında mövcud olan əlaqə kimidir. Belə ki, fəlsəfi baxımdan əgər vergi münasibətləri məzmundursa, vergi-hüquq münasibətləri formadır.

**Vergi-hüquq münasibətləri** dedikdə vergi-hüquq normaları ilə tənzimlənən və nizama salınan vergi münasibətləri başa düşülür. Hər bir hüquq münasibəti kimi vergi-hüquq münasibətləri də quruluşca üç elementdən ibarətdir: 1) obyekt; 2) subyekt; 3) məzmun.

Vergi-hüquq münasibətlərinin **obyekti** odur ki, onun barəsində vergi-hüquq münasibətləri yaranır. Heç də sirr deyil ki,

vergi-hüquq münasibətləri vergi barəsində və onunla bağlı olaraq əmələ gəlir. Odur ki, verginin özü vergi-hüquq münasibətlərinin obyektidir; söhbət büdcəyə köçürülən vergidən gedir.[1]

**Vergi** dedikdə dövlət və yerli hakimiyyət (bələdiyyə) tərəfindən fiziki və hüquqi şəxslərdən məcburi surətdə alınan pul vəsaiti başa düşülür. Şəxslərdən məcburi surətdə alınan hər cür vəsait, təbii ki, vergi hesab olunmur. Bu və ya digər vəsaitin vergi hesab edilməsi üçün onun müəyyən əlamətlərə uyğun gəlməsi tələb edilir. Söhbət vergini xarakterizə edən **əlamətlərdən** gedir.[2] Həmin əlamətlər bunlardan ibarətdir: 1) vergi şəxslərdən məcburi surətdə alınan pul vəsaitidir; 2) vergi şəxslərdən əvəzsiz alınan pul vəsaitidir; 3) vergi pul formasında ödənişdir; 4) vergi geri qaytarılmayan pul ödənişidir; 5) vergi dövlət və yerli büdcələrə daxil olan (köçürülən) pul ödənişidir; 6) vergi hüquqi əsası olan ödənişdir (hüquqi əsas dedikdə qanunlar başa düşülür); 7) vergi faktiki əsası olan ödənişdir (faktiki əsas dedikdə gəlir, mənfəət, əmlak və s. başa düşülür). Bu kimi əlamətlər vergini digər pul ödənişlərindən fərqləndirməyə imkan verir. Vergi həm də belə bir əlamətlə xarakterizə edilir ki, vergi şəxslərdən alınan elə pul vəsaitidir ki, onun hansı xərclərin ödənilməsi üçün istifadə ediləcəyi qabaqcadan bilinmir və məlum olmur.

Vergi-hüquq münasibətlərinin subyektlərinə gəldikdə, qeyd etmək lazımdır ki, vergi-hüquq münasibətlərinin real (faktiki) iştirakçıları vergi-hüquq münasibətlərinin subyektləri adlanır. Vergi-hüquq münasibətlərinin mümkün (potensial) iştirakçılarına isə vergi hüququnun **subyektləri** deyilir. Onların sırasına aiddir: 1) dövlət; 2) vergi ödəyiciləri. Vergi-hüquq münasibətləri məhz dövlət və vergi ödəyiciləri arasında əmələ gəlir.

---

[1] *Vergi-hüquq münasibətlərinin obyekti hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdən biridir. Bu barədə söylənilən fikirlərlə bağlı daha ətraflı bax:* Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s. 63-64.

[2] *Ətraflı bax: məsələn,* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.197.

Vergi-hüquq münasibətləri həm də bələdiyyə və vergi ödəyiciləri arasında yaranır. Düzdür, vergi-hüquq münasibətlərində bilavasitə dövlət və bələdiyyə özü iştirak etmir. Bu münasibətlərdə onları müvafiq səlahiyyətli orqanlar (dövlət və bələdiyyə orqanları) təmsil edirlər. **Dövlət orqanları** dövlət vergilərini müəyyən edir, dövlət vergilərinin ödənilməsini tələb edir və onların ödənilməsinə nəzarət edir. Yerli özünüidarəetmə orqanları olan **bələdiyyə orqanları** yerli vergiləri tətbiq edir, yerli vergilərin yerli büdcələrə yığılmasını təşkil edir və onların ödənilməsi üzərində nəzarəti həyata keçirilir.

**Vergi ödəyiciləri** dedikdə elə şəxslər başa düşülür ki, onlar dövlət və yerli vergiləri ödəmək vəzifəsi daşıyırlar. Belə vəzifəni həm fiziki, həm də hüquqi şəxslər daşıyırlar. Onlar iqtisadi-təsərrüfat fəaliyyəti ilə məşğul olan şəxslərdir. Deməli, vergi ödəyicisi rolunda həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər.

**Vergi ödəyiciləri olmayan şəxslər** də vergi-hüquq münasibətlərinin iştirakçısı – vergi hüququnun subyekti ola bilər. Söhbət vergilərin ödənilməsi ilə bağlı şəxslərdən gedir. **Vergilərin ödənilməsi ilə bağlı şəxslər** dedikdə vergi ödəyiciləri olmayan, lakin qanuna əsasən vergilərin hesablanmasına və büdcəyə köçürülməsinə, vergi orqanlarına müvafiq məlumatın verilməsinə cavabdeh olan, habelə vergi yoxlamasının həyata keçirilməsinə köməklik göstərən işçilər başa düşülür. Onların sırasına vergi agentləri, banklar və digər kredit təşkilatları, ekspertlər və s. daxildir.[1]

Beləliklə, vergi hüququnun subyektləri (vergi-hüquq münasibətlərinin real iştirakçıları) bunlardan ibarətdir: 1) dövlət (dövlət orqanları); 2) bələdiyyə (bələdiyyə orqanları); 3) vergi ödəyiciləri; 4) vergilərin ödənilməsi ilə bağlı şəxslər (onlara həm də prosessual şəxslər deyilir).

---

[1] Vəliyev D.Ə., Balakişiyeva Y.H. və b. Vergi hüququ. Dərslik. Bakı, 2003, s.121.

Vergi-hüquq münasibətləri üç əlamətlə xaraterizə olunur. Birinci, **vergi-hüquq münasibətlərinin obyektini** həmişə və bütün hallarda pul formasında olan vergi təşkil edir. İkinci, vergi münasibətləri **hakimiyyət xarakterli münasibətlərdir.** Unutmaq olmaz ki, vergi-hüquq münasibətləri hakimiyyət səlahiyyətinə malik olan dövlət (bələdiyyə) və vergi ödəyiciləri arasında əmələ gəlir. Dövlət (bələdiyyə) hökmən vergi-hüquq münasibətlərinin tərəflərindən biri olmalıdır. Üçüncü, vergi-hüquq münasibətləri **iqtisadi xarakterli münasibətlərdir.**

Vergi-hüquq münasibətlərinin **məzmununa** gəldikdə, qeyd etmək lazımdır ki, bu münasibətlərdə iştirak edən subyektlərin hüquq və vəzifələrinin məcmusuna vergi-hüquq münasibətlərinin məzmunu deyilir. Məsələn, vergi- hüquq münasibətlərində iştirak edən subyektlərdən biri olan dövlət (dövlət orqanları) vergilərin ödənilməsini vergi ödəyicilərindən tələb etmək hüququna malikdir. Bu, dövlətin vergi-hüquq münasibətlərində malik olduğu hüquqdur. Vergiləri ödəmək isə vergi ödəyicilərinin daşıdıqları vəzifədir. Yaddan çıxarmamalıyıq ki, vergiləri ödəmək hər kəsin borcudur.

Vergi hüququnun **mənbələrinə** gəldikdə, qeyd etməliyik ki, vergi hüququna daxil olan müvafiq hüquq normalarının ifadə və mövcudolma formaları vergi hüququnun mənbələri adlanır.[1] Vergi-hüquq normaları, adətən, normativ hüquqi akt kimi formada ifadə edilir və mövcud olur. Odur ki, **normativ hüquqi aktlar** vergi hüququnun əsas mənbəyidir. Söhbət, hər şeydən əvvəl, normativ hüquqi aktların əsas növü kimi tanınan **qanunlardan** gedir. Qanunlar içərisində əsas rolu **Konstitusiya** oynayır ki, ali hüquqi qüvvəyə malik olan həmin qanun bütün hüquq sahələri, eləcə də hüquq yarımsahə və institutları üçün normativ əsas (baza) hesab olunur. Konstitusiyanın 73-cü maddəsi vətəndaşların üzərinə vergi ödəmək kimi vəzifə qoyur ki, bu, yəni vergiləri ödəmək onların daşıdıqları əsas konstitusion vəzifələrdən biridir.

---

[1] *Vergi hüququnun mənbələri barədə ətraflı bax:* Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, 56-60.

Vergi hüququ üçün Konstitusiyanın həm də aşağıdakı maddələri mühüm əhəmiyyətə malikdir: 1) Milli Məclis bu və digər məsələyə dair ümumi qaydalar müəyyən edir ki, vergiləri ödəmək həmin məsələlərdən biridir (94-cü maddə); 2) Prezident dövlətin iqtisadi proqramlarını təsdiq edir (109-cu maddə); 3) Nazirlər Kabineti maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir (119-cu maddə) və s.

Vergi hüququnun mənbəyi olan qanunlar içərisində **Azərbaycan Respublikası Vergi Məcəlləsinin** (VM, 2000-ci il)[1] adı, ilk növbədə, çəkilməlidir. Azərbaycan Respublikasında yaranan vergi münasibətlərinin tənzimlənməsində bu qanun mühüm və vacib rol oynayır. Sözügedən məcəllə vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti və digər məsələləri müəyyənləşdirir. VM 2000-ci ildə qəbul olunmuş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Normativ hüquqi aktların digər növü **qanunqüvvəli** aktlardır ki, onlar vergi münasibətlərinin tənzimlənməsində heç də az rol oynamırlar. Söhbət Prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından və Vergilər Nazirliyinin qəbul etdiyi normativ əhəmiyyətli hüquqi sənədlərdən (təlimat, izah məktubları və digər aktlardan) gedir. Bu cür aktlar vergi hüququnun nizamasalma predmetini təşkil edən bu və ya digər məsələnin tənzimlənməsinə həsr olunmuşdur.

Vergi hüququnun mənbəyi qismində həm də **bələdiyyələrin normativ xarakterli hüquqi aktları** çıxış edir. Unutmaq olmaz ki, bələdiyyələr yerli vergilərin tətbiq olunması, yerli vergilərin yerli büdcələrə yığılmasının təşkil edilməsi və onların ödənilməsi üzərində nəzarət həyata keçirir. Təbii ki, bu kimi məsələ-

---

[1] Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı, 2014, 296 s.; URL:http//www.taxes.gov.az – 02.01.2018-ci il.

lərlə bağlı olaraq bələdiyyələr normativ əhəmiyyətə malik olan hüquqi aktlar qəbul edir. Həmin aktlar vergi hüququnun mənbəyi hesab olunur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilələr** vergi hüququnun digər mənbə növüdür. Söhbət vergilərlə əlaqədar bağlanmış beynəlxalq müqavilələrdən gedir;[1] onlara **beynəlxalq vergi sazişləri** deyilir. Belə sazişlər, hər şeydən əvvəl, ikitərəfli səviyyədə (iki dövlət arasında) bağlanılır. İkitərəfli beynəlxalq vergi sazişləri içərisində ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər vacib yer tutur. İkiqat vergitutma dedikdə vergi ödəyicisinin əldə etdiyi gəlirdən (vergitutma obyektindən) eyni zamanda iki və ya daha çox dövlətin büdcəsinə eyni növ vergi alınması başa düşülür. Sözügedən beynəlxalq vergi sazişlərinin bağlanması ikiqat vergitutma kimi beynəlxalq aktual məsələni tənzimləmək məqsədinə xidmət edir. Odur ki, dünya təcrübəsində bu cür beynəlxalq müqavilələrin bağlanması praktikasından geniş səviyyədə istifadə olunur. Təsadüfi deyil ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında yüzlərlə müvafiq ikitərəfli saziş bağlanmışdır. Azərbaycan Respublikası tərəfindən indiyə kimi 30-dan çox dövlətlə (məsələn, Böyük Britaniya, Pakistan, Norveç, Türkiyə, Moldova, Polşa, Rusiya Federasiyası, Avstriya, Özbəkistan, Gürcüstan və digər ölkələrlə) belə saziş bağlanmışdır. Onlar, əlbəttə, vergi hüququnun mənbəyi olan beynəlxalq müqavilələr sırasına daxildir.

Vergi hüququnun mənbəyi olan qanunvericilik aktları **vergi qanunvericiliyi** adlanır. Söhbət Azərbaycan Respublikasının vergi qanunvericiliyindən gedir. Azərbaycan Respublikasının vergi qanunvericiliyi Konstitusiyadan, Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktlarından ibarətdir (VM, maddə 2).

Vergi hüququ ilə vergi münasibətlərinin hüquqi tənzimlənməsi onun **özünəməxsus prinsipləri** əsasında həyata keçirilir.

---

[1] *Daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 628-632.

Söhbət iqtisadi hüququn sahədaxili prinsiplərindən gedir ki, onlar vergi hüququna xas olan əsas normativ ideya və rəhbər başlanğıclardır.

Vergi hüququna xas olan prinsiplər sırasına, hər şeydən əvvəl, **qanunçuluq prinsipi** aiddir. Bu prinsip öz ifadəsini bunda tapır ki, vergilər qanunla müəyyən edilir; şəxslər məhz qanunla müəyyən edilmiş vergiləri ödəmək vəzifəsi daşıyırlar. Qanunçuluq prinsipi Konstitusiyanın 73-cü maddəsində ifadə edilmişdir. Həmin maddənin I hissəsində göstərilir ki, hər kəs qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini ödəməyə borcludur.

Vətəndaş, sadəcə olaraq, təkcə vergiləri ödəmək vəzifəsi daşımır. Onların borcudur ki, vergiləri tam həcmdə və vaxtında ödəsinlər. Unutmaq olmaz ki, Konstitusiyanın 73-cü maddəsinin II hissəsinə görə, hər kəs qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəməyə borcludur. Məhz bu kimi konstitusion göstərişdə **vergilərin tam həcmdə və vaxtında ödənilməsi prinsipi** formulə edilmişdir.

Vergi hüququ həm də belə prinsipdən çıxış edir ki, şəxslər qanunla müəyyən edilməmiş vergiləri ödəməyə məcbur edilə bilməz. Söhbət **şəxslərin vergi ödənilməsinə məcbur edilməsinin yolverilməzliyi prinsipindən** gedir. Bu prinsip öz normativ-hüquqi ifadəsini Konstitusiyanın 73-cü maddəsinin II hissəsində tapmışdır. Burada deyilir ki, heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

Vergi hüququnun prinsipləri sırasına həm də **müəyyənlik prinsipi** daxildir. Bu prinsipə görə, hamı və hər kəs üçün aşkar və qəti şəkildə müəyyən olunmalıdır: 1) hansı növ vergi ödənilməsi; 2) verginin ödənilmə müddəti; 3) vergi ödənişinin həcmi; 4) verginin ödənilmə forması.

**İkiqat vergitutmaya yol verilməməsi prinsipi** də vergi hüququnun özünəməxsus prinsipi kimi tanınır. Bu prinsipə görə,

eyni bir mənbədən iki dəfə vergi alına bilməz. Həmin prinsip Vergi Məcəlləsində ifadə olunmuşdur (VM, maddə 3.5). Burada deyilir ki, heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz.

Vergi hüququ həm də **vergitutmanın ümumiliyi prinsipini** müəyyənləşdirir. Bu prinsipə görə, iqtisadi-təsərrüfat fəaliyyəti ilə məşğul olan və mənfəət (gəlir) əldə edən hər bir şəxs vergi ödəyir. Həm fiziki, həm də hüquqi şəxslər vergi ödəyiciləridir. Unutmaq olmaz ki, iqtisadi-təsərrüfat fəaliyyətinin subyekti olan bütün fiziki və hüquqi məxslər vergi ödəmək vəzifəsi daşıyırlar.

Vergi hüququna həm də **şəxslərin konstitusion hüquqlarını məhdudlaşdıran vergilərin müəyyən edilməsinin yolverilməzliyi prinsipi** aiddir. Bu prinsipə görə, hər kəsin konstitusiyada nəzərdə tutulan hüquq və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsi qadağan olunur. Həmin prinsip Vergi Məcələsinin 3.3-cü maddəsində formulə edilmişdir.

Bunlardan əlavə, vergi hüququna aşağıdakı **digər prinsiplər** də xasdır: 1) vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran vergilərin müəyyən edilməsinin yolverilməzliyi prinsipi; 2) vergilərin iqtisadi cəhətdən əsaslı olması prinsipi; 3) vergilərin müxtəlifnövlü olması prinsipi; 4) vergilərin ödənilməsinin məcburiliyi prinsipi; 5) vergilərin suverenliyi prinsipi (bu prinsipə görə, öz ərazisində vergi müəyyən etmək dövlətin suveren hüququdur) və digər prinsiplər.

## 22.2. Vergi hüququnun sistemi və hüquq məkanında onun mövqeyi

### 22.2.1. Vergi hüququnun sistemi

Vergi hüququ öz tərkibində vergi münasibətlərini tənzimləyən ayrı-ayrı hüquq normalarını birləşdirir. Söhbət vergi-hüquq normalarından gedir. Əlbəttə, vergi-hüquq normaları vergi hü-

ququnun tərkibində qarmaqarışıq halda deyil, həm hüquqa, həm də məntiqə əsaslanan müəyyən ardıcıllıqla düzlənir. Vergi-hüquq normalarının məntiqi-hüquqi ardıcıllıqla yerləşməsinə **vergi hüququnun sistemi** deyilir.

Vergi hüququnun sistemi iki hissədən ibarətdir: 1) ümumi hissə; 2) xüsusi hissə. **Vergi hüququnun ümumi hissəsi** özündə elə vergi-hüquq normalarını birləşdirir ki, bu normalar bütün vergilər üçün əhəmiyyəti olan müddəalar müəyyənləşdirir (VM, maddə 1–94). Onlar vergi hüququnun xüsusi hissəsinə tətbiq olunmaq xüsusiyyətinə malikdir. Unutmaq olmaz ki, vergi hüququnun ümumi hissəsi ümumi xarakterli məsələləri tənzimləyir (məsələn – vergi ödəyicisi, vergi agenti, dövlət vergi orqanları, vergi nəzarəti, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və s.).

**Vergi hüququnun xüsusi hissəsi** vergilərin ayrı-ayrı növlərini tənzimləyən hüquq normalarından ibarətdir (VM, maddə 95–221). Bu normalar əsasında müəyyən etmək mümkün olur ki, Azərbaycan Respublikasında hansı növ vergilər tətbiq olunur. Vergi növləri bunlardan ibarətdir: 1) fiziki şəxslərin gəlir vergisi; 2) hüquqi şəxslərin mənfəət vergisi; 3) əlavə dəyər vergisi; 4) aksiz vergisi; 5) əmlak vergisi; 6) torpaq vergisi; 7) yol vergisi; 8) mənfəət vergisi; 9) sadələşdirilmiş vergi.

Vergi hüququnun ümumi və xüsusi hissələrə bölünməsi Vergi Məcəlləsinin sisteminə əsaslanır. Belə ki, Vergi Məcəlləsi ümumi və xüsusi hissələrdən ibarətdir.

Vergi Məcəlləsinin ümumi hissəsində vergiyə leqal (normativ) anlayış verilir, verginin növləri (dövlət, yerli vergilər və muxtar respublika vergiləri) haqqında normalar ehtiva edilir, vergitutmanın formaları müəyyənləşdirilir və digər məsələlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Buraya I–VIII fəsillər daxildir ki, bu fəsillər özlərində 1– 94-cü maddələri birləşdirir.

Vergi Məcəlləsinin xüsusi hissəsində ayrı-ayrı vergi növlərini ödəyən şəxslər (vergi ödəyiciləri), vergitutma obyekti və digər məsələləri tənzimləyən normalar nəzərdə tutulmuşdur.

Buraya VIII–XVII fəsillər daxildir ki, həmin fəsillər 95–221-ci maddələri əhatə edir.

### 22.2.2. Hüquq sistemində vergi hüququnun tutduğu yer

Hüquq ədəbiyyatı səhifələrində mübahisə doğuran mövzulardan biri hüquq sistemində vergi hüququnun tutduğu yer barədə məsələdir. Bununla əlaqədar bir-birindən fərqli fikirlər söyləyən müəlliflərin müxtəlif mövqeləri, təbii ki, üst-üstə düşmür. Müəlliflər arasında elələri vardır ki, onlar vergi hüququnu hüququn müstəqil sahələrindən biri kimi tanıyır. Məsələn, 2003-cü ildə nəşr olunan «Vergi hüququ» dərsliyində göstərilir ki, vergi hüququ müstəqil hüquq sahəsi kimi formalaşmışdır ki, bu, cəmiyyətin inkişafında vergi münasibətlərinin müstəsna rolu ilə izah olunur.[1]

Müəlliflərdən İ.V.Vəliyev də eyni mövqedə duraraq qeyd edir ki, vergi hüququ öz statusuna görə hüququn müstəqil sahəsidir. Bu hüquq sahəsinə ictimai münasibətlərin müəyyən qrupunu tənzimləyən vergi-hüquq normaları daxildir.[2]

Müəlliflərdən bəzisi vergi hüququnu müstəqil hüquq sahəsi kimi tanımır. Məsələn, A.Q.Mirzəyeva məsələyə məhz bu cür yanaşaraq yazır ki, vergi hüququ maliyyə hüququnun çox mühüm bir sahəsidir.[3] Müəllif buna oxşar fikri vergi hüququ barədə yazdığı dərslikdə də söyləyir. Belə ki, həmin müəllifə görə, vergi hüququ maliyyə hüququnun aparıcı sahəsi hesab olunur.[4]

Əlbəttə, müəlliflərin söylədikləri fikirlərin hamısında müəyyən dərəcədə həqiqət elementləri vardır və vergi hüququnun formalaşmasında onların söylədikləri fikirlər əhəmiyyətli rol oynayır. Lakin, buna baxmayaraq, qeyd etməliyik ki, Azərbay-

---

[1] Vəliyev D.Ə., Balakişiyeva Y.H. və b. Vergi hüququ. Dərslik. Bakı. 2003, s.18.

[2] Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.54.

[3] Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı, 2008, s.153.

[4] Mirzəyeva A.Q. Azərbaycan Respublikasının vergi hüququ. Dərslik. Bakı, 2007, s.129.

can Respublikasının dövlətdaxili (milli) hüquq sistemində iqtisadi hüquq kimi müstəqil hüquq sahəsi ayrılmış və formalaşmışdır. Nəzərə almaq lazımdır ki, iqtisadi hüququn əsas «işi» cəmiyyətdə və ictimai həyatda yaranan iqtisadi münasibətləri tənzimləməkdən ibarətdir. İqtisadi münasibətlər isə sahibkarlıq, ticarət, bank, valyuta, kommersiya, gömrük və digər sahələrdə yaranır. İqtisadi münasibətlərin yarandığı sahələrdən biri məhz vergidir. Təbii ki, vergi sahəsində yaranan iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi iqtisadi hüquqla həyata keçirilməlidir. Bundan ötrü, yəni vergi sahəsində əmələ gələn iqtisadi münasibətləri tənzimləmək üçün iqtisadi hüquq tərkibində vergi hüququ kimi yarımsahə ayrılır. Əvvəllərdə qeyd etdiyimiz kimi, iqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir ki, vergi hüququ onlardan biridir. Unutmaq olmaz ki, vergi iqtisadi mahiyyəti olan termindir. Başqa sözlə, vergi iqtisadi anlayışdır. İqtisadi anlayış kimi, vergi məcmu milli məhsul və milli gəlirin bir hissəsinin dövlət tərəfindən məcburi surətdə toplanması və yığılmasıdır. Digər tərəfdən, vergi ümumxalq əhəmiyyətə malik olan sosial-iqtisadi məsələlərin həll edilməsində böyük rol oynayır. İqtisadi baxımdan verginin mahiyyəti də məhz bundan ibarətdir.

Göstərdiklərimizdən əlavə, vergidən dövlətin iqtisadi inkişafına təsir göstərən alət kimi istifadə olunur. Onun müasir şəraitdə iki əsas funksiyası fərqləndirilir ki, onlardan biri fiskal, digəri isə iqtisadi funksiyadır.[1] Fiskal funksiyanın mahiyyəti bu funksiyadan istifadə etməklə dövlət pul fondları formalaşdırır. Fiskal funksiya verginin əsas funksiyası hesab edilir.

Verginin iqtisadi funksiyasına gəldikdə, qeyd etməliyik ki, milli gəlirin bölüşdürülməsində vergidən alət kimi istifadə olunur. Verginin iqtisadi funksiyası özünü həm də bunda göstərir ki, sahibkarlar və iqtisadi fəaliyyətin digər subyektləri vergidən istifadə etməklə mal istehsal edir, xidmət göstərir və iş görürlər, bir sözlə, öz fəaliyyətlərini genişləndirirlər. Digər tərəf-

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.573.

dən, vergilər yolu ilə iqtisadi münasibətlərin tənzimlənməsi həyata keçirilir. Deyilənlər onu göstərir ki, vergi və iqtisadi münasibətlər bir-birilə (iqtisadiyyatla) sıx surətdə bağlı olan anlayışlardır. Bu bağlılıq nəticəsində beynəlxalq vergi hüququ beynəlxalq iqtisadi hüququn yarımsahəsi kimi tanınır. Buna uyğun olaraq Azərbaycan Respublikasının daxili (milli) hüquq sisteminə müstəqil hüquq sahəsi kimi daxil olan iqtisadi hüququn tərkibində «vergi hüququ» adlı yarımsahə ayrılmalıdır. Yaddan çıxarmamalıyıq ki, beynəlxalq publik hüququn müstəqil sahələrindən biri kimi tanınan beynəlxalq iqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir; beynəlxalq vergi hüququ həmin yarımsahələrdən biridir.[1]

Vergi hüququnun öz hüquqi təbiətinə görə iqtisadi hüququn yarımsahəsi olması həm də belə bir amillə şərtlənir ki, vergi hüququnun subyekti olan vergi ödəyiciləri iqtisadi-təsərrüfat fəaliyyətinin subyektləridir. İqtisadi-təsərrüfat fəaliyyəti isə iqtisadi hüquqla tənzimlənən məsələlərdən biridir.

## 22.3. Ayrı-ayrı vergi növlərinin hüquqi tənzimlənməsi

### 22.3. 1.Fiziki şəxslərin gəlir vergisi

Vergilərin dövlət və yerli (bələdiyyə) büdcəsinə köçürülməsindən asılı olaraq iki növü fərqləndirilir: 1) dövlət vergiləri; 2) yerli vergilər.

**Dövlət vergiləri** dövlət büdcəsinə köçürülür. Onlara aşağıdakılar aiddir: 1) fiziki şəxslərin gəlir vergisi; 2) hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); 3) əlavə dəyər vergisi; 4) aksizlər; 5) hüquqi şəxslərin əmlak vergisi; 6) hüquqi şəxslərin torpaq vergisi; 7) yol vergisi; 8) mədən vergisi; 9) sadələşdirilmiş vergi (VM, maddə 6).

Dövlət vergilərinin sadaladığımız növləri həm də Naxçıvan Muxtar Respublikasında tətbiq olunur; onlar **muxtar respublika vergiləri** adlanır. Muxtar respublika vergiləri Naxçıvan

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 625-627.

Muxtar Respublikasında tutulan dövlət vergilərinə deyilir (VM, maddə 7).

**Yerli verilər** bələdiyyə büdcəsinə (yerli büdcəyə) köçürülən vergilərdir. Onlara bələdiyyə vergiləri də deyilir və aşağıdakılar aiddir: 1) fiziki şəxslərin torpaq vergisi; 2) fiziki şəxslərin əmlak vergisi; 3) yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; 4) bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi (VM, maddə 8).

**Fiziki şəxslərin gəlir vergisi** dövlət vergilərinin növlərindən biridir. Dövlət gəlirlərinin bu növü ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi Vergi Məcəlləsinin VIII fəsli ilə həyata keçirilir (bu fəslə VM-in 95–102-ci maddələri daxildir).

Gəlir vergisi dünyada ən geniş tətbiq olunan vergi növüdür. Müasir dövrdə bəzi dövlətlərdə bu, əsas vergi növü kimi tanınır. Gəlir vergisi Avropa dövlətlərinin, demək olar ki, hamısında tətbiq olunur.[1] ABŞ-da gəlir vergisi, ilk növbədə, federal vergi kimi tutulur; gəlir vergisi həm də ştatlarda alınır. Odur ki, gəlir vergisi həm federal, həm də ştatların vergisi kimi tətbiq olunur.

Azərbaycan Respublikasında **gəlir vergisinin ödəyiciləri** fiziki şəxslərdir. Fiziki şəxslər dedikdə həm rezident, həm də qeyri-rezident fiziki şəxslər başa düşülür. Vergi qanunvericiliyində göstərilir ki, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridir (VM, maddə 95). Odur ki, vergi ödəyiciləri iki cür olur: 1) rezident vergi ödəyiciləri; 2) qeyri-rezident vergi ödəyiciləri. Əgər fiziki şəxsdən həm Azərbaycan Respublikasında, həm də onun hüdudlarından kənarda əldə etdiyi gəlirdən vergi (gəlir vergisi) tutularsa, belə şəxs **rezident vergi ödəyicisi** adlanır; və əksinə, Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdən gəlir vergisi ödəyən fiziki şəxs isə **qeyri-rezident vergi ödəyicisi** sayılır.

Gəlir vergisinin tutulması üçün həm rezident vergi ödəyicisinin, həm də qeyri-rezident vergi ödəyicisinin gəliri olmalıdır.

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 365-366.

**Rezident vergi ödəyicisinin gəliri** onun həm Azərbaycan Respublikasında, həm də Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. **Qeyri-rezident vergi ödəyicisinin gəliri** isə onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirdir. Məhz əldə olunmuş gəlir vergitutma obyekti sayılır.

Vergi qanunvericiliyinə görə, gəlirlərin üç növü fərqləndirilir (VM, maddə 97.3): 1) muzdlu işlə əlaqədar əldə edilən gəlir (əməkhaqqı, işdən alınan hər hansı ödəniş və s.); 2) müzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir (sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir); 3) vergilərdən azad edilən gəlirlərdən və əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilmə-sindən yaranan artımdan başqa bütün digər gəlirlər.

Gəlir vergisi fiziki şəxslərdən onların aylıq gəlirlərindən dərəcələrlə tutulur. Söhbət gəlir vergisinin dərəcələrindən gedir. Gəlir vergisi dərəcələri isə Vergi Məcəlləsinin 101-ci maddəsində göstərilmişdir.

### 22.3.2.Hüquqi şəxslərin mənfəət vergisi

Hüquqi şəxslərin **mənfəət vergisi** dövlət vergilərinin növlərindən biridir. Dövlət vergilərinin bu növü ilə bağlı məsələlərin tənzimlənməsi Vergi Məcəlləsinin IX fəslində ifadə olunan vergi-hüquq normaları vasitəsilə həyata keçirilir; bu fəslə 103–106-cı maddələr daxildir. Vergi Məcəlləsinin X fəslində həm fiziki şəxslərin gəlir vergisinə, həm də hüquqi şəxslərin mənfəət vergisinə aid olan maddələr nəzərdə tutulur (VM, maddə 107–152).

Mənfəət vergisi böyük əhəmiyyətə malik olan vergi növüdür. İqtisadiyyatın tənzimlənməsi prosesi məhz verginin bu növü vasitəsilə həyata keçirilir. Mənfəət vergisinin əhəmiyyəti həm də bununla müəyyən edilir ki, ölkədə dövlət büdcəsinin formalaşması, əsasən, mənfəət vergisi hesabına təmin olunur.

Mənfəət vergisinin **ödəyiciləri** hüquqi şəxslərdir. Odur ki, verginin bu növü hüquqi şəxslərin mənfəət vergisi adlanır. Hüquqi şəxs dedikdə Azərbaycan Respublikasının və ya xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs statusunda yaradılan müəssisə və təşkilatlar başa düşülür. Azərbaycan Respublikasında həm rezident, həm də qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir.

**Vergitutma obyektinə** gəldikdə, qeyd etmək lazımdır ki, rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Söhbət ümumi mənfəətdən gedir. Vergi ödəyicisinin gəliri ilə gəlirdən çıxılan xərc arasındakı fərq **ümumi mənfəət** hesab edilir.

Azərbaycan Respublikasında qeyri-rezident müəssisənin öz daimi nümayəndəliyi vasitəsilə fəaliyyətdən əldə etdiyi mənfəət verginin (mənfəət vergisinin) obyektidir. Əgər müəssisə mənfəət əldə etməmişsə, onda mənfəət vergisinin ödənilməsindən söhbət gedə bilməz.

Qeyd etməliyik ki, müəssisələrin mənfəətindən qanunla müəyyənləşdirilən dərəcələrdə vergi tutulur. Belə ki, müəssisələr öz mənfəətindən 20 faiz dərəcəsi ilə vergi (mənfəət vergisi) ödəyirlər. Vergi qanunvericiliyində göstərilir ki, müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur (VM, maddə 105.1).

Qeyri-rezident daimi nümayəndəliyin fəaliyyəti ilə bağlı olmayan, lakin Azərbaycan mənbəyindən əldə edilən ümumi gəlirdən qanunla müəyyən edilən dərəcələrlə vergi tutulur. Həmin dərəcələr Vergi Məcəlləsinin 125-ci maddəsində göstərilmişdir.

Mənfəət vergisindən azaddır: 1) xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərdən başqa);

2) qeyri-kommersiya təşkilatları-nın aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr; 3) dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla) və s. Vergi Məcəlləsinin 106-cı maddəsi mənfəət vergisindən azadolmalarla bağlı məsələləri tənzimləyir; bu maddə həm də mənfəət vergisi ilə bağlı güzəştlər müəyyənləşdirir.

Mənfəət vergisinin məbləği müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin son nəticələrindən asılıdır. Odur ki, mənfəət vergisi **birbaşa vergi** növü hesab olunur.

### 22.3.3. Əlavə dəyər vergisi

Dövlət vergilərinin növlərindən biri **əlavə dəyər vergisi** hesab edilir. Bu vergi ilə bağlı münasibətlər Vergi Məcəlləsinin XI fəslində təsbit olunan vergi- hüquq normaları ilə tənzimlənir ki, bu normalar zahirən öz normativ-hüquqi ifadəsini onun 153–181-ci maddələrində tapmışdır. VM-in 153-cü maddəsində əlavə dəyər vergisinə (bundan sonra – ƏDV) anlayış verilir. Bu anlayışa görə, **ƏDV** vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

ƏDV ilk dəfə 1958-ci ildə Fransada tətbiq edilmişdir. Bu gün əksər dövlət-lərin vergi qanunvericiliyinə verginin bu növü məlumdur. Lakin elə dövlətlər də vardır ki, onlarda ƏDV tətbiq olunmur. Söhbət ABŞ, Kanada, İsveçrə və Avstraliya kimi dövlətlərdən gedir; bu ölkələrin qanunvericiliyi ƏDV-ni tanımır.

Məlum olduğu kimi, Avropa İttifaqına üzv olmaq istəyən Avropa dövlətləri tələb olunan müvafiq şərtləri yerinə yetirməlidirlər. Avropa dövlətlərinin öz vergi sistemınə ƏDV-ni daxil etməsi bu şərtlərdən biridir. Bu gün Avropa dövlətlərinin, demək olar ki, hamısında ƏDV tətbiq olunur. Vaxtilə üzv-dövlət-

lərdə yığılan ƏDV-dən daxilolmalardan müvafiq ayırmalar Avropa İttifaqı büdcəsinin formalaşmasında böyük rol oynamışdır. Ona görə də ƏDV bəzən «Avropa vergisi» adlandırılır.[1] Üzv-dövlətlər tərəfindən yığılan ƏDB-nin müəyyən faizi Avropa İttifaqının büdcəsinə köçürülür. Belə köçürmələr nəticəsində Avropa İttifaqı büdcəsinə xeyli vəsait daxil olur. Həmin daxilolmalar Avropa İttifaqı büdcəsinin formalaşmasının əsas mənbə növlərindən biridir.

Avropa İttifaqının üzvü olan dövlətlərin milli vergi sistemində ƏDV mövcud olmalıdır. Bu, hər hansı dövlətin Avropa İttifaqının üzvlüyünə qəbul edilməsinin və ona qoşulmasının məcburi şərtidir. Əgər dövlətdə belə növ vergi tətbiq edilməzsə, o, Avropa İttifaqına qoşula bilməz.[2]

Azərbaycan Respublikasına gəldikdə, qeyd etməliyik ki, ölkəmizdə ƏDV ilk dəfə keçən yüzilliyin 90-cı illərindən tətbiq edilməyə başlamışdır. Məlum olduğu kimi, 1991-ci ildə Azərbaycan Respublikasında ilk dəfə «Əlavə dəyər vergisi haqqında» xüsusi qanun qəbul edilmiş və məhz bu qanun əsasında ƏDV tətbiq olunmuşdur.

**ƏDV-nin ödəyiciləri** Vergi Məcəlləsinin 154-cü maddəsində sadalanır. Vergi Məcəlləsinin həmin maddəsi xüsusi olaraq ƏDV ödəyicilərinə həsr edilmişdir. Bu maddənin 1-ci hissəsində göstərilir ki, ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir.

**Vergitutma obyektinə** gəldikdə, qeyd etməliyik ki, vergitutma obyekti ilə bağlı məsələlər Vergi Məcəlləsinin 159-cu maddəsi əsasında tənzimlənir. Həmin maddənin 1-ci hissəsində deyilir ki, malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir. Malların təqdim edilməsi (satılması), işlərin görülməsi və xid-

---

[1] Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.198

[2] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Dərslik. Bakı, 2016, s. 364.

mətlərin göstərilməsi əməliyyatların dövriyyəsi deməkdir. Belə dövriyyə və idxal vergitutma obyekti hesab olunur.

ƏDV **dolayı vergi** sayılır. Belə ki, ƏDV qanunla müəyyən edilmiş subyektlər – vergi ödəyiciləri tərəfindən deyil, malları əldə edən istehlakçılar (alıcılar) tərəfindən ödənilir.

### 22.3.4. Aksizlər (aksiz vergisi)

Dövlət vergilərinin növlərindən biri **aksizlər (aksiz vergisi)** adlanır; özü də aksizlər **dolayı vergi** növüdür. Belə ki, aksiz vergisi aksizli malların qiymətinə daxil edilir və həmin malları əldə edən şəxs tərəfindən ödənilir. Xatırlatmaq istərdik ki, dolayı vergini mal əldə edən, iş gördürən və xidmət göstərilən şəxslər ödəyirlər. Birbaşa vergilər isə fiziki və hüquqi şəxslərin gəlirindən (mənfəətindən), əmlakından və s. tutulur.

Aksiz vergisi dünyanın, demək olar ki, bütün ölkələrində tətbiq olunur. Bu vergi növünü, hər şeydən əvvəl, Avropa vergi hüququ tanıyır.[1] Avropa İttifaqı Şurası hətta aksizlər barədə xüsusi olaraq ayrıca normativ akt qəbul etmişdir ki, həmin akt aksizlərin hesablanması və ödənilməsi qaydalarının əsaslarını müəyyən edir.

Qeyd etməliyik ki, ayrı-ayrı dövlətlərdə aksiz vergisi tutulan malların sayı və çeşidi eyni olmayıb, müxtəlifdir. Elə ölkələr vardır ki, həmin ölkələrdə aksiz vergisinə cəlb olunan malların həm sayı, həm də çeşidi çoxdur. Hindistan və Pakistan kimi dövlətlərdə aksizlərin tətbiq dairəsi genişdir. Danimarka və Yaponiyada daha çox sayda və çeşiddə maldan aksiz vergisi tutulur. Dünyada çətin elə bir ölkə tapmaq olar ki, həmin ölkədə aksiz vergisi müəyyən olunmasın.

Azərbaycan Respublikasına gəldikdə, qeyd etməliyik ki, Azərbaycan Respublikasında aksiz vergisi 1992-ci il yanvar ayının 1-dən tətbiq edilir. Bildiyimiz kimi, 31 dekabr 1991-ci ildə «Aksizlər haqqında» Azərbaycan Respublikasının Qanunu

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əiyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s.366.

qəbul olundu ki, bu qanun həmin vergi növünün tətbiq edilməsi üçün hüquqi əsas rolunu oynadı. Hazırda aksiz vergisi ilə bağlı münasibətlərin tənzimlənməsi Vergi Məcəlləsi ilə həyata keçirilir. Onun XII fəsli xüsusi olaraq aksiz vergisinin tənzimlənməsinə həsr olunmuşdur ki, həmin fəsil özündə 182–195-ci maddələri birləşdirir.[1] VM-in 182-ci maddəsində aksizə anlayış verilmişdir. Həmin maddənin 1-ci hissəsində göstərilir ki, **aksiz** dedikdə aksizli malların satış qiymətinə daxil edilən vergi başa düşülür.[2] Söhbət aksiz vergisindən gedir; aksiz vergisi isə aksizli mallara görə müəyyən edilir və tutulur.

Aksizli mallar elə mallardır ki, onlardan aksiz tutulur. Aksiz tutulan belə mallar ya Azərbaycan Respublikasının ərazisində istehsal edilir, ya da Azərbaycan Respublikasına idxal olunur.

Hansı malların aksizli mallara aid edilməsinə gəldikdə, qeyd etməliyik ki, bu məsələ Vergi Məcəlləsinin 190-cı maddəsi ilə nizama salınır və müəyyən olunur; VM-in 190-cı maddəsi məhz bu məsələnin tənzimlənməsinə həsr edilmişdir. Həmin maddənin 1-ci hissəsində aksizli malların siyahısı verilmişdir. Bu siyahıda aşağıdakı mallar aksizli mallara aid edilir: 1) spirt, pivə və spirtli içkilərin bütün növləri; 2) tütün məmulatları; 3) neft məhsulları; 4) minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla); 5) istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr.

Vergi Məcəlləsinin 190-cı maddəsi təkcə aksizli malların siyahısını vermir. Bu maddənin müvafiq hissələri müəyyən edir ki, aksizli mallara hansı vergi dərəcələri tətbiq edilir (VM, maddə 190.3–190.5).

**Vergi ödəyicilərinə** gəldikdə, qeyd etməliyik ki, Vergi Məcəlləsinin 183-cü maddəsi aksiz vergisini ödəyən şəxsləri mü-

---

[1] *Ətraflı bax: məsələn,* Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı, 2013, s.223-233.

[2] *Aksiz (latınca - «accidere» kəsmək, ingiliscə - «excises», fransızca - «accise») - dolayı vergi barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.30.

əyyən edir. Bu maddədə göstərilir ki, Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxlər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri aksizin ödəyiciləridir. Əgər sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edilərsə, belə malların istehsalçısı (podratçısı) aksizin ödəyicisidir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğini sifarişçidən almalıdır.

Bəzən aksizli malların istehsalçısı və sifarişçisi rolunda qarşılıqlı surətdə asılı olan rezident şəxslər çıxış edirlər. Bu zaman malın sahibi (sifarişçi) aksizin ödəyicisidir.

**Vergitutma obyektinə** gəldikdə, qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 184-cü maddəsinin 1-ci hissəsinə görə, aşağıdakı əməliyyatlar vergitutma obyektidirlər: 1) Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması; 2) idxal malları üçün – Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması.

### 22.3.5. Hüquqi şəxslərin əmlak vergisi

Vergi Məcəlləsinin 6.1-ci maddəsində dövlət vergilərinə həm də **əmlak vergisi** aid olunur. Dərhal qeyd etməliyik ki, yalnız hüquqi şəxslərin əmlak vergisi dövlət vergisi hesab edilir. Fiziki şəxslərin əmlak vergisi isə dövlət vergi növü sayılmır. Məsələ burasındadır ki, fiziki şəxslərin əmlak vergisi yerli vergilərin (bələdiyyə vergilərinin) növlərindən biridir. Belə ki, hüquqi şəxslərin əmlak vergisi dövlət büdcəsinə köçürülür. Fiziki şəxslərin əmlak vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) daxil olur. Özü də həm hüquqi şəxsin əmlak vergisi, həm də fiziki şəxin əmlak vergisi onların (fiziki və hüquqi

şəxslərin) əmlakına görə tutulur və alınır. Odur ki, hüquqi və fiziki şəxslərin əmlak vergisi **birbaşa vergi** növüdür

Əmlak vergisi ilə bağlı məsələlər Vergi Məcəlləsinin XIII fəslinə daxil olan maddələr vasitəsilə tənzimlənir (VM, maddə 196–202). VM-in 196-cı maddəsinə görə, dövlət vergilərinin bu növünü (hüquqi şəxslərin əmlak vergisini) müəssisələr ödəyirlər. Məhz həmin maddədə ifadə edilən göstərişdən məlum olur ki, müəssisələr əmlak vergisinin **ödəyicisidir**.

**Vergitutma obyektinə** gəldikə, qeyd etməliyik ki, Vergi Məcəlləsinin 197-ci maddəsi vergitutma obyektinin müəyyən edilməsinə həsr olunmuşdur. Həmin maddəyə görə, aşağıdakılar vergitutma obyekti sayılır: 1) müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri; 2) Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün – yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri.

Müəssisələr əmlak vergisini qanunla müəyyənləşdirilmiş qaydada ödəyirlər. Söhbət müəssisənin əmlakına dair vergitutma dəyərlərinin müəyyən edilməsi qaydasından gedir ki, bu qayda Vergi Məcəlləsinin 202-ci maddəsində göstərilmişdir. Həmin maddəyə görə, vergitutma məqsədləri üçün müəssisənin əmlakının **orta illik qalıq dəyəri** götürülür. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyəri Vergi Məcəlləsinin 202-ci maddəsi ilə müəyyənləşdirilən qaydada hesablanır. Müəssisələr bundan sonra əsas vəsaitlərin hesablanmış qalıq dəyərindən 1 faiz dərəcəsi ilə əmlak vergisi ödəyirlər (VM, maddə 198.2).

### 22.3.6. Hüquqi şəxslərin torpaq vergisi

Vergi Məcəlləsinin 6-cı maddəsi **hüquqi şəxslərin torpaq vergisini də dövlət vergiləri** növünə aid edir. Dövlət vergilərinin bu növü əvvəllər ayrıca olaraq «Torpaq vergisi haqqında» xüsusi qanunla tənzimlənirdi ki, bu qanun iki dəfə qəbul edilmişdi (1993 və 1996-cı illərdə). Hazırda həmin qanunlar öz

hüquqi qüvvəsini itirdiyindən Azərbaycan Respublikasında tətbiq edilmir. İndi torpaq vergisi ilə bağlı münasibətlər Vergi Məcəlləsi ilə tənzimlənir. VM-in XIV fəsli məhz torpaq vergisinin tənzimlənməsinə həsr olunmuşdur ki, bu fəsil özündə 203–208-ci maddələri birləşdirir.

Rezident və qeyri-rezident **hüquqi şəxslər** torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra vergi orqanında 1 ay ərzində uçota durmalıdırlar (VM, maddə 203).

Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahələrinə görə hər il sabit tədiyyə şəklində hesablanır. Yeri gəlmişkən, qeyd edək ki, torpaq vergisini Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər də ödəyirlər. Belə hallarda söhbət fiziki şəxslərin torpaq vergisindən gedə bilər. **Fiziki şəxslərin torpaq vergisi** isə dövlət vergi növü deyil, **yerli vergi növü** hesab edilir.

Vergi Məcəlləsinin 204-cü maddəsinə görə, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri[1] olan müəssisələr torpaq vergisinin **ödəyiciləridir;** belə torpaq sahələri **vergitutma obyekti** sayılır.

Azərbaycan Respublikasında torpaqlar təyinatından asılı olaraq torpaq vergisinə cəlb olunurlar. Təyinatına görə torpaqlar iki növə bölünür: 1) kənd təsərrüfatı təyinatlı torpaqlar; 2) qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar. Vergi dərəcələri də məhz torpaqların hansı növə aid edilməsindən asılı olaraq tətbiq edilir. Belə ki, torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilir. Qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadratmetrinə görə müvafiq cədvəldə göstərilən dərə-

---

[1] *Torpaq sahəsi, torpaq sahəsi üzərində mülkiyyət və onun növləri, torpaq münasibətlərinin tənzimlənməsi və torpaqların kateqoriyaları barədə bax:* Azərbaycan Respublikasının Torpaq Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı, 2005, 126 s.

cələr tətbiq olunur. Həmin cədvəl Vergi Məcəlləsinin XIV fəslinin 206.3-cü maddəsində göstərilmişdir. Torpaq vergisinin dərəcələrinə dair digər məsələlər də vergi qanunvericiliyi ilə nizama salınır. Belə ki, torpaq vergisinin dərəcələri ilə bağlı münasibətlər, vergi güzəştləri, torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları və s. məsələlər Vergi Məcəlləsinin 206–208-cı maddələrində ehtiva olunan vergi-hüquq normaları ilə tənzimlənir.

### 22.3.7. Dövlət vergilərinin digər növləri

Dövlət vergilərinin **digər növləri** dedikdə aşağıdakılar başa düşülür: 1) yol vergisi; 2) mədən vergisi; 3) sadələşdirilmiş vergi.

**Yol vergisinin** tətbiqinə Vergi Məcəlləsinin XV fəslində nəzərdə tutulan vergi-hüquq normaları (209–212-ci maddələr) tətbiq olunur. Dövlət vergisinin bu növü şəxslərin Azərbaycan Respublikasının avtomobil yollarından istifadə etmələrinə görə tutulur. Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər, habelə Azərbaycan Respublikası ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslər **yol vergisinin ödəyiciləridir**. Müəyyən hallarda xarici dövlətlərin, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri **vergitutma obyektidir** (VM, maddə 210).[1]

**Mədən vergisi** Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə tutulan dövlət vergi növüdür. Azərbaycan Respublikasının

---

[1] *Yol vergisinin dərəcələri, yol vergisinin tutulması və s. məsələlər barədə bax:* VM, maddə 211-212.

ərazisində [Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla] yerin təkindən faydalı qazıntılar çıxaran fiziki şəxslər və müəssisələr **mədən vergisinin ödəyiciləridir**. Yerin təkindən çıxarılan faydalı qazıntıların özü isə **vergitutma obyektidir**.[1]

Dövlət vergi növlərindən biri olan **sadələşdirilmiş vergi** də vergi qanunvericiliyi ilə tənzimlənir. VM-in XVII fəslində ehtiva olunan vergi-hüquq normaları (218–221-ci maddələr) məhz sadələşdirilmiş vergiyə həsr olunmuşdur. ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Həmin hüququ həyata keçirmək üçün vergi ödəyiciləri hər il aprel ayının 20-dən gec olmayaraq müvafiq bəyannaməni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim edirlər.

Hansı şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmalarına gəldikdə, qeyd etməliyik ki, bu məsələ Vergi Məcəlləinin 218.1-ci maddəsi ilə tənzimlənir. Həmin maddəyə görə, aşağıda göstərilən şəxslər **sadələşdirilmiş verginin ödəyiciləridir:** 1) mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşınmalara müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər; 2) mənzil tikinti fəaliyyəti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünəməxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə, yaxud ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hü-

[1] *Mədən vergisinin dərəcələri, verginin hesablanma qaydası, ödənilməsi müddəti və bəyannamənin verilməsi barədə ətraflı bax:* VM, maddə 216-217.

quqi və ya fiziki şəxslər); 3) idman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər.[1]

### 22.3.8. Yerli vergilər

Bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarə forması olub, hakimiyyət səlahiyyətinə malikdir. Lakin onların malik olduqlaprı və həyata keçirdikləri hakimiyyət dövlət hakimiyyəti hesab edilmir. Bələdiyyələrin özləri isə dövlət təsisatına aid edilməyən qurumdur.

Bələdiyyələr malik olduqları səlahiyyətləri öz orqanları vasitəsilə həyata keçirirlər; söhbət bələdiyyə orqanlarından gedir. Bələdiyyə orqanları elə yerli özünüidarəetmə orqanlarıdır ki, onlar **yerli vergiləri** tətbiq edir, onların yerli büdcələrə (bələdiyyə büdcələrinə) yığılmasını təşkil edir, yerli vergilərin ödənilməsinə nəzarət həyata keçirirlər. Unutmaq olmaz ki, yerli büdcələrin formalaşmasında yerli vergilər böyük rol oynayır; onlara həm də **bələdiyyə büdcələri** deyilir. Belə ki, yerli büdcə bələdiyyə büdcəsi olub, dövlət büdcəsinin tərkibinə daxil deyildir.

Vergi qanunvericiliyi (VM, maddə 8) yerli vergilərin (bələdiyyə vergilərinin) dörd növünü müəyyənləşdirir. Həmin növlərə aşağıdakılar aiddir: 1) fiziki şəxslərin torpaq vergisi; 2) fiziki şəxslərin əmlak vergisi; 3) yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; 4) bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

**Fiziki şəxsərin torpaq vergisinin** hüquqi tənzimlənməsi Vergi Məcəlləsinin XIV fəsli ilə həyata keçirilir. **Fiziki şəxslərin əmlak vergisi** Vergi Məcəlləsinin XIII fəslinin müvafiq maddələri ilə tənzimlənir. **Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin** ödənilməsinə Vergi Məcəlləsinin XVI fəslinin müvafiq maddələri tətbiq olunur. **Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi** ilə

---

[1] *Sadələşdirilmiş verginin dərəcəsi, verginin hesablanma qaydası, ödəmə müddəti və bəyannamənin verilməsi barədə ətraflı bax:* VM, maddə 220–221.

bağlı münasibətlər Vergi Məcəlləsinin IX və X fəsillərində nəzərdə tutulan vergi-hüquq normaları ilə nizama salınır.

Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir (VM, maddə 8.2).

# XXII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



## *XXIII FƏSİL.*
## GÖMRÜK HÜQUQU

### 23.1. Gömrük hüququna dair ümumi müddəalar
### 23.1.1. Gömrük hüququnun anlayışı və nizamasalma predmeti

Yaşadığımız ictimai həyatda və cəmiyyətdə digər fəaliyyət növləri ilə yanaşı, həm də xarici ticarət-iqtisadi əlaqələr və bazar iqtisadiyyatı şəraitində gömrük fəaliyyəti həyata keçirilir.[1] Gömrük fəaliyyətinin həyata keçirilməsi zamanı müəyyən növ iqtisadi xarakterə malik ictimai münasibətlər əmələ gəlir; söhbət **gömrük münasibətlərindən** gedir. Azərbaycan Respublikasının həm gömrük orqanları, həm də digər şəxslər gömrük münasibətlərinin iştirakçısı ola bilərlər. Belə ki, gömrük münasibətləri, hər şeydən əvvəl, gömrük orqanları və digər şəxlər arasında yaranır. **Digər şəxslər** dedikdə Azərbaycan Respublikasının gömrük sərhədindən mal keçirən şəxslər (fiziki və hüquqi şəxslər) başa düşülür. Gömrük münasibətləri həm də gömrük orqanlarının öz aralarında əmələ gəlir. Gömrük orqanı gömrük münasibətlərində məcburi tərəf kimi iştirak edir; gömrük orqanının iştirakı olmadan gömrük münasibətlərinin yaranmasından söhbət gedə bilməz.

Gömrük münasibətləri müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir ki, onlar Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (GM) və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuşdur. Məhz həmin normaların sistemi gömrük hüququ adlanır.

**Gömrük hüququ** dedikdə gömrük fəaliyyətinin həyata keçirilməsi prosesində əmələ gələn müvafiq ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Məhz gömrük orqanları ilə fiziki və hüquqi şəxslərin iştirakı ilə onla-

---

[1] *Azərbaycan Respublikasının xarici ticarət-iqtisadi əlaqələri, habelə gömrük xidmətinin bazar iqtisadiyyatı şəraitində rolu və əhəmiyyəti barədə ətraflı bax:* Əliyev A.Ə. Azərbaycanın ticarət-iqtisadi əlaqələri. Bakı, 2001, 320 s.

rın arasında yaranan bu münasibətlər, yəni gömrük münasibətləri iqtisadi xarakter daşımaqla gömrük hüququnun **nizamasalma predmetini** təşkil edir.

Gömrük münasibətləri dövlətin gömrük siyasətinin həyatakeçirilmə vasitələri ilə əlaqədar yaranır. Gömrük siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin tərkib hissəsi olub, müxtəlif vasitələr əsasında həyata keçirilir ki, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, malların gömrük sərhədlərindən keçirilməsi, gömrük nəzarəti və s. belə vasitələrə aiddir. Bir sözlə, gömrük münasibətləri gömrük işi sferasında yaranan münasibətlərdir.

### 23.1.2. Gömrük hüququ – iqtisadi hüququn yarımsahəsi kimi

Hüquq sistemində gömrük hüququnun tutduğu yer hüquq doktrinasında (elmində) diskussiya doğuran ən mübahisəli məsələlərdən biridir. Hüquqşünas alimlər bu məsələ barədə yekdil fikir söyləmirlər. Belə ki, bəzi müəlliflərə görə gömrük hüququ ya inzibati hüququn yarımsahəsi, ya da inzibati hüququn institutu sayılır.[1]

Digər müəlliflər isə gömrük hüququna qanunvericilik sahəsi kimi baxırlar. Hüquqşünas alimlərdən A.N.Kozırin məsələyə bu cür yanaşaraq göstərir ki, gömrük hüququ qanunvericilik sahəsidir. Qanunvericilik sahəsi kimi gömrük hüququ gömrük münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusudur.[2]

Müəlliflər arasında eləsinə rast gəlinir ki, həmin müəllif gömrük hüququna kompleks hüquq sahəsi kimi baxır; bu hüquq sahəsi gömrük orqanları və şəxslər arasında yaranan münasibətləri tənzimləyir ki, bu münasibətlər şəxslərin gömrük sərhə-

---

[1] Бахрах Д.И. Таможенное право как институт административного права // Государство и право. 1995, № 3, с. 13.

[2] Козырин А.Н. Таможенное право России. Общая часть. М., 1995, с.6-10.

dindən mal və nəqliyyat vasitələri keçirmələri barəsində əmələ gəlir.[1]

Bəzi alimlər gömrük hüququna formalaşmaqda olan yeni hüquq sahəsi kimi baxırlar. Onların fikrincə, gömrük sferasında yaranan müvafiq ictimai münasibətlərin mövcud olması gömrük hüququnun müstəqil hüquq sahəsi kimi fərqləndirilməsinin şərtləridir.[2]

Fikrimizcə, gömrük hüququnu iqtisadi hüququn yarımsahəsi hesab etmək məsələyə ən düzgün və ağlabatan yanaşmadır. Belə ki, iqtisadi hüququn nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlər həm də gömrüklə bağlı yaranır. Unutmaq olmaz ki, gömrük fəaliyyəti iqtisadi münasibətlərin yarandığı sahələrdən biridir. Heç də sirr deyildir ki, mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilərkən gömrük ödənişlərinin alınması zamanı iqtisadi münasibətlər yaranır. Digər tərəfdən, gömrük istənilən ölkənin iqtisadi sərhədlərinin qorunmasında böyük rol oynayır. Yaddan çıxarmamalıyıq ki, gömrük ölkənin iqtisadi sərhədlərini mühafizəetmə sistemidir. Azərbaycanın gömrük xidməti bazar iqtisadiyyatı şəraitində ölkədə həyata keçirilən iqtisadi islahatlar, xarici iqtisadi əlaqələrin liberallaşdırılması, sosial-iqtisadi inkişafın sürətlənməsində mühüm rol oynayır.[3]

Gömrük fəaliyyəti bilavasitə təsərrüfat subyektlərinin maraqlarına toxunur. Onlar xarici iqtisadi fəaliyyət iştirakçıları olub ixrac və idxal əməliyyatları aparırlar, yəni xaricə mal ixrac və xaricdən mal idxal edirlər. Xarici iqtisadi fəaliyyət iştirakçılarının (subyektlərinin) apardıqları idxal-ixrac əməliyyatları isə, təbii ki, iqtisadi hüquqla tənzimlənməlidir. Bundan ötrü müstəqil hüquq sahəsi olan iqtisadi hüququn tərkibində gömrük hüququ kimi yarımsahə ayrılır. Hüquq sistemində göm-

---

[1] Воробьев Ю.А. Основы таможенного дела. М., 1995, с. 12.

[2] Таможенное право. Учебное пособие / Под ред. В.Г. Драганова, М.М. Рассолова. М., 2001, с.10.

[3] Əliyev A.Ə. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri. Bakı, 2001, s.108-180.

rük hüququnun tutduğu yer məhz bu cür müəyyən olunmalıdır. Bu səbəbdən, zənnimizcə, gömrük hüququnu müstəqil və ya kompleks hüquq sahəsi, eləcə də inzibati hüququn yarımsahəsi (institutu) kimi tanımaq iqtisadi münasibətlərin müasir inkişaf kontekstində reallığı əks etdirmir və tutarlı elmi - məntiqi zəminə söykənmir.

### 23.1.3. Gömrük hüququnun sistemi

Gömrük hüququ[1] iki hissədən ibarətdir: 1) ümumi hissə; 2) xüsusi hissə. Gömrük hüququnun **ümumi hissəsi** özündə elə hüquq normalarını birləşdirir ki, həmin normalar ümumi xarakterli qaydalar müəyyənləşdirir. Odur ki, ümumi hissənin normalarını gömrük hüququ ilə tənzimlənən bütün münasibətlərə tətbiq etmək mümkündür.

Ümumi hissə ayrı-ayrı gömrük-hüquq institutlarından ibarətdir. Belə institutlara aiddir: 1) gömrük hüququnun prinsipləri institutu; 2) gömrük hüququnun subyektləri institutu; 3) gömrük xidməti institutu; 4) gömrük nəzarəti institutu; 5) gömrük işi sahəsində məsuliyyət institutu və s.

Gömrük hüququnun **xüsusi hissəsi** isə ayrı-ayrı konkret məsələləri tənzimləyən hüquq normalarından ibarətdir ki, bu normalar müxtəlif gömrük-hüquq institutları üzrə qruplaşdırılır. Söhbət aşağıdakı gömrük-hüquq institutlarından gedir: 1) gömrük ödənişləri institutu; 2) gömrük rəsmiləşdirilməsi institutu; 3) gömrük statistikası institutu; 4) gömrük proseduru institutu; 5) gömrük auditi institutu və s. Bu kimi gömrük-hüquq institutlarının məcmu halında birləşməsi gömrük hüququnun xüsusi hissəsi adlanır. Gömrük hüququnun xüsusi hissəsi də məhz həmin institutlardan ibarətdir.

---

[1] Gömrük hüququ (ingiliscə - customs law) anlayışı barədə ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.847.

## 23.2. Gömrük hüququnun mənbələri, prinsipləri və subyektləri

### 23.2.1. Gömrük hüququnun mənbələri

Gömrük hüququnun nizamasalma predmetini təşkil edən iqtisadi xarakterli gömrük münasibətləri gömrük işi sferasında yaranan ictimai münasibətlərdir. Belə münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Həmin normaların ifadəedilmə və mövcudolma formaları gömrük hüququnun **mənbələri** adlanır.

Gömrük hüququnun mənbəyi qismində, ilk növbədə, **qanunlar** çıxış edir ki, onlar **normativ hüquqi aktların** əsas növü hesab olunur. Bildiyimiz kimi, dövlətin əsas qanunu Azərbaycan Respublikasının **Konstitusiyasıdır**. Konstitusiyanın 94-cü maddəsi müəyyən edir ki, Azərbaycan Respublikasının Milli Məclisi hansı məsələlərə dair ümumi qaydalar müəyyənləşdirir; gömrük işi həmin məsələlərdən biridir (həmin maddənin I hissəsinin 15-ci bəndi).

**Azərbaycan Respublikasının Gömrük Məcəlləsi** gömrük hüququnun mənbəyi olan qanunlar içərisində mühüm rol oynayır və əsas yer tutur. Sözügedən məcəllə gömrük işinin həm hüquqi, həm iqtisadi, həm də təşkilati əsaslarını müəyyənləşdirən vacib qanunvericilik aktıdır; 2011-ci il 24 iyun tarixli 164-IV Q nömrəli qanunla yeni redaksiyada təsdiq edilən bu qanunvericilik aktı 2012-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Adıçəkilən məcəllə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən, bu ərazidən aparılan, tranzitlə keçirilən mallara və nəqliyyat vasitələrinə tətbiq edilən ümumi qaydaları və prosedurları, gömrük iş sahəsində şəxslərin hüquq və vəzifələrini müəyyənləşdirir. Təsadüfi deyildir ki, Gömrük Məcəlləsi Azərbaycan Respublikasında müasir gömrük işinin hüquqi fundamenti və əsası sayılır.[1]

Gömrük hüququnun mənbəyi olan qanunlar sırasına həm də **«Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qa-**

---

[1] Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimov. Bakı, 2018, 232 s.

**nunu** (1995-ci il)[1] aid edilir. Bu qanun gömrük tarifinin formalaşdırılması və tətbiq olunması qaydalarını müəyyənləşdirir.

Gömrük hüququnun mənbəyi qismində həm də **qanunqüvvəli normativ aktlar** çıxış edir. Söhbət, ilk növbədə, **Prezident fərmanlarından** gedir. Normativ əhəmiyyətə malik olan Prezident fərmanları gömrük tənzimetməsinin ayrı-ayrı aspektlərinə toxunur.

**Nazirlər Kabinetinin qərarları** da qanunqüvvəli normativ aktlar sırasına daxildir. Onların kifayət qədər xeyli hissəsi gömrük münasibətlərinin tənzimlənməsinə həsr edilmişdir.

Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini **Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi** həyata keçirir. Bu komitənin qəbul etdiyi normativ hüquqi aktlar gömrük hüququnun mənbəyidir. Həmin komitə gömrük işinə aid çoxlu sayda akt qəbul etmişdir.

**Beynəlxalq müqavilələr** gömrük hüququnun mənbə növlərindən biridir. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələrdən gedir. Əgər belə müqavilələr gömrük işinə aid olarsa, onlar gömrük hüququnun mənbəyi hesab olunur. Elə beynəlxalq müqavilələr bağlanmışdır ki, onlar tam və ya bütövlükdə gömrük münasibətlərin hüquqi tənzimlənməsinə həsr olunmuşdur.[2]

Gömrük hüququn mənbəyi olan normativ hüquqi aktların məcmusu **gömrük qanunvericiliyi**[3] adlanır. Gömrük qanunvericiliyi aşağıdakılardan ibarətdir: 1) Azərbaycan Respublikasının Konstitusiyası; 2) Azərbaycan Respublikasının Gömrük Məcəlləsi; 3) «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının

---

[1] *Ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.95.

[2] *Daha ətraflı:* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 608-613; Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsasları / Kollektiv müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, 2015, s. 736-762.

[3] *Gömrük qanunvericilik sənədləri barədə ətraflı bax:* Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsasları / Kollektiv müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, 2015, s. 816.

Qanunu; 4) qanunlara uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktlar; 5) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr.

### 23.2.2. Gömrük hüququnun özünəməxsus prinsipləri

İqtisadi hüququn yarımsahəsi olan gömrük hüququnun mahiyyət və məzmununu müəyyənləşdirən əsas normativ ideya və rəhbər başlanğıclar gömrük hüququnun **özünəməxsus prinsipləri** adlanır. Onlar gömrük münasibətlərini tənzimləyən normativ hüquqi aktlarda ifadə olunmuşdur. Bu səbəbdən həmin ideya və başlanğıclar məcburi hüquqi qüvvəyə malik olub, normativ xarakterlidir.

**Gömrük suverenliyi prinsipi** gömrük hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsipə görə, Azərbaycan Respublikası gömrük suverenliyinə malikdir və ölkənin gömrük suverenliyinə mane olan hər hansı hərəkətə yol verilmir.

**Gömrük təhlükəsizliyinin təmin olunması prinsipi** də gömrük hüququn prinsipləri sırasına daxildir. Bu prinsip öz ifadəsini bunda tapır ki, gömrük işi sahəsində təhlükəsizlik tədbirləri həyata keçirilir.

Gömrük hüququ həm də belə bir prinsip müəyyən edir ki, dövlət mənafelərinə prioritet əhəmiyyət verilir. Söhbət **dövlət mənafelərinin prioritetliyi prinsipindən** gedir. Bu prinsipə görə, gömrük siyasəti həyata keçirilərkən dövlət maraqlarına üstünlük verilir.

**Vahid gömrük ərazisi prinsipi** gömrük hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, Azərbaycan Respublikasının ərazisi vahid gömrük ərazisi hesab olunur. Gömrük ərazisinin hüdudları gömrük sərhədidir.

Gömrük hüququnun prinsipləri eyni zamanda **aşağıdakılar** hesab olunur: 1) ölkə iqtisadiyyatının qorunması prinsipi; 2) gömrük rejiminin müəyyən edilməsi prinsipi; 3) tarif-gömrük tənzimetmənin həyata keçirilməsi prinsipi; 4) ölkənin gömrük suverenliyinin müdafiə olunması prinsipi və s.

### 23.2.3. Gömrük hüququnun subyektləri

Gömrük-hüquq münasibətləri quruluşca üç elementdən ibarətdir: subyektlər, məzmun və obyekt. Göründüyü kimi, subyektlər həmin elementlərdən biridir. Gömrük-hüquq münasibətlərinin subyektləri dedikdə elə konkret real şəxslər başa düşülür ki, onlar belə hüquq münasibətlərində iştirak edirlər. Özü də gömrük-hüquq münasibətlərində subyekt qismində iştirak edən tərəflərdən biri hökmən dövlət olmalıdır ki, onu həmin münasibətlərdə səlahiyyətli gömrük orqanı təmsil edir. Odur ki, dövlət (gömrük orqanı) gömrük-hüquq münasibətlərinin məcburi tərəfi sayılır. Belə tərəf olmadan, qeyd etdiyimiz kimi, gömrük-hüquq münasibətləri nə yarana, nə də mövcud ola bilər. Nəzərdən qaçırmaq olmaz ki, gömrük-hüquq münasibətləri hakimiyyət xarakterli münasibətlərdir.

Gömrük-hüquq münasibətlərinin mümkün (potensial) iştirakçıları gömrük huququnun **subyektləri** adlanır. Gömrük hüququnun subyektləri gömrük xarakterli hüquq və vəzifələrin daşıyıcılarıdır. Onların sırasına aiddir: 1) dövlət (gömrük orqanı); 2) fiziki şəxslər; 3) hüquqi şəxslər.

Gömrük hüququnun əsas subyekti **gömrük orqanlarıdır** ki, onlar gömrük-hüquq münasibətlərində dövləti (Azərbaycan Respublikasını) təmsil edir. Azərbaycan Respublikasında gömrük işini məhz gömrük orqanları yerinə yetirir.

Gömrük orqanları vahid sistem halında fəaliyyət göstərirlər. Bu sistemə daxildir: 1) Azəraycan Respublikasının Dövlət Gömrük Komitəsi; 2) ərazi gömrük idarələri; 3) ixtisaslaşdırılmış gömrük idarələri; 4) gömrük postları.

Gömrük orqanları təkcə gömrük işini yerinə yetirmirlər; onlar həm də hüquq-mühafizə funksiyasını həyata keçirirlər. Belə ki, gömrük qanunvericiliyinə görə, gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən gömrük orqanları **hüquq-mühafizə orqanlarıdır** (GM, maddə 6.2).

Gömrük orqanları öz fəaliyyətini aşağıdakı prinsiplər əsasında həyata keçirirlər: 1) qanunun aliliyi; 2) insan haqlarının (hüquq və azadlıqların) qorunması; 3) şəxslərin qanun qarşısında

hüquq bərabərliyi; 4) aşkarlıq; 5) peşəkarlıq; 6) xidmətdə nizam-intizam və s. Gömrük orqanları öz fəaliyyətlərində təkcə bu kimi prinsiplərə əsaslanmırlar; onlar öz fəaliyyətlərində həm də gömrük qanunvericiliyini rəhbər tuturlar.

## 23.3. Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin hüquqi tənzimlənməsi

### 23.3.1. Gömrük prosedurları

Mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən müəyyənləşdirilmiş gömrük prosedurları əsasında keçirilir. **Gömrük sərhədindən keçirilmə** dedikdə malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrikötürücü xətlər vasitəsilə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə hərəkətlər başa düşülür. Gömrük prosedurları həm də **gömrük rejimləri** adlanır.[1] Gömrük rejimləri gömrük hüququnun əsas anlayışıdır. Onların köməyi ilə gömrük sərhədindən malların keçirilməsinin konkret qaydaları müəyyənləşdirilir.

Gömrük rejimlərinin bir neçə növü fərqləndirilir;[2] sərbəst dövriyyə üçün buraxılış onlardan biridir. **Sərbəst dövriyyə üçün buraxılış** dedikdə qanunvericilikdə nəzərdə tutulmuş bütün gömrük rüsumları və vergilər ödənildikdə və lazımi gömrük rəsmiləşdirilməsi yerinə yetirildikdən sonra gətirilən malların gömrük ərazisində sərbəst dövriyyəyə buraxılmasından ibarət gömrük proseduru başa düşülür (GM, maddə 164).

**Tranzit** gömrük rejiminin növlərindən biri kimi tanınır. Tranzit dedikdə malların gömrük nəzarəti altında bir gömrük orqanından digər gömrük orqanlarına daşınmasından ibarət xü-

---

[1] Таможенное право. Учебное пособие / Под ред. В.Г.Драганова, М.М.Рассолова. М., 2001, с. 132.

[2] *Ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 848-849.

susi gömrük proseduru başa düşülür. Bu gömrük proseduru ilə bağlı məsələlər gömrük qanunvericiliyi vasitəsilə tənzimlənir (GM, maddə 174, 175). Burada tranzitin iki növünü fərqləndirir: 1) beynəlxalq tranzit; 2) daxili tranzit. **Beynəlxalq tranzit** elə bir xüsusi gömrük prosedurudur ki, bu prosedura görə, xarici mallar gömrük rüsumları, əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan gömrük nəzarəti altında bir yerdən başqa yerə daşınır. **Daxili tranzit** xüsusi gömrük proseduru isə daxili malların statusunu dəyişmədən gömrük ərazisinin bir yerindən başqa yerinə daşınmasıdır.

Mallar həm beynəlxalq, həm də daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşına bilər. Daşıma qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Mallar **saxlanc** xüsusi gömrük proseduru altında yerləşdirilə bilər. Saxlanc gömrük rejimlərinin növlərindən biridir. Bu növ gömrük rejimi saxlanc xüsusi gömrük proseduru adlanır. Saxlanc xüsusi gömrük proseduru müvəqqəti saxlanc və gömrük anbarı prosedurlarından ibarətdir. Malların xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Saxlanc xüsusi gömrük proseduru ilə bağlı məsələlər Gömrük Məcəlləsinin XXX fəsli ilə tənzimlənir; bu fəsil özündə 176–183-cü maddələri birləşdirir.

Mallar həm də **sərbəst zona** kimi xüsusi gömrük proseduru altında ola bilər. Sərbəst zona xüsusi gömrük prosedurlarından biridir. Sərbəst zona xüsusi gömrük proseduru ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi Gömrük Məcəlləsinin XXXI fəsli (184–191-ci maddələr) vasitəsi ilə həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti gömrük ərazisində sərbəst zona yarada bilər. Yaradılan hər bir sərbəst zonanın öz sahəsi, onun giriş və çıxış məntəqələri olmalıdır.

Sərbəst zonaya daxil olan və oranı tərk edən şəxslər, mallar və nəqliyyat vasitələri gömrük nəzarətindən keçməlidirlər. Onun sahəsinin perimetrləri, giriş və çıxış məntəqələri gömrük

orqanlarının nəzarəti altında yerləşir; həm də sərbəst zona qapalı olur.

Xüsusi gömrük prosedurlarından biri **xüsusi istifadə** adlanır. Xüsusi istifadə iki cür olur: 1) müvəqqəti idxal xüsusi gömrük proseduru; 2) son istifadə xüsusi gömrük proseduru. **Müvəqqəti idxal xüsusi gömrük proseduru** altında təkrar ixrac üçün nəzərdə tutulmuş xarici mallar yerləşdirilir, mallardan gömrük ərazisində istifadə olunur. Bu zaman mallar gömrük rüsumlarından və vergilərdən tamamilə, yaxud qismən azad olunurlar. Digər tərəfdən, həm də belə mallara ticarət siyasəti tədbirləri tətbiq edilmir (GM, maddə 192).

**Son istifadə xüsusi gömrük proseduru** altında yerləşdirilmiş mallar bu prosedurun məqsədinə uyğun olaraq gömrük rüsumlarından və vergilərdən azad edilməklə sərbəst dövriyyəyə buraxılır. Bu zaman həmin mallar gömrük nəzarəti altında qalır (GM, maddə 195).

**Emal** xüsusi gömrük prosedurlarından biridir. Belə ki, mallar emal kimi xüsusi gömrük proseduru altında yerləşdirilə bilər. Həmin mallar emal əməliyyatlarından keçir; onlara emal məhsulları deyilir. **Emal məhsulları** elə mallardır ki, onlar emal xüsusi gömrük proseduru altında yerləşdirilir və emal əməliyyatlarından keçir. **Emal əməliyyatları** quraşdırılma, yığılma və başqa mallara uyğunlaşdırılma da daxil olmaqla malın hazırlanmasıdır.

**Emal xüsusi gömrük proseduru iki cür olur:** 1) daxildə emal xüsusi gömrük proseduru; 2) xaricdə emal xüsusi gömrük proseduru. **Daxildə emal** elə bir xüsusi gömrük prosedurudur ki, bu zaman müəyyən mallar emal əməliyyatları aparıldıqdan sonra ixrac edilməsi məqədi ilə Azərbaycan Respublikasının gömrük ərazisinə gömrük rüsumları və vergilər alınmadan gətirilir (GM, maddə 197). **Xaricdə emal** elə bir xüsusi gömrük prosedurudur ki, bu zaman gömrük ərazisində sərbəst dövriyyədə olan mallarla emal əməliyyatlarının aparılması məqsədi ilə onlar gömrük ərazisindən müvəqqəti aparılır və sonradan idxal gömrük rüsumlarından və vergilərdən tamamilə, yaxud

qismən azad olunmaqla geri qaytarılır (GM, maddə 200). **Xarici mallar** daxili mallardan başqa, digər mallar və ya daxili mal statusunu itirmiş mallardır. **Daxili mallar** dedikdə isə Azərbaycan Respublikasında tamamilə istehsal olunmuş, yaxud emala məruzqalma meyarlarına uyğun olaraq kifayət qədər emal edilmiş və ya sərbəst dövriyyə üçün büraxılmış mallar başa düşülür.

Xüsusi gömrük prosedurları Gömrük Məcəlləsinin XI bölməsi ilə tənzimlənir; bu bölməyə bir neçə fəsil (XXVIII – XXXIII fəsillər) daxildir.

Gömrük proseduru anlayışına təkcə xüsusi gömrük prosedurları daxil deyildir. Gömrük proseduru həm də gömrük nəzarəti altında mal və nəqliyyat vasitələrinin yerləşdirilə biləcəyi ixrac, təkrar ixrac, müvəqqəti ixrac, sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal və s. deməkdir. Unutmaq olmaz ki, sadalananlar və xüsusi gömrük prosedurlarından hər biri gömrük prosedurudur.

### 23.3.2. Gömrük ödənişlərinin alınması

Gömrük hüququnun xüsusi hissəsi bir neçə gömrük-hüquq institutundan ibarətdir. Gömrük ödənişləri institutu onlardan biridir.[1]

**Gömrük ödənişləri institutu** dedikdə gömrük ödənişlərinin növlərini, onların alınma və hesablanma qaydalarını müəyyənləşdirən hüquq normalarının məcmusu başa düşülür. Bu institutun əsas işi, hər şeydən əvvəl, gömrük ödənişlərinin növlərini müəyyənləşdirməkdən ibarətdir. İlk növbədə, gömrük ödənişlərinin anlayışı ilə tanış olmağa təşəbbüs göstərək. Gömrük qanunvericiliyində gömrük ödənişlərinin normativ (leqal) anlayışı formulə olunmuşdur (GM, maddə 1.0.17). Burada göstərilir ki, gömrük ödənişləri Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda gömrük orqanları tərəfindən alınan gömrük rüsumları,

[1] Gömrük ödənişləri (ingiliscə – customs payments) barədə ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.848.

vergilər, gömrük yığımları, dövlət rüsumu və haqdır. Başqa sözlə, gömrük orqanları tərəfindən aşağıdakı gömrük ödənişləri alınır: gömrük rüsumları, əlavə dəyər vergisi, aksizlər, yol vergisi, gömrük yığımları, haqq və dövlət rüsumu (GM, maddə 224).

Göründüyü kimi, gömrük ödənişləri gömrük orqanları tərəfindən bu və ya digər növdə alınır. Söhbət **gömrük ödənişlərinin növlərindən** gedir. Gömrük rüsumları gömrük ödənişlərinin növlərindən biridir. Gömrük ödənişlərinin ayrı-ayrı növləri GM-in XIV bölməsi ilə tənzimlənir. Bu bölmə özündə bir neçə fəsli birləşdirir ki, onun XLII fəsli gömrük ödənişlərinin növləri barədə ümumi müddəaları ehtiva edir. Həmin fəslin 225-226-cı maddələri gömrük rüsumları haqqındadır.

**Gömrük rüsumu** dedikdə mal Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilərkən və ya Azərbaycan Respublikasının gömrük ərazisindən aparılarkən gömrük orqanları tərəfindən alınan məcburi haqq başa düşülür. Gömrük ödənişlərinin bu növü, yəni gömrük rüsumları **iki əsas funksiya** yerinə yetirir: 1) fiskal funksiyası; 2) tənzimləyici funksiya. Gömrük rüsumlarının **fiskal funksiyası** bunda ifadə olunur ki, gömrük orqanları tərəfindən alınan gömrük rüsumları dövlət büdcəsinin doldurulma mənbələrindən biri hesab olunur. Nəzərdən qaçırmaq olmaz ki, gömrük rüsumları dövlət büdcəsinə daxil olur.

Gömrük rüsumlarının **tənzimləyici funksiya** yerinə yetirməsi öz ifadəsini bunda tapır ki, gömrük rüsumları malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsini və ya malların Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmasını tənzimetmə üsuludur. Bu üsuldan istifadə etməklə idxal-ixrac əməliyyatlarının gömrük-tarif tənzimetməsi həyata keçirilir.

Gömrük orqanlarının aldıqları gömrük rüsumları vergi xarakterli gömrük ödənişidir. Təsadüfi deyildir ki, gömrük rüsumları maliyyə hüquq ədəbiyyatı səhifələrində **dolayı vergilərə** aid edilir. Gömrük rüsumlarının vergi xarakterli olması səbəbindən bəzi xarici ölkələrdə – məsələn, Fransada gömrük hüququ ver-

gi hüququnun yarımsahəsi, gömrük idarəetməsinin mərkəzi orqanı isə maliyyə nazirliyinin strukturu hesab olunur.[1]

Gömrük orqanları tərəfindən gömrük rüsumlarının alınması bəyan edilən malların yerləşdirilməsi üçün seçilmiş gömrük prosedurunun tələbləri əsasında, normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir. Bu zaman konkret mallar üzrə gömrük rüsumlarının dərəcələri tətbiq olunur. Konkret mallar üzrə **gömrük rüsumlarının dərəcələri** isə Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Həm də gömrük rüsumlarının dərəcələri rəsmi nəşrlərdə dərc olunur və müvafiq icra hakimiyyəti orqanlarının (Nazirlər Kabineti və Dövlət Gömrük Komitəsi) rəsmi internet saytlarında yerləşdirilir.

Gömrük rüsumlarının müxtəlif növləri fərqləndirilir. Belə ki, bu və ya digər meyara (əsasa) görə gömrük rüsumları ayrı-ayrı növlərə bölünür. Malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsindən və ya Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmasından asılı olaraq iki növdə gömrük rüsumu alınır: 1) idxal gömrük rüsumu; 2) ixrac gömrük rüsumu. **İdxal gömrük rüsumu** dedikdə Azərbaycan Respublikasına gətirilən mallara görə alınan gömrük rüsumu başa düşülür. Azərbaycan Respublikasından aparılan mallara görə alınan gömrük rüsumu isə **ixrac gömrük rüsumu** adlanır.

Hesablanma metodikasına (müəyyən olunma qaydasına) görə, «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq üç növdə rüsum tətbiq edilir. Gömrük Məcəlləsinin 226-cı maddəsinə görə, həmin növlər bunlardan ibarətdir: 1) advalor rüsum; 2) spesifik rüsum; 3) kombinə edilmiş rüsum.[2] **Advalor rüsum** malların gömrük dəyərinə görə nisbətən faizlə hesablanır. **Spesifik rüsum** malın vahidinə görə müəyyən olunmuş məbləğlə hesablanır. **Kombinə edilmiş rü-**

---

[1] Козырин А.Н. Таможенное право России в схемах и определениях. Учебное пособие. М., 2008, 295 с.

[2] *Gömrük rüsumunun növləri, gömrük tariflərinin strukturu, gömrük - tarif tənzimetmə metodu, qeyri-tarif tənzimetmə metodu və s. məsələlər barədə daha ətraflı;* Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. 2016, s. 291-373.

**sum** yuxarıda göstərilən hər iki gömrük rüsum növünün birləşdirilməsi yolu ilə hesablanır.

Gömrük ödənişlərinin növlərindən biri vergilərdir. Söhbət gömrük orqanları tərəfindən alınan vergilərdən gedir. **Vergilər** dedikdə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə əlaqədar alınması gömrük orqanlarına həvalə olunmuş əlavə dəyər vergisi, yol vergisi və aksizlər başa düşülür. Çünki gömrük qanunvericiliyi gömrük ödənişləri anlayışına həm də əlavə dəyər vergisini, aksizləri və yol vergisini aid edir (GM, maddə 224.1). Bu kimi vergilər Vergi Məcəlləsinə uyğun olaraq gömrük orqanları tərəfindən alınır (VM, maddə 25).

**Əlavə dəyər vergisi** gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara görə alınır. Onun alınması Gömrük Məcəlləsinin 228-ci maddəsində göstərilmişdir. Özü də əlavə dəyər vergisi həm Gömrük Məcəlləsinə, həm də Vergi Məcəlləsinə uyğun olaraq tətbiq edilir (VM, maddə 153 – 181).

**Aksizlərin** gömrük orqanları tərəfindən alınması gömrük qanunvericiliyində birbaşa ifadə edilmişdir (GM, maddə 229). Burada deyilir ki, gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara aksizlər tətbiq edilir. Aksizlərin tətbiq olunması Gömrük Məcəlləsinə və Vergi Məcəlləsinə uyğun olmalıdır (VM, maddə 182 – 195).

Gömrük orqanları tərəfindən **yol vergisinin** alınması isə Gömrük Məcəlləsinin 230-cu maddəsində nəzərdə tutulmuşdur. Bu maddənin 1-ci hissəsində göstərilir ki, xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olarkən yol vergisi tətbiq edilir. Belə ki, xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tərəfindən yol vergisi alınır (tutulur). Özü də alınmış (tutulmuş) məbləğ bir bank günü ərzində dövlət büdcəsinə köçürülür (VM, maddə 209 – 212).

Gömrük ödənişlərinin növlərindən biri **gömrük yığımları** adlanır. Gömrük Məcəlləsinin 224.1-ci maddəsinə görə, gömrük orqanları tərəfindən həm də gömrük yığımları alınır. Burada gömrük yığımları gömrük ödənişlərinə aid olunur.

Gömrük yığımları ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi gömrük qanunvericiliyi vasitəsilə həyata keçirilir (GM, maddə 231, 232). Gömrük Məcəlləsinin 231.1-ci maddəsində göstərilir ki, gömrük yığımlarına aşağıdakılar aiddir: 1) gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları; 2) gömrük müşayiətinə görə gömrük yığımları; 3) malların saxlancına görə gömrük yığımları; 4) gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə yığımlar; 5) bankların və bank olmayan kredit təşkilatlarının Dövlət Gömrük Komitəsinin reyestrinə daxil edilməsinə görə yığımlar. Bunlar içərisində gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları haqqında xüsusi olaraq ayrıca danışmaq lazımdır. **Gömrük nəzarəti** gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlərdir. Onun vasitəsilə dövlətin gömrük siyasəti həyata keçirilir. Unutmaq olmaz ki, gömrük nəzarəti dövlətin gömrük siyasətini realizəetmə vasitələrindən biridir.

Gömrük orqanları gömrük nəzarətini, adətən, iş vaxtı ərzində həyata keçirirlər. Bu zaman onlar aşağıdakıların yerinə yetirilməsinə görə müvafiq gömrük yığımları alırlar: 1) malların gömrük rəsmiləşdirilməsinə görə; 2) gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılmasına görə; 3) malların gömrük nəzarəti altında məhvinə görə.

Gömrük yığımları müəyyən məbləğdə alınır. Gömrük yığımlarının məbləği isə Nazirlər Kabineti tərəfindən müəyyən olunur (GM, maddə 232).

Müəyyən hallarda mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti gömrük orqanlarının iş vaxtından kənar saatlarda və iş yerindən kənarda həyata keçirilir. Bu zaman gömrük yığımları ikiqat məbləğdə alınır.

Gömrük ödənişləri həm də **haqq** növündə alına bilər. Haqq gömrük ödənişlərinin növlərindən biridir. Nəzərə almalıyıq ki, Gömrük Məcəlləsinin 224.1-ci maddəsi gömrük ödənişlərinə

həm də haqqı daxil edir. Söhbət gömrük hərraclarında iştiraka görə alınan haqdan gedir. Haqq gömrük hərraclarının iştirakçılarından alınır. Gömrük Məcəlləsinin 233-cü maddəsində deyilir ki, gömrük hərraclarında iştiraka görə onun iştirakçılarından müvafiq haqq alınır. Haqq Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödənilir.

**Dövlət rüsumu** gömrük ödənişlərinin növlərindən biridir. Gömrük Məcəlləsinin 224.1-ci maddəsi gömrük ödənişlərinə həm də dövlət rüsumunu aid edir. Belə ki, gömrük orqanları tərəfindən dövlət rüsumu növündə gömrük ödənişləri alına bilər. Gömrük Məcəlləsinin 234-cü maddəsində göstərilir ki, Nazirlər Kabineti tərəfindən bəzi fəaliyyət növlərinə lisenziyaların və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə dövlət rüsumu alınır. Dövlət rüsumunun məbləği «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Beləliklə, gömrük orqanları tərəfindən aşağıdakı növlərdə gömrük ödənişləri alınır: 1) gömrük rüsumları; 2) vergilər (əlavə dəyər vergisi, aksizlər və yol vergisi); 3) gömrük yığımları; 4) haqq; 5) dövlət rüsumu.

### 23.3.3. Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi

Gömrük rəsmiləşdirilməsi gömrük hüququnun xüsusi hissəsinə daxil olan hüquq institutlarından biridir. Bu institutun əsas funksiyası malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı münasibətləri tənzimləməkdən ibarətdir. Belə ki, mallar və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçmə prosesində xarici iqtisadi fəaliyyət subyektləri (iştirakçıları) müxtəlif gömrük- hüquq münasibətlərinə daxil olurlar. Gömrük rəsmiləşdirilməsi ilə əlaqədar yaranan münasibətlər də məhz həmin münasibətlərdən biridir.

**Gömrük rəsmiləşdirilməsi institutu** dedikdə gömrük-hüquq normalarının elə məcmusu başa düşülür ki, həmin normalar

mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçən zaman gömrük rəsmiləşdirilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir. Gömrük rəsmiləşdirilməsinə anlayış gömrük qanunvericiliyində verilmişdir (GM, maddə 1.0.19). Burada deyilir ki, gömrük rəsmiləşdirilməsi Gömrük Məcəlləsinin tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatdırılması üzrə həyata keçirilən hərəkətlərdir.[1]

Gömrük rəsmiləşdirilməsi qanunvericilik aktları ilə müəyyənləşdirilmiş qaydada aparılır. Həmin qayda, hər şeydən əvvəl, Gömrük Məcəlləsi ilə müəyyən edilir. Sözügedən məcəllənin VII bölməsi gömrük rəsmiləşdirilməsinə həsr edilmişdir. Gömrük rəsmiləşdirilməsi həm də gömrük işi üzrə digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada aparılır.

Gömrük rəsmiləşdirilməsinin əsas məqsədi malları və nəqliyyat vasitələrini müvafiq gömrük proseduru altında yerləşdirməkdən ibarətdir; onun aparılması prosesində gömrük nəzarəti həyata keçirilir.

Gömrük rəsmiləşdirilməsi yalnız gömrük sərhədindən keçən mallar və nəqliyyat vasitələri barəsində həyata keçirilir. Bu əlamətə cavab verməyən mallar və nəqliyyat vasitələri gömrük rəsmiləşdirilməsinə məruz qala bilməz. Başqa sözlə, gömrük sərhədindən keçən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi həyata keçirilir. Gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi isə malların milli əmtəə dövriyyəsinə daxil olunmasının vacib və zəruri şərtidir.

Gömrük rəsmiləşdirilməsi elə bir hərəkətdir ki, bu hərəkət müəyyən vaxtda başlanır. Belə ki, bəyannaməçi gömrük orqanına konkret malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı bəyannamə və ya müvafiq sənədlər təqdim edir. Bəyannaməçi həm də Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda gömrük rəsmiləşdirilməni həyata keçirmək

---

[1] *Gömrük rəsmiləşdirilməsinə dair əsas müddəalar barədə ətraflı bax:* Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Kollektiv müəlliflər: Əliyev E.Ə., Əliyev V.İ., Gülmalıyev Ü.S. Bakı, 2015, s. 274-291.

barədə niyyətini gömrük orqanına şifahi formada bildirə bilər. Məhz bu vaxtdan gömrük rəsmiləşdirilməsi başlanır.

Gömrük rəsmiləşdirilməsinin başa çatması vaxtına gəldikdə, qeyd etməliyik ki, hər şeydən əvvəl, malların müvafiq gömrük proseduru altında yerləşdirilməsinə dair tələblərə uyğun olaraq zəruri gömrük əməliyyatları aparılır; həm də gömrük ödənişləri ödənilir. Məhz zəruri gömrük əməliyyatları aparıldıqdan və gömrük ödənişləri ödənildikdən sonra gömrük rəsmiləşdirilməsi başa çatır.

Gömrük rəsmiləşdirilməsi qanunvericilik aktları ilə müəyyən edilmiş qayda əsasında həyata keçirilir. Həmin qaydaya görə, gömrük rəsmiləşdirilməsi malları ixrac və ya idxal edənin, yaxud onların struktur bölmələrinin yerləşdiyi ərazi üzrə gömrük orqanlarının fəaliyyət zonasında, bu məqsədlər üçün ayrılmış yerlərdə həyat keçirilir. Söhbət **gömrük rəsmiləşdiriməsinin aparıldığı yerlərdən** gedir. Gömrük orqanlarının icazəsi ilə gömrük rəsmiləşdirilməsi başqa yerlərdə də aparıla bilər.

Gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsi iş vaxtında həyata keçirilir. Söhbət **gömrük rəsmiləşdirilməsinin aparıldığı vaxtdan** gedir. İş vaxtını isə Dövlət Gömrük Komitəsi müəyyən edir. Bununla bərabər, gömrük orqanlarının icazəsi ilə gömrük rəsmiləşdirilməsi iş vaxtından kənar saatlarda da aparıla bilər (GM, maddə 106).

Gömrük rəsmiləşdirilməsinin aparıldığı **dilə** gəldikdə, qeyd etmək lazımdır ki, bu məsələ gömrük qanunvericiliyi ilə müəyyən olunur. Belə ki, Gömrük Məcəlləsinin 109-cu maddəsi gömrük rəsmiləşdirilməsinin aparıldığı dil məsələsinə həsr edilmişdir. Burada deyilir ki, gömrük rəsmiləşdiilməsi **Azərbaycan Respublikasının dövlət dilində aparılır.**

Müəyyən hallarda gömrük rəsmiləşdirilməsi güzəştli və sadələşdirilmiş qaydada həyata keçirilir. Belə ki, təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsi güzəştli və sadələşdirilmiş qaydada həya-

ta keçirilir (GM, maddə 111). Gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

### 23.3.4. Gömrük nəzarəti

Gömrük nəzarəti gömrük hüququnun vacib əhəmiyyətə malik olan institutlarından biridir. Bu institutun əsas və başlıca funksiyası gömrük nəzarətinin həyata keçirilməsi ilə əlaqədar əmələ gələn münasibətləri tənzimləməkdən ibarətdir.

**Gömrük nəzarəti institutu** dedikdə hüquq normalarının elə bir məcmusu başa düşülür ki, bu normalar gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir və qaydaya salır. Həmin normalar, yəni gömrük nəzarəti institutunun ibarət olduğu hüquq normaları, əsasən, Gömrük Məcəlləsində ifadə olunmuşdur. Təsadüfi deyildir ki, adıçəkilən məcəllənin XIV fəsli məhz gömrük nəzarətinin təşkilinə həsr olunmuşdur; həmin fəsil özündə 92–99-cu maddələri birləşdirir.

Əlbəttə, gömrük qanunvericiliyinə riayət edilməlidir. Bundan ötrü, yəni gömrük qanunvericiliyinə əməl olunmasını təmin etmək məqsədi ilə gömrük nəzarəti həyata keçirilir. Gömrük nəzarəti gömrük orqanları tərəfindən həyata keçirilən elə tədbirlərdir ki, bu tədbirlər gömrük qanunvericiliyinə riayət olunmasını təmin edir. Təsadüfi deyildir ki, gömrük orqanları malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olmasını, bu ərazidən çıxmasını, tranzitini, daşınmasını və son istifadəsini tənzimləyən gömrük qanunvericiliyinə, həmçinin icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş digər qanunvericiliyə və beynəlxalq müqavilələrə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük nəzarətini həyata keçirirlər (GM, maddə 92.1). Bunun nəticəsində müxtəlif növ yoxlamaların köməyi ilə aparılmış gömrük əməliyyatlarının və edilmiş hərəkətlərin gömrük qanunvericiliyinə uyğun gəlməsi, gömrük fəaliyyətinin iştirakçıları olan fiziki və hüquqi şəxslərin gömrük qanunvericiliyinə riayət etmələri müəyyən olunur.

Eyni zamanda idxal və ixrac əməliyyatlarında tətbiq edilən gömrük rüsumlarının və digər vergilərin düzgün ödənilməsinin qiymətləndirilməsi aiditor-yoxlama ekspertiza işlərinin aparılması, yəni gömrük auditi vasitəsilə həyata keçirilir.[1]

Gömrük nəzarəti müxtəlif əsaslara görə müəyyən növlərə bölünür. Malların göndərilməsi kimi əsasa görə gömrük nəzarətinin üç növü fərqləndirilir: 1) idxal nəzarəti; 2) ixrac nəzarəti; 3) tranzit nəzarəti. Əgər gömrük nəzarəti malların Azərbaycan Respublikasının gömrük ərazisinə daxil edilməsi zamanı həyata keçirilərsə, bu, **idxal gömrük nəzarəti** adlanır. Əgər malların Azərbaycan Respublikasının gömrük ərazisindən çıxmasına nəzarət edilərsə, belə nəzarətə **ixrac gömrük nəzarəti** deyilir. Əgər nəzarət malların tranzitinin gömrük qanunvericiliyinə uyğun gəlib-gəlməməsi məqsədi ilə həyata keçirilərsə, bu, **tranzit gömrük nəzarətidir**.

Məlum olduğu kimi, gömrük orqanları tərəfindən malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olmasına, eləcə də bu ərazidən çıxmasına müvafiq nəzarət həyata keçirilir. Bu baxımdan, gömrük nəzarətinin iki növü fərqləndirilir: 1) malların gömrük nəzarəti; 2) nəqliyyat vasitələrinin gömrük nəzarəti.

Nəqliyyat vasitələrinin gömrük nəzarətinin özü bir neçə yerə bölünür: 1) dəniz gəmilərinə gömrük nəzarəti; 2) avtonəqliyyat vasitələrinə gömrük nəzarəti; 3) dəmiryol nəqliyyatına gömrük nəzarəti və s.

Gömrük nəzarətinin həyata keçirilməsində iştirak etmənin xarakterinə görə gömrük nəzarətinin üç növü fərqləndirilir: 1) birtərəfli gömrük nəzarəti (bu növ gömrük nəzarəti yalnız bir dövlətin gömrük orqanı tərəfindən həyata keçirilir); 2) ikitərəfli gömrük nəzarəti (bu növ gömrük nəzarəti iki ölkənin hər birinin gömrük orqanı tərəfindən ayrı-ayrılıqda həyata keçirilir);

[1] *Xarici iqtisadi fəaliyyətin auditi, onun metodikası və digər məsələlər barədə ətraflı bax:* Abbasov İ.M. Audit. Dərslik. Bakı, 2007, s. 312-330; GM, maddə 1.0.10, 74, 75, 98.

3) birgə gömrük nəzarəti (bu növ nəzarəti hər iki dövlətin gömrük orqanı eyni vaxtda həyata keçirir).

Bunlardan başqa, gömrük nəzarətinin iki növü fərqləndirilir: 1) birdəfəlik gömrük nəzarəti; 2) təkrar gömrük nəzarəti.

Gömrük nəzarəti müxtəlif **formalarda** həyata keçirilir. Yoxlama gömrük nəzarətinin formalarından biridir. **Yoxama** həm mallar, həm də nəqliyyat vasitələri barəsində aparılır. Bunlardan əlavə, şəxsi yoxlama da həyata keçirilə bilər. Gömrük orqanlarının vəzifəli şəxsləri həm də gömrük məqsədləri üçün lazım olan məlumatların, elektron və ya kağız üzərində yazılı formalarda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarla (şəhadətnamələrlə) müşayiət olunmasının yoxlanılması və s. formalarda həyata keçirirlər (GM, maddə 92.2).

**Gömrük baxışı** gömrük nəzarətinin digər formasıdır. Bu formanın mahiyyəti ondan ibarətdir ki, gömrük nəzarətindən keçməli olan mallara və nəqliyyat vasitələrinə, onların yerləşdiyi ərazilərə və binalara, müvəqqəti saxlanc və gömrük anbarlarında, sərbəst zonalarda yerləşən ərazilərə və binalara, həmçinin icrasına nəzarət gömrük orqanına həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi digər yerlərə gömrük baxışı keçirilə bilər.

Gömrük nəzarətinin formaları içərisində gömrük baxışı mühüm yer tutur. Gömrük baxışı dedikdə gömrük orqanlarının vəzifəli şəxslərinin elə bir inzibati hərəkəti başa düşülür ki, bu hərəkət vasitəsi ilə nəqliyyat vasitələrinin xarici görünüşü və ya nəqliyyat vasitələrində olan mal tara və ya qabı açılmadan yoxlanılır. Bununla nəqliyyat vasitəsinin və ya malın gömrük sərhədindən keçməsinin qanunauyğun olması müəyyənləşdirilir.

Gömrük nəzarəti həm də **müşahidə** formasında həyata keçirilə bilər. Söhbət gömrük müşahidəsindən gedir. Belə ki, gömrük orqanlarının vəzifəli şəxsləri gömrük müşahidəsi apara bilər.

Gömrük nəzarəti ya sənədli, ya da faktiki formada həyata keçirilir. Odur ki, sənədli və ya sənədsiz həyata keçirilməsin-

dən asılı olaraq gömrük nəzarətinin iki forması fərqləndirilir: 1) sənədli gömrük nəzarəti; 2) faktiki gömrük nəzarəti.

**Sənədli gömrük nəzarəti** sənədlər əsasında həyata keçirilir. Məsələn, gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların yoxlanılması sənədli gömrük nəzarətidir.

**Faktiki gömrük nəzarəti** həyata keçiriləndə hər hansı sənəddən istifadə olunmur. Odur ki, bu formada gömrük nəzarəti **sənədsiz gömrük nəzarəti** də adlanır. Gömrük baxışı və gömrük müşahidəsi faktiki gömrük nəzarətinə aiddir.

Gömrük nəzarətinin formaları əsasında gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçmələrinin qanunauyğunluğunu müəyyən etmək mümkün olur, qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər aşkar edilir, habelə gömrük qaydalarının pozulması halları üzə çıxır. Odur ki, gömrük orqanları özlərinin praktiki fəaliyyətində gömrük nəzarətinin bütün formalarından istifadə etməlidirlər. Özü də gömrük nəzarətinin bütün formaları bir-birilə sıx surətdə qarşılıqlı əlaqədədir; həm də gömrük nəzarətinin növləri arasında qarşılıqlı əlaqə və bağlılıq mövcuddur.

Malların və nəqliyyat vasitələrinin yoxlanılması formasında həyata keçirilən gömrük nəzarəti haqqında ayrıca danışmaq lazımdır. Mallar və nəqliyyat vasitələri, hər şeydən əvvəl, sənədlər əsasında yoxlanılır. Belə ki, gömrük sərhədindən keçən malların və nəqliyyat vasitələrinin müvafiq sənədləri olmalıdır. Məhz mallara və nəqliyyat vasitələrinə olan müvafiq sənədlər yoxlanılmaqla gömrük nəzarəti həyata keçirilir. Sənədlərin yoxlanılması dedikdə onların gömrük işinin mövcud qaydalarına uyğunluğunu və tam tərtib edilməsini müəyyənləşdirmək baxımından öyrənilməsi başa düşülür. Öz təyinatına görə belə sənədlərə aid edilə bilər: 1) nəqliyyat sənədləri; 2) ticarət sənədləri; 3) gömrük sənədləri və s.

Gömrük nəzarətinin həyata keçirilməsində **gömrük nəzarəti zonaları** vacib rol oynayır. Gömrük nəzarəti zonaları, ilk növbədə, əsasən, gömrük sahələrində yaradılır. **Gömrük sahəsi** de-

dikdə sərhəd buraxılış məntəqəsi, gömrük terminalı, gömrük laboratoriyası və gömrük postu başa düşülür.

Gömrük nəzarəti zonaları həm də aşağıda göstərilən yerlərdə yaradılır: 1) gömrük sərhədi boyunca; 2) gömrük rəsmiləşdirilməsi yerlərində; 3) sərbəst zonalarda; 4) gömrük anbarlarında; 5) malların yükləmə-boşaltma və müvəqqəti saxlanc yerlərində; 6) gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacaqlarında; 7) gömrük orqanların olduğu yerlərdə. Digər yerlərdə də həmçinin gömrük nəzarəti zonaları yaradılır; həmin yerləri Dövlət Gömrük Komitəsi müəyyənləşdirir. Belə yerlərdə gömrük nəzarəti zonalarının yaradılması və rejim qaydalarının müəyyən edilməsi məsələsi adıçəkilən komitə tərəfindən həll olunur.

Gömrük nəzarəti zonalarının yaradılması gömrük qanunvericiliyində nəzərdə tutulmuşdur. Gömrük Məcəlləsinin 93-cü maddəsi məhz gömrük nəzarəti zonalarının yaradılmasına həsr olunmuşdur.

# XXIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XXIV FƏSİL.*
# TURİZM HÜQUQU

## 24.1. Turizm hüququ – iqtisadi hüququn yarımsahələrindən biri kimi

### 24.1.1. Hüquq sistemində turizm hüququnun tutduğu yer

Turizm və iqtisadiyyat bir-biri ilə sıx surətdə bağlı olan anlayışlardır. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, turizm **iqtisadiyyatın gəlirli sahələrindən** biridir.[1] ABŞ, İtaliya, İspaniya, Avstriya, Fransa, Böyük Britaniya və digər ölkələrdə turizm iqtisadiyyatın ən yüksək rentabelli sahəsi kimi tanınır. Belə ki, turizm dünya təsərrüfatının ən çox səmərə gətirən sahələrindən biridir. Yaddan çıxarmamalıyıq ki, dünya təsərrüfatının bu sahəsindən ildə 3 trilyon ABŞ dollarından çox gəlir götürülür. Hər il 50 milyondan çox turist qəbul edən İspaniya və İtaliyada 25 milyard dollar gəlir əldə olunur. Avstriyaya hər il 9 milyon turist gəlir ki, bundan ölkə büdcəsinə 15 milyard dollardan çox pul vəsaiti daxil olur. Türkiyə turizmdən ildə 30 milyard dollar mənfəət əldə edir.

Qeyd etməliyik ki, beynəlxalq turizm xətti ilə ölkələrə gələn turistlərin sayı durmadan artır. Bunun nəticəsində turizmdən daxil olan valyuta çoxalır ki, bu, milyard dollarla ölçülür.

Turizm fiziki şəxslərin (Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkə vətəndaşlarının – əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) istirahət, sağlamlıq, tanış olmaq, biliyini artırmaq, iş-peşə, idman və dini məqsədlər üçün daimi yaşayış yerindən başqa yerlərə müvəqqəti getməsi, yəni səyahət eməsi başa düşülür. Təsadüfi deyildir ki, turizm fransızca **«tourisme-tour»** ifadəsindən olub «səyahət etmə» mənasını ifadə edir.[2] Belə ki, turizim səhayət etmə deməkdir. Turizm elə bir səyahət etmədir ki, o, **dörd funksiya** yerinə yetirir: 1) istirahət və

[1] Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı, 2007, s. 46.
[2] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 874.

dincəlmək funksiyası; 2) sağlamlıq funksiyası; 3) maarifləndirici funksiya (ölkənin tarixi, görkəmli yerləri və mədəni sənət abidələri ilə tanış olmaqla şəxslərin biliyini artırır və görüş dairəsini genişləndirir); 4) dini funksiya (bu funksiya turizmin dini məqsədlər üçün həyata keçirilməsində ifadə olunur).[1]

Turizm iqtisadi münasibətlərin **formalarından** biridir. İqtisadi münasibətlərin bu formasının həyata keçirilməsi müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir. Məhz həmin normaların sistemi turizm hüququ adlanır.

**Turizm hüququ** dedikdə turizmlə bağlı yaranan iqtisadi münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Onun əsas funksiyası turizmlə bağlı əmələ gələn iqtisadi münasibətləri hüquqi tənzimləməkdən və qaydaya salmaqdan ibarətdir.

Turizmlə bağlı əmələ gələn iqtisadi münasibətləri tənzimlədiyinə və qaydaya saldığına görə turizm hüququ iqtisadi hüququn **yarımsahələrindən** biri kimi tanınır. Unutmaq olmaz ki, iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi iqtisadi hüquq kimi müstəqil hüquq sahəsi vasitəsi ilə həyata keçirilir. Turizmlə bağlı əmələ gələn münasibətlər iqtisadi hüququn nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlərin növlərindən biridir. Bu növ iqtisadi münasibətləri tənzimləmək üçün iqtisadi hüququn yarımsahəsi olan turizm hüququndan istifadə olunur. Hüquq sistemində turizm hüququnun tutduğu yer məhz bu cür müəyyənləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, turizm turist təşkilatlarının və vasitəçilərinin fəaliyyətini özündə birləşdirən **iqtisadiyyat sahəsidir**.[2] Digər tərəfdən, turizm və beynəlxalq səyahət xarici iqtisadi münasibətlərin əmələgəlmə formalarından biridir. İqtisadi münasibətlərin turizm kimi forması dövlətlər arasında siyasi, iqtisadi və mədəni münasibətlərə mühüm təsir göstərir. İqtisadi inkişafda turizmin əhəmiyyəti və rolu

---

[1] Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüququ. Dərslik. II cild. Bakı, 2009, s.503.

[2] Кабушкин Н.И.Менеджмент туризма. Учебное пособие. Минск, 1999, с.13.

böyükdür. Müasir dövrdə onun ümumdünya iqtisadi və siyasi faktor kimi çıxış etməsi şübhə doğura bilməz. Yaddan çıxarmaq olmaz ki, turizm sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biridir. Söylədiyimiz bu kimi fikirlər turizmin iqtisadiyyatla nə qədər yaxın anlayış olmasını göstərir və sübut edir. Odur ki, turizm hüququnu yarımsahə kimi iqtisadi hüququn tərkibinə daxil edirik. Məsələyə bu cür yanaşmağımız həm də bununla bağlıdır ki, turizim hüququ beynəlxalq (publik) hüququn müstəqil sahələrindən biri olan beynəlxalq iqtisadi hüququn yarımsahəsidir.[1] Belə olan halda, təbii ki, turizm hüququ dövlətdaxili (milli) hüquq sisteminin müstəqil hüquq sahələrindən biri olan iqtisadi hüququn yarımsahəsi hesab edilməlidir.

### 24.1.2. Turizm hüququnun nizamasalma predmeti, mənbələri və özünəməxsus prinsipləri

Qeyd etmək lazımdır ki, turizm bir neçə mənada işlədilən anlayışdır. Belə ki, turizm, hər şeydən əvvəl, **xidmət mənasında** işlədilir. Bu mənada turizm «turizm xidməti» anlayışı ilə əhatə olunur. Turizm xidməti vətəndaşlara göstərilən xidmət növlərindən biridir. Vətəndaşlara göstərilən xidmət növləri kifayət qədər çoxdur: məsələn – biznes xidməti, tikinti xidməti, rabitə xidməti, nəqliyyat xidməti, maliyyə xidməti və s. Xidmət növlərinə həm də turizm xidməti aiddir. Özü də onlar arasında beş xidmət növü əsas sayılır.[2] Belə ki, əsas xidmət növləri bunlardan ibarətdir: 1) maliyyə xidməti; 2) telekommunikasiya xidməti; 3) nəqliyyat xidməti; 4) turizm və rekreasiya xidməti; 5) əmək xidməti.

Digər mənada turizm fəaliyyət deməkdir. Bu mənada turizm **«turizm fəaliyyəti»** anlayışı[3] ilə əhatə olunur. Özü də əvvəllər turizm fəaliyyəti xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyət

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s. 593.
[2] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.364.
[3] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 575.

növünə aid olunurdu. Hazırda mövcud olan qanunvericilik turizm fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılıq (lisenziya) alınmasını tələb etmir.

Sahibkarlıq fəaliyyətinin növlərindən biri olan turizmlə bağlı ictimai həyatda iqtisadi münasibətlər əmələ gəlir; məhz həmin münasibətlər turizm hüququnun **nizamasalma predmetini** təşkil edir. Deməli, iqtisadi hüququn yarımsahələrindən biri kimi tanınan turizm hüququnun nizamasalma predmeti **turizm fəaliyyəti ilə bağlı yaranan iqtisadi münasibətlərdən** ibarətdir (turizm münasibətləri).

**Turizm hüququnun mənbələrinə** gəldikdə, qeyd etmək vacibdir ki, onun, əsasən, iki mənbə növü vardır: 1) normativ hüquqi aktlar; 2) beynəlxalq müqavilələr. **Normativ hüquqi aktlar** turizm fəaliyyəti ilə bağlı münasibətlərin tənzimlənməsində böyük rol oynayır. Belə aktların məcmusu turizm haqqında qanunvericilik adlanır. **Turizm haqqında qanunvericilik**, bir qayda olaraq, normativ hüquqi aktlardan ibarətdir. Normativ hüquqi aktlara, ilk növbədə, «Turizm haqqında» Azərbaycan Respublikasının Qanunu[1] aiddir ki, bu qanun 1999-cu ildə qəbul olunmuşdur. Turizm sahəsində əmələ gələn münasibətlərin hüquqi tənzimlənməsi məhz həmin qanun vasitəsilə həyata keçirilir. Sözügedən qanun turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunuması ilə bağlı məsələləri nizama salır.

Turizm hüququnun mənbəyi olan normativ hüquqi aktlara həm də Azərbaycan Respublikasının digər normativ hüquqi aktları daxildir. Belə aktlar turizm fəaliyyəti ilə bağlı bu və ya digər məsələnin tənzimlənməsində vacib rol oynayır (məsələn, Konstitusiya, MM və s.).

Turizm haqqında qanunvericiliyin tərkibinə təkcə normativ hüquqi aktlar daxil deyildir. Turizm haqqında qanunvericililik normativ hüquq aktlardan başqa. həm də **beynəlxalq müqavi-**

---

[1] «Turizm haqqında» Azərbaycan Respublikasının Qanunu // İqtisadi həyat. Bakı, 2010, s. 1-16.

**lələrdən** ibarətdir. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir. Əgər belə beynəlxalq müqavilələr turizm fəaliyyəti sahəsində bağlanarsa, onlar turizm hüququnun mənbəyi olur. Nəzərdən qaçırmaq olmaz ki, beynəlxalq müqavilə turizm hüququnun mənbə növlərindən biridir.

Turizm haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasına əsaslanır. Odur ki, **Konstitusiya** turizm hüququnun normativ əsası hesab olunur.

Turizm fəaliyyəti ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi turizm hüququnun **özünəməxsus prinsipləri** əsasında həyata keçirilir. Turizm hüququnun prinsipləri onun məzmununu və mahiyyətini müəyyənləşdirən əsas ideya və rəhbər başlanğıclardır. **Turizm fəaliyyətinin qanun əsasında həyata keçirilməsi prinsipi** onlardan biridir. Bu prinsipə görə, şəxslər qanunla nəzərdə tutulmuş və müəyyənləşdirilmiş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək turizm fəaliyyəti ilə məşğul ola bilər. Turizm fəaliyyəti, ilk növbədə, «Turizm haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilməlidir. Bu qanun Azərbaycan Respublikasında həyata keçirilən turizm fəaliyyətinin hüquqi əsası sayılır. Qanun eləcə də Azərbaycan Respublikasında formalaşmaqda olan turizm bazarının hüquqi əsası rolunu oynayır. Turizm haqqında müvafiq qanunlar Almaniya, Fansa, İtaliya, Portuqaliya, Türkiyə, Ukrayna, Rusiya Federasiyası, Gürcüstan və digər dövlətlərdə qəbul edilmişdir.

Turizm hüququ həm də belə bir prinsipdən çıxış edir ki, **turizm məhsulu müqavilə əsasında sərbəst surətdə realizə olunur**. Bu prinsipə görə, turizm məhsulunun satışı müqavilə bağlamaq yolu ilə həyata keçirilir. Turizm məhsulu dedikdə turistlərə göstərilən xidmətlər kompleksi (turistilərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi-tərcüməçi xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər) başa düşülür. Göstərilən xidmətlər içərisində ekskursiya xidməti haqqında ayrıca danışmaq lazımdır.

Turizm haqqında qanunvericiliyə görə, müddəti 24 saatdan çox olmayan və turistlərin yerləşdirilməsi (gecələməsi) xidmətini nəzərdə tutmayan fəaliyyət **ekskursiya** adlanır.

Turizm hüququnun prinsipləri sırasına həm də **turizm fəaliyyətinin dövlət tənzimlənməsi prinsipi** aiddir. Bu prinsip öz ifadəsini bunda tapır ki, dövlət turizm fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradır, turizmin üstün istiqamətlərini müəyyənləşdirir və onun həyata keçirilməsinə kömək edir. Turizm fəaliyyətinin dövlət tənzimlənməsi müəyyən məqsədlərə xidmət edir. Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin **əsas məqsədləri** bunlardan ibarətdir: 1) turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqları təmin etmək; 2) ətraf mühiti (təbiəti) qorumaq; 3) turistlərin səyahətləri zamanı onların tələbatlarını təmin edən turizm infrastrukturunu inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, dövlət və onun vətəndaşlarının gəlirlərini artırmaq.

Bunlardan başqa, turizm hüququnun **özünəməxsus prinsipləri sırasına** həm də bunlar aiddir: 1) turistlərin hüquq və maraqlarının müdafiəsi prinsipi; 2) turistlərin təhlükəsizliyinin təmin olunması prinsipi; 3) turizm ehtiyatlarından səmərəli istifadə olunması prinsipi; 4) turizm məhsulunun hərəkətə gətirilməsi prinsipi; 5) turizm infrastrukturunun inkişaf etdirilməsi prinsipi və digər prinsiplər.

Turizm hüququ vasitəsilə turizm fəaliyyəti ilə bağlı əmələ gələn münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Bu münasibətlərdə iştirak edə bilən potensial şəxslər **turizm hüququnun subyektləri** adlanır. Turizm hüququnun subyektləri sırasına, ilk növbədə, turist daxildir. Turist turizm hüququnun əsas subyektidir. **Turist** dedikdə istirahət, sağlamlıq, tanış olma, idraki, iş-peşə, idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə 24 saatdan 12 ayadək müddətə müvəqqəti olan şəxs başa düşülür. Vəzifə borclarını icra etmək məqsədilə başqa yerə (ölkəyə) müvəqqəti gedən (səfər edən) şəxs turist hesab edilmir.

İlk növbədə, **Azərbaycan Respublikasının vətəndaşları** turist ola bilərlər. Azərbaycan Respublikası vətəndaşları tez-tez hallarda istirahət, sağlamlıq, tanış olma, idman, dini və digər məqsədlərlə başqa yerə (ölkəyə) gedirlər. Bu zaman onlar turist kimi tanınırlar.

Turist rolunda həm də əcnəbilər, yəni **xarici ölkə vətəndaşları** çıxış edə bilərlər. Onlar müəyyən hallarda istirahət, sağlamlıq, idraki, idman və digər məqsədlərlə Azərbaycan Respublikasına gəlirlər.

Azərbaycan Respublikasının vətəndaşlarından və əcnəbilərdən başqa, həm də **vətəndaşlığı olmayan şəxslərin** turist olmaları mümkündür. Belə ki, vətəndaşlığı olmayan şəxslər istirahət, idman, sağlamlıq və digər məqsədlər üçün ayrı-ayrı yerlərə (ölkələrə) gedə bilərlər.

Turizm hüququnun subyektləri sırasına turoperator və turagentlər də daxildir. **Turoperatorlar** dedikdə turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı başa düşülür. **Turagent** isə turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərdir.

İstirahət, sağlamlıq, tanış olma, idman, iş-peşə, dini və digər məqsədlər üçün hər hansı yerə (ölkəyə) fiziki şəxslər gedirlər, səyahət edirlər. Odur ki, yalnız fiziki şəxslər turist ola bilərlər. Bu səbəbdən hüquqi şəxslərin (müəssisələrin, təşkilatların və s.) turist kimi tanınmaları qeyri-mümkündür.

Turoperator və turagentə gəldikdə, qeyd etməliyik ki, turoperator rolunda yalnız hüquqi şəxs çıxış edə bilər. Məsələ burasındadır ki, qeyd etdiyimiz kimi, turoperator turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatıdır. Elə bir təşkilat ki, onun hüquqi şəxs statusu vardır; bu hüquqi şəxs turoperator fəaliyyəti ilə məşğul olur.

Turagent rolunda isə həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər. Uunutmaq olmaz ki, qeyd etdiyimiz kimi, tur-

agent turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxsdir.

Turizm haqqında qanunvericiliyə əsasən, nə dövlət (dövlət orqanları), nə də bələdiyyə (bələdiyyə orqanları) turizm hüququnun subyekti ola bilər.

### 24.2. Turizm fəaliyyətinin hüquqi tənzimlənməsi

### 24.2.1. Turizm fəaliyyəti

Turizm fəaliyyətinə «Turizm haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində leqal anlayış verilmişdir. Həmin maddəyə görə, turizm fəaliyyəti turoperator və turagentin fəaliyyəti, habelə səyahətlərin təşkili üzrə digər fəaliyyətdir. Qanunda verilən bu anlayış, mahiyyətcə, məhdud məna kəsb edir. Buna görə də turizm fəaliyyətinə elmi (doktrinal) anlayış verilməsi tələb olunur. Bunun üçün, ilk növbədə, turizm fəaliyyətini xarakterizə etməyə və onun əsas cəhətlərini müəyyənləşdirməyə imkan verən **əlamətləri** üzə çıxarmalıyıq.

Birinci, turizm fəaliyyəti iqtisadi fəaliyyət növüdür. Daha doğrusu, turizm fəaliyyəti iqtisadi fəaliyyətin əsas növü olan sahibkarlıq fəaliyyətinin növüdür. Bəzi dövlətlərin, məsələn, Bolqarıstanın qanunvericiliyinə görə, turizm fəaliyyəti turizm məhsulunun hazırlanması və satışı üzrə saibkarlıq fəaliyyətidir Elə dövlətlər də vardır ki, həmin dövlətlər qanunvericilik səviyyəsində beynəlxalq turizmə xarici iqtisadi fəaliyyət kimi baxır.[1]

İkinci, turizm fəaliyyəti elə bir prosesdir ki, bu prosesin həyata keçirilməsi nəticəsində fiziki şəxslər daimi yaşayış yerlərindən müvəqqəti gedərək səyahət edirlər.

Üçüncü, fiziki şəxslərin daimi yayayış yerlərindən müvəqqəti gedərək səyahət etmələri bu və ya digər məqsədə xidmət edir. Söhbət istirahət, sağlamlıq, tanış olma, iş-peşə, idman, dini və s. məqsədlərdən gedir. Lakin fiziki şəxslərin öz vəzifə-

---

[1] Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı, 2007, s.18.

qulluq borclarını icra etmələri məqsədi ilə başqa yerə gedərək səyahət etmələri turizm fəaliyyəti hesab edilmir.

Hesab edirik ki, göstərdiyimiz əlamətlər turizm fəaliyyətinə elmi anlayış verilməsi üçün kifayət edər. Belə ki, **turizm fəaliyyəti** iqtisadi fəaliyyətin (sahibkarlıq fəaliyyətinin) elə bir növüdür ki, bunun həyata keçirilməsi nəticəsində fiziki şəxslər (Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) istirahət, sağlamlıq, tanış olma, idraki, iş-peşə (vəzifə qulluq borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə özlərinin daimi yaşayış yerlərindən başqa yerə (ölkəyə) müvəqqəti gedərək səyahət edirlər, bu şərtlə ki, onlar müvəqqəti olacaqları yerdə (ölkədə) hər hansı ödənişli fəaliyyətlə məşğul olmasınlar.

Turizm fəaliyyəti iqtisadi əhəmiyyəti heç də az olmayan fəaliyyət növüdür. Belə ki, turizm fəaliyyətinin həyata keçirilməsi sayəsində ölkənin iqtisadi gəliri artır və onun valyuta ehtiyatları çoxalır. Unutmaq olmaz ki, turizm fəaliyyəti dövlət üçün valyuta gəlirlərinin mənbələrindən biridir. Digər tərəfdən, turizm fəaliyyəti məşğulluğun təmin edilməsi vasitəsidir.

Turizm fəaliyyətinin həyata keçirilməsi nəticəsində turistlərə müxtəlif növ xidmətlər göstərilir. Söhbət aşağıdakı xidmət növlərindən gedir: 1) turistlərin yerləşdirilməsi üzrə xidmətlər; 2) turistlərin qida ilə təmin edilməsi üzrə xidmətlər; 3) ekskursiya xidməti; 4) turistlərin müxtəlif növ nəqliyyat vasitəsilə hərəkət və yerdəyişməsi üzrə xidmətlər; 5) reklam xidməti; 6) satış xidməti; 7) turistlərin mədəni ehtiyaclarının təmin edilməsi üzrə xidmətlər; 8) turistlərin işgüzar və elmi maraqlarının təmin edilməsi ilə bağlı xidmətlər.

Turizm fəaliyyəti iqtisadi münasibətlərin inkişaf etməkdə olan formalarından biridir. Bu fəaliyyət növü xüsusən də beynəlxalq iqtisadi münasibətlərin effektiv formalarından biri kimi tanınır. Lakin bir sıra hallar turizmin inkişafına mane olur. Belə hallara aiddir: 1) bu və ya digər yerdə (ölkədə) seysmik aktivlik; 2) təbii fəlakət hadisələri; 3) vətəndaş müharibələri; 4) terrorçuluq; 5) iqtisadi tənəzzül; 5) separatizm və s.

### 24.2.2. Turizm fəaliyyətinin növləri

Turizm fəaliyyəti bu və ya digər əsasa görə müxtəlif növlərə bölünür. Qanunvericilikdə və turizmə dair ədəbiyyat səhifələrində onun ayrı-ayrı növləri göstərilir. Məsələn, «Turizm haqqında» Azərbaycan Respublikasının Qanununda səyahətlərin hansı yerə edilməsindən asılı olaraq turizmin iki növü fərqləndirilir: 1) daxili turizm; 2) xarici turizm. Əgər Azərbaycan Respublikasında yaşayan vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudları daxilində səyahət edərlərsə, bu, **daxili turizm** adlanır. Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahət etmələrinə isə **xarici turizm** deyilir.

Səyahətin hansı məqsədlər üçün həyata keçirilməsindən asılı olaraq turizm aşağıdakı **növlərə** bölünür: 1) idman turizmi; 2) sağlamlıq turizmi; 3) iş-peşə turizmi; 4) istirahət turizmi; 5) dini turizm və s.

Nəqliyyat vasitələrindən istifadəyə görə turizmin aşağıdakı növləri fərqləndirilir: 1) aviasiya turizmi; 2) avtomobil turizmi; 3) dəmiryol turizmi; 4) velosiped turizmi; 5) su nəqliyyatı turizmi; 6) atıcılıq turizm və s.

Səyahətdə hansı formada iştirak edilməsindən asılı olaraq turizm aşağıdakı növlərə ayrılır: 1) fərdi turizm; 2) qrup halında turizm; 3) ailəvi turizm.

Bunlardan başqa, turizmin digər növləri də vardır: 1) gəlmə turizm (Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri); 2) sosial turizm (sosial ehtiyaclar üçün dövlətin ayırdığı vəsait hesabına həyata keçirilən səyahət); 3) özfəaliyyət turizmi (yerdəyişmənin aktiv üsullardan istifadə olunması ilə turistlər tərəfindən sərbəst təşkil edilən səyahətlər) və s.

# XXIV FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XXV FƏSİL.*

# AQRAR HÜQUQ

## 25.1. Hüquq sistemində aqrar hüququn tutduğu yer

### 25.1.1. Aqrar hüquq anlayışı

Bildiyimiz kimi, Azərbaycan Respublikasında bu və ya digər sahədə müxtəlif fəaliyyət növləri həyata keçirilir ki, bunlardan biri iqtisadiyyatın kənd təsərrüfatı sahəsidir. İqtisadiyyatın kənd təsərrüfatı sahəsində həyata keçirilən fəaliyyət **kənd təsərrüfatı fəaliyyəti** adlanır. Kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsi prosesində və onunla bağlı olaraq müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir. Məhz belə hüquq normalarının sistemi və məcmu halında birləşməsi aqrar hüquq adlanır. Aqrar hüquqa həm də kənd təsərrüfatı hüququ deyilir. Odur ki, «aqrar hüquq» və «kənd təsərrüfatı hüququ» eynimənalı (sinonim) anlayışlardır. Lakin Fransa, Almaniya, İtaliya, İspaniya, Böyük Britaniya, ABŞ və Yaponiya kimi ölkələrdə «aqrar hüquq» terminindən istifadə olunur. Odur ki, biz də «aqrar hüquq» termininin işlədilməsinə üstünlük veririk.

**Aqrar hüquq** dedikdə iqtisadiyyatın kənd təsərrüfatı sahəsində həyata keçirilən təsərrüfat fəaliyyəti ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu normaların tənzimlədiyi ictimai münasibətlər isə aqrar münasibətlər adlanır. Aqrar hüququn əsas və başlıca funksiyası da məhz aqrar münasibətləri tənzimləməkdən ibarətdir. Aqrar münasibətlər iqtisadiyyatın kənd təsərrüfatı sahəsində yaranan ictimai münasibətlərdir.[1]

Aqrar hüquq Azərbaycan Respublikasında həyata keçirilən aqrar siyasətin hüquqi formasıdır. Məlum olduğu kimi, Azərbaycan Respublikasında bir sıra sahələrdə, məsələn, ticarət, so-

---

[1] *Aqrar hüquq (ingiliscə - agrarian law) barədə ətraflı bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.17.

sial, energetika, rəqabət və digər sahələrdə siyasət həyata keçirilir ki, aqrar sahə onlardan biridir. Söhbət Azərbaycan Respublikasında həyata keçirilən aqrar siyasətdən gedir. Aqrar siyasət buna yönəlmişdir ki, kənd təsərrüfatının məhsuldarlığı artırılsın, kənd təsərrüfatı istehsalının inkişafı təmin edilsin, kənd əhalisinin həyat səviyyəsi yüksəlsin, kənd təsərrüfatı məhsullarına olan tələbat ödənilsin, bazarda (kənd təsərrüfatı məhsulları bazarında) vəziyyət sabit qalsın və s. Bu kimi məsələlərin həllinə yönələn aqrar siyasət, hər şeydən əvvəl, aqrar hüquq kimi hüquqi formada ifadə edilir və öz normativ əksini tapır.

### 25.1.2. Aqrar hüququn nizamasalma predmeti və hüquqi məkanda mövqeyi

Aqrar hüquq vasitəsilə aqrar münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Aqrar hüququn **nizamasalma predmetini** də məhz aqrar münasibətlər təşkil edir. Deməli, aqrar hüququn nizamasalma predmeti **aqrar münasibətlərdən** ibarətdir ki, bu münasibətlər iqtisadiyyatın kənd təsərrüfatı sahəsində əmələ gəlir.

Hüquq sistemində aqrar hüququn tutduğu yerə gəldikdə, qeyd etməliyik ki, bu, hüquq elmində mübahisə doğuran məsələdir. Bəzi alimlərə görə aqrar hüquq hüququn müstəqil və ya kompleks sahəsidir. Rusiya Federasiyasının bəzi müəllifləri aqrar hüquqa məhz kompleks hüquq sahəsi kimi baxırlar.[1] Fransada isə aqrar hüquq müstəqil hüquq sahəsi kimi tanınır.[2] Belə yanaşmaya digər xarici ölkələrdə də rast gəlinir.

Azərbaycan Respublikasının müəllifləri də aqrar hüququ müstəqil hüquq sahəsi kimi tanıyırlar. Aqrar hüquq dərsliyində göstərilir ki, aqrar hüquq yeni hüquq sahələrindən biridir.[3]

---

[1] Аграрное право. Учебник для вузов / Под ред. Г.Е.Быстрова, М.И.Козыря. М., 1997, с. 6-7.

[2] Аграрное право. Учебник / Отв. ред. М.И.Палладина, Н.Г.Жаворонкова. М., 2011, 428. с.

[3] Axundzadə L.T., Əsədov A.Ə. Aqrar hüquq. Dərslik. Bakı, «Qanun», 2003, s 4-13.

Fikrimizcə, ən düzgün yanaşma aqrar hüququ iqtisadi hüququn yarımsahəsi hesab etməkdən ibarətdir. Belə fikir söyləmək üçün tutarlı dəlillər və inandırıcı arqumentlər mövcuddur. Hər şeydən əvvəl, deməliyik ki, iqtisadi hüquq vasitəsilə iqtisadiyyatla bağlı məsələlərin hüquqi tənzimlənməsi həyata keçirilir. Kənd təsərrüfatı iqtisadiyyatın sahələrindən biridir. İqtisadiyyatın bu sahəsində müxtəlif növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətləri tənzimləmək üçün iqtisadi hüququn tərkibində aqrar hüquq kimi yarımsahə ayrılır. İqtisadi nəzəriyyə dərsliyində göstərilir ki, iqtisadiyyatın aqrar sektoru vacib əhəmiyyəti olan sahələrdən biridir.[1] Digər tərəfdən, iqtisadi hüquqla iqtisadi fəaliyyətin həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlər nizama salınır. Kənd təsərrüfatı fəaliyyəti (aqrar fəaliyyət) iqtisadi fəaliyyətin növlərindən biridir. İqtisadi fəaliyyətin bu növünün həyata keçirilməsi prosesində təsərrüfat subyektləri arasında yaranan münasibətləri tənzimləmək üçün iqtisadi hüququn tərkibində aqrar hüquq kimi yarımsahə formalaşmışdır ki, onun əsas funksiyası iqtisadiyyatın aqrar sektorunda – kənd təsərrüfatı sahəsində əmələ gələn ictimai münasibətləri qaydaya salmaqdan ibarətdir.

Beləliklə, aqrar hüquq iqtisadi hüququn yarımsahələrindən biridir. Aqrar hüququn hüquq sistemində tutduğu yer məhz bu cür müəyyən edilməlidir.

## 25.2. Aqrar hüququn mənbələri, prinsipləri və subyektləri

### 25.2.1. Aqrar hüququn mənbələri

Aqrar hüququn əsas mənbə növü normativ hüquqi aktlardır ki, onların tərkibinə həm qanunlar, həm də qanunqüvvəli aktlar daxildir. **Qanunlar** içərisində dövlətin əsas qanunu kimi tanınan Konstitusiya iqtisadi hüququn bütün yarımsahələrinin, o cümlədən aqrar hüququn normativ əsası və bazası sayılır.

---

[1] Экономическая теория .Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, 714 с.

Konstitusiyanın ayrı-ayrı normalarının aqrar hüquq üçün mühüm əhəmiyyətə malik olması şübhəsizdir.

Aqrar hüququn mənbəyi olan qanunlara aşağıdakılar aid olunur: Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (1999-cu il), «Sovxoz və kolxozların islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu (1995-ci il), «Torpaq islahatı» haqqında Azərbaycan Respublikasının Qanunu (1996-cı il) və s.

Aqrar hüququn mənbəyi olan normativ hüquqi aktlara həm də **qanunqüvvəli** aktlar daxildir. Söhbət Prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından və Kənd Təsərrüfatı Nazirliyinin normativ aktlarından gedir.

Aqrar hüququn mənbəyi olan normativ hüquqi aktların məcmusu **aqrar qanunvericiliyi** adlanır. Aqrar qanunvericiliyi qanunvericilik sahələrindən biri olub, aqrar hüquq üçün normativ material rolunu oynayır.

**Beynəlxalq müqavilələr** aqrar hüququn digər mənbə növüdür. Söhbət Azərbaycan Respublikasının xarici ölkələrlə kənd təsərrüfatı sahəsində bağladığı beynəlxalq müqavilələrdən gedir.

### 25.2.2. Aqrar hüququn özünəməxsus prinsipləri

Aqrar hüquq özünəməxsus prinsiplərə əsaslanır. Nəzərdən qaçırmaq olmaz ki, kənd təsərrüfatı sahəsində əmələ gələn ictimai münasibətlərin – aqrar münasibətlərin hüquqi tənzimlənməsi məhz bu prinsiplər əsasında həyata keçirilir. **Kənd təsərrüfatı fəaliyyətinin maneəsiz olaraq həyata keçirilməsi prinsipi** onlardan biridir. Bu prinsipə görə, şəxslər (kənd təsərrüfatı istehsalı müəssisələri, fermerlər və digər şəxslər) sərbəst olaraq kənd təsərrüfatı fəaliyyəti ilə məşğul ola bilərlər. Kənd təsərrüfatı fəaliyyəti iqtisadi fəaliyyətin növlərindən biri olub, ərzaq istehsalı ilə bağlı olan fəaliyyətdir. Bu fəaliyyət nəticəsində torpaq becərilir, bitkiçilik və heyvandarlıq məhsulları istehsal olunur. Unutmaq olmaz ki, kənd təsərrüfatı fəaliyyəti kənd təsərrüfatı məhsullarının istehsalına yönələn fəaliyyətdir.

Aqrar hüquq həm də **azad aqrar sahibkarlıq prinsipindən** çıxış edir. Bu prinsipə görə, istənilən şəxs aqrar sahədə azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Aqrar sahibkarlıq kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsidir. Söhbət iqtisadiyyatın aqrar sektorunda həyata keçirilən sahibkarlıq fəaliyyətindən gedir.

Aqrar hüququn prinsiplərinə həm də **kənd təsərrüfatı fəaliyyətinin ərzaq istehsalına yönəlməsi prinsipi** aiddir. Bu prinsipə görə, kənd təsərrüfatı fəaliyyəti torpağın becərilməsinə, bitkiçilik və heyvandarlıq məhsullarının (ət, süd, taxıl, buğda və s.) hazırlanmasına yönəlir.

**Kəndli-fermer təsərrüfatının inkişaf etdirilməsi prinsipi** də aqrar hüququn prinsipidir. Həmin prinsip öz ifadəsini bunda tapır ki, kəndli-fermer təsərrüfatı kənd təsərrüfatı məhsulları istehsal edir, onların emal və realizasiyasını həyata keçirir.

Aqrar hüququn prinsiplərinə həm də aşağıda göstərilən **digər prinsiplər** aid olunur: 1) kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan şəxslərin hüquqlarının qorunması prinsipi; 2) iqtisadiyyatın aqrar sektorunun dövlət tənzimlənməsi prinsipi; 3) aqrar qanunvericiliyin pozulmasına görə məsuliyyət prinsipi; 4) kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi prinsipi; 5) kənd təsərrüfatı məhsullarına olan tələbatın təmin edilməsi prinsipi; 6) kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi prinsipi; 7) kənd təsərrüfatında məhsuldarlığın artırılması prinsipi; 8) ərzaq təhlükəsizliyinin təmin edilməsi prinsipi; 9) kənd təsərrüfatı fəaliyyətinin ərzaq istehsalı ilə bağlı olması prinsipi və s.

### 25.2.3. Aqrar hüququn subyektləri

Aqrar münasibətlərin potensial (mümkün) iştirakçıları aqrar hüququn **subyektləri** adlanır.

Aqrar hüququn subyektləri sırasına, hər şeydən əvvəl, **kənd təsərrüfatı fəaliyyətinin subyektləri** aiddir ki, onlar, əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olurlar. Söh-

bət, ilk növbədə, kənd təsərrüfatı müəssisələrindən gedir. **Kənd təsərrüfatı müəssisələri**, adətən, kənd təsərrüfatı məhsulları hazırlayır və istehsal edirlər; onların fəaliyyəti həm də bitkiçilik və heyvandarlıq məhsullarının istehsalına, eləcə də torpağın becərilməsinə yönəlir.

Kənd təsərrüfatı müəssisələri arasında fermer təsərrüfatı xüsusi yer tutur. **Fermer təsərrüfatı** aqrar sahədə sahibkarlıq forması olub, fərdi və ya ailəvi kənd təsərrüfatı müəssisəsi hesab olunur. Xarici ölkələrdə, məsələn, Avropa İttifaqının üzv-dövlətlərində fermer təsərrüfatı hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfat subyekti və kənd təsərrüfatı müəssisəsi kimi tanınır.[1] Həmin dövlətlərdə fermer təsərrüfatı aqrar sahibkarlıq fəaliyyəti subyekti sayılır.

Kənd təsərrüfatı subyektlərinə həm də **fiziki şəxslər** aiddir. Onlar bilavasitə kənd təsərrüfatı fəaliyyəti (aqrar fəaliyyət) ilə məşğul ola bilərlər. Belə fəaliyyət torpağın becərilməsinə, bitkiçilik və heyvandarlıq məhsullarının hazırlanmasına yönəlir.

Fermer təsərrüfatı müasir xarici qanunvericiliyin tanıdığı müstəqil təşkilati-hüquqi formadır. Bu forma öz tərkibində üç elementi birləşdirir: 1) əmlak kompleksi; 2) torpaq; 3) vətəndaşlar. Həmin elementlərin birləşməsi nəticəsində kənd təsərrüfatı fəaliyyətini həyata keçirmək mümkün olur.

Aqrar sahibkarlıq fəaliyyəti **dövlət** tərəfindən tənzimlənir. Qeyd etdiyimiz kimi, aqrar hüquq aqrar sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi prinsipindən çıxış edir. Bu baxımdan, dövlət aqrar-hüquq subyekti sayılır. Lakin dövlətin özü bilavasitə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olmur.

Kənd təsərrüfatı müəssisələri arasında **kommersiya təşkilatlarının** adı xüsusilə çəkilməlidir. Söhbət kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kommersiya təşkilatlarından gedir. Onlar iqtisadiyyatın aqrar sektorda sahibkarlıq fəaliyyətini həyata keçirərək mənfəət əldə edirlər.

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 505.

## 25.3. Aqrar münasibətlərin hüquqi tənzimlənməsi

### 25.3.1. Aqrar fəaliyyət

İqtisadi hüququn yarımsahələrindən biri olan aqrar hüququn özünəməxsus nizamasalma predmeti vardır. Məlum olduğu kimi, aqrar hüququn nizamasalma predmeti aqrar münasibətlərdən ibarətdir. Aqrar münasibətlər isə kənd təsərrüfatı sahəsində yaranan ictimai münasibətlərdir. Bu münasibətlər kənd təsərrüfatı sahəsində həyata keçirilən fəaliyyətlə bağlı əmələ gəlir; söhbət aqrar fəaliyyətdən gedir. Təsadüfi deyil ki, aqrar hüququn nizamasalma predmetini təşkil edən aqrar münasibətlərin obyekti qismində aqrar fəaliyyət çıxış edir. Bəs aqrar fəaliyyət dedikdə nə başa düşülür?

Hər şeydən əvvəl, qeyd etməlyik ki, aqrar fəaliyyət kənd təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir; kənd təsərrüfatı müəssisələri arasında fermer təsərrüfatı isə xüsusi yer tutur. Fermer təsərrüfatı ilə birlikdə kənd təsərrüfatı müəssisələri aqrar fəaliyyətin əsas və başlıca subyekti hesab olunur.

Aqrar fəaliyyətin subyektləri təkcə kənd təsərrüfatı müəssisələri ilə məhdudlaşmır. Aqrar fəaliyyət subyektlərinə eyni zamanda kənd təsərrüfatı məhsulları hazırlayan və istehsal edən fiziki şəxslər aiddir. Unutmaq olmaz ki, aqrar fəaliyyətlə həm kənd təsərrüfatı müəssisələri (hüquqi şəxslər), həm də fiziki şəxslər məşğul olurlar. Odur ki, onlar aqrar fəaliyyətin subyekti sayılırlar.

Digər tərəfdən, aqrar fəaliyyət elə bir fəaliyyət növüdür ki, bu fəaliyyət növü ərzaq istehsalına və kənd təsərrüfatı məhsullarının hazırlanmasına yönəlir. Əgər hər hansı şəxs bitkiçilik və heyvandarlıq məhsullarının (ət, süd, taxıl, buğda və s.) hazırlanması, ərzaq istehsalı, eləcə də torpağın becərilməsi işi ilə məşğul olarsa, onun gördüyü bu iş aqrar fəaliyyət hesab olunur.

Beləliklə, **aqrar fəaliyyət** dedikdə kənd təsərrüfatı sahəsində həyata keçirilən elə bir fəaliyyət başa düşülür ki, kənd təsərrüfatı müəssisələri və ayrı-ayrı fiziki şəxslər tərəfindən həyata keçirilən bu fəaliyyət kənd təsərrüfatı məhsullarının hazır-

lanmasına və ərzaq istehsalına yönəlir. Aqrar fəaliyyətin ərzaq istehsalına yönəlməsi heç də təsadüfi xarakter daşımır. Nəzərdən qaçırmaq olmaz ki, kənd təsərrüfatı sahəsində həyata keçirilən aqrar fəaliyyət ərzaq istehsalı ilə bağlı olan fəaliyyətdir; kənd təsərrüfatı fəaliyyəti də ərzaq istehsalına yönələn və onunla bağlı olan fəaliyyətdir. Odur ki, «aqrar fəaliyyət» və «kənd təsərrüfatı fəaliyyəti» eynimənalı və məzmunca üst-üstə düşən anlayışlardır.

Aqrar fəaliyyətin həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsulları hazırlanır və istehsal olunur. Kənd təsərrüfatı məhsulları isə yüngül və yeyinti sənayesini xammal və əhalini ərzaqla təmin etmək, dövlət ehtiyaclarını ödəmək, istehsal və ticarət ehtiyatları yaratmaq və xarici ticarəti təmin etmək üçün dövlət orqanları, sənaye və ticarət təşkilatları, ayrı-ayrı şəxslər tərəfindən satın alınır. Bununla kənd təsərrüfatı məhsullarının satın alınması kimi vacib iqtisadi əhəmiyyəti olan əməliyyat həyata keçirilir. Bu əməliyyat razılaşmaya əsasən sərbəst satınalma qiymətləri ilə aparılır.

Aqrar fəaliyyətin, yəni kənd təsərrüfatı sahəsində həyata keçirilən fəaliyyətin əsas istiqamətləri dövlətin yürütdüyü aqrar siyasətin mahiyyətini təşkil edir. Yaddan çıxarmamalıyıq ki, aqrar siyasət aqrar – kənd təsərrüfatı sahəsində fəaliyyətdir. Belə fəaliyyət aqrar – kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərdir. Aqrar hüquq isə həyata keçirilən aqrar siyasətin ifadə olunmasının hüquqi formasıdır. Məhz aqrar siyasətin həyata keçirilməsi iqtisadi hüququn tərkibində aqrar hüquq kimi yarımsahənin ayrılması üçün əsas olmuşdur.

### 25.3.2. Ailə kəndli təsərrüfatı və onun fəaliyyətinin hüquqi tənzimlənməsi

Aqrar hüquqla tənzimlənən məsələlərdən biri də ailə kəndli təsərrüfatının fəaliyyətidir. Belə ki, ailə kəndli təsərrüfatı kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər. Unutmaq olmaz ki, ailə kəndli təsərrüfatı kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qo-

yulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfat subyektidir. Lakin onun fəaliyyəti sahibkarlıq sayılmır. Əgər ailə kəndli təsərrüfatı sahibkarlıq fəaliyyəti ilə məşğul olarsa, o, öz statusunu itirir; söhbət ailə kəndli təsərrüfatının statusunun itirilməsindən gedir. Ailə kəndli təsərrüfatının statusu isə onların uçotunu aparan orqan tərəfindən ailə üzvlərinə verilən sənədlə rəsmiləşdirilir.

Ailə kəndli təsərrüfatının fəaliyyəti xüsusi olaraq qəbul edilmiş ayrıca qanunla tənzimlənir ki, həmin qanun «Ailə kəndli təsərrüfatı haqqında» Azərbaycan Respublikasının Qanunu adlanır; 2005-ci ildə qəbul olunan bu qanun Azərbaycan Respublikasında ailə kəndli təsərrüfatı fəaliyyətinin hüquqi-təşkilatı əsaslarını müəyyən edir. Sözügedən qanunun 1.1-ci maddəsində ailə kəndli təsərrüfatına anlayış verilir. Burada deyilir ki, **ailə kəndli təsərrüfatı** ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və təsərrüfat fəaliyyətinin (məhsulların istehsalı, emalı, saxlanması, daşınması və satılması) birgə həyata keçirilməsidir. Odur ki, ailə kəndli təsərrüfatı kənd təsərrüfatı fəaliyyətinin (aqrar fəaliyyətin) subyektidir. Lakin ailə kəndli təsərrüfatının aqrar fəaliyyətin subyekti kimi tanınması üçün onun hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması tələb edilmir. Deməli, kəndli ailə təsərrüfatı hüquqi şəxs statusuna malik olmayan təsərrüfat subyektidir. Ailə kəndli təsərrüfatının fəaliyyəti ilə bağlı məsələlər ailə kəndli təsərrüfatı haqqında qanunvericiliklə tənzimlənir. Ailə kəndli təsərrüfatı haqqında qanunvericilik isə Konstitusiyadan, Mülki Məcəllədən, Torpaq Məcəlləsindən, «Ailə kəndli təsərrüfatı haqqında» Qanundan, habelə digər normativ hüquqi aktlardan ibarətdir.

Ailə kəndli təsərrüfatına kənd yerlərində fəaliyyət göstərən fiziki şəxslər aiddir. Kənd yerlərində fəaliyyət göstərən hüquqi şəxslər, sahibkarlıqla məşğul olan fiziki şəxslər və bağçılıq təsərrüfatları ailə kəndli təsərrüfatına aid edilmir.

# XXV FƏSİL ÜZRƏ ƏYANİ SXEM




və s.

# *XXVI FƏSİL.*
# ENERJİ HÜQUQU

## 26.1. Enerji hüququ – iqtisadi hüququn yarımsahəsi kimi
### 26.1.1. Enerji hüququ anlayışı

Məlum olduğu kimi, ölkədə həyata keçirilən siyasət müxtəlif sahələri əhatə edir. Söhbət aqrar, nəqliyyat, ticarət və digər sahələrdə həyata keçirilən siyasətdən gedir. Belə sahələrdən biri də energetika hesab olunur. Belə ki, həyata keçirilən siyasət eyni zamanda energetika sahəsini əhatə edir. Söhbət dövlət energetika siyasətindən gedir.

Həyata keçirilən energetika siyasətinin əsasını energetika təşkil edir. Energetika isə iqtisadiyyatın vacib sektorlarından biri olub, mühüm sənaye infrastrukturu hesab edilir. Heç də sirr deyil ki, energetika olmadan ödkənin nə iqtisadi, nə də sosial inkişafı mümkündür. Ölkənin sosial-iqtisadi və təsərrüfat həyatının energetikadan asılı olması heç kəsdə şübhə doğura bilməz. Bir sözlə, energetika iqtisadiyyatın həyati əhəmiyyətə malik olan sektorlarından biridir. Digər tərəfdən, enerji ilə təchiz olunmaq istənilən ölkədə həyata keçirilən fəaliyyətin əsas və başlıca şərti hesab edilir.

Qeyd etməliyik ki, istənilən sahədə bu və ya digər növ fəaliyyət həyata keçirilir. Həmin sahələrdən biri energetikadır. Energetika siyasəti məhz energetika sahəsində həyata keçirilən fəaliyyətdir. Energetika sahəsində fəaliyyət enerji resurslarının kəşfiyyatı, işlənməsi, hasilatı, istehsalı, emalı, saxlanılması, nəqli, paylanması və istifadəsi üzrə tədbirlərdir.[1] Belə fəaliyyətin, yəni energetika sahəsində fəaliyyətin həyata keçirilməsi prosesində müəyyən növ ictimai münasibətlər əmələ gəlir; söhbət enerji münasibətlərindən gedir. **Enerji münasibətləri** energetika sahəsində yaranan ictimai münasibətlərdir ki, onlar energetika sahəsində fəaliyyətin həyatakeçirilmə prosesində ya-

---

[1] *Ətraflı bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.946.

ranır. Onlar müvafiq hüquq normaları vasitəsilə tənzimlənir ki, həmin normaların məcmu halda birləşməsi enerji hüququ adlanır.

**Enerji hüququ** dedikdə energetika sahəsində fəaliyyətin həyata keçirilməsi prosesində yaranan enerji münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Həmin münasiətlər, yəni enerji münasibətləri energetika barəsində və onunla bağlı yaranır. Energetika isə ölkənin iqtisadi və təsərrüfat həyatı üçün mühüm əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, respublikanın həm sosial, həm də iqtisadi inkişafını energetikasız təsəvvür etmək qeyri-mümkündür. Odur ki, energetika barəsində və onunla bağlı yaranan enerji münasibətləri aktual olub, mühüm əhəmiyyət kəsb edir. Bu, təkcə Azərbaycan Respublikasında belə deyildir. Unutmaq olmaz ki, enerji münasibətləri tarixən dünya siyasətinin ən əsas və başlıca mövzusu olmuşdur. Enerji münasibətləri bu gün də öz aktuallığını saxlayır. Enerji münasibətlərini tənzimləyən enerji hüququnun əhəmiyyəti də məhz bununla şərtlənir və müəyyən edilir.

### 26.1.2. Enerji hüququnun nizamasalma predmeti

Enerji hüququ energetika sahəsində yaranan münasibətləri, yəni enerji münasibətlərini tənzimləyir. Enerji hüququnun **nizamasalma predmetini** də məhz enerji münasibətləri təşkil edir. **Enerji münasibətləri** həm də energetika münasibətləri adlanır. Odur ki, «enerji münasibətləri» və «energetika münasiətləri» eynimənalı anlayışlardır. Deməli, enerji hüququnun nizamasalma predmeti enerji münasibətlərindən (və ya energetika münasibətlərindən) ibarətdir.

Hüquq sistemində enerji hüququnun hansı yeri tutmasına gəldikdə, qeyd etməliyik ki, energetika iqtisadiyyatın vacib sektorlarından biri hesab olunur.[1] İqtisadiyyatla bağlı məsələləri tənzimləyən iqtisadi hüquq energetika sahəsində yaranan müna-

---

[1] Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s.675.

sibətləri (enerji münasibətlərini) nizamlamaq və qaydaya salmaq üçün öz tərkibində enerji hüququ kimi yarımsahə ayırır. Enerji münasibətlərinin hüquqi tənzimlənməsi məhz bu yarımsahə vasitəsilə həyata keçirilir. Deməli, enerji hüququ iqtisadi hüququn yarımsahəsidir. Hüquq sistemində enerji hüququnun mövqeyi məhz bu cür müəyyən olunur. Ən azı ona görə ki, energetika iqtisadiyyatın sektorlarından biridir.

## 26.2. Enerji hüququnun mənbələri, prinsipləri və subyektləri

### 26.2.1. Enerji hüququnun mənbələri

Enerji hüququnun ibarət olduğu hüquq normaları, əsasən, normativ hüquqi aktlarda ifadə edilir. Odur ki, **normativ hüquqi aktlar** enerji hüququnun əsas mənbə növü sayılır. Söhbət, ilk növbədə, Azərbaycan Respublikasının qanunlarından gedir ki, onlar normativ hüquqi aktların növlərindən biridir. Enerji hüququnun mənbəyi olan qanunlar sırasına, hər şeydən əvvəl, dövlətin əsas qanunu sayılan **Konstitusiya** daxildir. Unutmaq olmaz ki, Konstitusiya iqtisadi hüququn bütün yarımsahələrinin, o cümlədən enerji hüququnun normativ əsası və bazasıdır. Konstitusiyada nəzərdə tutulan və müəyyənləşdirilən ayrı-ayrı normaların enerji hüququ üçün mühüm əhəmiyyəti vardır. Məsələn, Konstitusiyanın 15-ci maddəsi iqtisadi, 16-cı maddəsi isə sosial inkişafa həsr edilmişdir. Energetika olmadan ölkənin nə iqtisadi, nə də sosial inkişafı mümkündür. Konstitusiyanın 119-cu maddəsinə görə, Nazirlər Kabineti dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir ki, bu, onun səlahiyyətinə daxil olan məsələlərdən biridir. Dövlət energetika proqramları dövlətin iqtisadi proqramının tərkib hissəsidir. Energetikanın inkişaf proqramları müxtəlif mənbələr hesabına maliyyələşdirilir ki, Azərbaycan Respublikasının dövlət büdcəsi onlardan biridir. Konstitusiyanın 119-cu maddəsinə əsasən, Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin etmək Nazirlər Kabinetinin səlahiyyətlərinə aid olan məsələdir.

Enerji hüququnun mənbəyi olan qanunlar içərisində **«Energetika haqqında» Azərbaycan Respublikasının Qanunu** mühüm rol oynayır. 1998-ci ildə qəbul olunan həmin qanun energetika sahəsində fəaliyyətin həyata keçirilməsi prosesində yaranan enerji münasibətlərini tənzimləyir.

Enerji hüququnun mənbəyi olan qanunlar sırasına həm də **«Enerji resurslarından istifadə haqqında» Azərbaycan Respublikasının Qanunu** (1996-cı il) daxildir. Bu qanun enerji resurslarından istifadə olunması ilə bağlı məsələləri tənzimləyir.

Qaz təchizatı ilə bağlı münasibətlər ayrıca xüsusi qanunla – **«Qaz təchizatı haqqında» Azərbaycan Respublikasının Qanunu** ilə nizama salınır. 1998-ci ildə qəbul olunan həmin qanun energetika haqqında qanunvericiliyə daxildir.[1]

**Energetika qanunvericiliyi** sözügedən qanunlardan, habelə həmin qanunlara müvafiq olaraq qəbul edilmiş Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Energetika qanunvericiliyinə həm də **beynəlxalq müqavilələr** daxildir. Söhbət Azərbaycan Respublikasının xarici ölkələrlə bağladığı və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən gedir ki, həmin müqavilələr energetika sahəsinə aiddir. Neft, qaz və elektroenerji energetikanın ayrı-ayrı sahələridir. Azərbaycan Respublikası bu kimi sahələrlə bağlı xarici dövlətlərlə bir sıra beynəlxalq müqavilə bağlamışdır. Beynəlxalq müqavilə enerji hüququnun mənbə növlərindən biridir.

Beynəlxalq müqavilələr vasitəsi ilə beynəlxalq-hüquqi əməkdaşlıq həyata keçirilir. Məsələn, Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında energetika sahəsində əməkdaşlıq haqqında Londonda 1994-cü ildə Memorandum imzalanmışdır; 2006-cı ildə Brüssel şəhərində Azərbaycan Respublikası və Avropa İttifaqı arasında anlaşma Memorandumu imzalanmışdır; 2007-ci ildə Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Höku-

[1] *Bax:* Azərbaycan Respublikasının 30.06.1998-ci il tarixli 513-IQ nömrəli qanunu (URL:http://www.e-qanun.az – 05.03.2018-ci il).

məti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorondum imzalanmışdır və s.[1]

### 26.2.2. Enerji hüququnun özünəməxsus prinsipləri

Enerji hüququnun **özünəməxsus prinsipləri** enerji münasibətlərini hüquqi tənzimetmənin normativ əhəmiyyətə malik olan əsas ideya və rəhbər başlanğıclarıdır. Enerji hüququ məhz öz prinsiplərinə əsaslanır. **Enerji ehtiyatları üzərində suverenlik prinsipi** enerji hüququnun özünəməxsus prinsiplərindən biridir. Bu prinsipə görə, dövlət özünün enerji ehtiyatları üzərində suveren hüquqlara malikdir. Belə ki, dövlət enerji ehtiyatlarına sahiblik, sərəncam və istifadə hüququna malikdir. Enerji ehtiyatları üzərində suverenlik prinsipi öz normativ ifadəsini Konstitusiyanın 14-cü maddəsində tapmışdır. Burada göstərilir ki, təbii ehtiyatlar Azərbaycan Respublikasına, yəni dövlətə mənsubdur. Enerji ehtiyatları isə təbii ehtiyatların növlərindən biridir.

**Müstəsnalıq prinsipi** enerji hüququnun özünəməxsus prinsipləri sırasına daxildir. Bu prinsipə görə, dövlət bütün ilkin enerji materiallarının yataqları üzrə müstəsna mülkiyyətə malikdir. Dövlətin icazəsi və razılığı olmadan hər hansı şəxs həmin yataqlardan istifadə edə bilməz. Müstəsnalıq prinsipi həm də bunda ifadə edilir ki, energetika sahəsində fiziki şəxslər və qeyri-dövlət hüquqi şəxsləri müstəsna hüquqlara malikdir. Müstəsna hüquqlar müvafiq energetika müqaviləsindən və ya energetika müəssisələrinə qanunvericiliklə verilən hüquqlardan irəli gələ bilər.

**Energetika sahəsində ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi prinsipi** enerji hüququnun prinsiplərindən biridir. Bu prinsipə görə, energetika sahəsində müxtəlif fəaliyyət növləri həyata keçirilir. Bu növlərə aşağıdakılar aiddir: 1) energetika materiallarının və məhsullarının (enerji resurslarının) kəşfiyyatı; 2) enerji resurslarının işlənməsi; 3) enerji resursları-

[1] Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ. Dərslik. Bakı, 2013, s. 229.

nın hasilatı; 4) enerji resurslarının istehsalı; 5) enerji resurslarının emalı; 6) enerji resurslarının nəqli; 7) enerji resurslarının paylanması; 8) enerji resurslarının istifadəsi. Təsadüfi deyil ki, energetika sahəsində fəaliyyət sadalanan fəaliyyət növlərini əhatə edir.

Enerji hüququ həm də **digər prinsiplər** müəyyən edir ki, həmin prinsiplər bunlardan ibarətdir: 1) energetika sahəsində fəaliyyətin müxəlif mülkiyyət növləri əsasında həyata keçirilməsi prinsipi; 2) energetika sahəsində fəaliyyətin müqavilə əsasında (energetika müqaviləsi) əsasında həyata keçirilməsi prinsipi; 3) enerji resurslarından səmərəli istifadə prinsipi; 4) enerji təhlükəsizliyi prinsipi; 5) energetika fəaliyyətinin mənfi təsirindən ətraf mühitin qorunması prinsipi; 6) energetika sahəsində fəaliyyətin xüsusi icazə əsasında həyata keçirilməsi prinsipi; 7) enerji resurslarından istifadə qaydalarının pozulmasına görə məsuliyyət prinsipi; 8) iqtisadiyyatda eneretikanın prioritet əhəmiyyətə malik olması prinsipi və s.

### 26.2.3. Energi hüququnun subyektləri

Enerji hüququnun **subyektləri** dedikdə energetika sahəsində əmələ gələn münasibətlərin potensial (mümkün) iştirakçıları başa düşülür. **Dövlət** (Azərbaycan Respublikası) onlardan biridir. Unutmaq olmaz ki, dövlət bütün ilkin enerji materiallarnın yataqlarına müstəsna mülkiyyət hüququna malikdir. Belə hüquqa malik olmaqla dövlət kəşfiyyat, yataqların işlənməsi, energetika materiallarının və məhsullarının hasilatı, yeraltı anbarların tikintisi və idarə edilməsi və s. məqsədlərlə həm də müstəsna hüquqlardan istifadə edir. Dövlət energetika sahəsində müstəsna hüquqlara malik olan subyektdir.

Bunlardan əlavə, dövlət energetika sahəsində fəaliyyətin həyata keçirilməsini tənzimləyir və ona nəzarət edir. Bu baxımdan, dövlət enerji hüququnun subyekti kimi tanınır.

Energi hüququnun subyektləri sırasına həm də **hüquqi şəxslər** daxildir. Söhbət energetika sahəsində fəaliyyət göstərən müəssisələrdən gedir; onlar enerji resurslarının istifadəçisidir.

Özü də qeyri-dövlət hüquqi şəxslər energetika sahəsində müstəsna hüquqlara malikdir. Müstəsna hüquqlar energetika sahəsinin müəssisələrinə qanunvericiliklə verilən hüquqlardan irəli gəlir.

Energi hüququnun subyektlərinə həm də **fiziki şəxslər** aid olunurlar. Onlar enerjinin, energetika materiallarının və məhsullarının (enerji resurslarının) istifadəçisidirlər. Bu nöqteyi-nəzərdən, fiziki şəxslər enerji hüququnun subyekti sayılırlar. Özü də energetika sahəsində fiziki şəxslər müstəsna hüquqlara malikdirlər. Müstəsna hüquqlar energetika müqaviləsindən irəli gələ bilər.

## 26.3. Enerji münasibətlərinin hüquqi tənzimlənməsi

### 26.3.1. Energetika müqaviləsi

Enerji hüququ belə bir prinsipdən çıxış edir ki, energetika sahəsində fəaliyyət müqavilə əsasında həyata keçirilir. Bu prinsipə görə, energetika sahəsində fəaliyyət müqavilə əsasında qurulur. Söhbət energetika müqaviləsindən gedir. Energetika müqavilələri enerji hüququnun nizama saldığı məsələlərdən biridir. «Energetika haqqında» Azərbaycan Respublikası Qanununun (1998-ci il) V fəsli məhz energetika müqaviləsinin tənzimlənməsinə həsr edilmişdir.

**Energetika müqaviləsi** dedikdə tərəflər arasında yazılı formada bağlanan elə bir saziş başa düşülür ki, bu saziş energetika sahəsində fəaliyyət növlərinin həyata keçirilməsi üçün şərtlər müəyyənləşdirir. Müvafiq icra hakimiyyəti orqanı və podratçılar energetika müqaviləsinin bağlanmasında tərəf qismində iştirak edirlər. Nəzərdən qaçırmaq olmaz ki, energetika müqaviləsi müvafiq icra hakimiyyəti orqanı ilə podratçılar arasında bağlanılır.

Energetika müqaviləsi müəyyən müddətə bağlanılır; özü də energetika müqaviləsi uzunmüddətli müqavilədir. «Energetika haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, energetika sahəsində fəaliyyət növləri uzunmüddətli müqavilələr əsasında qurulur.

Energetika müqaviləsinin **müddəti** dedikdə energetika müqaviləsinin qüvvədəolma müddəti başa düşülür. Energetika müqaviləsinin qüvvədəolma müddəti isə müqavilədə göstərilməlidir və qanunla müəyyən edilmiş maksimum müddəti aşmamalıdır.

Energetika müqaviləsinin qüvvədəolma müddətinin başa çatmasına gəldikdə, qeyd etməliyik ki, müqavilədə göstərilmiş müddət qurtararkən energetika müqaviləsinin qüvvədəolma müddəti bitir. Lakin qanun energetika müqaviləsinin uzadılmasına yol verir. Qanunda göstərilir ki, energetika müqaviləsinin qüvvədəolma müddəti müvafiq icra hakimiyyəti orqanı və podratçı arasında müqavilə bağlanması yolu ilə hər dəfə uzadıla bilər.

Energetika müqaviləsinin növləri «Energetika haqqında» Azərbaycan Respublikası Qanununun V fəslində sadalanır və onlar aşağıdakılardan ibarətdir: 1) kəşfiyyat üzrə müqavilə; 2) işlənmə və hasilat üzrə müqavilə; 3) baş enerji nəqletmə sistemləri üzrə müqavilə; 4) enerji paylanması üzrə müqavilə; 5) yeraltı anbarlar üzrə müqavilə. Energetika sahəsində fəaliyyət növləri məhz bu müqavilələrlə rəsmiləşdirilir və onların əsasında həyata keçirilir.

### 26.3.2. Enerji resurslarından istifadə

Enerji resurslarından istifadə enerji hüququ ilə tənzimlənən məsələlərdən biridir. Bu məsələnin hüquqi tənzimlənməsi «Enerji resurslarından istifadə haqqında» Azərbaycan Respublikasının Qanunu vasitəsilə həyata keçirilir ki, həmin qanun 1996-cı ildə qəbul olunmuşdur. Qanun enerji resurslarından istifadə sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarını, habelə onun həyatakeçirilmə mexanizminin əsas istiqamətlərini müəyyən edir, bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətləri tənzimləyir. Enerji resurslarından istifadə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi məhz sözügedən qanundan və həmin qanuna müvafiq

olaraq qəbul edilmiş digər normativ hüquqi aktlardan, habelə beynəlxalq müqavilələrdən ibarətdir.

Enerji resurslarından istifadə ilə bağlı münasibətlərin enerji hüququ vasitəsilə tənzimlənməsi heç də təsadüfi xarakter daşımır. Unutmaq olmaz ki, enerji hüququ **enerji resurslarından səmərəli istifadə** kimi vacib və mühüm prinsipdən çıxış edir. Enerji resurslarından səmərəli istifadə dedikdə texnika və texnologiyanın inkişafının müasir mərhələsində ətraf mühitə texnogen təsirin azalması şərtilə enerji resurslarından iqtisadi cəhətdən daha çox fayda ilə istifadə edilməsi başa düşülür.

Enerji resurslarının nədən ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, yuxarıda adıçəkilən qanunun 1-ci maddəsində enerji resurslarına anlayış verilmişdir. Burada göstərilir ki, **enerji resursları** texnikanın mövcud səviyyəsinə və ya inkişafına müvafiq istifadə olunan neft, neft məhsulları, qaz, elektrik, istilik, su və atom enerjiləri, bərpa olunan və digər enerji daşıyıcılarıdır. **Bərpa olunan enerji mənbələri** dedikdə isə ətraf mühitdə daim mövcud olan, yaxud mütəmadi yaranan enerji mənələri (günəş, külək, yerin istilik axınları, biokütlə, dəniz, su axınları və s.) başa düşülür.

Enerji resurslarından istifadə dövlət siyasətinin həyata keçirildiyi sahələrdən biridir. Söhbət enerji resurslarından istifadə sahəsində dövlət siyasətindən gedir ki, həmin siyasət bu və ya digər prinsip əsasında həyata keçirilir. Belə prinsiplərə aşağıdakılar aiddir: 1) iqtisadi və inzibati tədbirlər vasitəsilə hüquqi və fiziki şəxslərin enerjiyə qənaət sahəsində fəaliyyətinin dövlət tənzimlənməsi; 2) enerji resurslarının istehsalı (çıxarılması), emalı, nəqli, saxlanması və istifadəsi ilə bağlı fəaliyyətin həyata keçirilməsində enerjiyə qənaət tələblərinin üstünlüyü, eləcə də iqtisadi və hüquqi həvəsləndirmə mexanizmlərinin tətbiqi; 3) enerji resurslarından istifadənin müvəqqəti normativlərinin müəyyənləşdirilməsi və tətbiqi; 4) müəssisə və təşkilatların enerji resurslarından istifadə etməsinə fövqəlsahə (sahələrüstü) dövlət nəzarəti və s.

**Enerjiyə qənaət siyasəti** həyata keçirilir ki, bu, dövlət siyasətidir. Yaddan çıxarmamalıyıq ki, enerjiyə qənaət siyasəti enerji resurslarından səmərəli və qənaətlə istifadə etmək məqsədilə onların istehsalı (çıxarılması), emalı, çevrilməsi, nəqli, saxlanılması, uçotu və istehlakı proseslərinin hüquqi, təşkilati və maliyyə iqtisadi tənzimlənməsi yolu ilə həyata keçirilən dövlət siyasətidir.

Enerji resurslarından istifadə sahəsində beynəlxalq əməkdaşlıq həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası öz qanunvericiliyinə və beynəlxalq (publik) hüquqa uyğun olaraq enerjidən səmərəli istifadə sahəsində beynəlxalq əməkdaşlıqda iştirak edir. Hər şeydən əvvəl, qeyd edək ki, xarici və beynəlxalq təşkilatlar ilə səmərəli enerji texnologiyaları qarşılıqlı mübadilə olunur; enerji resurslarından rasional istifadə sahəsində beynəlxalq tədbirlərdə Azərbaycan Respublikası və onun təşkilatları iştirak edir və s. Bunlar enerji resurslarından səmərəli istifadə sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətləridir.

# XXVI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# *XXVII FƏSİL.*
# KOMMERSİYA HÜQUQU

## 27.1. Kommersiya hüququ – iqtisadi hüququn yarımsahəsi kimi
### 27.1.1. Kommersiya hüququ anlayışı

Bazar iqtisadiyyatına keçid yeni iqtisadi anlayışların əmələ gəlməsini şərtləndirdi ki, kommersiya həmin anlayışlardan biridir. Sahibkarlıq, biznes və digər anlayışlarla yanaşı, kommersiya təsərrüfat fəaliyyətini xarakterizə edən termindir. Kommersiya bir və ya bir neçə qrup şəxsin həyata keçirdiyi elə bir fəaliyyətdir ki, bu fəaliyyət mənfəət götürülməsinə və əldə olunmasına yönəlir.[1] Söhbət kommersiya fəaliyyətindən gedir. Kommersiya fəaliyyətinin həyata keçirilməsi prosesində, təbii ki, müəyyən növ ictimai münasibətlər əmələ gəlir; onlar **kommersiya münasibətləri** adlanır. Kommersiya münasibətləri isə müvafiq hüquq normaları vasitəsilə tənzimlənir. Məhz həmin hüquq normalarının məcmu halında birləşməsi kommersiya hüququ adlanır.

**Kommersiya hüququ** dedikdə kommersiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan kommersiya münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Onun vasitəsilə kommersiya münasibətlərinin hüquqi tənzimlənməsi həyata keçirilir. Odur ki, kommersiya hüququnun **nizamasalma predmeti** kommersiya münasibətlərindən ibarətdir.

Kommersiya hüququnun nizamasalma predmetini təşkil edən kommersiya münasibətləri kommersiya ilə bağlı yaranır. Kommersiya isə biznesin formalarından (növlərindən) biridir. Biznesin ikinci forması (növü) isə sahibkarlıq adlanır. Belə ki, biznesin iki forması (növü) fərqləndirilir ki, bunlardan biri sahibkar-

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.86.

lıq, digəri isə kommersiyadır.[1] Biznes gəlir (qazanc) və ya şəxsi fayda gətirən istənilən fəaliyyət növü və işdir.

Kommersiya sahibkarlıq fəaliyyətinin elə bir hissəsidir ki, bu hissə dövriyyə sahəsində malların (məhsulların) bilavasitə realizə olunmasına və mənfəət alınmasına yönəlir.[2] Bu baxımdan, kommersiya sahibkarlıq fəaliyyətinin bir növüdür.[3] Odur ki, sahibkarlıq kommersiya fəaliyyətinə nisbətən daha geniş anlayışdır. Başqa sözlə, kommersiya sahibkarlıq fəaliyyətinə nisbətən daha məhdud fəaliyyət növüdür. Digər tərəfdən, kommersiyanın sahibkarlıq fəaliyyəti olması üçün onun sahibkarlıq fəaliyyəti əlamətlərinə uyğun gəlməsi tələb olunur. Xatırlatmaq istərdik ki, novatorluq (yenilik), müntəzəm və sistematik olaraq həyata keçirilməsi, innovativ xarakterdə olması, riskli, müstəqil və peşə şəklində olması və s. sahibkarlıq fəaliyyətini xarakterizə edən əlamətlərdir. Əgər kommersiya bu əlamətlərə uyğun gələrsə, o, sahibkarlıq fəaliyyəti hesab edilir.

### 27.1.2. Hüquq sistemində kommersiya hüququnun tutduğu yer

Hüquq sistemində kommersiya hüququnun tutduğu yer hüquq elmində mübahisəyə səbəb olan məsələlərdən biridir. Belə ki, hüquqşünas alimlərin bu məsələ barədə fikirləri üst-üstə düşmür. Bəzi müəlliflərə görə, kommersiya hüququ müstəqil hüquq sahələrindən biridir.[4] Alimlərin müəyyən qismi kommersiya hüququnu ayrıca müstəqil hüquq sahəsi kimi qəbul etmir-

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с.192.

[2] Kommersiya hüququ. Dərs vəsaiti / Kollektiv müəlliflər: Ənnağı Hacıbəyli, Vidadi Mirkamal və b. Bakı, 2003, s.3; Экономическая теория. Учебник / Под общ.ред. В.И.Видяпина, А.И.Добрынина и др. М., 2002, с. 194.

[3] *Kommersiya (latınca - commercium; ingiliscə - commerce) anlayışı barədə bax: məsələn,* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 418.

[4] Пугинский Б.И. Коммерческое право России. Учебник. М., 2010, с.141; Kommersiya hüququ. Dərs vəsaiti / Kollektiv müəlliflər: Ənnağı Hacıbəyli, Vidadi Mirkamal və b. Bakı, 2003, s. 6.

lər; onlar kommersiya hüququnu mülki hüququn bir hissəsi hesab edirlər.[1]

Xarici ölkələrdə kommersiya hüququna kommersiya fəaliyyətini tənzimləyən hüquq sahəsi kimi baxırlar. Həmin sahə mənfəət əldə etmək məqsədilə mal istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarından ibarətdir.[2]

Elə müəlliflər də vardır ki, onlar «kommersiya hüququ» və «sahibkarlıq hüququ» kimi iki anlayışı eyniləşdirirlər. Həmin müəlliflərin fikrincə, sahibkarlıq (kommersiya) hüququ müstəqil hüquq sahələrindən biridir.[3]

Zənnimizcə, kommersiya hüququna iqtisadi hüququn yarımsahəsi kimi yanaşmaq ən ağlabatan və düzgün seçimdir. Nə üçün? Əvvəla qeyd edək ki, kommersiya fəaliyyəti iqtisadi fəaliyyətin növlərindən biridir. İqtisadi fəaliyyətin ayrı-ayrı növləri, o cümlədən kommersiya iqtisadi hüquqla tənzimlənir. Kommersiya fəaliyyətini tənzimləmək üçün iqtisadi hüququn tərkibində kommersiya hüququ adlı yarımsahə ayrılır.

Digər tərəfdən, kommersiya münasibətləri iqtisadi münasibətlərin növlərindən biridir. Həmin münasibətləri tənzimləməkdən ötrü iqtisadi hüququn tərkibində kommersiya hüququ kimi ayrıca yarımsahə fərqləndirilir. Kommersiya münasibətləri isə mənfəət əldə etmək məqsədi ilə mal istehsalı və satqısı, iş görülməsi və xidmət göstərilməsi ilə bağlı yaranır. Həmin münasibətlər iqtisadi münasibətlərin kommersiya kimi sahəsində əmələ gələn növüdür.

Beləliklə, kommersiya hüququ iqtisadi hüququn yarımsahələrindən biridir. Hüquq sistemində kommersiya hüququnun tutduğu yer məhz bu cür müəyyən edilir.

---

[1] Коммерческое право. Учебник / Под ред. В.Ф.Попондопуло, Н.В. Яковлевой. СПб., 1997, с.4-5.

[2] Коммерческое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.Ф.Попондопуло. СПб., 2003, 288 с.

[3] Məmmədov R.Y.Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı, 2015, s. 23-30.

## 27.2. Kommersiya hüququnun mənbələri, prinsipləri və subyektləri

### 27.2.1. Kommersiya hüququnun mənbələri

Kommersiya hüququnun mənbələrinə, hər şeydən əvvəl, **normativ hüquqi aktlar** daxildir. Nəzərə almaq lazımdır ki, normativ hüquqi aktlar kommersiya hüququnun əsas mənbə növüdür. Söhbət, ilk növbədə, normativ hüquqi aktların əsas növü olan **qanunlardan** gedir. Qanunlar normativ hüquqi aktların elə növüdür ki, onlar kommersiya fəaliyyətinin tənzimlənməsində vacib rol oynayır. Qanunlar içərisində **Konstitusiyanın** adı birinci çəkilməlidir. Konstitusiyanın 59-cu maddəsi azad sahibkarlıq hüququnu nəzərdə tutur ki, bu, Konstitusiyada müəyyən edilmiş əsas iqtisadi hüquqların növlərindən biridir. Kommersiya fəaliyyəti isə, əvvəllərdə qeyd etdiyimiz kimi, sahibkarlıq fəaliyyətinin daha məhdud dairə münasibətlərini əhatə edir.[1]

Kommersiya fəaliyyəti bazar iqtisadiyyatının formalaşmasına və inkişafına xidmət edir. Bu baxımdan, Konstitusiyanın15-ci maddəsinin II hissəsi kommersiya hüququ üçün əhəmiyyətlidir. Burada deyilir ki, Azərbaycan dövləti bazar iqtisadiyyatının inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir.

Kommersiya hüququnun mənbəyi olan qanunlar sırasına **Mülki Məcəllə** də aiddir. Mülki Məcəllə kommersiya fəaliyyətinin hüquqi nizamlanmasında mühüm rol oynayır. Unutmaq olmaz ki, kommersiya fəaliyyətinin subyektləri və kommersiya dövriyyəsinin iştirakçıları Mülki Məcəllə ilə müəyyən edilir. Kommersiya fəaliyyətinin əsas subyekti və kommersiya dövriyyəsinin başlıca iştirakçısı hüquqi şəxslərdir ki, Mülki Məcəllədə onlar iki növə ayrılmışdır: 1) kommersiya təşkilatları (MM, IV fəsil, § 2); 2) qeyri-kommersiya təşkilatları (MM, IV fəsil, § 3).

---

[1] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И. Добрынина и др. М., 2002, с.194. Kommersiya hüququ. Dərs vəsaiti / Kollektiv müəlliflər: Ənnağı Hacıbəyli, Vidadi Mirkamal və b. Bakı, 2003, s. 3.

Məlum olduğu kimi, kommersiya fəaliyyəti sahibkarlıq fəaliyyətinin növlərindən biridir. Sahibkarlıq fəaliyyətinə isə MM-in 13-cü maddəsində anlayış verilmişdir. Burada deyilir ki, sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsəd əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.

Bunlardan əlavə, kommersiya dövriyyəsi müvafiq müqavilələr vasitəsilə tənzimlənir. Söhbət kommersiya müqavilələrindən gedir.[1] Kommersiya müqavilələrinin bağlanması qaydası və onların elementləri isə Mülki Məcəllə ilə müəyyən edilir.

İqtisadi nəzəriyyə dərsliyində göstərilir ki, lizinq və faktorinq kommersiya fəaliyyətinin yeni formalarıdır.[2] Lizinq və faktorinqin hüquqi tənzimlənməsi isə MM vasitəsi ilə həyata keçirilir. Kommersiya müqavilələrindən biri kommersiya konsessiyası adlanır ki, həmin müqavilə də MM ilə tənzimlənir (MM, maddə 800–807).

Kommersiya münasibətlərinin tənzimlənməsində həm də **qanunqüvvəli normativ aktlar** iştirak edir ki, onlar normativ hüquqi aktların digər növü sayılır. Söhbət Prezident fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından gedir.

### 27.2.2. Kommersiya hüququnun subyektləri

Kommersiya hüququnun **subyektləri** dedikdə kommersiya fəaliyyətinin subyektləri başa düşülür. Kommersiya fəaliyyəti ilə məşğul olan şəxslər kommersiya fəaliyyətinin subyektləri adlanır. Buraya, hər şeydən əvvəl, **hüquqi şəxslər** aid olunur. Hüquqi şəxslərin iki növü fərqləndirilir: 1) kommersiya təşkilatları; 2) qeyri-kommersiya təşkilatları. **Kommersiya təşkilatları** elə hüquqi şəxslərdir ki, onların həyata keçirdikləri fəaliy-

[1] Kommersiya müqavilələri barədə daha ətraflı: Пугинский Б.И. Коммерческое право России. Учебник. М., 2010, с.141-147.

[2] Экономическая теория. Учебник / Под общ. ред. В.И.Видяпина, А.И. Добрынина и др. М., 2002, с.195.

yətin əsas məqsədi mənfəət götürməkdən ibarətdir. Kommersiya təşkilatları həm də kommersiya hüquqi şəxsləri adlanır. Kommersiya hüquqi şəxslərinin bir neçə növü fərqləndirilir: 1) tam ortaqlıq; 2) kommandit ortaqlığı; 3) məhdud məsuliyyətli cəmiyyət; 4) səhmdar cəmiyyəti; 5) kooperativ.

**Qeyri-kommersiya təşkilatları** dedikdə elə hüquqi şəxslər başa düşülür ki, onların fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmur. Mənfəət götürsələr də qeyri-kommersiya təşkilatları onu iştirakçılar arasında bölüşdürmür. Qeyri-kommersiya təşkilatları qeyri-kommersiya hüquqi şəxsləri də adlanır. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq (kommersiya) fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin.

Kommersiya hüququnun subyektlərinə həm də **fiziki şəxslər** aid olunurlar. Fiziki şəxslər kommersiya fəaliyyəti ilə məşğul olaraq, mal istehsal edə, xidmət göstərə və iş görə bilərlər. Odur ki, onlar kommersiya fəaliyyətinin subyekti hesab edilirlər. Fiziki şəxslər hüquqi şəxs yaratmadan kommersiya fəaliyyətini həyata keçirə, kommersiya əməliyyatları apara bilərlər.

Xarici ölkələrin qanunvericiliyində, eləcə də kommersiya hüququna dair ədəbiyyatda «kommersant»[1] anlayışı işlədilir. Kommersant kommersiya fəaliyyətinin elə bir subyektidir ki, o, sahibkarlıq formasında mallarla bağlı əməliyyat həyata keçirir. Onun iki növü fərqləndirilir: 1) kollektiv kommersant (hüquqi şəxslər); 2) fərdi kommersant (fiziki şəxslər).

### 27.2.3. Kommersiya hüququnun özünəməxsus prinsipləri

İqtisadi hüququn yarımsahələrindən biri olan kommersiya hüququ özünəməxsus prinsiplərə əsaslanır. Bu prinsiplər kom-

---

[1] *Kommersant (latınca - commercium; fransızca - commercant) anlayışı barədə bax:* Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с. 418.

mersiya münasibətlərini hüquqi tənzimetmənin əsas ideya və rəhbər başlanğıclarıdır. **Azad kommersiya fəaliyyəti prinsipi** onlardan biridir. Bu prinsipə görə, hər kəs sərbəst şəkildə kommersiya fəaliyyəti ilə məşğul ola bilər.

**Kommersiya fəaliyyətinin mənfəət götürülməsinə yönəlməsi prinsipi** kommersiya hüququn prinsipləri sırasına daxildir. Bu prinsipə görə, həyata keçirilən kommersiya fəaliyyətinin məqsədi mənfəət götürməkdən ibarətdir. Əgər bazar və ya digər fəaliyyət növü mənfəət götürülməsinə yönələrsə, o, kommersiya fəaliyyəti hesab olunur. Unutmaq olmaz ki, kommersya mənfəət əldə olunmasına yönələn fəaliyyətdir.

Kommersiya hüququ belə bir prinsipdən çıxış edir ki, **kommersiya fəaliyyəti subyektlərinin hüquqları müdafiə olunur**. Bu prinsipə görə, kommersantların subyektiv hüquqları və qanunla qorunan mənafeyinin müdafiəsi təmin edilir. Bu, dövlətin üzərinə düşən vəzifələrdən biri hesab olunur. Kommersiya fəaliyyəti subyektlərinin hüquqları həm məhkəmə, həm də qeyri-məhkəmə qaydasında müdafiə oluna bilər.

Bunlardan başqa, aşağıdakılar da kommersiya hüququnun **prinsipi** sayılır: 1) kommersiya fəaliyyətində sağlam rəqabətə yol verilməsi prinsipi; 2) kommersiya dövriyyəsinin müqavilə əsasında tənzimlənməsi prinsipi; 3) kommersiya müqavilələrinin sərbəst və maneəsiz olaraq bağlanması; 4) kommersiya fəaliyyətinin həyata keçirilməsinə görə məsuliyyət daşımaq prinsipi və s.

## 27.3. Kommersiya fəaliyyətinin subyektləri və onların bağladıqları kommersiya müqavilələri

### 27.3.1. Hüquqi şəxslər – kommersiya fəaliyyətinin əsas subyekti kimi

Hüquqi şəxslər kommersiya dövriyyəsinin professional iştirakçısıdır. Onların vasitəsi ilə mal istehsal olunur, xidmətlər göstərilir və işlər görülür. Söhbət hüquqi şəxslərin əsas növü

olan kommersiya təşkilatlarından gedir ki, onlar **kommersiya fəaliyyətinin əsas subyekti** kimi tanınır.

Kommersiya təşkilatlarının müxtəlif növləri mövcuddur ki, tam ortaqlıq həmin növlərdən biridir. **Tam ortaqlıq** dedikdə hüquqi şəxslərin elə bir növü başa düşülür ki, həmin növ hüquqi şəxsin iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından kommersiya (sahibkarlıq) fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə özlərinə mənsub əmlakla məsuliyyət daşıyırlar. Onun, yəni tam ortaqlığın iştirakçıları tam ortaqlar adlanır.

Nizamnamə tam ortaqlığın fəaliyyətinin hüquqi əsasıdır. Söhbət ortaqlığın nizamnaməsindən gedir. Belə ki, tam ortaqlıq öz nizamnaməsi əsasında fəaliyyət göstərir.

**Kommandit ortaqlığı** kommersiya təşkilatlarının digər növüdür. Bu növ kommersiya təşkilatının tərkibi iki kateqoriya şəxsdən ibarətdir: 1) tam ortaqlar; 2) kommanditçilər. Həm tam ortaqlar, həm də kommanditçilər kommandit ortaqlığın iştirakçılarıdır. Tam ortaqlar kommandit ortaqlığının adından sahibkarlıq (kommersiya) fəaliyyətini həyata keçirir və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyırlar. Kommanditçi maya qoyandır. Mayanı qoyan ortaqlığın həyata keçirdiyi sahibkarlıq fəaliyyətində iştirak etmir. Maya qoyan (kommanditçi) bir və ya bir neə nəfərdən ibarət ola bilər; onlar ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları maya məbləği həddində risk daşıyırlar.

Kommersiya təşkilatlarının növlərindən biri **məhdud məsuliyyətli cəmiyyət** adlanır. Məhdud məsuliyyətli cəmiyyət dedikdə elə növ kommersiya təşkilatı başa düşülür ki, bu təşkilatın nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünür.

Məhdud məsuliyyətli cəmiyyət, adətən, bir neçə şəxs tərəfindən təsis edilir. Şəxs dedikdə həm fiziki, həm də hüquqi şəxs başa düşülür. Bununla belə məhdud məsuliyyətli şəxs bir şəxs tərəfindən də təsis edilə bilər.

Məsuliyyət məsələsinə gəldikdə, qeyd etməliyik ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımırlar. Onların üzərinə yalnız cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün risk düşür. Risk iştirakçıların qoyduqları mayaların dəyəri həddində olur.

**Səhmdar cəmiyyəti** də kommersiya təşkilatının növü hesab edilir. Əgər bu və digər cəmiyyətin nizamnamə kapitalı səhmlərə bölünərsə, belə cəmiyyət səhmdar cəmiyyəti adlanır. Yalnız səhmdar cəmiyyətinin səhmlər buraxmaq hüququ vardır. Səhmdar cəmiyyətindən başqa, hər hansı növ kommersiya təşkilatının səhm buraxmaq hüququ yoxdur.

Səhmdar cəmiyyətində, əsasən, aşağıdakı orqanlar yaradılır: 1) səhmdar cəmiyyətinin ali idarəetmə orqanı; 2) səhmdar cəmiyyətinin direktorlar şurası (müşahidə şurası); 3) səhmdar cəmiyyətinin icra orqanı; 4) səhmdar cəmiyyətinin təftiş komissiyası. **Səhmdar cəmiyyətinin ali idarəetmə orqanı** dedikdə onun səhmdarlarının ümumi yığıncağı başa düşülür. **Direktorlar Şurası** (Müşahidə Şurası) dedikdə öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqan başa düşülür. Səhmdar cəmiyyətinin **icra orqanı** dedikdə elə bir idarəetmə orqanı başa düşülür ki, bu orqan cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, Direktorlar Şurasına (Müşahidə Şurasına) və Səhmdarların Ümumi Yığıncağına hesabat verir.

**Təftiş Komissiyası** səhmdar cəmiyyətinin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirən orqandır. Bu orqan o halda yaradılır ki, səhmdar cəmiyyətində səhmdarların sayı 50-dən çox olsun. Təftiş Komissiyası Ümumi Səhmdarların Yığıncağında seçilir (təyin olunur). Bu barədə MM-in 107-11-ci maddəsinin 1-ci bəndində müvafiq göstəriş vardır.

**Kooperativ** kommersiya təşkilatlarının növlərindən biridir. Kooperativ dedikdə fiziki və  və ya hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi başa düşülür. Kooperativ beşdən az olmayan şəxs tərəfindən təsis edilir və yaradılır. Təsisçi şəxs qismində həm fiziki, həm də

hüquqi şəxslər çıxış edə bilərlər. Belə ki, kooperativ fiziki və və ya hüquqi şəxslər tərəfindən yaradılır.

Kooperativ nə təsərrüfat ortaqlığıdır, nə də təsərrüfat cəmiyyətidir. Təsərrüfat ortaqlığı ya tam ortaqlıq, ya da kommandit ortaqlığı formasında yaradıla bilər.

**Təsərrüfat cəmiyyətlərinə** gəldikdə, qeyd etmək lazımdır ki, onların üç növü fərqləndirilir: 1) məhdud məsuliyyətli cəmiyyət; 2) əlavə məsuliyyətli cəmiyyət; 3) səhmdar cəmiyyəti.

**Publik hüquqi şəxslər** hüquqi şəxslərin növlərindən biridir. Onlar ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olurlar (MM-in 43-cü maddəsini 5-ci bəndi). Bu növ hüquqi şəxslərin fəaliyyəti MM-dən başqa, «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikasının Qanunu ilə (2015-ci il) tənzimlənir.[1]

## 27.3.2. Kommersiya müqavilələri

Nə Mülki Məcəllədə, nə də digər qanunvericilik aktlarında kommersiya müqavilələri terminindən istifadə edilməsinə rast gəlinir. Belə terminin işlədilməsinə kommersiya hüququna dair ədəbiyyat səhifələrində təsadüf olunur.[2]

Kommersiya müqavilələri müəyyən **əlamətlərlə xarakterizə** olunur. Məhz həmin əlamətlər bu və ya digər müqavilənin kommersiya müqaviləsi kimi tanınmasını şərtləndirir. Kommersiya müqaviləsinin **birinci əlaməti** bundan ibarətdir ki, o, kommersiya dövriyyəsi və kommersiya fəaliyyətinin həyatakeçirilmə prosesi ilə bağlıdır. **İkinci,** kommersiya müqaviləsinin heç olmazsa tərəflərindən biri kommersant (kommersiya fəaliyyətinin subyekti, məsələn – kommersiya təşkilatları) olmalıdır. **Üçüncü,** kommersiya müqaviləsi həmişə əvəzlidir. **Dördüncü,**

---

[1] Azərbaycan Respublikasının 29.12.2015-ci il tarixli 97-VQ nömrəli qanunu ilə təsdiq edilmişdir (URL:http://www.e-qanun. az – 23.03.2018-ci il).

[2] Пугинский Б.И. Коммерческое право России Учебник. М., 2010, с.142-145.

kommersiya müqaviləsinin tərəflərində iqtisadi maraq olmalıdır.

Xarici ölkələrdə (Fransa, İspaniya və s.) əgər müqavilə malın əvəzli şəkildə özgəninkiləşdirilməsini nəzərdə tutarsa, həmin müqavilə kommersiya müqaviləsi sayılır. Almaniya və Yaponiya kimi dövlətlərdə kommersantların iştirakı ilə bağlanan müqavilə kommersiya müqaviləsi hesab edilir.

Azərbaycan Respublikasında aşağıdakılar kommersiya müqavilələri kimi tanınır: 1) lizinq müqaviləsi; 2) faktorinq müqaviləsi; 3) kommersiya konsessiyası müqaviləsi; 4) kommersiya təmsilçiliyi haqqında müqavilə və s. Bu kimi müqavilələrin hüquqi tənzimlənməsi MM vasitəsi ilə həyata keçirilir. Onların bağlanması kommersiya fəaliyyətinin həyata keçirilməsi prosesi ilə bilavasitə əlaqəlidir.

Kommersiya müqaviləsini xarakterizə edən əlamətləri nəzərə alaraq, ona elmi (doktrinal) anlayış verək: **kommersiya müqaviləsi** dedikdə elə bir əqd növü başa düşülür ki, əvəzli olan bu əqd kommersiya fəaliyyətinin həyata keçirilməsi prosesində tərəflərdən heç olmazsa biri olan kommersantın iştirakı ilə bağlanılır və onların iqtisadi maraqlarını təmin etmək məqsədinə xidmət edir. Təqdim olunan bu anlayış kommersiya müqaviləsini xarakterizə etməyə imkan verən bütün əlamətləri müəyyənləşdirməyə imkan verir.

# XXVII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



## *XXVIII FƏSİL.*
## RABİTƏ-İNFORMASİYA HÜQUQU

### 28.1. Rabitə-informasiya hüququ – iqtisadi hüququn yarımsahəsi kimi
### 28.1.1. Rabitə-informasiya hüququ anlayışı

Qeyd etmək lazımdır ki, **rabitə** anlayışı özündə müxtəlif mənaları ehtiva edir. Birinci, rabitə dedikdə biznes (bazar), istehsal və s. infrastrukturun bir növü başa düşülür. İkinci mənada rabitə müxtəlif texniki vasitələrin köməyi ilə informasiyanın verilməsi və qəbul edilməsidir. Üçüncü mənada rabitə dedikdə xalq təsərrüfatı sahəsi başa düşülür.[1] Deməli, rabitə iqtisadiyyatın sahələrindən biridir. Belə ki, «xalq təsərrüfatı» və «iqtisadiyyat» eynimənalı anlayışlardır. Rabitə elə xalq təsərrüfatı – iqtisadiyyat sahəsidir ki, informasiya verilməsini (verilişini) təmin edir.

Əlbəttə, iqtisadiyyatın informasiya verilməsini (verilişini) təmin edən rabitə sahəsində müəyyən növ ictimai münasibətlər əmələ gəlir; onlar **rabitə-informasiya münasibətləri** adlanır. Sözsüz ki, rabitə-informasiya münasibətləri hüquqi tənzimetmənin obyektidir. Belə ki, rabitə-informasiya münasibətləri müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənir. Məhz həmin normaların sistemi rabitə-informasiya hüququ adlanır.

**Rabitə-informasiya hüququ** dedikdə informasiya münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür ki, həmin münasibətlər iqtisa-diyyatın rabitə sahəsində informasiya verilməsinin təmin edilməsi prosesində yaranır. O, yəni rabitə-informasiya hüququ informasiya münasibətlərini tənzimləyir. Odur ki, informasiya münasibətləri rabitə-informasiya hüququnun **nizamasalma predmetini** təşkil edir. Deməli,

---

[1] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. və b. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı, 1998, s.152.

rabitə-ifnormasiya hüququnun nizamasalma predmeti informasiya münasibətlərindən ibarətdir.

Rabitə-informasiya hüququnun vacib əhəmiyyəti vardır. Heç də sirr deyil ki, ictimai fəaliyyətin növlərindən biri olan iqtisadi fəaliyyət, xüsusən də sahibkarlıq fəaliyyəti informasiya təminatı olmadan nə mövcud ola, nə də həyata keçiriə bilər. İnformasiya təminatı ilə bağlı münasibətlər isə rabitə-informasiya hüququ vasitəsi ilə tənzimlənir. Rabitə-informasiya hüququnun əhəmiyyəti də məhz bununla şərtlənir.

### 28.1.2. Hüquq sistemində rabitə-informasiya hüququnun tutduğu yer

İqtisadi hüquq bir neçə yarımsahədən ibarətdir. Rabitə-informasiya hüququ onlardan biridir. Belə ki, iqtisadi hüquq iqtisadiyyatın ayrı-ayrı sahələrində yaranan münasibətləri tənzimləyir. Rabitə isə, qeyd etdiyimiz kimi, iqtisadiyyatın – xalq təsərrüfatının sahələrindən biridir; özü də elə bir vacib sahədir ki, bu sahə informasiya verilişini təmin edir.

Digər tərəfdən, iqtisadi hüquqla tənzimlənən iqtisadi fəaliyyət həm də rabitə sahəsində həyata keçirilir. Rabitə sahəsində həyata keçirilən iqtisadi fəaliyyətin əsasları isə «Rabitə haqqında» Azərbaycan Respublikasının Qanununda (1997-ci il) göstərilmişdir.[1]

Bunlardan əlavə, informasiya iqtisadi qiyməti və dəyəri olan xüsusi xarakterli əmtəədir. Odur ki, informasiya ilə bağlı yaranan münasibətlər, yəni informasiya münasibətləri iqtisadi xarakterli münasibətlərdir. İqtisadi xarakterli münasibətlərin hüquqi tənzimlənməsi isə iqtisadi hüquqla həyata keçirilir.

Beləliklə, rabitə-informasiya hüququ iqtisadi hüququn xüsusi hissəsinə aiddir və **yarımsahə statusuna** malikdir.

---

[1] Azərbaycan Respublikasının 20.06.1997-ci il tarixli 328-IQ nömrəli qanunu ilə təsdiq edilmişdir (URL:http://www.e-qanun. az – 23.03.2018-ci il).

## 28.2. Rabitə-informasiya hüququnun mənbələri, prinsipləri və subyektləri

### 28.2.1. Rabitə-informasiya hüququnun mənbələri

Rabitə-informasiya hüququnun əsas mənbəyi **qanunlardır**. Söhbət, ilk növbədə, dövlətin əsas qanunu olan **Konstitusiyadan** gedir. Konstitusiyanın 50-ci maddəsinin I hissəsində deyilir ki, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

Konstitusiyanın 32-ci maddəsinin III – V hissələri informasiyaya aiddir. Bu hissələrin rabitə-informasiya hüququ üçün mühüm əhəmiyyəti vardır.

Rabitə-informasiya hüququnun mənbəyi olan qanunlar sırasına digər qanunlar da aiddir. Söhbət, ilk növbədə, **«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanunundan** (2005-ci il) gedir. Həmin qanun informasiya əldə etməklə bağlı münasibətləri tənzimləyir.

**«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunu** da (2004-cü il) rabitə-informasiya hüququnun mənbəyidir. Bu qanun Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyin açılması ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Rabitə-informasiya hüququnun **mənbəyi olan qanunlara** həm də aşağıdakılar aiddir: 1) «Rabitə haqqında» Azərbaycan Respublikasının Qanunu (1997-ci il); 2) «Kommersiya sirri haqqında» Azərbaycan Respublikasının Qanunu (2001-ci il); 3) «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanunu (2010-cu il) və s.

«Rabitə haqqında» Qanun Azərbaycan Respublikasında rabitə fəaliyyətinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyənləşdirir. «Kommersiya sirri haqqında» Qanun Azərbaycan Respublikasında kommersiya sirri ilə bağlı yaranan münasibət-

ləri tənzimləyir.[1] «Fərdi məlumatlar haqqında» Qanun isə fərdi məlumatların toplanması, işlənilməsi və mühafizəsi ilə bağlı münasibətləri nizama salır.

Rabitə-informasiya hüququnun mənbəyi həm də **qanunqüvvəli aktlar** ola bilər. İnformasiya münasibətlərinin tənzimlənməsində onlar vacib rol oynayır. Söhbət Prezident fərmanlarından və Nazirlər Kabinetinin qərarlarından gedir.

İnformasiya münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusu **informasiya qanunvericiliyi** adlanır. İnformasiya qanunvericiliyi Konstitusiyadan, informasiyaya aid qanunlardan və həmin qanunların tələblərinə uyğun hazırlanmış digər normativ hüquqi aktlardan ibarətdir.

### 28.2.2. Rabitə-informasiya hüququnun özünəməxsus prinsipləri

İqtisadi hüququn hər bir yarımsahəsi kimi rabitə-informasiya hüququ da özünəməxsus prinsiplərə əsaslanır. Həmin prinsiplər informasiya qanunvericiliyində öz normativ ifadəsini tapır. Odur ki, onlar məcburi hüquqi qüvvəyə malikdir. **İnformasiya azadlığı prinsipi** həmin prinsiplərdən biridir. Bu prinsipə görə, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ vardır.

**İnformasiya almaq azadlığı** rabitə-informasiya hüququnun prinsipləri sırasına daxildir. Bu prinsipə görə, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır; hər kəs informasiyanın əldəetmə formasını seçmək hüququna malikdir.

Rabitə-informasiya hüququ həm də **informasiyanın əldə edilməsinin qanuniliyi prinsipindən** çıxış edir. Bu prinsipə görə, hər kəsin istədiyi məlumatı qanunu yolla əldə etmək hüququ vardır; qeyri-qanuni üsulla informasiya əldə edilməsinə yol verilmir ki, bu, hüquq pozuntusudur.

---

[1] *Kommersiya sirri barədə ətraflı bax:* Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.131.

**Məsuliyyət daşımaq prinsipi** də həmçinin rabitə-informasiya hüququnun prinsipi kimi tanınınr. Bu prinsipə görə, informasiya əldə etmək hüququnun pozulmasına görə informasiya sahibləri məsuliyyət daşıyırlar.

Bunlardan başqa, rabitə-informasiya hüququ **digər prinsiplər** də müəyyən-ləşdirir: 1) informasiya sorğusunun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsi prinsipi; 2) informasiyanın maksimum açıqlığı prinsipi; 3) informasiya əldə etmək hüququnun qorunması prinsipi; 4) informasiya əldə etmək hüququnun məhkəmə yolu ilə müdafiəsi prinsipi; 5) informasiyanın əldə edilməsinin ödənişsiz həyata keçirilməsi prinsipi; 6) kommersiya sirrindən qanunla qorunan mənafelərin ziddinə istifadə edilməməsi prinsipi və s.

### 28.2.3. Rabitə-informasiya hüququnun subyektləri

Rabitə-informasiya münasibətlərinin mümkün (potensial) iştirakçıları **rabitə-informasiya hüququnun subyektləri** adlanır. Bu münasibətlərdə iki tərəf iştirak edir ki, həmin münasibətlər onlar arasında yaranır. Rabitə-informasiya münasibətlərinin tərəfləri isə bunlardan ibarətdir: 1) informasiya sahibi; 2) informasiya əldə edən.

**İnformasiya sahibi** dedikdə dövlət orqanları, bələdiyyələr, mülkiyyət növündən asılı olmayaraq yaradılmış hüquqi şəxslər və fiziki şəxslər başa düşülür. Deməli, bunlar informasiya sahibləri sayılır: 1) dövlət orqanları; 2) bələdiyyələr; 3) mülkiyyət növündən asılı olmayaraq yaradılmış hüquqi şəxslər; 4) fiziki şəxslər.

İnformasiya sahibi olan hüquqi şəxslər, adətən, ictimai funksiyalar yerinə yetirirlər. Publik hüquqi şəxslər də informasiya sahibi ola bilərlər. Normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər də həmçinin informasiya sahibi sayılırlar.

**İnformasiya əldə edən** dedikdə məlumat alan şəxs başa düşülür. Həmin şəxs məlumatı qanuni yollarla almalıdır. İnforma-

siya əldə edən şəxsin məlumat almasına o şərtlə icazə verilir ki, Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi, maliyyə-kredit və valyuta siyasəti sahələrində maraqlarının qorunması, ictimai qaydanın, sağlamlığın və mənəviyyatın mühafizəsi, digər şəxslərin hüquq və azadlıqlarının, kommersiya və digər iqtisadi maraqlarının qorunması məqsədlərinə zidd olmasın.

Beləliklə, rabitə-informasiya hüququnun subyektləri bunlardan ibarətdir: 1) dövlət orqanları; 2) bələdiyyələr; 3) hüquqi şəxslər; 4) fiziki şəxslər.

## 28.3. Rabitə-informasiya münasibətlərinin hüquqi tənzimlənməsi

### 28.3.1. İnformasiya və onun növləri

Rabitə-informasiya hüququ ilə tənzimlənən münasibətlər informasiya barəsində və onunla bağlı yaranır. İnformasiyaya dair anlayış «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində verilmişdir. Burada deyilir ki, **informasiya** yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlardır.

İnformasiya ayrı-ayrı əsaslara görə müxtəlif növlərə bölünür. Bu növlər informasiya qanunvericiliyində və hüquq doktrinasında göstərilmişdir.[1] Söhbət informasiyanın hüquqi təsnifatından gedir.

Əldə olunma növünə görə informasiya iki növə bölünür: 1) açıq informasiya; 2) alınması məhdudlaşdırılan informasiya. **Açıq informasiyalar** elə məlumatlardır ki, onların Azərbaycan Respublikasının qanunvericiliyi ilə əldə edilməsi məhdudlaşdırılmır. Açıq informasiyadan hamı və hər kəs istifadə edə bilər. Odur ki, informasiyanın bu növü ümumi istifadədə olan informasiyalar adlanır.

---

[1] Ершова И.В. Предпринимательское право. Учебное пособие. М., 2008, с. 228; Рассолов И.М. Информационное право. Учебник. М., 2012, 444 с.

**Alınması məhdudlaşdırılan informasiyalar** dedikdə elə informasiyalar başa düşülür ki, onların əldə edilməsinə qanunla məhdudiyyət qoyulur. Belə informasiyaların iki növü fərqləndirilir: 1) məxfi; 2) konfidensial (gizli). Dövlət sirri **məxfi informasiya** sayılır. Vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədi ilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat və s.), kommersiya, istintaq və məhkəmə sirləri **konfidensial informasiyalar** hesab olunur.

Sənəddə ifadə edilməsinə görə informasiyanın iki növü fərqləndirilir: 1) sənədləşdirilmiş informasiya; 2) sənədləşdirilməmiş informasiya. Maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdirməyə imkan verən istənilən rekvizitli informasiya **sənədləşdirilmiş informasiya** sayılır. Hər hansı sənətdə ifadə edilməyən və maddi daşıyıcısı olmayan informasiya **sənədləşdirilməmiş informasiya** adlanır.

Sahibindən asılı olaraq informasiya bir neçə növə bölünür: 1) sahibi dövlət orqanı olan informasiya; 2) sahibi bələdiyyə olan informasiya; 3) sahibi hüquqi şəxs olan informasiya; 4) sahibi fiziki şəxs olan informasiya.

Bunlardan başqa, informasiyanın kommersiya sirri və fərdi məlumat kimi daha iki növü fərqləndirilir. **Kommersiya sirri** dedikdə hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar başa düşülür. **Fərdi məlumatlar** isə şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən informasiyadır. Fərdi məlumatlar daxil olma (əldə olunma) növünə görə konfidensial və açıq kateqoriyalara bölünür.

### 28.3.2. İnformasiyanın əldə edilmə qaydası

Konstitusiyanın 50-ci maddəsi məlumat azadlığı prinsipindən çıxış edir. Bu prinsip müxtəlif formalarda ifadə olunur ki,

məlumatı qanuni yolla əldə etmək bu formalardan biridir. Həmin forma öz ifadəsini bunda tapır ki, hər kəs istədiyi məlumatı qanuni yolla əldə etmək hüququna malikdir. Konstitusiyanın 50-ci maddəsinin I hissəsində göstərilir ki, hər kəsin istədiyi məlumatı həm də əldə etmək azadlığı vardır. Prinsip kimi tanınmaqdan başqa, məlumat azadlığı həm də subyektiv konstitusion hüquqdur; özü də məlumat azadlığı şəxslərin əsas siyasi hüquqlarından birinə çevrilməkdədir.[1]

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsi informasiya əldə etmək azadlığı prinsipindən çıxış edir. Həmin maddənin 1-ci hissəsində deyilir ki, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Burada məhz sözügedən prinsip formulə olunmuşdur.

İnformasiya əldə etmək azadlığı prinsip kimi tanınmaqdan savayı, həm də subyektiv hüquq sayılır. Belə ki, hər kəs informasiyanı sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə əldə etmək hüququna malikdir. Həmin hüququ həyata keçirmək və ondan istifadə etmək üçün şəxs informasiya sahibinə sorğu təqdim etməlidir, yəni sorğu verməlidir. Söhbət informasiya sorğusundan gedir. **İnformasiya sorğusu** dedikdə informasiya əldə etmək üçün yazılı və ya şifahi müraciət başa düşülür. Müraciəti həm hüquqi, həm də fiziki şəxslər edə bilərlər. Onlar informasiya sorğusu verənlər adlanır. İnformasiya sorğusu verən sorğuçudur. **Sorğuçu** dedikdə informasiya əldə etmək üçün yazılı və ya şifahi şəkildə müraciət edən hüquqi və ya fiziki şəxs başa düşülür. Müraciət informasiya sahibinə edilməlidir. Unutmaq olmaz ki, informasiya sahibi sorğu edilən informasiyaya malik olan şəxsdir. Məhz informasiya sahibinə təqdim edilən sorğu əsasında informasiyanın əldə olunması təmin edilir.

Sorğuçu informasiya sorğusunu iki üsulla təqdim edir ki, bu üsullar informasiya sahibinə müraciətin şifahi və ya yazılı formada edilməsindən asılıdır: 1) şifahi üsul; 2) yazılı üsul. **Şifahi**

---

[1] Allahverdiyev S.S.Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.45.

**üsul** sorğunun informasiya sahibinin vəzifəli şəxsinə bilavasitə və ya telefonla müraciət etmək yolu ilə həyata keçirilir. **Yazılı üsul** isə sorğuçunun sorğunu şəxsən təqdim etmək və ya informasiya sahibinə poçt, telefaks, yaxud elektron poçtla göndərmək yolundan istifadəni nəzərdə tutur.

İnformasiya bu və ya digər formada əldə olunur. Belə ki, sorğuçu yazılı sorğunun aşağıdakı formalardan birində təmin olunmasını tələb edə bilər. Söhbət informasiyanın əldə olunmasının **formalarından** gedir: 1) sənədlə tanış olmaq üçün ayrılmış yerə daxil olma; 2) sənədin üzünün köçürülməsi; 3) informasiya sahibinin texniki imkanlarından istifadə etməklə sənədin surətinin çıxarılması və ya ona sənədin təsdiqlənmiş surətinin verilməsi; 4) sorğuçunun öz texniki imkanlarından istifadə etməklə sənədin surətinin çıxarılması; 5) stenoqramların və ya digər formada kodlaşdırılmış sənədlərin oxunmaq üçün yararlı vəziyyətdə təqdim edilməsi; 6) sənədin tərcümə olunması; 7) sənədin surətinin elektron daşıyıcılara köçürülməsi və s.

İnformasiyanın əldə edilməsi haqqında yazılı sorğuda **aşağıdakılar** göstərilməlidir: 1) sorğuçının adı və soyadı; 2) sorğu hüquqi şəxs tərəfindən təqdim edildikdə hüquqi şəxsin adı; 3) informasiya sahibinin sorğunu təmin edə bilməsi üçün sorğuçuya aid əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi); 4) sorğu edilən informasiyanın məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri; 5) informasiyanın təqdim edilmə forması.

Yazılı sorğu fiziki şəxs tərəfindən imzalanır. Əgər yazılı sorğu hüquqi şəxs tərəfindən təqdim edilərsə, sorğunu hüquqi şəxsin rəhbəri, yaxud onun səlahiyyətli nümayəndəsi imzalayır.

Yazılı sorğunu qəbul etməkdən imtina qadağandır. Belə ki, informasiya sahibi yazılı sorğunu qəbul etməlidir. Bu, onun üzərinə düşən vəzifə hesab edilir.

# XXVIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



# İXTİSARLAR

**AATA** – Avropa Azad Ticarət Assosiasiyası
**ABŞ** – Amerika Birləşmiş Ştatları
**AFR** – Almaniya Federativ Respublikası
**AGİ** – Avropa Gömrük İttifaqı
**Aİ** – Avropa İttifaqı
**AİB** – Avropa İqtisadi Birliyi
**AİK** – Avropa İqtisadi Komissiyası
**AR QK** – Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
**AR QT** – Azərbaycan Respublikasının Qanunvericilik Toplusu
**ASM** – Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı
**AŞPA** – Avropa Şurasının Parlament Assambleyası
**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**AYİB** – Avropa Yenidənqurma və İnkişaf Bankı
**BDT** – Beynəlxalq Dəniz Təşkilatı – İMO
**BDYS** – Beynəlxalq dəmir yolu ilə yük əlaqələri haqqında Saziş
**BƏT** – Beynəlxalq Əmək Təşkilatı
**BHNA** – Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası – İATA
**BMAT** – Beynəlxalq Mülki Aviasiya Təşkilatı – İKAO
**BMT** – Birləşmiş Millətlər Təşkilatı
**BST** – Beynəlxalq Standartlaşdırma Təşkilatı
**BTM** – UNCTAD ÜTT-nin Beynəlxalq Ticarət Mərkəzi
**BTP** – Beynəlxalq Ticarət Palatası
**BVF** – Beynəlxalq Valyuta Fondu – İMF
**BYİB** – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – Ümumdünya Bankı
**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
**CPM** – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
**EKOSOS** – BMT-nin İqtisadi və Sosial Şurası
**ƏDV** – Əlavə Dəyər Vergisi
**ƏM** – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
**FATF** – Çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə Beynəlxalq İşçi Qrup – Maliyyə Komissiyası
**GƏT** – Gömrük Əməkdaşlıq Təşkilatı
**GM** – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
**GUAM** – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova

**XBH** – Xüsusi Borcalma Hüququ – SDR - hesablaşma vahidi
**XTBS** – Xidmətlərlə Ticarət üzrə Baş Saziş - QATS
**İƏİT** – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Ümumavropa təşkilatı)
**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
**İİQ** – İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu
**İpQ** – İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu
**İPM** – Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi
**KOTİF** – Bern Konvensiyaları (Əlavə Sazişlə) – Convention Concerning International Carriage by Rail
**QİƏT** – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı
**MDB** – Müstəqil Dövlətlər Birliyi
**MqM** – Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi
**MM** – Azərbaycan Respublikasının Mülki Məcəlləsi
**MPM** – Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi
**MşM** – Azərbaycan Respublikasının Meşə Məcəlləsi
**MzM** – Azərbaycan Respublikasının Mənzil Məcəlləsi
**NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti
**OPEK** – Neft İxrac Edən Ölkələrin Təşkilatı
**SM** – Azərbaycan Respublikasının Su Məcəlləsi
**ŞƏT** – Şanxay Əməkdaşlıq Təşkilatı
**ŞTM** – Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi
**TGM** – Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi
**TM** – Azərbaycan Respublikasının Torpaq Məcəlləsi
**TMK** – Transmilli Korporasiya
**TRİMS** – İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş
**TRİPS** – Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş
**TTBS** – Tariflər və Ticarət üzrə Baş Saziş – QATT
**UNKTAD** – BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı
**UNSİTRAL** – BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası
**ÜƏMT** – Ümumdünya Əqli Mülkiyyət Təşkilatı
**ÜGT** – Ümumdünya Gömrük Təşkilatı
**ÜTT** – Ümumdünya Ticarət Təşkilatı – WTO
**VM** – Azərbaycan Respublikasının Vergi Məcəlləsi

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### 1) azərbaycan dilində


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 416 s.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı», 2012, 692 s.
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2015, 256 s.
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimov, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi» nəşriyyatı, 2018, 232 s.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 392 s.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.
7. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı», 2001, 880 s.
8. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı: Azərbaycan, 1996–2017.
9. Azərbaycan Respublikasının Meşə Məcəlləsi (1997-ci il) // www.e-qanun/az
10. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. I xüsusi buraxılış. Bakı, 2000, s.263-412.
11. Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti. Normativ aktlar toplusu / Buraxılışa məsul: Ə.H.Hüseynov. Bakı: «Digesta» nəşriyyatı, 2008, 392 s.
12. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2009, 204 s.
13. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru, dosent. Bakı: «Hüquq Yayın Evi», 2017, 126 s.
14. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2009, 48 s.

15. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Nasir: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, 848 s.
16. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi /Naşir - B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi» , 2016, 472 s.
17. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Kol.müəlliflər / Layihənin rəhbəri: Ənnağı Hacıbəyli; Redaktor: İntiqam Əliyev. Bakı: «Patronat-S» şirkəti, 2003, 560 s.
18. Azərbaycan Respublikasının Su Məcəlləsi (1997-ci il) // www.e-qanun/az
19. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, əməkdar hüquqşünas, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2012, 120 s.
20. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi (2001-ci il) // www.e-qanun/az
21. Azərbaycan Respublikasının torpaq qanunvericiliyi. Azərbaycan dilində / Buraxılışa məsul: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 2000, 468 s.
22. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2008, 200 s.
23. Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, 352 s.
24. Abbasov İ.M. Audit. Dərslik. Bakı: Bakı Biznes Universiteti nəşriyyatı, 2007, 530 s.
25. Abdullayev F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. Bakı: «Zərdabi LTD» MMC, 2013, 664 s.
26. Abışov A.V., İsmayılov A,V., Nəcəfquliyev R.İ. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı: DİN Polis Akademiyası, 2012, 330 s.
27. Axundzadə L.T., Əsədov A.Ə. Aqrar hüquq. Ali məktəblər üçün dərslik. Bakı: «Qanun», 2003, 516 s. (www.adau.edu.az).
28. Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı: «Digesta», 2007, 820 s.
29. Allahverdiyev S.S. Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı: «ZIYA», 2000, 360 s.

30. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild. II nəşr. Bakı: «Digesta», 2008, 944 s.; II cild, 2009, 736 s.; III cild, 2009, 1048 s.; IV cild, 2009, 708 s.
31. Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı: «Digesta» nəşriyyatı, 2006, 584 s.
32. Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayım Evi» nəşriyyatı, 2018, 452 s.
33. Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmi-praktiki kommentariyası). I hissə. Bakı: «Digesta», 2005, 336 s.
34. Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı: «Digesta» nəşriyyatı, 2005, 496 s.
35. Avropa hüququ. Dərslik/ E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B», 2016,764 s.
36. Bağırov M.M. Banklar və bank əməliyyatları. Ali məktəblər üçün dərslik. Bakı: «Nurlan», 2003, 512 s.
37. Banklar haqqında (normativ aktlar toplusu) / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2009, 284 s.
38. Bayramov T.Z. İddia ərizələri: sənədlərin nümunələri və kommentariyaları. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2010, 182 s.
39. Beynəlxalq arbitraj. Qanunvericilik və şərhlər / Tərtibçi və redaktor: Habil İskəndərli. Bakı: «Nafta-Press», 2004, 555 s.
40. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə,752 s.; II cild, xüsusi hissə, 704 s.
41. Beynəlxalq dəniz hüququ. Dərs vəsaiti / Azərbaycan dilinə tərcümə edən: A.A. Məhərrəmov. Bakı: «Çaşıoğlu» nəşriyyatı, 2007, 448 s.
42. Beynəlxalq hüquqi yardım və hüquqi münasibətlər: normativ sənədlər toplusu / Buraxılışa məsul: Ə.H.Hüseynov, B.C.Kərimov. Bakı: «Digesta», 2007, 592 s.
43. Bələdiyyələr haqqında (nəzəriyyələr, təcrübələr, sənədlər toplusu). Azərbaycan dilində / Layihənin direktoru: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 1999, 388 s.
44. Dövlət vergi xidməti haqqında (Normativ hüquqi aktlar) / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2008, 96 s.

45. Dr.Mübariz Yolçiyev. Sığorta hüququnda sığortaçının varisliyə əsaslanan reqres hüququ (Türkiyə hüququ ilə müqayisəli olaraq). Bakı: «Adventa» MMC, 2013, 400 s.
46. Əliyev A.Ə.Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri. Bakı: Ozan, 2001, 320 s.
47. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş 3-cü nəşr. Bakı: «Uni-Print» nəşriyyatı, 2011, 676 s.
48. Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı: MHA nəşriyyatı, 2013, 36 s.
49. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, 690 s.
50. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «QHT nəşriyyatı» MMC, 2013, 614 s.
51. Əliyev E.Ə. Xarici iqtisadi əlaqələrin və xarici iqtisadi siyasətin müasir beynəlxalq nəqliyyat hüquq sistemində rolu // BBU, AUİDİT. Bakı, 2002, № 1, s. 74-79.
52. Əliyev E.Ə. Nəqliyyat hüququnun əsasları. Dərs vəsaiti. Bakı: «Hüquq ədəiyyatı», 2004, 324 s.
53. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı: «NAT» MMC, 2011, 475 s.
54. Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı: Şirvannəşr, 2004, 208 s.
55. Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı: Şirvannəşr, 2007, 600 s.
56. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2013, 506 s.
57. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: «HAT» MMC, 2007, 488 s.
58. Əliyev Ə.İ., Teymurov N.Ə. Ekologiya hüququ. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2005, 304 s.
59. Əliyev S.O. Qanuni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qarşı törədilən cinayətlərin xüsusiyyətləri (elmi-nəzəri problemlər). Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2011, 216 s.
60. Əliyeva R.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Dərs vəsaiti. Bakı: «Elm və Təhsil» nəşriyyatı, 2011, 432 s.

61. Əsədov A.Ə., Axundzadə L.T., Quliyeva Z.N. Ekologiya hüququ. Dərslik. Bakı: «Adiloğlu», 2007, 512 s.
62. Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 281 s.
63. Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Kollektiv müəlliflər: Əliyev Etibar Əli oğlu, Əliyev Vüqar İsmayıl oğlu, Gülmalıyev Üzel Sahib oğlu. Bakı: «Kooperasiya» nəşriyyatı, 2015, 816 s.
64. Gözəlov Ə.V.Beynəlxalq investisiya hüququ: nəzəri və praktiki əsasları. Dərs vəsaiti. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 448 s.
65. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: XXI əsr – yeni nəşrlər evi, 2001, 55 s.
66. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997-2013.
67. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: «Azərbaycan» nəşriyyat, 2005, 752 s.
68. Hüquq ensiklopedik lüğəti / Müəlliflər kollektivi. Baş redaktor – M.F.Məlikova. Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, 1991, 544 s.
69. Hüseynov S.Y., Sarıyev R.M. Ekologiyanın fəlsəfi və hüquqi məsələləri. Bakı: «Təknur», 2007, 216 s.
70. Xarici iqtisadi əlaqələr. Terminlər lüğəti / Tərtibçilər: Kim Şükürov, Fuad Ələsgərov, Aydın Hüseynoğlu. Bakı: «Azərbaycan» nəşriyyatı, 1991, 176 s.
71. Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə/ Tərcümə qrupunun rəhbəri və redaktoru - M.Dəmirov. Tərc.edən - H.Baratlı, İ.Əsədov. Bakı: «Sabah», 1995, 174 s.
72. İcra haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, 56 s.
73. İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat-1,2. Mezoiqtisadiyyat. Dərslik. Düzəldilmiş və əlavə edilmiş üçüncü nəşr / Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. M.: «Daşkov və Ko» nəşriyyat-ticarət korporasiyası, 2007, 934 s. // Azərbaycan dilinə tərcümə, Ə.P.Babayevin ümumi elmi redaktəsi ilə. Bakı: «Çaşıoğlu» mətbəəsi, 2009, 752 s.
74. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1–60 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 2003-2019.

75. İmanov K.S. «Əqli mülkiyyət: çıxış və prezentasiyalarda». Toplu. Bakı, 2012, s. 4.
76. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu / Nəşrə məsul: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 2006, 44 s.
77. İpoteka haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2006, 72 s.
78. Kərimov A. Sığorta (sığortaçının stolüstü kitabı). Bakı: «QAPP-POLİQRAF» Nəşriyyat-Poliqrafiya Korporasiyası, 2000, 248 s.
79. Kommersiya hüququ. Dərs vəsaiti / Kollektiv müəlliflər: Ənnağı Hacıbəyli, Vidadi Mirkamal, İntiqam Əliyev, Natəvan Rüstəmova, Rəşid Hacılı, Cəmil Əlizadə. Bakı: «Patronat -S» şirkəti, 2003, 220 s.
80. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: CBS, 2005, 632 s.
81. Qafarov Ş.S. Pulun diktaturası. Monoqrafiya. Bakı: «İqtisadiyyat Universiteti» nəşriyyatı, 2014, 552 s.
82. Qarabalov Elçin, Həsənov Əkrəm. Alqı-satqı: Mülki Məcəllənin kommentariyası. Bakı: «Qərb Universiteti», 2004, 256 s.
83. Qarayeva M.C. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətin prosessual mexanizmləri. Azərbaycan Respublikasına qarşı verilən şikayətlərin məqbulluğu barədə qərarların icmalı. Bakı: «Adventa» MMC, 2015, 505 s.
84. Qarayeva M.C.Avropa Konvensiyasının 5-ci maddəsi: azadlıq və toxunulmazlıq hüququ. Məhkəmə praktikasında tətbiq məsələləri. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, 280 s.
85. Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, 560 s.
86. Qasımova H.A. Xarici əlaqələr hüququ. Dərslik. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 480 s.
87. Qiymətli kağızlar bazarı (normativ sənədlər toplusu) / Tərtibatçı: Abbasov Azim Heydər oğlu. Bakı: «Mühasibat uçotu» redaksiyası, 2000, 312 s.
88. Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Tərcümə edənlər: S.A.İbadov, X.Ş.Kərimov, K.A.Sarıyev. Bakı: ASE, 1989, 360 s.
89. Maliyyə bazarları terminlərinin izahlı lüğəti /Kollektiv müəlliflər: Rüstəmov V.Ə., Camalov F.M., Nəzərov İ.A., Mütəllimov F.V. və Baxşəliyev P.Ə. Bakı: «Nurlan» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2010, 272 s. (URL://http://www.urmu.eu – 01.07.2018-ci il).

90. Mehdiyev Fərhad. Nəzəriyyə və təcrübədə insan hüquqları. Dərs vəsaiti. Bakı: «Adventa», MMC, 2013, 406 s.
91. Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərnəşr, 2000, 286 s.
92. Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: «Şərq-Qərb», 2008, 792 s.
93. Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: CBS POLYGRAPHIC PRODUCTION mətbəəsi, 2006, 584 s.
94. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı: XXI əsr – yeni nəşrlər evi, 2003, 248 s.
95. Meybullayev M.X. İqtisadiyyat. Dərs vəsaiti. Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2015, 408 s.
96. Məhərrəmov A.A. Avropa İttifaqının ekologiya hüququ. Dərs vəsaiti. Bakı: Şirvannəşr, 2008, 260 s.
97. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Dərslik (ikinci nəşr). Bakı: Adventa MMC, 2013, 386 s.
98. Məmmədov M.M., Məmmədov R.Y. Sahibkarlıq hüququ (mühazirələr toplusu). Bakı: ADPU-nun nəşri, 2005, 138 s.
99. Məmmədov N.İ. Xarici siyasətin Azərbaycan modeli. Məqalələrdən seçmələr (1997-2011). Bakı: Çaşıoğlu, 2012, 464 s.
100. Məmmədov N.İ. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: «Qanun» nəşriyyatı, 2013, 264 s.
101. Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı: «Apostroff», 2015, 512 s.
102. Məmmədov Z.F. Pul, kredit və banklar. Dərslik. Bakı: «Nasir» nəşriyyatı, 2004, 496 s.
103. Məmmədov Z.F., Zeynalov Z.H. Pul, kredit, banklar, qiymətli kağızlar və valyuta. Bakı: «Nasir» nəşriyyatı, 2005, 198 s.
104. Mirzəyeva A.Q. Azərbaycan Respublikasının vergi hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, 308 s.
105. Mirzəyeva A.Q. Maliyyə hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2008, 424 s.
106. Mövsümov M.A., Cabbarlı F.A. Azərbaycan Respublikası mülki prosessual hüququ. Dərslik. Azərb.dilində. Bakı: «QANUN», 1998, 330 s.
107. Mustafayeva A.İ. Bioetika, hüquq və insan hüquqları. Bakı: «Adventa Qroup» MMC, 2013, 340 s.

108. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər. Xarici iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə lüğət-məlumat kitabı / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı: Hüquq ədəbiyyatı, 2005, 676 s.
109. Mülki hüquq məsuliyyəti / Ənnağı Hacıbəyli. Bakı: «Patronat-S» Şirkəti, 2003, 172 s.
110. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, əməkdar hüquqşünas, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, 92 s.
111. Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə /Məsul redaktor: İ.A.İsmayılov. Bakı: Qanun, 1999, 224 s.
112. Nuriyev C.Q., Əsgərov Ə.T., Əhmədov Z.V. Ekologiya hüququ. Dərslik. Azərb.dilində. Bakı: Qanun, 2003, 348 s.
113. Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı (2003-2008) / Buraxılışa məsul: Misir Mərdanov. Bakı-İstanbul: «İMA-Kofset basım yayın» mətbəəsi, 2008, 694 s.
114. Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: Azərbaycan, 2003, 256 s.
115. Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı: «Şərq-Qərb» Nəşriyyatı, 2016, 216 s.
116. Rəhimov İ.M. Cinayətkarlıq və cəza. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2015, 320 s.
117. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2014, 320 s.
118. Rusca-Azərbaycanca lüğət. Altıncı nəşr. Üç cilddə. I cild. Bakı: «Şərq-Qərb», 2005, 728 s.; II cild, 2005, 848 s.; III cild, 2005, 672 s.
119. Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ. Dərslik. Bakı: «Adventa Qroup» MMC, 2013, 312 s.
120. Sadıqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 396 s.
121. Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2013, 60 s.
122. Sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsi qaydaları haq-

qında normativ aktlar / Texniki redaktor: Gülümsər Bəşirova. Azərb.dilində. Bakı: Qanun, 1998, 424 s.
123. Səmədzadə Z.A. Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və Təhsil, 2009, 608 s.
124. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: «Digesta» nəşriyyatı, 2007, 700 s.
125. Sığorta (normativ hüquqi aktlar) / T.R.Məmtiyevin redaktəsi ilə. Bakı: «Tərəqqi» MMC, 2005, 494 s.
126. Vəliyev D.Ə., Balakişiyeva Y.H., Rəfibəyli İ.R., İmanov E.E., Qarabalov E.M. Vergi hüququ. Dərslik. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2003, 484 s.
127. Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2013, 308 s.

**2) türk dilində**

128. Abuzer Kendigelen, Alican Aydın. Taşıma hukuku mevzuatı. İstanbul: Beta, 2001, 1011 s.
129. Emin Ertürk. Uluslararası iktisadi birleşmeler. İstanbul: Vipaş A.Ş, 2002, 389 s.
130. Emine Yazıcıoğlu. Hamburg Kuralları'na göre taşıyanın sorumluluğu. İstanbul: Beta Basım A.Ş., 2000, 228 s.
131. Fahiman Tekil. Deniz hukuku. İstanbul: Alkim, 2001, 634 s.
132. Milletlerarası Hukuk ve Milletlerarası Özel Hukuk Bülteni. İstanbul, 2004, Yıl 24/Sayı 1-2.
133. Rayegvn Kender. Ergon Çetingil. Deniz ticareti hukuku. Temel bilgiler. İstanbul: Arikan LTD, 2007, 388 s.
134. Rayegvn Kender. Türkiye'de hususi sıgorta hukuku. İstanbul: Arikan Ltd, 2008, 306 s.

**3) digər dillərdə**

135. Абрамов А.П., Галабурда В.Г., Иванова Е.А. Маркетинг на транспорте. Под общей редакцией д-ра экон. наук, проф. В.Г.Галабурды. Учебник для вузов. М.: Желдориздат, 2001, 329 с.
136. Авдокушин Е.Ф. Международные экономические отношения. М.: Юристь, 1999, 368 с.

137. Агарков М.М. Избранные труды по гражданскому праву. В 2-х т. Т.II. – М.: АО «Центр ЮрИнфоР», 2002, 452 с.
138. Аграрное право. Учебник для вузов / Под ред. Г.Е.Быстрова, М.И.Козыря. М.: Юристь, 1997, 536 с.
139. Аграрное право. Учебник / Отв.ред. М.И.Палладина, Н.Г.Жаворонкова. М.: Проспект, 2011, 428 с. (URL: http: //books.google.ru I).
140. Алексеев С.С. Философия права. М.: Издательство НОРМА, 1999, 336 с.
141. Алиев И.Г.Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712 с.
142. Алиев Э.А. Конвенционное закрепление права морских перевозок и транспортная безопасность. Махачкала, ИУБ, типография «МАБЕЛ», 2002, 16 с.
143. Алиев Э.А. Международные транспортные правоотношения в эпоху глобализации. М.: ООО «Р-СТИЛЬ», 2006, 340 с.
144. Алиев Э.А. О транспортных обязательствах в системе гражданско-правовых отношений // НАУКОВИЙ БЫЪНИК Національної академиї державнои податковои служби Украину. Ирпень, 2004, № 5 (27), с. 179-185.
145. Алиев Э.А., Эфендиев О.Ф. Международное транспортное право и его институты. Учебник. Баку: «Гюнаш-Б», 2016, 668 с.
146. Алиев Э.А., Эфендиев О.Ф. Современное международное транспортное право. Учебник. Общая часть. Германия, Saarbrücken, LAP LAMBERT Academic Publishing, 2015, 142 с.
147. Англо-русский экономический словарь / Под ред. А.В.Аникина. – М.: «Русский язык», 1981, 727 с.
148. Ануфриева Л.П. Международное частное право. В 3-х т. Том 1. Общая часть. Учебник. – М.: Издательство БЕК, 2002, 288 с.
149. Артур Рих. Хозяйственная этика. Пер. с нем. / Артур Рих; пер. Е.М. Довгань; отв. ред. В.В.Сапов. М.: Посев, 1996, 810 с.
150. Банковское дело. Учебник. Издание второе, переработанное и дополненное / Под ред. О.И.Лаврушина. М.: Финансы и статистика, 2001, 672 с.
151. Банковское право: краткий курс лекций / Т.Б.Замотаева, С.Б.Мартышкин, Ю.С.Поваров; под общ. ред. Т.Б.Замотаевой. – 2-е изд., перераб. и доп. – М.: Издательство Юрайт, 2015, 221 с. – Серия: Хочу все сдать!
152. Банковское право: учебник для бакалавров / Отв. ред. В.С.Белых. М.: Проспект, 2015, 696 с.

153. Банковское право. Учебник для бакалавров / Отв. ред. Л.Г.Ефимова, Д.Г.Алексеева. М.: Проспект, 2015, 320 с.
154. Банковское право: учебник для студентов вузов, обучающихся по специальности «Юриспруденция» / [Н.Д.Эриашвили и др.]; под ред. И.Ш.Килясханова, С.Н.Бочарова. – 3-е изд., перераб. и доп. – М.: ЮНИТИ-ДАНА: Закон и право. 2012, 431 с. – (Серия «Dura lex, sed lex»).
155. Банковское право: учебник и практикум для академического бакалавриата / Под ред. В.Ф.Попондопуло, Д.А.Петрова. М.: Издательство Юрайт, 2014, 468 с.
156. Банковское право: учеб. пособие / Д.Г.Алексеева, С.Б.Пыхтин, Е.Г.Хоменко. – 4-е изд., перераб. и доп. – М.: Норма: ИНФРА-М, 2012, 736 с.
157. Безопасность жизнедеятельности. Учебник для вузов, 2-е изд. / Под ред. Михайлова Л.А. – СПб.: Питер, 2012, 461 с.
158. Бекяшев К.А., Моисеев Е.Г. Таможенное право. Учебник. 2-е изд., перераб. и доп. М.: Проспект, 2010, 368 с.
159. Белов В.В., Виталиев Г.В., Денисов Г.М. Интеллектуальная собственность. Законодательство и практика применения. Практич. пособие. 2-е изд., перераб. и доп. – М.: Юристь, 2006, 351 с.
160. Беляцкин С.А. Возмещение морального (неимущественного) вреда. М.: ОАО «Издательский Дом «Городец», 2005, 64 с.
161. Богатырев А.Г. Государственно-правовой механизм регулирования инвестиционных отношений. М., 1996, с.2-3.
162. Богуславский М.М. Международное частное право. Учебник. – 4-е изд., перераб. и доп. – М.: Юристь, 2002, 462 с.
163. Богуславский М.М. Международное экономическое право. М.: Международные отношения, 1986, 304 с.
164. Борисов К.Г. Международное таможенное право: учебное пособие. М.: Изд-во РУДН, 1997, 224 с.
165. Борисов К.Г. Международный туризм и право. Учебное пособие. М.: Издательство «НИМП», 1999, 352 с.
166. Брагинский М.И., Витрянский В.В. Договорное право. Книга второя: Договоры о передаче имущества. М.: «Статут», 2000, 800 с.; Книга третья: Договоры о выполнении работ и оказании услуг. Издание дополнительное, исправленное (2-й завод). М.: «Статут», 2002, 1055 с.; Книга четвертая: Договоры о перевозке, буксировке, транспортной экспедиции и иных услугах в сфере транспорта (2-й завод). М.: «Статут», 2004, 910 с.; Книга пятая.

В двух томах. Том 1: Договоры о займе, банковском кредите и факторинге. Договоры, направленные на создание коллективных образований. М.: «Статут», 2006, 736 с.; Том 2: Договоры о банковском вкладе, банковском счете; банковение расчеты. Конкурс, договоры об играх и пари. М.: «Статут», 2006, 623 с.
167. Бусыгин А.В. Предпринимательство. Учебник. 3-е изд. М.: Дело, 2001, 640 с.
168. Бушев А.Ю., Макарова О.А., Попондопуло В.Ф. Коммерческое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.Ф.Попондопуло. СПб.: Питер, 2003, 288 с.
169. Вавилин Е.В. Осуществление и защита гражданских прав / Е.В.Вавилин; Российская акад. наук, Ин-т государства и права. – М.: Волтерс Клувер, 2009, 360 с.
170. Вельяминов Г.М. Международное экономическое право и процесс. Академический курс. Учебник. М.: Волтерс Клувер, 2004, 496 с.
171. Вилкова Н.Г. Договорное право в международном обороте (2-й завод). – М: «Статут», 2004, 511 с.
172. Вишневский А.А. Банковское право Европейского Союза. Учебное пособие. М.: СТАТУТ, 2000, 390 с.(URL: http://www.slobyos.xpg.com.br/ 27401/html).
173. Голованов Н.М. Гражданско-правовые договоры. Курс лекций. – СПб.: Питер, 2002, 272 с. – (Серия «Учебные пособия»).
174. Голованов Н.М. Обязательственное право. Учебник. – СПб.: Питер, 2002, 448 с. – (Серия «Учебники для вузов»).
175. Городов О.А. Патентное право: учеб. пособие. – М.: ТК Велби, Изд-во Проспект, 2005, 544 с.
176. Гражданское и торговое право Европейского Союза (основные институту) / Редакторы: В.Безбах, В.Понька, К.Беликова. М.: Издательство РУДН, 2010, 536 с. (URL: http://www.ozon/ru/context/detail/id/5472154/?gclid= cl-z4-tmb4cfdlhtaodb34ana).
177. Гражданское и торговое право зарубежных государств. Учебник. В 2-х т.– I том. Издание 4-е, переработанное и дополненное / Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М.: «Международные отношения», 2004, 560 с.; II том. М.: 2005, 640 с.
178. Гражданское и торговое право зарубежных стран. Учебное пособие / Под общей редакцией В.В.Безбаха и В.К.Пучинского. М.: МЦФЭР, 2004, 896 с.

179. Гражданское и торговое право капиталистических государств. Учебник. Часть I. Авторский коллектив / Отв. ред. доктор юридических наук, профессор Р.Л.Нарышкина. М.: «Международные отношения», 1983, 288 с.
180. Гражданское право. В 2 т. Том ЫЫ. Полутом 1: Учебник / Отв. ред. проф. Е.А Суханов. 2-е изд., перераб. и доп. – М.: Издательство БЕК, 1999, 704 с.; Полутом 2. М.: 2000, 544 с.
181. Гражданское право России. Общая часть. Курс лекций / Отв. ред. О.Н.Садиков. – М.: Юристь, 2001, 776 с.
182. Гражданское право России. Часть первая. Учебник / Под ред. З.И.Цыбуленко. – М.: Юристь, 1998, 464 с.
183. Гражданское право России. Часть вторая. Обязательственное право. Курс лекций /Отв. ред. О.Н.Садиков. – М.: Издательство БЕК, 1997, 704 с.
184. Гражданское право. Учебник. Часть I. Издание третье, переработанное и дополненное / Под ред. А.П.Сергеева, Ю.К.Толстого. – М.: ПРОСПЕКТ, 1998, 632 с.; Часть II, 1997, 784 с; Часть III, 1998, 592 с.
185. Гражданское право. Учебник для вузов. Часть первая. Под общей редакцией доктора юридических наук, профессора Т.И. Илларионовой, кандидата юридических наук, доцента Б.М.Гонгало и кандидата юридических наук, доцента В.А. Плетнева. – М.: Издательская группа НОРМА-ИНФРА. М, 1998, 464 с.
186. Гражданское право. Учебник для вузов / Под ред. проф. В.В.Залесского, проф. М.М.Рассолова. – М.: ЮНИТИ-ДАНА, Закон и право, 2002, 703 с. (Серия Dura lex, sed lex).
187. Гражданское право. Часть первая. Учебник / Под ред. А.Г.Калпина, А.И.Масляева. М.: Юристь, 1997, 472 с.
188. Гражданское право. Часть вторая. Учебник / Под общей ред. А.Г.Калпина. – М.: Юристь, 1999, 542 с.
189. Гуев А.Н. Гражданское право. Учебник. В 3т. Т.1. – М.: ИНФРА-М, 2003, 457 с. – (Серия «Высшее образование»); Т.2. – М.: 2003, 454 с.; Т.3. –М.: 2003, 297 с.
190. Гулиев А.Д. Право внешних сношений. Учебник. К.: НАУ, 2012, 520 с.
191. Гулиев А.Д. Украино-азербайджанские отношения: право, политика, дипломатия: сб. научных трудов. Том 2. Х.: Факт, 2015, 572 с.

192. Гуляев В.Г. Организация туристической деятельности. М., 1996, с.33.
193. Давид Р., Жоффре-Спинози К. Основные правовые системы современности. Пер. с фр. В.А.Туманова. – М.: Междунар. отношения, 1999, 400 с.
194. Дейвис Г. Право внутреннего рынка Европейского Союза. Учебное пособие / Перевод с английского М.Ю.Зарицкой К.: Знання-Прес, 2004, 422 с. – (Европейское право).
195. Дождев Д.В. Римское частное право. Учебник для юридических вузов и факультетов. – 2-е изд., изм. и доп. – М.: Издательская группа НОРМА-ИНФРА. М, 1999, 784 с.
196. Дубовик О.Л. Экологическое право. Учебник. – 2-е изд., переработ. и доп. – М.: ТК Велби, Изд-во Проспект, 2008, 688 с.
197. Ерпылева Н.Ю. Международное банковское право. Учебное пособие. М.: Дело, 2004, 480 с.
198. Ершова И.В. Предпринимательское право. Учебное пособие. М.: ИД «Юриспруденция», 2008, 368 с.
199. Жалинский А., Рёрихт А. Введение в немецкое право. – М.: Спарк, 2001, 767 с.
200. Жалинский А.Э. Современное немецкое уголовное право. М.: ТК Велби, Изд-во Проспект, 2006, 560 с.
201. Законодательство о торговле. Настольная книга руководителя торгового предприятия / Я.А.Куник, Э.П.Гаврилов, В.В.Котова и др. М.: Экономика, 1990, 399 с.
202. Захаров А.С.Налоговое право Европейского Союза: действуюшие директивы ЕС в сфере прямого налогообложения. М.: Волтерс Клувер, 2007, 144 с. (URL: http: //www.books.google.ru I).
203. Зенькович Н.А. Ильхам Алиев. Взгляд из Москвы. М.: Яуза, Эксмо, 2008, 512 с.
204. Иоффе О.С. Советское гражданское право. Курс лекций. II ч. Отдельные виды обязательств. Ленинград: Издательство Ленинградского университета, 1961, 532 с.
205. Карро Д., Жюйар П. Международное экономическое право. Учебник / Пер. с франц. В.П.Серебренникова, В.М.Шумилова. М.: Международные отношения, 2002, 608 с.
206. Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть первая (постатейный) / А.К. Губаева [и др.]; под ред. Н.Д.Егорова, А.П.Сергеева. 3-е изд., перераб. и доп.– М.: ТК Велби, Изд-во Проспект, 2005, 896 с.

207. Комментарий к Гражданскому кодексу Российской Федерации. В 2 т. Т.1. Части первая, вторая ГК РФ / Под ред. Т.Е.Абовой, А.Ю.Кабалкина; Ин-т государства и права РАН. – 2-е изд., перераб. и доп. – М.: Издательство Юрайт, 2009, 926 с. – (Профессиональные комментарии); Т.2. Части третья, четвертая ГК РФ / Под ред. Т.Е.Абовой, М.М.Богуславского, А.Г.Светланова. М.: 2009, 709 с.
208. Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой (постатейный). Руководитель авторского коллектива и ответственный редактор доктор юридических наук, профессор О.Н.Садиков. – М.: Юридическая фирма КОНТРАКТ; ИНФРА. М, 1997, – XXII, 778 с.; части второй (постатейный). Изд. 3-е, исп. и доп. – М.: Юридическая фирма КОНТРАКТ; ИНФРА. М, 1998, 799 с.
209. Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть вторoя (постатейный) / Е.Ю.Валявина [и др.]; под ред. А.П.Сергеева, Ю.К. Толстого. – М.: ТК Велби, Изд-во Проспект, 2005, 1088 с.
210. Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть третья (постатейный) / Отв. ред. Л.П.Ануфриева.– М.: Волтерс Клувер, 2004, 656 с.– (Серия «Библиотека профессионала).
211. Коммерческое право. Учебник / Под ред. В.Ф.Попондопуло, Н.В.Яковлевой. СПб., 1997, с.192.
212. Котлер Ф. Основы маркетинга. – М.: «Прогресс», 1990, 736 с.
213. Краткий англо-русский толковый словарь экономических и финансовых терминов. – М.: «Финансы и статистика», 1987, 112 с.
214. Краткий русско-английский терминологический словарь / Под ред. профессора Л.В.Котина. – М.: Совместное Советско-Британское предприятие «Слово», 1990, 48 с.
215. Крылова Н.Е., Леонтьев Б.М. Преступления в сфере экономической деятельности. Программа, лекции спецкурса, материалы судебной практики. Учебное пособие. М.: ИКД «Зерцало-М», 2012, 264 с.
216. Кузьмин Э.Л. Международное экономическое право. Учебное пособие / Отв.ред. К.А.Бекяшев. М.: ТК Велби, Изд-во Проспект, 2007, 200 с.

217. Курбатов А.Я. Банковское право России: учебник для бакалавриата и магистратуры / А.Я.Курбатов. 4-е изд., перераб. и доп. М.: Издательство Юрайт; ИД Юрайт, 2014, 565 с. – Серия: Бакалавр и магистр. Академический курс.
218. Лабин Д.К. Международное право по защите и поощрению иностранных инвестиций. М.: Волтерс Клувер, 2008, 336 с.
219. Ларичев В.Д. Преступления в сфере банковского кредитования и методика их предупреждения / В.Д.Ларичев, Д.Н.Иконников, И.Н.Борисов, М.С.О.Кязимов, А.В.Ольховская. М.: Издательство «Дело и Сервис», 2012, 272 с. – (Серия «Юридические консультации. Вып. 6/2011).
220. Леви Г. Европейское страховое право // Страховое право. М.: Анкил, 2001, № 3, с.58-89.
221. Лизинг: экономические, правовые и организационные основы. Учеб.пособие для вузов / Под ред. проф. А.М. Тавасиева, проф. Н.М.Коршунова. 3-е изд, перераб. и доп. М.: ЮНИТИ-ДАНА, 2004, 320 с.
222. Лунц А.А. Курс международного частного права: В 3 т. – М.: Спарк, 2002, 1007 с.
223. Лунц А.А., Марышева Н.И., Садиков О.Н. Международное частное право. Учебник. – М.: Юрид. лит., 1984, 336 с.
224. Марченко М.Н. Правовые системы современного мира. Учебное пособие. М.: ИКД «Зерцало-М», 2009, 528 с.
225. Международно-правовые основы борьбы с коррупцией и отмыванием преступных доходов. Сборник документов / Сост. В.С.Овчинский. М.: ИНФРА-М, 2009, 640 с.– (Высшее образование).
226. Международное транспортное право. Учебник / В.Н.Гречуха. М.: Издательство Юрайт, 2011, 474 с.
227. Международное частное право. Краткий курс / Под ред. доктора юридических наук Н.И.Марышевой. – М.: Юридическая фирма «КОНТРАКТ»; «ИНФА-М», 2003, 284 с. – (Серия «Высшее обрзование»).
228. Международное частное право. Учебник / Л.П.Ануфриева, К.А.Бекяшев, Г.К.Дмитриева и др.; отв.ред. Г.К.Дмитриева. 2-е изд., перераб. и доп. – М.: ТК Велби, Изд-во Проспект, 2004, 688 с.
229. Международное частное право: учебно-методический комплекс. В 2 книах. Кн.1/авт.-сост. Н.Ю.Ерпылева, М.Б.Касенова. – М.:

Издательство «Омега-Л», 2008, 734с. – (Высшее юридическое образование); Кн. 2, 2008, 855 с.
230. Международное экологическое право. Учебник / Отв.ред. Р.М.Валеев. М.: Статут, 2012, 639 с.
231. Меньшикова М.Н. Английские экономические термины. Справочник. – Новосибирск: «Наука», Сибирское отделение, 1983, 261 с.
232. Мехтиев Н.Г. Правовые формы международного сотрудничества государств в борьбе с уголовной преступностью. Баку: «Текнур», 2004, 226 с.
233. Мигель Педреро. Коррупция. Клоака власти: как и зачем нами манипулируют / Пер. с исп. Геннадия Сахацкого. М.: СТОЛИЦА-ПРИНТ, 2008, 320 с.
234. Минков А.М. Международная охрана интеллектуальной собственности. – СПб.: Питер, 2001, 720с.: ил.– (Серия «Закон и практика»).
235. Миришли Ф.Р.Мировая экономика. Учебник. М.: Полиграф, 2004, 470 с.
236. Мировая экономика. Учебник / Под ред. А.С.Булатова. М.: Юристь, 1999, 734 с.
237. Михайлова Н.С. Конкурентное право ЕС :учебное пособие по спецкурсу. М.: Издатель ПГУ, 2009, 143 с. (URL: http: //books.google.ru).
238. Муршудлу Ф.Ф. Банковское обслуживание внешнеэкономической деятельности Азербайджана в условиях финансовой глобализации. Монография. Баку: Издательский Дом «Шярг-Гярб», 2013 – ХВИ, 416 с.
239. Мэггс П.Б., Сергеев А.П. Интеллектуальная собственность. – М.: Юристь, 2000, 400 с.
240. Наку А.А. Таможенное право ЕС. Учебное пособие. М.: МГИМО, 2003, 76 с. (URL: http: //rt44-91.narod.ru/RT files/eu).
241. Ожегов С.И. Словарь русского языка. М.: «Русский язык», 1988, 750 с.
242. Орлова И.А. Институт разрешения споров в системе международного права. Монография. СПб.: СКФ «Россия-Нева», 2011, 199 с.
243. Оробинский В.В. Чему не учат на юрфаке: все части легендарной трилогии + новые главы. Ростов Н/Д: Феникс, 2016, 573 с. (Вершина успеха).

244. Основы внешнеэкономических знаний. Словарь-справочник. – М.: «Высшая школа», 1990, 432 с.
245. Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование. Руководитель авторского коллектива – доктор юридических наук В.В.Залесский. – М.: Издательство НОРМА, 1999, 648 с.
246. Основы советского гражданского права. Учеб.пособие для эконом. спец.вузов / С.П.Коломацкая, З.С.Котлярова, В.В.Котова и др.; Под ред. Я.А.Куника. – М.: Высш. шк., 1986, 383 с.
247. Перчик А.И. Трубопроводное право. М.: Нефть и газ, 2002, 368 с.
248. Петер Нобель. Швейцарское финансовое право и международные стандарты / Пер. с анг. М.: Волтерс Клувер, 2007, 1152 с.
249. Постатейный комментарий к части первой Гражданского кодекса Российской Федерации /Гуев А.Н.– М.: ИНФРА. М, 2000, 784 с.
250. Постатейный комментарий к Гражданскому кодексу Российской Федерации, частям первой, второй, третьей / Под ред. Т.Е.Абовой, М.М.Богуславского, А.Ю.Кабалкина, А.Г.Лисицына-Светланова; Ин-т гсударства и права РАН. – М.: Юрайт-Издат, 2008, 1038 с. – (Профессиональные комментарии).
251. Правила торговли. М.: Проспект, 2014, 80 с.
252. Правовые системы стран мира. Энциклопедический справочник / Отв. ред. А.Я.Сухарев. 2-е изд., изм. и доп. М.: Издательство НОРМА (издательская группа НОРМА: ИНФРА-М), 2001, 840 с.
253. Право Европейского Союза: правовое регулирование торгового оборота. Учебное пособие / Под ред. В.В.Безбаха, А.Я.Капустина, В.К.Пучинского. М.: Издательство ЗЕРЦАЛО, 1999, 400 с.
254. Предпринимательское право. Курс лекций / Под ред. Н.И.Клейн. М.: Юрид.лит., 1993, 480 с.
255. Предпринимательское право. Серия «Учебники и учебные пособия» / Отв. ред. С.А. Зинченко, Г.И.Колесник. Ростов н/Д, «Феникс», 2003, 640 с.
256. Предпринимательское (хозяйственное) право. Учебник. В 2т. Т.1 / Отв. ред. О.М.Олейник. М.: Юристь, 1999, 727 с.
257. Протас Е.В. Гражданское право: Учебник /Е.Б. Протас. – М.: Высш. шк., 2005, 339 с.
258. Пугинский Б.И. Комерческое право России. Учебник. – 4-е изд., перераб. и доп. –М.: Издательство Юрайт; Юрайт-Издат, 2010, 354 с. – (Основы наук).

259. Пугинский Б.И., Сафиуллин Д.Н. Правовая экономика: проблемы становления. М.: Юрид. лит., 1991, 240 с.
260. Пухан Иво, Поленак-Акимовская Мирьяна. Римское право (базовый учебник). Перевод с македонского д.ю.н. проф. В.А.Томсинова и Ю.В.Филиппова / Под ред. проф. В.А.Томсинова. – М.: Издательство ЗЕРЦАЛО, 2000, 448 с.
261. Рассолов И.М. Информационное право. Учебник для магистров. 2-е издание, исправленное и дополненное. М.: Издательство Юрайт, 2012, 444 с.
262. Римское частное право. Учебник / Под ред. проф. И.Б.Новицкого и проф. И.С.Перетерского. – М.: Юристь, 1999, 544 с.
263. Розенберг М.Г. Международный договор и иностранное право в практике Международного коммерческого арбитражного суда. 2-е изд., перераб. и доп. М.: «Статут», 2000, 304 с.
264. Розенберг М.Г. Международная купля-продажа товаров. Коментарий к правовому регулированию и практике разрешения споров. Изд. 2-е, испр. (2-й завод). М.: «Статут», 2004, 352 с.
265. Савичев Г.П. Договор воздушной перевозки (лекция для студентов юридических факультетов госуниверситетов). М.: Издательство Московского Университета, 1963, 80 с.
266. Савичев Г.П. Правовое регулирование перевозок народно-хозяйственных грузов. М.: Издательство Московского университета, 1986, 152 с.
267. Саидов А.Х. Межпарламентские организации мира. Справочник. М.: Междунар.отношения, 2004, 352 с.
268. Санфилиппо Чезаре. Курс римского частного права. Учебник. Перевод с итальянского / Под ред. Д.В.Дождева. М.: Издательство БЕК, 2002, 400 с.
269. Сарбаш С.В. Договор банковского счета: проблемы доктрины и судебной практики. – М.: «Статут», 1999, 272 с.
270. Сергеев А.П. Право интеллектуальной собственности в Российской Федерации. Учебник. Издание второе, переработанное и дополненное. – М: «ПРОСПЕКТ», 1999, 752 с.
271. Синайский В.И. Русское гражданское право. М.: «Статут», 2002, 638 с. (Классика российской цивилистики).
272. Скловский К.И. Собственность в гражданском праве. Учебно-практическое пособие. – М.: Дело, 1999, 512с.

273. Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, 432 с.
274. Советское гражданское право. Учебник. В 2-х томах. Т.2/Верб С.А., Добрынин Ю.Е., Илларионова Т.И. и др.; Под ред. О.А.Красавчикова. – 3-е изд., испр. и доп. – М.: Высш. шк., 1985, 544 с.
275. Советское гражданское право. Учебник / Ответственный редактор-доктор юридических наук, проф. О.Н.Садиков. – М.: Юрид.лит., 1983, 464 с.
276. Советское гражданское право. Учебник. Т. 2 / Ответственные редакторы: доктор юридических наук, профессор Грибанов В.П., доктор юридических наук, профессор Корнеев С.М. – М.: Юрид.лит., 1980, 512 с.
277. Сосна С.А., Васильева Е.Н. Франчайзинг. Коммерческая концессия. М.: ИКЦ «Академкнига», 2005, 375 с.
278. Спирин И.В. Автотранспортное право. Учебник для студ. учреждений сред. проф. образования / Иосиф Васильевич Спирин. – М.: Издательский центр «Академия», 2005, 304 с.
279. Судариков С.А. Авторское право. Учебник. – М.: Проспект, 2009, 464 с.
280. Судебная практика по гражданским делам / Сост. Г.А.Стрельников. – М.: Юриспруденция, 2001, 432 с.
281. Судебные речи известных русских юристов: сборник / вступительная статья Г.М. Резника. – М.: Издательство Юрайт, 2011, 695 с. – (Антология юридической мысли).
282. Таможенное право. Учебное пособие / Под ред. В.Г.Драганова, М.М.Рассолова. М.: ЮНИТИ-ДАНА, 2001, 639 с. Серия «Dura lex, sed lex».
283. Тарасенко О.А., Хоменко Е.Г. Банковское право: учебник для бакалавров. М.: Проспект, 2013, 424 с.
284. Титова Н.Е., Кожаев Ю.П. Деньги, кредит, банки. Учебное пособие. М.: «Владос», 2003, 352 с.
285. Тотьев К.Ю. Конкурентное право (правовое регулирование конкуренции). Учебник. М.: Издательство РДЛ, 2000, 352 с. (URL:http:/www.mylawsuit.ru/¬_id/0/45_59 0882.pdf).
286. Тулеугалиев Г.И. Избанные труды по транспортному праву. Алматы: НИИ частного права КазГЮУ, 2003, с. 489.

287. Тунк-Федорова М.П. Разрешение споров в рамках Всемирной торговой организации. – СПб.: Издательский Дом С. – Петерб. гос.ун-та, Издательство юридического факультета С. –Петерб. гос.ун-та, 2005, 312 с. – (Серия «Сравнительное правоведение»).
288. Тынель А., Функ Я., Хвалей В. Курс международного торгового права. Минск: Амалфея, 2000, 704 с.
289. Тэор Т.Р. Мировая экономика. Учебное пособие. СПб.: Питер, 2002, 224 с.
290. Финансовое право: учебное пособие / Под ред. М.В.Кустовой и Н.А.Шевелевой. СПб.: Питер, 2014, 320 с.
291. Финансово-кредитный словарь. Т.1,2,3. – М.: «Финансы и статистика», 1988.
292. Фомичев В.И.Международная торговля. Учебник. 2-е изд., перераб. и доп. М.: ИНФРА-М, 2001, 446 с. (Серия «Высшее образование»).
293. Халафов Х.А. Международные экономические организации в системе международно-правового регулирования. Баку: Ширваннешр, 2005, 168 с.
294. Холопов К.В. Международное частное транспортное право. Анализ норм международного и российского транспортного права. Учебное пособие. М.: Статут, 2010, 702 с.
295. Шершеневич Г.Ф. Учебник торгового права / по изданию 1914 г. М.: Фирма «СПАРК», 1994, 335 с.
296. Шмиттгофф К. Экспорт: право и практика международной торговли / Отв. ред. А.С.Комаров. М.: Юридическая литература, 1993, 512 с.
297. Шумилов В.М. Международное финансовое право. Учебник. М.: Международные отношения, 2005, 432 с.
298. Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М.: Международные отношения, 2003, 272 с.
299. Шумилов В.М. Международное экономическое право. Учебник. Изд. 3-е, переработ. и доп. – Ростов н/Д: изд.-во «Феникс», 2003, 512 с. (Серия «Высшее образование»).
300. Эбке В.Ф. Международное валютное право. М.: ИМО, 1996, 240 с.
301. Экономика и организация внешнеторговых перевозок. Учебник / Под ред. К.В.Холопова. М.: Юристь, 2000, 684 с.
302. Экономическая теория. Учебник / Под общ. ред.акад. В.И.Видяпина, А.И.Добрынина, Г.П.Журавлевой, Л.С.Тарасевича. М.: ИНФРА-М, 2002, 714 с. – (Серия «Высшее образование»).

303. Энергетическое право ЕС. Учебно-методический комплекс / Колл.авт. Селиверстов С.С., Мальгин А.В., Соколова А.В., Гудков И.В. М.: МГИМО, 2009.–(URL:http://www.mgimo.ru/news/inno/document119496.phtml).
304. Эфендиев О.Ф., Алиев Э.А. Внешнеэкономическая деятельность современного Азербайджана. Учебное пособие. Баку: «Зардаби ЛТД» 000, 2007, 328 с.
305. Эфендиев О.Ф. Международно-правовое регулирование экономи-ческого сотрудничества государст в транспортной сфере. М.: АДС Групп, 2011, 94 с.
306. Эфендиев О.Ф. Новый международный экономический порядок в Мировом океане. М.: МФИ, 1989, 42 с.
307. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, 972 с.
308. Юридический энциклопедический словарь / Гл. ред.: А.Я.Сухарев; Ред.кол.: М.М.Богуславский, М.И.Козырь, Г.М.Миньковский и др. – М.: Сов.энциклопедия, 1984, 415 с.
309. Ярышев С.Н.Единое экономическое пространство в системе международного экономического права. М.: Издательский дом Юрис Пруденс, 2010, 221 с.
310. Aliyev E.A. International legal regulation of traffic and national legislation. Textbook. Baku: Huquq edebiyyati, 2003, 256 p.
311. Aliyev E.A. International Transport Law. Textbook. Baku: «Уни-Принт» printing-house, 2013, 652 p.
312. Aliyev E.A. Transporto Internazionale Pipeline: Aspetti Giurиdиси // Italian Science Review, 2014, 5(14), PP 82-88.–7 сящ. (URL:http:www.ias-journal.org/archive/2014/may/Reut.pdf).
313. C.T.Horngren, G.L.Sundem. Introduction to FLNANCIAL ACCOUNTING 3rd Edition. Prentice-Hall International, Inc, 1987.
314. Marek Zylicz. International Air Transport Law. Dordrecht /Boston/ London: Martinus Nijhoff Rublishers, 1992, 254 p.

### 4) elektron informasiya mənbələri (URL – Uniform Resourse Locator) rus dilində

315. www.agro.gov.az – agro@azerin.com
316. www.azerisigorta@azeriro.net

317. www.azstand.gov.az – azs@azstand.gov.az
318. www.azstat.org – sc@azstat.org
319. www.az-customs.az – externall@az-customs.net
320. www.cabmin.gov.az – nk@cabmin.gov.az
321. www.cels.law.cam.ac.uk – Üentr evropeyskix pravovıx issledovaniy Kembridjskoqo universiteta
322. www.cis.solo.by – ofiüialğnıy sayt İspolkom SNQ
323. www.consilium.europa.eu – Sovet Evropeyskoqo Soöza
324. www.constitutional.courtz.org
325. www.contact@supremecourt.gov.az
326. www.culture.az – mst@mst.gov.az
327. www.customs.gov.az
328. www.dtxk.gov.az – torpagcartograf@mail.ru
329. www.echr.coe.int – ofiüialğnıy sayt ESPÇ
330. www.eclaw.ru – İnstitut evropeyskoqo prava MQİMO (U)
331. www.eco.gov.az – ecologiya.nazirliyi@cmail.com
332. www.economy.gov.az – office@economy.gov.az
333. www.eiop.or.at – evropeyskaə dokumentaüiə v İnternete
334. www.eisil.org – glektronnaə spravoçnaə sistema po mejdunarodnomu pravu
335. www.emdk.gov.az
336. www.e-qanun.az
337. www.eulaw.edu.ru – kafedra prava Evropeyskoqo Soöza MQÖA
338. www.gtm@ibar.az
339. www.huquqiaktlar.gov.az
340. www.icc.cpi.int – ofiüialğnıy sayt Mejdunarodnoqo uqolovnoqo suda
341. www.inter.dept@constitutional-court-az.org
342. www.justice.gov.az – contakt@justice.gov.az
343. www.mail@nba.az
344. www.mail@tender.gov.az
345. www.maliyye.gov.az – info@maliyye.gov.az
346. www.mdi.gov.az – info@mdi.gov.az
347. www.meclis.gov.az
348. www.mfa.gov.az – secretariat@mfa.gov.az
348. www.mia.gov.az – info@mia.gov.az
350. www.mie.gov.az – mfe@azdata.net
351. www.mil.marxiv@azintekx.com

352. www.mincom.gov.az – info@mincom.gov.az
353. www.min.edu.az – office@edu.gov.az
354. www.mlspp.gov.az
355. www.mot.gov.az
356. www.mys.gov.az – mys@mys.gov.az
357. www.osce.ru – ofiüialğnıy sayt Orqanizaüii po bezopasnosti i sotrudniçestvu v Evrope
358. www.pa.edu.az
359. www.scs.gov.az – info@fes.gov.az
360. www.stateproperty.gov.az – office@stateproperty.gov.az
361. www.taxes.gov.az – head@taxes.gov.az
362. www.un.org – ofiüialğnıy sayt Orqanizaüii Obcedinennıx Naüiy və s.

**M Ü N D Ə R İ C A T**

ÖN SÖZ........................................................................................**4**

***ÜMUMİ HİSSƏ.***
**İQTİSADİ HÜQUQ HAQQINDA ÜMUMİ MÜDDƏALAR**

***I FƏSİL.***
**İQTİSADİ HÜQUQ – MÜSTƏQİL HÜQUQ SAHƏSİ KİMİ**

**1.1.** İqtisadi hüququn məzmunu və mahiyyəti..................................**8**
**1.1.1.** İqtisadi hüquq anlayışı.............................................................**8**
**1.1.2.** İqtisadi hüququn nizamasalma predmeti...................................**11**
**1.1.3.** İqtisadi hüququn tənzimetmə metodu........................................**14**
**1.1.4.** Hüquq sistemində iqtisadi hüququn tutduğu yer.......................**16**
**1.2.** İqtisadi hüququn sistemi.............................................................**22**
**1.2.1.** İqtisadi hüququn sistemi anlayışı və onun əhəmiyyəti............**22**
**1.2.2.** İqtisadi hüququn ümumi hissəsi................................................**24**
**1.2.3.** İqtisadi hüququn xüsusi hissəsi................................................**25**
**1.2.4.** Digər hüquq sahələri ilə iqtisadi hüququn əlaqəsi....................**28**
I FƏSİL ÜZRƏ ƏYANİ SXEM.......................................................**30**

***II FƏSİL.***
**İQTİSADİ HÜQUQUN PRİNSİPLƏRİ, MƏNBƏLƏRİ VƏ SUBYEKTLƏRİ**

**2.1.** İqtisadi hüququn sahəvi prinsipləri.............................................**31**
**2.1.1.** İqtisadi hüququn sahəvi prinsiplərinin anlayışı........................**31**
**2.1.2.** İqtisadi hüququn sahəvi prinsiplərinin əhəmiyyəti...................**33**
**2.1.3.** İqtisadi hüququn sahəvi prinsiplərinin məzmunu......................**35**
**2.2.** İqtisadi hüququn mənbələri.........................................................**39**
**2.2.1.** İqtisadi hüququn mənbələri anlayışı..........................................**39**
**2.2.2.** İqtisadi hüququn mənbə növləri................................................**41**
**2.2.3.** İqtisadi hüququn ayrı-ayrı mənbə növləri..................................**44**
**2.2.3.1.** Normativ hüquqi aktlar – iqtisadi hüququn əsas mənbə növü kimi.......................................................................................**44**

**2.2.3.2.** İşgüzar dövriyyə adətləri – iqtisadi hüququn mənbəyi qismində........**47**
**2.2.3.3.** Beynəlxalq müqavilələr – iqtisadi hüququn mənbəyi kimi...**49**
**2.3.** İqtisadi hüququn subyektləri........**50**
**2.3.1.** İqtisadi hüquq subyektlərinin anlayışı, ümumi əlamətləri və növləri........**50**
**2.3.1.1.** İqtisadi hüququn subyektləri anlayışı........**50**
**2.3.1.2.** İqtisadi hüquq subyektlərinin ümumi əlamətləri........**54**
**2.3.1.3.** İqtisadi hüquq subyektlərinin hüquqi təsnifi........**59**
**2.3.2.** İqtisadi hüquq subyektlərinin ayrı-ayrı növlərinin hüquqi vəziyyəti........**61**
**2.3.2.1.** İqtisadi hüququn subyekti kimi fiziki şəxslərin hüquqi vəziyyəti........**61**
**2.3.2.2.** İqtisadi hüququn subyekti kimi hüquqi şəxslərin hüquqi vəziyyəti........**63**
**2.3.2.3.** İqtisadi hüququn subyekti kimi dövlətin hüquqi vəziyyəti **68**
**2.3.2.4.** İqtisadi hüququn subyekti kimi bələdiyyələrin hüquqi vəziyyəti........**71**
II FƏSİL ÜZRƏ ƏYANİ SXEM........**74**

## *III FƏSİL.*
## İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ HÜQUQU

**3.1.** İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ – iqtisadi hüququn institutu kimi........**75**
**3.1.1.** İqtisadiyyatın dövlət tənzimlənməsi hüququ anlayışı........**75**
**3.1.2.** İqtisadi hüquq sistemində iqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun yeri........**77**
**3.1.3.** İqtisadiyyatın dövlət tənzimlənməsi hüququnun prinsipləri....**81**
**3.2.** İqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələri, növləri, forma və üsulları........**84**
**3.2.1.** İqtisadiyyatın dövlət tənzimlənməsi vasitələri........**84**
**3.2.2.** İqtisadiyyatın dövlət tənzimlənməsinin növləri........**85**
**3.2.3.** İqtisadiyyatın dövlət tənzimlənməsinin üsulları........**86**
**3.2.4.** İqtisadiyyata dövlət nəzarəti........**88**
**3.2.5.** İqtisadiyyatın dövlət tənzimlənməsinin forması........**90**
III FƏSİL ÜZRƏ ƏYANİ SXEM........**91**

## *IV FƏSİL.*
## İQTİSADİ HÜQUQ – ELM VƏ TƏDRİS FƏNNİ KİMİ


**4.1.** İqtisadi hüquq elmi....................................................................**92**
**4.1.1.** İqtisadi hüquq çoxmənalı anlayış kimi......................................**92**
**4.1.2.** İqtisadi hüquq elminin anlayışı..................................................**94**
**4.1.3.** İqtisadi hüquq elminin tədqiqetmə predmeti..............................**96**
**4.2.** İqtisadi hüquq tədris fənni............................................................**98**
**4.2.1.** İqtisadi hüquq tədris fənninin anlayışı.......................................**98**
**4.2.2.** İqtisadi hüquq tədris fənninin öyrətmə predmeti və sistemi.....**100**
IV FƏSİL ÜZRƏ ƏYANİ SXEM......................................................**102**


## *V FƏSİL.*
## İQTİSADİ-HÜQUQ MÜNASİBƏTİ


**5.1.** İnzibati tənzimetmə mexanizmində iqtisadi-hüquq münasibətinin rolu..........................................................................................**103**
**5.1.1.** İqtisadi-hüquq münasibəti anlayışı............................................**103**
**5.1.2.** İqtisadi-hüquq münasibətinin xüsusiyyətləri..............................**105**
**5.2.** İqtisadi-hüquq münasibətinin quruluşu.........................................**108**
**5.2.1.** İqtisadi-hüquq münasibətinin quruluşu anlayışı.........................**108**
**5.2.2.** İqtisadi-hüquq münasibətinin subyektləri...................................**108**
**5.2.3.** İqtisadi-hüquq münasibətinin məzmunu....................................**112**
**5.2.4.** İqtisadi-hüquq münasibətinin obyekti........................................**115**
**5.2.5.** İqtisadi-hüquq münasibətinin növləri.........................................**117**
V FƏSİL ÜZRƏ ƏYANİ SXEM.........................................................**120**


## *VI FƏSİL.*
## İQTİSADİ FƏALİYYƏT HÜQUQU


**6.1.** İqtisadi hüquq sistemində iqtisadi fəaliyyət hüququnun yeri.......**121**
**6.1.1.** İqtisadi fəaliyyət hüququ anlayışı..............................................**121**
**6.1.2.** İqtisadi fəaliyyət hüququnun nizamasalma predmeti................**123**
**6.2.** İqtisadi fəaliyyət hüququnun subyektləri, prinsipləri və mənbələri..................................................................................................**125**
**6.2.1.** İqtisadi fəaliyyət hüququnun subyektləri...................................**125**
**6.2.2.** İqtisadi fəaliyyət hüququnun prinsipləri....................................**128**

**6.2.3.** İqtisadi fəaliyyət hüququnun mənbələri....................................**131**
**6.3.** İqtisadi fəaliyyət hüququ subyektlərinin növləri, yaranma, yenidən təşkil olunma və ləğv edilmə qaydası..............................**133**
**6.3.1.** İqtisadi fəaliyyət hüququ subyektlərinin növləri.......................**133**
**6.3.2.** İqtisadi fəaliyyət hüququ subyektlərinin yaradılması................**135**
**6.3.3.** İqtisadi fəaliyyət hüququ subyektlərinin lisenziya almaları......**138**
**6.3.4.** İqtisadi fəaliyyət hüququ subyektlərinin yenidən təşkili..........**142**
**6.3.5.** İqtisadi fəaliyyət hüququ subyektlərinin ləğvi..........................**145**
VI FƏSİL ÜZRƏ ƏYANİ SXEM....................................................**148**

## *VII FƏSİL.*
## İQTİSADİ FƏALİYYƏTİN HÜQUQİ VASİTƏSİ İNSTİTUTU

**7.1.** İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutu– iqtisadi hüququn struktur elementi kimi...................................................................**149**
**7.1.1.** İqtisadi fəaliyyətin hüquqi vasitəsi institutunun anlayışı..........**149**
**7.1.2.** Müqavilələr – iqtisadi fəaliyyətin həyata keçirilməsinin hüquqi vasitəsi kimi..................................................................**151**
**7.1.3.** Müqavilə hüquq institutunun mənbələri...................................**153**
**7.2.** İqtisadi xarakterli müqavilələr.....................................................**155**
**7.2.1.** İqtisadi xarakterli müqavilələrin hüquqi təsnifi........................**155**
**7.2.2.** İqtisadi xarakterli müqavilələrin ayrı-ayrı növlərinin qısa xarakteristikası.....................................................................................**157**
VII FƏSİL ÜZRƏ ƏYANİ SXEM....................................................**162**

## *VIII FƏSİL.*
## DÖVLƏT ƏMLAKINI ÖZƏLLƏŞDİRMƏ HÜQUQU

**8.1.** Dövlət əmlakını özəlləşdirmə hüququ – iqtisadi hüququn institutu kimi..........................................................................................**163**
**8.1.1.** Dövlət əmlakını özəlləşdirmə hüququ anlayışı.........................**163**
**8.1.2.** Özəlləşdirmə hüququnun nizamasalma predmeti......................**167**
**8.2.** Dövlət əmlakını özəlləşdirmə hüqununun mənbələri və prinsipləri..........................................................................................**171**
**8.2.1.** Dövlət əmlakını özəlləşdirmə hüququnun mənbələri...............**171**
**8.2.2.** Dövlət əmlakını özəlləşdirmə hüququnun prinsipləri...............**174**
**8.3.** Özəlləşdirmənin məqsədləri, həyata keçirilmə qaydası və üsulları.........................................................................................**176**

**8.3.1.** Özəlləşdirmənin məqsədləri....................................................**176**
**8.3.2.** Özəlləşdirmənin həyata keçirilmə qaydası..............................**178**
**8.3.3.** Dövlət əmlakını özəlləşdirmə üsulları.......................................**181**
VIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM...................................................**185**

## *IX FƏSİL.*
## İQTİSADİ HÜQUQDA MƏSULİYYƏT

**9.1.** İqtisadi fəaliyyət sferasında məsuliyyət.......................................**186**
**9.1.1.** Məsuliyyət hüququ – iqtisadi hüququn institutlarından biri kimi...............................................................................................**186**
**9.1.2.** Məsuliyyət hüququnun nizamasalma predmeti........................**189**
**9.2.** Məsuliyyət hüququnun subyektləri, mənbələri və prinsipləri.....**191**
**9.2.1.** Məsuliyyət hüququnun subyektləri............................................**191**
**9.2.2.** Məsuliyyət hüququnun mənbələri..............................................**192**
**9.2.3.** Məsuliyyət hüququnun prinsipləri.............................................**194**
**9.3.** İqtisadi hüquqda məsuliyyətin əsası və şərtləri...........................**197**
**9.3.1.** İqtisadi hüquqda məsuliyyətin növləri......................................**197**
**9.3.2.** İqtisadi hüquqda məsuliyyətin əsası..........................................**200**
**9.3.3.** İqtisadi hüquqda məsuliyyətin şərtləri.......................................**201**
IX FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....................................................**203**

## *X FƏSİL.*
## İQTİSADİ MÜBAHİSƏLƏRİN HƏLLİ HÜQUQU

**10.1.** İqtisadi mübahisələrin həlli hüququ – iqtisadi hüququn institutu kimi.....................................................................................**204**
**10.1.1.** İqtisadi mübahisələrin həlli hüququnun anlayışı....................**204**
**10.1.2.** İqtisadi mübahisələrin həlli hüququnun nizamasalma predmeti........................................................................................**205**
**10.2.** İqtisadi mübahisələrin həlli hüququnun mənbələri və prinsipləri.........................................................................................**207**
**10.2.1.** İqtisadi mübahisələrin həlli hüququnun mənbələri.................**207**
**10.2.2.** İqtisadi mübahisələrin həlli hüququnun prinsipləri.................**210**
**10.3.** İqtisadi mübahisələr üzrə məhkəmə icraatının qaydası.............**212**
**10.3.1.** İddianın verilməsi...................................................................**212**
**10.3.2.** İqtisadi mübahisələrə baxılma prosesinin digər mərhələləri..**213**
**10.3.3.** Beynəlxalq arbitraj.................................................................**214**
X FƏSİL ÜZRƏ ƏYANİ SXEM.......................................................**218**

## *XÜSUSİ HİSSƏ.*
## İQTİSADİ HÜQUQUN YARIMSAHƏLƏRİ

### *XI FƏSİL.*
### MALİYYƏ HÜQUQU

**11.1.** Maliyyə hüququ–iqtisadi hüququn tərkib hissəsi kimi...............**219**
**11.1.1.** Maliyyə hüququ anlayışı......................................................**219**
**11.1.2.** Maliyyə hüququnun nizamasalma predmeti............................**221**
**11.2.** Maliyyə hüququnun subyektləri, mənbələri və prinsipləri........**222**
**11.2.1.** Maliyyə hüququnun subyektləri............................................**222**
**11.2.2.** Maliyyə hüququnun mənbələri..............................................**224**
**11.2.3.** Maliyyə hüququnun özünəməxsus prinsipləri........................**226**
**11.2.4.** İqtisadi hüquq sistemində maliyyə hüququnun tutduğu yer....**228**
**11.2.5.** Maliyyə nəzarəti hüququ.......................................................**229**
**11.3.** Maliyyə hüququnun xüsusi hissəsi............................................**231**
**11.3.1.** Büdcə hüquq institutu...........................................................**231**
**11.3.2.** Dövlət büdcə gəlirləri hüquq institutu....................................**235**
**11.3.3.** Dövlət büdcə xərcləri hüquq institutu....................................**236**
**11.3.4.** Yerli büdcə hüquq institutu....................................................**238**
XI FƏSİL ÜZRƏ ƏYANİ SXEM........................................................**240**

### *XII FƏSİL.*
### VALYUTA HÜQUQU

**12.1.** Valyuta hüququ – iqtisadi hüququn yarımsahəsi kimi...............**241**
**12.1.1.** Valyuta hüququ anlayışı........................................................**241**
**12.1.2.** Valyuta hüququnun nizamasalma predmeti............................**244**
**12.1.3.** İqtisadi hüquq sistemində valyuta hüququnun tutduğu yer.....**247**
**12.2.** Valyuta hüququnun mənbələri, prinsipləri və subyektləri.........**249**
**12.2.1.** Valyuta hüququnun mənbələri...............................................**249**
**12.2.2.** Valyuta hüququnun özünəməxsus prinsipləri.........................**251**
**12.2.3.** Valyuta hüququnun subyektləri.............................................**254**
**12.3.** Valyuta siyasətinin həyata keçirilmə vasitələri.........................**257**
**12.3.1.** Valyuta tənzimetməsi............................................................**257**
**12.3.2.** Valyuta nəzarəti...................................................................**262**
XII FƏSİL ÜZRƏ ƏYANİ SXEM......................................................**264**

## *XIII FƏSİL.*
## SAHİBKARLIQ HÜQUQU


**13.1.** Sahibkarlıq hüququ – iqtisadi hüququn tərkib hissəsi kimi.......**265**
**13.1.1.** Sahibkarlıq hüququ anlayışı....................................................**265**
**13.1.2.** Sahibkarlıq hüququnun nizamasalma predmeti.......................**267**
**13.2.** Sahibkarlıq hüququnun subyektləri, prinsipləri və mənbələri...**272**
**13.2.1.** Sahibkarlıq hüququnun subyektləri........................................**272**
**13.2.2.** Sahibkarlıq hüququnun özünəməxsus prinsipləri....................**274**
**13.2.3.** Sahibkarlıq hüququnun mənbələri..........................................**277**
**13.2.4.** İqtisadi hüquq sistemində sahibkarlıq hüququnun yeri...........**280**
**13.3.** Sahibkarlıq fəaliyyətinin hüquqi əsasları..................................**282**
**13.3.1.** Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi...........................**282**
**13.3.2.** Sahibkarlıq subyektlərinin yaradılması...................................**283**
**13.3.3.** Sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması........................**287**
XIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM....................................................**290**


## *XIV FƏSİL.*
## BANK HÜQUQU


**14.1.** İqtisadi hüquq sistemində bank hüququnun yeri........................**291**
**14.1.1.** Bank hüququ anlayışı..............................................................**291**
**14.1.2.** Bank hüququnun nizamasalma predmeti.................................**293**
**14.2.** Bank hüququnun subyektləri, mənbələri və prinsipləri.............**296**
**14.2.1.** Bank hüququnun subyektləri..................................................**296**
**14.2.2.** Bank hüququnun mənbələri....................................................**298**
**14.2.3.** Bank hüququnun özünəməxsus prinsipləri.............................**301**
**14.3.** Bank kredit təşkilatları bank hüququnun əsas subyekti qismində.......................................................................................**304**
**14.3.1.** Bank kredit təşkilatlarının yaradılması...................................**304**
**14.3.2.** Bank kredit təşkilatlarını idarəetmə.......................................**307**
**14.3.3.** Bank kredit təşkilatlarının fəaliyyəti......................................**309**
**14.3.4.** Bankların fəaliyyətinə xitam verilməsi...................................**310**
XIV FƏSİL ÜZRƏ ƏYANİ SXEM.....................................................**315**


## *XV FƏSİL.*
## SIĞORTA HÜQUQU


**15.1.** Sığorta hüququ – iqtisadi hüququn yarımsahələrindən biri kimi......................................................................................................**316**

**15.1.1.** Sığorta hüququ anlayışı........................................................**316**
**15.1.2.** Sığorta hüququnun nizamasalma predmeti.............................**319**
**15.2.** Sığorta hüququnun subyektləri, mənbələri və prinsipləri..........**322**
**15.2.1.** Sığorta hüququnun subyektləri.............................................**322**
**15.2.2.** Sığorta hüququnun mənbələri................................................**324**
**15.2.3.** Sığorta hüququnun özünəməxsus prinsipləri..........................**326**
**15.3.** Sığorta fəaliyyətini həyata keçirməyin hüquqi vasitəsi............**330**
**15.3.1.** Sığorta müqaviləsi – sığorta fəaliyyətinin həyata keçirilməsinin hüquqi vasitəsi kimi....................................................**330**
**15.3.2.** Sığortanın forma və növləri...................................................**332**
XV FƏSİL/ ÜZRƏ ƏYANİ SXEM..................................................**336**

### *XVI FƏSİL.*
### İNVESTİSİYA HÜQUQU

**16.1.** İqtisadi hüquq sistemində investisiya hüququnun tutduğu yer...**337**
**16.1.1.** İnvestisiya hüququ anlayışı...................................................**337**
**16.1.2.** İnvestisiya hüququnun nizamasalma predmeti........................**338**
**16.2.** İnvestisiya hüququnun mənbələri, prinsipləri və subyektləri....**343**
**16.2.1.** İnvestisiya hüququnun mənbələri...........................................**343**
**16.2.2.** İnvestisiya hüququnun özünəməxsus prinsipləri.....................**346**
**16.2.3.** İnvestisiya hüququnun subyektləri.........................................**349**
**16.3.** İnvestisiya hüququ ilə nizama salınan məsələlər.......................**352**
**16.3.1.** İnvestisiya fəaliyyətinin həyata keçirilməsi............................**352**
**16.3.2.** İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi.......................**354**
**16.3.3.** Xarici investisiya...................................................................**358**
XVI FƏSİL ÜZRƏ ƏYANİ SXEM..................................................**360**

### *XVII FƏSİL.*
### XARİCİ İQTİSADİ FƏALİYYƏT HÜQUQU

**17.1.** Xarici iqtisadi fəaliyyət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi..........................................................................**361**
**17.1.1.** Xarici iqtisadi fəaliyyət hüququ anlayışı.............................**361**
**17.1.2.** Xarici iqtisadi fəaliyyət hüququnun nizamasalma predmeti...**362**
**17.2.** Xarici iqtisadi fəaliyyət hüququnun subyektləri, mənbələri və prinsipləri.......................................................................**363**
**17.2.1.** Xarici iqtisadi fəaliyyət hüququnun subyektləri.....................**363**

**17.2.2.** Xarici iqtisadi fəaliyyət hüququnun mənbələri......................**364**
**17.2.3.** Xarici iqtisadi fəaliyyət hüququnun özünəməxsus prinsip-ləri..........................................................................................**367**
**17.3.** Xarici iqtisadi fəaliyyəti dövlət tənzimetməsi..........................**369**
**17.3.1.** Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi..........**369**
**17.3.2.** Xarici iqtisadi fəaliyyətin qeyri-tarif tənzimlənməsi.............**371**
**17.3.3.** Xarici iqtisadi fəaliyyətin lisenziyalaşdırılması......................**373**
XVII FƏSİL ÜZRƏ ƏYANİ SXEM................................................**375**

## *XVIII FƏSİL.*
## NƏQLİYYAT HÜQUQU

**18.1.** Nəqliyyat hüququnun anlayışı, nizamasalma predmeti və hüquq sistemində tutduğu yer..................................................**376**
**18.1.1.** Nəqliyyat hüququ anlayışı.....................................................**376**
**18.1.2.** Nəqliyyat hüququnun nizamasalma predmeti.........................**377**
**18.1.3.** İqtisadi hüquq sistemində nəqliyyat hüququnun tutduğu yer..**379**
**18.2.** Nəqliyyat hüququnun institutları, mənbələri və subyektləri......**380**
**18.2.1.** Nəqliyyat hüququnun institutları............................................**380**
**18.2.2.** Nəqliyyat hüququnun mənbələri............................................**381**
**18.2.3.** Nəqliyyat hüququnun subyektləri..........................................**385**
**18.2.4.** Nəqliyyat hüququnun özünəməxsus prinsipləri.....................**386**
**18.3.** Nəqliyyat hüququnun ayrı-ayrı institutları..............................**388**
**18.3.1.** Hava nəqliyyatı hüququ.........................................................**388**
**18.3.2.** Avtomobil nəqliyyatı hüququ.................................................**392**
**18.3.3.** Dəniz nəqliyyatı hüququ.......................................................**396**
**18.3.4.** Dəmir yolu nəqliyyatı hüququ...............................................**402**
**18.3.5.** Su (çay) nəqliyyatı hüququ....................................................**406**
**18.3.6.** Boru kəmər nəqliyyat hüququ...............................................**408**
XVIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM...............................................**413**

## *XIX FƏSİL.*
## RƏQABƏT HÜQUQU

**19.1.** İqtisadi hüquq sistemində rəqabət hüququnun yeri....................**414**
**19.1.1.** Rəqabət hüququ anlayışı........................................................**414**
**19.1.2.** Rəqabət hüququnun mənbələri..............................................**416**
**19.1.3.** Rəqabət hüququnun özünəməxsus prinsipləri........................**419**

**19.1.4.** Rəqabət hüququnun subyektləri....................................................**421**
**19.2.** İnhisarçılıq fəaliyyəti və haqsız rəqabət.......................................**422**
**19.2.1.** İnhisarçılıq fəaliyyəti...................................................................**422**
**19.2.2.** Haqsız rəqabət..............................................................................**425**
XIX FƏSİL ÜZRƏ ƏYANİ SXEM...................................................**428**

## *XX FƏSİL.*
## TİCARƏT HÜQUQU

**20.1.** Ticarət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi...............**429**
**20.1.1.** Ticarət hüququnun anlayışı və iqtisadi hüquq sistemində tut-duğu yer..........................................................................................**429**
**20.1.2.** Ticarət hüququnun nizamasalma predmeti və mənbələri.......**431**
**20.1.3.** Ticarət hüququnun özünəməxsus prinsipləri..........................**435**
**20.1.4.** Ticarət hüququnun subyektləri...............................................**437**
**20.2.** Ticarət fəaliyyətinin hüquqi tənzimlənməsi............................**439**
**20.2.1.** Ticarət fəaliyyətini hüquqi tənzimetmə mənbəyi..................**439**
**20.2.2.** Ticarət əqdləri.........................................................................**443**
XX FƏSİL ÜZRƏ ƏYANİ SXEM...................................................**447**

## *XXI FƏSİL.*
## ƏQLİ MÜLKİYYƏT HÜQUQU

**21.1.** Əqli mülkiyyət hüququ – iqtisadi hüququn yarımsahəsi kimi...**448**
**21.1.1.** Əqli mülkiyyət hüququnun anlayışı və nizamasalma pred-meti...............................................................................................**448**
**21.1.2.** Əqli mülkiyyət.........................................................................**451**
**21.2.** Əqli mülkiyyət hüququnun mənbələri, institutları və subyektləri......................................................................................**453**
**21.2.1.** Əqli mülkiyyət hüququnun mənbələri.....................................**453**
**21.2.2.** Əqli mülkiyyət hüququnun institutları....................................**456**
**21.2.3.** Əqli mülkiyyət hüququnun özünəməxsus prinsipləri.............**457**
**21.2.4.** Mülkiyyət hüququnun subyektləri..........................................**459**
**21.3.** Müəlliflik hüququ – əqli mülkiyyət hüququnun əsas institut-larından biri kimi...........................................................................**460**
**21.3.1.** Müəlliflik hüququ anlayışı......................................................**460**
**21.3.2.** Müəlliflik hüququnun obyektləri.............................................**462**
**21.3.3.** Müəlliflik hüququnun subyektləri...........................................**464**

**21.4.** Patent hüququ – əqli mülkiyyət hüququnun institutu kimi........**466**
**21.4.1.** Patent hüququnun anlayışı....................................................**466**
**21.4.2.** Patent hüququnun mənbələri, prinsipləri və subyektləri........**468**
**21.5.** Sənaye mülkiyyəti obyektləri və onların hüquqi qorunması.....**470**
**21.5.1.** Sənaye mülkiyyəti obyektlərinin anlayışı və onların növləri**470**
**21.5.2.** İxtira – patent hüququnun obyekti kimi.................................**471**
**21.5.3.** Faydalı model – patent hüququnun obyekti kimi....................**472**
**21.5.4.** Sənaye nümunəsi – patent hüququnun obyekti kimi..............**473**
**21.5.5.** Patent hüququnun rəsmiləşdirilməsi.......................................**474**
XXI FƏSİL ÜZRƏ ƏYANİ SXEM..................................................**476**

## *XXII FƏSİL.*
## VERGİ HÜQUQU

**22.1.** Vergi hüququ – iqtisadi hüququn yarımsahəsi kimi..................**477**
**22.1.1.** Vergi hüququ anlayışı..........................................................**477**
**22.1.2.** Vergi hüququnun nizamasalma predmeti, subyektləri, mənbələri və prinsipləri...............................................................**478**
**22.2.** Vergi hüququnun sistemi və hüquq məkanında onun mövqeyi.**485**
**22.2.1.** Vergi hüququnun sistemi.......................................................**485**
**22.2.2.** Hüquq sistemində vergi hüququnun tutduğu yer....................**487**
**22.3.** Ayrı-ayrı vergi növlərinin hüquqi tənzimlənməsi.....................**489**
**22.3.1.** Fiziki şəxslərin gəlir vergisi..................................................**489**
**22.3.2.** Hüquqi şəxslərin mənfəət vergisi..........................................**491**
**22.3.3.** Əlavə dəyər vergisi...............................................................**493**
**22.3.4.** Aksizlər (aksiz vergisi)..........................................................**495**
**22.3.5.** Hüquqi şəxslərin əmlak vergisi.............................................**497**
**22.3.6.** Hüquqi şəxslərin torpaq vergisi............................................**498**
**22.3.7.** Dövlət vergilərinin digər növləri...........................................**500**
**22.3.8.** Yerli vergilər.........................................................................**502**
XXII FƏSİL ÜZRƏ ƏYANİ SXEM.................................................**504**

## *XXIII FƏSİL.*
## GÖMRÜK HÜQUQU

**23.1.** Gömrük hüququna dair ümumi müddəalar.............................**505**
**23.1.1.** Gömrük hüququnun anlayışı və nizamasalma predmeti..........**505**
**23.1.2.** Gömrük hüququ – iqtisadi hüququn yarımsahəsi kimi...........**506**

**23.1.3.** Gömrük hüququnun sistemi....................................................**508**
**23.2.** Gömrük hüququnun mənbələri, prinsipləri və subyektləri........**509**
**23.2.1.** Gömrük hüququnun mənbələri..............................................**509**
**23.2.2.** Gömrük hüququnun özünəməxsus prinsipləri.........................**511**
**23.2.3.** Gömrük hüququnun subyektləri............................................**512**
**23.3.** Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin hüquqi tənzimlənməsi............................................**513**
**23.3.1.** Gömrük prosedurları............................................................**513**
**23.3.2.** Gömrük ödənişlərinin alınması............................................**516**
**23.3.3.** Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi.......................................................................................**521**
**23.3.4.** Gömrük nəzarəti..................................................................**524**
XXIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM................................................**529**

### *XXIV FƏSİL.*
### TURİZM HÜQUQU

**24.1.** Turizm hüququ – iqtisadi hüququn yarımsahələrindən biri kimi..........................................................................................**530**
**24.1.1.** Hüquq sistemində turizm hüququnun tutduğu yer..................**530**
**24.1.2.** Turizm hüququnun nizamasalma predmeti, mənbələri və özünəməxsus prinsipləri......................................................**532**
**24.2.** Turizm fəaliyyətinin hüquqi tənzimlənməsi.............................**537**
**24.2.1.** Turizm fəaliyyəti...................................................................**537**
**24.2.2.** Turizm fəaliyyətinin növləri..................................................**539**
XXIV FƏSİL ÜZRƏ ƏYANİ SXEM................................................**540**

### *XXV FƏSİL.*
### AQRAR HÜQUQ

**25.1.** Hüquq sistemində aqrar hüququn tutduğu yer...........................**541**
**25.1.1.** Aqrar hüquq anlayışı............................................................**541**
**2.5.1.2.** Aqrar hüququn nizamasalma predmeti və hüquqi məkanında mövqeyi......................................................................**542**
**25.2.** Aqrar hüququn mənbələri, prinsipləri və subyektləri...............**543**
**25.2.1.** Aqrar hüququn mənbələri.....................................................**543**
**25.2.2.** Aqrar hüququn özünəməxsus prinsipləri...............................**544**
**25.2.3.** Aqrar hüququn subyektləri....................................................**545**

**25.3.** Aqrar münasibətlərin hüquqi tənzimlənməsi............................**547**
**25.3.1.** Aqrar fəaliyyət.........................................................................**547**
**25.3.2.** Ailə kəndli təsərrüfatı və onun fəaliyyətinin hüquqi tənzimlənməsi...................................................................................**548**
XXV FƏSİL ÜZRƏ ƏYANİ SXEM.................................................**550**

## *XXVI FƏSİL.*
## ENERJİ HÜQUQU

**26.1.** Enerji hüququ – iqtisadi hüququn yarımsahəsi kimi.................**551**
**26.1.1.** Enerji hüququ anlayışı..........................................................**551**
**26.1.2.** Enerji hüququnun nizamasalma predmeti.............................**552**
**26.2.** Enerji hüququnun mənbələri, prinsipləri və subyektləri...........**553**
**26.2.1.** Enerji hüququnun mənbələri.................................................**553**
**26.2.2.** Enerji hüququnun özünəməxsus prinsipləri...........................**555**
**26.2.3.** Enerji hüququnun subyektləri...............................................**556**
**26.3.** Enerji münasibətlərinin hüquqi tənzimlənməsi.........................**557**
**26.3.1.** Energetika müqaviləsi...........................................................**557**
**263.2.** Enerji resurslarından istifadə....................................................**558**
XXVI FƏSİL ÜZRƏ ƏYANİ SXEM................................................**561**

## *XXVII FƏSİL.*
## KOMMERSİYA HÜQUQU

**27.1.** Kommersiya hüququ – iqtisadi hüququn yarımsahəsi kimi.......**562**
**27.1.1.** Kommersiya hüququ anlayışı................................................**562**
**27.1.2.** Hüquq sistemində kommersiya hüququnun tutduğu yer.........**563**
**27.2.** Kommersiya hüququnun mənbələri, prinsipləri və subyektləri**565**
**27.2.1.** Kommersiya hüququnun mənbələri.......................................**565**
**27.2.2.** Kommersiya hüququnun subyektləri.....................................**566**
**27.2.3.** Kommersiya hüququnun özünəməxsus prinsipləri.................**567**
**27.3.** Kommersiya fəaliyyətinin subyektləri və onların bağladıqları kommersiya müqavilələri.........................................................**568**
**27.3.1.** Hüquqi şəxslər – kommersiya fəaliyyətinin əsas subyekti kimi.......................................................................................**568**
**27.3.2.** Kommersiya müqavilələri......................................................**571**
XXVII FƏSİL ÜZRƏ ƏYANİ SXEM...............................................**573**

## *XXVIII FƏSİL.*
## RABİTƏ-İNFORMASİYA HÜQUQU

**28.1.** Rabitə-informasiya hüququ – iqtisadi hüququn yarımsahəsi kimi....................**574**
**28.1.1.** Rabitə-informasiya hüququ anlayışı....................**574**
**28.1.2.** Hüquq sistemində rabitə-informasiya hüququnun tutduğu yer**575**
**28.2.** Rabitə-informasiya hüququnun mənbələri, prinsipləri və subyektləri....................**576**
**28.2.1.** Rabitə-informasiya hüququnun mənbələri....................**576**
**28.2.2.** Rabitə-informasiya hüququnun özünəməxsus prinsipləri.......**577**
**28.2.3.** Rabitə-informasiya hüququnun subyektləri....................**578**
**28.3.** Rabitə-informasiya münasibətlərinin hüquqi tənzimlənməsi.....**579**
**28.3.1.** İnformasiya və onun növləri....................**579**
**28.3.2.** İnformasiyanın əldə edilmə qaydası....................**580**
XXVIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM....................**583**
İXTİSARLAR....................**584**
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT....................**586**

**İqtisadi hüquq. Dərslik / Məsul redaktor - E.Ə.Əliyev. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 səh.**

**Redaksiya qrupu:**

*Baş redaktor:*

**Qəmbərov Heydər Dəmir oğlu,**
hüquq üzrə fəlsəfə doktoru, dosent

*Böyük redaktor:*

**Hüseynova Fatimə Etibar qızı,**
hüquq üzrə fəlsəfə doktoru, dosent

*Texniki redaktor:*

**Pənalıyeva Zümrüd Turabxan qızı,**
«Nəqliyyat hüququ» elmi-nəzəri,
təcrübi jurnalın texniki redaktoru.

*Redaktorlar:*

**Hüseynov Məzahir Hazarxan oğlu,**
hüquqşünas, polis polkovnik-leytenantı;

**Ələsgərova Sara Qəməndər qızı,**
«Nəqliyyat hüququ» elmi-nəzəri,
təcrübi jurnalı Redaksiya Heyətinin üzvü,
operator.

"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsində
ofset üsulu ilə çap edilmişdir.
Formatı 84x108 1/16.
Şərti çap vərəqi 39. Tirajı 100.
Qiyməti razılaşma yolu ilə